**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**

**AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**

**Zəfər Gününə həsr olunmuş**

# "İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR" mövzusunda

Magistr və bakalavrların I Beynəlxalq Elmi-Praktik Konfransının

**MATERİALLARI**

10 noyabr 2022-ci il

**Bakı-2022**

**Elmi redaktor**: i.e.d.,prof.Vilayət İsmayılov

**Redaksiya heyəti:** dos. Zeynəddin Şabanov
dos. Nurəngiz Mikayılova
tex.ü.f.d**.,** dosent əvəzi Niyar Umarova
Lalə Cabbarlı

**Zəfər Gününə** həsr olunmuş **"İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR"** mövzusunda magistr və bakalavrların I Beynəlxalq Elmi-Praktik Konfransın materialları. Bakı, AƏSMA, 2022, 288 səh.

**Konfransın Təşkilat Komitəsi**

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

## KONFRANSDA İŞTİRAK EDƏN UNİVERSİTET VƏ TƏŞKİLATLAR

1. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
2. Manisa Celal Bayar Universiteti (Türkiyə)
3. Karamanoğlu Mehmetbey Universiteti (Türkiyə)
4. Dövlət İdarəçilik Akademiyası
5. Bakı Dövlət Universiteti
6. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
7. Azərbaycan Dillər Universiteti
8. Azərbaycan Dövlət Pedaqoji Universiteti
9. Dövlət Gömrük Komitəsinin Akademiyası
10. Azərbaycan Memarlıq və İnşaat Universiteti
11. Bakı Slavyan Universiteti
12. Azərbaycan Neft və Sənaye Universiteti
13. Naxçıvan Dövlət Universiteti
14. Sumqayıt Dövlət Universiteti
15. Azərbaycan Universiteti
16. Bakı Avrasiya Universiteti
17. Qərbi Kaspi Universiteti
18. Azərbaycan Kooperasiya Universiteti

## I BÖLMƏ
## İQTİSADİYYAT

**Avukat Necmi Enes AKKAŞ**
Sürdürülebilir sosyal kalkınmada insan ve sosyal sermaye........................................................10
**Uğur DEMİR**
İnsan sermayesi ve beyin göçü:Türkiye örneği.........................................................................15
**Sarızadə Gülnaz**
Azərbaycanda insan kapitalinin formalaşması: ölkələrarası müqayisəli təhlil............................19
**Məmmədov Pərviz**
Dünyada gənclər arasında işsizlik və onun səbəbləri.................................................................24
**Kərimova Nəzrin**
Məşğulluq anlayışı və əhalinin məşğulluq probleminin dəyərləndirilməsi.................................28
**Süleymanova Lalə**
İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər ...............................................................32
**Əmrahov Seymur**
Müasir şəraitdə müəssisədə maliyyə menecmenti sisteminin inkişafı yolları..........................................35
**Mirzəyeva Ayan**
İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər....................................................39
**Fətəliyeva Əminə**
İnsan kapitalının formalaşmasına təsir edən amillərin araşdırılması...........................................42
**İsmayılova Mənzər**
İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər....................................................46
**Kəngərli Nazir**
İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər....................................................50
**Balışova Ləman**
"İnsan kapitalı" termini və buna yanaşmalar..............................................................................54
**Əsgərova Nərgiz**
İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər....................................................57
**Nəsirova Naibə**
Dövlətin inkişafında insan kapitalının rolu.................................................................................61
**Mirzəliyeva Leyla**
İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər....................................................63
**İbrahimli Banu**
İnsan kapitali və onun cəmiyyətdə rolu......................................................................................68
**Cəfərov Rəvan**
İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər....................................................71
**Teymurzadə Aysun**
İnsan kapitalının formalaşması və ondan istifadə.......................................................................76
**Abdullayeva Mənsurə**
İnsan kapitalı və ona təsir edən amillər......................................................................................82
**Kazımova Nüşabə**
Liderin fəaliyyətinin işçilərin məhsuldarlığına təsirinin qiymətləndirilməsi.............................87
**Əliyev İlqar**
İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər....................................................91
**Quliyeva İlahə**
İnsan kapitalı fenomeninin yaradılması və gələcəkdə inkişafı...................................................94
**Məmmədova Sevinc**
İnsan kapitalı:problemlər, səmərəli istifadə, perspektivlər.......................................................98

## II BÖLMƏ
## MALİYYƏ


**Hüseynli Bəhruz**
Azərbaycanda insan kapitalının inkişafının mövcud vəziyyətinin makroiqtisadi təhlili və qiymətləndirilməsi......102
**Müslümov Əfqan**
Müasir şəraitdə vergi nəzarətinin səmərəliliyinin yüksəldilməsi yolları......106
**Cəfərov Fərid**
Bank fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi göstəriciləri......108
**Lətifova Elnurə**
Müəssisənin maliyyə sabitliyinin qiymətləndirilməsi meyarlarına dair mülahizələr......111
**Məmmədov Asif**
Qloballaşmanın beynəlxalq maliyyə bazarına təsiri......114
**Məmmədov Orxan**
Müəssisənin marketinq fəaliyyətini şərtləndirən amillər......118
**Ağazadə Ramal**
Azərbaycanda maliyyə bazarına nəzarətin təkmilləşdirilməsi istiqamətləri......121
**Mehdiyev Kərəm**
Azərbaycanda insan kapitalı və investisiya qoyuluşu......124
**Hüseynova Fatimə**
Sənaye sferasında iqtisadi şaxələndirmə mahiyyəti və xüsusiyyətləri......128
**Hacıyev Qədir**
İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin dünya təcrübəsi və onların Azərbaycanda tətbiqi imkanları......132
**Yusifli Zaur,**
**Qocayev Heydər**
Maliyyə dayanıqlığının müəyyən edilməsinin göstəricilər sisteminin təhlili......136
**Hüseynov Soltan**
Vergi islahatları və onun konseptual əsasları......143
**Abasov Cəlal**
Təchizat zəncirinin idarəedilməsində insan kapitalinin rolu və yeni yaranan tələblər......148
**Məmmədzadə Yusif**
Azərbaycan iqtisadiyyatının əsas makroiqtisadi göstəricilərinin təhlili......153
**Musazadə Ramin**
Vergi nəzarətinin zəruriliyi və dövlət idarəetməsində rolu......156
**Məmmədova Fatimə**
Azərbaycanın dünya bankı ilə əməkdaşlığı......159
**Tağıyeva Rəna**
Daxili auditin müəssisənin idarə edilməsində rolu......163

## III BÖLMƏ
## TURİZM

**Abdullayev Əlirza**
Bələdiyyə turizminin formalaşmasi xüsusiyyətləri.....................................................................167
**Kərimov Teymur**
Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm resurslarından səmərəli istifadənin təkmilləşdirilməsi istiqamətləri.....................................................................................................172
**İsalı Rüqəyya**
Azərbaycanın dağlıq ərazilərinin torpaq örtüyünün ekoloji diaqnostik təhlili............................175
**Tahirli Gülnar**
Azərbaycanın mədəniyyət paytaxtı “ŞUŞA”...............................................................................177
**Məmmədov Hikmət**
Şuşanın sosial-iqtisadi dirçəldilməsi -Azərbaycanın tərəqqisinin yeni zirvəsidir.........................................................................................................................................180
**Kərimli Fərhad**
Skandinaviya ölkələrində ekoturizmin müasir vəziyyəti.............................................................185
**Mammadova Narmin**
Quality control and metrological support.......................................................................................188
**Şahhüseynov Amal**
İsveçdə turizmin inkişafinda tarixi turizmin rolu..........................................................................192
**Keберлинский Имран**
Человеческий капитал как основа устойчивого развития экономики азербайджанской республики в туристической сфере………………………………………………….....…....196

## IV BÖLMƏ
## SOSİAL İŞ

**Behbudova Həmidə**
ABŞ-də uşaqların sosial müdafiəsi təcrübəsi...................................................................................200
**Mirişova Aytac**
Ailələrlə sosial işin təşkili formaları.................................................................................................203
**Şabanova Aydan**
Ahıl insanların qarşılaşdıqları problemlər və ahıl insanlara göstərilən sosial xidmətlər................205
**Bünyatova Ləman**
Məişət zorakılığının qarşısının alınması yolları..............................................................................208
**Musayeva Dinar**
Deviant davranışlı yeniyetmələrdə “mən” konsepsiyasinin əsas xüsusiyyətləri............................211
**Səlimov Natiq**
Anlaqsızlıq cinayət-hüquqi kateqoriya kimi....................................................................................215
**Quluzadə Tamara**
İnsan kapitalı və tarix.........................................................................................................................220
**Гулиева Нармин**
Изучение формирования человеческого капитала.......................................................................223

## V BÖLMƏ
## REGİONŞÜNASLIQ

**Mirbabalı Şəhla**
İnsan kapitalı inkişafının MŞA ölkələrinə təsiri........................................................................226
**İbrahimov Təbriz**
Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri................................................230
**Ağazadə Samir**
XXI əsrdə Azərbaycan-ABŞ əlaqələrinin əsas istiqamətləri.....................................................234
**Uzunalova Lamiyə.**
Fransada din və təhsil..............................................................................................................237
**Nəbiyeva Fidan**
Fransada gender siyasətinin tarixi və hüquqi tənzimlənməsi.....................................................239
**Hacızadə Sevinc**
Fransada dini müxtəliflik, dinlərarası və məzhəblərarası münasibətlər......................................242
**Mirzəzadə Kamran**
Çin və ABŞ arasında iqtisadi-siyasi rəqabətin xüsusiyyətləri....................................................245
**Cahangirli Aydan**
Kasıb ölkələrdə insan kapitalının formalaşmasındakı çətinliklər................................................248
**Məmmədova Rahilə**
2001-ci il terror hadisəsindən sonra ABŞ-də müsəlmanlara münasibət.....................................251

## VI BÖLMƏ
## TƏHSİL İQTİSADİYYATI

**İsrafilli Lamiyə**
Kimya və biologiya müəllimlərinin insan kapitalı kimi formalaşmasına təsir edən amillər.........254
**Bayramova Cananə**
İngilis dili müəllimliyi ixtisasında hazırlaşan tələbələrdə əmək bazarının tələbinə uyğun peşə səriştəliyinin formalaşması...........................................................................................................257
**Hüseynova Rəqsanə**
Təhsil prosesində insan kapitalının inkişafına aid araşdırmalar.................................................261
**İsmayılova Aygün**
Təhsilin "İnsan kapitalı"nın formalaşmasına təsiri....................................................................265
**Məhərrəmova Aidə**
Pandemiya şəraitində təhsilin təşkili..........................................................................................269
**Osmanova Nübar**
İnsan kapitalı – parlaq gələcəyin təminatıdır.............................................................................272
**Babazadə Jalə**
Heydər Əliyev dövründə təhsil sistemi......................................................................................276

## VII BÖLMƏ
## İNFORMATİKA

**Cəfərova Rəhimə**
İdarəetmədə, texnologiya və elektron xidmətlərin rolu...............................................................279
**Tahirli Tural**
Axtarış motoru optimizasiyası – seo..........................................................................................281
**Mirzəyeva Ayşən**
Кр1533ид14 mikrosxeminin галсен stendində və proteus proqrami vasitəsilə virtual tədqiqi.....285

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tədris və elmi işlər üzrə prorektoru, professor Fərhad Möhbalıyevin açılış nitqi**

**Hörmətli konfrans iştirakçıları!**

Sizləri hörmətli rektorumuz Hüseyn Qaraşovun adından salamlayıram. Eyni zamanda Zəfər Gününə həsr olunmuş "İnsan kapitalı, problemlər, səmərəli istifadə və perspektivlər" mövzusunda keçirilən I Beynəlxalq tələbə elmi-praktik konfransa qardaş Türkiyənin Karaman oğlu Universitetindən sayın Xocamız Necmi Enesə, Uğur Demirə və Türkiyə, Manisa Celal Bayar Universitetindən, Elm Və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu, xüsusi tədqiqatlar üzrə baş direktorun müavini i.ü.f.d.,dos Allahyar Muradova, insan mühəndisliyi, karyera psixoloqu Orxan Məmmədova və müharibə iştirakçısı İmran Rəcəbova konfransa qatıldıqları üçün səmimi qəlbdən Akademiyamızın professor-müəllim heyəti və tələbə-kollektivi adından təşəkkür edirik.

Konfrans aşağıdakı 7 bölmə üzrə keçiriləcəkdir.

1. Bölmə: İqtisadiyyat və idarəetmə
2. Bölmə: Maliyyə
3. Bölmə: Təhsil iqtisadiyyatı
4. Bölmə: Regionşünaslıq
5. Bölmə: Turizm
6. Bölmə: Sosial iş
7. Bölmə: İnformatika

Konfransa Respublikamızın müxtəlif təhsil müəssisələrindən tədqiqatçı bakalavr və magistrantlar qatılmışlar. Konfransın mövzusu insan kapitalına, onun problemlərinə, onlardan səmərəli istifadə olunmasına və onların inkişaf perspektivlərinə həsr olunduğuna görə böyük maraq doğurur.

"İnsan kapitalı" anlayışı 20-ci əsrin ortalarında elmi dövriyyəyə gətirilib və daha çox iqtisadi kateqoriya kimi işlədilməyə başladılmışdır.Bu nəzəriyyənin yaradıcıları Amerika iqtisadiyyat sahəsində nobel mükafatı almış Teodar Şults və Harri Bekker sayılır.

Təcrübə göstərir ki, insan amilinə diqqət yetirən planlaşdırma və idarəetməni həyata keçirən təşkilatlar daha uğurla fəaliyyət göstərərək daha çox qazanc əldə edirlər, bu həm dövlətin həm də cəmiyyətin strateji maraqlarına uyğun gəlir. İnsan kapitalının formalaşmasında və onun inkişafında elmi yanaşmanın rolu böyük əhəmiyyət kəsb edir. Bu dövlətin sosial siyasətinin təməl prinsiplərindən birini təşkil edir.

Hazırda respublikamızda və bütün dünyada müasir iqtisadiyyatın ən mühüm sosial-mədəni amilinə çevrilən insan kapitalının formalaşmasına və inkişafına xüsusi diqqət göstərilir. Ölkəmizdə keçirilən sosial-iqtisadi islahatlar hər bir vətəndaşımızın rifahının yüksəlməsinə yönəldilmişdir. Hörmətli Prezidentimiz İlham Əliyevin vurğuladığı kimi, insan amili ölkə vətəndaşlarının sosial-iqtisadi rifahının yaxşılaşdırılması, ölkəmizin inkişaf etmiş dövlətlər sırasına daxil olması həyata keçirilən çox şaxəli islahatların başlıca həhəfidir.

Ölkə prezidenti Cənab İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan hökumətinin apardığı siyasətin başlıca məqsədi- "qara qızılı" insan kapitalına çevirməkdən ibarətdir. İnsan kapitalı istehsal prosesinin əsas hərəkətverici amilidir. İctimai təkrar istehsal prosesi isə kapitalın özünün təkrar istehsalıdır. Bu cəhətlər klassik məktəbin nümayəndələrinin daima diqqətini cəlb etmişdir.
İnsanın inkişafı 3 məqsədə xidmət edir. Birincisi uzun və sağlam ömür sürmək, ikincisi biliklər əldə edib onları yeniləşdirmək və genişləndirmək, üçüncüsü yüksək həyat səviyyəsini təmin edən maddi nemətlər əldə etmək aiddir. Bu məqsədlər yalnız ÜDM, milli sərvət adambaşına düşən milli gəlir və sairə göstəricilər kifayət etmir. XX əsrin son illərində bu problem məsələnin həlli ilə bağlı aparılan iqtisadi-elmi araşdırmalar göstərir ki, insan inkişafı getdikcə yalnız iqtisadi göstəricilər ilə deyil, həm də insanların cəmiyyətin inkişafında onların rolundan, söz və vicdan azadlığından, siyasi fəaliyyətdə rolundan, dövlətin idarə olunmasında fəaliyyətindən, qanun qarşısında bərabərliyindən yaşına, cinsinə və milli mənsubiyyətinə görə diskriminasiya müdafiəsindən asılı olmağa başlamışdır. 1990-cı ildə keçirilən BMT-nin sammitində ölkələr arasında insan inkişafı səviyyəsini qiymətləndirmək üçün "insan potensialının inkişafı indeksi" adlanan yeni anlayış qəbul edildi. Bu

anlayışa görə insan inkişafında təkcə gəlirlər deyil, onların sağlamlığı təhsilin səviyyəsi və ətraf mühitin qorunması və sair şərtlərdə nəzərə alınmışdır və həmin ildən bu quruma daxil olan ölkələrə "insan inkişafına dair hesabatların hazırlanması təklif olunmuşdur.Bu indeks bütövlükdə "insan potensialının inkişafı indeksi" adlanır və bütün dünya ölkələri üzrə hesablanır. Bu da dünya ölkələrinin sosial-iqtisadi göstəricilərini müqayisə etməyə imkan verir. İnsan potensialının inkişafı dörd vacib paradikmaya-uzun və sağlam həyata, biliyə, layiqli həyat üçün həyat üçün tələb olunan resurslara malik olmağa və cəmiyyətin həyatında iştiraka diqqət ayırır.

Azərbaycanda insan kapitalının tarixi inkişafı baxımından araşdırdıqda görürük ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın davamlı inkişafının yeganə yolunun məhz yüksək təhsildə və xalqın maariflәndirilməsində görmüş və respublikada fundamental və humanitar elmlərin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərə göstərilən həssas münasibət müstəqillik dövründə də Ulu Öndərin fəaliyyətinin əsas istiqamətinin qayəsini təşkil etmişdir. Heydər Əliyevin siyasi kursunu davam etdirən ölkə başçısı prezident İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər təkcə sosial-iqtisadi inkişafa deyil, həm də elmi-intellektual tərəqqiyə, elm və təhsil islahatlarının həyata keçirilməsinə insan kapitalının möhkəmləndirilməsinə, elm tutumlu texnologiyaların inkişafına yönəlmişdir.

# SÜRDÜRÜLEBİLİR SOSYAL KALKINMADA İNSAN VE SOSYAL SERMAYE


***Karamanoğlu Mehmetbey Üniversitesi***
***Avukat Necmi Enes AKKAŞ***
***Yüksek Lisans Öğrencisi***
***Danışman: prof. dr. Ali AYATA***


## Giriş

Modern yaşamın olumsuz etkileri, sosyal sermaye kavramını toplumların gündemine getirmiştir. Küreselleşmenin yaygınlaşması ve özellikle iletişim teknolojisinde yaşanan gelişmeler insanları birbirlerine daha çok yaklaştırmış olsa da insanlar, değerlerinden koparak topluma yabancılaşmıştır. İnsanların günümüzde maruz kaldıkları yalnızlaşma, dışlanma ve sorumluluktan kaçınma gibi sosyal yaşamı olumsuz etkileyen tutum ve davranışların artması, insan ve sosyal sermayenin önemini artırmıştır.

Günümüz dünyasını tehdit eden yoksulluk, yolsuzluk, terör ve çatışma gibi sorunların küreselleşmesi, bireylerden devletlere insanlığın küresel düzeyde işbirliği yapmalarını kaçınılmaz hale getirmiştir. Sosyal sermaye kavramı bireyden topluma ve devlete ağ bağ ilişkilerini, sosyal düzeni sağlayan normları ve güvene dayalı karşılıklı iletişimin önemini vurgulamaktadır. Günümüz dünyasında insanlar, değerleri tüketerek yaşadığından diğer insanlardan kaçmak ve kendilerinin kurdukları dijital dünyada yaşamaktadırlar. 2500 yıl önce Platon'un mağara alegorisinde anlattığı insan toplumu günümüzde insanlar tarafından arzu edilerek kendi kurdukları dijital mağaraya kendi iradeleriyle hapsolmaktadırlar.

Platon'un mağarasında zincirlenmiş halde yaşayan insanlar dışarıdan yansıyan ışığı keserek hareket eden insanların gölgelerini gerçek olarak bilmektedir. Mağarada yaşayanlar hallerinden memnun olduklarından değişmek istemezler. Ancak içlerinden biri ışığa doğru gitmeye karar verir ve dışarı çıktığında bakar ki gerçek ışıktadır. Mağarada yaşayanlar ise yansımayı gerçek olarak yaşamaktadırlar. Mağaraya döner ve arkadaşlarına yaşadıklarını anlatır. Ancak hallerinden memnun olanlar değişimi kabul etmek istemezler (Kılıç, 2016:579-585).

Günümüz insanı ise yaşadığı gerçekler ile yüzleşmekten kaçınmakta hatta kendisini, ailesinden ve yaşadığı toplumdan uzaklaştırarak kendi kurduğu dijital hapishanesinde yaşamaktadır. Özellikle gençler arasında yaygın olan sosyal medya kullanımı, gençlerin kendi iradeleriyle kendilerini hapishane yaşamına itmekte, gerçek hayattan koparak toplumun ürettiği değerleri tüketmektedir. Bilgi ve yetenek ile toplumun kültürü ve değerleri arasında ilişki ve bağ kuramayan bireyler sahibi olduğu sermayenin de farkında değildir. Böylece hedefi olmayan ve ömrünü boşa geçiren bir gençlik ortaya çıkmaktadır. Toplumların kalkınmasında en önemli unsur genç nüfustur. Ancak günümüz dünyasında genç nüfus, kendini dijital mağaraya hapsederek toplumun kayıp halkasını oluşturmaktadır. Gençliğe önem vermeyen toplumların insan sermayesi yetersiz ve toplumsal kalkınması yavaştır.


***Anahtar Kelime:*** *İnsan Sermayesi, Sosyal Sermaye, Toplumsal Kalkınma, Dijital Mağara, Güven*.


## Sermayenin Sosyalleşmesi

1970'li yıllarda Friedman'ın temsil ettiği neo-liberal ekonomi anlayışı, 1990'lı yıllarda yeni iktisat yaklaşımı ile birlikte değişti. Bu değişimde ekonomik açıklamaların sosyal etkileri de vurgulanmış böylece piyasanın kusurları giderilmeye çalışılmıştır. Toplumdaki ekonomik faaliyetlerin antirasyonel özellikleri vurgulanarak; sosyal, politik ve kültürel süreçlerde gömülü olduğu, bireyin tercihlerinin de toplumun değerlerinden ve kurumlarından etkilendiğidir *(Baş Dinar, 2015:30 ve 37-38).* Esasen iktisat literatüründe yer alan sermaye kavramının sosyoloji ile evliliği bu süreçteki tartışmalardan beslenmiştir.

1970'lerden sonra tüm dünyada yaygınlaşan neo-liberal ekonomi politikaları ve Washington Konsensüsü, bireyi ve piyasa ekonomisini en çoğa devleti ise en aza indirmeyi amaçladı. 1990'ların ikinci yarısından sonra iktisatçı Stiglitz tarafından hazırlanan post-Washington bildirisinde, serbest piyasanın kusurlarının, ekonomi dışı alanları içselleştirilmek suretiyle giderilebileceğini söyledi. Hatta gerektiğinde de devlete, serbest piyasaya müdahale etme hakkı verdi. Sosyal sermaye bu çerçevede neo-liberal politikaların krizlerini gidermede önemli bir söylem ve kavram haline geldi

*(Akkaş ve Tekir, 2013:56-57).* Kısaca sermaye kavramına sosyal sıfatı eklenerek sermaye, sosyolojik açıdan meşruiyet kazanmış oldu.

Günümüz dünyasında insanlığın yaşadığı yalnızlaşma, yabancılaşma, yoksulluk, yolsuzluk, bencillik, güvensizlik, işbirliğinden kaçınma, ötekileşme, birlikte hareket edememe, adaletsiz gelir dağılımı, demokratikleşememe gibi insanlığı etkileyen sorunlar bireylerin sosyal yaşamlarını ve toplumların ekonomik büyümelerini olumsuz etkilemekte, sosyal sermayenin bu sorunları çözmede önemli katkısının olacağı dile getirilmektedir.

Sosyal sermaye Dünya Bankası ve Birleşmiş Milletler gibi uluslararası kuruluşlarca da desteklenerek, ülkelerin kalkınma projelerinde ve demokratik yönetimlerin sürdürülmesinde iyi yönetişim modeli olarak teşvik edildi. Burada iyi yönetişim modelinin dayanağını oluşturan sosyal sermaye yoluyla aile, okul, sivil topluluklar, bölgesel ve küresel düzeyde işbirlikleri teşvik edilmekte, piyasa ekonomisinin kusurlarını gidermede devlet, bireyi ve toplumsal kesimleri yetkilendirerek yönetime katılmalarını desteklemekte ve bireyden devlete sistemin demokratikleşmesi sağlanmaktadır *(Couto ve Guthrie, 1999:51-55).* Birleşmiş Milletler toplumların; yoksulluğu önlemede, kalkınmayı gerçekleştirmede ve demokrasiyi sürdürmede sosyal sermayenin etik bir değer olduğunu tanımlaması önemlidir.

**Sermayenin İnsani ve Sosyal Boyutunun Toplumsal Kalkınmaya Etkisi**

Literatüre 1916 yılında ilk defa Hanifan tarafından dile getirilen sosyal sermaye kavramı günümüzde Bourdieu, Coleman ve Putnam gibi temsilciler ile yeniden popülerlik kazanmıştır. Sosyal sermaye; ekonomiden sosyolojiye, siyaset biliminden antropolojiye, hukuktan psikolojiye disiplinler arası bir kavramdır[1]. Toplumdaki gönüllülüğe dayalı ilişkiler birey ve toplumun sosyal sermaye birikimini oluşturmaktadır. Bu ilişkilerin niteliğini kişilerin birbirlerine olan güveni, topluma güveni, devlet ve kurumlara güveni oluşturmaktadır. Karşılıklı işbirliği ve dayanışma güveni oluşturan unsurlardır. Toplumun güven düzeyini ise o toplumun tarih bilinci ve toplumsal tecrübesi oluşturmaktadır. Her toplumun güven düzeyi ve dolayısıyla sosyal sermayesi de birbirinden farklıdır. Güven ve sosyal sermaye toplumsal bilinci oluşturmakta ve kişilerde; aidiyet duygusu, paylaşma, katılma, empati kurma ve sorumluluk alma gibi düşünceleri ve davranışları geliştirmektedir *(Fukuyama, 2005:21-24 ve 42-44).* Sosyal sermaye stoğundan beslenen bireylerin sosyal sermayesi aynı zamanda toplumsal kalkınmanın da temel unsurunu oluşturmaktadır.

Sosyal sermaye, sosyal ağlar ve topluluğun üretkenliğini sağlayan normlardan oluşur. Burada bireyler eşgüdüm ve işbirliği yaparak ekonomik kalkınmaya katkıda bulunmakta ve karşılıklı menfaat temin etmektedirler. Sosyal sermaye, sosyal yapının bir parçası olup sosyal yapı içinde aktörlerin eylemlerini kolaylaştırır. Sosyal sermaye yatay, dikey ve özel sektör gibi diğer tüm varlıkları içeren bir örgütlenme biçimidir. Her birey bağlı olduğu toplumdaki ilişkilerine göre negatif ve pozitif sosyal sermayeye sahip olmaktadır. Sosyal sermaye kişilerin toplum içinde belli statüleri elde etmede veya statülerini korumada kullandıkları ve harekete geçirdikleri kaynaklar toplamıdır *(Putnam, 2000:23-25).* Ayrıca sosyal sermaye, sosyal yapıyı biçimlendiren ve geliştiren sosyal ve siyasal çevreyi içermektedir. Gayri resmi ilişkilerin yanında resmi kurumsal ilişkileri ve yapıları da kapsayan sosyal sermaye; hükümet, siyasi rejim, hukuka dayalı yönetim, anayasal sistem, sivil ve siyasi haklar gibi günümüz demokrasilerine de katkı yapan önemli bir kavramdır.

İnsan sermayesi ile kişinin; kapasitesi, kabiliyeti, uzmanlığı ve kendisini geliştirmesi anlatılmaktadır. İnsan sermayesi, topluma ekonomik ve sosyal değer katmaktadır. Sosyal sermaye ise insanların sosyal ilişkilerini ve bu ilişkilerin yönünü ve niteliğini açıklamaktadır. Beşeri sermaye artışı, bireysel açıdan daha iyi yaşamı, topluma değer üretmeyi ve düzen bakımından topluma norm kazandırmaktadır. Bireylerin sosyal sermaye stoğu arttığında güven temelinde toplumsal ağ-bağ ve köprü-bağ ilişkileri de gelişmektedir *(Tunçer, 2016:36-39).* Örneğin insan olmak terimi beşeri sermaye ile değil sosyal sermaye ile açıklanabilir. Sosyal sermayesi güçlü olan toplumların

---

[1]İnsan ve sosyal sermayeyi ekonomiksosyoloji açısından değerlendiren post Marksist Bourdie (Bourdieu, 2010:49-74), ekonominin rasyonel tercih kuramının sosyal yapı içinde gömülü olduğunu belirten sosyolog Coleman (Coleman, 75-78 ve 95-99) ve bireylerin sermaye açığı nedeniyle sivil toplumda etkin olamadığını, katılım süreçlerine ilgisinin zayıf olması nedeniyle de toplumsal kalkınmanın ve demokratik kurumların ağır aksak işlediğini söyleyen siyaset bilimci Putnam (Putnam, 1993:177-180), insan ve sosyal sermayeye kavramına önemli katkılarda bulunmuşlardır.

demokrasilerinin de gelişmiş olacağı her zaman doğru olmayabilir. Örneğin sosyal sermayesi güçlü olan bazı gruplar, dış güçlerin (özellikle gelişmiş ülkeler) yönlendirmeleri ile hukuk dışı faaliyetlerde bulunarak ülkelerine zarar da vermektedirler. Günümüz dünyasında ülkelerin yaşadığı iç karışıklıklar ya da ülkelerinde yaşanan vekalet savaşları sosyal sermayesi güçlü olan terör örgütleri tarafından yapılmaktadır.

Günümüzde demokrasilerinde yaşanan sorunlar toplumların sosyal sermaye eksikliğinden kaynaklanmaktadır. Gelir dağılımında yaşanan adaletsizlik toplumsal kalkınmayı olumsuz etkilemekte demokratik sistemin işleyişindeki sorunlar toplumsal sermaye açığına yol açmaktadır. Demokrasisi zayıf olan toplumlarda ilişkiler emredici ve yasaklayıcıdır. Bu tür toplumlarda sosyal ve siyasal sermaye otoriter uygulamaları meşrulaştırmak için kullanılmaktadır. Demokratik sistem biçimsel olmakta ve anti-demokratik unsurlar, sistemi demokrasiden uzaklaştırmaktadır. Liyakat yerine kayırmacılığın önemli olduğu sosyal ve politik sistemde insan sermayesi, insanların birbirine güvenmediği ilişkilerden oluşmaktadır *(Neller, 2008:114-117 ve Iglic, 2003:10-12).* Genel olarak değerlendirildiğinde güven ve sosyal sermayenin var olduğu toplumlarda ekonomik açıdan gelişme, psikolojik açıdan iletişim kurabilen bireyler, yönetsel ve siyasi açıdan ise örgütlenme, katılım ve yönetişim gibi unsurlar yaygınlaşmaktadır.

**Sonuç Yerine**

Güven, bireylerin birbirleriyle ilişkilerinden siyasal sisteme değer üretmekte ve kurumsallaşmaya katkı sağlamaktadır. Güven, aynı zamanda topluma ve bireye iç huzur sağlamaktadır. İnsani ilişkiler, etkileşimler, kurumlar, kanunlar ve uygulamalar işbirliğine ve güvene dayalı olarak kurulduğunda toplum ve devlet arası bağ güçlenmektedir. Türk tarihinin en önemli simalarından Bilge Kağan, Göktürk Kitabesinde "üstte mavi gök çökmedikçe, alta yağız yer delinmedikçe, senin ilini ve töreni kim bozabilir" diyerek esasen güvene dayalı ilişkileri kuran toplumların güçlü olduğunu bize hatırlatmaktadır.

Bireyler arası ilişkilerden topluma ve devlete güvene dayalı ilişkiler kurulamadığında siyasal, ekonomik ve toplumsal ilişkilerde endişeler artmakta ve istisnai kararlar ve uygulamalar, istikrarı bozmaktadır. Devlet ve toplum arası ilişkiler, toplumsal ve siyasal mühendislik üzerinden sürdürülmektedir. Bir diğer ifadeyle güvensizlik, iletişimi zayıflatarak bireyden topluma ve devlete ilişkiler zayıflamaktadır. Toplum ile devlet ve kurumları arasında ortaya çıkacak güvensizlik, insan ve sosyal sermayeyi olumsuz etkilemekte, toplum ile devlet arasındaki ahenk bozulmaktadır. Sevilmesen de takdir edilmelisin ilkesi, kişisel ve toplumsal yaşamın temeli olmalıdır. Çünkü güvene dayalı karşılıklı ilişkilerin kurulması, kişilerin birbirlerini ötekileştirmesini engellemekte ve empati yapmayı güçlendirmektedir. İnsanlık tarihi değerlendirildiğinde insan sermayesini güçlendiren ve sosyal sermayeyi besleyen en önemli unsur ise insan; ne ekerse onu biçeceğidir.
Toplumun sisteme güveni olsa da yaşanılan sorunların kaynağı olarak ekonomik ve siyasi kurumların gösterilmesi, kişilerde ve toplumda sisteme, kurumlara ve değerlere olan inancı zayıflatmaktadır. Ayrıca siyaset dışı kurumların (ordu, yargı, sivil toplum gibi oligarşik yapılar) kendilerini siyaset üstü görerek siyaset üzerinde baskı yapmaları ve meşruiyetlerini, toplumsal kesimleri ötekileştirmek suretiyle gerçekleştirmeleri, insan sermayesini olumsuz etkilemekte ve güvene dayalı ilişkiler kurulamamaktadır. Bunun sonucunda kurumlar, değerler ve insanlar arası bağ zayıflamakta ve bireyler toplumdan yabancılaşmış hissetmektedirler. İnsan sermayesi zayıf olan toplumların kalkınması ve gelecek nesillere kaynak aktarması oldukça zordur.

Devletin kurumlarında ve işleyişinde demokratik değerler (liyakat, yasaya dayalı yönetim, hesap verme gibi ilkeler) yerini oligarşik değerlere (kendi adamını seçme, kanuna uymama ve kapalı olma gibi ilkeler) bıraktığında, sosyal sermaye yöneticilerin parsellenmiş alanlarına dönüşmekte ve insan sermayesi ise yöneticilerin kısır çekişmelerine ve çıkarlarına alet olmaktadır. Burada devlet, sosyal sermayeyi dikey olarak yaratmakta, kalkınma ve demokratikleşme gibi süreçler, toplum ile devlet gerilimi üzerinden sürdürülmektedir. İnsan sermayesi ise senin benim adamıma dönüşerek, ülkenin kalkınmasında en önemli güç olan genç sermayede beyin göçü yaşanmaktadır. Ülkesinin geleceği konusunda ümitsiz olan gençler ya kendi kurdukları dijital dünyalarına kendilerini hapsetmekte ya da geleceklerini düşünerek ülkesini terk etmektedirler.

Devlet ile toplum arasında örtülü veya açık oluşturulan karşılıklı güvensizlik insan sermayesi stoğunu tükettiği gibi gelecek nesle emanet edilecek sosyal sermaye de kalmamaktadır. Bir ülkenin ve toplumun, dünyanın gelişmiş ve çağdaş ülke seviyesine çıkmasında en önemli unsur insan sermayesine verilen değer ile yasaya ve güvene dayalı kurumsal ilişkilerin oluşturulmasıdır. Aksi halde sosyal sermaye bakiyesi zayıf olan toplumların kalkınması kör topal biçimde sürdürülmektedir. İnsan sermayesine önem vermeyen toplumlar meyvesi olmayan ve kurumayı bekleyen ağaç gibidir. Beyin göçü yoluyla genç nüfus azaldığından, toplumu birbirine bağlayan zincirler de zayıflamaktadır.

Toplumda insan ve sosyal sermayeyi canlı tutan unsurlardan biri de sivil toplumdur. Toplumun kalkınmasında ve demokratikleşmesinde toplumsal grupların çabaları sivil toplumu oluşturmaktadır. Bir toplumda sivil toplumun yaygınlaşması insan sermayesini canlı tutmakta, değerler üretilmekte ve kurumlar, toplumsal gelişmenin yolunu açmaktadır. Özellikle devlet ile toplum arası ilişkileri kuran üniversiteler, ticari örgütler, hayır kurumları, vakıfların ve derneklerin yaygınlaşması ülkenin kalkınmasında ve demokrasinin güçlenmesinde önemlidir.

Toplumun kalkınmasın da ve ülkenin gelişmesinde sosyal sermaye, toplumun hafızasıdır. Toplumsal hafızayı kültür, değerler ve hukuk oluşturur. Değerleri de insan sermayesi üretir. Demokratik değerleri geliştirmeye ve güçlendirmeye çaba gösteren kurumlar insanların topluma ve devlete olan karşılıklı güvenini artırır. Örneğin toplumun da takdir ettiği bir anayasa, toplumun devletine olan güvenini artırdığı gibi devlet ve toplum arasındaki bağı da kuvvetlendirmektedir. Kısaca toplumun sosyal sermayesi arttıkça, toplumun kalkınmasına ve demokrasinin güçlenmesine katkı yapacak insan sermayesi de artmaktadır. Burada özellikle siyaset ve bürokrasinin insan sermayesinin artmasını sağlayacak girişimlerde bulunmalıdır. Bunun içinde toplumun geleceğini temsil edecek gençlerin geleceklerine umutla baktıkları değerler ve kurumlar olmalıdır. Sosyal sermayeyi artıracak karşılıklı güvene dayalı ilişkiler kurulmalıdır. Toplumda insan sermayesinin artması, toplumsal sermayeyi güçlendirerek toplumu kalkındıracaktır.

Geleceğe emanet edeceğimiz bir dünyayı elbirliğiyle kurmak ve yoksulu olmayan bir dünyayı yeniden kurabilmek için insanlık, ortak bir vicdana sahip olmalıdır. Bunu gerçekleştirmek için insanın yeteneği ve kapasitesi artırılmalıdır. İnsanlara balık vermek yerine balık tutma öğretilmelidir. Toplumun insan ve sosyal sermayesinin gelişmesinde bireyden topluma ve devlete dayanışma bağları kuvvetli olmalıdır. Dayanışma kişilerin birbirlerine körü körüne bağlanması değil birbirlerinin farklılıklarını anlayarak birbirlerine katkı sağlamasıdır. Dayanışma içinde olan kişilerin çeşitlilikleri ve farlılıkları zenginlik olarak kabul edilmelidir. Türk medeniyeti İslam'ın da etkisiyle dayanışma ve paylaşma medeniyetidir. Kaldı ki Türk kültüründe; yaratılan, Yaratan'dan dolayı sevilir. Bilge Kağan kitabede "Ey Türk milleti aç iken tokluğu düşünmedin, tok iken de açlığı aklına getirmedin. İçine fesat bulaştırdın başını alıp gittin ve gittiğin yerde de bitip tükendin" demekte ve "Türk milletinin birlik halinde olduğunda dirliklerinin de düzenlerinin de güçleneceğini" belirtmektedir. Azerbaycan devletinin kurucusu Haydar Aliyev'in "bir millet iki devlet" sözü Türklerin geçmişinden devraldığı mirasın, geleceğin Türk dünyasının oluşmasında mihenk taşı olduğunun önemli bir göstergesidir.

Günümüz dünyasının sorunlarına 21. yüzyıl Türk dünyasının gençleri çözüm getirebilir. İnsanlığın tarihi süreci okunduğunda dünyada kurulan medeniyetler içinde Türk medeniyetinin barışçıl olduğu görülür. Türklerin bu özelliği Türk tarihi açısından da önemlidir. Gök Türk kitabelerinde yer alan yer ile gök arasında yaratılan insan kaderinin insanlığa hizmet etmek olduğu anlayış Türk medeniyetinin karakterini oluşturmaktadır. Sosyal sermayeyi oluşturan empati, dayanışma, güven ve karşılıklı ilişki ve işbirliği gibi unsurlar ile insan sermayesini oluşturan bilgi, yetenek ve beceriler tozlanan Türk dünyasının gençliğinde vardır. Karşılıklı sosyal borçlanma insanlara, yaşamlarıyla ilgili fedakarlıkta bulunmaya yönlendirirken aynı zamanda karşılıklı sosyal sermaye birikimine yol açmakta ve bireyden topluma herkes ödül almaktadır. Unutulmamalıdır ki sosyal sermaye stoğuna sahip olan bireyler ve toplumlar; sorunları çözmede, çağını anlamada, medeniyete katkıda bulunmada ve geleceğin dünyası olmada umut saçan ışıktırlar.

21. yüzyıl Türk medeniyetinin kaderini belirleyecek ve gelecek neslin de emanetçisi olan Türk dünyasının gençliği, teknolojinin esaretinden kurtulmalı, kendini hapsettiği dijital mağaradan

çıkarak yaşamın gerçekleri ile yüzleşmeli ve insanlığın sorunlarına çare aramalıdır. Toplumun hafızasında saklı olan insan sermayesi, alacaklı hesabı olarak toplumda var olduğu sürece geleceğe de aktarılacak toplumsal kalkınma gerçekleşecektir. Atalarından aldığı sosyal sermayeyi, yaşayan insan sermayesinin gerçekleştireceği katkılarla geleceğin Türk dünyasının alacaklı hesabına aktarılarak 21. Yüzyıl, insanlığında güven duyduğu bir Türk yüzyılı olacaktır. 21. yüzyıl dünyasında insan sermayesi olarak Türkler, dünya medeniyetini temsil etmek istiyorsa başta kendi aralarındaki işbirliğini artırarak güçlü bağlar kurmalıdır.

## Kaynakça


Akkaş, H. Hüseyin ve Tekir, Osman (2013). Demokrasinin Gelişmesi ve Sürdürebilirlikte Sosyal Sermaye, Kadim Yayınları, Ankara.

Baş Dinar (2015). "İktisadi Sosyolojiden Yeni İktisat Sosyolojisine: İktisat ve Sosyoloji İlişkisinin Değişen Yüzü", Sosyoekonomi, Cilt.23 (26), 25-44.

Bourdieu, Pierre (2010). "Sermaye Biçimleri", Terc. Mehmet M. Şahin, **Sosyal Sermaye Kuram, Uygulama, Eleştiri**. Der. Mehmet Murat Şahin ve Ahmet Zeki Ünal, Değişim Yayınları İstanbul.

Coleman, S. James (2010). "Beşeri Sermayenin Yaratımında Sosyal Sermaye", Terc. Figen Uzar, **Sosyal Sermaye Kuram, Uygulama, Eleştiri**. Der. Mehmet Murat Şahin ve Ahmet Zeki Ünal, Değişim Yayınları İstanbul.

Couto, A.Richard ve Guthrie, S.Catherine (1999). Making Democracy Work Better, The University Of North Carolina Press, North Carolina.

Fukuyama, Francis (2005). Güven Sosyal Erdemler ve Refahın Yaratılması, Terc. Ahmet Buğdaycı, Türkiye İş Bankası yayınları, İstanbul.

Iglic, Hajdeja (2003). "Trust Networks And Democratic Transition**", Social Capital And The Transition To Democracy**, Edit. Gabriel Bodescu ve Eric. M. Uslaner, Routledge, London.

Kılıç, Cevdet (2016). "Platon'un Metafizik Terminolojisi ve Mağara Alegorisinin Mistik Temelleri", Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt.7, Sayı.33, s.570-587.

Neller, Katja (2008). Explaining Social Trust: What Makes People Trust Their Fellow Citizens, Edit.Meulemann, Heiner, BRILL, Cilt.16, Leiden.

Putnam, D. Robert (1993). Making Democracy Work Civic Traditions in Modern Italy, Princeton University Press, New Jersey.

Putnam, D. Robert (2000). Bowling Alone, Simon and Schuster Paperbacks, New York.

Tunçer, A. Serap (2016). "İnsan Kaynakları Yaklaşımının Sosyal Sermaye Düzeyine Etkileri", Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı.24, s.27-43.

# İNSAN SERMAYESİ VE BEYİN GÖÇÜ: TÜRKİYE ÖRNEĞİ

***Manisa Celal Bayar Universitesi***
***Uğur DEMİR***

## Giriş

Bugün yeryüzündeki insan guruplarının yarıdan çoğu "Az gelişmiş" veya daha yumuşak bir deyimle "Gelişmekte" olan toplumlar olarak nitelenmektedir. Bu toplumlar, kalkınma ya birbirlerinden farklı öncelik ve önem vermelerine rağmen, genellikle gelişme yani kalkınma istek ve çabası içindedirler. Toplumların gittikçe kendine yeten kapalı durumlardan çıkıp, birbirleriyle ilişkiler kurduğu, birbirlerine muhtaç olduğu bu dünyada sağlıklı, dengeli ve insancıl bir beraberliğin sağlanması için "Gelişme"den başka çarenin olmadığı açıkça görülmektedir. Bu inancanın hem gelişmiş, hem de gelişmekte olan toplumlar için ortak bir değer niteliğinde olduğu söylenebilir. Bu nedenle UNESCO, EWA, OECD ve WHO gibi milletlerarası kuruluşlar, kalkınma konusuyla yakından ilgili faaliyetlerde bulunmaktadırlar. Gelişme, ekonomik ve sosyal modernleşmeyi birlikte kapsayan bir süreçtir. Ekonomik anlamda modernleşme; ileri teknoloji ile birlikte ihtisaslaşmış bilim, ileri tarzda bir idare ve yönetim gerektirir. Sosyal anlamda modernleşme ise, orta çağ değerleri yerine modern değerleri; geleneksel statü yerine, bireyin değerine önem veren, onun yetenek ve başarısına dayanan bir statü sistemini öngörür. Buna uymayan kurumların ise değişmesini gerekli kılar. Burada insanı kaderin eline teslim eden geleneksel inanç ve düşünce yerine, ona doğa ve sosyal olaylarla ilgili olarak kontrol kudreti ve değer veren gerçekçi bir düşüncenin geçmesi söz konusudur. Böyle bir gelişmenin gerçekleşmesi için ekonomik olanaklarla birlikte, farklı ihtisas alanlarında yetişmiş nitelikli insan gücüne büyük ihtiyaç vardır. Bu nedenle Harbison ve Myers yüksek nitelikte insan gücüne "stratejik insan sermayesi" demektedirler. Durum böyle iken bu yüksek nitelikli iş gücü, gelişmekte olan ülkelerden gelişmiş ülkelere ve bu ülkelerden de daha çok gelişmiş ülkelere doğru gittikçe artan bir hızla kaymaktadır. Beyin göçü (exodes des competences, brain-drain) denen bu olayın özellikle gelişmekte olan toplumlar için büyük önem taşıdığı açıktır. Beyin göçü yüzünden gelişme için gerekli nitelikli insan kaynağından yoksun kalınmaktadır. Ayrıca göçle başka memleketlere giden kişi için harcanan büyük paralar yani yatırım, boşa gitmekte, daha doğrusu bu paralar göçü çeken memleketin kâr hesabına geçmektedir. Bu nedenlerle 1960'tan bu yana konuya ilgi, bütün dünyada artmış, ekonomistler, bilim adamları, araştırmacılar, idareciler, politikacılar ve basın, konunun çeşitli yönlerini ele almışlardır. Gelişmekte olan ülkeler, Avrupa ülkeleri, özellikle Amerika Birleşik devletlerine doğru kuvvetli ve sürekli olarak yüksek seviyede eleman göçü eğilimi karşısında endişe duymuşlar ve bu göçün sebeplerini anlamaya, tedbirler aramaya çalışmışlardır. Son yıllarda Türkiye, gelişmekte ve beyin göçünün etkisinde kalan memleketlerden biri olarak göründüğünden, konunun memleketimiz açısından incelenmesinde büyük yarar vardır. Hasan Uner'in araştırmasına göre 1967 yılında A.B.D. ne göçmen statüsü ile kabul edilen bilim adamı, mühendis, doktor vb. personelin yatırım değeri kişi başına 90.000 dolar olarak hesaplanmıştır. Buna göre 1967 yılında A.B.D.'ne göç eden 203 elemanımız için millî kaybımızın 18.270.000 dolar tuttuğu saptanmıştır. Bu makalede konu ile ilgili olarak doktor, mühendis ve bilim adamlarımız üzerinde yapılmış araştırma ve incelemeler temel olarak ele alınıp durumun genel bir görünümü serimlenecek, veriler, genel olarak ve memleketimizin kalkınması açısından yorumlanarak, beyin akımının azaltılması için uygun görülen önerilerde bulunulacaktır.

## İnsan Sermayesi

İnsan sermayesi, işletme içerisinde bulunan çalışanların yetenek, okul ve iş eğitimleri, tecrübe, bilgi gibi beşeri unsurlarını ifade etmektedir. Başka bir deyişle, doğuştan sahip olduğu ve sonradan kazandığı özelliklerin değeridir. İnsan sermayesi yapılan yatırımın sonucunda zamanla gelişen bir sermayedir. Doğuştan gelen özelliklere dış çevreden edinilen bilgi, beceri ve davranışlar eklenerek artırılabilir. Bununla birlikte insan sermayesi kazanılabilir, tekrar yenilenebilir, yeniliklerin kaynağıdır.[2] İnsan sermayesi, son yıllarda bilim ve ekonomi çevrelerinde, dikkate değer

---

[2] https://onerbilisim.com/insan-sermayesi-yonetimi-human-capital-management-hcm-nedir/

bulunmuş ve üzerinde çeşitli araştırmalar yapmaktadır. İnsan sermayesi, örgüt bünyesinde bulunan insanların tecrübe, yetenek, bilgi ve kabiliyet gibi beşeri unsurlarının tümünü ifade etmektedir.[3] Insan sermayesi ülkelerin gelişmesi açısından büyük bir rol oynar. Bu nedenle önde gelen birçok ülke, vatandaşlarının gelişmesi için eğitime büyük önem vermiştir. Çocukların küçük yaştan itibaren aldıkları eğitim; yeteneklerini, insanlarla iletişimini, analitik düşünme becerilerini geliştirme odaklıdır. Ülkeler kendi insan sermayesinin nitelikli olması için çok fazla çaba sarf etmektedir. Eğitimli ve deneyimli insanlar ülke sermayesi açısından eşsiz ve yenilenebilir bir kaynaktır. İnsan sermayesi üzerine yapılan çalışmalar iki nokta üzerinde yoğunlaşmıştır. Birincisi kişisel yeteneklerin kolektif hale getirilmesidir. İkincisi ise kişisel ve kolektif hale getirilmiş olan yetenek ve yetkinliklerin örgütsel sermayenin içine dâhil edilmesidir. İnsan sermayesi yetenek, ilişkiler ve değerler şeklinde temelde üç özelliğe ayrılmıştır. Yetenek kısmında çalışanların işiyle ilgili yeteneği profesyonel yetenek şeklinde isimlendirilmiştir. Bir çalışanın iş arkadaşlarıyla olan ilişkilerinin kalitesi sosyal yetenek ve müşteriler ve dış çevreyle olan ilişkilerinin başarısı da ticari yetenek olarak isimlendirilmektedir. İlişkiler, sosyal yetenek kısmına giren işgörenin çalışma arkadaşlarıyla ilişkilerinin ve paylaşımındaki başarıya odaklanmıştır. Değerler ise aynı kurumun çalışanlarının aynı dile ve aynı ortak işletme kültürüne sahip olma gerekliliğidir (ARIKBOĞA, Ş. 2003).[4]

**Beyin Göçü**

Beyin göçü "yüksek mesleki niteliği haiz işgücünün kendi anavatanından başka ülkelere çalışmak amacıyla gidişi" şeklinde tanımlanabilir. Tanımı biraz daha genişletecek olursak, yüksek tahsilli, mesleğinde, uzmanlaşmış, üstün zekâ ve kapasiteye sahip kabiliyetli elemanların çeşitli sebeplerle yurtdışına çıkıp orada yerleşmelerine "beyin göçü" diyebiliriz (Kurtulmuş, N. 2013).[5] Ülkesinde eğitime verilen değerin karşılığını alamayan insanlar, zorla beyin göçüne ittiriliyor. Küreselleşen dünyada bu normal bir hadise gibi gözüksede göç veren ülke için bu dezavantajları olan bir durum haline gelmektedir. Bazı meslek grupları hem kişinin yeteneği hem de bilgisi ile aynı çizgide ilerler. Bu konuya örnek olarak mühendisleri örnek verebiliriz. Makine mühendisleri sanayi alanındaki şirketlerin yapı taşını oluşturur fakat beyin göçünün en çok görüldüğü meslek dalı da mühendisliktir. Ülkelerindeki çalışma şartlarını, refah seviyesini, ekonomik durumunu ve eğitim sistemini beğenmeyen insanlar mutluluğu başka ülkelere göç ederek aramaktadır. Beyin göçü ile ülkelerin gelişmişlik düzeyi birbirleriyle yakından bağlantılıdır. Bir ülkenin gelişmişlik seviyesi o ülkedeki çalışma şartları, eğitim düzeyi, ekonomik durumlar ve o ülkedeki genel refah seviyesi ile ilgili önemli bilgiler verir. Beyin göçü genelde gelişmekte olan ülkelerden gelişmiş ülkelere veya gelişmiş ülkelerden diğer gelişmiş ülkelere doğru seyredebilir.

**Beyin Göçü ve Türkiye**

Son zamanlarda Türkiye beyin göçü konusunda en çok sıkıntı çeken ülkeler arasındadır. Ülkemizde beyin göçü, özellikle 1960’lı yıllarda başlamıştır. Öncelikle doktorlar ve mühendislerle başlayan göç, sonrasında bilim insanları ile devam etmiştir. Türkiye beyin göçü en fazla olan 34 ülke içinde 24. sırada yer almakta, ne yazık ki iyi eğitim gören 100 kişiden 59’unu göç nedeniyle kaybetmektedir.

1. Türkiye’den 2007-2012 döneminde ve 2015-2017 döneminde en çok mühendis, en az ise sanatçı meslek grupları başka bir ülkeye göç etmişlerdir. 2013’de en çok mimarlar, 2014’de mimar ve akademisyenler ve 2015-2016 yıllarında da akademisyenler birinci sıradadır. 2007-2017 döneminde genel olarak en çok mühendis, mimar ve akademisyenler dışarıya göç etmişlerdir (Öneri, İ. 2019).[6]

2. Tıp Doktorları Üzerinde Yapılan Araştırma Sonuçları: Ankara Hıfzısıhha Okulu ve John Hopkins Halk Sağlığı Okulunun işbirliği ile yapılan bir araştırmaya göre, örneklem olarak seçilen

[3] Edvinsson, Malone, 1997, s. 34). Edvinsson L, Malone M. (1997), Intellectual Capital, Harper Collins Pub., USA, s. 34.
[4] Arıkboğa, 2003, s. 87- 88). Arıkboğa, Ş. F. (2003) Entelektüel Sermaye, Derin Yayınları, İstanbul,
[5] https://dergipark.org.tr/en/download/article-file/9622
[6] http://acikerisim.pau.edu.tr/xmlui/bitstream/handle/11499/3501/proje-ismail%20%C3%B6neri-2019.pdf

1257 doktordan 230'unun (% 18,3) dış ülkelerde çalıştığı saptanmıştır. Örneklemin genelleştirilmesi ile mevcut 12.275 doktordan 2.248'inin dış ülkelerde çalıştığı tahmin edilmektedir. Örnekleme dahil 230 hekimden 197 (% 85,4)'si erkek, 33 (% 14,6)'ü kadındır (Başaran, F. 1972).[7]

Yurt dışında ve memleketimizde yapılan araştırmalar, Türkiye'nin Beyin Göçü, olayından etkilendiğini ve bu yüzden büyük zarar gördüğünü ortaya koymaktadır. Hayati önemi olan bu konuda kaybedecek zamanımız yoktur. OECD, EWA, UNESCO ve WHO gibi kuruluşların konunun incelenmesine ve tartışılmasına olanak hazırlamaları veya gelişmekte olan memleketlerde araştırma Merkezlerinin kurulması ile ilgili projelere destek olmaları memnuniyet vericidir ama yeterli değildir. İyi niyetlerle yapılan bu teşebbüslerin, milletlerarası bir rekabet konusu haline gelen bu meselede ne derecede etkili olabileceği de düşünülmeye değer. UNESCO 17. Genel Konferansı 1972 de aldığı kararda Beyin Göçünü teşvik eden tedbirlerden yakınmakta, üye devletlerin aldıkları tedbirlere rağmen beyin göçünün azalacak yerde arttığına işaret edilmektedir. Problemin milletlerarası teşekküller aracılığı ile, örneğin, gelişmiş memleketlerin göçü teşvik eden koşulları değiştirmeleri veya memleketlerine göç eden nitelikli insanlar için, onların eğitimlerine harcanan paraları, bu kişilerin ait oldukları memleketlere ödemeye mecbur edilmeleri gibi tedbirlerle, halledileceği görüşü mevcut koşullar altında gerçekçi ve ümit verici görülmemektedir. Kısaca söylemek gerekirse, özellikle gelişmekte olan memleketler, ekonomik ve sosyal kalkınmaları için doktor, mühendis, bilim adamı ve idareciler gibi yüksek nitelikte insan göçüne şiddetle muhtaçken, onları etkili bir biçimde kullanamamakta ve gelişmiş memleketlere göndererek büyük mali kayıplara uğramaktadırlar. Gerçekte umulanın aksine, gelişmiş memleketlere yardım edenler az gelişmiş ülkeler olmaktadır. İngiltere ve Kanada gibi gelişmiş memleketler, bir takım yetişmiş elemanlarını göç nedeniyle A.B.D. ne kaybetseler bile aldıkları tedbirlerle bu açıklarını başka yerlerden temin ederek kapatmakta hatta Kanada'da olduğu gibi bu konuda kârlı bir duruma dahi geçebilmektedirler. Yetkili tedbirlerin özellikle bu akımdan zarar gören memleketler tarafından alınması en gerçekçi yoldur ve bu tedbirler hiç vakit kaybedilmeden alınmalıdır. Ancak konuya geniş ve bilimsel bir görüşle bakmak gerekir. Bu yönden, yurt dışında vazife alacaklara pasaport vermeme gibi hukuki kısıtlamalar insan hakları bakımından önerilemez. Memleketimiz açısından gerekli olan şey, göç probleminin bilimsel açıdan incelenmesi ve bu olayı etkileyen faktörlerin, nedenlerin saptanması ve ona göre tedbirlerin alınmasıdır. Bu konuda yapılan inceleme ve araştırmalar sınırlıdır. Ancak konu üzerindeki neşriyat, tartışma ve gözlemlerle birlikte gene de bir takım önerilerde bulunmaya elverişlidir. Bugüne değin Türkiye'de yapılmış araştırmalar özellikle;

a) Tatmin edici mesleki gelir ve meslekte ilerleme olanaklarının temininin,

b) Elverişli ve özgür bir bilim, araştırma ve çalışma ortamının yaratılmasının,

c) Objektif ve rasyonel bir istihdam politikasının uygulanmasının, gerekli olduğunu ortaya çıkarmaktadır.

Bütün bu koşullar, yüksek nitelikli insanın iyi kullanılması ile ilgilidir. Esas olan kabiliyetlerin yerinde ve yeterince kullanılmasıdır. Eğer bu yapılamazsa memleket kalkınması olumsuz bir biçimde etkilendiği gibi, yüksek nitelikteki eleman da kendini gerçekleştirme, tatmin etme olanaklarını bulamaz bu ise onun ihtisaslarının kullanılmaz hale gelmesine sebep olur. Böyle bir kişi yurt içinde kendinden beklenen randımanı gösteremez veya tatmini başka ülkelerde arar. Böyle bir ortamın değişmesi, memleketin kalkınma probleminin çözümü ile yakından ilgilidir.[8]

**Öneriler**

Yukarıda beyin göçü sorununun halli için üzerinde durulması, gerçekleştirilmesi gereken genel hususlar gösterilmiştir. Burada bir an önce yapılması gerekli daha özel ve somut öneriler verilmeye çalışılacaktır.

1- Beyin göçü ile ilgili, kayıt ve istatistiklerin olmadığı anlaşılmaktadır. Bu konuda sistemli bilgi toplama faaliyetine geçilmelidir.

2- Beyin göçü ile ilgili konular bir an önce bilimsel araştırmalara konu olmalıdır. Bu konuda TUBİTAK'ı n D.P.T. işbirliği ile başlattığı faaliyet övgüye değer ama yeterli değildir. Örneğin,

[7] https://kitaplar.ankara.edu.tr/xmlui/bitstream/handle/20.500.12575/60351/11940.pdf?sequence=1&isAllowed=y

[8]

ihtisas gücünün ne derecede ihtisasına uygun işlerde çalıştığı, ihtisas gücünün (memleket kalkınmasıyla ilgili olarak) bölgesel dağılımı ve ihtisasa gücüyle ilgili bünyesel denge durumu, v.b. konular araştırılmalıdır.

3- Üniversite standartlarını yükseltmek ve lisans-üstü eğitime önem vermek suretiyle yurt dışına mecbur kalınmadıkça lisans öğrencisi göndermemeye, yurt dışına gönderilme olanağının gerekli alanlarda sadece doktora ve doktora üstü öğrencilere tanınmasına çalışılmalıdır.

4- İhtisas amacıyla yurt dışına gidenlerin, yurtta istihdam alanı bulunan alanlara yönelmeleri için gerekli rehberlik sağlanmalıdır.

5- Yurt dışında ihtisas yapan kişilerle ilgili makamlar arasında sağlıklı bir etkileşim kurulmalı, bu elemanlara yurda dönüşlerine yakın, iş imkânları duyurulmalıdır.

6- Yabancı ülkelerde çalışan yüksek nitelikteki elemanların yurda dönüşlerini sağlamak amacıyla, kendilerine bazı haklar tanınmalı, kolaylıklar gösterilmelidir. Bu konuda örneğin 657 Sayılı personel kanununun yurt dışında geçen hizmetlerin terfi ve emeklilikte hesaplanması ile ilgili olumlu tedbirlerinin etkileri araştırılmalı, gerekli olan yeni hususlar varsa eklenmelidir.

7- Yurt içinde bilimsel araştırma merkezleri kurulmalı ve genişletilmelidir. Bu arada memleketin araştırılması gerekli sosyal problemleri ile ilgili olarak, TUBİTAK (Türkiye Bilim ve Teknik Araştırma Kurumu) na paralel bir İnsan ve Toplum Bilimler Araştırma Merkezinin kurulması için faaliyete geçilmelidir.

8- Atamalarda , ihtisas alanları ve öğrenim seviyeleri dikkate alınmalıdır. Yani insana iş değil, işe uygun insan seçilmelidir.

9- 1416 Sayılı Kanunla Yurt dışına ihtisasa gönderilen kişilerle ilgili uygulamalar, ilgili araştırma ışığında yeniden düzenlenmelidir.

10- Yeni Üniversitelerin açılmasında öğrenci kontenjanlarının tespitinde kalkınma hedeflerine uygun olarak yapılan plânlara göre istihdam olanakları gözüönünde bulundurulmalıdır. Kısaca bu konularda Üniversiteler, Devlet Plânlama Teşkilâtı ve Milli Eğitim Bakanlığı arasında işbirliği sağlanmalıdır. Belirli alanlarda öğrenci kontenjanlarını arttırmaktan, o kişilere yetiştikleri sahalarda iş bulma olanaklarını yaratmanın daha zor olduğu unutulmamalıdır.

11- Bilim insanı, doktor, mühendis gibi beyin göçüne konu olan nitelikli elemanlarla ilgili bilimsel araştırmalar yeterli değildir. Bu konuda daha yeni araştırmalara ihtiyaç vardır. Özellikle mühendislerle ilgili olarak, değinilen mühendis ve mimar odalarının raporu üzerinde durulmaya değer. Konu bilimsel olarak etraflıca incelenmeli ve gerekli tedbirler alınmalıdır.

## Sonuç

Beyin göçü sorununun 3 üncü beş yıllık kalkınma plânında (1972- 1977) yer alması sevindiricidir. Konununun sık sık gazetelerde görünüşü, son zamanlarda parlementoya intikali kamuyu ilgilendiren bir sorun olarak gelişmekte olduğunu göstermektedir. 1973 yılı icra plânında beyin göçünü önlemek üzere araştırma kararı yazılı ise de bugüne değin böyle bir araştırma çıkmamıştır. Sonuç olarak, bugüne kadar beyin göçüne gereği kadar ilgi gösterilmediği söylenebilir. Bir taraftan göçü frenleyici tedbirler alınarak diğer taraftan olayın ekonomik, sosyal, idari, siyasî yönlerine eğilinerek alınacak tedbirler bu akımı azaltabilir. Problemin gerçek çözümünün, konunun bilimsel yaklaşımla ele alınmasına ve özellikle memleketin gelişme probleminin halline bağlı olduğu unutulmamalıdır.

### Kaynakça

1- (ARIKBOĞA, 2003, S. 87- 88). ARIKBOĞA, Ş. F. (2003) *ENTELEKTÜEL SERMAYE, DERİN YAYINLARI,* İstanbul. https://dergipark.org.tr/tr/download/article-file/18957
2- Başaran,(1972)pp.133-153.
3- KAYA, N. and Kesen, M. (2015) *İNSAN KAYNAKLARININ İNSAN SERMAYESİNE DÖNÜŞÜMÜ: BİR LİTERATÜR TARAMASI*, 2 January. https://dergipark.org.tr/en/pub/kilisiibfakademik/issue/19258/204555
4- Kurtulmuş, N. (2013) 25 July, pp. 205–220. https://dergipark.org.tr/en/download/article-file/9622
5- Öneri, İ.(2019)*TÜRKİYE'DEN BEYİN GÖÇÜ.* (Accessed: November 2, 2022).

### Çevrimiçi Kaynakça

1- https://onerbilisim.com/insan-sermayesi-yonetimi-human-capital-management-hcm-nedir/

# AZƏRBAYCANDA İNSAN KAPİTALININ FORMALAŞMASI: ÖLKƏLƏRARASI MÜQAYİSƏLİ TƏHLİL

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*Sarızadə Gülnaz Ayaz qızı, magistrant*
*Elmi rəhbər: dos.Y.Ə.Zeynalov*

***Xülasə***

XXI əsr sürətlə inkişaf edən dövrdə strateji önəm daşıyan, daim təkmilləşən, tükənməyən sərvətlər içərisində ən dəyərlisi məhz insan kapitalıdır. Hər bir ölkənin nüfuzu və rəqabət qabiliyyəti istifadə olunan yeni elmi yanaşmalardan və müasir innovativ texnologiyaların tətbiq səviyyəsindən asılıdır. Bu bilik və texnologiyaların yaradıcısı, onları təkmilləşdirən, tətbiq edən də insandır. Bunları nəzərə alaraq, məqalədə empirik təhlil əsasında insan kapitalının sosial-iqtisadi inkişafda yeri və rolu, beynəlxalq təşkilatların bu istiqamətdə reallaşdırdığı layihələr, ölkələrarası müqayisələr, Azərbaycanda insan kapitalının inkişaf səviyyəsi və bu yolda mövcud maneələr tədqiq edilir.
***Açar sözlər.*** *İnsan kapitalı, insan kapitalı indeksi, təhsil, sağlamlıq.*

***Summary***

The most valuable and to have great importance among the strategically important, constantly improving and inexhaustible resources in the rapidly developing 21st century is human capital. The reputation and competitiveness of each country depends on used the new scientific approaches and the level of implementation of modern innovative technologies. The creator of these knowledge and technologies, who improves and carries out them, is also a person. Taking into account all of these, the article is investigated the place and role of human capital in socio-economic development, the projects implemented by international organizations in this direction, cross-country comparisons, the development of human capital in Azerbaijan and the existing obstacles on this way based on empirical analysis.
***Key words.*** *Human capital, human capital index, education, health.*

## Giriş

Keçən əsrin ikinci yarısından başlayaraq tədqiqatçılar iqtisadi uğura nail olunmasında insan kapitalının əhəmiyyəti ilə bağlı ciddi fundamental araşdırmalar aparmağa başlamışlar. Aparılan tədqiqatların ümumqəbul olunmuş nəticəsi ondan ibarətdir ki, insanların ömür boyu topladığı bilik, bacarıq və sağlamlığın məcmusu olan insan kapitalı gəlir səviyyəsindən asılı olmayaraq, hər bir ölkənin milli sərvətinin ən mühüm tərkib hissəsidir. Hazırda insan kapitalına iqtisadi dinamizmin mərkəzi gücü kimi baxılır. Amerikalı iqtisadçı T.Şultzun *(T.W.Schultz, "Investment in human capital")* ilk dəfə dilə gətirdiyi "insan kapitalı" anlayışı sonralar G.Beker tərəfindən daha da geniş şəkildə izah olunmuşdur. G.Beker insan kapitalını digər kapital formalarından bu şəkildə fərqləndirirdi: məktəb, hazırlıq kursları, tibbi xidmətə çəkilən xərclər insan kapitalının formalaşdırılmasının əsas amilləridir. Bu amillərin təsiri ilə qazanılmış biliklər və dəyişən dünyagörüşü gəlirlərin artmasına, insan sağlamlığının yaxşılaşmasına təsir göstərir *(G.S. Baker, "Human capital").* Ona görə də iqtisadçılar təhsil, təlim, tibbi xidmət və s. xərcləri insan kapitalına investisiya kimi qiymətləndirirlər. Məhz insanın bilik kapitalına çevrilməsi keyfiyyətli təhsilin və təlimlərin sayəsində baş verir. Bilik və bacarıqların insanlara aşılanması, sağlamlığının qorunması isə maliyyə və sosial infrastrukturla birbaşa bağlıdır.

Müasir iqtisadçılar belə hesab edirlər ki, təbii ehtiyatlar ölkənin iqtisadi inkişafında mühüm rol oynayır. Zəngin təbii sərvətlərə malik olan ölkə, bu cür ehtiyatları olmayan ölkədən daha sürətlə inkişaf etmək iqtidarındadır. Təcrübə göstərir ki, zəngin resursların olması iqtisadi artım üçün əsas şərt deyil. Burada əsas şərt insan kapitalıdır. Çünki iqtisadi inkişaf prosesi insanlar tərəfindən idarə olunur. İnsanların bilik və bacarıqlarının yüksək olması isə iqtisadi inkişaf üçün olduqca əhəmiyyətlidir. Belə ki, zəngin təbii sərvətləri olmayan Sinqapur, Yaponiya, Cənubi Koreya və s. insan kapitalı hesabına iqtisadi inkişafa nail olmanın mümkünlüyünü sübut edən ölkələrdəndir.

Müstəqillik əldə etdikdən sonra heç bir təbii sərvəti olmayan, iki milyondan çox insanın yaşadığı kiçik bir ada ölkəsi olan Sinqapurun bugünkü nailiyyətləri məhz insan kapitalı hesabına baş vermişdir. Keçən onilliklər ərzində Sinqapur adambaşına düşən ÜDM-in həcminə görə dünyanın lider ölkələrindən biri olmuşdur. Sinqapurun sıçrayışlı iqtisadi artımına səbəb istehsal və xidmət sahələrində innovasiyaların tətbiqi olmuşdur ki, bu da öz növbəsində insan kapitalına qoyulan investisiyaların iqtisadi səmərəliliyinin yüksəldilməsi ilə təmin olunub. Bu müddət ərzində insan kapitalının formalaşdırılması və inkişafı bütün strateji iqtisadi planların mərkəzində dayanmışdır. Dövlət qurumu olan İşçi Qüvvəsi Nazirliyi insan kapitalının inkişafı siyasətinə rəhbərlik etmək məqsədilə yaradılmışdır *(https://www.mom.gov.sg).* "İşçi qüvvəsi 21" istiqaməti işçilərin bilik və bacarıqlarının stabil olaraq təkmilləşdirilməsi ilə Sinqapurun dünyanın istedad paytaxtına çevrilməsi planını ehtiva edirdi. Bu yolda qəbul edilən bütün strategiyalar öz bəhrəsini vermiş və Sinqapuru insan kapitalının inkişafına görə dünyada yüksək reytinqə malik ölkələrdən birinə çevirmişdir.

***İnsan Kapitalı İndeksi: ölkələrarası müqayisəli təhlil***

Ölkələrin inkişaf prosesinin qiymətləndirilməsində istifadə olunan ənənəvi sosial və iqtisadi göstəricilər xüsusi yer tutur. Bunlar, ilk növbədə, ÜDM və onun hər hansı bir ölkədə adambaşına düşən həcmidir. Sadalanan göstəricilər ölkənin inkişafı üçün mövcud iqtisadi potensialı müəyyən edə bilər. Lakin onlar inkişafın səviyyəsini və ölkənin bu istiqamətdə həyata keçirdiyi siyasəti tam səciyyələndirə bilmir. Çünki, qeyd olunan göstəricilər orta vəziyyəti xarakterizə edir və ölkələrin inkişafından, vətəndaşların rifahındakı fərqlərdən və cəmiyyətdə hər bir şəxsin real vəziyyətindən xəbər vermir. Bununla əlaqədar yeni inkişaf göstəricilərinin yaradılması, onların planlaşdırma və idarəetmədə istifadəsi zərurəti meydana çıxmışdır. Belə göstəricilərdən biri Dünya Bankı tərəfindən hesablanan İnsan Kapitalı İndeksidir (Human Capital İndex). İnsan Kapitalı İndeksi ölkələrdə əhalinin təhsil, bacarıq və sağlamlıq vəziyyətini ölçür. Bu indekslə ölkələr "0-1" aralığında qiymətləndirilir. "1"ə yaxınlaşma insan kapitalının yüksəlməsi, "0"a yaxınlaşma isə insan kapitalının zəifləməsidir. Bu indeks vasitəsilə, aşağı nəticə göstərən ölkələrə bir növ çağırış edilir, onları insan kapitalına investisiya yatırmağa çağırır. Onu da qeyd edək ki, ölkələrin insan kapitalına investisiya yatırması onların inkişaf səviyyəsindən də asılıdır. İnkişaf etmiş ölkələr insan kapitalının formalaşdırılması və inkişafı istiqamətində ciddi tədbirlər həyata keçirir. Bəzi ölkələr isə obyektiv və subyektiv səbəblərlə əlaqədar olaraq insan kapitalının formalaşdırılmasına diqqət yetirə bilmirlər və bu da onların inkişafında ciddi maneə kimi dəyərləndirilir.

İndeks beş indikator əsasında hesablanılır. Bunlara: 5 yaşa qədər uşaqların ölüm səviyyəsi, 15 yaşda olan gənclərin arasından 60 yaşa qədər sağqalma ehtimalı olanların xüsusi çəkisi, 18 yaşa qədərki gözlənilən təhsil müddəti, 5 yaşa qədər uşaqlar arasında inkişafdan qalanların payı və öyrənmənin keyfiyyəti kimi test yoxlamalarının ümumi bal göstəriciləri aiddir.

Dünya Bankının "Human Capital İndex 2020" hesabatında 0.88 nəticə ilə Sinqapur lider ölkə olmuşdur (Qrafik 1). Sinqapur uşaqlarının təqribən 98 faizinin beynəlxalq standartlarda qəbul olunmuş orta məktəb biliklərinə yiyələnmək şansı vardır. İlk beşlikdə olan ölkələrdən üçü Asiya regionunun payına düşür. Reytinqdə ən sonuncu yerdə Afrika qitəsindən 0.29 göstərici ilə Mərkəzi Afrika Respublikası dayanır. Reytinqdə keçmiş SSRİ ölkələrindən ən yüksək pilləni Estoniya tutur (Qrafik 2). Ümumilikdə post-sovet respublikalarından Rusiya, Belarus, Latviya, Litva ilk əlliyə düşüb. Bir çox ölkələr, xüsusilə Afrika ölkələri İnsan Kapitalı İndeksi üzrə reytinqdə olduqca aşağı nəticəyə malikdirlər. Həmin ölkələrdə 14 yaşına çatmamış uşaqlar nəinki yüksək səviyyəli təhsil almır, onlar heç minimum təhsil dövrünü başa çatdıra bilmirlər. Yoxsulluğun yüksək olduğu ölkələrdə insanlar qida çatışmazlığından əziyyət çəkir. Təhlillər göstərir ki, bu gün dünyada 115 milyon uşaq qida çatışmazlığından əziyyət çəkir və bu da öz növbəsində onların təhsil alma imkanlarına və şəxsi inkişaf əmsalına olduqca mənfi təsir göstərir.




*Qrafik 1. İnsan Kapitalı İndeksi yüksək olan ölkələr. Mənbə: Dünya Bankı, 2020*




*Qrafik 2. Keçmiş SSRİ ölkələrində İnsan Kapitalı İndeksi. Mənbə: Dünya Bankı, 2020*

Dünya Bankının hesabatına əsasən, 2020-ci il ildə Azərbaycan İnsan Kapitalı İndeksinə görə 0.58 bal almaqla 174 ölkə içərisində 79-cu yerdə olmuşdur. Bu, yuxarı və orta gəlirli ölkələr üzrə orta göstəricidən bir qədər yüksəkdir. Lakin onu deyə bilərik ki, Azərbaycanda doğulan bir uşağın böyüdüyündə tam sağlamlığa və keyfiyyətli təhsilə malik olma imkanı dövrün tələblərinə cavab vermir. Bu göstərici 2010-cu ildə 0.50, 2015-ci ildə 0.67 olmuşdur. Ümumilikdə təkcə respublikamızda deyil, əksər ölkələr üzrə indeksdə enmə müşahidə edilmişdir. Belə ki, insan kapitalının yüksək inkişaf səviyyəsinə görə fərqlənən Finlandiyada 2015-ci ildə indeks 0.85, 2020-ci ildə 0.80, Norveçdə müvafiq olaraq 0.83 və 0.77, İsveçrədə isə 0.83 və 0.76 olmuşdur. Buna səbəb kimi İnsan Kapitalı İndeksinin metodologiyasında aparılan dəyişikliklər göstərilə bilər.

***Azərbaycanda mövcud vəziyyət***

Rəqabətqabiliyyətli insan kapitalının formalaşmasında təhsilin rolu, birmənalı şəkildə, əvəzolunmazdır. Təhsil elə bir sahədir ki, dövlətin diqqət və qayğısı daim onun üzərində olmalıdır. Təhsilin ölkə üzrə inkişaf səviyyəsini müəyyən edən göstəricilərdən biri təhsilə sərf olunan xərclərdir. Ölkəmizdə isə bu vəziyyət heç də ürək açan deyil. Belə ki, 2020-ci ildə təhsil xərclərinin ÜDM-də iştirak payı 4.2% olmuşdur *("Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi" haqqında Azərbaycan Respublikasının Qanunu).* Bu göstərici Sinqapurda 2.5% təşkil edib. Lakin bu, Azərbaycanda təhsilə çəkilən xərclərin Sinqapurdan daha çox olması demək deyil. Çünki Sinqapurda ÜDM-in həcmi 345.3 mlrd. dollar, Azərbaycanda isə 42.61 mlrd. dollar təşkil edib. Odur ki, ölkələrarası müqayisəli təhlillər apararkən bu kimi məqamlara diqqət yetirmək lazımdır. Burada adambaşına düşən təhsil xərcləri üzrə müqayisə aparmaq daha məqsədəuyğundur. Həmin il üzrə ölkəmizdə adambaşına düşən təhsil xərci 177.8 dollar, Sinqapurda isə 1460.7 dollar olmuşdur. Göründüyü kimi, iki ölkə arasında 10 dəfəyə yaxın fərq vardır. Təhsil sahəsində öz sözünü deyən Finlandiyada isə 2416.8 dollar təşkil etmişdir. Bu fərqlər təhsil sahəsində qaynaqlanan bir çox problemlərdən xəbər verir. Təhsillə yanaşı, səhiyyə sahəsində də dünya standartlarından olduqca geridəyik. Belə ki, Azərbaycanda ümumi səhiyyə xərclərinin təqribən 79 faizi əhalinin şəxsi gəlirləri hesabına ödənilir. Ümumdünya Səhiyyə Təşkilatı bunun 20 faiz həddində olmasını tövsiyə edir. Müqayisə üçün deyə bilərik ki, bu göstərici Gürcüstanda 57, Ukraynada 48 faizdir. Azərbaycanda 5 yaşına çatmamış uşaqlar arasında ölüm səviyyəsi Rusiya və Gürcüstandan 2.5-3 dəfə yüksək olmuşdur. 1 yaşa qədər uşaq ölümündə də vəziyyət təqribən oxşardır. Müqayisəsi verilən 20-dən artıq ölkə arasında büdcədən xərclənən sosial müdafiə xərclərinin ÜDM-də həcminə görə Azərbaycan 8 faizlə aşağı göstəriciyə malikdir *(https://bakuresearchinstitute.org/human-capital-in-azerbaijan-2/).*

Adı çəkilən indeks ilə yanaşı, insan kapitalının qiymətləndirilməsi ilə əlaqədar Dünya Bankı tərəfindən bir çox layihələr hazırlanmış, hesabatlar təqdim olunmuşdur. "Millətlərin sərvətlərinin dəyişməsi" adlı hesabatda qeyd olunur ki, insan kapitalı bütün sərvətlərin 64%-ni, yüksək inkişaf səviyyəsinə malik ölkələrin sərvətlərinin 70%-ni, inkişafda olan ölkələrin sərvətlərinin isə 41%-ni təşkil edir. Azərbaycan ölkə sərvətləri içərisində insan kapitalının xüsusi çəkisinə görə (14%) hətta aşağı gəlirli dövlətlərin göstəricisindən təxminən üç dəfə aşağı, təbii sərvətlərin payına görə isə yüksək (47%) yerdədir. Sərvətlərin formalaşmasında insan kapitalının payının niyə belə az olmasının səbəblərinin müəyyən edilməsi və insan kapitalının formalaşmasına təsir edən sahələrdəki mövcud vəziyyətin qiymətləndirilməsi dayanıqlı iqtisadi inkişafa mane olan problemlərin aradan qaldırılması baxımından çox vacibdir.

Dünya Bankı tərəfindən aparılmış son təhlillərdən biri olan "Sağ qal, Öyrən, İnkişaf et: Azərbaycanın iqtisadi artımını sürətləndirmək üçün strateji insan kapitalına investisiyaların yatırılması" (Survive, learn, thrive: strategic human capital investments to accelerate Azerbaijan's growth) adlı tədqiqat layihəsi Azərbaycanda insan kapitalının formalaşdırılması vəziyyətini, dövlətin insan kapitalının inkişafı sahəsindəki fəaliyyət istiqamətlərini qiymətləndirmək baxımından əhəmiyyətlidir *(https://www.mom.gov.sg/ ).*

Azərbaycan son iyirmi ildə yoxsulluğun azaldılmasına və iqtisadi inkişafa nail olma yolunda mütərəqqi addımlar atsa da, insan kapitalının toplanılmasında region ölkələrindən olduqca geri qalır. İnsan kapitalını xarakterizə edən, deyərdim ki, birinci göstərici təhsildir. Lakin əvvəlki təhlillərdən göründüyü kimi, ölkəmizdə təhsilin keyfiyyət və aktuallığı gözləniləndən aşağı səviyyədədir və öyrənmə nəticələrində qeyri-bərabərlik artmaqda davam edir. Azərbaycanda tədris illərinin orta sayı təxminən 11.6-dır. Bu təhsilin keyfiyyəti ilə uyğunlaşdırıldıqda yalnız 8.7 faiz edir. 2020-ci ilin The Progress in International Reading Literacy Study (PIRLS) layihəsində iştirak etmiş bütün Avropa və Mərkəzi Asiya regionu ölkələri arasında Azərbaycan yüksək və aşağı nəticələr göstərmiş şagirdlər arasında ən çox fərqə malik olan ölkədir. Ümumi Öyrənmə Nəticələri üzrə ən sonuncu məlumat bazasına görə varlı ailələrdən olan tələbələr yoxsul ailələrdən olanlarla müqayisədə 700 ballıq sistemdə 96 bal yüksək nəticə göstərmişdir. Buna oxşar olaraq, kənd yerlərində oxuyan şagirdlər şəhərdə oxuyan şagirdlərlə müqayisədə 48 bal aşağı nəticə göstərmişdir. Azərbaycan ali təhsil müəssisələrinə cəlb olunanların sayına görə qonşu ölkələr arasında ən aşağı nəticə göstərən ölkələr siyahısındadır. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, hazırda ölkəmizdə 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərinə düşən ali təhsilli vətəndaşların sayı 199 nəfərdir. Orta məktəbi bitirən məzunların 66 faizi heç bir ali və peşə təhsili olmadan cəmiyyətə atılır. Bu isə həm region ölkələrinin göstəricilərindən, həm də dünya ölkələri üzrə orta göstəricidən iki dəfəyə yaxın aşağıdır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" adlı sənəddə də vurğulanır ki *(https://president.az/az/articles/view/9779)*, ali məktəbdə təhsil alanların bilik və bacarıqları, praktiki əmək vərdişləri iqtisadiyyatın tələbatları ilə uzlaşmır və özəl sektor ixtisaslı kadrların çatışmazlığı problemi ilə qarşılaşmışdır. Mövcud təhsil sistemi əmək bazarı üçün səriştəli kadrların hazırlanmasında uğursuzdur. Tədqiqat və innovasiyaların stimulu kimi çıxış edən ali təhsil müəssisələrinin iqtisadiyyat ilə güclü əlaqəsi yoxdur və bu müəssisələr sahibkarlıq və biznesin inkişafını stimullaşdırmaq baxımından çox az potensiala malikdir. Bu vəziyyətin yaranmasının səbəblərindən biri Azərbaycanın əhali baxımından eyni ölçülü ölkələrə nisbətən tədqiqat və inkişafa ən az vəsait ayıran ölkələrdən olmasıdır. Azərbaycanda ÜDM-in cəmi 0.2 faizi tədqiqat ilə bağlı istiqamətlərə xərclənir. Eyni zamanda, rəqabətli maliyyələşmə imkanlarının məhdud olması da sektorun inkişafdan geri qalmasına səbəb olur.

Yuxarıda qeyd etdiyimiz Sinqapurda təhsil sahəsində həyata keçirilən islahatlar zamanı ilkin investisiyalar əməklə intensiv istehsal üzrə əsas təhsilin əhatəsinin artırılmasına yönəlmişdir. Hökumət mütərəqqi olaraq əsas təhsilin əhatəsindən yuxarı orta, ali və peşə təhsilinin keyfiyyətinin artırılmasına diqqət yetirmişdir. Məhz ona görə də ölkəmizdə təhsillə bağlı sadalanan problemlər həll olunmadığı təqdirdə insan kapitalının inkişafından söz gedə bilməz. Dahi Çin filosofu və mütəfəkkiri Konfutsinin də dediyi kimi, elm və təhsildən faydalanmağı bacaran xalq həmişə firavan yaşayar. Bütün xalq olaraq firavan həyat yaşamaq üçün bilməliyik ki, müstəqil dövlətimizin

inkişafının dayanıqlılığı insan kapitalının inkişafından, onun inkişafı isə ilk növbədə təhsil sisteminin keyfiyyətindən asılıdır.

**Nəticə**

Bütün dünya ölkələrinin əsas iqtisadi hədəflərindən biri olan dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün cəmiyyətin hərtərəfli və keyfiyyətli təhsil, səhiyyə, proqressiv təşkil olunan sosial müdafiə xidmətlərinə əlçatanlılığını təmin etməli və insan kapitalının inkişafının mühüm sahələrinə investisiyaların yatırılmasını sürətləndirməliyik. İndiki dövrdə insan kapitalına daha çox investisiya yatırımlarının edilməsi ölkənin gələcək nəsillərinin rəqəmsal inqilabın yaratdığı imkanlardan tam yararlanmasını təmin edəcəkdir. Bu səbəbdən insan kapitalını inkişafın mərkəzinə qoymaq, bu istiqamətdə qarşıya çıxan maneələri dəf etmək olduqca vacibdir. Bu yolda atılması vacib olan addımlara ümumi təhsilin keyfiyyətini yüksəltmək və təmayülləşməni inkişaf etdirmək, ilk peşə və orta ixtisas təhsilini əmək bazarının tələbatına uyğunlaşdırmaq, ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında tədris prosesini təşviq etmək, biliyə əsaslanan cəmiyyət quruculuğunu dəstəkləmək, insan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturu təkmilləşdirmək, elmi-tədqiqat fəaliyyətinə dövlətin diqqət və qayğısının artırılması və s. aiddir. İnsan kapitalı hər zaman inkişafın həlledici amili kimi çıxış edib, edir və edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi" haqqında Azərbaycan Respublikasının Qanunu
2. Muradov A.N., "Bilik iqtisadiyyatı quruculuğunda insan kapitalının roluna dair nəzəri mülahizələr", 2018
3. Allan R. O., "Strategic Management of Human Capital in Education", 2018
4. Chandrasekhar S., "Leading Human Capital in the 2020s: Emerging Perspectives", 2020
5. Gary S. Baker, "Human capital", 1964
6. Sumit K., "Human Capital and Innovation: Examining the Role of Globalization", 2016
7. Theodore W.Schultz, "Investment in human capital", 1961
8. https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan-2/
9. https://www.mom.gov.sg/
10. https://www.worldbank.org/
11. https://president.az/az/articles/view/9779
12. https://ereforms.gov.az/ekspert-yazilari/tehsil-kreditleri-iqtisadi-inkisafi-suretlendirecek-53

# DÜNYADA GƏNCLƏR ARASINDA İŞSİZLİK VƏ ONUN SƏBƏBLƏRİ

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Məmmədov Pərviz Eyvaz oğlu, magistrant***
***Elmi rəhbər: dos. Z.M.Əlizadə***

***Xülasə***

Məqalədə dünyada gənclər arasında işsizlik səbəbləri araşdırılmış və ayrı-ayrı dövlətlərdə statistik göstəricilər təhlil edilmişdir. Diqqətə çatdırılmışdır ki, gənclər işsizliyə uğursuzluq və ya məğlubiyyət kimi baxır. Bu vəziyyət onları cəmiyyətdən uzaqlaşdırır. İşsiz gənclər arasında kütləvi cinayətlər, quldur dəstələri, təcrid olunmuş hippi kimi məsuliyyətə əhəmiyyət verməyən qruplar yaranır.
***Açar sözlər****: məşğulluq, dünya, gənclər, işsizlik, əmək bazarı.*

***Summary***

In the article, the causes of unemployment among young people in the world were investigated and statistical indicators were analyzed in individual countries. It has been pointed out that youth view unemployment as failure or defeat. This situation alienates them from society. Mass crimes, gangs, and irresponsible groups such as isolated hippies are emerging among unemployed youth.
***Keywords:*** *employment, world, youth, unemployment, labor market.*

## Giriş

Əmək insanın şüurlu, məqsədəuyğun fəaliyyəti olub, fərdi və ictimai rifahın əsasını təşkil edir. Hər kəsin əmək qabiliyyətindən asılı olaraq sərbəst şəkildə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır və işləyib işləməmək barədə qərarı yalnız şəxsin özü qərar verə bilər. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir. *(AR Konstitusiya, 1995)* Eyni zamanda hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz əməyinə görə dövlət tərəfindən müəyyən edilmiş minimum əmək haqqından az olmayan əmək haqqı almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ var. Dövlət işsizliyi aradan qaldırmaq üçün bütün imkanlardan istifadə edir.

Ümumilikdə işsizlik, xüsusən də gənclər arasında işsizlik təkcə milli deyil, həm də beynəlxalq problemdir. İşsizlik təkcə iqtisadi problem deyil, həm də cəmiyyətin bütün təbəqələrinə dərindən təsir edən və özü ilə sosial problemlər gətirən çox ciddi bir fenomendir. Xüsusilə son illərdə işsizliyin həcminin artması bütün dünya ölkələrinin ümumi probleminə çevrilib. Hal-hazırda dünya əmək bazarında böyük böhran var. Belə ki, dünya işçi qüvvəsi strukturunun əsas tendensiyasına nəzər salsaq deyə bilərik ki, dünya işçi qüvvəsi ilbəil "qocalır" (Elvan Yanbaşlı, 2, s.96). İşçi qüvvəsinin qocalması demoqrafik transformasiya ilə əlaqədar əhalinin qocalması ilə də əlaqədardır və işçi qüvvəsinin qocalması xüsusilə inkişaf etmiş və yüksək gəlirli ölkələrdə ciddi problemlər doğurur. Eyni zamanda qloballaşan dünyada ölkələrin işçi qüvvəsi strukturlarını və onlarda müşahidə olunan dəyişiklikləri proqnozlaşdırmaq çətindir. Bu baxımdan, gələcəkdə gənc işçi qüvvəsinin iştirakının hansı istiqaməti izləyəcəyi maraq doğurur. Dünyada enerji xərclərinin yüksək olması səbəbindən işsizlik və yoxsulluq regionlara görə fərqlənir.

Cədvəl 1

**Ərazilər üzrə 15-24 yaş arası işsizlik səviyyəsi (faizlə)**

| **Ərazilərin adı** | **işsizlik səviyyəsi** |
|---|---|
| Cənubi Asiya | 24.08% |
| Amerika və Karib dənizi ölkələri | 21.37% |
| Avropa ölkıləri | 20.41% |
| Avropa birliyi ölkələrı | 19.34% |
| **Dünya** | **17.89%** |
| Sub Saxara Afrika | 14.81% |
| Asiya və Sakit okean ölkələri | 10.86% |
| Cənubi Amerika | 9.98% |

**Mənbə:**.https://www.macrotrends.net/countries/WLD/world/ saytının materialları əsasında müəllif tərəfindən hazirlanmışdır.

İnkişaf etməkdə olan ölkələrə baxdığımızda digər ölkələrlə müqayisədə həm kişi, həm də qadın işçi qüvvəsi baxımından daha gənc işçi qüvvəsi potensialı var. Demək olar ki, bir ölkə nə qədər az inkişaf edirsə, əhalisi də bir o qədər gənc olur və işçi qüvvəsinə qoşulanların yaşı davamlı olaraq azalmağa meyllidir. İşçi qüvvəsinin qocalması problemi dünyanın daha inkişaf etmiş hissələrinin problemidir.

İnkişaf etməkdə olan regionlarda, xüsusən Cənubi Asiya və Sub-Sahara Afrikada qeyri-rəsmilik və hüquqi müdafiənin olmaması işləyənlərə mənfi təsir göstərir. Gənclərin, qocaların və əlillərin, mühacirlərin və xüsusən də "nə işdə, nə də məktəbdə olmayan" qadınların işdə qalma prosesi çətindir. Hər halda işdə qalmaq yoxsulluğun sona çatacağı anlamına gəlmir və statistika göstərir ki, hər üç işçidən biri yoxsuldur.




Şəkil. Dünyada gənclərin işsizlik səviyyəsi (faizlə)
Mənbə: https://data.worldbank.org saytının materialları əsasında müəllif tərəfindən hazirlanmışdır.

Dünya statistikasına nəzər salsaq görərik ki, son 20 il ərzində dünyada 15-24 yaş arasında işsizlik səviyyəsi mənfi dinamika ilə irəliləməkdədir. Belə ki, 2000-ci ildə bu rəqəm 13,61%, 2006-cı ildə 13,75%, 2012-ci ildə 14,69%, 2019-cu ildə 15,29% olmuşdur. 2021-ci il üçün dünya gənclərinin işsizlik səviyyəsi 2020-ci ilə nisbətən 0,68% artımla 17,89% təşkil edib. 2020-ci il üçün dünya gənclərinin işsizlik səviyyəsi 2019-cu ilə nisbətən 1,92% artımla 17,20% təşkil edib *(https://data.worldbank.org).*

2022-ci ilin iyul ayında 16-24 yaş arasında 21,0 milyon işlə məşğul olan gənc var idi. Aprel və iyul ayları arasında məşğul olan gənclərin sayı 2,1 milyon nəfər və ya 11,4 faiz artmışdır. Məşğulluq - əhali gənclər üçün nisbət - 16-24 yaşlı mülki qeyri-institusional əhalinin nisbəti bir iş - 2022-ci ilin iyul ayında 55,3 faiz olub, əvvəlki ilə nisbətən 0,9 faiz bəndi artıb.

Bununla belə, 2022-ci ilin iyul əmsalı 2019-cu ilin iyul ayında olan 56,2 faiz nisbətindən aşağı idi. Məşğulluq-əhali nisbətləri 2022-ci ilin iyul ayında gənclər üçün bir il əvvəl olduğundan daha yüksək idi : kişilər (yüzdə 56,3), ağdərililər (yüzdə 58,3) və asiyalılar (yüzdə 44,1), qadınlar üçün nisbətlər (54,3 faiz), qaradərililər (46,4 faiz) və ispanlar (50,1 faiz) az dəyişib *(https://www.ilo.orgilo/newsroom ).*

2022-ci ilin iyul ayında kişilər, qadınlar, ağdərililər, asiyalılar və ispanlar üçün məşğulluq-əhali nisbətləri 2019-cu ilin iyul ayından bir qədər fərqlənmir, qaradərililərin nisbəti isə 3,4 faiz aşağıdır *(https://www.macrotrends.net/countries/WLD/world/).*

Dünya üzrə təsnifata görə orta gəlirli inkişaf etməkdə olan ölkələr: Çin, Braziliya, Argentina, Çili, Koreya, Hindistan, Pakistan, Panama, Livan, Filippin, Cənubi Afrika, Tunis, İordaniya, Misir, Boliviya, Kuba, Türkiyə, Meksika , Malayziya, Fil Dişi Sahili, Yamayka və Keniya kimi ölkələrin ciddi məşğulluq problemləri var. Bundan başqa, iqtisadi artıma nail ola bilməmək də ölkə

iqtisadiyyatlarını çətin vəziyyətə salır *(Savcı,İ.,3,s.107).* Məşğulluq nisbətləri və işsizlik rəqəmlərindəki diqqəti çəkən problem bu ölkələrin ən böyük problemidir.

İnkişaf etməkdə olan ölkələrdə işsizlik problemi əsasən kənd təsərrüfatı intensiv iqtisadiyyatdan sənaye və xidmət tutumlu iqtisadiyyata keçid mərhələsinin yaratdığı dəyişikliklərin nəticəsidir. İnkişaf dövrünə xas olan əhalinin və kənd təsərrüfatı sektorundan qeyri-kənd təsərrüfatı sektoruna əmək miqrasiyasının artması məşğulluq imkanlarının qeyri-kafi olmasına gətirib çıxarır.

Xüsusilə inkişaf etməkdə olan ölkələrdə işsizliyin əsas səbəbi hesab edilən dünya iqtisadiyyatındakı vəziyyət ümumiyyətlə struktur səbəblərdən doğan problemlərdir.

İşsizlik probleminin səbəbləri və ölçüləri ölkədən ölkəyə fərqli olsa da, təəssüf ki, bütün ölkələrin gündəmində əsas problem kimi öz yerini tutub. Yaşanan sosial-ictimai böhranlar dünya ölkələrinə iqtisadi cəhətdən də təsirsiz ötüşməmişdir. İşsizliklə bağlı bu problemdən ən çox əziyyət çəkən gənclərdir.

Dünyanın əhəmiyyətli bir hissəsində ümumilikdə işsizlik və xüsusilə gənclər arasında işsizlik artır və məşğulluq səviyyəsi azalmağa davam edir. Gənclərin işsizliyi fenomeni 1970-ci illərdə başlayan iqtisadi tənəzzül və tənəzzül zamanı ortaya çıxdı. Gənc işçi qüvvəsi ümumi işsizliyin artması və iqtisadi tənəzzüldən ən çox təsirlənən seqmentdir. Bunun əsasında gənclərin əmək bazarına yeni qədəm qoyması, xidmətlərinin qısamüddətli olması, təcrübəsiz olması, hələlik ailə məsuliyyətlərinin çox olmaması kimi səbəblər var. Nəticədə, təcrübəli yetkinlər arasında işsizlik artdıqda gənclər daha çox təsirlənir.

Bazarlarda tənəzzülün artması ilə işsizlik nisbətlərinin artması nəticəsində dövri səbəblərdən görünən işsizlik ilk növbədə gənclərin təsirləndiyi zaman adlandırılır. Hər bir ölkənin bu tənəzzüldən təsirlənmə vəziyyəti bir-birindən fərqlidir. Bəzi ölkələrdə zorakılıq daha çox olur və hətta böhrandan əvvəlki vəziyyəti qaytarmaq mümkün deyil.

İqtisadiyyatın tənəzzülə uğradığı zaman əvvəlki dövrlərlə müqayisədə daha çox insanın bir və ya bir neçə işsizlik dövrü ilə üzləşdiyi, belə çətin dövrlərdə belə gənclərin iş tapmaqda ən çox çətinlik çəkdiyi və bunun da məhz gənclərin olduğu görülür. Bazarda "son iş, ilk iş" üsulu tətbiq edildiyi və son işə qəbul olunanlar həmişə gənclər olduğu üçün gənclər işdən çıxarılır, xüsusilə gənc qızlar və qadınlar bundan ən çox əziyyət çəkən qrupdur.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin tsiklik tərəddüd proseslərində ilk növbədə işdən çıxarılan hesab edilən gənclər ölkələrin əmək təchizatında yüksək yer tutur. Bundan əlavə bütün iş tapmaqda olan ən böyük problemlərləri "təcrübə"nın, iş vərdişlərinin olmamasıdır.

Dünyada işsizliyin bir səbəbi də demoqrafik səbəblərlə baglıdır. Bir cəmiyyətdə işsizliyin olması həmin cəmiyyətin insan kapitalında itkilərin göstəricisidir. Demoqrafik səbəblərə görə dünya ölkələrində görülən işsizlik fonunda gender ayrı-seçkiliyi, gənc və yaşlı işçi qüvvəsi ayrı-seçkiliyi və miqrasiya vəziyyəti kimi səbəblər ön plana çıxır. Bir çox ölkələrdə gənc qızlar oğlanlara nisbətən daha az iş tapa bilər, gənc əhalisinin çox olduğu ölkələrdə gənclərin iş imkanları daha az ola bilər və xüsusilə kənddən şəhərə miqrasiyanın daha çox olduğu ölkələrdə gənc əhali yüksək işsizliklə üzləşə bilər.

Ölkələrin demoqrafik strukturlarına nəzər saldıqda bəzi ölkələrdə immiqrasiya fenomeninin kifayət qədər yüksək olduğu görülür. Miqrasiya fenomeni həm miqrasiya edən kənd gənclərinə, həm də miqrasiyanın baş verdiyi şəhərlərdəki gənclərə mənfi təsir göstərir. Daha yaxşı iş imkanları tapmaq, daha yaxşı şəraitdə işləmək arzusu ilə kənd yerlərindən şəhərlərə köçən gənclər ümid etdiklərini tapa bilmir və pis şəraitdə, qeyri-peşəkar işlərdə, hətta qeyri-rəsmi şəraitdə işləməyə məcbur olurlar. Şəhərlərdə ümumən ixtisaslı və yaxşı təhsil almış gənclər işçi qüvvəsinin çoxluğu səbəbindən işsiz qalırlar.

Dünyanın müxtəlif ölkələrində sektorlararası araşdırmalara görə, rifah səviyyəsi daha yüksək olan fərdlər üçün məşğulluqda iştirak nisbətinin daha aşağı olduğu görülür. Nəticədə, işsizlik insanların rifah səviyyəsinə nisbətən mənfi təsir göstərir. Deməli, hər bir işsiz pis deyil. Bəzi işsizlər maddi durumu yaxşı olduğu üçün işləmirlər. Bu vəziyyətlər demoqrafik səbəblərdən yarandığı üçün milli iqtisadiyyatlar fərdləri istiqamətləndirməkdə çətinlik çəkirlər. Qapalı cəmiyyətlərdə, xüsusilə inkişaf etməkdə olan ölkələrdə qadınların ailədə işləməsi xoş qarşılanmadığı üçün gənc qadınların iş həyatına girməsinin qarşısını almağa çalışılır.

**Nəticə**

Şimali Afrika və Yaxın Şərqdə görülən yüksək işsizlik ilk növbədə gənclərə təsir edir. Getdikcə qloballaşan əmək bazarında rəqabət aparmaq üçün gənclərə təzyiq mövcuddur. İstər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələr, bir sözlə, bütün dünya gəncləri işsizlik problemi ilə üzləşir. İxtisassız əmək həm real gəlir, həm də məşğulluq baxımından daha cox cıtinliklərə məruz qalır.

Gənclər işsizliyə uğursuzluq və ya məğlubiyyət kimi baxırlar. Bu vəziyyət onları cəmiyyətdən uzaqlaşdırır. İşsiz gənclər arasında kütləvi cinayətlər, quldur dəstələri, təcrid olunmuş hippi kimi məsuliyyətə əhəmiyyət verməyən qruplar yaranır. Buna görə də gənclərin və onların bacarıqlarının müvafiq iş imkanlarında istifadə edilməsi son dərəcə vacibdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1995.
2. Elvan YANBAŞLI "Türkiye'de genç işsizliği sorunu ve işsizlikle mücadelede Uygulanan ekonomi politikalarinin analizi", 2019
3.Savcı, İ. (2007). "Genç İşsizliği: Eğitim ve İstihdamda Sorunlar, Çözüm Arayışları", *TİSK Akademi*, TİSK, Hakemli Dergi, Ed. Prof. Dr. Ö. Faruk Çolak, Ajans-Türk, c. 2, Özel Sayı: 1, ss. 87-108.
3.https://data.worldbank.org/indicator/SL.UEM.TOTL.ZS
4.https://www.ilo.org/global/about-the-ilo/newsroom/news/WCMS_008083/lang--en/index.htm
5.https://www.macrotrends.net/countries/WLD/world/

# MƏŞĞULLUQ ANLAYIŞI VƏ ƏHALİNİN MƏŞĞULLUQ PROBLEMİNİN DƏYƏRLƏNDİRİLMƏSİ

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Kərimova Nəzrin Mahir qızı, magistrant***
***Elmi rəhbər: i.ü.f.d. V.M.Babayeva***

***Xülasə***

Məşğulluq sözünün hərfi mənası bir insanı bir işdə istifadə etmək, onu işlə təmin etmək deməkdir. Məşğulluq sözünü geniş mənada öyrənmək olar. Məşğulluq dar mənada əməyin istifadəsini, yəni istehsal prosesində yalnız işçiləri araşdırarkən, geniş mənada istehsal prosesində əmək, kapital, torpaq kimi rol oynayan bütün amilləri əhatə edir. Bu baxımdan bu mövzu müasir dövrdə olduqca aktualdır. Belə ki, bu araşdırmada məşğulluq anlayışı və əhalinin məşğulluq probleminin dəyərləndirilməsi aparılacaqdır. Məşğulluq problemi ən qısa formada işsizlik problemidir. Bu problem region və ya ölkənin iqtisadiyyatında istehsal amillərinin hamısından istifadə edə bilməmək, yəni potensialın olmamasıdır. Daha aydın desək, işçi qüvvəsinin, yəni gənc və fəal seqmentin istehsalda iştirak edə bilmədiyi vəziyyətdir. Məşğulluq problemi işsizlik problemini göstərir.
***Açar sözlər:*** *Məşğulluq, inkişaf, əmək bazarı, iqtisadi regionlar, aqrar sektor.*

***Summary***

The literal meaning of the word employment is to use a person in a job, to provide him with work. The word employment can be studied in a broad sense. Employment in a narrow sense includes the use of labor, that is, while examining only workers in the production process, in a broad sense, it includes all factors that play a role in the production process, such as labor, capital, land. From this point of view, this topic is very relevant in modern times. So, in this study, the concept of employment and the population's employment problem will be assessed. The employment problem is the unemployment problem in its shortest form. This problem is the inability to use all production factors in the economy of the region or country, that is, the lack of potential. To put it more clearly, it is a situation where the labor force, that is, the young and active segment, cannot participate in production. The problem of employment indicates the problem of unemployment.
***Keywords:*** *Employment, development, labor market, economic regions, agricultural sector.*

## Giriş

### Məşğulluq anlayışı və əhalinin məşğulluq təminatının şərtləndirici amilləri.

İctimai-iqtisadi formasiyaların bütün dövrlərində məşğulluq bir fəaliyyət növü və nəticəsi kimi mövcud olmuşdur. Məşğulluqla bağlı məsələlərə diqqət edərkən özünü göstərən əsas məqamlar içərisində əmək bölgüsünün də mühüm rolu vardır. Fikrimizcə, iqtisadi fəaliyyətin elə birinci mərhələsi məşğulluqla bağlıdır. Əgər, insanlar məşğul deyilsə, onda heç bir istehsal prosesi baş tuta bilməz, heç bir iqtisadi proses uğurlu nəticə gətirməz. Tarixi hadisələrə nəzər salarkən görünür ki, insanların hələ ibtidai istehsal üsulu dövründə əkinçiliklə məşğul olmaları, onların bu sahədə təcrübə toplamalarına səbəb olmaqla, həm də özlərinin əkinçilik məhsullarına olan tələbatlarını qarşılamalarına şərait yaradırdı. Göründüyü kimi, məşğulluq insanlar arasında münasibətləri tənzimləməklə bərabər, həm də tarixi-iqtisadi proseslərin yeniləşməsinə əsaslı zəmin və şərait yaradır. Hər bir ölkədəki dinamik iqtisadi inkişaf məhsuldar qüvvələrin regionlar üzrə səmərəli yerləşdirilməsi, ölkə ərazisindəki iqtisadi və sosial resurslardan düzgün şəkildə istifadə olunması ilk növbədə burada həyata keçirilən iqtisadi siyasətdən və onun düzgün şəkildə reallaşdırılmasından ibarətdir. Ölkə Prezidenti tərəfindən 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafı Dövlət Proqramı", "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" qəbul edilmişdir. Qəbul olunmuş bu proqramlarda bəhs edilən problemin həll edilməsinin böyük əhəmiyyət kəsb etdiyi göstərilməklə yanaşı, həlli üçün tədbirlər planı layihələrinin hazırlanması və reallaşdırılması da vurğulanmışdır *(Muradov, 2008: 111).*

**Cədvəl 1**

**İqtisadi rayonlar üzrə məşğul əhalinin sayı, min nəfər**

| | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| **Azərbaycan Respublikası** | **4,671.6** | **4,822.1** | **4,879.3** | **4,938.5** | **4,876.6** | **4,988.2** |
| **Bakı şəhəri** | 1,117.6 | 1,153.6 | 1,172.8 | 1,190.7 | 1,177.6 | 1,195.6 |
| **Naxçıvan Muxtar Respublikası** | 231.0 | 235.5 | 237.4 | 249.0 | 251.3 | 253.4 |
| **Abşeron-Xızı** | 272.4 | 279.7 | 281.8 | 283.6 | 280.1 | 284.6 |
| **Dağlıq Şirvan** | 145.9 | 150.3 | 151.5 | 153.2 | 150.7 | 155.8 |
| **Gəncə-Daşkəsən** | 299.4 | 311.2 | 313.4 | 315.4 | 309.6 | 318.1 |
| **Qarabağ iqtisadi** | 379.2 | 391.4 | 394.9 | 398.2 | 392.0 | 402.4 |
| **Qazax-Tovuz** | 319.7 | 333.1 | 337.4 | 340.6 | 335.3 | 343.6 |
| **Quba-Xaçmaz** | 247.8 | 255.5 | 258.4 | 261.3 | 257.7 | 264.8 |
| **Lənkəran-Astara** | 416.0 | 429.5 | 435.5 | 439.3 | 434.1 | 443.7 |
| **Mərkəzi Aran** | 334.2 | 344.8 | 348.1 | 350.6 | 345.0 | 354.8 |
| **Mil-Muğan** | 227.8 | 235.2 | 239.2 | 241.5 | 239.7 | 246.0 |
| **Şəki-Zaqatala** | 301.0 | 310.7 | 314.7 | 317.6 | 313.6 | 323.3 |
| **Şərqi Zəngəzur** | 154.3 | 159.0 | 159.7 | 160.9 | 157.0 | 162.5 |
| **Şirvan-Salyan** | 225.3 | 232.6 | 234.5 | 236.6 | 232.9 | 239.6 |

**Mənbə:** Dövlət Statistika Komitəsi

Cədvəldə hər bir rayon və bölgələr üzrə 2015-ci illə 2021-ci ilin məşğulluq üzrə göstəricisi qeyd edilmişdir. Belə ki, Cədvəl 1-in təhlilindən göründüyü kimi 2015-ci illə müqayisədə 2021-ci ildə ölkədə məşğul əhalinin sayı 6.8 faiz artaraq 5.0 milyon nəfər olmuşdur. 2020-ci illə müqayisədə isə artım 2.3% təşkil etmişdir. Bakı şəhəri istisna olmaqla iqtisadi rayonlar üzrə məşğul əhalinin sayında Lənkəran-Astara rayonunda ümumi məşğul əhalinin sayı ölkə üzrə məşğulluğun 9%-ni və ya 443.7 min nəfərini təşkil etməklə birinci yerdədir.

**Əhalinin məşğulluq probleminin həllində əmək bazarının rolu**

Regionlarda böyük məşğulluq potensialına malik olan aqrar sektorun bazar münasibətləri zəminində inkişaf etdirilməsi bütün tərəfləri ilə birlikdə həm də aşağıdakı amillərlə daha da önəm qazanmaqdadır:

1) regionların kənd təsərrüfatı məhsulları sahəsində ixtisaslaşmasına əlverişli şərait və imkanlar yaratmaq;

2) əmək ehtiyatlarından tam və səmərəli istifadə olunmasını yaxşılaşdırmaq;

3) kənd təsərrüfatı məhsullarının istehsalını intensivləşdirmək;

4) daxili bazarın yerli məhsullarla təmin olunmasına münbit şərait yaratmaq;

5) nəhayət, aqrar sektorda məşğulluğun artırılması imkanlarını genişləndirmək. Ölkədə aqrar sektorun inkişafı, xüsusi mülkiyyətin hökmranlığı və kəndli torpaq münasibətlərinin mövcudluğu ilə əhalinin işsizlik probleminin məşğulluq təminatı ilə əvəzlənməsinə çox münbit şərait yaranmışdır. Çünki, aqrar sektor böyük potensial imkanlara malikdir *(Muradov, 2008: 28).*

Müasir dövrdə məşğulluq probleminin səmərəli həlli istiqamətində əmək bazarı da ən aktual bir məsələ kimi çıxış etməkdədir. Bu mənada ən optimal variant kimi qəbul edilmiş əmək bazarı hər bir ölkədə normal fəaliyyət mexanizminin təşkil edilməsini tələb edir. Əmək bazarı daha çox bazar münasibətlərinə xas olan cəhətləri özündə cəmləşdirməklə həm də burada işaxtaranların lazımi iş yerləri ilə təmin edilməsinə səmərəli mühitin yaradılmasını şərtləndirir. Nəzərə alsaq ki, bazar iqtisadiyyatında hər kəs öz biliyi və bacarığı əsasında müvafiq işlərlə təmin edilə bilir, onda faydalı məşğulluğun təminatında əmək bazarının da rolunu təsəvvür etməmək olmaz. Əmək bazarının elmi izahı bir çox iqtisadi ələbiyyatlarda geniş şəkildə verilmişdir. Düşünürük ki, əmək bazarı sosial-iqtisadi münasibətləri tənzimləyən əsas iqtisadi mexanizm olmaqla, həm də attestasiya, imtahan mərhələsi kimi də qeyd oluna bilər.

**Qrafik 1**

**2021- ci ildə məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, %-lə**




**Mənbə:**Dövlət Statistika Komitəsi

Qrafik 1-dən göründüyü kimi, 2021- ci ildə məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə 36.3%, ticarət, nəqliyyat vasitələrinin təmiri üzrə 14.1%, təhsil üzrə 7.7%, tikinti üzrə 7.5%, sosial təminat üzrə 5.5%, emal sənayesi üzrə 5.4%, digər sahələr üzrə isə 23.5% dir.

Əmək bazarında da digər bazar növlərində olduğu kimi, əsasən iki tərəf iştirak edir. Bunlardan biri tələb, digəri isə təklif edənlərdir. Daha doğrusu, tələb edənlər iş verənlər, təklif edənlər isə iş axtaranlar (iş qüvvəsi) qismində iştirak edirlər. Elə məhz əmək bazarında tələb və təklif qanunları əsasında bütöv, tam bir proses həyata keçirilir. Yəni bu bazarın əsas mahiyyəti ondan ibarətdir ki, burada da tarazlıq qorunmaqla bütün işlər görülür. Əmək bazarında əsasən əmək münasibətləri formalaşır. İşləmək arzusunda olan şəxslərlə işçi qüvvəsi tutmaq istəyən şəxslər bir-birinə ziddiyyət təşkil edir. Bu da təbiidir. Çünki, həm işləmək istəyənlər, həm də müxtəlif əmtəələrin istehsalında və xidmətlərin göstərilməsində istifadə etmək üçün işçi axtaranlar məhz əmək bazarlarına müraciət edirlər. Fikrimizcə, elə əmək bazarının inkişafını, səmərəliliyini və optimallığını təmin və müəyyən edən amil məhz budur. Həm də bu bazar münasibətlərinin əsas mahiyyətini özündə cəmləşdirməsindən irəli gəlir. Əmək bazarı həm də vasitə rolunu da öz üzərinə götürmüşdür. İşləmək istəyib işsiz olanlarla (əmək qabiliyyətli insanlar) iş yerləri arasındakı mərhələni təşkil edən əmək bazan bir növü qeyd olunan hər iki tərəf arasında körpü rolunu oynayır. Əmək bazarında bir iqtisadi müstəqillik hökm sürür ki, bu da iş axtaranlarla, iş verənlərlər arasında təzahür edir. Yəni iş axtaranlar da, iş verənlər də sərbəst surətdə özlərinə uyğun gələn məqsədlərə doğru can atırlar. Əmək bazarında çevik əmək haqqı sistemi vardır ki, bu da əsasən kəmiyyət və keyfiyyət cəhətdən iş qüvvəsinə olan tələb və təklifi özündə əks etdirir. Cəmiyyətin inkişafı nəticəsində ayrı-ayrı peşə sahələrinə olan tələbatın dəyişməsi işçi qüvvəsinin yenidən hazırlanmasına ehtiyac yaradır. Bütün bunlar əmək bazarının səviyyəsi cəhətlərini özündə birləşdirir .

Qeyd etmək lazımdır ki, xarici əmək bazarı daxili əmək bazarına nisbətən daha geniş mənada dərk olunmalıdır. Çünki, xarici əmək bazan iş axtaranların bir müəssisə daxilində deyil, bir çox müəssisə və firmalar üzrə hərəkətini nəzərdə tutur. Xarici əmək bazarına xas olan cəhətlərə əsasən: 1) mövcud iş yerindən əvvəlkinə uyğunluq (xarakter və funksiya baxımından) nəzərə alınır; 2) işçi müəssisə və ya firma daxilində necəliyindən asılı olmayaraq istənilən vəzifəyə (rəhbər və işçi) verilə bilir; Daxili əmək bazarı ilə müqayisə edildikdə, xarici əmək bazarında iş axtaranlar və ya işlə təmin edilənlər yalnız və yalnız müəyyən bir ixtisas üzrə deyil, hər hansı bir sahə üzrə ixtisaslaşmış müəssisələrdə işləyə bilərlər. Yəni bu tipin əhatə dairəsi dar olmayıb, daha geniş mənada ifadə edilə bilir. Düşünürük ki, iş axtaranların əksəriyyəti də məhz bu tipə daha çox önəm verir. Çünki, lap sadə şəkildə qeyd etsək, insanların yaxşı mövqelərdə təmsil olunmaq istəkləri məhz xarici əmək bazarı tipi üçün səciyyəvi olar (biz bununla daxili əmək bazarının mahiyyətini heç də kiçi İtmək istəmirik. Daxili əmək bazarının mahiyyəti haqqında sonralar qeyd edəcəyik). Lakin indi xarici əmək bazarının formaları barədə bəhs etmək istərdik. Bu bazar tipi demoqrafik əlamətlərinə və peşə fərqlərinə görə iki bazar növünə ayrılır. Demoqrafik əlamətlərinə görə bunlardır: 1) uşaqların; 2) gənclərin; 3) yaşlı zəhmətkeşlərin; 4) əlillərin; 5) yaşlı əhalinin əmək

bazarı kimi səciyyələnirlər. Ən mühüm vəzifələrdən biri ondan ibarətdir ki, əmək qabiliyyətli əhalinin, işləmək istəyən insanların hər birinin məqsədlərini gerçəkləşdirə bildikləri, onların hamısının biliyinə, bacarığına, təcrübəsinə uyğun iş yerlərinin tapılmasına yardımçı ola biləcək çevik əmək bazarım formalaşdınnaq mümkün olsun. Ölkəmizdə halhazırda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması və fıravan yaşayışının təmin edilməsi məqsədi ilə müvafiq strukturlar üzərinə düşən vəzifələri uğurla həyata keçirirlər. Məşğulluq Xidməti Orqanları, sosial müdafiəyə xüsusi ehtiyacı olanların məşğulluğunun təmin edilməsi istiqamətində aşağıdakı tədbirləri həyata keçirirlər:

1) sosial müdafiəyə xüsusi ehtiyacı olan işaxtaran və işsiz vətəndaşların məşğulluğunun təmin edilməsi istiqamətində planlaşdırılan tədbirlər haqqında məlumatlandırma;

2) işsiz vətəndaşlar arasında daha çox sosial müdafiəyə ehtiyacı olanların müəyyənləşdirilməsi;

3) həmin vətəndaşların işlə təmin olunması məqsədi ilə kvota üzrə müəyyən edilmiş boş (vakant) iş yerlərinə göndərilməsi . Bu bir həqiqətdir ki, müasir şəraitdə əmək bazarında iştirak edənlərin əksəriyyəti əsasən gənclərdən ibarətdir *(Ağayev, 2005: 45).* Ali məktəbləri bitirərək hərbi xidməti başa vuran gənclərin işləmək istəmələri əmək bazarında onların üstünlük təşkil etməsinə gətirib çıxarır. Çünki, gənc əmək ehtiyatları yuxarıda qeyd etdiyimiz kimi ümumi əmək ehtiyatlarının digər yaş qruplarından enerjili, işlərə yanaşma qabiliyyətinə və taktikasına görə fərqlənməsi onlara diqqət və qayğının da artmasına gətirib çıxarır.

**Nəticə**

Ölkəmizin müasir bazar iqtisadi sisteminin tələbləri çərçivəsində müəyyən etdiyi iqtisadi siyasətin əsas elementlərindən biri kimi əhalinin səmərəli məşğulluq imkanlarının genişləndirilməsi iqtisadiyyatımızın həlli zəruri olan problemlərindən birinə çevrilmişdir. Dissertasiya işində aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, qeyd edilən problemin həlli üçün müvafiq qanunvericilik bazasının təmin edilməsi, müəyyən infrastruktur layihələrinin həyata keçirilməsi, eləcə də praktik olaraq məşğulluq sahəsində kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması istiqamətində sözün həqiqi mənasında böyük İşlər görülmüşdür. Ölkəmiz müstəqil dövlət kimi öz iqtisadi siyasətinin həyata keçirilməsində prioritet istiqamətlərdən biri kimi səmərəli məşğulluğun təmin edilməsini həmişə diqqət mərkəzində saxlamışdır. Həyata keçirilmiş iqtisadi islahatların ilk olaraq aqrar sahədən başlanması, vahid dövlət mülkiyyətinin çoxnövlü mülkiyyət növləri ilə əvəzlənməsi regionlarda əhalinin məşğulluq imkanlarının və həyat səviyyəsinin yüksəlməsi sahəsində ən güclü vasitəyə çevrilmişdir. Torpaq mülkiyyətçilərinin müvafiq tədbirlər vasitəsi ilə stimullaşdırılması, onlara texniki və maliyyə cəhətdən yardımların göstərilməsi sözü gedən sahədə məhsul istehsalının da artmasına və təbii ki, məşğulluq probleminin həllinə yaxından kömək etmişdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı.
2. https://e-qanun.az/framework/4797
3. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)
4. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı
5. Ağayev A. Q. Maliyyə. Terminlərin izahlı və tərcümə lüğəti. Bakı: Ziya 2005,421 s.
6. Muradov A.N. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri. (kolloktiv monoqrafiya) Bakı, 2008, 200 s
7. https://stat.gov.az/source/labour/

# İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR

***Sumqayıt Dövlət Universiteti***
***Süleymanova Lalə Araslan qızı, magistrant***
***Elmi rəhbər: D.Q.Süleymanlı***

***Xülasə***

İnsan kapitalı istehsal prosesinin hərəkətverici qüvvəsidir.İnsan kapitalı insana xas olan əldə edilən biliklərdən,təcrübədən və s. Amillərdən ibarətdir.İnkşafın təmini baxımından insan kapitalının inkşafı mühüm əhəmiyyət kəsb edir. İnsan kapitalı fərdlərin bacarıqları, təhsili, sağlamlığı və təlimi ilə əlaqəlidir. Bu kapitaldır, çünki bu bacarıq və ya təhsil bizim ayrılmaz hissəmizdir və bir maşının, zavodun və ya fabrikin davam etdiyi kimi davam edən bir şeydir.
***Açar sözlər:*** *İnsan, kapital, insan, investisiya, innovasiya, təhsil, işçi, sərmayə.*

***Summary***

Human capital is the driving force of the production process. Human capital consists of acquired knowledge, experience, etc. It consists of factors. The development of human capital is important in terms of ensuring development. Human capital is related to the skills, education, health and training of individuals. It is capital because this skill or education is an integral part of us and something that continues just as a machine, plant or factory continues.
***Key words:*** *Human, capital, human, investment, innovation, education, employee, investment.*

## Giriş

"İnsan kapitalı" məhfumuna daim maraq olmuşdur,bu məsələ tədqiqatçıları da maraqlandırmışdır.Bu anlayışı dərindən öyrənmək üçün analitiklər və tədqiqatçılar geniş araşdırmalara başlamışlar."İnsan kapitalı termini" , "insan resursları" termini ilə əvəz etmək haqqında da fikirlər irəli sürülür.Lakin bu anlayışlar əhəmiyyətli dərəcədə fərqlənirlər.İnsan kapitalı insanların gələcəkdə iş fəaliyyəti zamanı gəlir gətirə biləcək istedadına,bacarıq və qabiliyyətlərinə hazırda qoyulan sərmayələrin cəmidir.İnsan kapitalı istehsal prosesinin hərəkətverici qüvvəsidir.İqtisadçı-nəzəriyyəçi olan A.Smit qeyd etmişdir ki, "faydalı iş istehsalının artımı hər şeydən öncə işçi çevikliyinin və bacarıqlarının yüksəldilməsindən,daha sonra isə istifadə etdiyi maşın və avadanlıqların təkmilləşdirilməsindən asılıdır."Bir çox qərb iqtisadçılarının fikrincə insan kapitalı insana xas əldə edilən biliklərdən, təcrübədən,enerjidən və digər başqa amillərdən ibarətdir.İnnovativ iqtisadiyyatların və infornasiya cəmiyyətlərinin yaradılmasının əsasını-qanunun aliliyi,insan kapitalının yüksək keyfiyyəti, yüksək həyat keyfiyyəti və postindustrial iqtisadiyyata çevrilmiş səmərəli sənaye iqtisadiyyatı təşkil edir.Bazar iqtisadiyyatında innovasiya bazarlarda azad rəqabətin nəticəsidir.Rəqabət olmadıqda yeniliklərin özü yoxdur və ya təsadüf xarakter daşıyır.Böyük qazanc əldə etmək istəyi və ehtiyacı şəxsi sahibini rəqiblərində olmayan xüsusi , faydalı bir işə sövq edir ki, onun məhsulu daha cəlbedici olsun və daha yaxşı satılsın.İqtisadi azadlıq, rəqabətli bazarlar, qanunun aliliyi və xüsusi mülkiyyət – bunlar avtomatik olaraq yeniliyi, yeniliyə olan tələbi, innovativ məhsula investisiyanı yaradan və ideya ilə innovativ məhsul arasında yol açan amillərdir.Sərbəst rəqabətli bazarlara malik bazar iqtisadiyyatı xaricində innovasiyaların və innovativ məhsulların öz-özünə təminatlı generasiyanı yaratmaq mümkün deyil *(Корчагин,2009).* İnsan kapitalı fərdlərin bacarıqları, təhsili, sağlamlığı və təlimi ilə əlaqəlidir. Bu kapitaldır, çünki bu bacarıq və ya təhsil bizim ayrılmaz hissəmizdir və bir maşının, zavodun və ya fabrikin davam etdiyi kimi davam edən bir şeydir.On doqquzuncu əsrə qədər heç bir ölkədə insan kapitalına sistemli investisiya qoyuluşu xüsusi əhəmiyyət kəsb etmirdi. Təhsilə, təlimə və digər investisiya növlərinə xərclər çox az idi. Elmin müasir malların və daha səmərəli istehsal üsullarının inkişafı üçün əvvəlcə Böyük Britaniyada, sonra isə tədricən başqa ölkələrdə tətbiqi ilə yeni əsrdə işlər kökündən dəyişməyə başladı. XX əsrdə təhsil, bacarıqlar, biliklər ümumilikdə fərdlərin və xalqların məhsuldarlığının həlledici determinantına çevrilir. XX əsr hətta insan kapitalı əsri kimi də müəyyən edilə bilər, o mənada ki, ölkənin həyat səviyyəsinin əsas amili onun sakinlərinin bacarıqlarını, biliyini, sağlamlığını, vərdişlərini və adətlərini inkişaf etdirmək və istifadə etmək

qabiliyyətidir.Bəzi hesablamalara görə, ABŞ-da və digər qabaqcıl cəmiyyətlərdə insan kapitalı - təhsil, müxtəlif aspektləri üzrə təlim və səhiyyə - kapitalın, yəni ölkənin ümumi sərvətinin 80 faizini təşkil edərdi. Hətta bu təxminlər şişirdilmiş olsa da - və mən hesab etmirəm ki, əgər belədirsə, o qədər də böyükdür - onlar hələ də insan kapitalına etinasızlıq edən ölkənin bunu öz təhlükəsi ilə etdiyini açıq şəkildə göstərir.İqtisadi artım üçün insan kapitalının əhəmiyyətini hətta Yaponiya, Tayvan, Honq-Konq, Cənubi Koreya və digər sürətlə inkişaf edən Asiya iqtisadiyyatlarının (Hindistan, Çin) parlaq nailiyyətləri də əyani şəkildə nümayiş etdirir. Bununla belə, bunlar bir qədər bariz nümunələrdir, belə ki, bu ölkələrin bir çoxu təbii ehtiyatlara malik deyil - adətən iqtisadi uğurun müəyyənediciləri kimi yüksək qiymətləndirilir və Qərbin öz məhsullarına qoyduğu idxal maneələri ilə məşğul olmalıdır. Buna baxmayaraq, onlar son dərəcə sürətlə inkişaf etməyi bacarıblar və bu, əhəmiyyətli dərəcədə savadlı, müasir və çalışqan işçi qüvvəsinə, həm də uşaqlarına çox qayğı göstərən ailələrə malik olması ilə bağlıdır.Hər bir mədəniyyət uğurla inkişaf edə bilən xalqlar yaratmağa qadirdir: bu, Asiyaya, eləcə də Latın Amerikasına aiddir, burada, məsələn, Çili və bəlkə də Braziliyanı qeyd edə bilərik. Afrikanın böyüməsinə mane olan mədəniyyət deyil, hökumətlərin öz xalqlarına tətbiq etdiyi siyasətlərdir. Sağlam siyasətlərlə, Afrika mədəniyyətində heç bir şey bu xalqların dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri ilə getdikcə daha çox birləşməsinə mane ola bilməz.İqtisadçılar 1950-ci ildən bəri yüzdən çox ölkənin artımını təhlil etdilər və gördülər ki, Koreya və ya Tayvan kimi bəzi ölkələr çox aşağı səviyyədən başlayaraq indi çox zəngindir, digərləri isə, məsələn, Nigeriya və digər Afrika ölkələri səviyyələr oxşar olsa da, iqtisadi cəhətdən durğun olaraq qaldı və ya hətta geridədi. Bir vaxtlar dünyanın ən varlı ölkələrindən biri olan Argentina kimi bir xalq niyə altmış ildən çox davam edən tənəzzülə qədəm qoydu? Bu tədqiqatların demək olar ki, hamısı təhsil və səhiyyədən istifadənin (gözlənilən ömür uzunluğu ilə ölçülür) müəyyənedici amil olduğunu vurğulayır.Təbii ki, bitkilərin və fiziki kapitalın verilməsi müasir iqtisadiyyatda əhəmiyyətsiz deyildir. Amma ki, maşın, avadanlıq və qurğular lazımdır: lakin bu vasitələrdən də səmərəli istifadə etmək üçün təcrübəli işçilər və menecerlər və yenilikçi sahibkarlar da lazımdır. Ən yaxşı avadanlığı xaricdən gətirən və məyusedici nəticələr əldə edən ölkələrin nümunələri çoxdur. Möhkəm insan kapitalı bazası olmayan yerdə artım mümkün deyil. Müvəffəqiyyət bir millətin öz xalqından istifadə etmək bacarığından asılıdır. İnsanlara qarşı pis rəftar edilərsə , insanların özlərinə çox az sərmayə qoymasına icazə verilərsə, əhalinin əhəmiyyətli bir hissəsi diqqətdən kənarda qalırsa, hər bir xalq nə qədər texnikası olsa da, müasir dünyada uğursuzluğa düçar olacaq.Təhsil və təlim artımı və səmərəliliyi təşviq edir, lakin təkcə: bərabərsizliyi və əlverişsiz fonun mənfi nəticələrini azalda bilər. Bacarıqlı və yoxsul gənclər üçün təhsil iqtisadi iyerarxiyaya yüksəlmək üçün ən təsirli vasitədir: əhalinin 90 faizi üçün əslində insan kapitalı onların sahib olduğu əsas sərvətdir. Məhz buna görə də bir ölkədə təhsildə bərabərsizlik daha çox olduqda, gəlir bərabərsizliyi daha da artır. Əslində və ümumiyyətlə, gəlir bərabərsizliyi insan kapitalının müxtəlif formalarına sahib olmaqda bərabərsizliklə bağlıdır: iş yerində təlimdən səhiyyə və məktəb təhsilinə qədər.Buna görə də təəccüblü deyil ki, Birləşmiş Ştatlarda artan gəlir bərabərsizliyi əsasən təhsil və təlim səviyyəsinin yüksəldilməsi ilə bağlı əmək haqqının artması ilə əlaqədardır və Meksika, Braziliya kimi bir çox ölkələrdə təhsil imkanlarında regional fərqlərlə əlaqəli böyük yoxsulluq cibləri var. Fərdi və ya milli səviyyədə insan kapitalına uğurlu investisiya nədən ibarətdir? sualını araşdıraq.Bunun üçün biz yaxşı cəmiyyətin və iqtisadi uğurun təməli olan ailədən başlamalıyıq. Ailələr zamanla dəyişdi, lakin onlar hələ də müasir iqtisadiyyatda çox vacibdir. İnsan kapitalının nə olduğunu və onun necə formalaşdığını başa düşmək üçün ailələrə qayıtmaq lazımdır: yəni uşaqlara qayğı göstərən və əlində olan bütün imkanlarla onlara təhsil və prinsiplər verməyə çalışanlara. Bütün cəmiyyətlərdə ailə ən mühüm institutlardan biridir: o, gəncləri yetişdirir və gələcək nəslə dəyərləri aşılayır, qida, geyim və s. istehsal edir, fövqəladə hallara müdaxilə edir və yaşlılara kömək edir. Ailə, təbii ki, zaman keçdikcə dəyişməz qalmayıb. Bugünkü tipik ailə bir neçə əsr əvvəl olduğundan çox fərqlidir. Bir müddətdir ki, Avropa və Şimali Amerikada dəyişikliklərin tempi ləng olub. Lakin XX əsrdə, xüsusən də son 40 ildə bu, çox sürətləndi. Əslində, dəyişikliklər keçən əsrin ikinci yarısında müasir tarixin hər hansı müqayisəli dövrü ilə müqayisədə daha inqilabi xarakter daşıyırdı. XIX əsrdə, hətta ABŞ-da və Avropanın böyük bir hissəsində, tipik ailədə dörd-altı doğuş var idi. Doğum əmsalı iyirminci əsr boyu

azalmışdır, belə ki, bu gün bir çox ölkələrdə məhsuldarlıq əhalini əvəz etmək üçün çox zəifdir. Doğuş nisbəti İtaliya, Almaniya, İspaniya, Portuqaliya, Cənubi Koreya, Yaponiya və bir sıra digər sahələrdə əvəzetmə nisbətindən aşağıdır *(G.Becker,2005).* Azərbaycanın inkişafının təmini baxımından da insan kapitalının inkişafı mühüm əhəmiyyət kəsb edir.Bu sahədə Azərbaycanda müəyyən tədbirlər görülüb və görülməkdə də davam etdirilr.Xüsusən də təhsil sahəsinə diqqət və vəsait artırılıb.Peşəkar kadrların hazırlanmasına ,təhsilin inkişaf etdirilməsinə büdcədən vəsaitin ayrılmasının həcmi daha da artırılmışdır *(Salayev,2021).*

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1.https://www.baki-xeber.com/siyaset/115972.html
2.https://www.bpp.it/Apulia/html/archivio/2005/III/art/R05III014.htm
3. http://www.lerc.ru/?part=articles&art=3&page=22

# MÜASİR ŞƏRAİTDƏ MÜƏSSİSƏDƏ MALİYYƏ MENECMENTİ SİSTEMİNİN İNKİŞAFI YOLLARI

*Bakı Dövlət Universiteti*
*Əmrahov Seymur Teymur oğlu, magistrant*
*Elmi rəhbər:i.e.d.,prof.S.A.Abbasov*

***Xülasə***

Məqalədə əvvəlcə, maliyyə kateqoriyası pul münasibətləri sisteminin əsası kimi müəyyən edilmiş, maliyyə menecmenti sisteminin formalaşması xüsusiyyətləri və prinsipləri və şirkətin maliyyə strukturunun müəyyən edilməsi qaydası təklif edilmişdir.
***Açar sözlər:*** *maliyyə menecmenti sistemi, büdcələşdirmə, informasiya təminatı sistemi, maliyyə strukturu.*

***Summary***

In the article, first, the financial category was defined as the basis of the system of monetary relations, the features and principles of the formation of the financial management system and the procedure for determining the company's financial structure were proposed.
***Keywords:*** *financial management system, budgeting, information provision system, financial structure.*

## Giriş

Maliyyə menecmentində maliyyə və uçot nəzəriyyələri arasında sıx əlaqə müşahidə olunur. Buna əsasən maliyyə menecmenti metodlarının və maliyyə təhlilinə, planlaşdırmaya, proqnozlaşdırmaya və daxili maliyyə nəzarətinə xas olan spesifik üsulların həyata keçirilməsinin əlaqələndirilməsinə nail olunur. Koordinasiya maliyyə menecmentinin metodlarından olan büdcələşdirmə vasitəsilə həyata keçirilir. Odur ki, maliyyə menecmentinin formalaşmasının əsası kimi maliyyə strukturunun və metodlarının inkişafı yollarının tədqiqi mühüm əhəmiyyət kəsb edir.

## 1. Maliyyə pul münasibətləri sisteminin əsası kimi

Maliyyə ixtisaslaşma tələb edən geniş bilik və təcrübəvi fəaliyyət sahəsidir. Hazırda maliyyənin fəaliyyətinin beş daha iri sferasını ayırmaq olar: dövlət maliyyəsi; sahə maliyyəsi; kredit və pul dövriyyəsi; sığorta; qiymətli kağızlar bazarı. Maliyyə menecmenti bütün sahələri əhatə edir, lakin daha çox "sahə maliyyəsi" sferasında həyata keçirilir. İngilis termini olan «financial management» hərfi olaraq «maliyyə idarəetməsi», yəni idarəetmə metodlarından biri kimi, bizim tərcüməyə görə isə "maliyyənin idarə edilməsi" kimi tərcümə olunur. Bu iki termin eyni olaraq ən sadədən daha mürəkkəbə doğru inkişafı, yəni maliyyədən maliyyə menecmentinə doğru inkişafı göstərir.

Maliyyə pul münasibətləri sistemi kimi müəyyən edilməklə, gəlirlərin formalaşmasında, xərclərin həyata keçirilməsində, qeyd olunan proseslərin səmərəliliyinin monitorinqində, sosial və iqtisadi inkişaf effektivliyinin konkret monitorinqində ifadə edilir. Burada qeyd edək ki, dar və təmiz maliyyə mənasında səmərəlilik zərərsizliyi, gəlirliliyi, rentabelliyi, daha dəqiq isə, aşağı düşməyən, artan rentabelliyi nəzərdə tutur. Maliyyə menecmenti – təsərrüfat subyeklərinin istər taktiki və istərsə də strateji hədəflərinə çatmaqdan ötrü rasional kanallardan maliyyə ehtiyatlarının cəlbi prosesi və sonradan daha mədsədli yararlanmmaq xətti ilə pul vəsaitlərini səmərəli idarəolunmasını araşdıran iqtisad elminin azad sistemləşdirilmiş və perspektivli tərəflərindən biridir. Maliyyə menecmentinin təşkilinin maliyyələşməsinin təkmilləşdirilməsi metodları respublikanın iqtisadi cəhətdən yüksəlişində rol oynayan mühüm amildir. Digər prizmadan, bütün ölkələr məhdud olan mənbələrdən məqsədəuygun və bərabər tərzdə vəsaitlərdən yararlanmaq məcburiyyəti qarşısındadırlar. Bunun yekunudur ki, bu mənbələrdən istifadə anı alternativlər ortasında uyğun gələn birisinin seçilməsi ümdə vacib işdir. Müəssisələrin maliyyələşdirilməsi üsullarının geniş analizi alternativlər arasında ölkə iqtisadiyyatının maraqlarına uyğun olanının seçilməsinə yardımçı olan alətdir. Hal-hazırda maliyyə bazarlarındakı qeyri-müəyyənlik və əsas bank əməliyyatlarından gəlirliliyin azalması fonunda intensiv artım strategiyasından istifadə böyük əhəmiyyət kəsb edir. Eyni zamanda kredit təşkilatının daxili ehtiyatlarının üzə çıxarılması təkcə bankın cari maliyyə vəziyyətini vaxtında qiymətləndirməyə imkan verməyinə görə deyil, həm də sabitlik və dayanıqlılığın saxlanılması şəraitində öz kapitalını, mənfəətini artırmaq üçün zəruri

tədbirlər kompleksini formalaşdırmağa imkan yaratsa da, səmərəli maliyyə menecmenti sistemi olmadan mümkün deyildir.

Lakin görürük ki, maliyyə kateqoriyasının tərifi yalnız cəmiyyətdə iyerarxiyanın bütün səviyyələrinə və bu şərhin müəyyən redaksiyada məzmununa deyil, yaranan, bölüşdürülən və təkrar bölüşdürülən pul resurslarının, mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş pul fondlarının tərkibindəki dəyişikliklərlə birgə maliyyə fəaliyyətinin bütün sahələrinə aiddir *(Ковалев В.В. Финансовый менеджмент; теория и практика. - 2-е изд., перераб. и доп. - М.: ТК Велби, Изд-во Проспект, 2007. - 1024 с.).* Mərkəzləşdirilməmiş pul fondları müəyyən xərclərə görə yığımı, ayrılmanı və hədəflənməni nəzərdə tutur. Buna zərurətin olması aydındır: pul mücərrəddir – o, alqı vasitəsidir; əgər hər hansı bir pul fondundan ciddi məqsədli istifadəyə vəsait ayrılmırsa, onda bunu demək olar ki, istənilən ehtiyac üçün sərf etmək olar.

Başqa sözlə, resurslar kimi pul fondları da vahid təyinata malik olub, maliyyə qanunvericiliyi ilə və ya idarəetmə qərarları ilə müəyyən edilən məsrəflərin, investisiya xərclərinin mənbəyi kimi çıxış edir. Buna baxmayaraq, maliyyə resursları anlayışı pul fondlarından daha geniş anlayışdır. Onları resurslar hesabına yaradılan, lakin nisbi sabitliyi nəzərdə tutan pul fondlarından fərqli olaraq dövriyyədən azad olunmasına və ya əlavə dövriyyə yüklənməsinə qabil məqsədyönlü pul vəsaitlərinin məcmusu kimi müəyyən etmək olar.

**2. Maliyyə menecmenti sisteminin formalaşması xüsusiyyətləri və prinsipləri**

Maliyyə menecmentinin tərifinə gəlincə, o, iqtisadi menecmentin fəal tərkib hissəsi kimi, maliyyənin idarəetmə mexanizmi və ya maliyyə mexanizmi anlayışı ilə bağlıdır. Onu bütün iyerarxik səviyyələrdə istehsalın idarə edilməsi prosesinin iqtisadi idarəetmə forma və üsullarının kompleksi kimi müəyyən etmək olar *(Бланк И.А. Финансовый менеджемент. Учебный курс. Киев, Эльга, Ника – Центр, 2005.).* Maliyyə mexanizmi isə cəmiyyətin (müvafiq olaraq onun bütün özəklərinin) sosial-iqtisadi inkişafı prosesinin idarə edilməsinin maliyyə formaları və metodlarının kompleksidir *(Шаринова Г.А. Финансовый механизм – активный элемент в системе управления финансами. // Вестник Калмыцкого Университета. 2013г. №1(17).).* Bu şərh maliyyə mexanizmini eyni vaxtda iqtisadi idarəetmə mexanizminə daxil edir və onu sonuncunun çərçivəsindən çıxarır. Əgər iqtisadi mexanizm üstün olaraq baza kateqoriyasıdırsa, maliyyə mexanizmi maliyyənin özü kimi bazis və üstqurum kateqoriyalarının əlaqələndiricisi sayılmaqla hər iki sferada fəaliyyət göstərir.

Elm kimi maliyyə menecmentinin xüsusiyyəti onun qeyri-ənənəviliyindən və nisbi yeniliyindən irəli gəlir. Hazırda Azərbaycanda maliyyə menecmenti uğurla inkişaf edir. Bir tərəfdən, iqtisadi elmlər sistemində maliyyə menecmenti menecment kimi geniş elmin müstəqil və son dərəcə spesifik hissəsini təşkil edir. Amma digər tərəfdən, maliyyə menecmenti bir sıra bütöv tətbiqi iqtisad elmlərinə xas olan idarəetmə-maliyyə problemlərini həll edir.

Maliyyə menecmentinin prinsipləri onun metodologiyasının prosedur tərəflərini tənzimləyir, onun metodunun inkişafına və təkmilləşdirilməsinə kömək edən dinamik komponenti sayılır. Maliyyə menecmentinin müəssisənin ümumi idarəetmə sisteminə inteqrasiyası, idarəetmə qərarlarının formalaşmasının kompleks xarakteri, idarəetmənin yüksək dinamizmi, idarəetmə qərarlarının işlənib hazırlanmasına yanaşmaların dəyişkənliyi və müəssisənin strateji məqsədlərinə istiqmətlənmə kimi ümumi qəbul edilmiş prinsipləri şirkətlərdə bu biznesin spesifikliyi baxımından tamamlanmalıdır *(Бланк И.А. Финансовый менеджемент. Учебный курс. Киев, Эльга, Ника – Центр, 2005.).* Məsələn, bura müəssisənin maliyyə sərbəstliyi, müəssisənin özünü maliyyələşdirməsi, müəssisənin maddi marağı, maddi məsuliyyət, risklərin maliyyə ehtiyatları ilə təmin olunması kimi spesifik və konkret xarakter daşıyan prinsipləri əlavə edə bilərik *(Abbasov S.A. Maliyyə menecmentinin nəzəri və praktiki məsələləri", «elm və təhsil » Bakı 2022).*

İnvestisiya qoyuluşları investisiya layihələrinin həyata keçirilməsi ilə müşaiyət edilməlidir. Gəlirlərin xərclərə uyğunluğu, informasiyaların tamlığı, gələcək gəlirlərlə risklərin tarazlığı, qərar qəbuletmənin vaxtında olması prinsipləri operativ və səmərəli fəaliyyət üçün zəruri olan konkret qaydaların və təlimatların işlənib hazırlanmasının əsasında durur.

Maliyyə menecmentinə çoxfaktorlu xarici mühit birbaşa və ya dolayı yolla böyük təsir göstərir. Bu, müəyyən edilən prinsiplərin iki qrupa ayrılmasının məqsədəuyğunluğunu şərtləndirir:

reallaşdırılmasına xarici mühitin təsir etdiyi prinsiplər; reallaşdırılmasına xarici mühitin təsir etmədiyi prinsiplər.

Fikrimizcə,maliyyə menecmentinə sadaldıgımızları aid etsək yanlışlıga yol verməri aşağıdakılar daxildir:

- fərqli maliyyə alətlərindən yararlanaraq müəssisənin maliyyə siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi;
- maliyyə məsələlərinə dair qərar qəbulu, onların dəqiqləşdirilməsi və həyata keçirilməsi metodlarının işlənib hazırlanması;
- müəssisənin maliyyə hesabatlarının tərtibi və təhlili vasitəsilə informasiya təminatı;
- investisiya layihələrinin qiymətləndirilməsi və investisiya portfelinin formalaşması; kapitala xərclərin qiymətləndirilməsi; maliyyə planlaşdırılması və nəzarət;
- müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin idarə edilməsi aparatının təşkili.

Ümumiyyətlə,maliyyə menecmentinin metodları əsasən aşağıdakıları qiymətləndirməyə imkan verir:

- pul investisiyasının riskini və gəlirliliyini;
- müəssisənin iş fəaliyyətinin səmərəliliyini;
- dövriyyəni və onun məhsuldarlığını.

**3. Şirkətin maliyyə strukturunun müəyyən edilməsi qaydası**

Göstərilən istiqamətlər məsləhət xarakteri daşıyır, lakin onların həyata keçirilməsi, bizim fikrimizcə, istənilən milli şirkətə öz büdcə prosesinin həyata keçirilməsi mərhələsində müəyyən konkret məqsəd və vəzifələrə uyğunlaşdırılmış informasiya təminatı sistemini müstəqil surətdə işləyib hazırlamağa imkan verir.

Mövcud maliyyə strukturunun vəziyyətinin, onun fəaliyyət şəraitinin müəyyən edilməsi və mümkün inkişaf istiqamətlərinin proqnozlaşdırılması məqsədilə onun müayinəsi həyata keçirilir. Bunun üçün müəssisədə idarəetmənin təşkilinin hansı vəziyyətdə olduğunu müəyyən etmək lazımdır. Yerli şirkətlər üçün xətti-funksional sistemdən istifadəyə üstünlük verilməsi məqsədəuyğundur. Büdcələşdirmənin qurulması məqsədilə şirkətin maliyyə strukturunun müəyyən edilməsi qaydası aşağıdakı kimi olmalıdır:

1. Təsərrüfat fəaliyyəti növlərinin siyahısını tərtib etmək.

2. Müəssisənin təşkilati idarəetmə strukturunu sxem şəklində qurmaq. Bu sxem, elementləri biznesin seçilmiş növlərinə uyğun müəyyən edilmiş funksional bölmələr sayılan çoxsaylı əlaqələrə malik olmalıdır . Eyni zamanda, şirkətin təşkilati strukturunu təşkil edən struktur bölmələri arasında maliyyə menecmentinin ayrılmış funksiyalarının bölgüsü aparılmalıdır. Bu, üst-üstə düşən funksiyaları aşkara çıxarmağa və biznesin idarəetmə və nəzarət səviyyəsi kifayət qədər yüksək olmayan istiqamətlərini müəyyən etməyə imkan verəcəkdir. Şirkətin təşkilati strukturu maliyyə strukturuna tabe olmalıdır, çünki bu, maliyyə menecmenti funksiyalarının müntəzəm aparılması üzrə çərçivə və başlanğıc nöqtəsi, beləliklə də təşkilatın maliyyə məqsədlərinə nail olmağın üsulu sayılır.

3. Biznesin növlərinini struktur bölmələri üzrə bölmək. Bu zaman yuxarıda sadalanan bizneslərdən heç biri ilə məşğul olmayan struktur bölmələrini müəyyən etmək lazımdır. Bu funksional bölmələr şirkət üçün açıq-aydın mənfəət gətirmək imkanına malik olmayan bölmələrdir. Buraya mühasibat və maliyyə xidmətləri, insan resursları və hüquq idarələri, iqtisadi təhlükəsizlik və informasiya təminatı üzrə idarə, eləcə də strateji planlaşdırma və iqtisadi təhlil şöbəsi daxildir.

4. Struktur bölmələrinin funksiyaları göstərilməklə maliyyə uçotu mərkəzlərinin (MUM) siyahısını tərtib etmək. MUM siyahısının tərtib edilməsini onlara daxil olan struktur bölmələrinin funksiyaları göstərilməklə eyni vaxtda aparmaq məqsədəuyğundur. Əsasında şirkətin işlənib hazırlandığı maliyyə strukturunun dəqiqləşdirilmiş sxemi təsvir edilən MUM üçün, əvvəlcədən ayrılmış struktur bölmələri və onların komponentləri təhkim edilməlidir. Şirkətin təklif edilən dəqiqləşdirilmiş maliyyə strukturu MUM-un möhkəmləndirilmiş sxeminin işlənib hazırlanmasının əsasıdır.

5. MUM üzrə gəlir və xərcləri bölüşdürmək. Şirkətdə maliyyə strukturu təşkilati strukturun maliyyə uçotu mərkəzlərinə bölünməsi kimi nəzərdən keçirilir. Məqsəd büdcələrin işlənib

hazırlanması və tərtibindən, eləcə də MUM üzrə gəlir və xərclərin, fəaliyyətdən mənfəət və zərərlərin qeyd edilməsindan ibarətdir.

6. Maliyyə strukturu haqqında əsasnamə hazırlamaq. Bu, təşkilatın maliyyə strukturunun müayinəsinin yekun mərhələsidir.

**Nəticə**

1. Maliyyə menecmenti maliyyə nəzəriyyəsi və mühasibat uçotunun analitik bilikləri arasında əlaqələndici həlqə olmaqla, maliyyə təhlilinə, planlaşdırmaya, proqnozlaşdırma və daxili maliyyə nəzarətinə xas olan xüsusi üsullara malikdir.

2. Maliyyə menecmentinə çoxfaktorlu xarici mühit birbaşa və ya dolayı yolla böyük təsir göstərir. Bu, müəyyən edilən prinsiplərin iki qrupa ayrılmasının məqsədəuyğunluğunu şərtləndirir: reallaşdırılmasına xarici mühitin təsir etdiyi prinsiplər; reallaşdırılmasına xarici mühitin təsir etmədiyi prinsiplər.

3. Büdcələşdirmə, məsuliyyət mərkəzləri, icraya nəzarətin təşkili, büdcə göstəriciləriindən kənarlaşmaların təhlili kontekstində büdcələrin işlənib hazırlanmasına əsaslanan təşkilatların maliyyə resurslarının idarə edilməsi və həmin fəaliyyət əsasında maliyyə strukturunu inkişaf etdirmək və gözlənilən nəticələrə nail olmaq məqsədilə tənzimlənməsi üçün nəzərdə tutulan xüsusi metoddur.

4. Yerli şirkətlər üçün büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin modeli aşağıdakı mərhələlər üzrə qurulmalıdır: bir sıra ümumi prinsiplərin müəyyən edilməsi; yerli şirkət tərəfindən büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin modelinin qurulması; maliyyə strukturunun müayinəsinin aparılması və sxem şəklində fəaliyyət istiqamətləri üzrə məsuliyyət mərkəzlərinin ayrılması; II və III mərhələlər çərçivəsində işlənib hazırlanmış sxemlərin müqayisə edilməsi.

5. Şirkətin maliyyə strukturunun müəyyən edilməsi qaydasının aşağıdakı prosedurlardan ibarət olmasını məqsədəuyğun sayırıq: təsərrüfat fəaliyyəti növlərinin siyahısının tərtib edilməsi; müəssisənin təşkilati idarəetmə strukturunun sxem şəklində qurulması; Biznesin növlərininin struktur bölmələr üzrə ayrılması; struktur bölmələrinin funksiyaları göstərilməklə maliyyə uçotu mərkəzlərinin (MUM) siyahısının tərtib edilməsi; MUM üzrə gəlir və xərcləri bölüşdürülməsi; maliyyə strukturu haqqında əsasnamənin hazırlanması.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Abbasov S.A. Maliyyə menecmentinin nəzəri və praktiki məsələləri”, «elm və təhsil » Bakı 2022,
2. Бланк И.А. Финансовый менеджемент. Учебный курс. Киев, Эльга, Ника – Центр, 2005.
3. Ковалев В. В. Финансовый менеджмент; теория и практика. — 2-е изд., перераб. и доп. - М. : ТК Велби, Изд-во Проспект, 2007. - 1024 с.
4. Харитонова Е.Н. Бюджетирование как инструмент оперативного управления предприятием. Автореф. дисс. на соиск. уч. ст. канд. экон. наук. Москва, 2002. – 18 с.
5. Шаринова Г.А. Финансовый механизм – активный элемент в системе управления финансами. // Вестник Калмыцкого Университета. 2013г. №1(17).

# İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR

***Bakı Dövlət Universiteti***
***Mirzəyeva Ayan Amar qızı, magistrant***
***Elmi rəhbər: L.Q.Abasova***

***Xülasə***

Məqalədə müasir dünya sivilizasiyasında mühüm yer tutann rəqabətli insan kapitalının əhəmiyyəti qeyd olunur, bu sahənin inkişafı məqsədilə ölkəmizdə aparılan uğurlu siyasət öz əksini tapır. İnsan kapitalı qədimdən bəri cəmiyyətin əsasında duran əsas komponentlərdən biridir. Xüsusilə bu sahədə təhsildə edilən yeniliklər, aparılan islahatlar diqqət mərkəzindədir. Mütəxəssis, peşəkar kadr hazırlığı, innovativ texnologiyaların tətbiqi prioriter mövqedə dayanır. Aktual məsələlərdən olan işsizlik problemi, iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi üçün məşğulluq səviyyəsinin yüksəldilməsi, bu aspektdən qəbul edilən qərarların bir qismi burada şərh edilir.
***Açar sözlər:*** *təhsil, islahat, işsizlik, məşğulluq, investisiya.*

***Summary***

The article highlights the importance of competitive human capital, which occupies an important place in the modern world civilization, and reflects the successful policy pursued in our country for the development of this area. Human capital is one of the main components underlying society since ancient times. In particular, innovations in education and reforms in this area are in the spotlight. The training of specialists, professional personnel, the introduction of innovative technologies stand in a priority position. The problem of unemployment, increasing the level of employment for the implementation of the economic development policy, some of the decisions taken in this aspect are commented here.
***Key words:*** *education, reform, unemployment, employment, investment.*

Dövlətin inkişafında, xalqın tərəqqisinin əsas hərəkətverici qüvvəsi insan kapitalıdır. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bildirmişdir ki, müasir dövrdə hər bir xalqın, dövlətin gələcək taleyini təkcə onun malik olduğu zəngin təbii sərvətlər deyil, həm də elmi-mədəni və intellektual imkanları, bütün bunların da fövqündə dayanan insan kapitalı müəyyənləşdirir. Ümumiyyətlə, insanın tərəqqidəki rolu ilə bağlı qədim dövrlərdən bəri müxtəlif fikirlər vardır. Yunan fəlsəfəsinin banisi Sokrat, nəhəng filosoflar Platon, Aristotel kimi şəxslər cəmiyyətin tərəqqisində insanın rolunu yüksək səviyyədə qiymətləndirmişlər. “Ölümdən deyil, faydasız yaşamaqdan qorxmaq lazımdır” deyən Nəsirəddin Tusi Yaxın və Orta Şərq məktəblərində dərslik kimi istifadə edilən “Əxlaqi-Nasiri” əsərində kamil insanı təhlil etmişdir. İnsan kapitalında nəzərə alınmalı məsələ N.Tusinin qeyd etdiyi kimi “kəmiyyətcə yox, keyfiyyətcə artım” məsələsidir. Qeyd etməliyəm ki, keyfiyyətcə artım dedikdə bir istiqamətdə inkişaf deyil, müxtəlif aspektlərdə innovasiyalar keçirilməsi nəticəsində bütöv, tam inkişafdan söhbət gedir.

Prezident İlham Əliyev ölkəmizə rəhbərliyinin ilk illərindən Azərbaycanın mövcud təbii resurslarının insan kapitalına çevrilməsi zərurətini əsas prioritetlərdən biri kimi irəli sürüb. Dövlətimiz rəqabətli insan kapitalının fromalaşdırılmasını qloballaşma dövrünün əsas vəzifələrindən biri kimi görür və bu istiqamətdə ardıcıl addımlar atır. İlham Əliyevin uğurlu siyasəti nəticəsində əhalinin maddi rifahının yaxşılaşdırılması, işsizlik, yoxsulluq kimi problemlərin səviyyəsinin bir neçə dəfə aşağı düşməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, əməkhaqqının, təqaüdlərin dəfələrlə artması, sərbəst bazar münasibətlətinin inkişafına qayğının gücləndirilməsi günümüzün reallıqlarıdır.

Mayın 26-29-da Bakıda keçirilən və Azərbaycan-Türkiyə birgəliyinin daha bir nümunəsi kimi tarixə yazılan “TEKNOFEST-Azərbaycan” Aerokosmik və Texnologiya Festivalı da bütün digər cəhətləri ilə yanaşı, eyni zamanda insan kapitalının, elmə, texnologiyalara qoyulan sərmayələrin gücünün nümayişi idi.

Prezident İlham Əliyev demişdir: “Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə

aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir." Dövlət rəhbərimizin bu fikri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapıb. Milli prioritetlərin 3-cü hissəsi "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı"nın yaradılmasına həsr edilib *(Əliyeva, 2022:2).*

Qüdrətli dövlətin dayağı olan insan kapitalına təhsil sahəsində yeniliklərin, islahatların keçirilməsi bilavasitə təsir göstərir. Ümumilli Lider Heydər Əliyevin prezidentliyi dövründən başlayaraq kadr potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Heydər Əliyevin "Azərbaycanın gələcəyi təhsilli insanların çiyinləri üzərində qurulacaq." kəlamı diqqətəlayiqdir. Həmin dövrdə azərbaycanlı gənclər təhsil almaq üçün xarici ölkələrə göndərilirdi. Ulu öndər Heydər Əliyevin təklifi əsasında "Böyük tələbə layihəsi" reallaşdırıldı. Bu layihəyə əsasən azərbaycanlı gənclər Türkiyənin nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanacaqdı. Türkiyə və Azərbaycan arasında olan bu layihə parlaq gələcək naminə atılan böyük bir addım idi. Ümummili Liderin əsasını qoyduğu bu siyasət bu gün də davam etdirilməkdədir.

Cənab Prezident İlham Əliyev tərəfindən təhsil sahəsində keçirilən islahatlar insan kapitalının rolunu daha da artırır. Dövlət başçısı "Qara qızılı insan qızılına çevirək" ideyasını irəli sürərək mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsini, kadrların ölkənin inkişafının mühüm amilinə çevrilməsini təmin etməyi qarşıya prioritet vəzifə kimi qoyub.

Azərbaycanda son onilliklər ərzində elmin maliyyələşdirilməsi sistemində islahatlar aparılması və sistemin təkmilləşdirilməsi istiqamətində çox işlər görülmüşdür. Elmin maliyyələşdirilməsi üçün müvafiq fondlar yaradılmışdır.

Ölkəmizdə son illər bu istiqamətdə qazandığı nailiyyətlər, "qara qızıl"ı, yəni ölkəmizin əsas təbii sərvətlərindən olan nefti insan kapitalına çevirmək əzmi beynəlxalq hesabatlarda da yüksək qiymətləndirilir *(Abbaszadə, 2007:5).*

İnsan kapitalının formalaşması və inkişafında birbaşa iştirak edən ixtisaslı mütəxəssislərin hazırlanması və yeni biliklərin yayılması, tətbiqi və ötürülməsi zəruri şərtlər hesab edilir. Bu baxımdan təhsil və elm sahəsində infrastruktur təkmilləşdirilməli, innovativ təlim və texnologiyaların tətbiqi genişləndirilməli, nəzərdə tutulan hədəflərin reallaşdırılması üçün maddi-texniki bazanın möhkəmləndirilməsinə investisiya yönəldilməlidir.

Məhz dinamik inkişaf edən ali təhsil sisteminin formalaşdırılması müasir çağırışlar dönəmində hər bir ölkənin beynəlxalq rəqabətliliyinin təmin olunmasını gücləndirən həlledici faktorlardan birinə çevrilir. Bu baxımdan, Prezident İlham Əliyevin 16 noyabr 2018-ci il tarixli 711 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" yüksək rəqabətli insan kapitalının hazırlanmasına mühüm töhfələr verməkdədir.

Dövlət Proqramı çərçivəsində 2021-ci ildə keçirilən müsabiqələr nəticəsində 94 nəfər dövlət hesabına beynəlxalq reytinq cədvəllərində top 500-lükdə yer alan universitetlərdə təhsil almaq hüququ qazanıb *(Mustafayev, 2022:4).*

Son onilliklərdə həyata keçirilən təhsil islahatları, innovasiya ekosisteminin formalaşdırılmasına yönəlmiş ardıcıl tədbirlər, biliyin, texnoloji qabiliyyət və bacarıqların cəmiyyətimizdə bir meyara çevrilməsi bu hədəfə doğru əldə etdiyimiz ciddi nailiyyətlərdir.

Bu məqam dövlət rəhbərimizin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də öz əksini tapıb. Azərbaycanın rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olması yaxın onillik üzrə beş əsas prioritetdən biri kimi müəyyənləşdirilib *(Əliyeva, 2022:2).*

İnsan kapitalına edilən investisiya sahəsində Heydər Əliyev Fondu və ölkəmizin birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük xidməti olmuşdur. Müxtəlif illər ərzində "Yeniləşən Azərbaycan yeni məktəb", "Təhsilə dəstək", "İnternat məktəblərinin inkişaf proqramı", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı", "STEAM Azərbaycan" layihələri uğurlu siyasətdir *(Mustafayev, 2022:4).*

Bir biznes sahəsi olan turizmdən əldə olunan gəlirlər də insan kapitalının formalaşmasında müstəsna rol oynayır. Bunun vasitəsilə insanlar yeni mədəniyyətlər, xalqlar, ölkələr haqqında biliklər qazanır, beynəlxalq təcrübəni öyrənirlər.

Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsində 1994-cü ildə imzalanmış və Azərbaycan Respublikasının tarixində yeni mərhələnin əsasını təşkil edən "Əsrin müqaviləsi" həlledici rol oynamışdır. Bu müqavilənin icrası xarici investisiyaların ölkəmizə cəlb edilməsinə güclü təkan vermişdir. Bu isə öz növbəsində əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə və işsizliyin azalmasına səbəb olmuşdur.

İşsizlik probleminin ölkəmizdə müvəffəqiyyətlə həll edilməsinə baxmayaraq, onun həlli daimi proses kimi diqqət mərkəzindədir və aktual olaraq qalır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının "29" iyul 2018-ci il tarixli sərəncamı ilə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının yeni qanunu və "30" oktyabr 2018-ci il tarixli fərmanı ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası" təsdiq edilmişdir. Bu mühüm dövlət sənədlərində ölkəmizdə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizlik səviyyəsinin daha da aşağı salınması ilə bağlı bir sıra mühüm vəzifələr qarşıya qoyulmuşdur. Bu vəzifələrdən irəli gələn təklif və tövsiyələrin işlənib hazırlanması əmək problemləri ilə məşğul olan elm adamları və mütəxəssislərin diqqətindən yayınmamalı və bu sahədə tədqiqatlarını dərinləşdirməlidirlər.

Ölkə ərazisində kiçik və orta sahibkarlığın inkişafı, iqtisadiyyatda baş vermiş struktur dəyişikliklər, tikinti, nəqliyyat və rabitə şəbəkələrinin genişləndirilməsi, yeni sənaye müəssisələrinin yaradılması, idman komplekslərinin, səhiyyə ocaqlarının, təhsil müəssisələrinin sayının artırılması, neft-qaz kəmərlərinin çəkilməsi, əhalinin təhsil səviyyəsinin və peşə-ixtisas dərəcəsinin yüksəldilməsi və sair daxildir.

"2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası"nda deyilirki: "Strategiyanın məqsədi məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçidini təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, tam məşğulluğu təmin etmək, layiqli əməyi dəstəkləmək və əmək məhsuldarlığını yüksəltməkdir." Bu məqsədə nail olmaq üçün ölkədə davamlı surətdə məşğulluq yönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi; əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi; iş qüvvəsinin bacarığının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi; aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəltməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının genişləndirilməsi; sosial dialoqun inkişaf etdirilməsi və qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması və əmək bazarının monitorinqinin və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi və sair tədbirlərin həyata keçirilməsi tələb olunur *(Cəfərova, 2019:42).*

Azərbaycan Respublikasının regionlarında insan kapitalının formalaşması, inkişafı və istifadəsi proseslərinin səmərəli idarə edilməsi müvafiq informasiya və metodiki təminat olmadan mümkün deyil. Ondan əlavə, tədqiq olunan hadisələrin təbiəti, iqtisadi proseslərin mürəkkəbliyi və göstəricilərin məlumat bazasının böyük ölçüdə olması çoxölçülü statistik təhlil metodlarının istifadəsinin zəruriliyini şərtləndirir *(Teymurova, 2019:115).*

Nəticə olaraq deyə bilərəm ki, insan kapitalı ölkəmizin inkişafının beynəlxalq aləmdə ən böyük göstəricilərindən biridir və Cənab Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində bu sahə gündən-günə inkişaf etməkdədir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Abbaszadə M. İnsan kapitalı layihəsinin memarı// Azərbaycan.– 2007, 24 noyabr. – s. 5.
2. Cəfərova F. Azərbaycan Respublikasının yeni məşğulluq strategiyası və əhalinin işsizlik səviyyəsinin azaldılması istiqamətləri// AMEA-nın xəbərləri: İqtisadiyyat seriyası .– 2019, - №6. – s. 42-50.
3. Əliyeva İ. İnsan kapitalı – parlaq gələcəyin təminatı// Azərbaycan.– 2022, 3 iyun. – s. 2.
4. Mustafayev O. Rəqabətli insan kapitalı: Doktorantlar əldə etdikləri beynəlxalq təcrübəni yerli ali təhsil müəssisələrində tətbiq edəcəklər// Azərbaycan müəllimi.– 2022, 8 aprel. – s. 4.
5. Teymurova V.E. İnsan kapitalının statistik tədqiqatlarda istifadəsinin xüsusiyyətləri//Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası.– 2019, - №1. – s. 108-115.

# İNSAN KAPİTALININ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏRİN ARAŞDIRILMASI

***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Fətəliyeva Əminə Ərəstun qızı***
***Elmi rəhbər: dos. R.S.Məmmədova***

***Xülasə***

İnformasiya cəmiyyətinin yarandığı müasir dövrümüzdə biliklərin dinamik artması fonunda insan kapitalının formalaşması aktual məsələ hesab edilir. Araşdırma prosesində insan kapitalı və onun proplemləri, insan kapitalının səmərəli istifadəsi və çatdırılması yolları təhlil edilmişdir. Eyni zamanda insan kapitalı ilə sıx bağlı olan insan resursları, təhsilin təşkilində ortaya çıxan problemlər, bu problemlərin aradan qaldırılması yolları araşdırılır. Həmçinin insan kapitalının tarixi, məruz qaldığı dəyişikliklər və ölkəmizdə tədris olunan təhsillə bağlı bir sıra məsələlər təhlil olunmuşdur.
***Açar sözlər:*** *insan kapitalı, insan resursları, insan inkişafı, kadrların hazırlanması, insan kapitalının inkişafı, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi,müəllim fəaliyyətinin təsirləri.*

***Summary***

Formation of human capital against the background of dynamic growth of knowledge in our modern information society is considered an urgent issue. In the research process, human capital and its problems, ways of efficient use and delivery of human capital were analyzed. At the same time, human resources, which are closely related to human capital, the problems that arise in the organization of education, and ways to overcome these problems are investigated. Also, a number of issues related to the history of human capital, its changes and the education taught in our country were analyzed.
***Keywords:*** *human capital, human resources, human development, personnel training, human capital development, improvment of management mechanisms, effects of teacher activity.*

## Giriş.

XX əsrdə insan kapitalı nəzəriyyəsinin inkişafı amerikalı iqtisadçı-alim Teodor Şultsun adı ilə bağlanır. O, əmək məhsuldarlığının artmasının səbəb və amillərinin təhlilinə həsr olunmuş araşdırmalarında bir amil olaraq üzə çıxarmış və sonrakı əsərlərində onu insanın əldə etdiyi və təkmilləşdirdiyi əmək qabiliyyəti kimi ifadə etmişdir. İnsan kapitalı konsepsiyasının genişlənməsində əhəmiyyətli töhfəsi olmuş Qari Bekker özünün "İnsan kapitalı" adlı fundamental əsərində insan kapitalına qoyulan sərmayələrə təkcə təhsil xərclərini deyil, səhiyyəyə, informasiyaya, iş axtarılmasına, uşaqların tərbiyəsinə və sair sahələrə sərf olunan xərcləri, yəni insanın məhsuldarlıq qüvvəsini artıran hər hansı məsrəfləri də aid edirdi. Ümumiyyətlə, insan kapitalı iqtisadi dəyərin yaradılması məqsədilə əmək fəaliyyətini yerinə yetirmək qabiliyyətində cəmləşmiş səriştələrin, biliklərin, sosial atributların, eləcə də yaradıcı təxəyyül kimi fərdi keyfiyyətlərin məcmusu kimi qəbul edilir. İnsan əməyinin səriştəliliyi yüksək olduqca, onun yaratdığı kapital da dəyərli olur, deməli belə kapital üzrə gəlir də yüksək olmalıdır. İnkişaf etmiş ölkələrdə insan kapitalına sərmayə qoyuluşları cəmiyyət üçün ən effektiv və özünü ən tez doğruldan məsrəflər kimi qəbul edilir. Bu cür yanaşmada inkişaf sadəcə iqtisadi artım tempinin artması deyil, eyni zamanda insan kapitalına sərmayə qoyuluşu və yoxsulluğun azaldılması ilə ölçülür *(BMT-nin inkişaf proqramı, 35).* Ümumiyyətlə, insan kapitalının inkişafı nəzəriyyələrlə təhlil olunur. Bu nəzəriyyəyə görə, təhsil bir tərəfdən mal və xidmətlərin istehsalının artırılması üçün əməyin məhsuldarlığının yüksəldilməsi, digər tərəfdən isə işçinin öz gəlirlərinin artırılması məqsədini daşıyan bir investisiya obyektidir. İqtisadi inkişafın son nəticədə insanın rifahı naminə olduğunu əsas tutan insan inkişafı yanaşması əmək məhsuldarlığının artmasında insan kapitalının mərkəzi rolunu qəbul edir, ancaq ən vacib məqsəd kimi elə bir sosial - iqtisadi mühitin yaradılmasını müəyyən edir ki, bu zaman hər bir insanın imkanlarının inkişafı və istifadəsi təmin edilmiş olsun. İnsan potensialının inkişafı iqtisadiyyatın gəlirlərinin və məhsuldarlığının artmasına səbəb ola bilər, ancaq bu nəticələr bütün əhalinin maddi və mənəvi rifahına və insan həyatının müxtəlif sahələrində tərəqqiyə müsbət təsir etdikdə mənalı olur. Məlum olduğu kimi, iqtisadi artım insan potensialının

inkişafı, xüsusilə də ölkə əhalisinin təhsil səviyyəsinin yüksəldilməsi üçün şərait yaradır. Bununla yanaşı, təhsil özü-özlüyündə iqtisadi artımın və milli sərvətin formalaşdırılmasının vacib şərtidir.

**I. İnsan kapitalının müasir vəziyyəti və qarşılaşdığı mövcud problemlər.**

Elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərə həssas münasibət müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas leytmotivini təşkil etmişdir. Dövlət müstəqilliyinin ilk illərində ölkə rəhbərliyinin səriştəsizliyi nəticəsində tənəzzülə uğrayan bu sahələr məhz Heydər Əliyevin xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra inkişaf etməyə başlamışdır. Ümummilli liderin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2003-cü il tarixli fərmanı, habelə "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli sərəncamı və digər sənədlər təhsil sisteminin müasirləşdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Bu illər ərzində ömrünü gənc nəslin maariflənməsinə həsr edən professor-müəllimlərin, elm sahəsində çalışan insanların sosial problemləri də diqqətdən kənarda qalmamış, onların məvacibləri ardıcıl olaraq artırılmış, elmi-pedaqoji kontingent dövlət qayğısı ilə əhatə olunmuş, şərəfli ictimai status sayılan alim-müəllim adının cəmiyyətdəki nüfuzu yenidən bərpa edilmişdir. Hazırdan cənab prezident İlham Əliyev özünün maarif siyasətilə insan kapitalının inkişafına birbaşa təsir göstərməkdədir. Cənab İlham Əliyevin 12 sentyabr 2008-ci il tarixli "Ali təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında", 24 aprel 2009-cu il tarixli "Bakı Dövlət Universitetinin 90 illik yubileyinin keçirilməsi haqqında", 4 may 2009-cu il tarixli "2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın, 22 may 2009-cu il tarixli "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi, 21 oktyabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında sərəncamları bu baxımdan xüsusi vurğulanmalıdır. Danılmaz faktdır ki, insan kapitalının inkişaf etdirilməsində əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi və bununla əlaqədar milli gəlirin artımının təmin olunması mühüm əhəmiyyət kəsb edir.İqtisadçılar uzun müddət hesab etmişlər ki, hər hansı ölkənin iqtisadi resurslarının əsas hissəsi fiziki kapitaldır, maddi-əşyavi sərvətdir. Lakin müəyyən olmuşdur ki, fiziki kapital ümumi sərvətin yalnız 16%-ni təşkil edir, özündə təhsili və ümumi sərvətin 64%-ni ehtiva edən insan kapitalı daha böyük əhəmiyyət kəsb edir. Almaniya, Yaponiya və İsveçrə kimi yüksək gəlirli iqtisadiyyatlarda ümumi kapitalın 80%-dək hissəsi insan kapitalından ibarətdir *(BMT-nin inkişaf proqramı, Təhsil və insan inkişafı; fəsil 5, 140).*

İnsan kapitalının öyrənilməsinə dair istiqamətlərdən biri kimi insan resurslarının idarə olunması 1980-ci illərdən bu yana bir sıra modellər şəklində təşəkkül tapmışdır. Hər bir model insan resurslarının idarə edilməsi üzrə həyata keçirilən əməliyyatlar, fəaliyyətlər və insan resursları elementləri olaraq müxtəlif kateqoriya üzrə təsnifləşdirilir. Bu modellər insan resursları sahəsində əməyi olan müxtəlif alimlərin nəzəriyyələri əsasında formalaşmaqla qısa aralıqlarla tarixi mərhələlər keçmişdir. Bununla belə, hər bir modelin özünəməxsus xüsusiyyətləri vardır *(İ. İsgəndərov, M. Əsgər, N.Şıxəliyev 2017, 56 – 67).*

**II. İnsan kapitalının inkişaf imkanları və onlardan istifadə texnologiyaları.**

İnsan kapitalının inkişaf imkanlarının təhlil edərkən məlum olur ki, Azərbaycanda da insan kapitalının inkişafının təmin edilməsi sahəsində görülən işlər ölkə daxilində bir sıra əhəmiyyətli sahələr üzrə səriştəli və peşəkar mütəxəssislərin yetişdirilməsinə vasitə olmuşdur. Neft kapitalının insan kapitalına çevrilməsi prosesində müstəqilliyi əldə etdikdən sonra ölkə kontekstində bir sıra layihələr və proqramlara imza atılmışdır. Azərbaycanın müstəqillik qazanması, qərbə doğru inteqrasiya etməsi, milli təşkilatların trans - milli təşkilatlara çevrilməsi, xarici təşkilatların ölkə bazarına daxil olması nəticəsində insan resurslarının əhəmiyyəti artmış və yaranmış iqtisadi mühit rəqabəti stimullaşdırmışdır. Bu isə öz növbəsində rəqabətə davamlı üstünlüyün əldə edilməsi məqsədilə insan resurslarından səmərəli şəkildə istifadə etmək zərurətini yaratmışdır. İnsan kapitalının formalaşdırılması və inkişafı proseslərinin idarə edilməsində dövlətimiz tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Ümumiyyətlə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri tərəfindən hazırlanan "İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası"nda qeyd olunur ki, insan kapitalı istehsal prosesinin hərəkətverici amilidir, ictimai təkrar istehsal isə geniş, xalq təsərrüfatı nöqteyi -nəzərdən məhsul istehsalının yenidən başlanması və bu kapitalın özünün təkrar istehsalıdır *(İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası, 27).* Təhsilin təşkili və idarə edilməsində inzibati amirlik metoduna üstünlük verilmiş, məktəb həyatının demokratikləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər səthi xarakter daşımışdır. Bütün bunları nəzərə almaqla tarixi keçmişimizə sağlam düşüncə ilə nəzər salaraq, inkişaf etmiş ölkələrin təhsil sisteminin idarə edilməsini öyrənməklə respublikada təhsilin yeniləşməsində idarəetmənin daha faydalı strukturlarını müəyyən etməyə çalışmaq vacibdir. Azərbaycanda təhsil sisteminin idarə edilməsi strukturu milli zəminə, türk dünyasının və islam əxlaqının yaratdığı mənəvi sərvətlərə və ümumbəşəri dəyərlərə əsaslanmalıdır. Təhsil sisteminin idarə edilməsində yeniləşmənin müxtəlif istiqamətdə qoyulmasına diqqət artırılmalı, total eynilikdən yaxa qurtarmaq üçün çıxış yolları axtarılmalıdır *(R.Məmmədzadə, A.Abdullayev , F.Kərimova, R.Cabbarov, S.Rəsulov, Ə.Quliyev, 2008, 76).*

**III.İnsan kapitalının perspektiv imkanlarının qiymətləndirilməsi**

Müasir tələblər nəzərə alınmaqla, ölkədə təhsilin inkişafı baxımından bu tədbirlərin həyata keçirilməsi önəmli hesab olunmalıdır:

1. Təhsil sisteminə ayrılan vəsaitlərin həcminin ümumi daxili məhsulda payının davamlı şəkildə artırılması;
2. Bu sistemin inkişaf səviyyəsinin tədricən inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşdırılması
3. Təhsildə keyfiyyətin yüksəldilməsi məqsədilə stimullaşdırıcı mexanizmlərin yaradılması
4. Ölkədə təhsil sahəsində tətbiqi tətqiqatların və innovativ fəaliyyətin genişləndirilməsi
5. Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsinin davam etdirilməsi
6. Bu sahədə müasir tədris və idarəetmə texnologiyalarının tətbiq edilməsi *(M.X.Şahsuvarlı, AMEA - nın Xəbərləri, iqtisadiyyat seriyası 2019, 2).*

Aparılan təhlillərə istinadən qeyd etmək olar ki, təhsil prosesi çox istiqamətli, mürəkkəb və ciddi bir proses olduğuna görə onun nətiələri də müxtəlif xarakterli, çox mürəkkəb olub, bir – birilə didaktik baxımdan əlaqəlidir. Ona görə də təhsil nəticələri ilə iş mürəkkəb, bir prosesdir. Bunların bəzilərinin üstündə dayanıb, izah etsək yerinə düşər:

- Təhsilin bir çox nəticələrini müəyyənləşdirmək çətindir,bir qayda olaraq, bunun üçün xüsusi ölçü vahidləri, təsvir qaydaları, xarakterizə edici cəhətlər, parametrlər tələb olunur.
- Təhsilin fəaliyyətinin nəticələrinə görə müsbət və mənfi baxımdan qiymətləndirmək sadəcə olaraq, mümkün deyil, çünki nəticələr bir tərəfdən müsbətdirsə, digər tərəfdən mənfidir və ya təhsil prosesinin bir istiqamətdə müsbət effekti başqa sahədə mənfi təsir bağışlayar.
- Təhsilin nəticələri bəzən heç hesablamaya uyğunlaşmır, inteqrasiya olunmur, bu da təhsil prosesinin qiymətləndirilməsinə və onun idarə olunmasında çətinlik yaradır.
- Təhsil fəaliyyətinin bəzi nəticələri isə təkcə idarə olunan çoxlu sayda faktorlardan kənar, idarə olunmayan faktorlardan da asılı olur. Bunun da nəticəsində qiymətləndirmə parametrləri mexanizminin müəyyənləşdirilməsi çox böyük çətinlik yaradır *(R.Məmmədzadə, 2020, 244).*

**IV.Müəllimlərin insan kapitalı kimi formalaşması və onlara təsir edən amillər.**

Bilindiyi üzrə, hansı sahə olmasından asılı olmayaraq, hər bir şəxsiyyətin formalaşmasında müəllimlər başıca rol oynayır. Müasir texnologiyaların inkişaf etdiyi bu dövrdə müəllimlərin tədris imkanları xeyli dərəcədə artmaqdadır. İnformasiyaların öyrənənlərə çatdırılması məsələsində isə bir sıra genişmiqyaslı tədbirlər həyata keçirilir. Belə ki, biliklərin dəqiq, aydın, əyani və sürətli çatdırılması məqsədilə müasir təlim texnologiyalarından (MTT) istifadə edilir. Tədris zamanı 2 tərəf iştirak edir: öyrənən və öyrədən. Əvvəlki dövrdən fərqli olaraq hazırki, tədris mexanizmində öyrədən öyrənən üçün informasiya mənbəyi hesab olunmayıb, sadəcə bələdçi rolu oynayır. Tədris prosesində müəllim müxtəlif texnoloji vasitələrdən istifadə etməklə şagirdlərə mövzu ilə bağlı istiqamət verir, tədqiqat mövzusu ortaya qoyaraq şagirdlərin interaktiv çalışmasını təmin edir. MTT-dən istifadə Kimya sahəsində də geniş istifadə olunur. Belə ki, bu zaman kimyəvi biliklər

sistemli, sinxron izahı verilir, informasıya viziual və ya audivizual canlandırılır, kimyəvi formullar, kimyəvi quruluşlar, reaksiyalar onların mexanizmləri müəyyən cədvəl, diaqram və qrafik formasında izah edilir. Eyni zamanda kimyəvi quruluşlar və onların mikrostrukturu əyanilәşdirilir. Məsələn, atomun planetar modeli və s. Bununla yanaşı, elektron poçt, elektron kitabxana, internet kimi vasitələrdən istifadə etməklə kimya sahəsində, eləcə də digər sahələrdə də baş verən yeniliklər araşdırılır, təcrübə mübadiləsi aparılır və müzakirə olunur. Baş verən çətin şərait daxilində telekonfranslar keçirilir, eyni zamanda distant yolla tədris prosesi həyata keçirilir. Eyni zamanda kimyəvi reaksiyaların mexanizmləri, gedişi animasiyalarla daha əyani formada çatdırılır *(R.S.Məmmədova, V.S.Həsənov, Ə.Ə.Mahmudova, A.Sərdarlı. Kimya müəllimlərinin hazırlanmasında müasir təlim texnlogiyalarının imkanlarının araşdırılması. 141).* Tədris prosesinin təşkilinin forması – metod və texnikalar təsir effekti də çox yüksək olan amillərdəndir. Məhz dərs prosesiin metod və texnikalarının elmi əsaslandırılmış şəkildə müəyyənləşdirilməsi,onların fənn üzrə bilik və bacarıqlarının mənimsənilməsi üçün effektivliyi və bu kimi amillərin də nəzərə alınması vacibdir. Yəni, kimya fənninin tədrisi üçün daha səmərəli metodların istifadəsi biliklərin möhkəmlənməsinə mənimsəməsəviyyəsinin yüksəlməsinə və eyni zamanda tədqiqatçılıq qabiliyyətinin formalaşmasına və inkişafına zəmin yaradır. Bütün bunlar tədrisin müasir tələbatlara və standartlara uyğunlaşması üçün aparılan tədqiqatların aktuallığını müəyyən edir. *(R.S.Məmmədova. Müasir təlim texnologiyaları (kimya elmləri üzrə) fənninin tədrisin forma və məzmunca təkmilləşdirilməsi istiqamətində araşdırmalar 2021. 297 – 302).*

**Nəticə**

İnsan kapitalı eyni zamanda insan ətrafında olan hər bir resursdan maksimum dərəcədə səmərəli istifadə etməkdir. Çünki, insanın öz bilik və qabiliyyətini reallaşdırması üçün mövcud imkanlardan yararlanmalıdır.Bu istiqamət üzrə sərmayələr düzgün verilmiş qərarlar sonrasında qoyulmalıdır. İnsan kapitalının inkişafına təsir edən amillərdən hesab olunan təhsil insan fəaliyyəti üçün əvəzsiz rol oynayır. İnsanın kariyera qurması, yüksək ixtisas sahibi olması üçün elmə yiyələnməli, malik olduğu istedadları düzgün inkişaf etdirməlidir. İnsan kapitalının formalaşmasında müəllimlərin fəaliyyətindəki əsas məqamlar nəzərə alınmalıdır. Təhsilin təşkili prosesində istifadə olunan əsas resurslar, texniki vasitələrin rolu müəyyən olunmalı bu istiqamət üzrə bir sıra tədbirlər həyata keçirilməlidir. Bütün təhsil müəsisələri yeni informasiya texnologiyaları ilə təmin olunmalı bununla bağlı yaranan problemlərin həlli yolları araşdırılmalıdır. Problemlərin həllində müasir dövrümüzün bizə qazandırdığı texnoloji vasitələrdən istifadə etməklə təhsilin təşkili səviyyəsini yüksək dərəcədə artırmaq mümkündür.Təlimin peşəkarlıqla tətbiqi öyrənənin təhsilə münasibətini dəyişə bilir, pozitiv və fəal həyat mövqeyinin formalaşdırmağına, insan kapitalı kimi inkişaf etməsinə zəmin yaradır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Abdullayeva R., Muradov A. "Sosial Sferanın İqtisadiyyatı". Bakı 2009
2. Birləşmiş Millətlər Təşkilatının "inkişaf proqramı". Bakı 2014
3. BMT – nin inkişaf proqramı. Təhsil və insan inkişafı. Fəsil 5. 2013.
4. İsgəndərov İ., Əsgər M., Şixəliyev N. "İnsan Resursları Menecmenti Monoqrafiya". Bakı – 2017.
5. Kazımov A. Müəssisədaxili təhsil insan resurslarının idarə edilməsi potensialının inkişaf texnologiyası kimi. Bakı 2021
6. R.S.Məmmədova, V.S.Həsənov, Ə.Ə.Mahmudova, A.Sərdarlı. Kimya müəllimlərinin hazırlamasında müasir təlim texnologiyalarının imkanlarının araşdırılması. Uluslararası Ögrətmən Yetişdirme Politikaları və Sorunları Simpozyumu II. Bildiriler kitabı. Hacettepe Universiteti. Beytepe – Ankara, 16 – 18 Mayıs 2010, 149 – 154.
7. R.S.Məmmədova. Müasir təlim texnologiyaları (kimya elmləri üzrə) fənninin tədrisin forma və məzmunca təkmilləşdirilməsi istiqamətində araşdırmalar. 3rd International November 24 Head Teacher Education and Innovative Sciences Symposium. May 24 – 25, 2021, 297 – 302. Proceedings Book Volume II, Iksad Publications – 2021. ISBN – 978 – 605 – 70611 – 0 – 2.
8. R.S.Məmmədova. " İnnovasiya, Təhsilin Keyfiyyəti və İnkişaf " III Beynəlxalq Elmi Konfransın Materilları. İyun 11 – 13. Bakı – 2014
9. Məmmədzadə R., Abdullayev A., Kərimova F. və başqaları "Təhsilin idarə edilməsinin bəzi problemləri". Bakı 2008
10. Şahsuvarlı M. X. " İntellektual kapitalın inkişafı xarici təcrübəsində". AMEA – nın Xəbərləri. İqtisadiyyat seriyası 2019 ( noyabr – dekabr)

# İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR


***Azərbaycan Dövlət İqtisad Universiteti***
***İsmayılova Mənzər Vaqif qızı***
***Elmi rəhbər: dos. A.Z.Hacıyeva***



***Xülasə***

Məqalədə yeni dövrün ən vacib anlayışlarından biri olan insan kapitalı və elmi-texniki tərəqqinin,dünya iqtisadiyyatının inkişafı nəticəsində məruz qaldığı probləmlər və bu problemlərin aradan qaldırılması üçün gərəkli olan həll üsulları haqqında məlumat verilir. Dünya Dövlətlərinin insan kapitalının inkişafı naminə həyata keçirdiyi 'İNSAN KAPİTALI LAYİHƏSİ'-nin iqtisadi cəhətdən yaratdığı üstünlünlüklər təsvir olunmuşdur. İnsan Kapitalı Layihəsi-kapitalı artırmaq və iqtisadi artımı sürətləndirmək üçün insanlara investisiyaları genişləndirmək və təkmilləşdirmək üçün qlobal təşəbbüsdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kreativliyə, yaradıcılığa, yenilikçiliyə ən böyük dəstəyini göstərmiş ,müasir dünyamızın çağırışlarına uyğun bilik və bacarıqların fərdlər, cəmiyyətlər, dövlətlər və ümumən bəşəriyyət üçün nə qədər böyük əhəmiyyət kəsb etməsinə dair qərarlar qəbul etmişdir. Şanlı ZƏFƏR qazanan ölkəmizin azad olunmuş torpaqlarında insan kapitalının cəlb olunması,ekoloji probləmlərin aradan qaldırılması üçün həll üsulları, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış prinsipləri qeyd olunmuşdur.



***Açar sözlər**: insan kapitalı, problemlər, həll yolları, qərarlar, uğur.*



***Summary***

The article provides information about human capital, which is one of the most important concepts of the new era, and the problems that reveal the development of scientific and technical progress and the development of the world economy, as well as the methods of solving these problems. For the development of the world's human capital, stability has been demonstrated on the economic development of the "HUMAN CAPITAL PROJECT" with the development of the state. Human Capital Projects are global projects to increase and improve investments in people to increase capital and accelerate economic growth. The President of the Republic of Azerbaijan, Ilham Aliyev, made the greatest effort to creativity, novelty, and innovation, and made a decision on how much the knowledge and skills in accordance with the challenges of our times bring greater security to individuals, societies, states, and humanity in general. Creation of human capital in the liberated lands that won a glorious VICTORY, solutions for eliminating environmental problems, principles of a great return to the territories freed from occupation were mentioned.



***Key words**: human capital, problems, prevention, decisions, success.*


İnsan kapitalı- yeni dövrün ən vacib anlayışlarından biridir. İnsan kapitalının mühüm elementi fərdlərin şəxsi rifahı və təkmilləşdirilmiş iş imkanları üçün topladığı bilik və bacarıqlardır. Buraya misal olaraq ünsiyyət bacarıqları, təhsil, texniki bacarıqlar, yaradıcılıq, təcrübə, problem həll etmə bacarıqları, psixi sağlamlıq və şəxsi dözümlülük daxildir *(British Journal of Education)*. İnsan kapitalının inkişafı həm sağlamlıq, həm təhsil, həm də mənəviyyat baxımından insan həyat keyfiyyətinin yaxşılaşdırılmasında və yaxşı həyat səviyyəsinə nail olmağında mühüm rol oynayır *(Vol.3, No.11, pp.1-9, November 2015 International Journal of Humanities and Social Science)*. İnsan öz bilik və bacarıqlarını özü ilə bir məkandan digərinə daşıyır, öz potensialını uyğun yerlərdə, şəraitlərdə reallaşdırır *(İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı: "ÇapART" Nəşriyyatı, 2017, 28)*. Ölkələrin, şirkətlərin öz rəqabət güclərini daim qorumalarına ehtiyac var. Bu isə ancaq yeniliklərə çevik şəkildə uyğunlaşmaqla, bütün formalarda innovasiyaların ön mövqelərində irəliləməklə mümkün ola bilər.

Müəyyən illər ərzində insan kapitalı bir sıra problemlərlə üzləşmişdir:

1. Əhalinin artımı: Əhalinin sürətli artımı, əsasən inkişaf etməkdə olan ölkələrdə insan kapitalının formalaşma dərəcəsinə təsir göstərə bilər. Bu, hazırkı obyektin adambaşına düşən əlçatanlığını pisləşdirir. Böyük bir əhali əlavə investisiyaları əhatə edir.

2. Uzun proses: İnsan inkişafı üçün tətbiq olunan metod uzunmüddətli prosesdir, çünki bacarıqların artırılması əlavə vaxt tələb edir. Buna görə də proses çox normal olaraq yavaş olur.

3. Gender bərabərsizliyi və yüksək regional bərabərsizlik: Bu iki amil insan inkişafı bacarığına təsir göstərir.

4. Qeyri-kafi iş yerində təlim: Kənd təsərrüfatı sektorunda işçiyə qabaqcıl avadanlıqla işləmək üçün iş yerində təlim verilmir.

5. Yüksək yoxsulluq səviyyəsi: Hindistanda əhalinin böyük bir hissəsi yoxsulluq həddinin altındadır. Buna görə də onların ilkin səhiyyə və təhsilə çıxışı asan deyil.

Mütəxəssislər bildirirlər ki, son yüz il ərzində bir-birinə bənzər məhsullar istehsal edən fabriklərdən fərqli olaraq, müasir dünyamızın şirkətləri öz xidmətlərini hər bir fərdin istəklərinə uyğunlaşdırmağa çalışır, fərdi yanaşmalar kütləvi istehsalı əvəz edir *(https://www.azerbaijan-news.az/az/posts/detail/insan-kapitali-parlaq-geleceyin-teminati-1654207184).* İntellektual sərmayə ən müxtəlif sahələrdə nailiyyət qazanmağın əsas meyarına çevrilir. Müəssisələrin, ayrı-ayrı qurumların müasir dövrün proseslərini anlamağa, insanların ehtiyaclarını, gözləntilərini başa düşməyə qabil istedadları, yüksək hazırlıqlı kadrları cəlb etməsi get-gedə daha böyük zərurətə çevrilir. Yeniliklərə sürətlə uyğunlaşma məsələsi daim dəyişən əmək bazarında özünə yer tutmaq və həm də yüksək rəqabətə davam gətirmək üçün indi əsas şərtdir *(https://www.zoho.com/people/hrknowledgehive/What-are-the-challenges-of-Human-Capital Management.html).* İnsan kapitalının üzləşdiyi problemləri aradan qaldırmaq üçün bir sıra layihələr həyata keçirilir. İnsan Kapitalı Layihəsi-kapitalı artırmaq və iqtisadi artımı sürətləndirmək üçün insanlara investisiyaları genişləndirmək və təkmilləşdirmək üçün qlobal təşəbbüsdür. 2022-ci ilin fevralına olan məlumata görə, bütün gəlir səviyyələrində olan 83 ölkə öz nəticələrini insan kapitalına çevirmək üçün strateji yanaşmalar üzrə Dünya Bankı Qrupu ilə əməkdaşlıq edib.

Dünya İnkişaf Hesabatı 2019: Dəyişən İşdə vurğulandığı kimi, bacarıqların sürətli transformasiyası həm fürsət, həm də risk gətirir. Artan sübutlar var ki, ölkələr öz insan kapitalını qurmasalar, davamlı və inklüziv iqtisadi artıma nail ola bilməyəcəklər, işçi qüvvəsini sabahın daha yüksək ixtisaslı işlərinə hazırlaya bilməyəcəklər və qlobal bazarda rəqabət apara bilməyəcəklər *(https://economy.gov.az/az/page/insan-kapitali).*

Müasir dünyamızda ən qiymətli sərvət ayrı-ayrı insanlara məxsus əqli mülkiyyət, intellektual sərmayə, bilik və bacarıqlardır *(British Journal of Education).* Yeni növ rəqabətə hazır olmaqdan ötrü hər bir ölkənin yüksəkrəqabətli insan kapitalını formalaşdırması mütləqdir. Bunun üçün müasir təhsilin, innovasiyaları təşviq edən ekosistemin və insanların sağlamlığının təmin olunması əsas şərt kimi qəbul olunur. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyev hələ illər əvvəl irəli sürdüyü "Qara qızılı insan kapitalına çevirək" tezisi ilə kreativliyə, yaradıcılığa, yenilikçiliyə ən böyük dəstəyini, 2020-ci il pandemiya dövründə dəfələrlə səsləndirdiyi "bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır" fikri ilə isə iqtisadi inkişafımızın əsas hərəkətverici qüvvəsi olan insana verilən dəyəri ifadə etmişdir. Ümumiyyətlə, bəşəriyyət tarixi elm və təhsilin bütün dövrlərdə hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni yüksəlişində mühüm rol oynadığını göstərir. Yeni dövrün tələblərinə cavab verən təhsil sisteminin qurulması, mütərəqqi yeniliklərin tətbiqi yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, bu sahədə özünü göstərən obyektiv problemlərin aradan qaldırılması son onilliklərdə Azərbaycanda reallaşdırılan dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Ulu Öndər Heydər Əliyev Azərbaycanın davamlı inkişafının yeganə yolunu məhz yüksək təhsildə, xalqın maariflənməsində görür, respublikada fundamental və humanitar elmlərin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirirdi.

Prezident İlham Əliyev də ölkəmizə rəhbərliyi dövründə bu istiqamətdə bir sıra tarixi qərarlara imza atmışdır: *(https://president.az/az/articles/view/50474)*

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası,
2. Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı,
3. "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı".

Dövlətimiz rəqabətli insan kapitalının formalaşdırılmasını qloballaşma dövrünün əsas vəzifələrindən biri kimi görür və bu istiqamətdə ardıcıl addımlar atır. Mayın 26-29-da Bakıda keçirilən və Azərbaycan-Türkiyə birgəliyinin daha bir nümunəsi kimi tarixə yazılan "Teknofest-Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı da bütün digər cəhətləri ilə yanaşı, eyni

zamanda insan kapitalının, elmə, texnologiyalara qoyulan sərmayələrin gücünün nümayişi idi. Belə tədbirlər müasir dünyamızın çağırışlarına uyğun bilik və bacarıqların fərdlər, cəmiyyətlər, dövlətlər və ümumən bəşəriyyət üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərir. Xüsusilə gənc nəslin texnologiyalara marağını artırır, onlar üçün öz yaradıcı ideyalarını reallaşdırmaqda böyük fürsətlər yaradır.

Azərbaycan Respublikasının əldə etdiyi şanlı qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə insan kapitalının bərpa olunması istiqamətində bir sıra addımlar atılır.Işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır: *(https://president.az/az/articles/view/50474)*

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Azərbaycanın tarixi ərazi suverenliyinin bərpası əhalinin öz doğma torpaqlarına qayıdaraq yaşaması üçün yeni mərhələ yaratmışdır. İşğaldan azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin edilməlidir *(https://www.banquemondiale.org/fr/publication/human-capital/brief/the-human-capital-project-frequently-asked-questions).* Bu məqsədlə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır. Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir *(https://www.britannica.com/topic/human-capital).* Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir *(British Journal of Education).*

"Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur" - dövlət rəhbərimiz İlham Əliyev indi bunu Azərbaycan gəncliyinə əsas tövsiyələrindən biri kimi irəli sürür. Eyni zamanda gənclərimizi vətənpərvər olmağa, milli-mənəvi dəyərlərimizi unutmamağa səsləyir. Bu, gələcəyi aydın görən liderin baxışıdır. İnsan kapitalı, intellekual sərmayə, bilik və bacarıqların gücü vətənə, yurda sevgi, dəyərlərimizə hörmət hissi ilə birləşəndə Azərbaycan daha da qüdrətli, sarsılmaz olur.

Prezident İlham Əliyev demişdir: "Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir" *(British Journal of Education).*

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. British Journal of Education
2. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı: "ÇapART" Nəşriyyatı, 2017, 28
3. Published by European Centre for Research Training and Development UK (www.eajournals.org)
4. Vol.3, No.11, pp.1-9, November 2015 International Journal of Humanities and Social Science ISSN 2220-8488 (Print), 2221-0989 (Online)
5. https://www.azerbaijan-news.az/az/posts/detail/insan-kapitali-parlaq-geleceyin-teminati-1654207184
6. https://www.banquemondiale.org/fr/publication/human-capital/brief/the-human-capital-project-frequently-asked-questions
7. https://www.worldbank.org/en/publication/human-capital/brief/the-human-capital-project-frequently-asked-questions
8. https://www.britannica.com/topic/human-capital
9. https://economy.gov.az/az/page/insan-kapitali
10. https://president.az/az/articles/view/50474
11. https://www.zoho.com/people/hrknowledgehive/What-are-the-challenges-of-Human-Capital-Management.html

# İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR

***Naxçıvan Dövlət Universiteti***
***Kəngərli Nazir Cavadxan oğlu***
***Elmi rəhbər: T.H.Bağırova***

***Xülasə***

Məqalədə, insan kapitalının elmi və nəzəri əhəmiyyətindən söz açılmış, müasir iqtisadi inkişaf mərhələsində onun milli iqtisadiyyatlar üçün hərəkətverici təsirindən bəhs olunmuşdur. Göstərilmişdir ki, insan kapitalı hazırkı iqtisadi prioritetlər üçün yüksək mahiyyət kəsb etməkdədir. Həmçinin, insan kapitalı sahəsində ortaya çıxmış olan problemlər nəzərə çatdırılmışdır. İnsan kapitalının inkişafı zamanı əldə olunan üstünlüklər, onun formalaşmasına və təşəkkülünə kömək edən amillər əsaslandırılmışdır. Eyni zamanda, insan kapitalının idarə olunmasının optimallaşdırılması məsələlərinə də yer verilmişdir.
***Açar sözlər:*** *İnsan kapitalı, işçi resursları, məhsuldarlıq, gəlirlilik, əməliyyatların səmərəliliyi, mövcud işçilərə investisiya.*

***Summary***

The scientific and theoretical importance of human capital was mentioned in the article, and its driving effect for national economies was discussed in the stage of modern economic development. It has been shown that human capital is of high importance for current economic priorities. Also, the problems that have arisen in the field of human capital have been brought into consideration. The advantages obtained during the development of human capital, the factors contributing to its formation and organization are substantiated. At the same time, issues of optimization of human capital management are also addressed.
***Key words:*** *Human capital, human resources, productivity, profitability, efficiency of operations, investment in existing employees.*

İnsan kapitalı termini işçinin təcrübə və bacarıqlarının iqtisadi dəyərini ifadə edir. İnsan kapitalına təhsil, təlim, kəşfiyyat, bacarıqlar, sağlamlıq kimi aktivlər və işəgötürənlərin sədaqət və punktuallıq kimi dəyər verdiyi digər şeylər daxildir. O, şirkətin balans hesabatında qeyd edilməyən (və ola bilməyən) qeyri-maddi aktiv və ya keyfiyyətdir. Adətən, insan kapitalı məhsuldarlığı və beləliklə də gəlirliliyi artırmaq üçün qəbul edilir. Məsələn, bir şirkət işçilərinə nə qədər çox sərmayə qoyarsa, onun məhsuldarlığı və uğur qazanma şansı o qədər artır. Əlavə olaraq, İnsan kapitalının işçinin təcrübəsi və bacarıqları kimi keyfiyyətləri özündə ehtiva etdiyi deyilir. İnsan kapitalının iqtisadi artım, məhsuldarlıq və gəlirlilik ilə əlaqəsi olduğu qəbul edilir. Bununla bərabər, hər hansı digər aktiv kimi, insan kapitalı da uzun müddət davam edən işsizlik, texnologiya və innovasiyalarla ayaqlaşa bilməməsi nəticəsində dəyər itirmək qabiliyyətinə malikdir.

Qeyd etmək lazımdır ki, çox vaxt bir şirkətin yuxarıdan aşağıya doğru yalnız öz işçiləri qədər yaxşı olduğu deyilir, buna görə də insan kapitalı şirkət üçün çox vacibdir. O, adətən, işçi qüvvəsinin toplanması, idarə edilməsi və optimallaşdırılmasına nəzarət edən təşkilatın insan resursları şöbəsi tərəfindən idarə olunur. Onun digər direktivlərinə işçi qüvvəsinin planlaşdırılması və strategiyası, işə qəbul, işçilərin təlimi və inkişafı, hesabat və analitika daxildir. Bununla yanaşı, insan kapitalı konsepsiyası bütün əməyin bərabər olmadığını qəbul edir. Lakin işəgötürənlər işçilərə investisiya qoymaqla həmin kapitalın keyfiyyətini artıra bilərlər. Bu, işçilərin təhsili, təcrübəsi və bacarığı ilə həyata keçirilə bilər. Nəzərə almalıyıq ki, bütün bunların həm işəgötürənlər, həm də bütövlükdə iqtisadiyyat üçün böyük iqtisadi dəyəri var. Digər bir tərəfdən, insan kapitalı işçilərin bacarıq və biliklərinin təhsil vasitəsilə investisiyasına əsaslandığı üçün insan kapitalına qoyulan bu investisiyaları asanlıqla hesablamaq olar. İnsan resursları menecerləri hər hansı investisiya qoyuluşundan əvvəl və sonra ümumi mənfəəti hesablaya bilərlər. Həmçinin, insan kapitalına qoyulan hər hansı gəlir, şirkətin ümumi mənfəətini insan kapitalına qoyulan ümumi investisiyalara bölmək yolu ilə hesablana bilər. Məsələn, hər hansı bir şirkət öz insan kapitalına 2 milyon manat sərmayə qoyursa və onun ümumi mənfəəti 15 milyon manat təşkil edirsə, menecerlər mənfəətin necə artdığını və onun insan kapitalı investisiyaları ilə əlaqəsi olub-olmamadığını izləmək üçün şirkətin insan kapitalına qoyduğu sərmayənin illik gəlirini müqayisə edə bilərlər *(https://www.investopedia.com/terms/h/humancapital.asp).*

**Problemlər**

Əhalinin artımı: Əhalinin sürətli artımı, əsasən inkişaf etməkdə olan ölkələrdə insan kapitalının formalaşma dərəcəsinə təsir göstərə bilər. Bu, hazırkı obyektin adambaşına düşən əlçatanlığını pisləşdirir. Böyük bir əhali əlavə investisiyaları əhatə edir.

Uzun proses: İnsan inkişafı üçün tətbiq olunan metod uzunmüddətli prosesdir, çünki bacarıqların artırılması əlavə vaxt tələb edir. Buna görə də, proses normal olaraq çox yavaş olur.

Yüksək regional bərabərsizlik: Bu amil insan inkişafı bacarığına təsir göstərir.

Qeyri-kafi iş yerində təlim: Kənd təsərrüfatı sektorunda işçiyə qabaqcıl avadanlıqla işləmək üçün iş yerində təlim verilmir.

Yüksək yoxsulluq səviyyəsi: Aydın olduğu kimi, Hindistanda əhalinin böyük bir hissəsi yoxsulluq həddinin altındadır. Buna səbəbdən də, onların ilkin səhiyyə və təhsilə çıxışı asan deyil. *(https://byjus.com/commerce/sources-and-problems-of-human-capital-formation/)*

**Səmərəli istifadə ilə əldə edilən üstünlükləri**

İnsan kapitalının idarə edilməsi strategiyasının ən mühüm üstünlüyü şirkətlərə öz işçilərindən maksimum fayda əldə etməyə imkan verməsidir. O, insan resursları funksiyalarını sadələşdirir, eyni zamanda bəzi digər üstünlükləri təmin edir. İnsan kapitalının idarə edilməsi strategiyasının üstünlüklərindən bəziləri aşağıdakılardır:

İşçi resursları prosesini təkmilləşdirmək - İnsan kapitalının idarə edilməsinin əsas üstünlüyü ondan ibarətdir ki, o, biznesin insan resursları ehtiyaclarını idarə etməyə bir yanaşma təqdim edir. O, kadrlar departamenti üçün müstəsna işçi heyəti cəlb etmək və şirkətin məqsədlərinə çatmaq üçün onları saxlamaq üçün çərçivə yaradır.

İşə qəbulu sadələşdirmək - İnsan kapitalının idarə edilməsi şirkətinizə ən yaxşı müraciət edənləri cəlb etməyə imkan verir. O, işəgötürənlərə işə ən uyğun bacarıq və təcrübəyə malik şəxslərin kataloqu təqdim edir. İşə götürmə menecerləriniz və ictimaiyyətlə əlaqələr departamentiniz şirkət məqsədlərinə çatmaq üçün bu strategiyalardan istifadə edə, ən yaxşı nəticələr verə biləcək namizədləri cəlb edə bilər. O, həmçinin işə qəbulu asanlaşdırır, yeni işçilərin biznesə uyğunlaşmasına imkan verir. İşə qəbul proqramları və istedadların idarə edilməsi sistemləri iş yerlərinin onlayn yerləşdirilməsi, ərizəçilərin izlənilməsi və sənədlərin rəqəmləşdirilməsinə kömək etməklə insan kapitalının idarə edilməsi üzrə işə qəbulu dəstəkləyir.

Qabiliyyət boşluqlarını müəyyən etmək - İnsan kapitalının idarə edilməsi işçilərin səriştəsi ilə bağlı problemlərin müəyyənləşdirilməsinə cavabdehdir ki, bu da insan resursları departamentinə şirkətin məqsədlərinə çatmaq üçün potensialını gücləndirəcək vakansiyaları doldurmaq üçün uyğunluq tələblərinə yenidən baxmağa imkan verir.

Üzvi artımı gücləndirmək - İnsan kapitalının idarə edilməsi strategiyaları bazarın genişlənməsi üçün güclüdür, çünki onlar fərdi işçi səriştələrini aşkar edə bilirlər. O, istehsalı və gəliri artırmaq üçün mövcud resursları optimallaşdırmaqda sizə kömək etməklə bunu həyata keçirir. İnsan kapitalının idarə edilməsi işçilərin tərəqqisinə və genişlənməsinə diqqət yetirdiyindən, onlara əla nəticələr əldə etmək üçün lazım olan bacarıqları təmin etdiyi üçün bu artım əldə edilə bilər.

Vəzifələri işçi bacarıqlarına uyğunlaşdırmaq - İnsan kapitalının idarə edilməsi, eyni zamanda, şirkətlərə öz qabiliyyətlərini və təcrübələrini yaxşı istifadə etməyə imkan verən insanları rollarla uyğunlaşdırmaqda kömək edir. Bu qabiliyyət işçilərin xüsusi güclü tərəflərini müəyyən etmək üsulları ilə bağlıdır. İşçilər öz bacarıqlarından istifadə etməyə imkan verən rollara malik olduqda işdən daha çox məmnun olurlar və siz artan istehsal, səmərəlilik və fədakarlıqdan faydalanırsınız.

Əməliyyatların səmərəliliyini artırmaq - İnsan kapitalının idarə edilməsi mənfəəti artırmaq üçün mövcud resurslardan maksimum istifadə etməyi nəzərdə tutur. O, məqsədlərinə nail olmaq üçün firmanızın tələb etdiyi ixtisaslaşdırılmış səriştələri inkişaf etdirən adekvat təlim verməklə məhsuldarlığı artırır. Menecerlər işçiləri ən yaxşı nəticələr əldə edə biləcəkləri vəzifələrə yerləşdirərək səmərəliliyi artıra bilərlər.

Performans qiymətləndirmələrini təkmilləşdirmək - İnsan kapitalının idarəolunması təcrübələri müvəffəqiyyəti gücləndirən performans təhlillərinin dəqiqliyini artırır. Üstəlik, o, işçilərin şirkətə göstərdikləri səylər haqqında faydalı rəylər verən və onları daha da irəli getməyə təşviq edən öz rəyləri, həmyaşıdların rəyləri və menecer reytinqləri kimi bir çox işçi

qiymətləndirməsini təklif edir. Performansın idarə edilməsi proqramı işçilərin məqsədləri və rəyləri haqqında məlumatları saxlamaq və toplamaqla insan kapitalının idarə edilməsi performansının qiymətləndirilməsini sadələşdirməyə kömək edir.

Karyera planlamasını təşviq etmək - İnsan kapitalının idarə edilməsi sayəsində işçilər işlərinə daha yaxşı nəzarət edirlər. O, işçilərə karyera inkişaf planlarını və şəxsi məqsədlərini inkişaf etdirməyə imkan verən bacarıq çatışmazlıqlarını müəyyən etmək üçün tədris, qiymətləndirmələr, performans təhlilləri və bir çox digər qiymətləndirmə formalarından istifadə edir *(https://www.selecthub.com/hris/benefits-human-capital-management-strategy/).*

**İnsan kapitalının formalaşmasına kömək edən amillər**

Təhsil xərcləri - Ölkədə məhsuldar işçi qüvvəsinin artırılmasının ən effektiv yoludur. Təhsil standart və sağlam həyat sürməyə kömək edir. Bu, insanın qazanma qabiliyyətini artırır.

Səhiyyə xərcləri - Səhiyyə və təhsil xərclərinin eyni vaxtda həyata keçirilməsi çox vacibdir. Sağlam insan daha səmərəli və məhsuldardır. İnsanda ən yaxşı bacarıqları ortaya çıxarır.

Təlim - işçilərə öz bacarıqlarını və məhsuldarlığını artırmağa kömək edir. Bu, həm də iqtisadiyyatın inkişafına kömək edir.

Miqrasiya - Aydındırki, insanlar daha yüksək gəlir perspektivləri olan iş axtarmaq üçün bir yerdən başqa yerə miqrasiya edirlər. Bir çox hallarda, kənd yerlərindən işsiz insanlar iş axtarmaq üçün şəhərlərə miqrasiya edirlər. Həmçinin, texniki ixtisaslı şəxslər (mühəndislər, həkimlər və s.) bu ölkələrdə ala biləcəkləri daha yüksək maaşlara görə başqa ölkələrə miqrasiya edirlər. Hər iki halda miqrasiya iki növ xərci əhatə edir: bir yerdən digər yerə daşınma xərcləri, miqrasiya edilmiş yerlərdə yaşamağın yüksək qiyməti. Lakin nəzərə almaq lazımdırki, miqrasiyaya çəkilən xərclər insan kapitalının formalaşması mənbəyidir, çünki miqrasiya edilmiş yerdə artan qazanc miqrasiya ilə bağlı xərclərin artımından daha çoxdur. Bununla yanaşı, bu, bacarıqlardan daha dolğun istifadə etməklə kapitalın formalaşmasına gətirib çıxarır.

İnformasiya xərcləri - Əmək bazarları, təhsil, səhiyyə və s. ilə bağlı hər cür məlumatın əldə edilməsinə çəkilən xərclər də kapitalın formalaşmasının mühüm mənbəyinə çevrilir.

**İnsan kapitalının idarə edilməsinin optimallaşdırılması**

İnkişaflarının əhəmiyyətli bir hissəsində işçi qüvvəsinə arxalanan təşkilatlar insan kapitalının idarə edilməsi strategiyalarını daim təkmilləşdirməlidirlər. Strategiyanızı təkmilləşdirmək və insan kapitalının tam üstünlüklərindən istifadə etmək üçün bir neçə tövsiyə var:

Mövcud işçilərə investisiya: Təşkilatlar iş məmnuniyyətini və işçilərin əldə tutulmasını təşviq etməklə, mövcud işçilərin tərəqqisinə və genişlənməsinə diqqət yetirməklə daha aşağı işə qəbul xərcləri ilə sabit artıma nail ola bilərlər.

İnsan resurslarının idarə edilməsini fərdiləşdirin: Fərdlər fərqlidir və hər bir peşəkar bilik və təlimatları özünəməxsus şəkildə mənimsəyəcək. Hər kəsə eyni cavabı verməkdənsə, hər bir insanın güclü, çatışmaz tərəflərini anlamağa və hər kəsi öz bacarıq və biliklərini təkmilləşdirməyə təşviq edən mühit yaratmağa çalışın.

Leveraj texnologiyası: İnsan kapitalının idarə edilməsində texnoloji tərəqqidən faydalanmaq olar. Beləki, mobil proqramlar vaxt və məsafə məhdudiyyətlərini azaldaraq təlim, əlaqə və əməkdaşlıqda kömək edə bilər. O, həmçinin, müxtəlif şirkət əməliyyatlarını avtomatlaşdırmaqda, əməliyyat xərclərini azaltmaqda və işçilərin məlumat əldə etmək və paylaşmaq üçün sərf etdiyi vaxtı azaltmaqda sizə kömək edə bilər.

İnsan kapitalı idarəçiliyini şirkət məqsədləri ilə əlaqələndirin: İnsan kapitalının idarə edilməsini şirkətinizin məqsədlərinə uyğunlaşdırmaq onu artırmaq üçün innovativ vasitədir. Təşkilat insan kapitalının idarə edilməsini öz biznes modeli ilə birləşdirərək, unikal biznes problemlərini həll etmək üçün öz keyfiyyətlərini müəyyən edə bilər.

Ünsiyyəti təkmilləşdirin: Ünsiyyət biznesin insan resurslarını saxlamaq üçün çox vacibdir. Beləki, şirkətlər təkmilləşdirilmiş kommunikasiya və insan kapitalının idarə edilməsi əməliyyatları haqqında daha yaxşı biliklər vasitəsilə işçilərin məmnunluğunu artıra bilər. Beləliklə, işçilər biznesin standartlarından və bunun nəticəsində nə alacaqlarından xəbərdar olacaqlar.

Nəticə etibarilə, deyə bilərik ki, insan resursları yarandığı gündən inkişaf etmişdir. İndi o, şirkətinizin ən qiymətli aktivinə, yəni işçilərinə diqqət yetirən hərtərəfli insan kapitalının idarə

edilməsi yanaşmasını ehtiva edir. Kiçik bir biznes, insan kapitalının idarə edilməsi həlli vasitəsilə bir insan resursları sisteminin çərçivəsini daxil etməkdən böyük ehtimalla ən böyük qazancı əldə edəcəkdir. İnsan kapitalının idarə edilməsi sistemlərinin faydaları insan resurslarının əsaslarını tez və səmərəli şəkildə yerinə yetirmək və xərcləri azaltmaq imkanı verir *(https://byjus.com/commerce/sources-and-problems-of-human-capital-formation/).*

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. https://byjus.com/commerce/sources-and-problems-of-human-capital-formation/
2. https://www.investopedia.com/terms/h/humancapital.asp
3. https://www.selecthub.com/hris/benefits-human-capital-management-strategy/

# "İNSAN KAPİTALI" TERMİNİ VƏ BUNA YANAŞMALAR

***Sumqayıt Dövlət Universiteti***
***Balışova Ləman Elman qızı***
***Elmi rəhbər: A.V.Əsədova***

***Xülasə***

Hazırda insan kapitalı cəmiyyətin, iqtisadiyyatın və bütövlükdə dövlətin inkişafının əsas amilinə çevrilir. Onun öyrənilməsində " İnsan kapitalı" anlayışının mənşəyini və formalaşmasını bilmək vacibdir. "İnsan kapitalı" anlayışnın mahiyyətnin müəyyənləşdirilməsi üzrə elmi problemin həlli həm insan kapitalının konseptual əsaslarının işlənib hazırlanması, həm də bu sahədə praktiki həllərin işlənib hazırlanması üçün zəruridir. İnsan kapitalı nəzəriyyəsinin inkişafı prosesində bu kateqoriyanın bir çox tərifləri hazırlanmışdır. Tədqiqat işinin məqsədi insan kapitalının mahiyyətini açıqlamaq və xüsusiyyətlərini daha dolğun üzə çıxarmaqdır. Həmçinin, məqalədə müxtəlif alimlərin insan kapitalına yanaşmalarından bəhs olunmuş və onların xüsusiyyətləri üzə çıxarılmışdır.
***Açar sözlər:****iqtisadiyyat, investisiya, insan resursları, işçi qüvvəsi, rəqabət qabiliyyəti.*

***Summary***

Currently, human capital is becoming the main factor in the development of society, economy and the state as a whole. In its study, it is important to know the origin and formation of the concept of "Human capital". Solving the scientific problem of defining the essence of the concept of "human capital" is necessary both for the development of the conceptual foundations of human capital and for the development of practical solutions in this field. In the process of developing the theory of human capital, many definitions of this category have been developed. The purpose of the research work is to reveal the nature of human capital and reveal its characteristics more fully. Also, the approach of various scientists to human capital was discussed in the article and their characteristics were revealed.
***Keywords:*** *economy, investment, human resources, workforce, competitiveness.*

Əhəmiyyətli miqyas və informasiya tempi, innovasiya və intellektual inkişaf cəmiyyətin bütün sahələrini əhatə edərək dünyanın, dövlətlərin, əhalinin inkişafını kökündən dəyişdirdi. Qloballaşma transformasiyaları ölkələrin inkişafı üçün yeni üstünlüklər yaratmaqla yanaşı, müəyyən risk və problemlərin yaranması ilə də səciyyələnir. Belə bir şəraitdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında əsas amil və onun inkişafının əsas hərəkətverici qüvvələrindən biri özünəməxsus qabiliyyət və imkanlara malik olan insandır.

Cəmiyyətin və bütövlükdə ən yeni iqtisadi sistemin inkişafında insanın ən qiymətli resurs roluna yenidən baxılması nəticəsində insan kapitalının mahiyyəti və əhəmiyyətinə dair baxışlarda köklü dəyişikliklər baş vermişdir. Kapitalın həcmi və keyfiyyət xüsusiyyətləri ölkələrin yeni müasir texnologiyalara yiyələnmək və inkişaf etdirmək, dünya iqtisadiyyatının qabaqcıl texnoloji strukturlarını formalaşdırmaq və bu strukturlarda iştirak etmək potensial imkanlarını müəyyən edir *(Аветисян П.С., 2016:87).*

İnsan kapitalı milli iqtisadiyyatın inkişafı üçün strateji resursların xüsusi növü kimi iqtisadi və sosial sistemlərin rəqabət qabiliyyətinin artırılmasının və onların inteqrasiyasının ən səmərəli yoludur.

Müxtəlif dövrlərdə iqtisadi nəzəriyyədə müxtəlif anlayışlardan və tədqiqat obyektlərindən istifadə edilmişdir: insan kapitalı, insan resursları, işçi qüvvəsi, əmək potensialı, əmək resursları.

D.Rikardo "işçi qüvvəsi" kateqoriyasının banisi hesab olunur *(Акьюлов Р.И., 2009:41).* O, bu kateqoriyanı ilk olaraq digər alimlərə xas olan iqtisadi fəal əhali kimi deyil, muzdlu əmək mövqeyindən səciyyələndirmişdir. Bu kateqoriyanın tədqiqi və şərhinin davamı K.Marksın elmi əsərlərində qeyd olunur ki, o, insan qabiliyyətlərindən istifadə etməklə mənfəət gətirən işçi qüvvəsinin yaratdığı əlavə dəyəri dərk edir. İnsanın əmək fəaliyyəti prosesində işçi qüvvəsi əmtəəyə çevrilir.

“Əmək resursları” anlayışı ilk dəfə 1922-ci ildə S. Q. Strumilin tərəfindən “Bizim əmək ehtiyatlarımız və perspektivlərimiz” elmi əsərində təqdim edilmişdir. Alimlər arasında bu anlayışın mahiyyəti ilə bağlı yekdil fikir yoxdur. Üç əsas yanaşma var:

1) 70-ci illərə qədər əmək ehtiyatları. 20-ci əsr alimlər kəmiyyət xarakteristikası mövqeyindən tədqiq etmişlər. Bu, əmək balansını və əmək qabiliyyətli yaşda olan əhalinin uçotunu əks etdirən planlaşdırma və uçot xarakterli konsepsiya idi;

2) "Əmək resursları" kateqoriyasının əhəmiyyəti alimlər tərəfindən əməyin nəticələrini xarakterizə edən anlayışların əlaqəsi nöqteyi-nəzərindən nəzərdən keçirilmişdir (1960-1970-ci illər üçün xarakterikdir);

3) inkişaf etmiş sosializm dövründə şəxsi istehsal amilinin rolunun sürətlə artması ilə əmək ehtiyatları konkret istehsal münasibətləri, məhsuldar qüvvələrin bir hissəsi hesab olunurdu.

Ümumiyyətlə, insan resurslarına işçinin tərkibində olan potensial, ümumi mədəniyyət, yaradıcılıq qabiliyyəti, psixoloji vəziyyət, əməkdaşlıq və özünütəşkilatın təsiri (komanda ruhu, korporativlik, əməyin təşkilinin kollektiv formaları və s.) daxildir. A.Yu.Korçaginə görə insan resursları kifayət qədər spesifik resursdur. Ölkənin innovasiya iqtisadiyyatını formalaşdırmaq və inkişaf etdirmək qabiliyyəti onların inkişaf səviyyəsindən asılıdır.

İqtisadiyyatın inkişafı və intensivləşmə yolu tutması insanın cəmiyyətdəki roluna münasibətin dəyişməsinə səbəb oldu. Beləliklə, 1980-ci illərdə. elmi dövriyyədə “əmək potensialı” anlayışından istifadə olunmağa başlandı *(Иванов Н.А., 1988:31).* Əmək potensialı bütün əmək qabiliyyətli əhalini əhatə edir. Əmək potensialının əsas komponentlərinə aşağıdakılar daxildir: demoqrafik, iqtisadi, peşəkar və intellektual, sosial, psixofizioloji, mənəvi. İlk dəfə olaraq insana inteqral yanaşmanın bütün komponentlərin birləşməsində tətbiq edilməsinə cəhd edildi ki, bu da onların qarşılıqlı əlaqəsində insanın istehsal prosesinin iştirakçısı kimi inkişafı üçün şərait yaradır. B. M. Genkinə görə əmək potensialı bir çox komponentlərin məcmusudur: komandada işləmək bacarığı, iş vaxtı resursları, fiziki vəziyyət (sağlamlıq), yaradıcılıq, peşəkar və şəxsi keyfiyyətlər, hətta mənəviyyat.

A. Kibanov əmək potensialını şəxsi istehsal amilinin ümumiləşdirici yekun göstəricisi hesab edirdi. E.V. Maslov işçinin əmək potensialını əmək sferasında resurs imkanları kimi müəyyən etmişdir.

Q.Odeqov və başqaları öz elmi əsərlərində əmək potensialına sosial-demoqrafik, istehsalat, psixoloji, üstəlik, zamanın göstərdiyi kimi, siyasi və makroiqtisadi amillərin də təsir etdiyini vurğulayırlar.

Alimlərin tədqiqatlarının təhlili aşağıdakı investisiya növlərini əhatə edən insan kapitalına investisiyaların strukturunu təqdim etməyə imkan verir:

• təhsildə – ümumi və xüsusi təhsildə, formal və qeyri-formal, istehsalatda təlim və sair (bunun sayəsində məhsuldar insan kapitalı formalaşır);

• iqtisadi əhəmiyyətli məlumatların axtarışı;

• insan kapitalının daha yüksək əmək məhsuldarlığı olan yerlərə miqrasiyasına töhfə verən mobillik xərcləri (daxili və xarici miqrasiya);

• insanın tərbiyəsində;

• iqtisadi fəaliyyətin motivasiyası (əməyə motivasiyanın artırılması);

• səhiyyədə - tibbi yardım, xəstəliklərin qarşısının alınması, fiziki və psixi sağlamlığın möhkəmləndirilməsi;

• intellektual innovasiyalar;

• ekologiya və sağlam həyat tərzi;

• mədəniyyət, mənəviyyat, asudə vaxt və s.

Yüksək inkişaf səviyyəsinə malik ölkələrin təcrübəsinin göstərdiyi kimi, insana, hətta kiçik məbləğlərdə də investisiya qoymaq, uzunmüddətli perspektivdə müəssisənin inkişafına investisiya qoymaqdan qat-qat böyük gəlir gətirir. Akademik iqtisadçılar arasında adi sərmayənin insan kapitalının inkişafına qoyulan sərmayə ilə müqayisə oluna biləcəyi ilə bağlı konsensus yoxdur *(Генкин Б.М., 2019:17).* Amma hamı razılaşır ki, insan kapitalına qoyulan investisiya ölkənin iqtisadi inkişafının əsas mənbəyidir.

İnsan kapitalına investisiyalar adi investisiyalardan fərqli olan müəyyən xüsusiyyətlərlə xarakterizə olunur, yəni:

▪ insan kapitalının formalaşması təkcə fərd, ailə üçün deyil, həm də dövlət, bütövlükdə müəssisə üçün əhəmiyyətli xərclər tələb edir;

▪ investisiya müddəti fiziki kapitaldan xeyli uzundur - təxminən 12-20 il;

▪ insana sərmayə qoymaqdan gözlənilən nəticələr insanın aktiv iş dövründən asılıdır. İnsanlara və insan inkişafına nə qədər erkən investisiyalar mümkün idisə, investisiyadan bir o qədər çox gəlir gözləmək olar;

▪ insan kapitalına qoyulan investisiyalar digər kapital növlərinə edilən xərclərlə müqayisədə alimlər tərəfindən həm fərd, həm də bütövlükdə bütün cəmiyyət üçün ən faydalı hesab edilir;

▪ İnsan kapitalından istifadə nəticəsində həm fiziki, həm də mənəvi cəhətdən aktivləşir. Lakin istifadə müddəti ərzində insana əlavə sərmayələr qoyularsa (davamlı təhsil, peşə vərdişləri və təcrübəsi, sağlamlıq, mobillik və s.), onda insan kapitalı öz kəmiyyət və keyfiyyət xüsusiyyətlərini yaxşılaşdıraraq toplaya bilir;

▪ bir şəxsə qoyulan investisiyalar həcmcə əhəmiyyətlidir, uzun müddətdir, lakin gələcəkdə ayrılmaz iqtisadi və sosial effektlər verir (hər bir fərdin iqtisadi fəallığının artması insan kapitalının hərəkətliliyini canlandırmağa, vətəndaşların rifahını yaxşılaşdırmağa, inkişaf etməyə kömək edir; insan kapitalının təhsil səviyyəsinin yüksəlməsinin və əhalinin sosial şüurunun artmasının nəticələri olan bütövlükdə cəmiyyət);

▪ adambaşına düşən bütün mümkün məsrəflər investisiya hesab edilmir, ancaq insan inkişafına töhfə verən, iqtisadi cəhətdən məqsədəuyğun olan və cəmiyyətə fayda verənlər;

▪ insan kapitalının formalaşmasına və inkişafına investisiyalar risklə əlaqələndirilir, çünki onların gəlirliliyinin başladığı dövr iyirmi il və ya daha çox ola bilər;

▪ bir şəxsə sərmayədarlar müxtəlif subyektlər (dövlət, müəssisə, ictimai təşkilatlar, ailə, fiziki şəxslər) ola bilsə də, insan kapitalından istifadəyə və gəlir əldə etməyə bilavasitə nəzarəti bunun sahibi olan fiziki şəxs həyata keçirir. kapitalın növü;

▪ insan inkişafına qoyulan investisiyaların növləri, onların xarakteri və miqyası cəmiyyətin milli, tarixi, mədəni xüsusiyyətləri və ənənələri, millətin mentaliteti ilə müəyyən edilir.

Beləliklə, insan kapitalına investisiya qoyuluşu iqtisadiyyatın inkişafında müəyyənedici amildir. Onlar insan inkişafına investisiya qoyuluşunun səmərəliliyi probleminin həllinə ciddi diqqət tələb edir, onsuz həm fərdi işçinin, həm də bütövlükdə milli iqtisadiyyatın rəqabət qabiliyyətini təmin etmək mümkün deyil. Ona görə də milli iqtisadiyyatın innovasiya-investisiya modelinin inkişafında həlledici rol sərvət daşıyıcısı kimi insana verilir.

### İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Аветисян П. С., Геворкян Н. М. Человеческий капитал – ключевой фактор в контексте развития евразийских интеграционных процессов // Экономика и управление. – 2016. – № 1 (123).
2. Акьюлов Р. И. Человеческие ресурсы как комплексная экономическая категория // ЖЭТ. – 2009. – № 4.
3. Генкин Б. М. Экономика труда : учебник. – М. : Норма : НИЦ Инфра-М, 2019.
4. Иванов Н. А., Одегов Ю. Г., Андреев К. Л. Трудовой потенциал промышленного предприятия. – Саратов : Изд-во Саратовского ун-та, 1988.

# İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR

***Azərbaycan Dövlət İqtisad Universiteti***
***Əsgərova Nərgiz Rizvan qızı***
***Elmi Rəhbər: P.H.Rüstəmov***

***Xülasə***

Bizim gələcəyimiz təhsildir. Nəzər salsaq görəcəyik ki, inkişaf etmiş ölkələrdə aparıcı rol bilikdir. Təhsil sahəsində akademik dəyərlər quran ölkələr beynəlxalq rəqabətlə uyğunlaşmağı bacara bilən təhsil sferasında böyük islahatlar aparır. Təhsilin tərəqqisi hər bir ölkədə inkişaf məzmunun mühum hissəsi olduğu kimi ölkəmizdə də belədir. Təhsil proqramı təhsil müəssisələri tərəfindən təhsildə mövcud olan ehtiyacları ödəmək, əmək bazarına ali təhsilli və peşəkar kadr hazırlayır. İnsan kapitalının formalaşmasında da təhsil həlledici funksiyaya malikdir. İndiki zamanda təhsil bazarda təsəsrrüfat subyektinin müvəffəqiyyətinin, ölkənin iqtisadi artımının və elmi potensialın yüksəlməsinin əsas arqumentidir.

***Açar sözlər***: *İnsan Kapitalı, Təhsil Sistemi, İnsan İnkişafı İndeksi, Dünya Bankı Qrupu, Milli Prioritetlər.*

***Summary***

Our future is education. If we consider, we will see that the leading role in developed countries is knowledge. Countries that establish academic values in the field of education are making great reforms in the sphere of education that can adapt to international competition. The progress of education is an important part of the development content in every country, so it is the same in our country. The educational program prepares highly educated and professional staff for the labor market to meet the needs of educational institutions. Education has a decisive function in the formation of human capital. Nowadays, education is the main argument for the success of the economic subject in the market, the economic growth of the country and the rise scientific potential.

***Key words:*** *Human Capital, Education System, Human Development Index, World Bank Group, National Priorities.*

## Giriş.

Hər gün inkişaf etməkdə olan dünyamızda aparılan araşdırmalar nəticəsində görülmüşdür ki iqtisadiyyatın tərəqqisində insan kapitalı əhəmiyyət kəsb edir. Bəs ***"İnsan Kapitalı"*** nədir?

***İnsan Kapitalı*** – insanın inkişaf etməsi üçün onun potensialına investisiya qoyuluşu ilə formalaşır. İnsan Kapitalı cəmiyyətin intellektual qüvvəsini yaradır.

İnsanın inkişaf kompleksi siyasi, sosial və iqtisadi tərəqqi nəzəriyyəsi və metodologiyasıdır. İnsan inkişafı məzmunu XX əsrin 80-ci illərinin sonlarında tam yaranmışdır. Bu məzmunun əsas mahiyyəti ondan ibarətdir ki, insanlar iqtisadi inkişafın yalnız vasitələri deyil, həm də son məqsədidir.

*"Hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır. İnkişafın əsas məqsədi əhalinin sağlam, uzun və yaradıcı həyat yaşamasına görə əlverişli mühitin yaradılmasıdır. Bu, öz-özlüyündə aydın olan həqiqət kimi səslənə bilər. Lakin bu həqiqət resursların və maliyyə sərvətinin toplanması kimi qısamüddətli prioritetlərin fonunda asanlıqla yaddan çıxarılır" ( UNDP Human Development Report, 1990, səh. 9)*

Bunu nəzərə alaraq son illər nəticəsində insan kapitalı, onun inkişaf etdirilməsi ilə bağlı tədqiqatların aparılması daha da artmışdır. Baş verən köklü iqtisadi-sosial yeniliklər çərçivəsində insan kapitalının tərəqqisi bu kapitaldan səmərəli formada istifadə edilməsi vacib əhəmiyyət kəsb edir. Belə izah etmək olar ki, dövlətin fəal siyasətinin lazimi məqsədlərindən birini məhz insan kapitalın XXI əsrin tələblərinə cavab verən formada inkişaf etdirilməsi və ondan səmərəli istifadə edilməsi təşkil edir.

İstehsal kapitalının əsas aparıcı amillərindən biri də insan kapitalıdır. A.Smit belə bir yazısını sizlərin diqqətinə çatdırmaq istəyirəm. "Faydalı iş istehsalının artımı hər şeydən əvvəl işçinin cəldliyi və qabiliyyətinin yüksəldilməsindən, ondan sonra isə işlətdiyi maşın və alətlərin təkmilləşdirilməsindən asılıdır". O, vurğulayırdı ki, "işçilərin bacarıqların əldə edilməsi bacarıq sahibinin tərbiyəsi və ya şagirdliyi dövründən inkişafı zamanı xərc tələb edir, bu həmin insanın

şəxsiyyətini reallaşdıran əsas kapitalı təşkil edir" *(Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu İnsan Kapitalının İnkişafı: Nəzəri Aspektləri Və Qiymətləndirmə Metodologiyası. Bakı,2017. Səh 5).*

İnformasiya texnologiyalarının sürətli inkişaf mərhələsində insan kapitalı probleminin öyrənilməsi humanitar və təbiət elmləri üçün xüsusi məna kəsb edir. Bunun vacibliyinin irəli gəlməsinin səbəbi yeni texnologiyaların istifadəsi, təhsil, səhiyyə, iqtisadi dirçəliş, sosial təminat sisteminin yenilənməsi lüzumluğu insana aid problemlərin iqtisadi nöqteyi nəzərdən işlənib hazırlanmasını tələb edir. Bunu nəzərə alaraq müasir ictimai mühitdə hüquqi-mənəvi dəyişikliklərin öyrənilməsi, bütövlükdə tarixi inkişaf mərhələsinin davamlı tərəqqinin elmi cəhətdən öncədən görülməsi üçün insan kapitalının inkişafının strateji cəhətlərin araşdırılması xüsusi aktuallıq kəsb edir.

Həqiqətdə qeyd etmək lazımdır ki, irəliləmənin əsəs məqsədi insanların azadlığının genişləndirilməsindən ibarətdir. 1990-cı ildə Rio de-Janeyro şəhərində baş tutan BMT-nin Sammitində ölkələr arasında insan kapitalın tərəqqisinin səviyyəsini qiymətləndirmək üçün **"İnsan potensialının inkişafı"** və **"İnsan potensialının inkişafı indeksi"** adlanan yeni qrup iqtisadi terminologiyaya daxil edildi. Bu qrupun məzmununa görə insan inkişafında təkcə gəlirlər deyil, onların sağlamlığı, ətraf mühitin qorunması və insanların təhsil səviyyəsi və s. nəzərə alınmışdır.Həmin ildən etibarən bu kateqoriyaya daxil olan ölkələrə "İnsan İnkişafına" aid hesabatların hazırlanması təklifi irəli sürülmüşdür. Bu indeks ümumilikdə ***"İnsan Potensialın İnkişafı İndeksi"*** adlanır və bütün dünya ölkələri üzrə hesablanır. Bunun nəticəsi odur ki dünya ölkələrinin sosial-iqtisadi göstəricilərini müqayisə etməyə şərait yaradır *(Azərbaycan Respublikasi iqtisadiyyat nazirliyi iqtisadi islahatlar elmi tədqiqat institutu insan kapitalinin inkişafi: nəzəri aspektləri və qiymətləndirmə metodologiyasi. baki ,2017. səh 6).*

Aparılan hesabata görə, *Azərbaycanın İnsan İnkişafı İndeksi (İİİ)* ötən bir ilə qədər 0,745 olub. 2020-ci ildə isə bu rəqəm daha az olub: 0,741 *(Mənbə - www.bbc.news.az saytının məlumatlarından istifadə edilərək tərtib edilmişdir).*

Ölkə parlamentində təmsil olunan qadın sayı isə bütün sayın 18,2% təşkil edir.

***15 və yuxarı yaşlı əhalinin savadlılıq səviyyəsi***
***15 və yuxarı yaşlı qadın və kişilərin sayına nisbətən, faizlə***

| İllər | Cəmi | | Şəhər yerləri | | Kənd yerləri | |
|---|---|---|---|---|---|---|
| | Qadınlar | kişilər | qadınlar | kişilər | qadınlar | kişilər |
| 2009 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |
| 2010 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |
| 2015 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |
| 2016 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |
| 2017 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |
| 2018 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |
| 2019 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |
| 2020 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |
| 2021 | 99.7 | 99.9 | 99.7 | 99.9 | 99.7 | 99.9 |

2009-cu ildə əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən: 2009-cu ildə bütün əhalinin savadlılıq səviyyəsi 99,8% təşkil etmişdir *(www.stat.gov.az).*

| Ana ölümü | | |
|---|---|---|
| **İllər** | **Nəfər** | **Hər 100 000 nəfər diri doğulana** |
| **2015** | 24 | 14.4 |
| **2016** | 22 | 13.8 |
| **2017** | 21 | 14.6 |
| **2018** | 17 | 12.2 |
| **2019** | 21 | 14.9 |
| **2020** | 20 | 15.8 |
| **2021** | 20 | 17.8 |

2020-ci illə müqayisədə ana ölümünün səviyyəsi 2021-ci ildə 15,8-dən 17,8-ə qədər artmışdır *(www.stat.gov.az)*.

Ölkədə gözlənilən təhsil ili : 13,5 il

Orta təhsil müddəti isə: 10,5 il

Sizlərə Azərbaycan Dövlət Statistika Komitəsinin 2021-ci il üçün təqdim etdiyi təhsil haqqında statistik nəticələri bildirmək istəyirəm *(www.stat.gov.az)*.

Ali təhsil üzrə təhsil alanların sayı: 212,2 min nəfər

Orta ixtisas üzrə təhsil alanların sayı: 63,1 min nəfər

Peşə təhsili üzrə təhsil alanların sayı: 22,7 min nəfər

Əyani ümumi təhsil üzrə göstərici: 1690,9 min nəfər

Məktəbəqədər təhsil üzrə göstərici: 125,3 min nəfər.

İnsan potensialın inkişafı 4 mühum formaya – sağlam və uzun həyata, biliyə, münasib həyata görə tələb olunan resurslara sahib olmağa və ictimaiyyətin həyatında iştiraka xüsusi diqqət yetirir.

"Çikaqo məktəbi"nin nümayəndələrinin fikirlərinə görə səhiyyəyə, təhsilə, miqrasiyaya və digərlərinə ayrılan investisiyalar gələcək zamanda böyük gəlirlər qazanmaq niyyəti ilə faydalı formada qoyulur. İnsan Kapitalına qoyulan mənfəət, xərclər ümumi cəmiyyətin və ailə üçün səmərəli olmaqla, maddi tələbatın yüksəldilməsinə xidmət edir *(Mənbə - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu İnsan Kapitalının İnkişafı: Nəzəri Aspektləri Və Qiymətləndirmə Metodologiyası. Bakı,2017. Səh 7)*.

İnsan Kapitalı müəssisənin sahib ola biləcəyi element olmadığı üçün, qurumlar insan kapitalına sahib ola bilməzlər; onlar yalnız insanların sahib olduqları bilik və bacarıqlardan istifadə edə bilərlər. İnsan kapitalı müəssisənin daxili dinamikası üzərindən ölçülə bilən ən əhəmiyyətli intellektual kapital komponenetlərindən biridir.

İnsan Kapitalının təşəkkül etməsi birbaşa ev təsərrüfatları, dövlət və müəssisələr tərəfindən həyata keçirilir. Burdakı əsas məqsəd təhsil almadan xeyir qazanmağı müəyyən təhsilə xərclənən xərclərlə müqayisə edirlər. Məlumdur ki, təhsilin davam etdirilməsinin əsas iqtisadi səbəbi gələcəkdə istehsal gücünün və əməkhaqqının yüksəlməsinin gözlənilməsidir. Aydındır ki, təhsilli işçi hal-hazırda daha böyük insan kapitalına malikdir və burdan da belə nəticə çıxarmaq olur ki, təhsilli işçi daha çox əməkhaqqı qazanır.

**Bəs bu gün dünyada insan kapitalının vəziyyəti necədir?**

Son 25 il ərzində insan inkişafının misilsiz nailiyyətlərinə baxmayaraq, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün insan kapitalın inkişafı problem olaraq qalmaqdadır *(https://www.worldbank.org/en/publication/human-capital)*.

Münaqişə hadisələri və pandemiya insan kapitalına həyat itkisi ilə dağıdıcı təsir göstərdi. Dünya Bankı Qrupu tərəfindən 2018-ci ilin oktyabrında nəşr olunan və 2020-ci ildə yenilənmiş İnsan Kapitlı İndeksinin (HCI) ilk nəşri göstərir ki, bugün doğulan uşaqların təxminən 60%-i yaxşı halda, tam təhsil və sağlamlıq vəziyyətində ola biləcəklərinin yalnız yarısı qədər məhsuldardılar. 2018-ci ildə Dünya Bank Qrupu qərarı ilə İnsan Kapitalı Layihəsi (İKL) start vermişdir. İnsan Kapitalı Layihəsinin əsas məqsədi iqtisadi tərəqqinin artımı üçün daha çox investisiyaların qoyuluşunu sürətləndirmək məqsədilə ölkələri siyasətlər, məlumatlar və tədqiqatlara dəstəkləyən qlobal təşəbbüsdür. İnsan Kapitalına əhəmiyyətli investisiyalar yatırmadan ölkələrin gələcəkdə yüksək potensial bacarıqlı iş yerləri üçün hazır olan işçi qüvvəsi ola bilməyəcək və bununla da ölkələr dünya iqtisadiyyatında əlverişli rəqabət apara bilməyəcəklər *(SAĞ QAL ÖYRƏN İNKİŞAF ET. Azərbaycanın inkişafının sürətləndirilməsi məqsədilə insan kapitalına strateji investisiyaların yatırılması. Səh 4)*.

İnsan Kapitalının iqtisadiyyatda əsas rol olmasını və iqtisadi artımı təsdiq edərək, Azərbaycan Hökuməti və Dünya Bankı Baş Nazirin idarəsi, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfdaşlıq formasında 2018-ci ilin dekabr ayında yüksək səviyyəli və 3 günlük müddətdə İnsan Kapitalı Forumunu təşkil etdilər. Forumda Azərbaycan vətəndaşlarının qlobal bilik iqtisadiyyatına diqqətini çəkmək və Azərbaycanın başqa ölkələrlə rəqabət və əməkdaşlıq üçün hazırlanması niyyəti ilə insan kapitalına yatırılan investisiyaların artılmasının mahiyyəti vurğulanmışdır. "Sağ qal, öyrən, inkişaf et: Azərbaycanın iqtisadi artımının sürətləndirilməsi

məqsədilə insan kapitalına strateji investisiyaların yatırılması" adlı bu hesabat üzrə həyata keçirilən tərəfdaşlığa əsaslanır və ölkədə insan kapitalına investisiyaların əməkdaşlıq çərçivəsində hazırlanması və həyata keçirilməsi istiqamətində ilk addımdır.

Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər təsdiq edilmişdir.

Növbəti onillikdə ölkənin sosial-iqtisadi tərəqqisinə qəbul edilən beş Milli Prioritetlərdən biri də "Rəqabətli İnsan Kapitalı və Müasir İnnovasiyalar Məkanı"dır *(www.president.az).*

Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin əsas prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün insanların sağlamlığı, innovasiyaları təşviq edən münbit şərait və müasir təhsil əsas şərtdir. Bu prioritetin uğurla həyata keçməsi üçün aşağıda göstərilən 3 məqsədə nail olmaq lazımdır:

- Vətəndaşların sağlam həyat tərzi;
- İnnovativ və yaradıcı cəmiyyət;
- XXI əsrin tələblərinə uyğun təhsil

Təhsil strukturu gənc nəsli rəqəmsal texnologiyalar dövrünə yetişdirməsi üçün onlara məktəb dövründən etibarən rəqəmsal səriştələrin və yumuşaq bacarıqların aşılanmasına xüsusi diqqət yetirməli, gəlcək potensial kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşdırmalıdır. Güclü təhsil hesabına yüksək və peşəkar peşə bacarıqlarına sahib olan insan kapitalı formalaşdırmaq üçün ali təhsil müəssisələrindəki tədris olunan təhsil beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdı.

**Nəticə**

Təhsildə innovasiyalar olmadığı müddətcə insan kapitalının formalaşması mümkün deyildir. Əks təqdirdə bu, cəmiyyət üçün ciddi problemlər yarada bilər. Bu o deməkdir ki, təhsil müəssisələrində təhsil prosesinə yeniliklərin maksimal dərəcədə tətbiq etmə üsulu yaranmalıdır. Biz zənn edirik ki, hal-hazırda Azərbaycanda mövcud olan bilik potensialı özünü yaxın gələcəkdə büruzə verəcək. Təhsilin tərəqqisində "beynəlmillilik" amilinin nəzərə alınması vacibdir. Ölkəmizdə hal-hazırda fəaliyyət göstərən təhsil müəssisələri Azərbaycan vətəndaşlarını, həmçinin dünyanın inkişaf etmiş ölkənin vətəndaşlarının da diqqətini çəkməlidir. Biz əsas diqqətimizi təhsilin modernləşməsinə və insan kapitalının əlverişli istifadəsinə istiqamətləndirməyimiz zəruridir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Azərbaycanın statistik göstəriciləri-2016. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2016.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi STATİSTİK İNFOQRAFİKA 2021
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu-İnsan Kapitalının İnkişafı: Nəzəri Aspektləri Və Qiymətləndirmə Metodologiyası. Bakı,2017. Səh 5
4. SAĞ QAL ÖYRƏN İNKİŞAF ET. Azərbaycanın inkişafının sürətləndirilməsi məqsədilə insan kapitalına strateji investisiyaların yatırılması. Səh 4
5. UNDP Human Development Report, 1990, səh. 9
6. www.bbc.news.az
7. www.stat.gov.az
8. www.president.az

# DÖVLƏTİN İNKİŞAFINDA İNSAN KAPİTALININ ROLU

***Sumqayıt Dövlət Universiteti***
***Nəsirova Naibə Nazim qızı***
***Elmi rəhbər:prof. Ş.D.Səlimov***

***Xülasə***

Bu məqalədə Dövlətin inkişafında insan kapitalının rolundan, həmçinin insan kapitalının formalaşmasında mühüm rol oynayan təhsil, elm kimi sahələrdən geniş söhbət açılır. Ulu öndərimiz Heydər Əliyevin elmə, təhsilə qayğısından bəhs olunur. Heydər Əliyevin və onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil sahəsində verdiyi mühüm sərəncamlar qeyd olunub. Həmçinin məqalədə digər dövlətlərdə insan kapitalının inkişafı və problemləri haqqda danışılır və insan kapitalının üstün olduğu ölkələr göstərilir.
***Açar sözlər:*** *Heydər Əliyev, İnsan kapitalı, İlham Əliyev, Təhsil sistemi, Dövlət, Elm.*

***Summary***

In this article, there is a wide discussion about the role of human capital in the development of the State, as well as about fields such as education and science, which play an important role in the formation of human capital.Our Great Leader Heydar Aliyev's concern for education and science is discussedImportant decrees issued by Heydar Aliyev and his worthy successor, the President of the Republic of Azerbaijan, Ilham Aliyev, in the field of education have been mentionedThe article also mentions the development and problems of human capital in other countries.
***Keywords:*** *Heydar Aliyev, Human capital, Ilham Aliyev, The education system,State, Science.*

## Giriş

Hər bir dövlətin inkişaf istiqaməti ilk növbədə elm təhsil və mədəniyyət yönümlü olaraq xalqın rifahının yüksəlişini təmin etməyə yönəlir. Eyni zamanda dövlətin inkişafı üçün əsas şərtlərdən biridə savadlı, ixtisaslı kadrların olmasıdı, bu da insan kapitalının formalaşmasından aslıdır. İnsan kapitalı dedikdə isə insanların cəmiyyətdə özlərini realaşdıra bilmələri həmçinin cəmiyətin imkanlarından istifadə etməkçün bilik, bacarıq, inteleket, peşəkarlığ kimi xüsusiyyətlərdən istifadənin cəmi başa düşülür. Bu termini ilk dəfə Teodor Şuls istifadə etsədə, terminin inkişafı Heri Bekkerin adı ilə bağlıdır . İnsan kapitalınında formalaşması ilk növbədə elmin təhsilin inkişafı ilə bağlıdır. Bu barədə Azərbaycan Respublikasının Unudulmaz Ümumilli Lideri Heydər Əliyevin sözlərini xatırlamaq yerinə düşər. Heydər Əliyev deyirdi ki, "Təhsil hər bir dövlətin , ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz" *(http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm).*

Həmçinin Heydər Əliyev alimlərə ziyalılara böyük hörmət və qayğı bəsləyirdi. Elə məhz Azərbaycan tarixinin dönüş nöqtələrindən biri olan 1993 cü ildə Naxçıvandan Bakıya - müstəqil dövlət quruculuğuna qayıdan ümummilli liderimiz Heydər Əliyev ilk görüş yeri kimi Elmlər Akademiyasını seçdi *(Əliyeva -Kəngərli 2010:33).*

Eyni zamanda Ulu Öndərimiz Müəllimlərədə böyük qayğı bəsləyirdi,bu onun fikirlərində də özünü göstərir: "Müəllim adı ən yüksək addır,Mən yer üzərində müəllimdən yüksək ad tanımıram" *(Səmədov ,2010:33).*

Həmçinin 1945- ci ildə yaradılmış Elmlər Akademiyası Heydər Əliyevin 2001 - ci il 15 may verdiyi fərmanına əsasən Milli Elmlər Akademiyası adını almışdır . Bu da elm və təhsilin inkişafı üçün vacib addımlardan biri kimi hesab olunur. Heydər Əliyevin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də təhsilin inkişafı üçün perspektivli addımlar atmışdı. O, 2004 - cü il 5 may tarixli sərəncamı ilə "Azərbaycan Milli Ensiklopediyası " Elmi Mərkəzinin yaradılması barədə göstəriş vermişdi *(https://modern.az/az/news/90011/ilham-eliyev-milli-ensiklopediya-ile-bagli-serencam-verdi).* 2009-cu il 21 oktyabr sərəncamı isə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutmuşdu *(https://www.sdf.gov.az/az/generic/menu/Detail/97/menu//).* Bu kimi tədbirlərdə Azərbaycanın təhsilinin və bunun nəticəsi olaraq xalqın təhsil səviyyəsini yüksəlməsinə səbəb olmuşdu.

Eyni zamanda son iki ilin hadisələrini nəzərə alsaq, 2020 ci il sentyabrın 27 dən başlayaq Ermənistanın təcavüzkar siyasəti nəticəsində xeyli ziyan dəymiş təhsil müəssisələrinin bərpasına dair sərəncam vermişdi. Sərəncamda Gəncə, Tərtər,Goranboy, Ağdam rayonlarında ziyan dəymiş təhsil müəssisələrinin bərpası eyni zamanda tikintisi üçün 7 milyon manat vəsait Azərbaycan Respublikasının Prezidentinin ehtiyat fondundan ayrılmışdı *(https://sia.az/az/news/education/885205.html).* Həmçinin digər dövlətlərdə insan kapitalının inkişafı yolunda addımlar atmışlar. İlk növbədə inkişaf etmiş ölkələrin sırasına nəzər yetirsək,görərik ki, ABŞ ,Yaponiya,Çin kimi inkişaf etmiş ölkələrin yüksəlişində insan kapitalının rolu böyükdür . Həmçinin dövlətin inkişafını bir müddət tükənən təbii resurslarla təmin etmək olar ,ona görədə davamlı olaraq inkişaf üçün təbii resursların kimi insan kapitalının rolu böyükdür. Ən inkişaf etmiş ölkələrdən biri olan Çinin xalq arasında yayılan belə bir deyimi var: "Bir kişiyə balıq versən, onu bir gün bəsləyərsən.Bir insana balığ tutmağı öyrətsən,onu ömürlük bəsləyərsən". Eyni zamanda çinlilərdə belə bir deyimdə varki: "Bir millətin xəzinəsi alimlərdir" *(https://az.m.wikiquote.org/wiki/%C3%87in_atalar_s%C3%B6zl%C9%99ri).*

Bu da onu göstərirki savadlı ,təhsilli insanlar dövlətin, millətin tükənməz daimi sərvətidir. Həmçinin heç bir təbii resursları olmayan Yaponiya İnkişaf etmiş ölkələrin sırasında 3 cü yerə məxsusdu. Təsadüfi deyilki onun bu cür inkişaf səviyyəsinə çatmasının başlıca səbəbi güclü insan kapitalına malik olmasıdır. Bundan əlavə Yaponiyada insan kapitalının inkişafının əsasını başlıca amillərdən biri olan təhsil sistemi təşkil edir. Yaponiyada təhsil sistemi aşağdakı qaydalar üzrə qurulub :

Məktəblər - 1) İbtidai məktəb 2) Orta məktəb 3)Lisey

Ali Təhsil Müəssisələri - 1) Universitet 2) Peşə Kolleci 3)Xüsusi Hazırlıq Məktəbi 4) Ali Məktəb.*(https://izron.ru/articles/voprosy-i-problemy-ekonomiki-i-menedzhmenta-v-sovremennom-mire-sbornik-nauchnykh-trudov-po-itogam-me/sektsiya-10-mirovaya-ekonomika-i-mezhdunarodnye-ekonomicheskie-otnosheniya/rol-chelovecheskogo-kapitala-v-ekonomike-yaponii/)*

Eyni zamanda Yaponiyanın inkişaf edən səhiyyə sistemi də insan kapitalının inkişafında böyük rol oynayır. Bu səbəbdən ən uzunömürlü insanlar Yaponiyada qeydə alınır. Burada insanların ən yüksək ömür uzunluğu 83 ilə bərabərdir. Bir çox kasıb dövlətlər var ki təbii resurslarla zəngin olduqları halda insan kapitalının olmaması üzündən inkişaf cəhətdən geri qalıb. Belə dövlətlərin təhsil sistemi, səhiyyə sistemi çox aşağı səviyyədə olur. Bu tip ölkələr Konqo, Əfqanıstan , Zimbabve, Nigeriya və Afrikanın bir çox ölkələri daxildi. Bu ölkələrin sırasında Konqo Demokratik Respublikası əslində dünyanın ən zəngin qızıl, dəmir filizi, almaz və.s ehtiyatlarına malikdi. *(https://banker.az/dunyanin-10-%C9%99n-kasib-olk%C9%99si-kim-daha-pis-yasayir/)*

Lakin savadsız əhalinin ən yüksək qeydə alındığı yerdə buradır. Burada insan kapitalının inkişafıda yox dərəcəsindədir, bu da dövlətin inkişafına daha da mənfi təsir göstərmiş olur. Beləliklə insan kapitalının yüksək inkişaf etdirilməsi üçünsə düzgün təhsil sistemi qurulmalı və inkişaf etdirilməlidir.

Ulu Öndərimiz Heydər Əliyevin və onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində bu gün Azərbaycan gəncinin təhsil alması, peşəkar ixtisaslı kadr olaraq yetişdirilməsiçün hər tərəfli imkanlar yaradılmışdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Abbas Səmədov ; Ümumilli Liderimiz Heydər Əliyevin Azərbaycanda Təhsilə və Təhsil xadimlərinə qayğısı; Gəncə -2010 səh. 252.
2. http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm
3. Aybəniz Əliyeva -Kəngərli; 2010 – Bakı səh.424
4. https://az.m.wikiquote.org/wiki/%C3%87in_atalar_s%C3%B6zl%C9%99ri
5. https://banker.az/dunyanin-10-%C9%99n-kasib-olk%C9%99si-kim-daha-pis-yasayir/
6. https://izron.ru/articles/voprosy-i-problemy-ekonomiki-i-menedzhmenta-v-sovremennom-mire-sbornik-nauchnykh-trudov-po-itogam-me/sektsiya-10-mirovaya-ekonomika-i-mezhdunarodnye-ekonomicheskie-otnosheniya/rol-chelovecheskogo-kapitala-v-ekonomike-yaponii/
7. https://sia.az/az/news/education/885205.html
8. https://modern.az/az/news/90011/ilham-eliyev-milli-ensiklopediya-ile-bagli-serencam-verdi
9. https://www.sdf.gov.az/az/generic/menu/Detail/97/menu//

# İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR

***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Mirzəliyeva Leyla Vüqar qızı***
***Elmi rəhbər: dos.K.Ə.Quliyev***

***Xülasə***

Məqalə həm Azərbaycan Respublikasında həm də dünya ölkələrində insan kapitalının əhəmiyyəti, ona verilən dəyəri, bu kapitaldan səmərəli istifadə üsullarını, bu zaman yaranan problemləri və həmin problemləri aradan qaldıracaq perspektivləri əhatə edir.

***Açar sözlər:*** *insan kapitalı, təhsil,əmək,səhiyyə və sosial müdafiənin insan kapitalının inkişafına təsiri, insan kapitalının problemləri, perspektivləri.*

***Summary***

The article covers the importance of human capital both in the Republic of Azerbaijan and in the countries of the world, the value given to it, the methods of effective use of this capital, the problems that arise at this time and the perspectives and that will eliminate those problems.

***Keywords:*** *human capital, the impact of education, labor, health and social protection on the development of human capital, problems and prospects of human capital.*

## Giriş.

İnsan kapitalı dedikdə-insanlarda təcəssüm edən qabiliyyət, bilik, vərdiş və motivlərin məcmusu, daha doğrusu, gəlir gətirən insan qabiliyyətinin ölçüsü başa düşülür. İnsanların bilik, vərdiş və bacarıqları o halda kapitala çevrilir ki, onlar investisiya qoyuluşu vasitəsi ilə yığım qabiliyyətinə malik olsun və yüksək əməkhaqqı formasında sahibinə gəlir gətirsin. Çünki, insan kapitalı insanlara investisiya qoyuluşu hesabına formalaşır və bu investisiyaların arasında təhsilə, istehsalatda kadr hazırlığına, səhiyyəyə, əhali miqrasiyasına, qiymətlərə və gəlirlərə dair informasiyanın axtarışına yönəldilən xərclər xüsusi yer tutur. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud modelinin daha da təkmilləşdirilməsi prosesləri gedir. Bir tərəfdən sosialyönlü islahatlar dərinləşdirilirsə, başqa tərəfdən, iqtisadi və struktur dəyişiklikləri genişləndirilməkdədir. İnsan resurslarından və bütövlükdə insan kapitalından istifadənin maksimum səmərəli təşkilinin strateji əhəmiyyəti artmışdır. Ölkə prezidenti İlham Əliyevin yanında 2019-cu il oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə dövlət başçısı qeyd etmişdir ki, "Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əlbətdə ki, əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə, Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir. Ancaq buna baxmayaraq, əlbəttə bir daha demək istəyirəm ki, istifadə olunmayan kifayət qədər ehtiyatlar var və biz bu ehtiyyatları aşkar etməliyik. Elə etməliyik ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin. Fikrimizcə bu strateji vəzifələrin reallaşdırılmasında və başlanmış islahatların daha uğurla aparılmasında, planlaşdırılan yüksək nəticələrin əldə ediməsində insan amili – insan kapitalı həll edici rola malikdir"*(Loğman Abdullayev, 2019:2).* Tarix sübut edir ki, dünyada hər şeyi axtarıb tapan, hazırlayan, ortaya qoyan və yaradan insandır. Yer kürəsində 3,9 milyard ildir ki, insan yaranmışdır.Bizim sifətdə və formada olan insanlar 5 milyon ildir ki, əmələ gəlib. İlk əmək alətləri, silahları, od-ocaq, qab-qacaq, təqvim və.s məhz bu insanların beyni və düşüncəsinin nəticəsində yaranmışdır. Nəticədə insanlarda və dövlətlərdə sərvət, varidat və başqa sözlə kapital yaranmışdır. Lakin elm sübut edir ki, adi halda insanın potensial elmi gücünün 5-10 faizindən istifadə edilir. Onun qalan əqli gücündən istifadə edilməsi üçün toplanmış maddi maliyyə kapitalının insan kapitalına çevrilməsi daha böyük elmi nəticələrin, kəşflərin, yeni məhsulların alınmasına, ölkənin davamlı inkişafına və xalqın tərəqqisinə təkan vermiş olur. Ona görə də dünyanın inkişaf etmiş ölkələri 70 ildən çoxdur ki, insanın əqli gücündən maksimum istifadə etməklə daha böyük gəlirlər əldə etmək üçün çalışır, bütün ölkələrin güclü beyinlərini tapır, toplayır, böyük vəsaitlər sərf etməklə gəlirlərin əldə olunmasına nail olurlar. Çünki dövləti inkşaf etdirən, böyük gəlirlər əldə etdirən, xalqının tərəqqisinə nail olanda təhsildir, elmdir və onun hərəkətverici qüvvəsi insan kapitalıdır. Prezident İlham Əliyev demişdir: "Müasir dünya sivilizasiyasının tərəqqisində insan

kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir". Azərbaycan hökuməti neft gəlirlərinin səmərəli istifadə olunması ilə bağlı strateji konsepsiyanı həyata keçirməkdədir. Azərbaycan hökuməti neft və qaz ehtiyatlarının satışından əldə olunan kapitalı bütün bölmələrə sərf etməklə həm iqtisadiyyatın diversifikasiyasını dərinləşdirib, həm də müasir idarəetmə texnologiyalarının miqyasını genişləndirib, ölkəmizdə geniş vüsət alan yol, nəqliyyat, infrastruktur, su, kanalizasiya, təhsil, səhiyyə, elm, mədəniyyət, sosial sfera, kommunikasiya, rabitə, bank, maliyyə və digər sahələrdəki böyük inkişaf məhz neft kapitalının hesabına reallaşır. Neft gəlirləri bütün insanların həyatında hiss olunmaqdadır. Hər il qaçqın və məcburi köçkünlərin sosial həyatının, mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına 200 milyon manatdan çox pul sərf edilir ki, bu da neft vəsaitləri hesabına mümkünləşir. Regionlarda inşa edilən səhiyyə müəssisələri və diaqnostika mərkəzləri də neftdən daxil olan maliyyə mənbələri hesabına reallaşır. Hökumət neft gəlirlərini intellektual mülkiyyətə, insan kapitalının inkişafına yönəltməyi başlıca məqsədlərindən biri elan edib. Neft-qaz ehtiyatlarından əldə olunan gəlirlər insan kapitalının inkişafına yönəldilməklə Azərbaycanın iqtisadi tərəqqisi və davamlı inkişafı üçün etibarlı zəmanətə çevrilir *(https://www.yeniazerbaycan.com/Gundem_e4049_az.html).* Dünya Bankı tərəfindən hazırlanmış *Millətlərin sərvətlərinin dəyişməsi* adlı hesabatdan məlum olur ki, insan kapitalı qlobal sərvətlərin 64, yüksək gəlirli ölkələrin sərvətlərinin 70, aşağı gəlirli ölkələrin sərvətlərinin isə 41 faizini təşkil etdiyi halda, Azərbaycanda sərvətlərin formalaşmasında insan kapitalının payı cəmi 14 faizə bərabərdir, yəni, aşağı gəlirli ölkələrin göstəricisindən belə təxminən üç dəfə aşağı *(İqtisad elminin müasir problemləri, 2018:12).* Azərbaycanda sərvətlərin formalaşmasında insan kapitalının payının az olmasının səbəblərinin müəyyənləşdirilməsi və insan kapitalının formalaşmasına təsir edən sahələrdəki mövcud vəziyyətin dəyərləndirilməsi ölkədə dayanıqlı iqtisadi inkişafa mane olan problemlərin müəyyən edilməsi baxımından vacib amildir. Adambaşına sərvət göstəricisi dörd komponentin cəmindən ibarətdir: təbii resurslar, fiziki kapital, insan kapitalı və xalis xarici aktivlər. Təbii resursların dəyəri ölkədə mövcud olan təbii ehtiyatların dəyərlərini əhatə edir. Fiziki kapital dedikdə isə yaradılmış əsas fondlar (bina, qurğu, avadanlıq, cihaz və s.) başa düşülür. İnsan kapitalına gəldikdə, bu, əmək qabiliyyətli yaşda insanların ömürboyu yaratdıqları diskontlaşdırılmış gəlirlər əsasında hesablanır. Ölkədə insan kapitalının vəziyyəti və hökumətin insan kapitalının inkişaf etdirilməsi ilə bağlı fəaliyyəti dörd istiqamət üzrə qiymətləndirilir: təhsil, səhiyyə və sosial müdafiə, əmək. Bu qiymətləndirmə insan kapitalının formalaşdırılmasını təmin edən və ona mane olan faktorları müəyyən edir. Təhsil: Bu gün Azərbaycan dövləti ölkəmizdə insan kapitalının inkişafını stimullaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirməkdədir. Real sektorun tələbinə uyğun kadr hazırlığına aparılması, təhsil sistemində islahatlar burada mühüm yer tutur. Ümumiyyətlə, bəşəriyyət tarixi elm və təhsilin bütün dövrlərdə hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni yüksəlişində mühüm rol oynadığını gösdərir. N.Tusi insanları cəmiyyətdəki yerinə,roluna, mövqeyinə görə 4 sinfə bölmüşdür: cəmiyyətdə qələm əhli-təbiətin su, güc əhli- od, xidmət əhli- hava,torpaq əhli- torpaq kimi təbiətin 4 ünsürü funksiyasını yerinə yetirirlər. Buradaki qələm əhli- insanları irəliyə aparan, cəmiyyəti su kimi təmizləyən, bu sinfin ziyalıları insan kapitalının xəzinəsidir. Necə ki, İsaak Nyuton Ümumdünya Cazibə qanunu ilə göy cisimlərini öyrənməyə başladı, Thomson elektrik lampasını kəşf etməklə bütün evləri işıqlandırdı, radionun yaradıcısı G.Makroni uzaq ölkələri yaxınlaşdırdı və.s kimi kəşflər edildi, insanların həyat şəraiti yaxşılaşdı təbii ki, bunlar insan kapitalının sayəsində oldu *(Müzəffər Məmmədov,2019:1).* İndi yeni dövrün tələblərinə cavab verən təhsil sisteminin qurulması, mütərəqqi yeniliklərin tətbiqi yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, bu sahədə özünü gösdərən obyektiv problemlərin aradan qaldırılması son onilliklərdə Azərbaycanda reallaşdırılan dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlt Proqramı və digər bu kimi fundamental sənədlər ölkəmizdə təhsilin inkişafına və son nəticədə insan kapitalının yüksəlişinə xidmət edir *(Zamanova Mələk,2017).* Dövlətimiz rəqabətli insan kapitalının formalaşdırılmasını qloballaşma dövrünün əsas vəzifələrindən biri kimi görür və bu istiqamətdə ardıcıl addımlar atır. Mayın 26-29-da Bakıda

keçirilən və Azərbaycan-Türkiyə birgəliyinin daha bir nümunəsi kimi tarixə yazılan "TEKNOFEST-Azərbaycan" Aerokosmik və Texnologiya Festivalıda bütün digər cəhətləri ilə yanaşı, eyni zamanda insan kapitalının, elmə,texnologiyalara qoyulan sərmayelərin gücünün nümayişi idi *(Əliyeva İradə "Azərbaycan":2).* Lakin bunlara baxmayaraq Azərbaycanın təhsil sahəsində çatışmazlıqları da vardır. Araşdırmada təhsillə bağlı diqqət çəkən məqam Azərbaycanda təhsilin keyfiyyətinin və aktuallığının gözləniləndən aşağı olmasının qeyd edilməsi ilə yanaşı, bu sahədə müşahidə olunan qeyri-bərabərliklərin xüsusi vurğulanmasıdır. Belə ki, 2016-cı ildə keçirilmiş *PIRLS* tədqiqatının nəticələrinə görə, Azərbaycan Avropa və Mərkəzi Asiya (AMA) ölkələri arasında yüksək və aşağı nəticələr göstərmiş şagirdlər arasında ən çox fərq olan ölkədir. Tədqiqatın nəticələrinə əsasən zəngin ailələrdən olan şagirdlər yoxsul ailələrdən olanlarla müqayisədə 700 ballıq sistemdə 96 bal daha yüksək nəticə göstəriblər. Şəhərlərdə təhsil alan şagirdlərin nəticələri isə kənd ərazilərində təhsil alanlara nəzərən 48 bal daha çox olub. Statistika Komitəsinin göstəricilərində də qeyd edilir ki, hazırda Azərbaycanda 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərinə düşən ali təhsilli vətəndaşların sayı 134 nəfərdir. Bu isə həm region ölkələrinin göstəricilərindən, həm də dünya ölkələri üzrə orta göstəricidən iki dəfəyə yaxın aşağıdır. Məktəbəqədər təhsilə cəlb edilməklə bağlı isə qeyd etmək lazımdır ki, bu problem özünü Bakı şəhəri və regionlar arasında daha kəskin büruzə verir. Belə ki, Bakı şəhərində 6 yaşdan aşağı təxminən 200 minə yaxın uşağın 46 mini, başqa sözlə, 23 faizə yaxını məktəbəqədər təhsil müəssisələrinə cəlb edildiyi halda, digər regionlarda 6 yaşadək olan təxminən 720 minə yaxın uşağın 73 mini, yəni, 10 faizə yaxını məktəbəqədər təhsilə cəlb olunub. Bu baxımdan regionlarda məktəbəqədər təhsillə əhatə səviyyəsi paytaxt Bakıdan iki dəfədən çox aşağıdır. Dünya üzrə götürsək inkişaf etməkdə olan ölkələrdə əhalinin əksər hissəsi ibtidai təhsil almamışdır. Yaşlı əhalinin təqribən 20%-i orta məktəbdə, 7-46%-i ali məktəblərdə təhsil almışdır. MDB ölkələrindədə ibtidai təhsillə əhatə səviyyəsi aşağı düşmüşdür. Gəlir səviyyəsi aşağı olan ölkələrdə ibtidai ölkələrə daxil olanların 40%-dən çoxu sonradan təhsildən uzaqlaşır. Hətta gəlir səviyyəsi orta olan ölkələrdə belə, bu göstərici 15% təşkil edir. Nəticədə savadsızlıq dünyada geniş yayılan təzahür olaraq qalmaqdadır *(V.K.Lomakin-Dünya İqtisadiyyatı).*

Əhalinin savadsızlığı

| | **1980** | **1990** | **2000-2007** |
|---|---|---|---|
| Dünya | 30,6 | 24,6 | 16 |
| İnkişaf etməkdə olan ölkələr | 41,8 | 33 | 20 |

Mənbə UNESCO. Statistical Yearbook. 1999. Educational for all. Monitoring Report 2010

Azərbaycandada bir çox insanlar ali və orta ixtisas təhsili diplomlarına malik olmalarına baxmayaraq, keçid dövründə işsizlər sırasına qatılmalı olmuşlar. İqtisadi ədəbiyyatda bu "təhsil işsizliyi" adlanır. Təhsildə bu cür boşluqların, çatışmazlıqların, uyğunsuzluqların olması insan kapitalının keyfiyyətinin aşağı düşməsinə əsir edən əsas amillərdən və problemli tərəflərindən biridir. Səhiyyə: Sağlamlıq insan kapitalının inkişafında əhəmiyyətli rol oynayır. Əgər insanın sağlamlığı imkan vermirsə, onun istənilən səviyyədə bilik və bacarığa malik olması iş fəaliyyətini davam etdirməyə imkan verməyəcək. Bu baxımdan səhiyyənin maliyyələşdirilməsinə milli gəlirdən ayrılan payın səviyyəsi istənilən ölkədə səhiyyə sisteminin inkişaf səviyyəsini qiymətləndirmək üçün önəmli indikatorlardan biri hesab olunur. Dünya Səhiyyə Təşkilatının 2018-ci il dünyada səhiyyənin vəziyyətinə dair hesabatında qeyd olunur ki, bir çox inkişaf etmiş ölkələrdə icbari tibbi sığorta yığımları nəzərə alınmaqla dövlət tərəfindən səhiyyəyə orta hesabla ÜDM-in 5-8%-i qədər vəsait xərclənir( ümumi səhiyyə xərcləri isə ÜDM-in 8-10%-i qədərdir).Azərbaycanda ümumi səhiyyə xərclərinin təqribən 79%-ini əhalinin özü ödəyir. Müqayisə üçün deyək ki, bu göstərici Gürcüstanda 57%, Ukraynada 48%-dir. Bu baxımdan, qeyd etmək lazımdır ki, səhiyyə sistemində effektiv idarəetmə sisteminin qurulması və xəstəliklərin erkən mərhələdə müəyyən edilməsinə şərait yaradılması təkcə səhiyyə nəticələrinin yüksəldilməsi baxımından yox, əhalinin xərclərinin azaldılması baxımından da vacib töhfə verə bilər. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq ediilmiş "Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası" insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin

qurulması məsələlərinə ciddi diqqət yetirilmişdir. Konsepsiyada əhalinin sağlamlığı və səhiyyə sahəsində mövcud olan problemlərin aradan qaldırılması, səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi,müasir təhsil sisteminin formalaşdırılması və təhsildə idarəetmənin təkmilləşdirilməsi məsələlərinə srtateji yanaşmalar ortaya qoyulmuşdur (Loğman Abdullayev, 2019:2) Sosial Müdafiə: Gəlirlərin ədalətli paylanması, rifah və tərəqqi içində bir cəmiyyət qurulması sosial siyasətin başlıca vəzifələridir. Bu vəzifələri reallaşdırmaq üçün sosial müdafiə ən əhəmiyyətli vasitədir. Onun ən mühüm cəhəti cəmiyyətdə hər bir şəxsin mənafeyinə cavab verilməsi ilə bağlıdır. Başqa sözlə, sosial müdafiə bütün həyatı boyu ən çətin, riskli məqamlarda belə, insanın üstün mövqeyini qoruyub saxlıyır. Elə buna görə də, inkişaf etmiş ölkələrdə Ümumi Daxili Məhsulun 20-35 faizi bir qayda olaraq sosial müdafiə xərclərinə ayrılır. BMT-in Sosial iş üzrə tədqiqat institutu sosial müdafiəni açığlanabilir edir: Sosial müdafiə insanların rifahına mənfi təsir edən hadisələrin qarşısının, idarə edilməsi və aradan qaldırılması təmin edən mexanizmdir. Ümumiyyətlə sosial müdafiə insanın qarşıladığı sosial risklərin iqtisadi nəticələrinin aradan qaldırılmasında müdafiə təminatını nəzərdə tutan bir anlayışdır. Bu anlayış həm də ehtiyac içində yaşayan insanların sözügedən probleminin həlli anlamını özündə ifadə edir. Yoxsul həyat şəraitindən xilas olmaq yolunda qəfil rast gəlinən qorxunun dəf olunması sosial müdafiənin başlıca fəlsəfəsidir. Eyni zamanda sosial müdafiə sistemində islahatların aparılması, mövcud mexanizmlərin təkmilləşdirilməsi, aktiv məşğulluq tədbirlərinin gücləndirilməsi, ölkədə gender bərabərliyinin təmin edilməsi və ailə institutunun inkişafına daha çox diqqətin yönəldilməsi prioritetlik təşkil etmişdir. Son illərdə ölkəmizdə mövcud olan iqtisadi inkişaf modelinin tərkib hissəsinin yenilənməsinin daha sürətli fazasına daxil olmuşdiur və bunlarda öz növbəsində insan kapitalından istifadənin yeni səmərəli modellərinin, üsullarının və mexanizmlərinin işlənib hazırlanmasını və tətbiqini şərtləndirir *(Loğman Abdullayev,2019:3).* Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, dünayada insanların sadəcə olaraq 20%-i sosial müdafiə çətiri altına alınmışdır. Dünya əhalisinin 80%-nin isə heç bir sosial müdafiə təminatı yoxdur. Dünyanın 1,4 milyard əhalisi gündəlik 1,25 ABŞ dolları gəlirlə həyatını davam etdirmək məcburiyyətindədir. Son 20 illik bir dövrdə dünya ölkələrinin rifah səviyyəsindəki artıma, bir çox ölkələrdə müşahidə edilən iqtisadi inkişafa baxmayaraq, yoxsulluq səviyyəsi hələdə mövcudluğunu qorumuşdur. Sosial müdafiə sisteminin inkişafına təsir göstərən və yaxud ləngidən əsas faktorlara demoqrafik prosesləri, ölkələrarası miqrasiyanı, qeydiyyatdan kənar məşğulluğu misal göstərmək olar. Dövlət Azərbaycanda insan kapitalının yetişdirilməsi və inkişafını və cəmiyyətin həyatının təhsil, səhiyyə, ekoloji və.s sahələrinə çəkdiyi xərclərlə həyata keçirir. 2020-ci ildə ölkəmizdə dövlət büdcəsindən elm sahələrinin inkişafına 187 mln, bütövlükdə təhsilə ayrılan vəsaitlər 3 mlrd, səhiyyə sferasına 1.7 mlrd, sosial müdafiə sisteminə 3.2 mlrd, mədəniyyətin inkişafına 400 mln, ekoloji mühitin yaxşılaşdırılmasına 300 mln manat vəsait ayrılmışdır. Bütövlükdə ayrı-ayrı xərcləri götürsək dövlətin insan kapitalı potensialının qurulmasına xərcləri anlamında ölkə büdcəsinin xərclərinin 30%-i bu istiqamət üçün nəzərdə tutlmuşdur. Əmək: İşçilərin əmək qabiliyyətini itirməsi onların təhsilinə qoyulmuş investisiyaları qiymətdən salır, müəssisənin istehsal potensialı azalır, istehsal prosesindəki fasiləsizlik və onun ayrı-ayrı bölmələri arasındakı tarazlıq pozulur. Təsadufi deyildir ki, insanların fəaliyyət göstərən canlı qüvvənin xalqların əsas sərvəti olması fikrini, ilk dəfə irəli sürən V.Petti də məhz sağlam işçiləri faydalı hesab edirdi. O, ilk dəfə olaraq insanların peşəkarlıq keyfiyyətlərinin məcmusunun gəlir gətirən insan kapitalı olması ideyasının əsasını qoymuş, insan kapitalına investisiya qoyuluşunun zəruliliyi və səmərəliliyi məsələsi haqqında fikir irəli sürərək onu gündəmə gətirmiş və insan kapitalının təkrar istehsalının həyata keçirilməsində dövlətin sosial-iqtisadi institut kimi aparıcı rol oynadığını göstərməyə cəhd etmişdir. Hal-hazırda məşğulluq dünyanın ən qlobal problemlərindən birinə çevrilmişdir. Son məlumatlara əsasən hazırda dünyada mövcud olan 3.7 milyard nəfərədək olan iş qüvvəsinin 184 milyon nəfərindən çoxunun və ya 4.9%-nin iş yeri yoxdur, 25-30%-nə qədəri isə natamam işləyənlərdir. Buna görədə təsadüfi deyildir ki, hazırda bəzi iqtisadçılar işsizliyin tiplərinə yeni birisinin də əlavə edilməsi təklifi ilə çıxış edirlər. İqtisadi ədəbiyyatda bu tip işsizlik “təhsil işsizliyi” adlanır.(V.K.lomakin, Dünya iqtisadiyyatı, 2018:20) Bütün bu deyilənlərdən aydın olunur ki, hal-hazırda ölkəmizdə mövcud olan insan kapitalından heç də bütünlüklə cəmiyyətin mənafeyi baxımından tam və dolğun səviyyədə istifadə

edilmir. Buna görədə qarşıda duran başlıca vəzifələrdən biri həm işsiziyi həm də onu doğuran səbəbləri dərindən tədqiq və təhlil edib qiymətləndirmək əsasında dövlət və hökumət orqanlarına elmi cəhətdən əsaslandırılmış təkliflər işləyib hazırlanmaqdan və onların həyata keçirilməsinə nail olmaqdan ibarətdir.

**Nəticə**

Tədqiqat materialları əsasında bu nəticəyə gəlmək olar ki, son illərdə ölkəmiz mövcud olan iqtisadi inkişaf modelinin tərkib hissəsinin yenilənməsinin daha sürətli fazasına daxil olmuşdur və bunlarda öz növbəsində insan kapitalından istifadənin yeni səmərəli modellərinin, üsullarının və mexanizmlərinin işlənib hazırlanmasını və tədbiqini tələb edir. Bu istiqamətlərdə bir sıra mühüm məsələlərə və strateji yanaşmalara daha çox diqqət yetirilməlidir: 1) Ölkəmizdə insan kapitalından istifadənin səmərəli təşkili üzrə daha optimal mexanizmlərin formalaşdırılması, hazırlanması və tətbiqi istiqamətində davamlı tədbirlər görülməlidir. 2) Yaxın illərdə insan kapitalının daha obyektiv dəyərləndirilməsi və bunlarla bağlı sistemli tədbirlərin görülməsi üzrə uzunmüddətli dövrü əhatə edən proqramlar və tədbirlər kompleksi hazırlanaraq həyata keçirilməlidir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Abdullayev Loğman, 2019, Beynəlxalq ictimai-siyasi, elmi- nəzəri jurnal, Azərbaycanda İnsan kapitalından istifadənin səmərəli təşkilinin strateji məsələləri
2. Bağırlı Lamiyə, Bakı-2021, İnsan kapitalı Azərbaycanda sosial inkişafın əsas amilləri kimi, Avtoreferat
3. Əliyev.Ş.T, İnsan kapitalının formalaşmasında regionlarda məhsuldar qüvvələrdən səmərəli istifadənin strateji aspektləri
4. Əliyeva İradə, "Azərbaycan"- İnsan kapitalı-parlaq gələcəyin təminatı, Məqalə
5. İqtisad Elminin Müasir Problemləri Mövzusunda Respublika Elmi-Praktiki Konfransının Materialları, UNEC Zaqatala fliалı, Zaqatala-31.05.2018
6. M.A.Mədətov, İnsan kapitalının inkişafına təsir edən amillər, nəzəri yanaşmalar
7. Məmmədov Müzəffər, ADİU, Nəsirəddin Tusinin sosial-iqtisadi təlimində insan və insan kapitalı
8. V.K.Lomakin, Baku-2018, Dünya İqtisadiyyatı
9. Zamanova Mələk, Bakı-2017, Təhsildə keyfiyyətin sistemli idarəedilməsi
10. Zaynallı Lətif, 2020, İnsan kapitalından istifadədə dünya təcrübəsinin müqayisəli təhlili
11. https://sosialishmektebi.com/2021/05/30/sosial-mudafi%C9%99-sosial-iscil%C9%99rinyeri-v%C9%99-rolu/
12. https://pensiya.az/news/17/sosial-mudafie-ve-insan-amili.html
13. https://www.yeniazerbaycan.com/Gundem_e4049_az.html
14. https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan-2/

# İNSAN KAPİTALI VƏ ONUN CƏMİYYƏTDƏ ROLU

***Bakı Slavyan Universiteti***
***İbrahimli Banu Aslan qızı***
***Elmi rəhbər:dos.S.R.Səlimova***

***Xülasə***

İnsan kapitalı – şəxsin gələcəkdə peşə fəaliyyəti ilə məşğul olmaqla öz qabiliyyətini, bilik və bacarıqlarını ortaya qoyması ilə sərmayə əldə etməsidir. Buna görə də insan kapitalını bəzən cəmiyyətin intellektual resursları adlandırırlar. İnsan kapitalı zamanla inkişaf edir və insanın bilik və bacarıqlarını özündə cəmləşdirir.İnsan kapitalının ən erkən forması 1897-ci ildə İrvinq Fişer tərəfindən yaradılsa da bu gün dünya iqtisadiyyatının əsas özülü sayılır. Dövlətimizdə də artıq savadlı və bacarıqlı gənclərə yer verməklə insan kapitalının inkişafına təkan verirlər.
***Açar sözlər:*** *İnsan kapitalı, sərmayə, resurs,investisiya, ekosistem.*

***Summary***

Human capital is a person's ability, knowledge and skills to be invested in the future by engaging in professional activities. Therefore, human capital is sometimes called the intellectual resources of society. Human capital develops over time and includes the knowledge and skills of a person. Although the earliest form of human capital was created by Irving Fisher in 1897, today it is considered the main essence of the world economy. In our country, they encourage the development of human capital by giving place to educated and skilled young people.
***Keywords:*** *Human capital, investment, resource, investment, ecosystem.*

İnsan sosial varlıqdır və o, keçmiş və indiki əsrlərin bir sıra alimlərinin inandığı kimi, ilk növbədə əməyin sayəsində üzə çıxmışdır. Əməyin şüurlu, məqsədyönlü fəaliyyət kimi insanı heyvanlar aləmindən ayırması, ona şüur bəxş etməsi və onun varlığının ictimai mahiyyətini müəyyən etməsi uzun müddət aksioma hesab olunurdu. İnsan nəinki yaradır, həm də hərəkətə gətirir və texnika və texnologiyadan istifadə yollarını müəyyən edir ki, bu da öz növbəsində insanın fiziki və intellektual parametrlərinə yeni tələblər qoyur. Biznesin uğurunu şərtləndirən amil onun insan resurslarıdır. Biznesdə ixtisaslı insanların sayı artdıqca və bu insanların ixtisaslarından (istedad, bilik, bacarıq, təcrübə və s.) istifadə olunduqca biznes uğur qazanır və rəqabət yarışında digər bizneslərdən bir addım öndə ola bilir. Bütün bunlar insan kapitalının əsası sayılır. İnsan kapitalı nədir?

**İnsan kapitalı** – şəxsin gələcəkdə peşə fəaliyyəti zamanı gəlir gətirə biləcək istedad və qabiliyyətlərinə hazırda qoyulan sərmayələrin cəmidir *(Vikipediya səh1).* Məsələn, bir neçə misal göstərək. Kiminsə elmə həvəsi vardırsa, o şəxs təhsilini davam etdirməli, ona sərmayə yatırmalıdır. Hətta, onun hər hansı bir kitaba sərf etdiyi maliyyə də insan kapitalına yönəldilən sərmayədir. Yeri gəlmişkən qeyd edək ki, dövlət qabiliyyəti olan şəxslərin obyektiv imtahanlardan keçməsindən sonra müəyyən tələb olunan həddi keçmələri nəticəsində onların təhsillərini davam etməsinə şərait yaradır. Bu təhsilin bütün mərhələlərində mümkündür. İnsan kapitalı Oksford İngilis dili lüğətində "işçi qüvvəsinin malik olduğu və resurs və ya aktiv kimi qəbul edilən bacarıqlar" kimi tərif edilir. İnsan kapitalı istedad, məktəb və iş hazırlığı, müəssisədəki işçilərin təcrübəsi və biliyi kimi insan amillərinə aiddir. Başqa sözlə, fitri və qazanılmış xüsusiyyətlərin dəyəridir. İnsan kapitalı investisiya nəticəsində zamanla inkişaf edən kapitaldır.

Buna görə də insan kapitalını bəzən cəmiyyətin intellektual resursları adlandırırlar. İnsan kapitalı-insanın cəmiyyətdə özünü tam realizə etmək və cəmiyyətin imkanlarından tam istifadə etmək üçün insanın biliyinin, bacarığının,peşəkarlığının cəmi sayılır.Bu intellekt, sağlamlıq, bilik, keyfiyyətli əmək keyfiyyətli həyat şəraitidir. Bu termin ilk dəfə Teodor Şuls tərəfindən işlədilib,sonradan davamşısı Herri Bekker tərəfindən inkişaf etdirilib.İsbat edilib ki,insan fəaliyyətinə effektli iqtisadi baxış çox vacibdir.

İlk dövrdə insan kapitalı dedikdə,insana sərf edilən investisiya başa düşülürdü.Sonradan insan kapitalı anlayışı genişləndirildi və bura insanın bütün istehlak xərcləıri-ailəsinə çəkilən

xərc,təhsil,səhiyyə xərcləri,mədəni tələbləri aid edilməyə başlandı. Bu sahəyə həmçinin dövlətin xərcləri də aid edilir. İnsan kapitalı nəzəriyyəsinin formalaşması 1950-ci illərin sonu- 1960-cı illərin əvvəllərində baş verdi. Xarici mühitdən əldə edilən bilik, bacarıq və davranışları fitri xüsusiyyətlərə əlavə etməklə onu artırmaq olar. Bununla belə, insan kapitalı bərpa oluna bilən yenilik mənbəyidir. İnsan kapitalı əhalinin keyfiyyətini xarakterizə edir. O,əhalinin keyfiyyətinin yaxşılaşdırılmasına, o cümlədən intellektual fəaliyyətə qoyulan investisiyalar hesabına formalaşır. Bilik, yüksək keyfiyyətli iş, mütəxəssislərin ixtisası isə işin səmərəliliyində həlledici rol oynayır

İqtisadiyyatda "insan kapitalı" termininin ən erkən formal istifadəsi, ehtimal ki, 1897-ci ildə İrvinq Fişer tərəfindəndir. Daha sonra müxtəlif yazıçılar tərəfindən qəbul edilmiş, lakin bu terminin ciddi hissəsinə çevrilməmişdir.İnsan kapitalını insan inkişafı anlayışı ilə qarışdırmaq olmaz. İnsan İnkişafı İndeksi üç göstərici üzrə hesablanır. Bu, insan kapitalından daha dar bir anlayışdır. Həmçinin "insan kapitalı" və "əmək resursları" anlayışlarını qarışdırmaq olmaz. İşçi qüvvəsi, ixtisaslı və ixtisassız əməyi müəyyən edən savadlı və təhsilsiz insanlardır. İnsan kapitalı daha geniş anlayışdır və əmək resurslarından əlavə əhalinin keyfiyyətinin yüksəldilməsi üçün yığılmış investisiyaları da əhatə edir. Əksər ölkələrdə insan kapitalı yığılmış milli sərvətin yarısını ötür (OPEC ölkələri istisna olmaqla).

İnsan kapitalı Galor-Weil modelinin əsasını təşkil edirİnsan kapitalının inkişafında əsas yeri elm tutur.Buna görə də fundamental və tətbiqi elmlərin inkişafına xüsusi qayğı və diqqət göstərilir.Bu səbəbdən də elmin maliyyələşdirilməsi üçün xüsusi fondlar yaradılmışdır.

Henri Bekkerin" İnsan kapitalı"əsərində insanın motivlərinin və davranışının bəzi aspektlərinə,həmçinin ona aid olan fiziki,emosional və mənəvi sağlamlığa insan kapitalı kimi baxmaqla insan nəzəiyyəsinin modelini ortaya qoymuşdur *(İnsan Kapitalının İnkişafı:Nəzəri Aspektləri və Qiymətləndirmə Metodologiyası. 2017, səh 7).*

İnsan kapitalı deyərkən yada düşən amillərdən biri,təbii ki, innovasiyalarddır. İnnovasiyalar hər bir ölkədə iqtisadi inkişafın hərəkətverici qüvvəsi rolunda çıxış edir.Ona görə də ölkələr, şirkətlər öz rəqabət güclərini qurumaqla yeniliklərə uyğunlaşmaqla ön sıralarda olmağa calışırlar.Azərbaycan da bu cür ölkələr sırasındadır.Məhz ölkəmizdə yüksək intellektə malik insan kapitalının formalaşması və inkişafına, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin olunmasına, müxtəlif sahələrdə qazanılmış qabaqcıl dünya təcrübəsinin tətbiqi ilə fərdi potensialların üzə çıxarılmasına bərabər imkanlar yaradılır.Azərbaycanda dövlət siyasətinin mərkəzində vətəndaş amili,yüksək rifah və layiqli həyat səviyyəsi dayanır.

"İnsan kapitalı"na sərmayələr illərlə qoyulur. Həmin sərmayələr ki, toplaşaraq cəm halında gəlir gətirmək qabiliyyətinə malik olurlar. Bir şəxsin "insan kapitalı"na sərmayə yatırması üçün ilk öncə, həmin şəxsin gələcəkdə hansı peşənin yiyəsi olmasını seçməsi vacibdir. Konkret məqsəd bəlli olduqdan sonra, o məqsədə gedən yol və həmin yolda olan hədəflər müəyyən edilməli və çətinliklərə nəzər salınmalıdır. Bunun üçün seçilmiş məqsəd üzrə ətrafdakı insanlarında fikirlərini öyrənmək və müvafiq məsləhətlər almaq lazımdır. Bu işdə həmin sahənin mütəxəssislərinin məsləhətləri də yardıma çatacaqdır. Amma yaxşı olardı ki, son qərarı "məqsəd sahibi" versin.

Yeri gəlmişkən bir şeyi də qeyd etmək yerinə düşərdi ki, dövlətin "insan kapitalı"na qayğısı da mühüm əhəmiyyət kəsb edir. "İnsan kapitalı"nın reallaşdırılması üçün müvafiq infrastrukturun olması da vacibdir. Hazırda Azərbaycanda neftdən gələn gəlirlərin "insan kapitalı"na yönəldilməsi prosesi baş verir. Bunu konkret olaraq yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, ölkə üzrə bütün kitabxanaların geniş çeşidli kitablarla təmin edilməsi, yeni təhsil standartlarının müəyyən edilməsi, daha bilikli və qabiliyyətli insanların ali təhsilin istənilən mərhələlərində ödənişsiz təhsil alması və onlara təqaüdlərin verilməsi, xaricdə təhsillərini davam etdirmək istəyən şəxslər üçün imkanların yaradılması kimi mühüm göstəriciləri misal göstərmək olar.

"İnsan kapitalı" şəxslərin gələcək peşə fəaliyyətlərində istifadə olunacağı üçün "insan kapitalı"nın qazanılmış olmasını və onun həmin şəxsdə tərənnüm edilməsini göstərən sənədlər mühüm əhəmiyyət kəsb edir. Təhsillərini davam etdirənlər üçün birinci növbədə diplom və ya digər yöndə irəliləyənlər üçün birinci növbədə müvafiq sənədin olunması vacibdir. Eyni zamanda sertifikat (şəhadətnamə), fəxri fərman, təşəkkürnamə, təcrübə üzrə rekomendasiyalar da "insan kapitalı"nın həmin şəxsdə tərənnüm etməsi ilə bağlı təsdiqedici sənəd formasında çıxış edir. Bu cür

sənədlər nə qədər çox olarsa, həmin şəxsin insan kapitalına daha çox sərmayə yatırdığı düşünülür. Müvafiq istiqamət üzrə təcrübənin olması çox mühüm əhəmiyyətə malikdir."İnsan kapitalı" eyni zamanda, insanın ətrafında olan hər bir resursdan maksimum səmərəli istifadə etməkdir. Çünki insanın öz bilik və qabiliyyətlərini reallaşdırması üçün onun hər şeydən istifadə edə bilməsidir. Burada ictimai durum da mühüm əhəmiyyət kəsb edir. Bu gün ölkəmizdə gənclərin "insan kapitalı"na yönəlik tədbirlər təşkil edən çoxsaylı gənclər təşkilatları, ictimai birliklər fəaliyyət göstərirlər. Hətta, gənclərlə işləyən həmin təşkilat və birliklərin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılmışdır. Bu fondun yaradılmasında məqsəd isə gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində məqsədli maliyyələşdirmək, həmin sahədə konfrans, seminar, festival, olimpiada və digər tədbirlərin təşkili üzrə layihələri dəstəkləmək, maddi-texniki bazanın gücləndirilməsinə və müasir tələblərə uyğunlaşdırılmasına yardım etməkdir.Ümumiyyətlə, "insan kapitalı" nın qazanılması vacib olan ən dəyərli nailiyyətdir. Qeyd etmək lazımdır ki, gənclər "insan kapitalı"na sərmayələr qoyması üçün, öz məqsədlərini daha düzgün müəyyənləşdirmək üçün və səhv addımlardan qaçınmaq üçün düzgün qərar verməlidirlər. Lakin bir məsələnin önəmi böyükdür ki, nə qədər çox insandan məsləhət alsalar da, son qərarı özləri verməlidir, çünki yaşadıqları həyat onlarıdır və sərbəst qərar qəbul etməyin özü də bir növ insan kapitalının inkişafıdır. Insan kapitalının həlledici rolunu nəzərə alaraq, innovasiyaların davamlı inkişafı fonunda bu sahəyə diqqət getdikcə artacaq. Bu məqsədlə şərait və mühit daha da əlverişli hala gətiriləcək.. Hesab edirik ki, Azərbaycanda olan bilik potensialı yaxın gələcəkdə özünü büruzə verəcək və dünyəvi reytinq qiymətləndirmə meyarlarına görə ölkəmiz xüsusi yer alacaq. Bunun üçün cəmiyyətin, dövlətin və ali məktəblərin əlaqəsini genişləndirməsi lazımdır. Beləliklə, milli təhsil sisteminin dünya səviyyəsində mövcud olan təhsil məkanına inteqrasiyasının əsas şərti ali məktəblərin göstəricilərinin beynəlxalq tələblərə uyğun olmasıdır. Təhsilin inkişafının strategiyasının seçimində "beynəlmillilik" amilinin nəzərə alınması zəruridir. Ölkəmizdə fəaliyyət göstərən təhsil ocaqları nəinki Azərbaycanın sakinlərini, eləcə də inkişaf etmiş ölkələrin vətəndaşlarını da cəlb etməlidir. Qeyd edək ki, xarici tələbələr üçün ölkəmizdə tolerantlıq mühiti yaradılmışdır. Azərbaycanda insan kapitalının inkişafında bəzi çatışmazlıqlara baxmayaraq, onun iqtisadi artıma və cəmiyyətin sosial-iqtisadi tərəqqisinə töhfəsi kifayət qədər yüksəkdir *(Baku Research İnstitute:F.Mehralızadə:səh5).* Azərbaycanda insan kapitalı haqqında Hazırda əsas diqqəti təhsil sisteminin modernləşməsi və insan kapitalının səmərəli istifadəsinə yönəltmək zəruridir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat institutu:insan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası:(Bakı – 2017 səh 7)
2. Azərbaycanın statistik göstəriciləri-2016. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2016.
3. Baku Research İnstitute:F.Mehralızadə: Azərbaycanda insan kapitalı haqqında (səh 5)
4. https://core.ac.uk/download/pdf/20641358.pdf
5. https://dergipark.org.tr/tr/download/article-file/180494
6. www.economy.az
7. https://www.scirp.org/journal/paperinformation.aspx?paperid=88731
8. https://www.123helpme.com/essay/HUMAN-CAPITAL-376813
9. https://www.123helpme.com/essay/Human-Capital-Development-
10. https://www.123helpme.com/topics/human-capital
11. https://paperity.org/p/223142289/beseri-sermaye-ve-ekonomik-buyume-iliskisi-turkiye-icin-nedensellik-analizi
12. https://mirec.mgimo.ru/upload/ckeditor/files/mirec-2016-3-gorbanyov.pdf
13. https://onerbilisim.com/insan-sermayesi-yonetimi-human-capital-management-hcm-nedir/
14. www.president.gov.az
15. www.stat.gov.az
16. V.Teymurova:Insan kapitalının formalaşmasında təhsilin rolu (səh 5)
17. Vikipediya: İnsan kapitalı (səh1)

# İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Cəfərov Rəvan Məsud oğlu*
*Elmi rəhbər: V.V.Kərimova*

***Summary***

This article presents the outcome of theoretical review and summarizing of materials regarding the interpretation of the nature and role of human capital. It is the important strategic role for the countries to solve complex problem and develop further. Human capital is considered as a totality of certain personal, social, professional and business skills, as well as an important investment resource, the use of which contributes to the efficiency of production. This study investigated the problem in human capital, how to improve the efficiency by solving these problem and future perspectives. We tried to analyze real world data by comparing developed countries with developing countries. Furthermore, we tried to see the developed countries experience in terms of improving their efficiency in human capital.
***Keywords:*** *human capital, efficiency, prospects, human capital index, developed countries, developing countries.*

***Xülasə***

Bu məqalədə insan kapitalı terminin ümumiləşdirilməsi, nəzəri təhlili, insan kapitalının rolu təqdim edilmişdir. İnsan kapitalı ölkələrin mürəkkəb problemlərini həll etmək və gələcək inkişaf üçün mühüm stratejik roldur. İnsan kapitalı müəyyən şəxsi, sosial, peşəkar və işgüzar bacarıqların məcmusu, habelə istifadəsi istehsalın səmərəliliyinə töhfə verən mühüm investisiya resursu kimi qəbul edilir. Bu araşdırmada insan kapitalındakı problemlər, bu problemi həll etməklə səmərəliliyin necə yüksəldilməsi və gələcək perspektivləri araşdırılıb. Həmçinin, inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələri müqayisə edərək real məlumatlar əsasında təhlili aparmağa çalışmışıq.
***Açar sözlər:*** *insan kapitalı, səmərəllilik, perspektivlər, insan kapitalı indeksi, inkişaf etmiş ölkələr, inkişaf etməkdə olan ölkələr.*

## Giriş

İnsan kapitalı insanlarda təcəssüm olunan və onların məhsuldar olmasına kömək edən bilik, bacarıq və digər şəxsi xüsusiyyətlər toplumu kimi müəyyən edilir və işçinin təcrübə, bacarıqlarının iqtisadi dəyərini ifadə edir. İnsan kapitalına təhsil, təlim, texniki bacarıqlar, yaradıcılıq, problem həll etmə bacarığı, sağlamlıq kimi aktivlər və işəgötürənlərin sədaqət və punktuallığı kimi dəyər verdiyi digər şeylər daxildir. Beləliklə, o, şirkətin balans hesabatında qeyd edilməyən qeyri-maddi aktivdir. İnsan Kapitalı şirkətin məhsuldarlığını və gəlirliliyini müəyyən edən əsas amillərdən biridir. Şirkət öz işçilərinə nə qədər çox sərmayə qoyarsa, onun məhsuldarlığı və uğur qazanma şansı artır. İnsan kapitalı ilə iqtisadi inkişaf arasında olan güclü əlaqəni nəzərə alsaq, insanların bilik və bacarıqlarına qoyulmuş investisiya iqtisadiyyatı yüksəltməyə kömək edə bilər. Bəzi hökumətlər bu əlaqəni nəzərə alaraq yüksək təhsili az və yaxud heç bir xərc çəkmədən təmin edirlər. İqtisadçılar hesab edirlər ki, əhalisi daha çox təhsilli olan ölkələr daha yüksək məhsuldarlığa malik olmalıdırlar. Mikroiqtisadi səviyyədə daha çox təhsili və təcrübəsi olanlar daha yüksək maaş almağa meyillidirlər.

İnsan kapitalı terminini müəyyənləşdirmək üçün "kapital" termininin konseptuallaşmasına nəzər salmaq faydalıdır. Biz əgər 1700 lərin sonlarına nəzər salsaq, burada siyasi iqtisadın qabaqcıllarından biri olan Adam Smithin "kapital" termininin ilk konsepsiyalarını təqdim etdiyini görərik. Bu sonralar insan kapitalı terminin yaranmasına və Adam Smithdən sonra gələn alimlərin bu termin üzrə araşdırmasına dəstək olmuşdur *(Library of Economics and Liberty, 2008).* Sonradan bu termin bir çox araşdırmaçılar tərəfindən fərqli baxış açısı ilə müəyyənləşdirilmişdir. Məsələn, Schultz (1961) a görə insan kapitalı klassik nəzəriyyədə olan işçi qüvvəsindən daha çox "mülkiyyətə yaxın bir şey (something akin to property)" kimi müəyyənləşdirilir. İkinci perspektivdə isə insan kapitalı orta təhsil, ali təhsil və peşə təhsili kimi fəaliyyətlər zamanı əldə edilən bilik və bacarıqlar vurğulanır *(De la Fuente & Ciccone, 2002, as cited in Alan at al., 2008).* Üçüncüsü, insan kapitalının istehsal yönümlü perspektivi ilə sıx bağlıdır. Frank və Bemanke (2007) insan

kapitalını "işçinin marjinal məhsulunun dəyərinə təsir edən təhsil, təcrübə, təlim, zəka, enerji, iş vərdişləri, etibarlılıq və təşəbbüs kimi amillərin məcmusu" kimi müəyyən edir.

Hər bir iqtsadi göstəricilərdə görülmüş problemlər kimi insan kapitalının effektiv idarə edilməsində də problemlər mövcuddur. İnsan kapitalının bu gün dünyada görülmüş əsas problemlərindən biri insanların sahib olduqları bacarıqlarının bazarda tələb olunan bacarıqlarla üst-üstə gəlməməsidir. Gabrielle Gonzalezin 2008 ci ildə Körfəz ölkələrində olan insan kapitalı problemləri üzərində apardığı araşdırmaya əsasən həmin ölkələrdə olan məktəb və universitet təhsilində mövcud boşluqlar bazarda tələb olunan bacarıqların qıtlığına gətirib çıxarmışdır. İnkişaf etməkdə olan ölkələrdə işsizlərin çox hissəsinin cavanlar təşkil etməsi bazarda tələb olunan bacarıqların həmin gənclərin mövcud olan bacarıqlarla üst üstə düşməməsinin sübutudur. İkinci problem kimi universitetlərin tələbələri real iş mühitinə hazırlamadıqlarını qeyd etmək olar. Universiteti bitirən tələbələrin böyük bir hissəsi iş mühitinə daxil olarkən hazırlıqsız olurlar. Buda inkişaf etməkdə olan ölkələrin böyük hissəsində universitetlərin beynəlxalq standartlara cavab verməməsindən irəli gəlir. Üçüncü olaraq, bir çox siyasi və iqtisadi problemlərlə üzləşən ölkələrdə baş vermiş beyin axını həmin ölkənin insan kapitalına əhəmiyyətli dərəcədə təsir göstərir. Nümunə olaraq Livanı misal göstərə bilərik. Ölkədə baş verən vətəndaş müharibəsi, siyasi və iqtisadi qeyri-sabitlik ölkədə olan savadlı kadrların inkişaf etmiş ölkələrə axın etməsinə səbəb olmuşdur. Bunun nəticəsi olaraq regionun ən yaxşı ali təhsil sistemi zəifləmişdir *(G.Gonzalez, A.Karoly, 2008).*

İnsan kapitalı mikroiqtisadi və makroiqtisadi baxımdan önəmli olduğu üçün, onun səmərəli istifadəsi də bir ölkənin inkişafı üçün əhəmiyyətlidir. Bu proses inkişaf etmiş ölkələrdə daha səmərəli təşkil edilmişdir. Buna sübut olaraq 2014 cü ildə Birləşmiş Millətlər təşkilatı tərəfindən müxtəlif ölkələr üzrə toplanmış insan kapitalı indeksinin göstəricilərinə nəzər salmaq kifayətdir. Insan kapitalı indeksi tam təhsil və tam sağlamlıq meyarına nisbətən məhsuldarlıq vahidləri ilə ölçülür və 0-1 arası olaraq qiymətləndirilir *(World Bank Terminology).*

Table. 1. Index of human capital development in 2014 by country

| Country | HDI | HDI rank | Country | HDI | HDI rank |
|---|---|---|---|---|---|
| Very high human development | | | High human development | | |
| Norway | 0.944 | 1 | Belarus | 0.798 | 50 |
| Australia | 0.935 | 2 | Russian Federation | 0.798 | 51 |
| Switzerland | 0.930 | 3 | Kazakhstan | 0.788 | 56 |
| Denmark | 0.923 | 4 | Georgia | 0.754 | 76 |
| Netherlands | 0.922 | 5 | Azerbaijan | 0.751 | 78 |
| Germany | 0.916 | 6 | Ukraine | 0.747 | 82 |
| Ireland | 0.916 | 7 | Armenia | 0.733 | 86 |
| United States | 0.915 | 8 | Medium human development | | |
| Canada | 0.913 | 9 | Moldova (Republic of) | 0.693 | 107 |
| New Zealand | 0.913 | 10 | Turkmenistan | 0.688 | 109 |
| Estonia | 0.861 | 30 | Uzbekistan | 0.675 | 114 |
| Lithuania | 0.839 | 37 | Kyrgyzstan | 0.655 | 120 |
| Latvia | 0.819 | 46 | Tajikistan | 0.624 | 129 |

Source: compiled by the authors (UN Data, 2014).

Cədvəldə qeyd edildiyi kimi İnsan kapitalının inkişafında ön sıraları inkişaf etmiş ölkələr tutur. Buna səbəb kimi təhsilə yatırılan sərmayə və iş şəratinin işçini həvəsləndirəcək şəkildə qurulmasını göstərmək olar. Həmçinin əhalinin sağlam həyat tərzi, hər bir fərdin tibbi xidmətə əlçatanlığı bu ölkələrdə insan kapitalının inkişafına müsbət təsir göstərir. Keçmiş Sovet ölkələri arasında ən yüksək göstərici Estoniyada qeydə alınmışdır.

Insan kapitalının artırılması üçün ölkələr erkən yaşdan fərdlərə investisiya edərək, onların inkişafına meyilli olurlar. Aşağıdakı qrafik OECD ölkələri arasında insan kapitalının səmərəliliyi üzrə aparılmış empirik analizin nəticələrini özündə əks etdirmişdir. Bu qrafik insan kapitalının

inkişafı üçün təhsil sahəsində olan siyasi dəyişikliklər nəticəsində Ümumi Daxili Məhsulun adam başına düşən payının 5 il ərzində dəyişimini nümayiş etdirir.




Bu ölkələrdə insan kapitalının səmərəli inkişafı üçün təhsil sahəsində müxtəlif islahatlar həyata keçirilmişdir. Nəticələr göstərmişdir ki, aşağıdakı təhsil siyasətləri ölkə səviyyəsində insan kapitalını artırmağa meyillidir.

Birinci siyasət məktəbə qədər təhsilə gedən uşaqların sayının artırılmasına yönəlmişdir. Beləki, məktəbə qədər təhsilə gedən daha çox uşaq insan kapitalını təkmilləşdirir. Bu nəticə həm makroiqtisadi həm də mikroiqtisadi tərəfdən sübut edilmişdir.

İkincisi isə tədris resurslarının əhəmiyyətli olmasıdır. Bir müəllimə düşən daha az tələbə insan kapitalının artırır ki, bu da təhsil keyfiyyətinin əhəmiyyətli ölçüsü kimi qəbul edilə bilər. Həmçinin, ixtisaslı müəllimlərin payının daha çox olması insan kapitalına da əhəmiyyətli dərəcə də təsir göstərmişdir.

Üçüncüsü uşaqların sonraki yaşlarda bacarıq və nəaliyyətlərinə əsasən peşə və yaxud müxtəlif təhsil sahələrinə yönləndirilməsi insan kapitalının inkişafına müsbət təsir göstərmişdir.

Bundan başqa universitet və məktəblərdə resursların idarə edilməsi və yönləndirməsində azadlığa malik olan ölkələr daha çox insan kapitalına malik olduğu sübut edilmişdir. Həmçinin ölkədə olan fərdlərin universitet təhsilinin maliyyələşməsinə çıxışının asan olması ölkənin insan kapitalının artımında rolu böyükdür.

Yuxarıda qeyd edilən nəticələrə əsasən deyə bilərik ki, təhsil sahəsində keçirilən islahatlar bir ölkənin insan kapitalının səmərəliliyinin artırılması üçün çox önəmlidir. Həmçinin, yuxarıda qeyd edilən nəticələr özünü orta müddətli dövrdə (5 il) göstərmişdir. Uzun müddətli dövrdə bu təsir daha böyük həcmdə olmağı gözlənilındir.

İnsan kapitalının təhsildən sonraki səmərəliliyinin artırılması individual şirkətlərdən daha çox aslı olur. Şirkətlər işçiləri həvəsləndirmək üçün onların fədakarlıqlarına uyğun rəqabətli maaş və bonusları təklif etməsi, gündəlik məhsuldarlığın artırılması məqsədi ilə iş şəraitinin yaxşılaşdırılması işçilərin karyera və inkişafına müsbət təsir göstərir. Eyni zamanda təlim proqramlarının hazırlanması, hər bir işçinin ixtisasına uyğun olaraq təkmilləşdirilməsi şirkətin gələcəyi üçün önəmli əhəmiyyət kəsb edir. İndividual şirkətlərin inkişafı həmin ölkənin Ümumi Daxili Məhsulunun hər insan başına düşən payının artımına müsbət təsir göstərir . İnsan kapitalında olan səmərəliliyinin artırılması ilə şirkətin maliyyə göstəriciləri arasında müsbət əlaqə bir neçə elmi araşdırmalar əsasın da da sübuta yetirilmişdir. Buna misal olaraq Türkiyə, Pakistan və Vietnam üzrə araşdırmaları göstərmək olar. Phu Tran və Hong Vo (2020) tərəfindən aparılmış elmi-statistik araşdırmaya görə insan kapitalı Vietnamda bank sektorunda istehsal və texnologiya sahəsinə nisbətən daha səmərəli bölünmüşdür. Bank Sektorunda olan insan kapitalının səmərəliliyinin intensivliyi həmçinin inkişaf etmiş ölkələr *(Ozkan et al., 2017; Sardo & Serrasqueiro, 2017)* və Asiya ölkələri *(Al-Musali & Ismail, 2014)* üzərində aparılmış araşdırmalarda da özünü biruzə vermişdir.

## Nəticə

Araşdırmamızın nəticəsində onu deyə bilərik ki, insan kapitalına təsir göstərən ən böyük amil təhsil səviyyəsidir. İnsan kapitalındakı dəyişiklik siyasətçilərə görə ölkənin davamlı inkişafını təmin edəcək mühüm göstəricilərdən biridir. İnsan kapitalında olan inkişaf, savadlı kadrların çoxluğu əhalinin toplam sərvətinin artırılmasına müsbət təsir göstərir. Bu təsir tək mövcud olan nəsillərə deyil, həmçinin gələcək nəsillərində inkişafında mühim rol oynayır. Aşağıda qeyd edilmiş qrafikdə insan kapitalının inkişaf etmiş ölkələrdə daha mühüm rol oynadığını görə bilərik. Bu inkişaf 2010-2020- ci illərdə yavaşlasa da, hələ də inkişaf etmiş iqtisadiyyatlarda mövcud olan insan kapitalı dünya kapitalının 2/3 hissəsini təşkil edir.

**Figure 4. Contribution to the World human capital growth, by region (%)**




Aşağıdakı şəkildə göstərilən müxtəlif regionlarda olan təhsilə sərf edilən ortalama illlər, inkişaf etmiş ölkələrdə insan kapitalının kəskin inkişafını sübut edir. Beləki, inkişaf etmiş ölkələrdə təhsilə sərf edilən ilin ortalama olaraq 17 olduğunu nəzərə alsaq, Afrika ölkələrində bu 9 ildir. Mənim fikrimcə bu effekt 100 illər boyu davam edir və domino effekti kimi ölkənin gələcək nəsillərinə ötürülür. İnkişaf etmiş ölkələrdə insan kapitalına verilən önəmli rol həmin ölkənin yeni məhsullarının inkişafına və başqa xarici bazarlara çıxararaq gəlir mənbəyinə çevirərək ölkənin və individuallarının sərvətinin artırılmasına kömək edir. Baxmayaraq ki, insan kapitalının rolu bütün sektorlarda böyükdür, bu rol bəzi sektorlarda getdikcə azalır. Texnologiyanın inkişafı, süni intillektin meydana gəlməsi həmin sektorlarda insan kapitalının perspektivinin azalmasına səbəb olan amillərdəndir. Məsələn kənd təsərüffatı sahəsində yeni texnologiyalardan istifadə, insan əməyinə olan ehtiyyacı azaltmışdır. Bu proses mövcud olan digər sektorlarda da baş verməkdədir. Məsələn, bank və maliyyə, istehsalat sektorunda olan avtomatlaşdırılmış proseslər insan əməyinə olan tələbatı azaltmış və hətda işçilərin ixtisarına səbəb olmuşdur.

**Expected years of schooling (EYS) by gender, every five years, 1990-2020**



# İstifadə edilmiş ədəbiyyat siyahısı


1. https://www.researchgate.net/publication/324260330_Human_capital_Perspectives_challenges_and_future_directions
2. Lawrence, M. & Murray, F.. (2017). Human capital: Perspectives, challenges and future directions.
3. https://www.oecd.org/site/progresskorea/44111355.pdf
4. Prof. Dr. Kwon, Dae-Bong. The 3rd OECD World Forum on “Statistics, Knowledge and Policy” Charting Progress, Building Visions, Improving Life Busan, Korea 27-30 Oct. 2009
5. Danielson, A. (2014). Perspectives on Human Capital Initiatives. In: Russ, M. (eds) Management, Valuation, and Risk for Human Capital and Human Assets. Palgrave Macmillan, New York. https://doi.org/10.1057/9781137355720_4
6. Ngoc Phu Tran & Duc Hong Vo | (2020) Human capital efficiency and firm performance across sectors in an emerging market, Cogent Business & Management, 7:1, 1738832, DOI: 10.1080/23311975.2020.1738832
7. https://doi.org/10.1080/23311975.2020.1738832
8. https://www.investopedia.com/terms/h/humancapital.asp
9. Viktor Bazylevych, Galyna Kupalova, Zhanna Bulhairova, Larysa Satyr and Natalia Goncharenko (2016). The efficiency of use of the human capital in the agriculture. Problems and Perspectives in Management, 14(4), 97-102. doi:10.21511/ppm.14(4).2016.12
10. Gonzalez, Gabriella C., Lynn A. Karoly, Louay Constant, Hanine Salem, and Charles A. Goldman, Addressing Human Capital Challenges: Assessing the Experiences of Four Countries in the Arab Region. Santa Monica, CA: RAND Corporation, 2008. https://www.rand.org/pubs/research_briefs/RB9383.html.

# İNSAN KAPİTALININ FORMALAŞMASI VƏ ONDAN İSTİFADƏ

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Teymurzadə Aysun Firuz qızı*
*Elmi rəhbər: V.V.Kərimova*

***Xülasə***

Məqalədə ilk öncə insan kapitalı anlayışından, insan kapitalı ideyasının yaranmasından və zaman keçdikcə insan kapitalının təkmilləşməsindən bəhs edilmişdir. Aparılan tədqiqatda məşğul əhalinin sayı, MDB ölkələrində işsizliyin səviyyəsi, dünya ölkələrinin məşğulluğunda qadınların payı, Azərbaycanda işçi qüvvəsində qadınların çəkisi və ümumi qadın sahibkarlarının sahələr üzrə bölgüsü araşdırılmışdır. Bundan əlavə Azərbaycanda elm, təhsil və səhiyyə sferasındakı insan kapitalının vəziyyətinin yaxşılaşdırılması istiqamətində görüləcək olan işlər qeyd edilmişdir.
***Açar sözlər:*** insan kapitalı, məşğulluq, qadın sahibkarlığı, işsizlik səviyyəsi, qadınların məşğulluğu.

***Summary***

First of all, the article talks about the concept of human capital, the emergence of the idea of human capital and the improvement of human capital over time. In the conducted research, the number of employed population, the level of unemployment in the CIS countries, the share of women in the employment of the countries of the world, the weight of women in the labor force in Azerbaijan and the distribution of total female entrepreneurs by sector were investigated. In addition, the work to be done in the direction of improving the state of human capital in the sphere of science, education and health care in Azerbaijan was mentioned.
***Keywords:*** human capital, employment, women's entrepreneurship, unemployment rate, women's employment.

## Giriş

Dünya iqtisadiyyatının qloballaşması prosesində həm ölkənin, həm bütövlükdə bəşəriyyətin sosial-iqtisadi inkişafında insan amili, insanların inkişaf problemlərinin öyrənilməsi ən aktual vəzifələrdən hesab olunur. Bunun üçün iqtisadi inkişafın ənənəvi amillərinə - kapital yığımı, əhalinin sayının keyfiyyət artımı, texniki tərəqqi əmək məhsuldarlığının yüksəlməsinə və s. tamamilə yeni aspektdə - insan faktoru ilə qarşılıqlı əlaqə kontekstində baxmaq tələb olunur.

Müasir iqtisadi sistemlərdə insanın rolunu xarakterizə etmək üçün müxtəlif anlayışlardan istifadə olunur: iqtisadi insan (XX əsrin əvvəllərində meydana gəlmişdir), psixoloji insan (XX əsrin ortaları), işçi qüvvəsi, istehsalın fərdi (şəxsi) amili, əmək ehtiyatları, insan potensialı, insan kapitalı, sahibkar və s.

İnsan kapitalına misal olaraq ünsiyyət bacarıqları, təhsil, texniki bacarıqlar, yaradıcılıq, təcrübə, problem həll etmə bacarıqları, psixi sağlamlıq və şəxsi dözümlülük daxildir.

Elm, təhsil və idarəetmə kimi sahələrdə insan kapitalı artırıldıqda, bu, innovasiyaların artmasına, sosial rifahın, ədalətin, məhsuldarlığın artmasına, iştirakın artmasına gətirib çıxarır və bütün bunlar iqtisadi artıma töhfə verir. İqtisadi artımın artması isə ümumilikdə əhalinin həyat keyfiyyətini yaxşılaşdırır.

İnsan kapitalı məqsədli şəkildə ictimai istehsalın bu və ya digər sferasında istifadə edilən, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin artmasına təsir edən və bununla da konkret insanın əmək haqqının yüksəlməsinə səbəb olan, habelə insanın malik olduğu müəyyən bilik, vərdiş, qabiliyyət, sağlamlıq, motivləşdirmə və s. ehtiyatlarının birliyidir.

İnsanın iqtisadi fəaliyyətinin mahiyyətini, onun xarakterik xüsusiyyətlərini aşağıdakılar müəyyən edir:

1. Resursların, maddi nemətlərin məhdudluğu;
2. Məqsədin, seçimin vacibliyi;
3. Vəziyyətə uyğunlaşmanın qiyməti (rəddetmə, qurban) *(Ş.S.Məmmədova, Bakı 2008, səh 39).*

**Azərbaycanda əsas və insan kapitalının təhlili və modelləşdirilməsi**

İnsan kapitalı nəzəriyyəsinin tətbiqi iqtisadi artım amilləri , gəlirlərin bölgüsü, təhsilin iqtisadi rolu, insana qoyulan investisiyalar ilə əmək məhsuldarlığı səviyyəsinin və gəlirlərin qarşılıqlı əlaqəsi, sahibkarlıq fəaliyyətinin motivləşdirilməsi ilə bağlı bir çox problemlərin həllinə yeni metodla yanaşmağa imkan verir.

İnsan kapitalına yönəldilən investisiyalar işçilərin təhsil səviyyəsinin yüksəldilməsi, sağlamlığının yaxşılaşdırılması, işçi qüvvəsinin sürətli hərəkətetmə qabiliyyətini (mobilliyini) artırmaq üçün sərf edilən xərclərin məcmusunu göstərir.

İnsan kapitalı nəzəriyyəsinin tətbiqi iqtisadi artım amilləri, gəlirlərin bölgüsü, təhsilin iqtisadi rolu, insana qoyulan investisiyalar ilə əmək məhsuldarlığı səviyyəsinin və gəlirlərin qarşılıqlı əlaqəsi, sahibkarlıq fəaliyyətinin motivləşdirilməsi ilə bağlı bir çox problemlərin həllinə yeni metodla yanaşmağa imkan verir.

Sənayecə inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrin təcrübəsi sübut etmişdir ki, işçi qüvvəsinin bilik və bacarığı, təhsil və ixtisas səviyyəsi, sağlamlığı ilə xarakterizə olunan əmək resurslarının keyfiyyət göstəricisi və iqtisadi artım arasında səbəb-nəticə asılılığı vardır. İqtisadi artım son nəticədə milli rifahın artımı ilə nəticələnirsə, bu müsbət haldır.

İnsan kapitalı ideyası XVIII əsrə gedib çıxır. Adam Smit bir millətin sərvətini, biliyini, təlimini, istedadlarını və təcrübələrini tədqiq etdiyi "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında araşdırma" kitabında bu konsepsiyaya istinad etdi.

Adams təklif edirdi ki, təlim və təhsil vasitəsilə insan kapitalının təkmilləşdirilməsi cəmiyyətin kollektiv sərvətini artıran daha gəlirli müəssisəyə gətirib çıxarır. Smitin fikrincə, bu, hər kəs üçün qələbə qazandırır.

Daha yaxın zamanlarda bu termin istehsal olunan məhsulların istehsalı üçün tələb olunan əməyi təsvir etmək üçün istifadə edilmişdir. Lakin ən müasir nəzəriyyə insan qabiliyyətlərinin dəyərini əks etdirmək üçün 1960-cı illərdə bu termini icad edən Gary Becker və Theodore Schultz da daxil olmaqla bir neçə fərqli iqtisadçı tərəfindən istifadə edilmişdir.

İnsan kapitalı (human capital) anlayışı iqtisadiyyata XX əsrin 60-70-ci illərində daxil olmuşdur. Bu termini elmi idarələrə ilk dəfə amerikan iqtisadçısı və sosioloqu T.Şults daxil etmişdir. Şults hesab edirdi ki, insan kapitalı istehsalın keyfiyyətini və səviyyəsini yüksəltmək üçün hər hansı digər kapital forması kimidir. Bu, təşkilat işçilərinin təhsilinə, təliminə və gücləndirilmiş faydalarına investisiya tələb edəcək.

Çoxsaylı tədqiqatlar sübut edir ki, hal-hazırda iqtisadi inkişaf səviyyəsinə görə ölkələrin təsnifləşdirilməsi həlledici dərəcədə insan potensialının, insan amilinin keyfiyyəti ilə müəyyənləşir. İnsan istehsal qüvvələrinin canlı daşıyıcısı olmaqla, müxtəlif keyfiyyət, xüsusiyyət, qabiliyyət və tələblərə malikdir.

Müasir dövrdə cəmiyyətin inkişafı hər şeydən əvvəl elmi biliklərə əsaslanır və həyatın bütün sahələrində buna tələbat getdikcə artır. Bu da Azərbaycan dövlətinin qarşısında çoxsaylı problemlərin həll edilməsini qoyur. Bu problemlərdən biri və ən vacibi ölkədə elmin dünya standartlarına müvafiq inkişaf etdirilməsidir. Elmin inkişafı isə öz növbəsində elmi-texniki kadrların kəmiyyət və keyfiyyət quruluşunun təkmilləşdirilməsini və onlardan daha səmərəli istifadə olunmasını tələb edir. Dünya təcrübəsi, elmi-texniki kadrların iqtisadiyyatda innovasiyalara əsaslanan inkişafın təmin edilməsində, ölkənin təbii və qeyri-təbii (maşın, cihaz, avadanlıq, texnologiya və s.) resurslarından səmərəli istifadə olunmasında olduqca əhəmiyyətli rol oynadığını göstərir. Bu mənada elmi-texniki kadrlarını bir çox sahələrdə inkişafın daşıyıcısı, bazisi hesab etmək olar. Bu da, indiki şəraitdə elmi-texniki kadrlara olan tələbatı artıraraq beynəlxalq aləmdə əmək bazarının yeni seqmentinin – elmi kadrlar, pedaqoqlar, mütəxəssislər bazarının formalaşmasına səbəb olur. Bununla yanaşı, əsas məhsulunu elmi-texniki kadr potensialının əməyinin nəticələri təşkil edən elmi-texniki və texnoloji bilik bazarı da formalaşır və dəyişir. Bu isə insanların əmək fəaliyyətində köklü dəyişikliklərin baş verməsi ilə nəticələnir *(A.N.Muradov oğlu Bakı 2003, səh.38).*

Məşğulluq- sosial-iqtisadi kateqoriya olub, bir çox aspektlərə malikdir. İqtisadi ədəbiyyatlarda ona faydalı iş görmək, təhsil almaq, iqtisadiyyatın hər hansı bir sahəsində çalışmaq, uşaqlara və yaşlı adamlara xidmət göstərmək, orduda qulluq etmək və s. fəaliyyət növü kimi baxılır. Müasir mərhələdə məşğulluq iqtisadiyyatın inkişafı və əhalinin rifahının yüksəldilməsinin mühüm amillərindən birini və dövlətin sosial siyasətinin tərkib hissəsini təşkil edir (*Eren Gültəkin Bakı 2003,səh 22)*

**Cədvəl 1.**

| **Məşğul əhalinin sayı (ilin sonuna) min nəfər** | |
|---|---|
| **İllər** | **Məşğul əhalinin sayı** |
| **2000** | 3855,5 |
| **2005** | 4062,3 |
| **2010** | 4329,1 |
| **2015** | 4671,6 |
| **2016** | 4759,9 |
| **2017** | 4822,1 |
| **2018** | 4879,3 |
| **2019** | 4938,5 |
| **2020** | 4876,6 |
| **2021** | 4988,2 |

**Mənbə:** Dövlət Statistika Komitəsi (stat.gov.az)

Cədvəl 1-də 2000-2021-ci illər üzrə ölkədə məşğul əhalinin sayı göstərilmişdir. Cədvəldən də göründüyü kimi 2017-ci ildən 2021-ci ilə qədər əhali məşğulluğunda böyük dəyişiklik baş verməmişdir. İş dünyası və dövlət tərəfindən ölkəyə gətirilən müasir texnologiyalardan səmərəli və effektiv istifadə edilməsi, ölkənin ehtiyaclarına uyğun hərtərəfli yetişmiş kadrların hazırlanması və daxili imkanlarla yeni texnologiyalar arasında praktikada yaşanmış problemlərin aradan qaldırılması iqtisadiyyatın inkişafına təsir edən əhəmiyyətli məsələlərdir. Azərbaycanda təhsilə artan tələb, dövlətin təhsil standartlarını müasir səviyyəyə yüksəltmə istəyi və neft gəlirlərinin böyük hissəsinin insan resurslarının yetişdirilməsinə sərf edilməsi iqtisadi və sosial inkişafı sürətləndirir. Bu prosesdə inkişaf etmiş ölkələr nümunəsində olduğu kimi universitetlərlə iş dünyası arasında qurulacaq əməkdaşlıq həm bu qurumların qarşılıqlı faydalar əldə etmələrinə, həm də tələbələrin qazandıqları nəzəri və praktiki bilik və təcrübə hesabına daha rahat iş tapmalarına imkanlar açacaqdır *(D.Ş.Hüseyn oğlu, Bakı 2012, səh 58).*

**Cədvəl 2.**

**MDB ölkələrində işsizliyin səviyyəsi (faizlə)**

| **MDB ölkələrində işsizliyin səviyyəsi** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **2010** | **2015** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
| **Azərbaycan** | 5,6 | 5,0 | 5,0 | 4,9 | 4,8 | 7,2 | 6,0 |
| **Belarus** | … | … | 5,6 | 4,8 | 4,2 | 4,0 | 3,9 |
| **Qazaxıstan** | 5,8 | 5,1 | 4,9 | 4,9 | 4,8 | 4,9 | 4,9 |
| **Qırğızıstan** | 8,6 | 7,6 | 6,9 | 6,2 | 5,5 | 5,8 | 5,3 |
| **Ermənistan** | 19,0 | 18,5 | 17,8 | 16,4 | 18,9 | 18,2 | 15,3 |
| **Moldova** | 7,4 | 4,9 | 4,1 | 3,0 | 5,1 | 3,8 | 3,2 |
| **Rusiya** | 7,3 | 5,6 | 5,2 | 4,8 | 4,6 | 5,8 | 4,8 |
| **Tacikistan** | … | … | … | … | … | … | … |
| **Türkmənistan** | … | … | … | … | … | … | … |
| **Özbəkistan** | 5,4 | 5,2 | 5,8 | 9,3 | 9,0 | 10,5 | 9,6 |
| **Ukrayna**[1)] | 8,1 | 9,1 | 9,5 | 8,8 | 8,2 | 9,5 | 9,8 |

**Mənbə:** Dövlət Statistika Komitəsi (stat.gov.az)

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən, MDB ölkələri arasında 2021-ci ildə işsizliyinə səviyyəsinə görə Moldova 3,2 faizlə birinci yeri tutur. Digər iki yeri isə 3,9 və 4,8 faizlə müvafiq olaraq Belarus və Rusiya təşkil edir. Azərbaycanda isə 2021-ci ildə işsizliyin səviyyəsi 2020-ci ilə nisbətən 1,2 faiz azalaraq 6,0 faiz olmuşdur. MDB ölkələrində ən yüksək işsizlik səviyyəsi isə 15,3 faizlə Ermənistandadır.

Dünya ölkələrində məşğulluqda qadınların xüsusi çəkisi araşdırılmışdır (Şəkil 1). 2020-ci ildə Azərbaycanda məşğulluqda qadınların xüsusi çəkisi 59,2%, Avropa İttifaqı ölkələrində 50,7%, Türkdilli ölkələrdə 46,2%, Ərəb ölkələrində 19,6%, ümumilikdə dünya ölkələrində isə 45,9% olmuşdur. Qrafikdən göründüyü kimi Ərəb ölkələrində qadınların məşğulluqda xüsusi çəkisi daha azdır. Son 30 ilin statistikasına nəzər salsaq, məşğulluqda qadınların payı demək olar ki, stabil olaraq qalmışdır. Eyni zamanda Avropa İttifaqı ölkələrinin, Türkdilli ölkələrin və dünya ölkələrinin məşğulluğunda da 30 il ərzində qadınların xüsusi çəkisində elə də böyük dəyişiklik baş verməmişdir. Lakin bu illər ərzində Azərbaycanda bu statistika üzrə fərqlilik qeydə alınmışdır və ən yüksək göstərici 1995-ci ildə 75,4%-lə qeydə alınmışdır. Buna səbəb kimi Azərbaycanda 1991-1994-cü illərdə baş verən müharibəni göstərə bilərik ki, bu müharibə ərzində minlərlə hərbçi, əsgər və könüllülər şəhid olmuşdur. Ailə başçısının itirilməsi nəticəsində qadınlar işləmək məcburiyyətində qalmışlar və bu da  işçi qüvvəsində qadınların payının yüksək olmasına gətirib çıxarmışdır.




**Şəkil 1:** Dünya ölkələrinin məşğulluğunda qadınların payı, %
**Mənbə:** Dünya Bankının statistik məlumatlar bazası əsasında müəllif tərəfindən hazırlanmışdır. (data.worldbank.org)

Qrafik 5.-də Azərbaycanda ümumi sahibkarlıqda qadınların  xüsusi çəkisi və ümumi qadın sahibkarlarının sahələr üzrə bölgüsü verilmişdir. Azərbaycanda ümumi sahibkarlıqda qadınların xüsusi çəkisi özünü daha çox təhsildə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, inzibati və yardımçı xidmətlərin göstərilməsində, həmçinin  peşə, elmi və texniki fəaliyyətdə göstərmişdir ki, bu da müvafiq olaraq 64,4%, 34,9%, 34,2% və 34,0% təşkil etmişdir. Ən az sahibkarlıq fəaliyyəti isə 5,1%-lə mədən sənayesində, 3,8%-lə tikintidə və 2,1%-lə nəqliyyat və anbar təsərrüfatında qeydə alınmışdır.

Ümumi qadın sahibkarların sahələr üzrə bölgüsünə nəzər salsaq, müəyyən edərik ki, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ticarət; nəqliyyat vasitələrinin təmiri digər sahələrlə müqayisədə daha yüksək göstəriciyə sahibdir. Belə ki, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan xanımlar 36,3%, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan xanımlar isə 21,1% təkil edir.




Azərbaycanda işçi qüvvəsində qadınların çəkisi və ümumi qadın sahibkarlarının sahələr üzrə bölgüsü,%
**Mənbə:**Azərbaycan Dövlət Statistika Komitəsi, 2021

Qadınlar dövlət sektorunda, təhsil, səhiyyə və sosial xidmətlər kimi işlərdə cəmləşiblər və onlar bu sahələrdə çalışan bütün işçilərin təxminən 75%-ni təşkil edir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2021. Əmək bazarı, səh. 138). Kişilər isə dövlət idarəçiliyi və müdafiə, enerji təchizatı və bölüşdürülməsi, mədənçıxarma, tikinti və nəqliyyat və anbar sahələrində çalışanların 80%-90%-ə qədərini təşkil edir. Bu spesifik sahələr daha yüksək əmək haqqı və daha çox mobillik ilə əlaqələndirilir. Qeyd edək ki, daha az rəqabətə davamlı hesab edilən sektorlarda, (məsələn, təhsil, səhiyyə və kənd təsərrüfatı) aşağı maaşlı, aşağı ixtisaslı işlərdə qadınların payı son on ildə artıb. Eyni zamanda, qeyri-ənənəvi təhsil alan qadınların sayının artması ilə əlaqədar olaraq elm və texnologiya sahəsində çalışan qadınların sayı da müsbət istiqamətdə dəyişmişdir. Bu tendensiya onu göstərir ki, STEM kimi qeyri-ənənəvi sahələrdə peşəkar təhsil imkanlarının artırılması səyləri qadınların məşğulluğu baxımından faydalı ola bilər.

**Nəticə**

Müasir dövrdə cəmiyyətin inkişafı hər şeydən əvvəl elmi biliklərə əsaslanır və həyatın bütün sahələrində buna tələbat getdikcə artır. Bu da Azərbaycan dövlətinin qarşısında çoxsaylı problemlərin həll edilməsini qoyur. Bu problemlərdən biri və ən vacibi ölkədə elmin dünya standartlarına müvafiq inkişaf etdirilməsidir. Elmin inkişafı isə öz növbəsində elmi-texniki kadrların kəmiyyət və keyfiyyət quruluşunun təkmilləşdirilməsini və onlardan daha səmərəli istifadə olunmasını tələb edir. Dünya təcrübəsi, elmi-texniki kadrların iqtisadiyyatda innovasiyalara əsaslanan inkişafın təmin edilməsində, ölkənin təbii və qeyri-təbii (maşın, cihaz, avadanlıq, texnologiya və s.) resurslarından səmərəli istifadə olunmasında olduqca əhəmiyyətli rol oynadığını göstərir. Bu mənada elmi-texniki kadrlarını bir çox sahələrdə inkişafın daşıyıcısı, bazisi hesab etmək olar. Bu da, indiki şəraitdə elmi-texniki kadrlara olan tələbatı artıraraq beynəlxalq aləmdə əmək bazarının yeni seqmentinin – elmi kadrlar, pedaqoqlar, mütəxəssislər bazarının formalaşmasına səbəb olur. Bununla yanaşı, əsas məhsulunu elmi-texniki kadr potensialının əməyinin nəticələri təşkil edən elmi-texniki və texnoloji bilik bazarı da formalaşır və dəyişir. Bu isə insanların əmək fəaliyyətində köklü dəyişikliklərin baş verməsi ilə nəticələnir.

Azərbaycanda elm, təhsil və səhiyyə sferasındakı insan kapitalının vəziyyətinin yaxşılaşdırılması istiqamətində əsas olaraq elm sferasında: onun maliyyələşdirilməsini artırmaqla yanaşı, yeni texnoloji qərarların vacib – ehtiyac olan istiqamətlərində güc və səylərin konsentrasiyası, bununla bağlı sahə strukturların optimallaşdırılmasını, təhsil sferasında ən başlıcası ali təhsilin xüsusi çəkisinin artırılması xeyrinə daxili strukturun yenidən qurulması, müasir təhsil sisteminə cavab verə bilən Yeni Təhsil Qanununun tezliklə işlənib hazırlanması, səhiyyə sahəsində ölkədə yaşayış keyfiyyətinin və səviyyəsinin yüksəldilməsinə yönəldilmiş dövlətin xüsusi

proqramlarının reallaşdırılması, əhalinin tibbi xidmət və dərman pereparatları ilə təminatı istiqamətində dövlət öhdəliklərinin yerinə yetirilməsi göstərmək olar:

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Ş.S.Məmmədova, Bakı 2008, səh 39
2. D.Ş.Hüseyn oğlu, Bakı 2012, səh 58
3. Dövlət Statistika Komitəsi
4. data.worldbank.org
5. A.N.Muradov oğlu Bakı 2003, səh.38

# İNSAN KAPİTALI VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

***Dövlət Gömrük Komitəsinin Akademiyası***
***Abdullayeva Mənsurə Ramil qızı***
***Elmi rəhbər: i.ü.f.d. E.V.Əlirzayev***

***Xülasə***

Məlum olduğu kimi, hazırda ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin qarşısında duran əsas vəzifələrdən biri də əldə olunmuş iqtisadi inkişafın nəticələrinin sosial inkişafa yönəldilməsini təmin etməkdən ibarətdir. Çünki aparılan iqtisadi siyasət nəticəsində əldə edilən makroiqtisadi sabitlik və iqtisadiyyatın real sektorunda baş verən davamlı inkişaf, cəmiyyətin sosial problemlərin həll edilməsinə obyektiv zəmin yaratmışdır. Əslində inkişafın əsas məqsədi xalqın həqiqi sərvəti olan insanların maddi və mənəvi artırılması vasitəsilə insanın imkanlarını genişləndirə bilər. Onun sayəsində isə insanlar dəyərli və yaradıcı həyatlarını keçirirlər. Bununla yanaşı, insanlar, eyni zamanda, inkişaf sərvətinin alıcıları, həmçinin tərəqqi və dəyişikliklərin hərəkətverici qüvvələri hesab olunurlar. Həmin proses bərabər səviyyələrdə bütün sahələrdə fayda gətirməlidir və onlardan hər birinin iştirakına əsaslanmalıdır. İnkişafa – insan inkişafına belə yanaşma 1990-cı ildən başlayaraq insan inkişafı haqqında hesabatda əsaslandırılır.
***Açar sözlər:*** *insan kapitalı, insan resursları, təhsil, texnologiya, transformasiya.*

***Summary***

As it is known, one of the main tasks facing the socio-economic policy currently implemented in our country is to ensure that the results of the achieved economic development are directed to social development. Because the macroeconomic stability achieved as a result of the economic policy and the continuous development in the real sector of the economy have created an objective basis for solving the social problems of the society. In fact, the main goal of development can be to expand human opportunities through the material and spiritual growth of people, who are the real wealth of the nation. Thanks to it, people lead valuable and creative lives. However, people are also considered the recipients of development wealth as well as the driving forces of progress and change. That process should benefit all sectors at equal levels and should be based on the participation of each of them. Such an approach to development - human development has been justified in the human development report since 1990.
***Key words:*** *human capital, human resources, education, technology, transformation.*

## İnsan kapitalı konsepsiyasının nəzəri aspektləri

İqtisadiyyatın inkişafında insanın rolu daha düzgün başa düşüldükcə, onun tədqiq edilib öyrənilməsi zərurəti də get-gedə daha anlamlı olmuş, həmçinin bu sahədə aparılan tədqiqatların əhatə dairəsi və intensivliyi artmışdır. Bu baxımdan son illər insan inkişafı ilə bağlı tədqiqatların aparılması daha da genişlənmişdir. Belə ki, baş verən köklü iqtisadi-siyasi dəyişikliklər şəraitində insan kapitalının inkişaf etdirilməsi və bu kapitaldan səmərəli istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Başqa sözlə desək, insan kapitalının inkişafı və ondan səmərəli istifadə olunması dövlətin fəal siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. İnsan kapitalı istehsal prosesinin əsas hərəkətverici amilidir, ictimai təkrar istehsal isə geniş, xalq təsərrüfatı nöqteyi-nəzərindən məhsul istehsalının yenidən başlanılması və bu kapitalın özünün təkrar istehsalıdır. Bu cəhətlər iqtisadçı-nəzəriyyəçilərin daim diqqətini cəlb etmişdir. A.Smit yazırdı ki, "faydalı iş istehsalının artımı hər şeydən əvvəl işçinin çevikliyinin və bacarığının yüksəldilməsindən, ondan sonra isə işlətdiyi maşın və alətlərin təkmilləşdirilməsindən asılıdır". O, hesab edirdi ki, əsas resurslar maşın və başqa alətlərdən, tikililərdən, torpaqdan və"əhalinin vəcəmiyyət üzvlərinin əldəedilmiş faydalı bacarıqlarından" ibarətdir. O, qeyd edirdi ki, "bu cür bacarıqların əldə edilməsi bacarıq sahibinin tərbiyəsi, təlimi və ya şagirdliyi dövründə təkmilləşməsi zamanı xərc tələb edir, bu bir növ onun şəxsiyyətini reallaşdıran əsas kapitalı təşkil edir". Bu bacarıqlar, müəyyən şəxsin dəyərinin tərkib hissəsi olmaqla bərabər məxsus olduğu cəmiyyətin də sərvəti olur. *(İnsan kapitalı inkişafı, 2017:5)*

Fiziki kapitaldan fərqli olaraq insan kapitalı insanlarda təcəssüm olunur. İnsan kapitalının fiziki kapital ilə analogiyası ondan ibarətdir: 1) investisiya qoyulması və fayda alınması arasında vaxta görə uyğunsuzluq olur; 2) müəyyən müddət ərzində fayda olur. Hər halda fiziki kapitaldan fərqli olması ondan ibarətdir ki, özgəninkiləşdirmənin və istehlakçı müstəqilliyinin adi qaydaları

tətbiq edilə bilmir, o vaxt istehlakçı hansısa neməti ala və ona sahib ola bilmir. Təyin etməyə görə insan kapitalı fərddə təcəssüm olunur, bazarda onun xidməti satıla bilər, amma əslində insan kapitalına malik olma, qul halı istisna olmaqla, satıla yaxud ötürülə bilməz. *(İnsan kapitalı inkişafı, 2017:9)*

**İnsan resuruslarının insan kapitalına çevrilməsi.**

Təşkilatların çox vurğuladığı məsələ resurslardan səmərəli istifadə etməklə səmərəliliyi və mənfəəti maksimuma çatdırmaqdır. Buna görə də insan hər cəhətdən təşkilat üçün vacibdir və səmərəli istifadə edilməli bir mənbədir. İnsan intellektual, emosional, sosial, siyasi varlıqdır və inkişafın bütün formalarını əhatə edir. İstənilən təşkilatın menecerləri və rəhbərləri məhsulun keyfiyyətini artırmaqdansa, təşəbbüsün inkişafına daha həssas yanaşmalıdırlar. Bu gün təşkilatın rəqabət üstünlüyünə diqqət yetirməsi və ona nail olması yalnız bacarıqlı, işçi qüvvəsinə uyğunlaşa bilən və daha çox istehsala nail olmaq üçün mühüm amil olan insan resurslarının inkişafına yönəldiyi halda mümkün olacaqdır. Müasir biznes mühitində işdən məmnunluq və motivasiya mühitinin yaradılması hər bir təşkilatın ən mühüm məqsədlərindən biridir. İş sağlamlığı, qiymətləndirmə mərkəzlərinin yaradılması, çevik mükafat sistemi, bonus planı, məqsədə əsaslanan fəaliyyətin qiymətləndirilməsi, təşkilati inkişaf və çevik iş qrafiki kimi daha yüksək prioritetlər həll olunmağa başlanmışdır. Təşkilatın məqsədinə çatması üçün rəhbərlik və işçilər bütün digər elementlərlə çiyin-çiyinə olmalıdırlar. Menecerlərin və liderlərin məqsədi rəhbərlərinin göstərişlərinə və ehtiyaclarına əməl etmək, işçilərin öz vəzifələrini yerinə yetirib-yetirmədiyini müşahidə etmək və hər hansı təşkilati siyasətin və ya korporativ planın nəticələrinə nail olmaqdır. Demək olar ki, bütün təşkilatlar öz işçilərinin ideyalarından maliyyə və fiziki resurslardan maliyyə gəlirləri əldə etmək üçün istifadə edirlər. İnsan resursları təcrübələrində, bir-birini tamamlayan və istedadlı işçilərin inteqrasiyası ilə təqlid edilməsi çətin olan bir təşkilat ortaya çıxa bilər və bu inteqrasiya olunmuş resurslar rəqabət üstünlüyü gətirə bilər. İnsan kapitalından maksimum səmərəlilik əldə etməyi qarşısına məqsəd qoyan insan resursları menecerləri sahibkarlıq və innovasiyaları təşviq etməli, işçilərin təşkilat daxilində bilik və məlumat mübadiləsini təkmilləşdirməsinə imkan verəcək sistemlər inkişaf etdirməli, fərdin təşkilatla inteqrasiyasını təşkilat mədəniyyəti, təşkilati iqlim və təşkilati öhdəlik kimi alətlər vasitəsilə təmin etmək mümkündür *(Psacharopoulos.G, 1994:39-47).*

İnsan resursları insan kapitalından istənilən nəticəni əldə etməyi asanlaşdıran təşkilati struktur yaratmalıdır. Təşkilati vəzifələrdə çevik, çox yönlü məlumat axını təmin edən və gücün vəzifədən deyil, təcrübə və təcrübədən əldə edildiyi təşkilati struktur qurulmalıdır. İnsan resurslarının idarə edilməsinin insan kapitalının inkişafı və idarə olunmasında fəal rol oynaması üçün əsas səriştələrin hüdudları və bacarıqları müəyyən edilməli, idarəetmənin inkişafı daha yüksək səviyyəyə qaldırılmalıdır. Bundan əlavə, həyati əhəmiyyətli texnologiyalarda yüksək potensiala malik menecerlər və ekspertlər arasında çarpaz qarşılıqlı əlaqəni təşviq etmək və həvəsləndirici kompensasiya sistemlərini inkişaf etdirməklə müəssisə üçün xüsusi və yüksək dəyərli təcrübəyə investisiyalar lazımdır *(Ünal. İ, 1996:10-17).*

**Təhsilin insan kapitalına təsiri.**

İqtisadi inkişafın kapital fondunun keyfiyyət və kəmiyyət artımı ilə əldə edildiyi və bunun da gəlirləri artırdığı qəbul edilərsə, insan kapitalı təhsil vasitəsilə əldə edilən bilik və bacarıqları təsvir edən bir anlayış kimi iqtisadiyyat üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, istehsal potensialının təzahürü sayıla biləcək insan kapitalını izah etmək üçün təhsilin iqtisadi məhsuldarlığa və artıma təsirlərini təhlil etmək üçün xərc-fayda, xərc-səmərəlilik təhlili kimi üsullardan istifadə edilmişdir. Təhsilin ümumi xərclərini (həm fərdi, həm də icma) formal və ya iş yerində təlimə qoyulan investisiyalardan gözlənilən gəlirlərlə müqayisə etmək üçün xərc-fayda təhlili üsullarından istifadə edilmişdir. Bu texnika ilə təhsilin dəyəri fərdlərin və ya hökumətlərin təhsilə etdiyi pul xərclərindən daha çox imkan dəyəri nəzərə alınmaqla təhsilə ayrılan ümumi resurslar əsasında ölçülür, təhsilin faydaları isə heç bir və ya çox olmayan təlim keçmiş işçi qüvvəsi ilə müqayisə edilir. təhsilin aşağı səviyyəsi.qazancın müqayisəsi ilə ölçülür. Təhsil investisiyalarının gəlirlilik təhlili resursların ən səmərəli və ya gəlirli şəkildə necə bölüşdürülməsi sualına müəyyən aydınlıq gətirə bilər. Bununla belə, təhsil təkcə iqtisadi məqsədləri olan bir fəaliyyət deyil və bu məqsədlər

gəlirlilik və məhsuldarlıq kimi ölçülərlə müəyyən edilir. Buna görə də nəzəriyyə çərçivəsində tətbiq olunan insan kapitalı nəzəriyyəsi və xərc-fayda təhlili kimi üsullar resursların necə bölüşdürülməsi sualına cavab verə bilməz. Təhsildə məhsuldarlıq meyllərini təhlil etmək üçün müxtəlif zaman dövrlərində təhsilin məhsuldarlığını ölçmək və müqayisə etmək cəhdləri edilmişdir. Təhsilin kəmiyyət və keyfiyyətinin ölçülməsi problemini yenidən gündəmə gətirən bu təşəbbüslər giriş və çıxışlardakı tendensiyaları bilmək tələb edir. Bu baxımdan zaman-zaman iddia edilir ki, təhsilin giriş və çıxışlarını ölçmək çətin olduğundan təhsilin səmərəliliyini ölçmək mümkün deyil. İstehsal funksiyası nəzərə alındıqda, yetişdirilmiş işçi qüvvəsini iqtisadiyyatın ən mühüm daxilolmalarından biri hesab etmək, təhsil sisteminin məhsuldarlığı ümumi milli istehsalın mühüm hissəsini təşkil etdiyi üçün təhsil həm giriş, həm də çıxışı təmsil edir *(Carnoy.M, 1987:1-7).*

**“Azərbaycanda iqtisadi inkişaf və insan kapitalının qarşılıqlı təması və təsiri: müasir vəziyyət və perspektivlər”**

Azərbaycanda dövlət siyasətinin mərkəzində vətəndaş amili, əhalinin yüksək rifahı və layiqli həyat səviyyəsi dayanır. Yeni dövrdə isə dövlət müasir əmək bazarının tələblərinə uyğun bilik və bacarıqların inkişaf etdirilməsi, rəqabətli insan kapitalının formalaşması, cəmiyyətin yüksək rəqəmsal mədəniyyətə və bacarıqlara sahib olması və innovativ texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması yolu ilə sosial rifahı yüksəltməyi hədəfləyir. Azərbaycan dünyada artan rəqabətə uyğun insan kapitalı formalaşdırmaqla rifaha nail olmağı prioritet kimi müəyyən edib. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafi üçün əlverişli infrastrukturun formalaşdırılması istiqamətində fəal iş aparılır. Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Mərkəzinin yaradılması da ölkəmizi yeni texnoloji rəqabət mühitində önə çıxarmaq məqsədindən irəli gəlir. Bununla yanaşı, idarəetmə sahəsində daim təkmilləşmə və effektivlilik əsas götürülərək insan kapitalının, kadr potensialının formalaşması, bacarıqlı kadrların önə çıxarılması məqsədilə də yeni layihələr həyata keçirməkdədir.

**İnsan kapitalının reallaşdırılmasının əsas istiqamətləri**

Əvvəlcə onu qeyd edək ki, kapitallar sistemində formalaşan və kapitallar kapitalı olan insan kapitalı - təhsilə və ixtisaslı hazırlığa qoyulmuş kapital sayəsində toplanılmış texniki bilik və bacarıqlar ehtiyatının rolu, əhəmiyyəti, reallaşdırılması istiqamətlərinin dərindən öyrənilməsi müasir dünyada və ölkəmizdə xüsusi aktuallıq və böyük sosial-iqtisadi əhəmiyyət kəsb edir. Kapitalın təkrar istehsalı prosesində onun tərkib hissələri olan istehsal vasitələrini hərəkətə gətirib öz dəyərindən əlavə dəyər istehsal edən, dəyərini artıran, onun işçi qüvvəsinin daşıyıcısı olan insan da kapitaldır və iqtisadi ədəbiyyatda bu, insan kapitalı adlanır. Bu prosesi daha intensiv davam etdirmək və özünün dəyərindən əvvəlki istehsal prosesindən daha artıq dəyər yaratmaq üçün təhsilə və ixtisaslı hazırlığa qoyulan kapital sayəsində işçi qüvvəsində toplanmış texniki bilik və bacarıqlar ehtiyatı daha davamlı artırılmalıdır. Çünki daha çox toplanmış texniki bilik və bacarıqlar ehtiyatı daha çox məhsul və dəyər istehsal etməyə, istehsalı yeniləşdirməyə, elm və texnikanın nailiyyəti əsasında texnologiyaların tətbiqini sürətləndirməyə əlverişli şərait yaradır. Ona görə də bu məsələ həmişə aktual problem kimi qarşıya qoyulur və reallaşdırılır. Bunu xüsusilə nəzərə çatdırmaq lazımdır ki, ölkənin və bütövlükdə cəmiyyətin inkişaf səviyyəsini və iqtisadi tərəqqisini dövlətin malik olduğu təbii sərvətlərindən daha çox onun təhsilinin, elminin inkişaf səviyyəsi müəyyən edir. Müasir dövrdə bu mühüm sosial-iqtisadi məsələnin həlli ön plana keçir və xüsusi aktuallıq kəsb edir. Çünki elmi-texniki tərəqqinin və elmi-texniki inqilabın nəticələri, əhalinin bilik səviyyəsi, onların texniki bilik və bacarıqlara yiyələnməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsinin və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafının başlıca və əsas təminatçısı kimi çıxış edir. Bütün bunlar insan vasitəsilə və insan fəaliyyəti ilə reallaşdırıldığına görə insanın özünün texniki bilik və bacarıqlar ehtiyatının formalaşmasına xüsusi diqqət yetirilməli, onun təhsil alması və ixtisas hazırlığı üçün dövlət tərəfindən, habelə bütün mənbələrdən ayrılmış vəsaitin - kapitalın, insan kapitalının həcmi və kəmiyyəti daim çoxaldılmalıdır. İqtisadi artım üçün elə bir dövr gəlib çatmışdır ki, bütün kapital, investisiya qoyuluşlarından istifadənin önündə, onlardan istifadədə insan kapitalı başlıca yer tutmalıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir:

"Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanların biliyidir, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik". Birləşmiş Millətlər təşkilatı tərəfindən təqdim olunan "Minilliyin inkişaf məqsədləri" proqramına görə xalqların davamlı inkişafı müəyyən məqsədlərin güdülməsini ehtiva edir. Bu məqsədlərə görə insan kapitalının daim yenilənməsi əksər dünya ölkələri, o cümlədən Azərbaycan üçün prioritet məsələdir. Azərbaycanda təhsil və elmin inkişaf səviyyəsinin yüksəldilməsində Ulu Öndər Heydər Əliyevin xidməti danılmazdır. Ulu öndər bu işə hələ Sovetlər Birliyi dövründə başlamışdı. Belə ki, 60-cı illərin sonunda ölkəmizdə gənclərin xaricdə və əsasən müttəfiq respublikalarda sayı onlarla ölçülürdüsə, 80-ci illərdə bu rəqəm mini keçmişdi. Eyni siyasət bu gün də Azərbaycanda yürüdülməkdədir. Çağdaş Azərbaycanda gənclərin ən müasir biliklərə yiyələnməsi, kadr potensialının müasir dünya stanartlarına uyğun ixtisas və səriştələrə sahib olması baxımından hökümət tərəfindən əhəmiyyətli proqramlar uğurla həyata keçirilmişdir. Bunlardan gənclərin xaricdə təhsilinin reallaşdırılması məsələsinə yönəlmiş olan 2007-2015-ci illəri əhatə edən dövlət proqramının, Azərbaycanda təhsis sisteminin və bilavasitə tədris prosesinin informasiyalaşmasını nəzərdə tutuan bir neçə proqramı missal göstərmək olar.

Son illərə qədər Azərbaycanda təhsilin humanitarlaşması tendensiyası daha çox sezilməkdə idi. Son illərdə isə bu tendensiya aradan qalxır və texniki elmlər sferasının sürətlə genişlənməsini müşahidə edirik. Bu ilk öncə iqtisadi sferada sürətlə artan rəngarəngliklə bağlıdır. Ötən illərdə Azərbaycanda iqtisadiyyatda xidmət sferasının üstünlüyünü müşahidə edirdiksə, günümüzdə durum xeyli dəyişmişdir. Qeyri-neft sektorunun inkişafı ölkəmizdə yeni sənaye sahələrinin, xüsusən istehsal sahələrinin formalaşmasına gətirib çıxarmışdır. Yeni yaranan sahələr isə dünya standartlarına uyğun, zamanın tələbinə uyğun texniki biliklərə sahib olan yeni kadrların mövcudluğunu tələb edir. Son iki ildə COVID-19 pandemiyası bütün sferalarla yanaşı Azərbaycan təhsilini də çətin problemlərlə üz-üzə qoymuşdur. Tələbə-şagird kontingentinin real tədris prosesindən uzaq düşməsi təhsil sferasında bir sıra transformasiyaların baş verməsinə səbəb olmuşdur. Bu transformasiyaların müsbət tərəfi ondadır ki, azərbaycanda təhsilin bütün sferalarında İKT və onların yaratdığı imkanlardan geniş istifadə olunmağa başlanmışdır. Distant təhsil tədris forması mümkün texnologiya kimi qəbul edilmiş, ölkədə distant təhsilllə bağlı ən yeni texnologiyalardan istifadəyə imkan verilmişdir. İntenetdən istifadə imkanı təkcə distant formada təhsil alma imkanı vermir. Eyni zamanda internet vasitəsilə yayımlanan informasiyanın etibarlılıq dərəcəsinin artmasına imkan verir. Təhsil alan vətəndaşların informasiya mübadilə mühiti genişlənmiş olur. Yeni distant texnologiyaların tətbiqi SCORM kimi beynəlxalq təhsil standartlarının istifadəsinə imkan veir. Yeni şəraitdə Azərbaycanın tədris sahəsində beynəlxalq transmilli şirkətləri ilə əlaqəsi də genişlənmiş olur. Belə ki, ölkədə tədris prosesinə Mikrosoft, Adobe, Cisco kimi şirkətlərin qabaqcıl təhsil texnologiyaları cəlb edilmiş olur. Bu məhsullardan istifadə imkanları yaradılır. Ölkə vətəndaşlarının xarici universitetlərdə da şərait yaradılmışdır. Son illərdə bu tendensiya daha qabarıq formada özünü büruzə verir. Eyni zamanda xaricdə təhsil alan kadrların idarəetmə strukturlarında yerləşdirilməsi tendensiyası müşahidə olunur. Bütövlükdə isə Azərbaycan bu gün insan kapitalının formalaşdırılmasında dünyanın qabaqcıl ölkələrinin praktikasından geniş istifadə edir. Bu təcrübələrin yerli şəraitə uyğunlaşdırılması da ayrıca diqqət mərkəzində saxlanılır *(Elmi-praktiki konfrans materialları, 2019:438-445).*

**Nəticə**

İnsan kapitalının müasir iqtisadi münasibətlərin elementi kimi xarakterizə edilməsi və onun istehsal prosesində rolunu ümumiləşdirərək aşağıdakı kimi xarakterizə etmək olar:

- İnsan kapitalının ortaya gəlməsi zamanı subyekt rolunda insan özü və eyni zamanda dəyər daşıyıcılarının keyfiyyətcə yüksəlməsinə sərmayə qoyan dövlət çıxış edə bilər.

- İnsan kapitalının yetişməsinə yönləndirilən sərmayənin effektiv nəticə verməsində cəmiyyətin spesifikasını müəyyən edən tarixi irs, mövcud milli dəyərlər və dünyagörüşü, dövlətin yürütdüyü iqtisadi siyasət, cəmiyyətin idarə olunmasında istifadə edilən hüquqi-normativ baza, bütövlükdə insanların rifahı, təhsil və səhiyyənin durumu kimi olduqca önəmli faktorlar rol oynayır.

- İnsan kapitalı özündə ilk öncə insanın sosioloji və antropoloji xüsusiyyətlərin birləşdirir. Bu kapitalın formalaşması və istifadəsi bütün insanların fiziki imkanlarından, bilik və səriştəsinin həcmindən asılıdır.

- İnsan kapitalının sürətli şəkildə pula çevrilməsi mümkün deyil. İnsan kapitalının mübadilə predmetinə çevrilməməsi onu likvidlik xüsusiyyətindən məhrum edir. Onun daşıyıcısı olan insanın bu kapitalı mübadilə prosesinə gətirməsi qeyri mümkündür.

- İnsan kapitalının səviyyəsi istehsal prosesinin və ümumiyyətlə iqtisadi münasibətlərin subyektinin özünün iradəsi, iqtisadi mənafeyi, mədəni səviyyəsi, firma daxili mədəniyyət səviyyəsi, əməyin təşkili forması, əmək şəraiti, ekoloji durum və s. amillərlə müəyyən edilir;

İşçilərin rifah qayğılarının aradan qaldırılması, karyera yollarının planlaşdırılması, fəaliyyətinin qiymətləndirilməsi, mükafat və mükafatların verilməsi, onların təlimləndirilməsi və iş rotasiyası ilə məhsuldarlığının artırılması işçilərin uğuru ilə yanaşı insan resurslarının inkişafı üçün ən əsas fəaliyyətdir. . Beləliklə, əksər təşkilatlarda insan resursları departamentinin funksiyası layiqincə yerinə yetiriləcək və təşkilatın strateji məqsədlərinə doğru atılan mühüm addım uğurla başa çatacaq. İnsan resurslarının planlaşdırılması və inkişafı ilə insan kapitalı kimi təqdim olunan insan resursları biznesin rəqabət üstünlüyü ola bilər.

Nəticə etibarı ilə təşkilatlar insan resurslarını motivasiya edərsə, işçilərin məhsuldarlığı artarsa, bu məhsuldarlıq artımı insan resurslarının maddi və mənəvi ölçüsünü ifadə edən insan kapitalının dəyərinin artmasına töhfə verəcəyi həm fərdin, həm də təşkilatın bazar dəyəri və bu transformasiyanın daha da artacağı şübhəsizdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, İqtisadi islahatlar elmi tədqiqat institutu, İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası, Bakı-2017, səh 4-15
2. Carnoy, M. (1987). The Economics of Education, Then and Now, Economics of Education – Research and Studies, George Psacharopoulos (ed), Pergamon, p.1-7.
3. Psacharopoulos, G. ve Woodhall, M. (1994) “Eğitimin Ekonomik Büyümeye Katkısı”, Pegem (der.) Eğitim Ekonomisi-Seçilmiş Yazılar, Çevirenler Berrin Burgaz ve Yüksel Kavak, Ankara: Pegem, p. 39-47.
4. Müasir Azərbaycanda davamlı inkişafın təmin olunmasında insan kapitalın rolu// Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycanda regional inkişafın idarə olunmasında müasir istiqamətlər mövzusunda Respublika elmi-praktik konfransının materialları Bakı- 22 Aprel 2019. Səh. 438-445
5. Ünal, I. (1996). Eğitim ve Yetiştirme Ekonomisi, Ankara: Epar Yayınları. p 10-17

**İnternet resursları**

1. https://economy.gov.az/az/page/insan-kapitali
2. https://webinar.hbrturkiye.com/record/insan-kaynaklarinda-yeni-perspektifler-zirvesi-2022?lang=tr
3. https://onerbilisim.com/insan-sermayesi-yonetimi-human-capital-management-hcm-nedir/

# LİDERİN FƏALİYYƏTİNİN İŞÇİLƏRİN MƏHSULDARLIĞINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Azərbaycan Universiteti***
***Kazımova Nüşabə Rövşən qızı***
***Elmi rəhbər: dos. N.B.Böyükkişi***

***Xülasə***

Məqalədə liderin fəaliyyətin stimullaşdırılmasında rolu, təşkilati fəaliyyətdə onun təsiri və qrupun dinamik prosesləri qrup münasibətlərinin ahəngdarlığını təmin edərək liderlik fenomeni araşdırılmışdır. Bildiyimiz kimi liderlik keyfiyyətləri nəzəriyyəsi və ya struktur nəzəriyyəsi effektiv bir liderin universal şəxsiyyət quruluşunu, ona xas olan əlamətləri və xüsusiyyətləri müəyyənləşdirmək vəzifəsini qoyur. Effektiv liderlər həmişə effektiv rəhbər deyildir. Liderlik keyfiyyətləri nəzəriyyəsi və ya struktur nəzəriyyəsi effektiv bir liderin universal şəxsiyyət quruluşunu, ona xas olan əlamətləri və xüsusiyyətləri müəyyənləşdirmək vəzifəsini qoyur.

***Açar sözlər:*** *lider, rəhbər, performans, kadrların qiymətləndirilməsi, liderlik modelləri, şəxsi keyfiyyət.*

***Summary***

In the article, the role of the leader in stimulating activity, his influence on organizational activity and the dynamic processes of the group ensure the harmony of group relations and the phenomenon of leadership has been investigated. As we know the theory of leadership qualities or structural theory sets the task of determining the universal personality structure of an effective leader and his characteristic features. Effective leaders are not always effective managers. The theory of leadership qualities or the structural theory sets the task of determining the universal personality structure of an effective leader, the signs and characteristic features of him.

***Keywords:*** *leader,guiding, performance, evaluation of personnel, leadership models, personal quality.*

Qrupun dinamik prosesləri qrup münasibətlərinin ahəngdarlığını təmin edərək liderlik fenomeni təşkil edir. Liderliyin bir çox tərifi var. Bu təriflər üç ümumi komponentə malikdir:

1) Liderin davamçıları olmalıdır (rəhbərlik edəcək insanlar olmadan heç kim lider ola bilməz);

2) Lider tabeçiliyində olanlardan daha çox onlara təsir edir;

3) Liderlik ümumi qrup məqsədlərinə çatmaq üçün ardıcıllara təsir etməyi nəzərdə tutur.

Təşkilati liderlik arzu olunan məqsədlərə çatmaq üçün digər insanların fərdi və ya qrup davranışlarına təsir göstərməkdən ibarət bir fəaliyyət olaraq təyin edilə bilər. “Lider” və “rəhbər” anlayışlarında fərqlər mövcuddur. Liderlik anlayışı “şaquli” bir qrupda meydana gələn psixoloji əlaqələrin xarakteristikasına aiddir (üstünlük və təslim baxımından). Rəhbərlik anlayışı bütün qrup fəaliyyətlərinin təşkilinə, onun idarəetmə prosesinə aiddir. Effektiv liderlər həmişə effektiv rəhbər deyildir. Məsələn, lider ilham verdikdə tabeçiliyində olanları səhv seçilmiş hədəflərə çatmaq üçün motivasiya edir *(Quliyev, 2022:372).* Bu vəziyyətdə effektiv liderlik qeyri-effektiv rəhbərliklə uyğunlaşdırılacaqdır. Digər uyğunlaşdırmalar da mümkündür. Bir şəxs zəif lider, amma səmərəli (effektiv) rəhbər ola bilər, xüsusən də, vəzifələrini aydın bilən və işləmək üçün motivasiya edilmiş işçiləri idarə edərsə. Lider və rəhbər arasındakı aşağıdakı fərqləri ayırd edə bilərik:

- lider, əsasən, qrupdakı şəxsiyyətlərarası münasibətləri, eyni zamanda, rəhbər isə qrupun sosial (ictimai) bir təşkilat olaraq rəsmi münasibətləri tənzimləyir;
- liderlik bir mikromühitdə də ifadə edilə bilər, rəhbərlik isə makromühitin bir elementidir, yəni, bu bütün ictimai münasibətlər sistemi ilə bağlıdır;
- liderlik öz-özünə yaranır; həqiqi bir sosial qrupun rəhbəri ya təyin olunur, ya da seçilir, amma bu və ya digər dərəcədə kortəbii deyil, əksinə, struktur elementlərinin nəzarəti altında həyata keçirilir;
- liderlik az stabildir, liderlik qrupun əhval-ruhiyyəsindən çox asılıdır, rəhbərlik isə daha stabildir;
- tabeçiliyində olanların rəhbərliyi, liderlikdən fərqli olaraq daha çox müəyyən bir sanksiya sisteminə malikdir. Bu sistem liderlikdə yoxdur;

- rəhbərin qərar qəbul etmə prosesi daha mürəkkəbdir və bu qrupun maraqları ilə əlaqəli olmayan bir çox hal və mülahizələrlə vasitəçilik edilir, bu zaman lider qrupa fəaliyyətinə dair qərar qəbul edir;

- liderin fəaliyyət sahəsi, əsasən, lider olduğu kiçik bir qrupdur, rəhbərin fəaliyyət sahəsi daha genişdir, çünki o, kiçik bir qrupu daha geniş sosial sistemdə "təmsil" edir *(Əliyev, 2013:86).*

Normal fəaliyyət göstərən təşkilatlarda həm liderlərin, həm də rəhbərlərin formalaşması üçün şərait yaradılmalıdır. Liderlik keyfiyyətləri nəzəriyyəsi və ya struktur nəzəriyyəsi effektiv bir liderin universal şəxsiyyət quruluşunu, ona xas olan əlamətləri və xüsusiyyətləri müəyyənləşdirmək vəzifəsini qoyur. Bir çox tədqiqatçı bir insanın lider olmasını təmin edən xüsusiyyətlər toplusunun təyin etməyə çalışırdılar. Üstəlik, baxılan mərhələdəki istehsalın inkişaf səviyyəsinə uyğun olaraq ya fiziki gücü, ya da ki intellekti birinci yerə qoyurdular. Beləliklə, bir sıra rəhbərlərin apardığı tədqiqatlar müasir liderə xas olan aşağıdakı əsas xüsusiyyətləri aşkar etdi:

- idarəetmə komandası yaratmaq bacarığı;
- biznesin inkişafına dair strateji baxış;
- biznesin inkişafındakı strateji dəyişiklikləri idarə etmək bacarığı;
- qeyri-müəyyənlik şəraitində qərar vermək bacarığı;
- özününizamlama və təşkilatlanma;
- səlahiyyət vermək və lazımi nəticələrin alınmasına nəzarət etmək qabiliyyəti;
- komanda daxilində konstruktiv əlaqələr qurma bacarığı;
- təşkilatınızın və sahənizin biznes prosesləri və istehsal xüsusiyyətləri barədə ətraflı məlumat;
- danışıqların aparılması qabiliyyəti və mövqeyinin doğru olduğuna inam.

Bütün təşkilatlar idarəetmə ehtiyacı da daxil olmaqla bir sıra ortaq xüsusiyyətlərə malikdirlər və buna görə idarəetmə fəaliyyətləri bir çox ümumi xüsusiyyətlərə malikdir. Bu, müxtəlif təşkilatlarda fəaliyyətlərini həyata keçirən müxtəlif səviyyəli liderlər arasındakı fərqlərdən daha çox oxşarlıqların mövcudluğunu izah edir. Müasir sahibkarlar və idarəçilər arasında aparılan bir araşdırma, işgüzar münasibətlərin Qərb üsuluna diqqət yetirərək onlar praktik olaraq patriarxal ənənələrə sadiq olduqlarını göstərir. Heyətin işgüzar qiymətləndirilməsi, bir insanın keyfiyyət xüsusiyyətlərinin, vəzifənin və ya iş yerinin tələblərinə uyğunluğunu müəyyənləşdirmək üçün yönəlmiş bir prosesdir *(Muradov, 2004:125).*

Liderin fəaliyyətinin işçilərin məhsuldarlığına təsiri yollarına aşağıdakılar aiddir:

- kadr quruluşunun vəzifələrə, bacarıq səviyyəsinə görə əsaslandırılması;
- vəzifə təlimatlarının hazırlanması və dəqiqləşdirilməsi. İdarəetmənin təkmilləşdirilməsi:
- idarəetmənin üslub və metodlarının təkmilləşdirilməsi;
- işçilərin məsuliyyətinin artırılması;
- rəhbərliyin və tabeliyindəki şəxslərin əlaqələrinin gücləndirilməsi.

İşgüzar qiymətləndirmə aşağıdakı tələblərə uyğun olmalıdır:

- obyektivlik - kifayət qədər uzun müddətli iş müddətini əhatə edən və daxilində fəaliyyət nəticələrinin dinamikasını nəzərə alan kifayət qədər tam bir göstərici sistemi;
- operativlik - qiymətləndirmənin vaxtı və sürəti, keçirilməsinin müntəzəmliyi;
- aşkarlıq - işçilərin qiymətləndirmə proseduru və metodları ilə geniş tanışlığı, nəticələrini bütün maraqlı tərəflərə çatdırması;
- demokratiklik - ictimaiyyətin iştirakı, həmkarların və tabeliyində olanların qiymətləndirməyə cəlb edilməsi;
- qiymətləndirmə prosedurunun sadəliyi və açıqlığı;
- nəticə - qiymətləndirmənin nəticələrinə əsasən effektiv tədbirlərin icrası, məcburi və dərhal həyata keçirilməsi;
- qiymətləndirmə prosedurunun mexanizasiyası və avtomatlaşdırılması.

Liderin qurduğu iş nəticələrinin səbəbləri ilə sonrakı davranışları arasındakı əlaqə, liderin fikrincə, baş verənlərə görə məsuliyyət daşıyanlar tərəfindən müəyyən edilir. Lider səbəblərin daxili olduğuna inanırsa, məsuliyyət, onun fikrincə, tabeçiliyin üzərinə düşməlidir və ona müvafiq tədbirlər tətbiq ediləcəkdir. Bu model çərçivəsində lider tabeçiliyin davranışına deyil, liderlə tabeçiliyin qarşılıqlı təsirinə, yəni tabeçilikdə olan rəhbərin tədbirlərinə reaksiya göstərərək

sonuncunun sonrakı davranışına təsir göstərir. Bu vəziyyətdə liderliyin səmərəliliyindən asılı olaraq lider - tabe olan münasibətlərinin spiralı yuxarı və ya aşağıya doğru fırlana bilər. Sonuncu nəticədə iştirakçılar arasındakı münasibətlərin pozulmasına səbəb ola bilər: işçinin işdən çıxarılması və ya rəhbərin vəzifədən getməsi. M.Ganter xarizmatik liderə xas olan altı əsas xüsusiyyəti üzə çıxartdı:

1) enerji mübadiləsi və ya təlqinedicilik qabiliyyətləri;
2) insanlara təsir bacarığı;
3) enerjini "yaymaq" və işçilərin motivasiyasını yüksəltmək bacarığı;
4) cəlbedici görünüş;
5) xarakter müstəqilliyi;
6) yaxşı ritorik qabiliyyət və yüksək sənətkarlıq qabiliyyəti.

Xarizmatik keyfiyyətləri olan liderlərin arxasınca gedənlərin yüksək motivasiya ilə fərqlənməsi, şövqlə işləmək bacarığının olması və yüksək nəticələr əldə etməsi müəyyən edilmişdir. Bu cür liderlər, xüsusilə, inkişafın dəyişiklik mərhələlərində, böhrandan çıxmaq, köklü islahatların və dəyişikliklərin həyata keçirildiyi dövrdə zəruridir. Tədqiqatlar göstərir ki, xarizmada mənfi və müsbət cəhətlər var. Mənfi xarizma şəxsi gücün qəsbkarlığı ilə, müsbət xarizma isə ictimai maraqların təmin edilməsi ilə əlaqələndirilir. Xarizmatik liderlik modelləri xarizmanın özü və ardıcılları ilə münasibətlərin inkişaf mərhələlərinin sayına görə fərqlənir, bunun üçün aşağıdakılar tələb olunur:

- tənqid edilə biləcək problemləri aşkar etmək üçün həssaslığı inkişaf etdirmək;
- bu problemin ideallaşdırılmış həll yollarını görmə qabiliyyətini inkişaf etdirmək;
- şəxslərarası ünsiyyət vasitəsilə öngörmə qabiliyyətinizi onlarda güclü təəssürat oyadan və hərəkətə gətirən bir şəkildə ardıcıllara çatdırmaq;
- işi bilmək, uğur qazanmaq, risk almaq və fövqəladə hərəkətlər və ya əməllər etmək kimi keyfiyyətləri göstərən ardıcıllarla etibar əlaqəsinin inkişaf etdirmək;
- səlahiyyətlərini ardıcıllara həvalə etməklə vizyon qabiliyyətlərini nümayiş etdirmək. Bunu ardıcıllar üçün sıx və mənalı vəzifələr qoymaq, onları idarə etməyə cəlb etmək, bürokratik bağları zəiflətmək və müvafiq olaraq mükafatlandırmaqla etmək mümkündür.

Təşkilat üçün vəziyyətin kritikliyi səbəbindən köklü dəyişikliklərə ehtiyac olduğu üçün xarizmatik liderliyin əhəmiyyəti artır. Ancaq bu şəraitdə liderliyin başqa bir konsepsiyası inkişaf edir: islahatçı lider konsepsiyası. Dəyişkən və ya islahatçı bir liderliyin xarizmatik liderliklə çox əlaqəsi var, lakin fərqli şəkildə şərh olunur. İslahatçı lider məqsədin əhəmiyyətini və dəyərini dərk etməkdə şüur səviyyələrini artıraraq şəxsi mənafelərini ortaq bir məqsəd ilə birləşdirmək imkanı, inam atmosferi yaradır və özünüinkişaf ehtiyaclarını inandıran ardıcılları təşviq edir. İslahatçı lider çeviricidir, yaradıcılıq göstərir, məqsədi dünyanı dəyişdirmək deyil, inkişaf yolu ilə özünü dünyada dəyişdirməkdir. Dəyişkən və ya islahatçı liderlik modeli aşağıdakıları əhatə edir:

- mühüm sosial və təşkilati dəyişikliklər etmək;
- böyük səy ardıcılları tərəfindən tətbiq;
- ardıcıllarda daha çox məmnuniyyətin meydana gəlməsi;
- qruplar və təşkilati birliyi gücləndirmək. Əsl liderlərin hakimiyyətindən istifadə etməsinə ehtiyac yoxdur, çünki ətrafdakılar tam hazırlıqla onları izləyirlər. Bundan əlavə, hakimiyyət rəhbərin və tabeliyindəki şəxslərin məqsədlərinin üst-üstə düşməsini tələb etmir, yalnız asılılığa əsaslanır. Liderlik əksinə, lider və qrupun hədəfləri arasında uyğunluq tələb edir. Hakimiyyət təhlili olmadan liderliyin mahiyyətini anlamaq mümkün deyil. İnsanlara qarşı diqqətli olmaq rəhbərin təşkilatın digər üzvləri ilə münasibətləri ilə bağlıdır. Bu amil rəhbərin tabeçiliyində olanların fikir və hisslərinə qarşılıqlı inam və hörmətin vacibliyini vurğulayır. Tabeçilikdə olanlar yetkinliyin daha yüksək səviyyəsinə çatdıqda liderin davranışı yalnız qrupa nəzarətin azalması ilə deyil, həm də liderin şəxslərarası münasibətlər sisteminə təsirinin azalması ilə xarakterizə olunur.

**Nəticə**

Məqalədə bir sıra ədəbiyatlardan etdiyimiz araşdırmanın nəticəsində belə qənatə gəldik ki,osial-iqtisadi hadisə və proseslərin dinamik xarakteri müxtəlif elm sahələrinin öyrənilməsi predmeti olan bir sıra əlaqəli problemlərin yaranmasına səbəb olur, lakin ən dolğun baxış və əsaslı həll yalnız onlar sistemli, hərtərəfli nəzərdən keçirildikdə mümkündür. Eyni zamanda, menecment

nəzəriyyəsi və praktikasının inkişafındakı yeni dünya tendensiyalarından birinin təşkilat daxilində kadrların idarə edilməsi paradiqmasından çoxsəviyyəli bir sistem kimi mikro, mezo və makro səviyyələri insan resurslarının idarə edilməsinə keçiddən ibarət olması xarakterikdir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsinin göstərdiyi kimi, əmək məhsuldarlığına ən çox təsir edən insan inkişafı səviyyəsidir. Əslində bu o deməkdir ki, insan potensialının toplanmasına və səmərəli istifadəsinə şərait yaradan istənilən təşkilat iqtisadi inkişafda uğur qazana bilər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. M.Ə.Əliyev, H.İ.Həmidov. Biznesdə insan resurslarının idarə edilməsi, Bakı-2013.
2. R.H.Quliyev.İnsan resuslarının idarə edilməsi.Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Avrasiya Universiteti, Bakı-2022
3. R.Ş.Muradov. Müasir şəraitdə Azərbaycan Respublikasında əmək bazarı problemləri, Bakı, Elm-2000.
4. Ş.M.Muradov. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər, Bakı, Elm-2004, 660 səh.

# İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR

*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Əliyev İlqar Vüqar oğlu*
*Elmi rəhbər: G.R.Məmmədova*

**Xülasə**

İnsan kapitalının əsaslarını təhsil, sağlamlıq, miqrasiya və əmək bazarında məlumat axtarışı, əlverişli mühit, iş qüvvəsi, məşğulluq və s. Təşkil edir. İnsan kapitalı innovativ fəaliyyətlərinin həyata keçirilməsi və elmi iqtisadiyyatın formalaşdırılması üçün ən vacib faktorlardan biri olaraq qalır. Hər bir mövzuda olduğu kimi insan kapitalında da müəyyən problemlər vardır. Təhsil insan kapitalında əsas yer tutduğu üçün bəzi ölkələrdə insan kapitalının inkişaf etməsində problem yaradır. Buna bəzi ölkələri misal göstərmək olar. Təhsil inkişaf etdikcə yeni ixtisaslar, cihazlar və s. Meydana gələcək və bu da kapitalın inkişaf etməsində başlıca rol oynayır.

Hamımızın bildiyi kimi problemlər çoxdur. Bəziləri müəyyən zaman içində yaranır və öz həll yolunu tapır. Azərbaycan insan kapitalının perspektivliyi üçün bir sıra tədbirlər görmüş və görməkdə davam edir. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan hökümətinin apardığı siyasətin başlıca məqsədi qara qızılı yəni, nefti insan kapitalına çevirməkdən ibarətdir.
***Açar sözlər:*** *Azərbaycan gənci, insan kapitalı, iqtisadi inkişaf, təhsil, perspektiv, sərəncam.*

**Summary**

The fundamentals of human capital are education, health, migration and serach for information on the labor market, favorable environment, labor force, employment, etc.contane. Human capital remains one of the most important factors for the implementation of innovative activities and the formation of a scientific economy. As in every subject, there are certain problems in human capital. Because education occupies a key place in human capital, it creates a problem in the development of human capital in some countries. Some countries can be cited as an example. As education evolves, new specialties, devices, etc. Will occur and this plays a major role in the development of capital.

As we all know, there are many problems. Some arise over time and find their own solution. Azerbaijan has taken and continues to take a number of measures for the perspective of human capital. President Ilham Aliyev has repeatedly noted that the main goal of the policy of the Azerbaijani government is to turn black gold, oil, into human capital.
***Key words:*** *Azerbaijani youth, human capital, economic development, education, perspective, management.*

İnsan kapitalı ilk dəfə termin olaraq Teodor Suls tərəfindən işlədilib. Sonradan davamçısı Herri Bekker tərəfindən inkişaf etdirilib. Herri Bekker isbat edib ki, insan fəaliyyətində effektli iqtisadi baxış çox vacibdir.

İngilis dilindən tərcümə edilib-İnsan kapitalı sosial elm adamları tərəfindən istehsal prosesində faydalı hesab edilən şəxsi xüsusiyyətləri təyin etmək üçün istifadə olunan bir anlayışdır. Bu, işçilərin bilik, bacarıq, yaxşı sağlamlıq və təhsilini əhatə edir. İnsan kapitalı fərdi gəlirlərə əhəmiyyətli dərəcədə təsir göstərir*(Wikipediya).* Son illərdə ölkəmizdə insan kapitalının reallaşması istiqamətində xeyli iş görülmüş, xüsusilə peşəkar kadrların hazırlanmasına, təhsilin inkişafına, bu sahəyə ayrılan büdcə vəsaitinin ildən-ilə çoxalmasına, təhsil işçilərinin sosial məsələlərinin həllinə, tələbələrin təqaüdlərinin artırılmasına, istedadlı tələbələrin xarici ali məktəblərə qəbuluna, təhsil işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir.

Ölkəmizdə təhsilin və elmin inkişafının yeni mərhələyə qaldırılmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Onun təklif və tövsiyələri ölkədə təhsilin təşkili və inkişafının proqramına çevrilmişdir. Ulu öndərin hakimiyyətinin birinci mərhləsinin ilk ilində - 1969-cu ildə 244 ixtisas üzrə respublikadan kənara 47 tələbə göndərildiyi halda, 1980-ci ildə bu rəqəm 1400 nəfərə çatdırılmışdır. Ölkəyə rəhbərliyinin ikinci mərhləsində də ümummilli lider təhsilin və elmin inkişafına, insan kapitalının reallaşdırılmasına ciddi əhəmiyyət vermiş, ölkədən kənarda -həm Müstəqil Dövlətlər Birliyi, həm də dünyanın digər ölkələrində yüksək ixtisaslı kadrlar hazırlanması işinə xüsusi qayğı ilə yanaşmışdır. Ümummilli lider Heydər Əliyev demişdir: "Elmə qoyulan sərmayə xalqın intellektual sabahına xidmət edir"*(Asif Şirəliyev).*

Müasir dövrdə də təhsilin inkişafı ön plana çəkilmiş, ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlara uyğun olaraq dövlət proqramları yerinə yetirilməyə başlanmış, Milli Məclis tərəfindən "Təhsil haqqında" Qanun qəbul edilmişdir. Bütün bunların sayəsində təhsilin inkişafı, insan kapitalının formalaşması istiqamətlərində xeyli iş görülmüşdür. Bakı şəhəri Zabrat qəsəbəsindəki məktəbin yeni binasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insan savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı möhkəmlənir. Bu gün vaxt gəlibdir ki, biz məhz bu sahəyə sərmayələr qoyaq".

2006-ci ildə təhsilə ayrılan büdcə xərcləri 47 faiz, investisiya xərcləri 2 dəfədən çox artmışdır. Bundan başqa, 10 mindən çox azərbaycanlı gənc müxtəlif ölkələrin ən nüfuzlu ali məktəblərində ən zəruri ixtisaslar üzrə oxumağa göndərilmişdir. Təkcə ABŞ-da 400 nəfər azərbaycanlı gənc həmin ölkənin nüfuzlu ali məktəblərində təhsil alır. Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının ali və orta məktəblərdə tətbiqinə qoyulan vəsaitin həcmi getdikcə çoxalır. Hazırda ölkəmizdə də informasiya cəmiyyəti və elm tutumlu iqtisadiyyat formalaşmışdır. İnformasiya və kommunikasiyaların davamlı inkişafı dövlət siyasətinin prioritet istiqamətləri sırasında yer almış, onun nəinki sosial-iqtisadi inkişafda, habelə təhsilin və elmin irəliləməsində mühüm rolu hiss olunmağa başlamışdır.

Respublikamızda son 2 il ərzində 40 yeni uşaq bağçası tikilib istifadəyə verilmiş, 44 məktəbəqədər təhsil ocağı təmir edilmiş, nəticədə həmin müəssisələrə əlavə olaraq 8,6 min nəfər uşaq qəbul olunmuşdur. Görülmüş tədbirlər nəticəsində bütün şagirdlərin 80 faizinin tədris şəraiti yaxşılaşmış, ikinövbəli məktəblər 73 faizdən 44 faizə, ikinci növbədə oxuyan şagirdlər 34,5 faizdən 21 faizə endirilmişdir. Ölkəmizdə 2009-cu ildə 500 məktəb internetə qoşulmuşdur. Orta məktəb şagirdlərinin dərsliklərlə pulsuz təminatı kimi mühüm tədbir həyata keçirilmişdir.

**İnsan Kapitalı -** insanın cəmiyyətdə özünü tam realizə etmək və cəmiyyətin imkanlarından istifadə etmək üçün biliyinin, bacarığının, əlaqələrinin və peşəkarlığının cəmidir(Wikipedia). İnsan kapitalına aid bir neçə tərif vardır. Məsələn,

İnsan kapitalı – təhsil və elmin yaratdığı dəyərdir*" (Muradov).* "İnsan kapitalı – şəxsi, sosial və iqtisadi rifahı təmin edən bilik və bacarıqlardır" (İqtisadi əməktaşlıq və inkişaf təşkilatı ekspertlərinin fikrinə görə). "İnsan kapitalı – insanın gəlir gətirmə bacarığıdır" (Stenli Fişer) və s.

İnsan kapitalının əsaslarını təhsil, sağlamlıq, miqrasiya və əmək bazarında məlumat axtarışı, əlverişli mühit, iş qüvvəsi, məşğulluq və s. təşkil edir *(İctimai Tv).*

- Təhsil: İbtidai , orta və ali təhsil səviyyəsinin kəmiyyət və keyfiyyət göstəricisidir. Təhsil insana yatırılan bir yatırım kimi insan kapitalının həcmini artırır *(Muradov).*
- Sağlamlıq: Fiziki və zehni gücün göstəricidir *(İndex).* Sağlamlığın qorunması insan kapitalının istismar müddətini uzadır.
- Miqrasiya və əmək bazarında məlumat axtarışı: Bu insan kapitalının qiymətini artırır.
- Əlverişli mühit: Hüquqi baza və infostrukturun inkişaf göstəricisidir.
- İş qüvvəsi və məşğulluq: Fərdlərin təcrübəsi ,istedadı , səriştəsi və əmək qabiliyyətidir.
- Doğum: Bu insan kapitalının yeni nəsillərə ötürülməsidir.

İnsan kapitalı innovativ fəaliyyətlərinin həyata keçirilməsi və elmi iqtisadiyyatın formalaşdırılması üçün ən vacib faktorlardan biri olaraq qalır.

**Problemlər:**

Hər bir mövzuda olduğu kimi insan kapitalında da müəyyən problemlər vardır. Bunların əsas və aktual olanları haqqında məlumat verək:

- Dünyanın müəyyən ölkələrində işsizliyin yüksək səviyyədə olmasına baxmayaraq bütün cəmiyyətlər iqtisadi böhran ilə üzləşəcəklər. Belə ki, bu istedadları sabahımıza necə çatdıracağımızı başa düşmək çox vacibdir.
- **Əhalinin dinamikası.** Bəzi ölkələrin əhalisi qocalmadadır və ya artıq qocalmışdır. Ölkələrin əhali piramidalarına nəzər salsaq bəzi ölkələrdə çətinliklər piramidanın ən aşağı səviyyəsində başlayır. Bunlara əsasən Afrika və bəzi Asiya ölkələrini misal göstərmək olar. Bir sıra ölkələrdə isə

çətinliklər piramidanın ən üst hissəsindədir. Bunlara Yaponiya, Almaniya, Şimali Avropanın digər ölkələri və s. aiddir. Bu ölkələr qocalan əhaliyə sahib olduqlarından gələcək üçün istedadların necə təyin edilməsi problemdir.

- Təhsil insan kapitalında əsas yer tutduğu üçün bəzi ölkələrdə insan kapitalının inkişaf etməsində problem yaradır. Buna bəzi ölkələri misal göstərmək olar ki, burada öz ixtisasını dərindən mənimsəyən pedaqoqların olmamasıdır. Bundan savayı bəzi regionlarda əlverişli mühitin olmaması, yəni iqlimin əl verməməsi təhsil sistemində problem yaradır.

İnsan kapitalına təsir göstərəcək bir neçə problemi yuxarıda qeyd etdik. Hamımızın bildiyi kimi problemlər çoxdur və bəziləri müəyyən zaman içində yaranır və öz həll yolunu tapır.

**Səmərəli istifadə yollari və perspektivlər.**

İnsan kapitalının səmərəli istifadə üsulları və prespektiv cəhətlərinə diqqətlə nəzər salsaq görərik ki, burada olan problemləri həll edib insan kapitalının səviyyəsini yuxarı qaldırmaq olar. İnsan kapitalı inkişafı üçün ilk növbədə təhsilə sərmayə qoyulmalıdır. Çünki təhsil inkişaf etdikcə yeni ixtisaslar, cihazlar və s. meydana gələcək və bu da kapitalın inkişaf etməsində başlıca rol oynayır.

BMT-nin inkişaf proqramının hesabatına əsasən Azərbaycan mühüm irəliləmələr aparmışdır. Belə ki, 2005-ci ildə 101-ci yerdə, 2010-cu ildə 67-ci yerdə, 2014-cü ildə isə 64 yerdə qərarlaşmışdır.

Bundan savayı Azərbaycan insan kapitalının perspektivliyi üçün bir sıra tədbirlər görmüş və görməkdə davam edir. Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin birinci mərhələsinin ilk ilində yəni, 1969-cu ildə Respublikadan kənara 47 tələbə göndərildiyi halda 1980-ci ildə bu rəqəm 1400 nəfərə çatdırılmışdır. 1970-1980-ci illərdə Respublikadan kənarda 15000-dən çox yüksək ixtisaslı mütəxəssis yetişdirilmişdir. XXI əsrin təhsil əsri elan edildiyi dövürdən təhsilə ayrılan vəsait ildən ilə artmaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı qəbul edilmişdir. Hal hazırda da ixtisaslı kadrların istər ölkə daxilində, istərsə də ölkə xaricində yetişdirilməsinə xüsusi diqqət yetirilir. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan hökümətinin apardığı siyasətin başlıca məqsədi qara qızılı yəni, nefti insan kapitalına çevirməkdən ibarətdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan inkişaf kapitalının inkişaf mərkəzi
2. Muradov Ə. (Azərbaycan Dövlət İqtisad Universitetinin Rektoru) TEDxUNEC
3. Wikipedia.az
4. İctimai Tv müzakirə vaxtı – insan kapitalı, iştirakçıları: Fərəc Quliyev (millət vəkili); Vüqar Bayramov (iqtisadçı alim )
5. Asif Şirəliyev, Naxçıvan Dövlət Universiteti , İqtisadiyyat fakültəsinin dekanı, İqtisad elmlər doktoru

**İnternet resursu**

- https://youtu.be/5AUMhkK1J1A
- https://youtu.be/_dKOfaYUegA
- https://az.m.wikipedia.org/wiki/%C4%B0nsan_kapital%C4%B1
- https://youtu.be/U9Byb5v7eh8

# İNSAN KAPİTALI FENOMENİNİN YARADILMASI VƏ GƏLƏCƏKDƏ İNKİŞAFI

***Azərbaycan Dövlət İqtisad Universiteti***
***Quliyeva İlahə Akif qızı***
***Elmi rəhbər: K.K.Babayeva***

***Xülasə***

Bu məqalədə "İnsan kapitalı nədir?" sualına cavab veriləcək; terminin əmələ gəlməsi, öz işlərində istifadə edən tədqiqatçıların müxtəlif məsələlərin təhlili və fenomeninin hansı şəraitdə yarandığı müzakirə olunacaq. Keçmişdə yaranmış problemlər və gələcəkdə müəyyən şəraitdə yarana bilən problemlər öz əksini tapacaqlar.
***Açar sözlər:*** *qabiliyyət, investisiya, qazanc, pandemiya, təlim.*

***Summary***

In this article, the question "What is human capital?" will be answered; the formation of the term, the analysis of various issues by researchers, who use it in their works, and conditions, under which the phenomenon arose, will be discussed. Problems that have been in the past and problems that may arise in certain circumstances in the future will be reflected.
***Keywords:*** *ability, investment, profit, pandemic, training.*

## Giriş

İnsan kapitalı nəzəriyyəsi hər hansı bir müəssisənin kapitalının bu aktiv hissəsinin mahiyyətini, məzmununu, növlərini, qiymətləndirilməsi və tənzimlənməsi üsullarının dəqiq müəyyən edilməsi üçün kifayət qədər geniş elmi baza toplamışdır. Müasir əmək nəzəriyyəsinin iqtisadi kateqoriyası kimi insan kapitalı çoxdan insanların maraq və fəaliyyətlərinin sistemli təhlili əsasında bir çox iqtisadi prosesləri təsvir edən və izah edən ümumi iqtisadi fundamental anlayışlardan birinə çevrilmişdir. Elmi, tətbiqi və tədris ədəbiyyatında insan kapitalı məsələsi geniş müzakirə olunur. Məhsuldar qüvvələrin və kapitalın tərkibi, gəlir formalaşması və bölgüsü, iqtisadi artım və milli sərvət "insan kapitalı" kateqoriyasından istifadə etməklə iqtisad elmində adekvat şəkildə əksini tapır.

İnsan kapitalı mürəkkəb, müxtəlif və dəyişən bir fenomendir. İnsan kapitalının tədqiqatçıları onun müxtəlif aspektlərinə diqqət yetirirlər-bu onun mahiyyətinin və məzmununun müəyyənləşdirilməsinə yanaşmaların genişliyini əks edir.

İnsan kapitalı konsepsiyasının formalaşmasının əsasları klassik iqtisadi nəzəriyyənin yaradıcıları: U.Petti, A.Smit, D.Rikardonun əsərlərində qoyulmuşdur. Ölkənin və əhalisinin sərvətinin artmasında işçi qüvvəsinin, insanın qabiliyyətinin, onun təhsilinin əhəmiyyəti haqqında fikirləri ilk dəfə elmə gətirmişlər. A.Smit həmçinin yazırdı ki, "hər hansı bir peşəni böyük zəhmət və vaxt sərf edərək öyrənmiş insan... bahalı avtomobillə müqayisə oluna bilər". Bu əmək "ona ... təlimin bütün xərclərini ..., kapitalın qaytarılması ilə ödəyəcək ..." *(Смит А. Исследование о природе и причинах богатства народов /1776)* K.Marks vurğulayırdı ki, insanın əqli və fiziki yaradıcı qüvvələrinin inkişafı "əsl sərvət", "cəmiyyətin əsas məhsuldar qüvvəsidir" *(Маркс К. К критике политической экономии /1859).*

U.Petti ilk dəfə olaraq "insanın canlı fəaliyyət göstərən qüvvələri" kateqoriyasını təqdim etmiş və tədqiq etmişdir *(Петти В. Экономические и статистические работы /1940).* O, bunu milli sərvət kontekstində - bir tərəfdən ölkənin sərvətinin artmasının ən mühüm amili, digər tərəfdən isə onun tərkib hissəsi hesab edirdi.

Bütöv konsepsiya kimi insan kapitalının qabaqcılları T.Şults və H.Bekker əsas diqqəti insan kapitalına investisiyalar və onların effektivliyinin qiymətləndirilməsinə yönəltmişlər.

T.Şultsun bu sahədə işinə təkan iş texniki yeniliklərin və əmək və istehsal avadanlıqlarının istifadəsinin genişləndirilməsinin XX-ci əsrdə ABŞ-ın faktiki olaraq əldə etdiyi ÜDM artımının ən yaxşı halda yalnız yarısını təmin edə biləcəyini sübut edən E. Denisonun işi idi. İqtisadi artıma cavabdeh olan digər amilləri müəyyən etmək tədqiqatçılar üçün çətin bir işə çevrilib: onlar qeyd ediblər: istehsalın təşkilinin təkmilləşdirilməsi, əməyin intensivləşdirilməsi, iqtisadi siyasətin

səmərəliliyinin artırılması. T.Şults təhsili xüsusi qeyd etmişdir. Onun insan kapitalı mövzusunda ilk nəşri "Ali təhsil və onun iqtisadi inkişafda rolu" idi. 1958-ci ildə "Yeni dövrdə məktəb" toplusunda nəşr edilmişdir. T.Şults insan kapitalını gələcək məmnuniyyət və ya gələcək qazanc mənbəyi olan hər şey və ya hər ikisi kimi müəyyən etmişdir; gələcək gəlir axını yaratmaq qabiliyyətinə malik olan hər hansı maddi və ya insan aktivi.

1960-cı ildə "Journal of Political Economy"də T.Şultsun "Təhsil kapitalın formalaşması mənbəyi kimi" *(Schultz T. Capital Formation by Education // Journal of Political Economy. 1960, Vol.68)*, 1961-ci ildə isə "İnsan kapitalına investisiya" *(Schultz T. Investment in Human Capital // The American Economic Review. March 1961, №1)* məqalələri dərc edilmişdir. T.Şults "İnsan Kapitalına İnvestisiya" əsərində yazırdı: "Kapital anlayışı müəyyən dəyərə malik gələcək xidmətlərin göstərilməsi kimi iqtisadi xassəsinə malik olan həqiqətən mövcud olan bir şeyin mövcudluğundan irəli gəlir. Kapitalı gələcək xidmətləri təmin edən bir şey kimi başa düşmək bizə bütövün sonrakı iki hissəyə bölünməsinə keçməyə imkan verir: insan və qeyri-insan kapitalı".

T.Şultsun insan kapitalı konsepsiyası bir neçə əsas məqama enir:

1. "İnsan kapitalı" insanın bilik, bacarıq, qabiliyyətinin köməyi ilə yaradılan əlavə gəlir mənbəyidir.
2. Təhsil kapital formalarından biri, iqtisadi artımı təmin edən ən mühüm amil və eyni zamanda, artımın ayrıca mənbəyi - institutlardan kənar, institusional mühitin subyektlərindən kənar.
3. Təhsil kapitalı, insandan ayrılmaz olduğuna görə, insan kapitalıdır.
4. Təhsil, kapital kimi, gələcək məmnunluq və (və ya) qazanc mənbəyidir.
5. İşçi qüvvəsinin keyfiyyət xüsusiyyətlərini yaxşılaşdırmaq üçün təhsilə əlavə investisiyalar lazımdır.
6. Təhsilə investisiya izafi məhsul yaradan istehsal amillərinə investisiyalardan biridir.

İnsan kapitalı nəzəriyyəsinin inkişafına və onun müxtəlif sosial hadisələri izah etmək üçün istifadə dairəsinin genişlənməsinə ən böyük töhfəni H.Bekker etmişdir. Baxmayaraq ki, bir çox tədqiqatçıların fikrincə, insan kapitalı ideyasının populyarlaşmasına əsas töhfə T.Şults tərəfindən verilmiş, bu nəzəriyyənin mikroiqtisadi əsaslarının inkişafı Bekkerin "İnsan kapitalı: nəzəri və empirik təhlil" *(Becker G.S. Human Capital: A Theoretical and Empirical Analysis. N.Y.:Columbia University Press for NBER, 1964)* fundamental əsərində verilmişdir. H.Bekkerin nəzəri araşdırmaları iqtisadiyyatda əsl inqilab etdi. Təklif etdiyi modellər klassiklər kimi şöhrət qazandı və sonrakı inkişaflar üçün əsas oldu.

Bir neçə nəşrdən sonra 1957-ci ildə onun doktorluq dissertasiyası əsasında "Ayrı-seçkiliyin iqtisadiyyatı" kitabı nəşr olundu *(Becker G.S. The Economics of Discrimination. Chicago: University of Chicago Press, 1957)*. Orada ilk dəfə olaraq sosial məsələlərin təhlilinə iqtisadi nəzəriyyənin sistemli şəkildə tətbiqinə cəhd göstərildi - H.Bekker sonrakı işlərində də bu metodu tətbiq edirdi. O, əmək bazarının rəqabət modelini ağ və qaradərili işçilər üçün qeyri-bərabər əmək haqqının müşahidə olunan faktları ilə uzlaşdırmağa çalışıb. Belə meylin mövcudluğu, şübhəsiz ki, bazar qiymətlərinin səviyyəsinə/strukturuna təsir edəcək və bu təsiri təhlil etmək üçün H.Bekker fərdi və bazar ayrı-seçkilik əmsallarını təqdim etmişdir.

1962-ci ildə nəşr olunan "İnsan kapitalına investisiya" kitabında Harri Bekker yazırdı ki, insan kapitalı insanlara sərmayə qoymaqla formalaşır. investisiyaların əsas sahələrini təhsil, iş yerində təlim, səhiyyə xərcləri, miqrasiya, qiymətlər və gəlirlər haqqında məlumatların axtarışı hesab edirdi *(Becker G. S. Investment in Human Capital: A. Theoretical Analysis // Journal of Politikal Economy. Supplement. Oct., 1962)*. Onun fikrincə, bu xərclər müxtəlif yollarla insanın məhsuldar qüvvəsinin, intellektual və mədəni potensialının inkişafına kömək edir.

Məlumdur ki, mənfəəti maksimuma çatdıran fərd və ya firma marjinal məhsul əmək haqqına bərabər olduqda tarazlıq vəziyyətində olur. Təlimin hər hansı formasına investisiya qoymaq indiki və gələcək xərclər və gəlir axınları arasındakı əlaqəni daha mürəkkəb edir. H.Bekker rəqabətli bazarda ümumi və ya xüsusi təlim keçirən firma üçün tarazlıq şərtini aşağıdakı kimi yazmışdır:

$$\mathbf{MPo + G = Wo + C}$$

harada: MPo - tələbələrin alternativ marjinal məhsulu,

G - təlimin qaytarılması ölçüsü,

Wo - tələbələrin bazar maaşı,

C - hazırlıq xərclərinin məbləği *(G. Becker "Human Behavior: An Economic Approach." Selected Works on Economic Theory).*

H.Bekker təhsilin iqtisadi səmərəliliyinin praktiki, statistik düzgün hesablamasını ilk dəfə həyata keçirmişdir. Ali təhsildən əldə olunan gəliri müəyyən etmək üçün, kolleci bitirənlərin ömürlük qazancından orta məktəbdən kənara çıxmayanların ömürlük qazanc çıxılır. Becker-in hesablamalarına görə, məlum oldu ki, ABŞ-da ali təhsilin gəlirliliyi 10-15% səviyyəsindədir ki, bu da əksər firmalar üçün gəlirlilik göstəricilərini üstələyir. Bu, onun tələbələrin və onların valideynlərinin davranışlarının rasionallığı haqqında fərziyyəsini təsdiqlədi *(Капелюшников Р.И. Экономический подход Гэри Беккера к человеческому поведению // США: экономика, политика, идеология. - 1993. - №11).*

1992-ci ildə Çikaqo Universitetinin İqtisadiyyat və Sosiologiya professoru H.Bekker mikroiqtisadi təhlilin əhatə dairəsini insan davranışının və qarşılıqlı əlaqəsinin bir sıra aspektlərinə genişləndirdiyinə görə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülüb.

Dünyanın bütün ölkələrində əmək haqqı əhalinin əksəriyyətinin əsas dolanışıq mənbəyidir. Bu, bizi əmək haqqının tənzimlənməsi sahəsində siyasətin işlənib hazırlanmasına və həyata keçirilməsinə, iqtisadiyyatın bütün sahələrində onun artırılması üçün əlverişli şəraitin təmin edilməsinə ciddi və məsuliyyətlə yanaşmağa məcbur edir.

Əməyin həvəsləndirilməsi - əmək səmərəliliyi və texnologiya tələblərinin müqayisəsi əsasında istehsalda iştiraka görə işçilərin mükafatlandırılması üsuludur. Ödəniş sistemi insanlarda inam və təhlükəsizlik hissi yaratmalı, təsirli stimullaşdırma və həvəsləndirmə vasitələrini özündə ehtiva etməlidir.

İnsan inkişafı sahəsində böyük uğurlara baxmayaraq, hələ də ciddi problemlər qalmaqdadır, xüsusilə inkişaf etməkdə olan ölkələrdə.

A. Bir çox ölkələr təhsil sahəsində böhran yaşayır ki, bu da onların iqtisadi inkişafını ləngidir. Məlumatlara görə, bəzi ölkələrdə uşaqların öyrənmə baxımından eyni vaxtda məktəbdə olmuş digər ölkələrdəki yaşıdlarından bir neçə il geri qaldılar.

B. İnkişaf etməkdə olan ölkələrdə insanlar hər il öz pullarından 500 milyard dolları səhiyyəyə xərcləyirlər, ən ağır yük isə ən yoxsul insanların üzərinə düşür.

C. Bəzi ölkələrin əhalisi lazım olan sanitar-gigiyenik şəraitin və təmiz içməli suyun olmamasından əziyyət çəkir.

Dünya Bankı Qrupu tərəfindən 2018-ci ilin oktyabrında dərc edilən və 2020-ci ildə yenilənən İnsan Kapitalı İndeksinin (İKİ) ilk nəşrinə görə, bu gün doğulan uşaqların təxminən 60%-i, ən yaxşı halda, tam təhsil və tam sağlamlıqla əldə edə biləcəklərinin yarısına malik ola bilərlər. Bu, insan kapitalında dərin böhrandan xəbər verir və iqtisadi artıma və qlobal birliyin 2030-cu ilə qədər ifrat yoxsulluğa kollektiv şəkildə son qoymaq qabiliyyətinə ciddi təsir göstərə bilər.

Texnologiya, demoqrafik, qeyri-sabitlik və iqlimdəki sürətli qlobal dəyişikliklər fonunda insan kapitalı defisiti təhlükəli şəkildə artır.

Qlobal pandemiya insan inkişafının və iqtisadiyyatın bütün sahələrinə böyük təsir göstərmişdir.

A. Uşaqların əksəriyyəti - 1 milyarddan çox insan Kovid-19 səbəbiylə məktəbdən kənarda qalıb.

B. Öyrənmə səviyyəsinin aşağı düşməsi, məktəblərin bağlanması və ya məktəbi tərk etmə riski sayəsində bu tələbə kontingenti ömür boyu 10 trilyon dollar qazanc itirə bilər.

C .Aşağı və orta gəlirli ölkələrdən ən vacib səhiyyə xidmətlərində ciddi pozuntular bildirilir.

Əgər təcili tədbirlər görülməsə, səhiyyə, təhsil və təlim sahələrdə pandemiyanın yaratdığı situasiyanın pisləşməsi gələcəkdə bütün ölkələrin iqtisadiyyatının və rifahını bərpasını şübhə altına ala bilər. Dünya iqtisadiyyatının bu cür pisləşməsinin qarşısını almaq üçün hansı tədbirlər görülür?

Bildiyiniz kimi, bir çox ölkələrdə videozəng və ya audio zəng vasitəsilə ünsiyyət qurmaq imkanı olan proqramlardan istifadə edərək distant təhsil yer tuturdu. İnternetə çıxışı məhdud olan ərazilərdə hökumətlər distant təhsilin daha ənənəvi üsullarından istifadə edirdilər, radio və televiziya kimi. Bu, əlbəttə ki, canlı tədrisi əvəz etmədi, lakin yaxşı alternativ idi.

Covid-19-a yoluxma hallarının artmasını dayandırmaq üçün səhiyyə sahəsində tədbirlər görülüb, Məsələn, başqa ölkəyə uçmazdan əvvəl PCR testinin aparılması, peyvənd, karantin rejimi.

İlk peyvənd "Sputnik V" adlı rus peyvənd idi. Bu, 11 avqust 2020-ci ildə rəsmi qeydiyyata alınıb. Təhlükəsizliyi və effektivliyi The Lancet və Vaccines də daxil olmaqla böyük beynəlxalq elmi jurnallarda çoxsaylı nəşrlərlə təsdiq olunmuşdur. O, 5 il müddətinə mülki dövriyyəyə girməyə icazə alıb.

Çin və Amerika Birləşmiş Ştatlarında müvafiq olaraq hazırlanmış Sinovac və Pfizer peyvəndləri də geniş şəkildə istifadə olunmuşdur.

ÜST 1 iyun 2021-ci ildə Sinovac-ı təcili istifadə üçün təsdiqlədi. Pfizer peyvəndi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən 31 dekabr 2020-ci ildə təsdiqlənib. Planlar yaşlılar kimi ağırlaşma riski yüksək olanlara və səhiyyə işçiləri kimi infeksiya və ötürülmə riski yüksək olanlara üstünlük verir. Dünyada başqa Kovid-19 peyvəndləri var, lakin bu üçü ən çox istifadə olunanlardırlar.

İnsanlar üçün peyvəndin əhəmiyyəti çox böyükdür, çünki bu, əvvəlki vəziyyətə qayıtmağın yeganə yoludur. Dünyada koronavirusa yoluxanların sayı azalır, lakin bu, pandemiyanın bitdiyi demək deyil; bu arada qeyd edə bilərik ki, bəzi ölkələrdə vəziyyət əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşıb, məsələn, Amerika Birləşmiş Ştatlarının prezidenti J.Bayden ABŞ-da pandemiyanın bitdiyini söylədi. Bir çox başqa ölkələrdə belə bir vəziyyət müşahidə olunarsa, əminliklə deyə bilərik ki, dünya çox tezliklə əvvəlki vəziyyətinə qayıdacaq və bu, müvafiq olaraq, pandemiya zamanı itirilmiş gücü bərpa etmək üçün insan kapitalının inkişafının davam edəcəyinə və əvvəlki illərdəkindən daha intensiv olacağına inanmaq üçün əsasdır.

Əvvəlki insan kapitalı qazanımlarını qorumaq və genişləndirmək üçün ölkələr təcrid olunmuş icmalar arasında səhiyyə xidmətinin əhatə dairəsini və keyfiyyətini genişləndirməli, öyrənmə nəticələrini artırmalı və COVID-19 böhranının miqyasına uyğunlaşdırılmış sosial müdafiə tədbirləri ilə həssas ailələrə dəstək verməlidir. Səhiyyə, təhsil və sosial müdafiə sahələrində iddialı, sübuta əsaslanan siyasət tədbirləri itirilmişi bərpa edə və bugünkü uşaqların özlərindən əvvəlki nəsillərin insan kapitalı nailiyyətlərini və həyat keyfiyyətini üstələməsinə yol aça bilər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Becker G.S. The Economics of Discrimination. Chicago: University of Chicago Press, 1957.
2. Becker G. S. Investment in Human Capital: A. Theoretical Analysis // Journal of Politikal Economy. Supplement. Oct., 1962.
3. Becker G.S. Human Capital: A Theoretical and Empirical Analysis. N.Y.:Columbia University Press for NBER, 1964.
4. Schultz T. Capital Formation by Education // Journal of Political Economy. 1960, Vol.68.
5. Schultz T. Investment in Human Capital // The American Economic Review. March 1961, №1.
6. G. Becker "Human Behavior: An Economic Approach." Selected Works on Economic Theory.
7. Капелюшников Р.И. Экономический подход Гэри Беккера к человеческому поведению // США: экономика, политика, идеология. - 1993. - №11.
8. Маркс К. К критике политической экономии /1859.
9. Петти В. Экономические и статистические работы /1940.
10. Смит А. Исследование о природе и причинах богатства народов /1776.

# İNSAN KAPİTALI:PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ, PERSPEKTİVLƏR

***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Məmmədova Sevinc Adil qızı***
***Elmi rəhbər:dos. M.Mirzəyeva***

***Xülasə***

İşçilərin təcrübə və baracarıqlarının iqtisadi dəyərini ifadə edən insan kapitalı şirkət balansında qeyd olunmayan qeyri-maddi aktivdir. İnsan kapitalının inkişafı üçün bütün ölkələr kimi Azərbaycan da bir sıra islahatlar, tədbirlər, müsabiqələr keçirmişdir və keçirməkdədir. Bu islahatlar bir sıra problemləri həll etməklə yanaşı həmçinin təhsilin keyfiyyətinin yüksəlməsinə üçün şirkətlərin dünya bazarına inteqrasiya üçün çox vacibdir. Beləliklə Azərbaycanda insan kapitalın inkişafı Azərbaycan iqtisadiyyatının yüksəlişinə və şirkətlərin dünya bazarına inteqrasiyasına təkan verir.
***Açar sözlər:*** *insan kapitalı, problemlər, təhsil, yenilik, sosial siyasət.*

***Summary***

Human capital, which represents the economic value of employees' experience and skills, is an intangible asset that is not recorded on the company's balance sheet. Azerbaijan, like all countries, has conducted and is conducting a number of reforms, events, and competitions for the development of human capital. In addition to solving a number of problems, these reforms are also very important for the integration of companies into the world market for the improvement of the quality of education. Thus, the development of human capital in Azerbaijan promotes the growth of the economy of Azerbaijan and the integration of companies into the world market.
***Key words:*** *human capital, problems, education, innovation, social policy.*

İnsan kapitalı termini işçinin təcrübə və bacarıqlarının iqtisadi dəyərini ifadə edir. İnsan kapitalına təhsil, təlim, kəşfiyyat, bacarıqlar, sağlamlıq kimi aktivlər və işəgötürənlərin sədaqət və punktuallıq kimi dəyər verdiyi digər şeylər daxildir. Beləliklə, o, şirkətin balansında qeyd olunmayan (və ola da bilməz) qeyri-maddi aktiv və ya keyfiyyətdir. İnsan kapitalı məhsuldarlığı və beləliklə də gəlirliliyi artırmaq üçün qəbul edilir. Şirkət işçilərinə nə qədər çox sərmayə qoyarsa, onun məhsuldarlığı və uğur qazanma şansı artır.

- İnsan kapitalı şirkətin balansında qeyd olunmayan qeyri-maddi aktivdir.
- İnsan kapitalının işçinin təcrübə və bacarıqları kimi keyfiyyətləri ehtiva etdiyi deyilir.
- Bütün əmək bərabər hesab olunmadığından, işəgötürənlər öz işçilərinin təliminə, təhsilinə və faydalarına investisiya qoymaqla insan kapitalını təkmilləşdirə bilərlər.
- İnsan kapitalının iqtisadi artım, məhsuldarlıq və gəlirlilik ilə əlaqəsi olduğu qəbul edilir.

Hər hansı digər aktiv kimi, insan kapitalı da uzun müddət davam edən işsizlik, texnologiya və innovasiyalarla ayaqlaşa bilməməsi nəticəsində dəyər itirmək qabiliyyətinə malikdir*(https://www.investopedia.com/terms/h/humancapital.asp#:~:text=Human%20capital%20allows%20an%20economy,which%20contribute%20to%20economic%20growth).*

Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı. Dövlət Proqramında qeyd olunmuşdur ki, əsas prioritet kimi ölkədə insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin təmin edilməsi məqsədilə əhalinin, xüsusilə də, sosial cəhətdən həssas qrupların mənzil şəraitinin yaxşılaşdırılması və bu sahənin inkişafı həyata keçirilməlidir. İlk əvvəl sosial inkişaf anlayışını mahiyyətini açıqlayaq. Sosial inkişaf cəmiyyətdəki hər bir fərdin rifahının yüksəldilməsi vasitəsilə öz potensiallarından tam istifadə edə biləcək səviyyəyə çatdırılmasıdır. Cəmiyyətin uğuru hər bir fərdin rifahının yüksəldilməsi ilə bağlıdır. Sosial inkişaf anlayışı mahiyyət etibarilə insanlara investisiya qoyulması deməkdir. Azərbaycan dünyada artan rəqabətə uyğun insan kapitalı formalaşdırmaqla rifaha nail olmağı prioritet kimi müəyyən edib. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafi üçün əlverişli infrastrukturun formalaşdırılması istiqamətində fəal iş aparılır. Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye

İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Mərkəzinin yaradılması da ölkəmizi yeni texnoloji rəqabət mühitində önə çıxarmaq məqsədindən irəli gəlir.

Bununla yanaşı, idarəetmə sahəsində daim təkmilləşmə və effektivlilik əsas götürülərək insan kapitalının, kadr potensialının formalaşması, bacarıqlı kadrların önə çıxarılması məqsədilə də yeni layihələr həyata keçirməkdədir. Məsələn, "Yüksəliş" müsabiqəsi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri, yeni dövrə uyğun bilik və vərdişləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr bankının yaradılmasını təmin etmək məqsədilə atılmış mühüm addımdır. Bununla yanaşı, İqtisadiyyat Nazirliyində yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialdan səmərəli istifadə, peşəkarlıq səviyyəsinin artırılması, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsində "Uğur yolu" karyera inkişaf proqramının həyata keçirilməsi xüsusi önəm kəsb edir.

İnsan kapitalı biznesin əsasını təşkil etsə də, onu biznes üçün məsuliyyətə çevirən problemlər var. Problemlərə aşağıdakılar daxildir:

- Zəif performans idarəetməsi - performansın idarə edilməsi hər hansı bir işin uğuru üçün çox vacibdir. Zəif performans idarəetməsi tez-tez işçilər bir məqsədi paylaşmadıqda və rəhbərlik performansı artırmaq üçün strategiyaları qəbul etmədikdə baş verir. Bu, insan kapitalını biznes qarşısında böyük öhdəlik yarada biləcək böyük problemdir.
- İşçilərin analitikasından zəif istifadə - işçi qüvvəsinin təhlili təşkilatın uğurunda mühüm amildir. Bir işçinin təhlili sayəsində potensialı azalan sahələrə nəzarət etmək və investisiya etmək daha asan olur. Bununla belə, işçilərin analitikasından zəif istifadə problemlərə səbəb ola bilər.
- Təşkilati dəyişikliklərin düzgün idarə olunmaması - təşkilati dəyişikliyi qabaqcadan görmək və düzgün tənzimləmələr etmək çox vacibdir. HCM gələcəyi düşünməli və dəyişiklikləri gözləməlidir. Yeniliklərdən xəbərdar olmaq, HCM-nin səhv idarəçiliyinin heç vaxt baş verməməsini təmin etmək üçün açardır.
- Strateji işçi qüvvəsinin planlaşdırılmasının olmaması HCM biznes daxilində hər şeyə - gözünün olmasını təmin etməlidir. Strateji planlaşdırma o deməkdir ki, problemləri qabaqcadan görən və bununla da fövqəladə hallar planları hazırlayan insanlar var. HCM sənayedəki dəyişiklikləri və çətinlikləri gözləməlidir.
- Həll edilməmiş məsələlərin və problemlərin dəyəri hər bir problem və ya problem, nə qədər kiçik olursa olsun, qarşısı alınacaq planları olan HCM-ni tapmalıdır. Problemləri həllsiz qoymaq qarşıda daha çox problemə səbəb ola bilər. Buna görə də, həlli çətinləşən kiçik problemlərin qarşısını almaq üçün HCM-nin hər zaman daha böyük mənzərəni nəzərdən keçirməsi *(https://www.techfunnel.com/hr-tech/human-capital-management-guide/)*

Sosial siyasətin xarakteri və məzmunu sosial proseslərin idarə edilməsinə dövlətin müdaxilə etməsi səviyyəsindən də asılıdır. Bu baxımdan inkişaf etmiş ölkələrdə dövlətin hal-hazırda bütün mövcud olan sosial siyasət növlərini iki qrupa bölmək olar.

Birinci qrupu şərti olaraq qalıq prinsiplərinə əsaslanan sosial siyasət adlandırmaq olar. Bu halda sosial siyasət bazarın sosial səviyyədə tam həyata keçirə bilmədiyi funksiyaları həyata keçirir. Bu öz miqyası və əhatə dairəsinə görə məhdud sosial siyasət olub, əsasən passiv və kompensasiyalaşdırıcı (bərpaedici) xarakter daşıyır. Belə sosial nəzarətin sosial əsasları liberal bazar iqtisadiyyatı modelinin ideyaları əsasında formalaşır. Bu variantın tipik nümunəsi bazarın amerikan modeli ola bilər.

İkinci qrup – instututsial sosial siyasət adlanır. Burada dövlətin sosial siyasəti əhalinin sosial xidmətlərlə təmin olunmasında mühüm rol oynayır və xüsusi instutlar sisteminə nisbətən daha səmərəli vasitə kimi çıxış edir. Bu, yenidən bölgü siyasətidir. Belə siyasətin formalaşmasında konseptual baxımdan sosial-demoqratik ideyalogiyanın böyük təsiri vardır. Hər iki qrup arasında fərq bu və ya digər amillərin hansının olub-olmasında deyil, onlar arasında mövcud olan nisbətlərdən, dövlətin sosial sahəyə müdaxiləsi və yenidən bölgü prosesində iştirakından asılıdır.

Bütün bazar iqtisadiyyatı ölkələrində sosial siyasət bu iki qrup arasında yerləşir. Skandinav ölkələrində sosial siyasəti əsasən sosial – demokratik modeli olsa da, bu ölkələrdə dövlətin sosial siyasətində liberal elementlərdəndə istifadə edilir. Dövlətin sosial siyasəti-üzvi surətdə uzlaşan aspektlərə (iqtisadi, ekoloji, hüquqi, psixoloji, mədəni və s.) malik olan mürəkkəb strukturlu bir anlayışdır. Siyasətin işlənib hazırlanması bütün aspektlərin həm kompleks şəklində həm də ayrı-ayrılıqda təhlilini tutur. Dövlət siyasəti aşağıdakıların mövcüdluğunu nəzərdə tutur.

1. İctimaiyyət tərəfindən dəsdəklənən sosial doktiranı;
2. Konstusiya və qanunvericilikdə müəyyən edilmiş aktlar;
3. Dövlət sosial öhdəliklərinin bilavasitə icrası resursları;
4. Monitorinq və təşkilati nəzarət;
5. Dövlətin sosial öhdəliklərinin icrasının təşkilinin mexanizmləri.

Müasir dövrdə dünya ölkələrinin inkişaf səviyyəsinin fərqli olması məhz insan kapitalının inkişaf səviyyəsi və insan kapitalının yığım norması ilə fərqlənir. Bunu sivilizasiyanın inkişafının və inkişaf etmiş ölkələrin inkişafının empirik tədqiqi və tarixi təcrübəsi göstərir. İqtisadi ədəbiyyatlarda inkişaf etmiş ölkələrin müasir innovativ inkişafını alim-iqtisadçılar inkişafın əvvəlki mərhələlərində intellektual dəyərlərin inkişafına yönələn sərmayələrin qoyulmasının, insan kapitalının yığımının və innovasiya fəaliyyətinin nəticəsi hesab edirlər. Onlar göstərirlər ki, inkişaf etmiş ölkələr xammal-resurs iqtisadiyyatından innovasiya yönümlü iqtisadiyyata insan kapitalının inkişafı sayəsində keçə bilmişlər. Müasir dövrdə güclü inkişafa stimul verən yenə də insan kapitalıdır, ABŞ və aparıcı Avropa ölkələri inkişaflarını insan kapitalı nəzəriyyəsi əsasında müvəffəqiyyətlə təkmilləşdirirlər və özlərinin rəqabətqabiliyyətli milli iqtisadiyyatlarını yaratmağa nail ola bilirlər. Bu ölkələrdə milli sərvətin əsas hissəsini insan kapitalı müəyyən edir. Dünya bankının mütəxəssislərinin hesablamalarına görə bu ölkələrin milli insan kapitalı onların milli sərvətinin 70- 80%-dən çoxunu təşkil edir. Onlar milli büdcələrindən insan kapitalına digər və inkişaf etməkdə olan ölkələrlə müqayisədə 2, 5-3 dəfədən çox vəsait yönəldirlər. Bütün bunlar onu göstərir ki, iqtisadi inkişafda həlledici rolu təbii resurslar, sənaye kapitalı və ümumiyyətlə əmək deyil, yüksək məhsuldarlığa malik olan, intellektual və yaradıcı əməyi formalaşdıran insan kapitalı oynayır. Göründüyü kimi onlarda milli sərvət torpaq rentası və sənaye mənfəəti hesabına deyil, intellektual renta hesabına formalaşır. Deməli müasir iqtisadi inkişafın zəruri şərti xammal və industrial iqtisadiyyat deyil, insan kapitalını formalaşdıran sosial sahələrə, onların institutlarına vəsait qoyuluşuna üstünlük verilməsidir. Mənimsəmə xarakteri daşıyan xammal iqtisadiyyatı industrial və innovativ iqtisadiyyatla müqayisədə sərvət yaradan və onu çoxaldan iqtisadiyyat deyil, o yalnız təbii sərvətləri dəyərə çevirib, onu tükəndirir. Yüksək inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, onlarda iqtisadi inkişafın əsası daha məhsuldar insan kapitalı olmuşdur. İqtisadi cəhətdən inkişaf etmiş ABŞ və aparıcı Avropa ölkələrində son onilliklərdə insan kapitalına sərmayə qoyuluşu fiziki kapitala sərmayə qoyuluşunu əhəmiyyətli dərəcədə üstələmişdir. Mütəxəssislərin hesablamalarına görə, sərmayələrin 70% insan kapitalına, 30% isə fiziki kapitala yönəlmişdir. İnsan kapitalına yönələn vəsaitlər əsasən dövlət vəsaitləri hesabına formalaşır. Bu göstərir ki, müasirlik baxımından bir çox ölkələrin zəif inkişafının və onların sosial-iqtisadi inkişafının geri qalmasının əsas səbəbi insan kapitalının keyfiyyətinin aşağı olması, onun zəif inkişaf etməsi və innovativ fəaliyyət üçün əlverişli mühitin olmamasıdır.

Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçirilən islahatların tərkib hissəsi kimi insan kapitalının inkişafında fasiləzisliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və bütün iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər davam etdirilir. Bu, iki səviyyədə birincisi, insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, ikincisi, əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması yolu ilə aparılır.

Dünya İqtisadi Forumunun 2015-ci il üçün açıqladığı "İnsan kapitalının indeksi" hesabatında Azərbaycan 124 ölkə arasında orta sıralarda (63-cü yerdə) qərarlaşmaqla Türkiyə, Çin, İndoneziya və Küveyt kimi ölkələri qabaqlamışdır. Təşkilatın 2016-2017-ci illər üçün açıqladığı Qlobal Rəqabətlilik Hesabatında isə ölkəmiz 138 ölkə arasında 37-ci olmuşdur. Bu, Azərbaycanın

formalaşmış insan kapitalına və rəqabət qabiliyyətini yüksəltmək imkanlarına malik olduğunu göstərir. Həmin imkanlardan səmərəli istifadə etməklə qısa və orta müddətli perspektivdə ölkəmizdə insan kapitalını daha da inkişaf etdirmək və rəqabət qabiliyyətini artırmaq mümkündür.

Ötən illər ərzində Azərbaycanda insan kapitalının inkişafı ilə bağlı bir sıra tədbirlər müəyyən edilərək icra olunmuşdur. Hazırda da icra edilən bir çox strategiya, dövlət proqramları və konsepsiyalarda insan kapitalının inkişafı önə çəkilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda insan kapitalının inkişafı, eləcə də bilik və innovasiyalara əsaslanan inkişaf prioritet təşkil edir.

Azərbaycanda insan kapitalının və qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın diversifikasiyası istiqamətində islahatlar aparılır. Həmin islahatların davam etdirilməsi orta və uzunmüddətli dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsi, infrastrukturun və "elm-təhsil-istehsal" əlaqələrinin çevik idarəetmə mexanizminin qurulması, eləcə də şirkətlərin qlobal dəyər zəncirinə qoşulmaqla dünya bazarlarına inteqrasiyası üçün əhəmiyyətlidir.

Daha keyfiyyətli insan kapitalının formalaşdırılması daha çox maddi-mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verir. Ali təhsil insan kapitalının formalaşmasında və inkişafında mühüm mərhələ hesab olunur. Onun insan kapitalının formalaşması və inkişafına təsiri özünü iki şəkildə büruzə verir: insan kapitalının formalaşmasında birbaşa iştirak edən ixtisaslı mütəxəssislərin hazırlanması və yeni biliklərin yaranmasında, tətbiqində, eləcə də ötürülməsində birbaşa iştirak. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanda yaxın və uzaq gələcəkdə də insan kapitalının inkişafı diqqət mərkəzində olacaqdır *(https://az.strategiya.az/news.php?id=125909).*

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1.https://www.investopedia.com/terms/h/humancapital.asp#:~:text=Human%20capital%20allows%20an%20economy,which%20contribute%20to%20economic%20growth.
2.https://www.techfunnel.com/hr-tech/human-capital-management-guide/
3. https://az.strategiya.az/news.php?id=125909

# MALİYYƏ BÖLMƏSİ

## AZƏRBAYCANDA İNSAN KAPİTALININ İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN MAKROİQTİSADİ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

*Bakı Avrasiya Universteti*
***Hüseynli Bəhruz Akif oğlu, magistrant***
***Elmi rəhbər: i.ü.f.d. Ə.A.Hüseynov***

***Xülasə***

İnsan kapitalının mövcud vəziyyətinin təhlili göstərdi ki, bu gün Azərbaycanda insan kapitalının inkişafı ilə bağlı çoxlu problemlər yığılıb. Bir çox müasir elmi nəşrlərin təhlili göstərir ki, ölkəmiz inkişafın iqtisadi modelinin dəyişdirilməsi zərurətini dərk edərək bir sıra addımlar atmaqdadır.İlk növbədə, iqtisadiyyatın xammal sürücüsündən innovativ amillərə istiqamətlənmək lazımdır ki, bu da səmərəli milli insan kapitalının yığılmasını təmin edəcək. Bunun üçün makro və mikro səviyyələrdə insan kapitalının idarə edilməsi sisteminin yaradılması üzrə tədbirlər kompleksinin işlənib hazırlanması və həyata keçirilməsi zəruridir.
***Açar sözlər:****insan kapitalı, iqtisadiyyat, innovasiya.*

***Summary***

The analysis of the current state of human capital showed that many problems related to the development of human capital have accumulated in Azerbaijan today. The analysis of many modern scientific publications shows that our country is taking a number of steps realizing the need to change the economic model of development. First of all, it is necessary to shift from the raw material driver of the economy to innovative factors, which will ensure the accumulation of efficient national human capital. For this, it is necessary to develop and implement a set of measures to create a human capital management system at the macro and micro levels.
***Keywords:*** *human capital, economy, innovation.*

İnsan kapitalı, insanın öyrənmə, işləmə müddətində əldə etdiyi bilik və bacarıqları təmsil edir və hansısa kapital növü kimi toplama qabiliyyətinə malikdir. Bir qayda olaraq fiziki kapitalın yığılması, 1-5 il davam edirsə, insan kapitalının toplanması prosesi - 12-20 ildir. İnsan kapitalının formalaşması insanın özündən, işəgötürəndən və bütövlükdə cəmiyyətdən ilkin xərcləri tələb edir.

Dövlət və bələdiyyə işçilərinin sosial və peşə qrupunun insan kapitalını formalaşdırmağın əsas yolu ali təhsil müəssisələrində təhsil almaqdır, çünki peşəkar sosiallaşmanın əsas sosial institutu olan universitetlərdir.

Hazırda Azərbaycanda və dünyada müasir iqtisadiyyatın ən vacib sosial-mədəni amili olan insan kapitalının formalaşmasına, gücləndirilməsinə, inkişafına xüsusi diqqətlə yanaşılır. Bu gün Azərbaycan reytinqdə 78-ci yerdədir. Bu mənada ölkəmizdə aparılan sosial-iqtisadi islahatlar Azərbaycan vətəndaşının hər birinin rifah halının yaxşılaşdırılmasınayönləndirilmişdir. Prezident İlham Əliyevə görə insan amili, ölkə vətəndaşlarının sosial-iqtisadi rifahının yaxşılaşdırılması və ölkənin yüksək inkişaf etmiş ölkələrə daxil olması çoxtərəfli islahatların əsas hədəfləridir. Bu baxımdan ölkə Prezidenti dəfələrlə qeyd etmişdir ki, Azərbaycan hökumətinin yürütdüyü siyasətin əsas məqsədi neft hasilatını artırmaq, qara qızılı insan kapitalına çevirməkdir: Biz öz neftimizi, qara qızılımızı insan kapitalı, fəal siyasətimiz və enerji strategiyamız nəticəsində siyasi və iqtisadi islahatlar sahəsində son üç ildə iqtisadi böyüməni 96%-ə çatdırmağı bacardıq. Bu dövr ərzində iqtisadi islahatlar siyasəti və enerji strategiyası sayəsində dünyanın ən sürətli böyüyən iqtisadiyyatı olduq *(https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan-2/).*

Dünya Bankının Dəyişən Millətlər Sərvəti hesabatına görə insan kapitalı qlobal sərvətin 64%, yüksək gəlirli ölkələrdə 70% və aşağı gəlirli ölkələrdə 41% -ni, Azərbaycanın sərvətinin isə yalnız 14%-ni təşkil edir bu da aşağı gəlirli ölkələrə nisbətən üç dəfə azdır *(https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan-2/).*

Azərbaycanda idarə oluna bilən maliyyə tərəqqisinə mane olan məsələləri tanımaq üçün bolluğun təşkilində insan resurslarının kiçik hissəsinin arxasında duran izahatları ayırd etmək və insan resurslarının inkişafına təsir edən regionlarda baş verənləri qiymətləndirmək vacibdir.

Azərbaycanda zəngin inkişafın 54%-i adi aktivlər, 23,6%-i faktiki kapital, 14%-i insan resursları, 8,4%-i xalis qeyri-məlum resurslardır. Bol inkişafda insan resurslarının payı hesabatda ən çox azalanlardan biri olsa da, tam zənginlikdə normal aktivlərin payına görə planetdə on altıncı yerdədir. Elan edilən müddət ərzində (2010-2014) adi aktivlərdən əldə edilən gəlirlər bütün dövlət gəlirlərinin təxminən 80%-ni təşkil edirdi *(https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan-2/).*

İnsan resursları fərdlərin bütün həyatları boyu topladıqları və faydalı vətəndaş kimi həqiqi bacarıqlarının etirafına zəmanət verdikləri məlumat, qabiliyyət və rifahdan ibarətdir. Qidalanma, rifah, keyfiyyətli təhsil, mövqe və qabiliyyətlərə maraq daha əhatəli sosial sifarişlərin qurulması üçün əsas olan insan resurslarının təkmilləşdirilməsinə əlavə olunur. Bu tədqiqat Azərbaycanda insan resurslarının vəziyyətini və dövlət orqanının üç regionda insan resurslarını inkişaf etdirmək səylərini qiymətləndirir: təlim, rifah və sosial təminat və iş. Qiymətləndirmə insan resurslarının təşkilini inkişaf etdirən və qarşısını alan amilləri tanıyır *(Amin, S., 2017:102).*

Təlim: Tədqiqatlar göstərir ki, Azərbaycanda məktəbdə təhsilin keyfiyyəti və əhəmiyyəti gözləniləndən aşağıdır və bu, öyrədici fərqlərə malikdir. 2016-cı ildə aparılmış PIRLS icmalının nəticələrinə əsasən, Azərbaycanda bütün Avropa və Mərkəzi Asiya (AMA) ölkələrində yüksək və aşağı bal toplayanlar arasında ən böyük ziddiyyət mövcuddur. İcmalda göstərildiyi kimi, zəngin ailələrdən olan təhsilsizlər 700 ballıq şkala üzrə bədbəxt ailələrdən olan təhsilsizlərdən 96 bal toplayıblar. (Bu fərq üç elmi ildə qiymətləndirilir.) Böyükşəhər bölgələrində diqqəti cəmləşdirən təhsildən kənar tələbələrin balları ölkə regionlarında cəmləşənlərdən 48 fokus yüksək olmuşdur. Azərbaycanın məktəbəqədər təhsil və qabaqcıl təhsillə məşğul olan qonşu ölkələr arasında ən aşağı göstəricilərdən birinə sahib olması çox vacibdir.

Bu, yerli, eləcə də dünya normasından təxminən iki dəfə çoxdur. Dövlət orqanının "AR-da kadr hazırlığının inkişafı və Dövlət Strategiyası" hesabatında da kollec məzunlarının təşkili iqtisadiyyatın problemlərini həll etmədiyi, konfidensial sahədə istedadlı kadrların çatışmadığı bildirilir.

Bakı və rayonlar arasında məktəbəqədər hazırlıq sahəsində dəlik daha qabarıqdır. Bakıda 6 yaşından kiçik 200 000 gəncin 46 000-i və ya təxminən 23 %-i məktəbəqədər hazırlıqla, müxtəlif yerlərdə isə 6 yaşından kiçik 720 000 uşağın 73 000-i və ya təxminən 10 %-i məktəbəqədər təhsillə məşğuldur. Sonradan rayonlarda məktəbəqədər təhsilin səviyyəsi paytaxt Bakı ilə müqayisədə iki dəfədən çox aşağıdır *(https://www.stat.gov.az/source/demoqraphy/ap/).*

**Şəkil 1. Təhsil səviyyəsinə görə təhsilə xalis cəlb olunma səviyyələri**




Mənbə: Dünya Bankının inkişaf indikatorları

Azərbaycanın İnsan İnkişafı İndeksindəki təhsil baxımından digər bir zəifliyi bir çox digər ölkələrdə tədqiqat və innovasiyanı stimullaşdıran ali təhsil müəssisələri ilə iqtisadiyyat arasında güclü əlaqələrin olmamasıdır. Azərbaycanın ali təhsil müəssisələrinin sahibkarlığı və biznesin inkişafını stimullaşdırmaq üçün potensialları çox azdır. Bu araşdırmaya görə, bu vəziyyətin səbəblərindən biri də Azərbaycanın tədqiqat və inkişafa eyni əhali sayına görə digər ölkələrdən

daha az xərcləməsidir. Azərbaycan ÜDM-nin yalnız 0,2 faizini tədqiqat və inkişafa xərcləyir. Digər tərəfdən, məhdud rəqabətli maliyyələşdirmə imkanları sektorun inkişafına mane olan amillərdəndir.

Səhiyyə: Araşdırmada Azərbaycanda səhiyyə xərclərinin 78,6% -nin əhali tərəfindən cibindən ödənildiyi müəyyən edilmişdir. Lakin Dünya Səhiyyə Təşkilatı (ÜST) bu rəqəmin 20% ilə məhdudlaşdırılmasını tövsiyə edir. Səhiyyə sistemində effektiv idarəetmə sisteminin qurulması və xəstəliklərin erkən aşkarlanması üçün şərait yaradılması yalnız səhiyyə nəticələrinin yaxşılaşdırılmasına deyil, həm də dövlət xərclərinin azaldılmasına mühüm töhfə verə bilər.

**Şəkil 2. Ümumi səhiyyə xərcləmələrində əhalinin öz vəsaitlərinin payı (%)**




Mənbə: ÜST Qlobal Səhiyyə Xərclərinin Məlumat Bazası, 2019.

Təhsildə olduğu kimi, sağlamlıq göstəricilərində gəlir səviyyəsindən asılı olaraq fərqlər var. Ən varlı ailələrin 20% -i arasında uşaqların yalnız 16% -i inkişafdan qalmışdı, lakin ən yoxsul 20% -i arasında bu rəqəm 33% -dir.

Gəlir səviyyəsi ilə yanaşı, Bakı ilə bölgələr arasında tibbi xidmətlərin keyfiyyətində ciddi fərqlər mövcuddur. Hər 10.000 nəfərə düşən ixtisaslı həkimlərin sayı Bakıda 92 olsa da, bölgələrdə bu rəqəm 20-dən az və ya paytaxtdan beş qat daha azdır (bir neçə şəhər və Qazax və Bərdə bölgələri xaricində).

Sosial müdafiə və əmək: Tədqiqat Azərbaycandakı sosial müdafiə və əməyi qiymətləndirərək deyir: "2000-ci illərin əvvəllərindən etibarən Azərbaycan yüksək iqtisadi artım templəri, artan məşğulluq və pensiya köçürmələri nəticəsində yoxsulluğun azaldılması istiqamətində əlamətdar addımlar atdı. Bununla birlikdə, sosial müdafiə və əmək sahəsində siyasət məsələləri Azərbaycanın böyümə potensialını məhdudlaşdırır.

İnsan kapitalının (İK) inkişafına təsir potensialı olan sahələrdə uğur əldə etmək üçün konkret sahələrdə müxtəlif siyasət və təşviq mexanizmləri və təkliflər təklif edilə bilər. Lakin Azərbaycanda insan kapitalının durumu ilə bağlı aparılan araşdırmaların nəticəsi göstərir ki, problemlərin çoxu fərqli sosial qruplar və bölgələr arasındakı ciddi sosial-iqtisadi bərabərsizliklərdən qaynaqlanır *(Carnoy, M. 2021: 106).*

Azərbaycanda insan kapitalına təsir göstərən sahələrdə irəliləyiş üçün atılmalı olan ən vacib addımlar iqtisadi və sair, kiçik, orta sahibkarlıq üçün sərbəst idxal-ixrac əməliyyatlarının dəstəklənməsi, sərbəst fəaliyyət imkanları və maliyyə imkanlarının genişləndirilməsi və mütərəqqi vergi sistemi, inzibati müdaxilələrin azaldılması, həmçinin kölgə iqtisadiyyatının leqallaşdırılması, ümumiyyətlə iqtisadi azadlıqların artırılması və rəqabətə davamlı iqtisadi mühitin yaradılması kimi institusional tədbirlər. Hər kəsin ticarətlə məşğul olmasına imkan verməklə kiçik bir imtiyazlı qrupun inhisarından qaçmaq, eyni zamanda işçilərin rəqabət şəraitində ədalətli əmək haqqı almasına şərait yaratmaq mümkündür *(Althusser.L. 2019: 201).*

Son illərdə Azərbaycanda bölgələrin sosial və iqtisadi inkişafı üçün müəyyən proqramlar həyata keçirilsə də, iqtisadi gəlirlərin, dəyərin formalaşmasında Bakı ilə digər bölgələr arasında hələ də ciddi fərqlər mövcuddur. Keçən il Azərbaycanda əsas fondların 73% -i Abşeron yarımadasına gedib. Başqa sözlə, əsas kapitalın hər 4 AZN-dən 3-ü coğrafi baxımdan ölkənin 7% -inə sərf olunur.

İnsan kapitalının müxtəlif meyarlara görə çox sayda fərqli təsnifatı var, çünki fərqli iqtisadçılar ona fərqli bir quruluş vermiş və tətbiqetmənin müxtəlif səviyyələrində hesab etmişlər. Bu, ilk növbədə, alimlərin ictimai həyatın hansı sahəsində məşğul olduqlarını və insan kapitalı olaraq hansı aspektdə hesab etdiklərini öyrənməkdən asılıdır.

İnsan resursları hadisələrin maliyyə dönüşünün generatorudur. Həmçinin, iqtisadiyyatda insan resurslarının işi, məlumatların qəbulu və onun cəlbedici inkişafının əhəmiyyətli olduğu məlumat cəmiyyətinin təşkili ilə əlaqədardır. Bu gün istehsalın səmərəliliyi ilk növbədə işçilərin təşəbbüskarlığından asılıdır.Şirkətlər yalnız yaradıcı ideyalar sayəsində uğur qazan bilər, fikirlər və texnologiyalar irəliləməyə səbəb olar.

İnsan kapitalı davamlı böyümənin və yoxsulluğun azaldılmasının mərkəzi hərəkətvericisidir. Daha çox insan kapitalı insanlar üçün daha yüksək qazanc, ölkələr üçün daha yüksək gəlir və cəmiyyətlərdə daha güclü birləşmə ilə əlaqələndirilir. Son on ildə bir çox iqtisadiyyatda qazanılan insan kapitalının çox hissəsi COVID-19 (koronavirus) pandemiyası tərəfindən aşınma riski altındadır. Xüsusilə yoxsul və həssas insanlar arasında bu irəliləyişləri qorumaq üçün təcili hərəkətə ehtiyac var. Lazımi müdaxilələrin dizaynı, ən yüksək effektivliyə nail olmaq üçün onları hədəf alması və çətin qarşıdurmalardan keçmək insan kapitalının daha yaxşı ölçülməsinə investisiya qoymağı indidən daha vacib hala gətirir. İnsan Kapitalı İndeksi (İKİ), iqtisadiyyatlar arasında insan kapitalının əsas komponentlərini müqayisə edən beynəlxalq bir göstəricidir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Mehbalıyev S.S., İsgəndərov R.K. Əmək bazarı, məşğulluq və işsizliyin elmi-nəzəri əsasları. Bakı, 2001
2. Althusser.L. (2019). DevletinİdeolojisiveİdeolojikAygıtları, ÇevirenMahmutÖzishik, Yusuf Alp, İstanbul: İletişimYayınları.
3. Amin, S. (2017). EmperyalizmveEşitsizGelişme, ÇevirenSemihLim, İstanbul: KaynakYayınları
4. Carnoy, M. (2015). Education and Population Quality, International Encyclopedia of the Economics of Education, İkinci Baskı, Martin Carnoy (Editör), Bergama, s. 125-129.
5. Carnoy, M. (2021). Eğitim Ekonomisi, O Zaman ve Şimdi, Eğitim Ekonomisi - Çalışmalar ve Araştırma, George Psacharopoulos (ed.), Bergama, s. 1-7.
6. Erkan F. (2018). Eğitim ve Kapitalizm: Neoliberal Eğitim Ekonomisinin Eleştirisi, Ankara: Bilim Yayınları.
7. https://banco.az/az/news/iqtisadi-azadliq-indeksi-2020-ci-il-hesabatina-gore-azerbaycan-16-pille-irelileyib
8. https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan-2/
9. https://www.stat.gov.az/source/demoqraphy/ap/

# MÜASİR ŞƏRAİTDƏ VERGİ NƏZARƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

***Azərbaycan Universiteti***
***Müslümov Əfqan Nəriman oğlu, magistrant***
***Elmi rəhbər: dos. T.Ə.Sadıqov***

***Xülasə***

Məqalədə əvvəlcə, vergi nəzarətinə dövlətin idarəetməsinin ən vacib funksiyalarından biri kimi aydınlıq gətirilmiş, vergi nəzarəti sisteminin meydana gəlməsi, habelə şirkətin vergi siyasətinin formalaşması xüsusiyyətləri araşdırılmışdır. Vergilər dövlətin iqtisadi siyasətinin mühüm aləti olmaqla dövlət büdcəsinin zəruri maliyyə ehtiyatları ilə təmin edilməsində, ölkə iqtisadiyyatının tənzimlənməsi və idarə edilməsində mühüm rol oynayır. Perspektivdə milli iqtisadiyyatın məqsədəuygun və davamlı inkişafı vergi nəzarətinin nə səviyyədə stabil və səmərəli işlək normativ-hüquqi bazasından asılı olacaq.

***Açar sözlər:*** *maliyyə nəzarət sistemi, vergi siysəti, maliyyə meneceri, vergi uçotu.*

***Summary***

First, the article clarified the tax control as one of the most important functions of the state administration, the formation of the tax control system, as well as the characteristics of the formation of the company's tax policy were investigated. Taxes, being an important tool of the state's economic policy, play an important role in providing the state budget with necessary financial resources, regulating and managing the country's economy. In perspective, the appropriate and sustainable development of the national economy will depend on the level of stable and efficient working normative-legal basis of tax control.

***Keywords:*** *financial control system, tax policy, financial manager, tax accounting.*

## Giriş

Hal-hazırda ölkəmizdə stabil yüksəlişin ağırlıq mərkəzində qüvvələr nisbəti bilavasitə vergi nəzarətin öhdəsinə düşmüşdür. Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında başlıca mənbələrdən hesab edilən vergi yığımları əhəmiyyətli tərzdə vergi ödəyicilərinin qayda-qanunlara hörmətlə yanaşması, onların qanunvericilikdən doğan tələblərə ciddi riayət etməsi səviyyəsindən bilavasitə asılıdır. Vergi nəzarəti dövlətin səlahiyyət daşıyan orqanlarının tam və hədəfyönlü işini özündə ehtiva edən vergitutma sahəsində mövcud qanunvericiliyin tələblərinə söykənir və rezidentlərin vergi öhdəliklərinə dair tələblərin icrası ilə əlaqədar məlumatların yığılması və təhlilinə istiqamətlənir.

Ölkəmizdə bazar iqtisadıyyatı münasibətlərinin bərqərar olması və dünya təsərrüfat sisteminə inteqrasiya prosesinin gücləndiyi,habelə maliyyə-vergi nəzarətinin möhkəmləndirilməsi aparıcı yer aldıgı dovlət siyasətində müasir məqamda idarəetmənin başlıca elementi hesab edilən bu nəzarət növünün rolu getdikcə önəmli yer tutur. Təsadüfi vəziyyət deyil ki, mövcud durumda maliyyə şəffaflığının təmini, mövcud olan nəzarət vasitələrinin təkmilləşdirilməsinə və ümumi şəkildə maliyyə intizamının gücləndirilməsinə böyük töhvə verilir, sınaqdan ugurla çıxmış beynəlxalq praktikadan faydalanmaqla iqtısadi yüksəlişi ləngidən, qanunlara əməl etməyən və yekunda sosial ədalətsizlik yaradan korrupsiyaya əleyhinə mübarizə tədbirləri son dövrlərdə Ölkə Prezidentinin imzaladıgı sərəncamlarda da öz parlaq nümunəsini tapmış olur.

Rastlaşdığımız arzuolunmaz maliyyə böhranı zamanında maliyyənin yeri və vəzifəsinin daha da önəmli müstəviyə qalxdıgı üçün maliyyə-vergi nəzarətının rolu əhəmiyyətli şəkildə çoxalır. Maliyyə-vergi nəzarəti məhfumunun izahında alimlər arasında yekdil fikirə rast gəlinmir. Vergi nəzarəti təsərrüfatçılıq mexanizminin vacib ünsürü hesab edilməklə dəyər xarakterinə malikdir.

K.S.Belskinin fikrincə, vergi sistemi - vergitutma sferasında müəyyən prinsiplərə əsaslanan qarşılıqlı əlaqədar hissələrin (elementlərin), vətəndaşların vergiödəmə qabiliyyətinin, vergi və yığımların qanunla müəyyənləşdirilmiş sisteminin, vergi inzibatçılığının və dövlət tərəfindən tətbiq edilən vergitutma metodlarının məcmusudur *(Бельский К.С. Налоговая система: основные элементы, принципы Государства и права. – 2006. - №9. С. 55. Адамс Р. Основы аудита М.: Аудит, ЮНИТИ, 2015.).*

M.V.Karaseva vergi sistemi dedikdə, dövlətdə vergitutma sferasında yaranan və iqtisadi, siyasi, təşkilati və hüquqi xarakterə malik olan bütün mövcud ictimai münasibətlərin məcmusunu başa düşür *(Карасева.М. Финансовое право Учебник - Москва, 2011. – 617 с.).*

Dövlət büdcəsinin formalaşmasının əsas mənbəyi olan vergi yığımlarının dayanıqlığı xeyli dərəcədə vergi ödəyicilərinin intizamlı olmasından, onların qanunvericiliyin tələblərinə əməl etməsi səviyyəsindən asılıdır. Belə ki, vergi münasibətlərinin iştirakçısı olan dövlətlə vergi ödəyiciləri arasında mənafelərin toqquşması baş verir, yəni vergi ödəyiciləri mümkün qədər az vergi ödəməkdə, dövlət isə normal fəaliyyəti təmin etmək üçün çox vəsait almaqda, yəni vergi yığımlarının səviyyəsinin artmasında maraqlı olur.

Vergi nəzarətinin olmaması və ya onun səmərəlilik səviyyəsinin aşağı olması halında vergi ödəyiciləri tərəfindən vergilərin tam həcmdə və vaxtında ödəniləcəyinə tam etibar etmək heç də inandırıcı görünmür. Beləliklə, vergi nəzarəti bir tərəfdən zəruri maliyyə vəsaitlərinin dövlət büdcəsinə vaxtında daxil olmasını təmin edir, digər tərəfdən isə vergi ödəyicilərinin intizamlılığına nəzarəti həyata keçirir. Dayanıqlı şəkildə bu şərtlərə riayət olunması, vergi qanunvericiliyinin hüquqi normalarına əməl edilməsi, vergilərin tam həcmdə və vaxtında dövlət büdcəsinə ödənilməsi vahid nəzarət sistemi ilə təmin edilir.

Gəldiyimiz nəticələrdən biri də, Azərbaycanda tətbiq olunan vergi dərəcələri, cərimə və sanksiyaların sabit dərəcə ilə tətbiqinin törətdiyi mənfi hallarla bağlıdır. Hesab edirik ki, vergi dərəcələrinin fəaliyyət növü, regional xüsusiyyətlər nəzərə alınmaqla differensiallaşdırılmaması iqtisadi fəaliyyətin diversifikasiyalaşması və regionların inkişafı istiqamətində mənfi nəticələr doğurur. Eyni zamanda elektron ticarətin ənənəvi ticarətlə eyni dərəcə ilə vergiyə cəlb olunması bu sahənin inkişafında ciddi maneəyə çevrilməkdədir;

Şirkətin vergi siyasəti onun maliyyə siyasətinin mühüm elementi sayılır. Vergilər – ictimai-təsərrüfat həyatının ayrılmaz tərkib hissəsidir. Vətəndaşların sosial rifahı, müəssisə və təşkilatların və bütövlükdə dövlətin fəaliyyəti vergilərdən əhəmiyyətli dərəcədə aslıdır. Vergilər tarixən dövlətin yaranması və bir sıra ümumdövlət funksiyalarının yerinə yetirilməsi ilə əlaqədardır. Vergiləri yalnız pul münasibətlərinə aid etmək olmaz. Vergilər hər şeydən əvvəl, ictimai ehtiyatları maliyyələşdirmək üçün ümumdövlət fondunun yaradılması məqsədilə ümumi daxili məhsulun (ÜDM) yenidən bölüşdürülməsi prosesində qurulan maliyyə münasibətlərinin məcmusudur. Vergilərin sosial-iqtisadi inkişafa təsiri birbaşa deyil, dolayı vasitə ilə, həm də müəyyən gecikmələrlə baş verir.

Son dövrlərdə vergidən yayınma hallarının qarşısının alınması, beynəlxalq şirkətlər səviyyəsində vergitutma sahəsində fırıldaqçılıq hallarına qarşı mübarizə istiqamətində ölkədə sistemli və təsirli tədbirlərin həyata keçirilməsinə baxmayaraq bir sıra ciddi problemlər hələ də qalmaqdadır ki, bu da, öz növbəsində, vergi nəzarətinin təkmilləşdirilməsi konsepsiyasında öz həllini tapmalıdır. Fikrimizcə, çoxsahəli bir sistemi özündə ehtiva edən vergi nəzarətinin ayrı-ayrı istiqamətlərini təkmilləşdirməklə yanaşı, ölkədə vergi nəzarəti üzrə vahid konsepsiya işlənib hazırlanmalı, eyni zamanda nəzarət orqanlarının hesabatlılığı təkmilləşdirilməlidir. Bu problemlər yuxarıda sadalanan digər problemlərin əmələ gəlməsinə səbəb olur. Məhz bu səbəbdən təkcə nəzarət orqanları arasında deyil, eləcə də nəzarət obyektləri və cəmiyyət arasında bir sıra qeyri-müəyyənliklər və anlaşılmazlıqlar nəzərə çarpır. Bütün bunlar isə nəzarətin səmərəliliyini azaldır. Odur ki, ilk öncə, vergi nəzarəti orqanlarının fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazası formalaşdırılmalıdır.

## İstifadə olunmuş ədəbiyyat


1. Vahid Novruzov Audit.Dərs vəsaiti.Bakı,2008,604 s.
2.Akif Musayev Vergi siyasətinin iqtisadi problemləri. B., 2004
3.Kəlbiyev Y.A. Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri. Bakı, "İqtisadiyyat Universiteti" Nəşriyyatı. 2012, 488 s.
4.Карасева.М. Финансовое право Учебник - Москва, 2011. – 617 с.
5. Бельский К.С. Налоговая система: основные элементы, принципы Государства и права. – 2006. - №9. С. 55. Адамс Р. Основы аудита М.: Аудит, ЮНИТИ, 2015.

# BANK FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ GÖSTƏRİCİLƏRİ

***Azərbaycan Universiteti***
***Cəfərov Fərid Rza oğlu, magistrant***
***Elmi rəhbər: i.e.d. S.A.Abbasov***

***Xülasə***

Məqalədə Azərbaycan banklarında maliyyə vəziyyətinin qiymətləndirilməsinin mövcud metodiki durumu nəzərdən keçirilmiş, bank fəaliyyətinin effektivliyinin qiymətləndirilməsi metodlarına müxtəlif yanaşmaların müqayisəli təhlili aparılmışdır. Reytinqlərin köməyi ilə bankın səmərəliliyinin qiymətləndirilməsi problemləri araşdırılmış bank fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi göstəricilərinə müəllif yanaşması əsaslandırılmışdır.
***Açar sözlər:*** *kommersiya bankları, maliyyə vəziyyəti, səmərəlilik, reytinq yanaşması, səmərəliliyin qiymətləndirilməsi göstəriciləri.*

***Summary***

In the article, the current methodological situation of assessing the financial condition of Azerbaijani banks was reviewed, and a comparative analysis of various approaches to the methods of assessing the effectiveness of banking activity was carried out. With the help of ratings, the problems of evaluating the bank's efficiency were investigated, and the author's approach to the indicators of the efficiency of bank activity was justified.
***Keywords:*** *commercial banks, financial situation, efficiency, rating approach, efficiency evaluation indicators.*

Hal-hazırda bankların maliyyə vəziyyətinin qiymətləndirilməsi ölkəmizin Mərkəzi Bankı (MB) tərəfindən hazırlanmış və təsdiq edilmiş bankın maliyyə vəziyyətinin bu və ya digər aspektini xarakterizə edən xüsusi hesabat formalarının köməyi ilə həyata keçirilə bilər.Həmçinin qeyd etmək lazımdır ki, iqtisadi vəziyyəti qiymətləndirmək üçün Azərbaycan MB tərəfindən iqtisadi vəziyyətin qiymətləndirilməsi əsasında bankların təsnifatı təsdiq olunmuş və istifadə olunur. Bankın fəaliyyəti nəticəsində mənfəət əldə edilməsi bankın yalnız əsas məqsədlərindən biridir.

Bankın işinin səmərəliliyinin qiymətləndirilməsinin nəticəsi əsasən qiymətləndirilən kommersiya bankının xüsusiyyətləri nəzərə alınmaqla seçilən onun qiymətləndirmə metodologiyasından asılıdır. İqtisadi ədəbiyyatda kredit təşkilatının səmərəliliyinin qiymətləndirilməsinə müxtəlif yanaşmalar mövcuddur və qiymətləndirmənin aparılmasının müxtəlif üsulları vardır. Belə ki, bankın maliyyə dayanıqlığının qiymətləndirilməsi metodikalarına CAMELS, Patrol, ORAP, V. Kromonova metodikası, reytinq agentliklərinin üsulları və s. daxildir.

Tarixi gerçəkliyi araşdırsaq bankların kredit təşkilatı qismində iqtisadiyyatın davamlı inkişafında və təkmilləşdirilməsində özünə xac rola sahib olmasının anlamına gəlib çıxırıq . Banklar yoxdan pul yarada biləcəyi sualına dair bankçılıq tarixində ilk empirik sübutları təqdim edir. Bank sferasında cərəyan edən böhran bu məsələyə marağı canlandırsa belə, hələ də sakitləşməyib. İqtisadi ədəbiyyatda üç fərziyyə tanınır.

Bankın fəaliyyətinin səmərəliliyini qiymətləndirməkdən ötrü də həm tətbiqi məqsədləri və həm də onların hesablama metodikası ilə fərqlənən müxtəlif gəlirlilik göstəriciləri tətbiq edilir. Bəzi hallarda, bankın fəaliyyətinin səmərəliliyinin ümumiləşdirilməsi meyarı kimi istifadə edilə bilən göstəricilərin qarşılıqlı əlaqələndirilməsi və əsaslandırılması problemi meydana çıxır.

S.Abbasovun fikrinzə, bank fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin ümumiləşdirilmiş meyarlarının mövcudluğu maliyyə vəziyyətinin bütöv təsvirini yaratmağa və strateji inkişaf istiqamətlərini xarakterizə etməyə imkan verir. Səmərəliliyi qiymətləndirərkən, bank fəaliyyətinin və qəbul olunan idarəetmə qərarlarının nəticəliliyini xarakterizə edən mütləq və nisbi göstəricilərin məcmusu nəzərdən keçirmək məqsədəuyğundur *(Abbasov S.A. Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri (Monoqrafiya). Bakı, "Elm və Təhsil", 2009. – 288 s.).*

İndi isə bankın və bank menecmenti sisteminin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi göstəricilərinə mövcud yanaşmaların təhlilini aparaq.

O.V. Yefimova və M.V. Miller bank fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə əməliyyat, investisiya və maliyyələ fəaliyyətinin səmərəliliyini xarakterizə edən, aktivlər üzrə gəlirlilik, satışın rentabelliyi, öz kapitalının rentabelliyi və investisiyaların rentabelliyi göstəricilərindən ibarət gəlirlilik göstəriciləri sistemindən istifadə etməyi təklif edirlər. Fəaliyyətin səmərəliliyini kompleks şəkildə xarakterizə edən ümumiləşdirilmiş göstərici kimi təşkilatın əməliyyat, investisiya və maliyyələ fəaliyyətini xarakterizə edən üç əsas göstəricinin funksiyası olan, xüsusi kapitalın rentabelliyindən istifadə etmək təklif olunur *(Ефимова О.В., Мельник М.В. Анализ финансовой отчетности: Учебное пособие. – 2-е изд., испр. и доп. – М.: Изд-во ОМЕГА-Л, 2006. – 408 с.).*

G.N. Şerbakova bank fəaliyyətinin ümumiləşdirilmiş qiymətləndirmə göstəricisi kimi mənfəət göstəricisindən, eləcə də bankın bölmələri, bank fəaliyyəti növləri, bank məhsulları və əməliyyatları kontekstində nəticə göstəricilərindən istifadəni təklif edir *(Щербакова Г.Н. Анализ и оценка банковской деятельности (на основе отчетности, составляемой по российским и международным стандартам). – М.: Вершина, 2007. – 464 с.).*

J. Sinkey öz tədqiqatında bank menecmentinin iş və sisteminin əsas effektivlik göstəricisi kimi kapitalın rentabelliyini müəyyən edir və bank əməliyyatlarının effektivliyini qiymətləndirmək üçün isə aktivlərin rentabelliyi göstəricisindən istifadə etməyi təklif edir ki, bu da xalis faiz marjasından, xalis faizsiz gəlirdən və ssuda üzrə mümkün zərərlər ehtiyatından asılıdır *(Синки Дж. Финансовый менеджмент в коммерческом банке и в индустрии финансовых услуг / Пер. с англ. – М.: Альпина Бизнес Букс, 2007. – С. 198.).*

Y.S. Maslaçenkov bankın fəaliyyətinin səmərəliliyini qiymətləndirərkən, ümumi rentabellik, kapitalın rentabelliyi, aktivlərin rentabelliyi və kredit əməliyyatlarının rentabelliyi göstəricilərinə əsaslanır *(Маслеченков Ю.С. Финансовый менеджмент банка: Учебное пособие для вузов. - М.: ЮНИТИ- ДАНА, 2003. – 399 с.).*

Bankın fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi göstəricilərinə müxtəlif yanaşmaları təhlil edərək belə qənaətə gəlmək olar ki, səmərəliliyin müəyyən edilməsində daha çox kapitalın rentabelliyi, aktivlərin rentabelliyi, bankın faiz və qeyri-faiz marjası göstəricilərindən istifadə olunur.

Müasir durumda mənfəətə yiyələnməyə can atan istənilən kommersiya bankı müştəriyə yönəlməlidir. Fikrimizi daha aydın ifadə etsək, müştərinin tam tərzdə məhsul və xidmətlərə duydugu ehtiyac fərdi yanaşmadan faydalanaraq və bankda aydınlaşdırılmış bəlli müştərilə, onun cəlbi prosesi, saxlanması və onların sayının artırılmasının keyfiyyətli həll olunduğu xüsusi qarşılıqlı təsir alqoritmilə ödənilir.

Hal-hazırki durumda da respublikanın kommersiya banklarında bankın məhsulyönümlü inkişaf strategiyası daha əhatəli müstəvidə yayılmışdır. O özündə bank menecmentinin elə bir modelini ehtiva edir ki, burada təşkilati vahidlər təşkilati strukturda bir növ bank məhsullarının satışlarında iştirak prinsipi boyunca birləşdirilir. Bu vaxt istənilən biznes vahidinin məhsul qrupları unikal formada özün nümayiş etdirməklə, heç də üst-üstə düşmürlər. Azərbaycan banklarında baş verən prosesləri keyfiyyət və kəmiyyət baxımından kifayət qədər dəqiq təsvir etməyə, sınaqdan çıxmış və yüksək effektivli göstəricilər sisteminin bankın aktual problemlərinin həllində istifadə etməyə imkan verən nəzəri baza və müvafiq analitik alətlər hələ ki, bu vaxta qədər Azərbaycanda formalaşmamışdır. Eyni zamanda hazırda milli metodikalarda tətbiq olunan göstəricilərin sistemlərinin yaradılmasına üç yanaşma daha geniş yayılmışdır:

• xarici göstəricilər sistemlərinə uyğunlaşma;

• bank fəaliyyətinin sadə iqtisadi modelləri əsasında bankın fəaliyyətinin əsas göstəricilərinin ekspres-təhlili sistemlərinin işlənib hazırlanması;

• iqtisadi proseslərin statistik metodlarla qiymətləndirilməsi.

Bankın ayrı-ayrı istiqamətlərinin işinin səmərəliliyi xeyli dərəcədə bu bölmələr tərəfindən bank məhsullarının reallaşdırılmasından və bankın müştərilərinə xidmət göstərilməsindən əldə

edilən maliyyə nəticələrini əks etdirir. Bununla əlaqədar olaraq bankın müştərilərlə qarşılıqlı təsir səmərəliliyinin qiymətləndirilməsi metodikasının işlənib hazırlanmasına zərurət yaranır.

Bankın və müştərilərin qarşılıqlı təsir səmərəliliyinin qiymətləndirilməsi metodikası bank strateji menecmentinin zəif tərəflərini aşkar etməyə və bununla da əsas məqsədin – riskin və maliyyə sabitliyinin məqbul səviyyədə saxlanılması şərti ilə maksimum mənfəətin əldə edilməsi üçün onun menecment sisteminin təkmilləşdirilməsinə imkan verəcəkdir .

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Bagırov M.M. (2003),Banкlar və banк əməliyatları. Ali məктəblərdən ötrü dərsliк. Baкı,«Nurlan», 2003, 512 s.
2. Abbasov S.A. Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri (Monoqrafiya). Bakı, "Elm və Təhsil", 2009. – 288 s.
3. Ефимова О.В., Мельник М.В. Анализ финансовой отчетности: Учебное пособие. – 2-е изд., испр. и доп. – М.: Изд-во ОМЕГА-Л, 2006. – 408 с.
4. Щербакова Г.Н. Анализ и оценка банковской деятельности (на основе отчетности, составляемой по российским и международным стандартам). – М.: Вершина, 2007. – 464 с.
5. Синки Дж. Финансовый менеджмент в коммерческом банке и в индустрии финансовых услуг / Пер. с англ. – М.: Альпина Бизнес Букс, 2007. – С. 198.
6. Маслеченков Ю.С. Финансовый менеджмент банка: Учебное пособие для вузов. – М.: ЮНИТИ-ДАНА, 2003. – 399 с.

# MÜƏSSİSƏNİN MALİYYƏ SABİTLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MEYARLARINA DAİR MÜLAHİZƏLƏR

***Qərbi Kaspi Universiteti***
***Lətifova Elnurə Şakir qızı, magistrant***
***Elmi rəhbər: i.ü.f.d.S.İbrahimova***

***Xülasə***

Maliyyə dayanıqlığı müasir dövrdə hər bir müəssisənin uğurlu fəaliyyəti üçün əsas, başlıca şərtlərdən biridir. Əksər mütəxəsisslərin və görkəmli iqtisadçı alimlərin fikrincə, müəssisənin maliyyə vəziyyəti qiymətləndirilərkən ilk növbədə, maliyyə sabitliyi və onun ödəmə qabiliyyəti təhlil edilməlidir. Müəyyən bir tarix üçün maliyyə sabitliyinin təhlili şirkətin maliyyə vəsaitlərindən nə dərəcədə səmərəli istifadə etdiyi sualına cavab verməyə imkan verir. Təqdim edilən məqalədə müəssisənin maliyyə sabitliyinin qiymətləndirilməsi meyarlarına dair mülahizələrdən söhbət açılır.
***Açar sözlər:*** *müəssisə, resurs, likvidlik, maliyyə sabitliyi, təhlil, nisbət, gəlir, investisiya, kapital,mühasibat.*

***Summary***

Financial stability is one of the main conditions for the successful operation of every enterprise in modern times. According to most experts and prominent economic scientists, when evaluating the financial situation of the enterprise, first of all, financial stability and its solvency should be analyzed. Analysis of financial stability for a certain date allows to answer the question of how the company uses its financial resources efficiently . The presented article discusses the considerations regarding the criteria for evaluating the financial stability of the enterprise.
***Key words:*** *enterprise, resource, liquidity, financial stability, analysis, correlation, income, investment, capital, accounting.*

Maliyyə dayanıqlığı müasir dövrdə hər bir müəssisənin uğurlu fəaliyyəti üçün əsas, başlıca şərtlərdən biridir. Əksər mütəxəsisslərin və görkəmli iqtisadçı alimlərin fikrincə, müəssisənin maliyyə vəziyyəti qiymətləndirilərkən ilk növbədə, maliyyə sabitliyi və onun ödəmə qabiliyyəti təhlil edilməlidir. Müəyyən bir tarix üçün maliyyə sabitliyinin təhlili şirkətin maliyyə vəsaitlərindən nə dərəcədə səmərəli istifadə etdiyi sualına cavab verməyə imkan verir. Burada başlıca olaraq maliyyə resurslarının səviyyəsinin bazarın tələblərinə uyğunluğu və nə dərəcə də müəssisənin gələcək inkişaf ehtiyyaclarını qarşılamağa imkan verməsi imkanları nəzərdən keçirilməlidir. Belə bir təhlil və onun nəticələrinə dair ümumiləşdirilmələrin aparılması hər bir təsərrüfat subyekti üçün vacib olmaqla, onun cari fəaliyyətini və maliyyə-iqtisadi vəziyyətini xarakterizə etmiş olar. Hazırlanmış təhlilili material özündə həyata keçirilmiş siyasət nəticəsində müəssisənin investisiya və maliyyə inkişafına dair cari nəticələri ehtiva etməkə, sərmayəçiləri maraqlandıran lazımlı məlumatları əks etdirir.

Maliyyə menecmenti və onun təhlilinə həsr edilmiş elmi əsərlərdə əks olunmuş informasiyaların təhlili nəticəsində aydın olur ki, müxtəlif müəlliflər "maliyyə sabitliyi" anlayışına münasibətdə fərqli yanaşmalardan çıxış edirlər. Bu baxımdan "maliyyə sabitliyi" anlayışını müxtəlif xüsusiyyətlərinə və istiqamətlərə görə şərti olaraq aşağıdakı kimi təsnif edə bilərik:

- yalnız cari dövrdə müəssisənin sabit fəaliyyəti;
- müəssisənin əsas və digər fəaliyyət növlərini həyata keçirmək qabiliyyəti;
- subyektin fəaliyyət göstərmək və inkişaf etmək qabiliyyəti;
- müəyyən dövlət şirkət hesabları;
- yalnız gələcəkdə müəssisənin stabil fəaliyyəti;
- aktivlərə səmərəli investisiyalar;
- müəssisənin uzunmüddətli perspektivdə maliyyə imkanları;
- icazə verilən hədlər daxilində investisiya cəlbediciliyi;
- risk səviyyəsi;
- müəssisənin borclarını ödəmək və öhdəliklərini qarşılamaq qabiliyyəti;
- borcların və öhdəliklərin tam və vaxtında ödənilməsi imkanları;
- vaxtı keçmiş borcların və digər öhdəliklərin olmaması;

- zəmanətlı ödəmə qabiliyyəti;
- kafi səviyyədə maliyyələşdirmə mənbələrinə malik olmaq;
- fəaliyyətinin davamlılığının təmin edilməsi;
- öz dövriyyə kapitalına malik olmaq;
- tələb olunan miqdarda vəsaitin daimi mövcudluğu;
- pul resurslarının vəziyyəti;
- kreditorlardan asılılıq dərəcəsi;
- müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsinin göstəriciləri;
- mütləq və nisbi göstəricilər sistemi;
- öz və dövriyyə kapitalı arasında nisbət;
- uzunmüddətli aktivlərin nisbəti və qoyulmuş kapital;
- bütün pul və borc kapitalı arasındakı fərq;

balans strukturu əmsalı *(Грачев, А.В. Финансовая устойчивость предприятия: критерии и методы оценки в рыночной экономике).*

Bir çox hallarda praktikada müəssisələrin özlərinin maliyyə-təsərrüfat fəaliyyətinin normal və peşakar təhlilini aparılmaması səbəbli ciddi nəzərə çarpan çatışmazlıqlar meydana çıxır və nəticədə maliyyə direktoru, maliyyə meneceri və analitiklər müəssisənin cari maliyyə vəziyyəti haqqında ətraflı təsəvvür əldə etmək imkanlarından məhrum olurlar. Aparılan təhlillərin dərin xarakter daşımamaqla, özündə real vəziyyəti əks etdirməyə mane olan yanaşmalar sırasında aşağıdakıları qeyd edə bilərik:

- tətbiq olunan qiymətləndirmə üsullarının mövcud olanların analizindən daha çox mühasibat xarakterli hesabat formaları ilə əlaqələndirlməsi;
- mövcud təhlil üsulları müəssisənin rüblük və aylıq təhlilı üçün deyil də daha çox illik hesabatlar formatında tətbiq edilməsi;
- "mühasibat balansı" əsasında hesablanmış əmsalların müəssisənin işinə dövr üzrə deyil, yalnız hesabat tarixlərinə qədər qiymət verməsi;
- iqtisadi göstəricilərə uyğun tövsiyə olunan dəyərlərə nail olunmasını tənzimləyən vahid alqoritmlər sisteminin olmaması və bu üzdən onların təklif olunan göstəricilər sistemə birləşdirilməsi;
- müəyyən edilmiş kənarlaşmaların səbəblərinin gizli formada qalması;
- maliyyələşmə mənbələri üzrə aktivlərin daxili bölgüsü, kapitalın isə yerləşdiyi yerə görə təhlil edilməməsi;
- aktivlərin likvidliyinin (aktivlərin nağd pula çevrilmə qabiliyyətinin) və ödəmə qabiliyyətinin (aktivlərin ödəniş vasitəsi kimi çıxış etmə qabiliyyətinin) spesifik səviyyəsinin müəyyən edilməməsi;
- borcların və öhdəliklərin ödənilməsi, habelə gələcək artım və inkişaf üçün öz mənbələrinin kifayət qədər olmasına dair əsaslandırılmanın yoxluğu;
- təhlil, paylanma və istifadə mərhələlərindən keçən, əlavə dəyər kimi mühüm göstəricilərin analiz edilməməsi;

analitikin hesabat dövrünün sonuna qədər kənarlaşmaların aradan qaldırılmasında daha çox maraqlı olması səbəbli hesabat dövrü ərzində müəssisənin işinin qiymətləndirilməsi mexanizminin yoxluğu *(Абрютина, М. С. Анализ финансово – экономической деятельности предприятия. с., 35).*

Müəssisənin maliyyə sabitliyini qiymətləndirmək üçün mövcud metodoloji yanaşmaların təhlili göstərir ki, burada vahid yanaşma, maliyyə sabitliyinin qiymətləndirilməsi üçün ümumi qəbul edilmiş birmənalı meyarlar sistemi yoxdur. Müşahidə olunan fərqlər təkcə istifadə olunan göstəricilərin sayında, təhlilin ardıcıllığı və strukturunda deyil, həm də hesablanmış mütləq və nisbi göstəricilərdə özünü göstərir. Maliyyə sabitliyini qiymətləndirmək üçün ən çox istifadə edilən müxtəlif üsullarda mövcud olan göstəricilər likvidliyi, kapitalın strukturunu, əsas və dövriyyə kapitalının vəziyyətini, gəlirlilik və cari fəaliyyəti (iş fəaliyyəti) xarakterizə edən göstəricilərdir.

Bu məsələ ilə bağlı mövcud fikirləri təhlil etsək, iki əsas yanaşmanın olduğunu müşahidə edərik. Birincisi yanaşmaya görə əsas meyarlar ödəmə qabiliyyəti və öz dövriyyə kapitalı ilə təmin olunmadır. Bu göstəricilərin çatışmazlığı müəssisənin maliyyə vəziyyətinin dinamikasının əsas xüsusiyyətlərinin olmaması anlamına gəlir. Müəssisənin maliyyə sabitliyini qiymətləndirmək üçün bu yanaşma əsasən daxili iqtisadiyyatın üstünlük təşkil etdiyi keçmiş sovet ittifaqı üçün xarakterik idi. Çünki, uzun müddət sosialist müəssisələri sabit şəraitdə fəaliyyət göstərirdilər və uzunmüddətli dövr ərzində iflas təhlükəsi ilə üzləşmirdilər.

İkinci yanaşma isə əsas meyar kimi kreditorlardan asılı olmayan maliyyə müstəqilliyini nəzərdə tutur. Bu yanaşma əsasən Qərb iqtisadi praktikasında işlənib hazırlanmışdır və onun üçün xarakterik hesab edilə bilər. Burada müəssisənin maliyyə vəziyyəti və onun inkişaf perspektivləri nəzərə alınmır. Hazırda elmi ədəbiyyatda həm birinci, həm də ikinci yanaşmanın dəstəkləyən və onları inkar edən fikirlər mövcuddur *(Земитан, Г.В. Методы прогнозирования финансового состояния организации. с.,73).*

Müəssisənin maliyyə sabitliyinin təhlili və qiymətləndirilməsinə müxtəlif yanaşmaların öyrənilməsi təkcə onun hesablanmasına deyil, həm də maliyyə sabitliyini başa düşmək üçün fərqli bir yanaşmanı müəyyən etməyə imkan verir. Müəssisənin maliyyə sabitliyinin təklif olunan göstəricilərinə dair ümumiləşdirici vahid alqoritm olmadıqda bu göstəricilər üzrə tövsiyə olunan dəyərlərə nail olunmasını tənzimləyən hesablamalar bir sistemdə birləşdirilir. Maliyyə sabitliyini və gəlirliliyini, maliyyə fəaliyyətini müəssisənin əməliyyat fəaliyyəti ilə balanslaşdırmağa imkan verən vahid vektorun yoxluğu maliyyə sabitliyi göstəricilərinin və müəssisənin dəyərinin kəmiyyət asılılığını əsaslandırılmasında müəyyən çətinliklər yaradır. Bu zaman meydana çıxan çətinliklər mənfəətin miqdarını, məhsulun satışından əldə olunan gəlirləri, müəssisənin müvafiq dövr üçün dəyərini əsaslandırıla bilinməməsindən qaynaqlanmır. Bu göstəricilərin dəyər (mütləq) baxımından hesablanması mexanizmi kifayət qədər yaxşı sınaqdan keçirilmişdir. Bundan əlavə, məhsulun satışından əldə edilən gəlirin kəmiyyət dəyəri və bu əsasda müəssisənin aktivlərinin dəyəri müəyyən edilən mənfəət maliyyə hesabatlarında əks olunur. Müəssisənin dəyərinin və maliyyənin nisbət asılılığının formalarını müəyyən etməkdə təxmin edilən çətinliklər, onların qarşılıqlı əlaqələri maliyyə sabitliyinin kəmiyyət dəyərinin əsaslandırılması ilə meydana çıxır. Mövcud üsullara görə, hesablanmış dəyərlərin normativ göstəricilərlə müqayisədə, maliyyə sabitliyinin dəyəri əsasən nisbi göstəricilərlə likvidlik və ödəmə qabiliyyəti göstəriciləri vasitəsi ilə müəyyən edilir. Burada əsaslı və hesablanmış dəyərlərin diapazonu olduqca genişdir.

Mənfəət göstəricisi kimi xarici və daxili mühit amillərinin təsirini özündə cəmləşdirən maliyyə mexanizmi və onun əsasında formalaşan, maliyyə sabitliyinin ümumiləşdirici göstəricisi yoxdur. Maliyyə sabitliyi məsələsinə bu cür yanaşma maliyyə mütəxəssislərinə, mülkiyyətçilər qarşısında cavabdeh olan analitik xidmətlərin rəhbərlərinə və digərlərinin maraqlarını təmin etmir.

Burada narazılıq maliyyə termininin - müəssisənin maliyyə dayanıqlığının, onun meyarlarının (məzmun və səviyyəsi) və meyarı həyata keçirən əsas göstəricilərin dəqiq tərifinin olmaması səbəbindən yaranır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Абрютина, М. С. Анализ финансово – экономической деятельности предприятия : учеб. – практ. Пособие / М. С. Абрютина, А. В. Грачев. – М. : Дело и Сервис, 2009. – 256 с.
2. Грачев, А.В. Финансовая устойчивость предприятия: критерии и методы оценки в рыночной экономике/А.В.Грачев: М.: Издательство «Дело и Сервис», 2010.- 400с
3. Земитан, Г.В. Методы прогнозирования финансового состояния организации: учебное пособие / Г.В. Земитан- М.:Финансы и статистика, 2010.- 503 с.

# QLOBALLAŞMANIN BEYNƏLXALQ MALİYYƏ BAZARINA TƏSİRİ

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Məmmədov Asif Maqsud oğlu, magistrant***
***Elmi rəhbər: i.ü.f.d. R.O.Məmmədov***

***Xülasə***

Məqalədə, Beynəlxalq maliyyə bazarlarının (International financial markets) əhatə dairəsinin genişlənməsinin onun qloballaşmasına, onun maştabının artması ilə onun həcminin genişlənməsinə gətirib çıxardığı qeyd olunur. Göründüyü kimi,maştabın genişlənməsi beynəlxalq maliyyə bazarları subyektlərinin inkişaf edərək innovativləşməsinə,dünya üzrə daha çox önəm daşımasına, beynəlxalq qlobal əlaqələrin qurulmasına kömək etməsindən danışılır. Beynəlxalq maliyyə bazarlarının qloballaşması maliyyə bazarı subyektlərinin işinin rahatlaşamasına, bir-biri ilə daha maneəsiz əlaqələrin qurulmasına kömək edir. Bununla da Beynəlxalq maliyyə bazarlarının qloballaşması maliyyə bazarları üçün mümkün inkişaf yollarının əsaslarındandır.

***Açar sözlər:*** *Qloballaşma,qlobal,inflyasiya, beynəlxalq maliyyə bazarları.*

***Summary***

In the article, it is noted that the expansion of the scope of the International financial markets(BMB) leads to its globalization, the increase in its scale and the expansion of its volume. As it seems , it is said that the expansion of the scale helps the subjects of international financial markets to develop and innovate, to be more important in the world, and to establish international global (qlobal) relations. Globalization (qloballaşma) of international financial markets helps to ease the work of financial market subjects and establish more unobstructed relations with each other. Thus, the globalization of international financial markets is one of the bases of possible development paths for financial markets.

***Key words:*** *Globalization, global, inflation, international financial markets.*

## Giriş

Müasir beynəlxalq maliyyə bazarlarında maliyyə aktivləri ilə müxtəlif əməliyyatların genişmiqyaslı inkişafı təkcə 1990-2000-ci illərdə onun sürətli təkamülünə deyil, həm də dünya təsərrüfat münasibətləri sistemində mövcudluğun bir sıra meyllərinin formalaşmasına səbəb olmuşdur. Çox vaxt bu tendensiyalar yalnız maliyyə bazarlarının özü üçün deyil, həm də dünya iqtisadiyyatının bütün sistemi və ayrı-ayrı milli iqtisadiyyatlar üçün müsbət deyil, əksinə mənfi olur. Beynəlxalq maliyyə bazarlarının müasir fəaliyyətində aşağıdakı tendensiyalar yaranmışdır *(Бункина М.К. Монетаризм.)*

Beynəlxalq maliyyə bazarının müasir inkişafının əsas tendensiyası onun qloballaşmasıdır. **Qloballaşma (globalization)** səbəbli prosesdir. Bir tərəfdən, yalnız beynəlxalq maliyyə bazarlarının strukturlaşması və sürətli inkişafı sayəsində maliyyə qloballaşması mümkün oldu, lakin digər tərəfdən, beynəlxalq maliyyə bazarlarının qloballaşması onun inkişaf prosesini əhəmiyyətli dərəcədə sürətləndirdi. Bütün dünya bazarlarından (əmtəə və s.) ən qloballaşan bazar kimi beynəlxalq maliyyə bazarları 21-ci əsrin əvvəllərində dünya iqtisadi inkişafını sürətləndirən əsas amillərdən biri kimi var olmuşdur. Eyni zamanda, genişmiqyaslı qlobal böhranlara başlamağa qadir olan iqtisadi fəaliyyətin ən həssas sahəsi olduğu ortaya çıxdı. Qloballaşma prosesi beynəlxalq maliyyə bazarlarınınformalaşmasında əsas amillərdən biridir ki, buna aşağıdakılar kömək etmişdir *(Бурджалов Ф. Экономическаярольсоциальнойдеятельностигосударства s. 89):*

- əsas maliyyə mərkəzlərini birləşdirən və beynəlxalq maliyyə əməliyyatları üçün əməliyyat xərclərini və onların başa çatdırılması üçün tələb olunan vaxtı kəskin şəkildə azaldan yeni informasiya texnologiyaları;
- bank fəaliyyətinin tənzimlənməsinin ləğvi və milli və beynəlxalq maliyyə aktivləri ilə əməliyyatların liberallaşdırılması ilə əlaqədar MFR iştirakçılarının fəaliyyəti şərtlərində dəyişikliklər;
- beynəlxalq maliyyə bazarları üzrə əsasən hedcinq və risklərin idarə edilməsi mexanizmlərinə əsaslanan yeni məhsulların yaranması və inkişafı.

Maliyyə qloballaşması və IFR beynəlxalq maliyyədə yeni tendensiyalar yaratdı: yerli və regional böhranlar dərhal struktur qlobal maliyyə və iqtisadi böhranlara çevrilməyə başladı. Maliyyə böhranlarının "yoluxuculuq"(contagion) təsiri adlanan bir fenomen meydana çıxdı: qlobal bazar mühitində bütün xüsusi (valyuta, səhm, borc və s.), eləcə də 20-ci əsrdə mövcud olduğu kimi yerli (regional) maliyyə böhranları artıq meydana gəlməyə başladı. Xüsusi və yerli böhranlar eyni vaxtda baş verir, bir-birinə qarışaraq beynəlxalq maliyyə bazarları ilk dəfə 2008-ci ildə üzləşdiyi qlobal maliyyə böhranı fenomeninə səbəb olur və artıq "İnflyasiya"(inflation) terminindən əlavə, xüsusi ədəbiyyatda terminlərdən də istifadə olunur *(Взаимодействиегосударства и страховыхорганизаций, s. 78).* Eyni prosesi ifadə edən "böhranların sinxronizasiyası" və "maliyyə bazarları arasında sabit və güclü korrelyasiya" mövcuddur.

Beynəlxalq maliyyə bazarları yaxınlaşması və inteqrasiyası son iki onillikdə onun inkişafında ən nəzərə çarpan tendensiyalardan birinə çevrildi. Buna eyni illərdə dünya iqtisadiyyatında baş verən inteqrasiya prosesləri kömək etdi: beynəlxalq ticarətin liberallaşdırılması; sənayeləşmiş və inkişaf etməkdə olan ölkələrdə investisiya mühitinin yaxşılaşdırılması. İnteqrasiya beynəlxalq maliyyə bazarlarınınözündə dəyişikliklərə təsir göstərmişdir:

- kapital və investisiyaların hərəkətinin hərəkətliliyi artmış;
- maliyyə əməliyyatı xərclərinin azaldılması baş vermişdir.

Beynəlxalq maliyyə bazarlarının inteqrasiyası Avropa Valyuta-Maliyyə İttifaqının (EUFS) vahid Avropa Mərkəzi Bankı (AMB), Avropa büdcəsi, vahid valyuta (avro) və müvafiq olaraq, pul və maliyyə ilə praktiki yaradılmasında xüsusilə aydın şəkildə həyata keçirilir. siyasət. Avropa maliyyə bazarı beynəlxalq maliyyə bazarlarında maliyyə aktivlərinin ticarətini əhəmiyyətli dərəcədə dəyişdirdi: avro ilə ifadə olunan əməliyyatların sayı əhəmiyyətli dərəcədə artdı (30-40% -ə qədər). Avropa ölkələrinin milli maliyyə sistemlərinin inteqrasiyası beynəlxalq maliyyə bazarlarının fəaliyyətinin artmasına, yeni əməliyyatların yaranmasına və onun bütün sahələrinin daha dinamik yüksəlişinə səbəb olmuşdur. IFR-nin digər coğrafi regionlarında da inteqrasiya prosesləri gedir: Cənub-Şərqi Asiya və Sakit Okean regionu ölkələrində, Latın Amerikasında vahid valyutanın yaradılması buna misaldır. Beynəlxalq maliyyə bazarlarının yaxınlaşması onun ayrı-ayrı coğrafi sektorlarının inteqrasiyasına çox oxşar bir prosesdir. Beynəlxalq maliyyə bazarlarının yaxınlaşması prosesi qanunvericilik məhdudiyyətlərini, tənzimləyici maneələri və s. aradan qaldırmaqla öz sektorları arasındakı sərhədləri tədricən bulandırır. Xarici borcalanların milli maliyyə bazarlarına çıxışı üçün maneələr aradan qaldırılır, kredit, fond, investisiya, valyuta və sığorta biznesinin müxtəlif sahələrini birləşdirən maliyyə holdinqlərinin yaradılması sahəsində antiinhisar qanunvericiliyi yumşaldılır. Dünya kredit bazarı (əsasən sindikatlaşdırılmış kreditlər baxımından) ilə dünya fond bazarının real yaxınlaşması baş verib. Hər iki bazarın əsas oyunçuları eyni vaxtda əməliyyatlar aparırlar: universal banklar fond bazarında anderrayter, təşkilatçı və treyder olurlar; investisiya bankları sindikatlaşdırılmış kreditlər təşkil edir.

IFR-də yaxınlaşma beynəlxalq maliyyə bazarının əvvəllər nəzərdən keçirilmiş bütün sektorlarının tam bir-birinə nüfuz etməsinə və bir-birini tamamlamasına səbəb oldu.

Qlobal maliyyə institutlarının beynəlxalq maliyyə bazarlarında genişlənməsinin belə bir istiqamətini bu bazarda gələcək mövqelər uğrunda onların arasında mübarizə kimi qeyd edilir. Xüsusilə gərgin rəqabət MFR-nin valyuta, kredit və fond sektorlarındadır.

Beynəlxalq maliyyə bazarlarında birləşmə və satınalmaların cəmləşməsi və ya böyüməsi maliyyə institutlarının birləşmələri və satınalmaları vasitəsilə baş verir. Son iki onillikdə belə əməliyyatların həcmi on dəfə artıb. Nəticə, beynəlxalq maliyyə bazarlarında fəaliyyət göstərə bilən məhdud sayda qlobal resurs konsentrasiyası olmuşdur. 1990-cı illərdə MFR-də birləşmə və satınalmalar sahəsində əvvəlki illərdən fərqli bir tendensiya var idi. Milli assosiasiyalarla yanaşı, məsələn, Fransada Societe General və Paribas, birləşmələr beynəlxalq, qlobal xarakter aldı - məsələn, 10,1 milyard dollara başa gələn Amerika bankı BankersTrust-ınDeutsche Bankının satın alınması; British Nat West American Union Bank və SwissSwiss Bank Corporation ilə birləşməsi və.s. 1992-ci ildən 2007-ci ilə qədər olan dövr ərzində yalnız kommersiya banklarının 70 ən böyük birləşmə və satınalmaları olmuşdur. Oxşar proseslər sürətlə davam etdi və bu beynəlxalq maliyyə

bazarlarının digər sektorlarında, şübhəsiz ki, onun qloballaşmasınınsürətləndiricilərindən və amillərindən biridir *(Дэвидсон П. Посткейнсианскаятеориядeнег и проблемаинфляции).*

Vasitəçiliyin aradan qaldırılması, sözdə disintermidasiya, beynəlxalq maliyyə bazarları bütün əməliyyatlara təsir edən bir tendensiyaya çevrildi.

"Vasitəçilikdən yayınma" başqa bir tendensiya ilə - beynəlxalq maliyyə bazarlarında iştirakçılarının ixtisaslaşması ilə sıx bağlıdır. Disintermidasiya – vasitəçinin (brokerlər, banklar, ixtisaslaşmış maliyyə institutları) rədd edilməsi maliyyə texnologiyalarının inkişafının və bütövlükdə bazarın tənzimlənməsinin nəticəsidir. Bu, maliyyə əməliyyatının hər iki tərəfinə maliyyə əməliyyatından imtina etməklə öz xərclərini azaltmağa maliyyə vasitəçilərinin komissiya və digər haqlarını ödəməyə imkan verir..

**"Vasitəçisiz"(Without an Intermediary)** tendensiyanın biznes fəaliyyətinə təsiri aydın deyil. Bir tərəfdən, beynəlxalq maliyyə bazarlarında rəqabət yeni oyunçuların meydana çıxması səbəbindən əhəmiyyətli dərəcədə güclənir. Bu, bankların gəlirlərinə mənfi təsir göstərir. Digər tərəfdən, yeni kredit-depozit qiymətli kağızlarının yaranması banklara mənfəət əldə etmək üçün yeni güclü alət verir və onlara yeni fəaliyyət sahələrinə nüfuz etməyə imkan verir *(Зверькова Т.Н. Региональные банкив, s. 67).*

Beynəlxalq maliyyə bazarlarının inkişaf tendensiyası kimi inteqrasiya həm iqtisadiyyatda, həm də siyasətdə yüksək dərəcədə inteqrasiyanı nəzərdə tutur. Amma əsas iqtisadi mərkəzlərin (Şimali Amerika, Qərbi Avropa və Cənub-Şərqi Asiya) dünya bazarında gərgin rəqabət şəraitində real inteqrasiya prosesləri regional pul-maliyyə birliklərinin yaranmasına səbəb oldu. XXI əsrin əvvəllərindən belə bir paradoksal tendensiya formalaşıb: bir tərəfdən qloballaşma sonrakı regionallaşmaya təkan verdi; digər tərəfdən, müxtəlif regional maliyyə bloklarının formalaşması beynəlxalq maliyyə bazarlarının gələcək səfərbərliyinə mane olur. Bundan əlavə, regional maliyyə bloklarının formalaşması iqtisadi vəziyyətin sabitliyinin pozulmasına və qlobal maliyyə böhranlarına bir növ müdafiə reaksiyasına çevrilib.

Müasir regional assosiasiyaların ən güclüləri ("triadanın yeni dünya həndəsəsi") Avropa İttifaqı(European union,EU), NAFTA(North American Free Trade Agreement*)* və ASEAN(The Association of Southeast Asian Nations)-dır. NAFTA Şimali Amerika maliyyə və iqtisadi birliyidir, ASEAN isə Cənub-Şərqi Asiya ölkələrinin oxşar regional birliyidir. 1990-cı illərdə üç əsas regional blokla birlikdə (xüsusilə 1994-cü il Meksika maliyyə böhranından sonra) müxtəlif regionlarda daha az əhəmiyyətli pul və maliyyə blokları və zonaları fəal şəkildə formalaşdı: Vişeqrad qrupu və XXI əsrin əvvəllərində100-dən çox regional birlik buna nümunədir *(Зверькова Т.Н. – Оренбург).*

Beynəlxalq maliyyə bazarlarındaregionallaşma meylləri ona gətirib çıxardı ki, bu bazarda dünya pullarının rolunu hazırda üç dünya valyutası oynayır: dollar, avro və yen. Qalan milli valyuta sistemləri onlardan ehtiyat valyuta kimi və beynəlxalq hesablaşmalarda istifadə etməyə məcburdur. Bu vəziyyət beynəlxalq maliyyə bazarlarında qeyri-sabitlik yaradır və milli mərkəzi bankların fəaliyyətinin əlaqələndirilməsini tələb edir *(Зингалес Л., Раджан Р. Спасениекапитализмаоткапиталистов).*

Beynəlxalq maliyyə bazarları üzrə maliyyə aktivlərinin institusionallaşdırılması maliyyə aktivlərinin trastlar, əlavə pensiya sxemləri, tibbi sığorta sistemləri şəklində toplanmasında özünü göstərir və daha geniş yayılır. Törəmə maliyyə alətləri ilə əməliyyatların artımı 1980-2000-ci illərdə baş vermişdir. Beynəlxalq maliyyə bazarları üzrə əməliyyatların nəticələrinin, xüsusən də valyuta məzənnələri və qiymətli kağızların məzənnələri ilə bağlı artan qeyri-müəyyənliyi ilə əlaqədardır ki, bu da risklərin idarə edilməsi mexanizminin inkişafını sürətləndirmişdir. Ənənəvi maliyyə məhsulları onların yeni növləri ilə tamamlanır. Beynəlxalq maliyyə bazarları tendensiyası - maliyyə əməliyyatının ayrı-ayrı iştirakçıları üçün riskləri yenidən bölüşdürməyə və onların səviyyəsini azaltmağa imkan verən törəmələr, ümumiyyətlə, fəaliyyətləri zamanı sistem riskinin ümumi səviyyəsinin artmasına səbəb olur. Törəmə alətlərlə əməliyyatlar mahiyyətcə hüquqi tənzimləmə sistemindən kənarda qaldı və beynəlxalq maliyyə bazarlarının real iqtisadiyyatdan təcrid olunması prosesini sürətləndirdi. Lakin bu o demək deyil ki, onlar arasındakı əlaqə yox olur, əksinə, qarşılıqlı asılılıq genişlənir və çox vaxt gözlənilməz olur *(КейнсДж. М. Общаятеориязанятости, процента и денег., s. 78).*

Qlobal maliyyə böhranı böhrandan ən sürətli və “yumşaq” (soft) çıxış yolunu təmin edən beynəlxalq maliyyə bazarlarının milli və dövlətlərarası tənzimləmə sisteminin yaradılması vəzifəsini aktuallaşdırdı.

Bugünkü qlobal maliyyə-iqtisadi böhrandan çıxış yolu dövlətin birbaşa müdaxiləsi və pul-kredit tənzimlənməsininbalanslaşdırılmışbirləşməsindən keçir və burada optimal nisbəti tapmaq vacibdir.

İştirakçıları müasir informasiya(information) sistemlərindən, qlobal(global) məlumat bazalarından və inteqrasiya olunmuş kompüter idarəetmə sistemlərindən geniş istifadə edən beynəlxalq maliyyə bazarının kompüterləşdirilməsi və informasiyalaşdırılması problemlərinin genişlənməsi və dərinləşməsi də beynəlxalq maliyyə bazarının inkişaf tendensiyasıdır. Beynəlxalq maliyyə bazarında əməliyyatlar haqqında qərarların qəbulu prosesi kompüter proqnozlaşdırılmasına, nəhəng məlumat toplularının statistik təhlilinə və riyazi və statistik modulların metodlarının tətbiqinə əsaslanır. İnternet mübadilə və internet bankçılıq sistemindən istifadə olunur. İnternet texnologiyaları sayəsində çoxsaylı orta ölçülü, lakin yüksək texnologiyalı İnternet korporativ müştəriləri beynəlxalq maliyyə bazarlarında əməliyyatlara giriş əldə etmişlər *(http://banker.az).*

Beləliklə, beynəlxalq maliyyə bazarının qloballaşması prosesində (son 20 il ərzində) aşağıdakı xarakterik xüsusiyyətlər yaranmışdır:

- Beynəlxalq maliyyə bazarların əməliyyatlarının dünya ÜDM-də payı kəskin artıb. 21-ci əsrin əvvəllərində əməliyyatların həcminə görə əmtəə bazarlarını bir neçə onlarla dəfə üstələdi və buna görə də onlara güclü, bəzən dominant təsir bağışladı;
- əksər inkişaf etmiş ölkələrin əhalisi sərbəst vəsaitlərinin getdikcə artan bir hissəsini beynəlxalq maliyyə bazarının müxtəlif məhsullarına köçürür;
- 21-ci əsrin əvvəllərində mal və xidmətlərlə əməliyyatlar praktiki olaraq maliyyə aktivləri ilə əməliyyatlarla əvəz olundu. İstehlakda xidmətlərin və yığılmada maliyyə aktivlərinin üstünlük təşkil etməsinə yönəlmiş davranış modeli yaranmışdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Бункина М.К. Монетаризм. М. АО «ДИС». 1994 г.
2. Бурджалов Ф. Экономическаярольсоциальнойдеятельностигосударства. М. ИМЭМО РАН, 2009. - 251 с.
3. Взаимодействиегосударства и страховыхорганизаций: проблемы и перспективы развития: материалыМеждунар.страховогофорума (8-9 июня 2011 г.,г. Пермь)/гл. ред.И.Ю. Макарихин; отв. ред. М.Ю Молчанова; Перм. гос. ун-т. - Пермь, 2011. - 548 с
4. Дэвидсон П.Посткейнсианскаятеорияденег и проблемаинфляции// Современнаяэкономическаямысль. М., 1981 - 402 с.
5. Зверькова Т.Н.Региональные банки в трансформационнойэкономике: подходы к формированиюконцепцииразвития. Монография /
6. Зверькова Т.Н. - Оренбург: Издательство «ООО «АгентствоПресса», 2012. - 214 с.
7. Зингалес Л., Раджан Р. Спасениекапитализмаоткапиталистов: Скрытыесилыфинансовыхрынков - созданиебогатства и расширениевозможностей / Пер. с англ. - М.: Институткомплексныхстратегическихисследований; ТЕИС, 2004г. - 367 с.
8. КейнсДж. М. Общаятеориязанятости, процента и денег. -М.: Гелиос АРВ, 2002, - 352 с.
9. http://banker.az/az%C9%99rbaycanda-manatla-kredit-ver%C9%99n-banklar-siyahi

# MÜƏSSİSƏNİN MARKETİNQ FƏALİYYƏTİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

***Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***Məmmədov Orxan Rəhman oğlu***
***Elmi rəhbər: i.ü.f.d.Ə.M.Əliyev***

***Xülasə***

Məqalədə müəsissənin marketinq fəaliyyətinin təkminləşdirilməsi istiqamətlərinə baxılmışdır. Eyni zamanda marketinq tədqiqatlarının həll edə biləcəyi məsələlər, hazır məhsulların istehlakçılara çatdırılması təminatı sistemi, vastəçilərin seçilməsini şərtləndirən amillərdən məqalədə danışılmışdır. Marketinq taktikasının mühüm amili olan reklam fəaliyyətinin təşkilinə geniş yer verilmişdir.
***Açar sözlər**: müəsissə, bazar, istehlakçı, vasitəçi, reklam, marketinq taktikası, marketinq strategiyası, müəsissənin bazar potensialı.*

**Summary**

In the article, directions for improving the marketing activity of the enterprise were considered. At the same time, the issues that can be solved by marketing research, the system of guaranteeing the delivery of finished products to consumers, and the factors determining the selection of intermediaries were discussed in the article. Advertising activity, which is an important factor of marketing tactics, has been given ample space.
***Key word:** enterprise, market, consumer, intermediary, advertising, marketing tactics, marketing strategy, market potential of the enterprise.*

## Giriş

Müasir şəraitdə müəsissələrin bazarda uğurlu fəaliyyətinin əsas göstəricisi marketinq amillərini düzgün tətbiq etməsindədir. Hər bir müəsissə öz marketiq startegiyasına uyğun olaraq fəaliyyət göstərməyə çalışır. Bunun istehlakçı tələbini, zövqünü nəzərə almaqla onlara yüksək səviyyədə xidmət etməyə çalışır. İstənilən müəsissə özünün marketinq fəaliyyətini təkmiləşdirməli və buna mütəmadi olaraq nəzarət etməlidir. Belə olduqda müəsissə bazarda özünə müəyyən mövqe tuta, eyni zamanda rəqabət qabiliyyətliliyini qoruyub saxlaya bilər.

Müəssisəninn inkişaf strategiyasının işlənib hazırlanması üzrə cari fəaliyyəti haqqında qərarların formalaşmasında ağırlıq mərkəzi idarəetmənin səmərəliliyinin artırılmasının üzərinə düşür. Marketinq məqsədli bazarı, onun seqmentləşməsini, istehlakçıları, rəqabəti, mal, çeşid, satış, qiymət, mal yeridilişi və kommunikasiya siyasətini, həmçinin marketinqin təşkili və idarə edilməsi proseslərinin tədqiqini nəzərdə tutur.

Bazarda istehlakçıların tələbatında uzunmüddətli dəyişikliklərin proqnozlaşdırılmasını nəzərdə tutan marketinqin strategiyasından fərqli olaraq marketinq taktikası cari konyunktur dəyişikliklərini əks etdirir və bazarda hazır məhsul nomenklaturasına uyğun istehsalçı müəssisənin fəaliyyət istiqamətini müəyyənləşdirir. Strateji planlaşdırma müəssisənin 5-10 illik inkişaf planlarına əsaslanırsa, taktiki planlaşdırma illik planların işlənməsi və planlaşdırılmasını nəzərdə tutur. Odur ki, taktikanın formalaşması zamanı qısa və uzunmüddətli planlar arasında qarşılıqlı əlaqə mütləq təmin olunmalıdır. Belə əlaqələrin səviyyəsi hər şeydən əvvəl müəssisədə istehsalın həcmi, idarəetmənin strukturu, inşaat firmalarında madddi-texnini təchizatın səviyyəsindən bilavasitə asılıdır.

Beləliklə, marketinq taktikası bir qayda olaraq aşağıdakı məsələlərin həllinə yönəlir:

Bura - reklamın təşkili ,yeni məhsullarla bazara çıxış prinsiplərinin müəyyənləşdirilməsi, müəssisənin qiymətqoyma strategiyasının müəyyənləşdirilməsi və s.

Hazır məhsulların satış yerlərinə qədər çatdırılmasının təminatı sistemi bir qayda olaraq aşağıdakı elementləri özündə birləşdirir:

- isteşlakçılardan sifarişlərin qəbulunu;
- yüklərin hazırlanmasını;
- yola salınmış məhsullara nəzarəti;
- nəqliyyat təşkilatları tərəfindən məhsulların daşınmasını;

- məhsulun satışı üzrə vasitəçilik missiyasının yerinə yetirilməsini;

- hazır məhsulun satışını.

Ölkəmizdə məhsulların satışı üzrə vasitəçilik missiyasını yerinə yetirən ticarət-vasitəçi strukturların fəaliyətində əsaslı keyfiyyət dəyişiklikləri müşahidə edilir. Odur ki, vasitəçilərin seçilməsi zamanı aşağıdakı amillər nəzərə alınmalıdır:

Nəzərə alınan maillərə - vasitəçinin zavodda istehsal olunan məhsulların satışı üzrə ixtisalaşma dərəcəsi,seçilmiş bazar seqmentində vasitəçilər arasında rəqabətin mövcudluğu,vasitəçinin kommersiya və maliyyə imkanları, onun iqtisadi göstəricilərinin dinamikası, işçi heyətin ixtisaslaşma səviyyəsi,digər müəssisə və ya firma tərəfindən istehlakçının qiymətləndirilməsi,vasitəçinin anbar təsərrüfatının təşkili səviyyəsi,müəssisənin həyata keçirdiyi qiymət siyasəti ilə vasitəçilərin razılaşdırılması və s..

Vasitəçilərin seçilməsi zamanı müəssisənin irəli sürdüyü tələb hazır məhsullarla rəqabət aparan analoji məhsulların satışı ilə vasitəçilərin ticarət əməliyyatlarına imkan verilməməsindən ibarət olmalıdır.

Marketinq kommunikasiyası sisteminə aşağıdakı kommunikasiya vasitələri aid edilir:

Reklam. Reklam konkret məhsulun (xidmətin, ideyanın, müəssisənin və s.) təbləbatı məqsədilə kütləvi informasiya vasitələrində pullu, biristiqamətli, qeyri-şəxsi və dolayı müraciət edilməsi və ya məlumat verilməsidir. O, kifayət qədər qısa müddət ərzində geniş ictimaiyyətə müraciət etməyə və bunun sayəsində istehlakçıların məlumatlandırılmasına, ticarət markasının mövqeləşdirilməsinin daha yüksək effektlə həyata keçirilməsinə, satış prosesinin asanlaşdırılmasına və s. imkan verir. Lakin, əks əlaqə mövcud olmadıbından istehlakçının reaksiyasını öyrənmək, onu maraqlandıran suallara cavab vermək mümkün deyildir, alqı-satqı müqavilələrinin bağlanması imkanları, demək olar ki, mümkün deyildir.

Bəs brend necə yaradılır? Bunun reklamın işi olduğunu düşünmək kökündən yanlış fikirdir. Reklam yalnız diqqəti brendə cəlb edir, ona maraq ovadır, haqqında söhbət açır - vəssalam. Breııdin qurulması kompleks prosesdir, burda müxtəlif alət toplusu işə keçir: o cümlədən reklam, ictimaiyyətlə əlaqə, sponsorluq, marketinq tədbirlər, xeyriyyə aksiyaları, klublar, kütləvi çıxışlar və s.Reklam fəaliyyətinin təşkili- marketinq taktikasının mühüm tərkib elementidir. Reklama adətən bazarda istehsalçı və istehlakçı arasında kommunikasiya vasitəsi kimi baxırlar. Məhz reklamın köməyilə istehsal olunan məhsulun keyfiyyəti haqqında zəruri informasiyaların istehlakçılara çatdırılmasına səy göstərilir. Reklamın əsas istiqaməti- istehlakçıların ehtiyac və tələblərinin ödənilməsinə yönəldilir. Buna görə tədqiqat aparılan istehsalçı müəssisədə reklam fəaliyyətinin istiqaməti real təsərrüfatçılıq şəraiti, təsərrüfat mexanizmi nəzərə alınmaqla seçilməlidir. Eyni zamanda müəsissələr marketinq komunukasiyya sisteminin reklamla yanaşı bir çox növlərindən istifadə edə bilər. Buraya SEO,SEM,SMM və .s aiddir ki komunukasiyyanın bu növündən günümüzdə bir çox müəsissələr istifadə edirlər. Günümüzdə ən çox təlabat rəqəmsal marketinqə doğru yönəlmişdir. Bu isə istehsalçıların müştərilərlə daha tez əlaqə qurmağın yollarının tapılması deməkdir.

Qloballaşma strategiyasının üstünlükləri aşağıdakılardır:

1. Xərclərin ixtisarı; - mal parametrik sırasının genişləndirilməsinə ehtiyac olmadığından nəzərə çarpacaq qənaət;

2.istehsalın və satışın və bütün marketinq miks elementləri daxil olmaqla miqyası ilə əlaqədar 3.xərclərə qənaət;

3.vahid marketinq proqramından istifadəyə görə qənaət.

4.Məhsulun keyfiyyətinin və marketinq proqramının təkmilləşdirilməsi.

5. Qlobal dünya miqyasında vahid reklam kompaniyasını keçirmək imkanı.

6.Standartlaşmış maddi-texniki təchizatın üstünlükləri (bir ölkədə mal çatışmadıqda başqa regionun ehtiyatından həmin kəsir ödənilir)

7. Kompaniyanın beynəlxalq imicinin və onun əmtəəsinin imicinin yüksəldilməsi.

8. Alıcı istəklərinin möhkəmləndirilməsi.

Rəqabət təsirinin yüksəldilməsi.

9. Beynəlxalq rəqabətdə uduş.

Başqa sözlə, tədqiqat aparılan istehsalçı müəssisə özünün məhsul satışının həcmini artırmaq üçün reklam fəaliyyətinə geniş yer verməlidir. Bunun üçün o, reklam agentlikləri ilə intensiv işbirliyi qurmalı və mütəmali olaraq ənənəvi və yeni məhsulların istehlak xassələri haqqında məlumatları konkret istehlakçı auditoriyasına çatdırılmasına köməklik göstərməlidir. Buna görə reklam kampaniyaları informasiyaların çatdırılması üçün müxtəlif vasitələrdən istifadə edirlər.

İstehsalçı müəssisələr qiymət strategiyasını hazırlayarkən yuxarıda qeyd olunan məqsədlərin reallaşdırılmasına təsir edən amilləri hökmən nəzərə almalıdır.

Bu amillərə:

1.müəssisənin bazar potensialı və onun bazara təsir etmək imkanları;

2.müəssisənin real bazar vəziyyəti və onun rəqabət qabiliyyətlilik dərəcəsi;

3.bazarda rəqabətin səviyyəsi və güclü rəqiblərin mövcudluğu;

4.istehsal profilinin dəyişməsi və yeni məhsul istehsalına keçid;

5.bazar fəaliyyətinin yeni forma və metodlarına keçid və s. aid edilə bilər.

Yeni iqtisadi sistemin özəllikləri olan güclü rəqabət mübarizəsi və istehlakçıların çox geniş seçim imkanına malik olduğu bir dövrdə tikinti-sənayesi müəssisələri sadaladığımız bütün marketinq taktikası məsələlərini həll etməklə yüksək iqtisadi nəticələr əldə edə bilər.

**Nəticə**

Bazar iqtisadiyyatı ictimai təsərrüfatın bir formasıdır və əsas spesifik xüsusiyyətləri mülkiyyətin özəlləşdirilməsi, sahibkarlığın formalaşması, qiymətin tələb və təklif əsasında yaranması, rəqabətin geniş vüsət alması, istehsalçılar arasında şəxsi marağın yüksəlməsi və dövlətin sahibkarlar üçün iqtisadi müstəqillik (qanunlar çərçivəsində) təmin etməsidir.Belə şəraitin bərqərar oldugu bir iqtisadi cəmiyyətdə sahibkarları düşündürən əsas məqsəd yüksək iqtisadi nəticələr əldə etmək,nə qədər məhsul istehsal edəcəksə hamısını reallaşdırmaq,bazarda satış payının artırılması üçün rəqiblərinin tədqiqi, bütün bazar elementlərinin öyrənilməsi, istehlakçının tələbatına daha çox uyğun gələn məhsul istehsal etməkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. M.Allahverdiyeva.Beynəlxalq marketinq.Bakı.2010
2. A. T. Məmmədov Marketinqin əsasları Dərs vəsaiti Bakı-2007
3. T.Ş.Şükürov,R.Ş.Şükürov,Marketinq tədqiqatları Bakı -2007

# AZƏRBAYCANDA MALİYYƏ BAZARINA NƏZARƏTİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Bakı Biznes Universiteti***
***Ağazadə Ramal Saleh oğlu, magistrant***
***Elmi rəhbər:dos. İ.C.Həsənov.***

**Xülasə**

Müəssisələrdə il, ay, rüb ərzində maliyyə-təsərrüfat faəliyyətinin nəticəsi olaraq maliyyə hesabatları tərtib olunur. Bu maliyyə hesabatları müəssisənin gələcək planlamasını, gələcək addımlarını hansı formada atması üçün informasiya mənbəyidir. Bu səbəblə maliyyə hesabatlarının vaxtında, düzgün və neytral formada tərtib olunması zəruri hal daşıyır. Maliyyə hesabatıarının inventarlaşmadan sonra tərtib olunması bu səbəbdən əsas hal kimi götürülür. Maliyyə hesabatlarının bir neçə qolu vardır ki, onların hər biri müəssisənin maliyyə-təsərüüfat fəaliyyətnin ayrı-ayrı hissələrini dövr ərzində özündə əks etdirir.
***Açar sözlər:*** *Maliyyə hesabatları, mühasibat uçotu haqqında qanun, maliyyə-təsərrüffat fəaliyyəti, invendarlaşma, etibarlı hesabat.*

**Summary**

In enterprises, financial reports are drawn up as a result of financial and economic activity during the year, month, and quarter. These financial statements are a source of information for the future planning and future steps of the enterprise. For this reason, it is necessary to prepare financial statements in a timely, correct and neutral form. For this reason, the compilation of financial statements after the inventory is taken as the main case. There are several branches of financial statements, each of which reflects separate parts of the enterprise's financial and economic activity during the period.
***Keywords:*** *Financial statements, law on accounting, financial and economic activity, inventorying, reliable reporting.*

Maliyyə hesabatı təşkilatın təsərrüfat proseslərinin dərk olunmasının başlıca informasiya mənbəyidir. Mühasibat uçotu təşkilatın təsərrüfatmaliyyə proseslərinin maliyyə hesabatının tələblərinə uyğun işlənməsində özünəməxsus üsullardan istifadə edir və bu üsullar uçotun digər növlərində tətbiq olunmur.

Müxtəlif ölkələrdə maliyyə hesabatları bütövlükdə eyni mahiyyət kəsb etsə də onların tərtib olunma qaydası müxtəlifdir. Bəzi ölkələrdə hesabatın tərtib olunma qaydası və prinsipləri, burada uçot informasiyalarının açıqlanması qanunvericilik səviyyəsində tənzimlənir. Digər ölkələrdə isə bu məsələ ilə bilavasitə hesabatı tərtib edənlər məşğul olurlar. Buna görə də iqtisadi fəaliyyət subyektləri tərəfindən tərtib olunan hesabatlar həm özünün xarici görüşünə, həm də daxili məzmununa görə fərqli ola bilər. Mühasibat uçotu və hesabatın milli sistemlərinin harmonizasiyası üçün bir sıra ölkələrdə onların Beynəlxalq Standartlara uyğunlaşdırılması istiqamətində çox böyük işlər görülmüşdür *(Xankişiyev, Ş.Əliyev,Bakı-2013).*

Maraqlı istifadəçilərin ümumi ehtiyaclarını ödəmək üçün mühasibat uçotunda aşağıdakı informasiyalar formalaşır:

- Təsərrüfat subyektinin maliyyə vəziyyəti haqqında informasiyalar;
- Təsərrüfat subyektinin maliyyə nəticələri haqqında informasiyalar;
- Təsərrüfat subyektinin maliyyə vəziyyətində dəyişikliklər, yaxud pul vəsaitlərinin hərəkəti haqqında informasiyalar.

Keçmiş, indiki və gələcək hadisələri qiymətləndirməklə istifadəçilərin iqtisadi qərarlar qəbul etmələrinə təsir edən informasiya münasib hesab olunur. İnformasiyanın münasibliyi onun mahiyyəti və əhəmiyyətindən asılıdır. Maliyyə hesabatını təqdim edənlər tərəfindən nəzərə alınmaması və ya təhrif olunması səbəbindən istifadəçilərin bu hesabatlar əsasında iqtisadi qərarların qəbul edilməsinə təsir edə bilən informasiya əhəmiyyətli hesab olunur *(Ş.Abdulov, Y.Əhmədov, Bakı-2009).*

Maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətlərinə aşağıdakılar aiddir:

- münasiblik;
- əhəmiyyətlilik;

- etibarlılıq;
- neytrallıq;
- ehtiyatlılıq;
- tamlıq;
- müqayisəlilik;
- ardıcıllıq;
- anlaşıqlıq.

Maliyyə hesabatında təqdim olunan informasiyanın mahiyyəti istifadəçilər tərəfindən anlaşılmalıdır. Eyni zamanda istifadəçilər kommersiya fəaliyyəti və mühasibat uçotu haqqında zəruri biliklərə malik olmalı və informasiyanı kifayət qədər dərindən öyrənməyə hazır olmalıdırlar. Maliyyə hesabatının elementlərinə aşağıdakılar aiddir:

- Aktivlər;
- Öhdəliklər;
- Kapital;
- Aktivlərdə təcəssüm olunmuş gələcək iqtisadi səmərə;
- Gəlirlər;
- Xərclər.

Maliyyə hesabatı doldurulan zaman hər hansı bir səhvə yol vermək olmaz. Konkret olaraq, yol verilən bir səhvi düzəltmək olmaz. "Mühasibat uçotu" haqqında Qanunda dəqiqləşdirilmiş maliyyə hesabatının təqdim olunması imkanları nəzərdə tutulmur (vergi hesabatlarından başqa).

Cari dövrün təsərrüfat əməliyyatlarının düzgün əks etdirilməsi aşkarlandığı hallarda hesabat dövrünün sonunadək mühasibat uçotunun müvafiq hesablarında əlavə müxabirləşmələr tərtib etməklə düzəlişlər aparıla bilər.

Hesabat ili başa çatdıqdan sonra əgər illik maliyyə hesabatı hələ təsdiq olunmamışdırsa, düzəlişlər dekabr ayının mühasibat müxabirləşmələrində həyata keçirilir. Bu düzəlişlər müvafiq ünvanlara təqdim olunur.

Əgər, ötən ilin təsərrüfat əməliyyatlarında yol verilən səhvlər cari ildə müəyyənləşdirilmişdirsə, onda hər hansı bir düzəlişin aparılmasına yol verilmir.

Beləliklə, bütün hallarda yol verilən səhvlər həmin dövrdə düzəldilməlidir, ötən tarixlə düzəliş aparmaq olmaz.

Mühasibat uçotunda səhvlərin müstəqil sürətdə aşkarlanması və düzəldilməsinə görə təşkilatın baş mühasibinə cərimə qoyulmur.

İnventarlaşma dedikdə, təşkilatın əmlak və öhdəliklərinin faktiki mövcudluğunun mühasibat uçotu məlumatlarına uyğunluğunun yoxlanılması başa düşülür. İnventarlaşmanın başlıca məqsədi aşağıdakılardır:

- əmlakın faktiki mövcudluğunun aşkara çıxarılması;
- əmlakın faktiki mövcudluğunun mühasibat uçotu məlumatları ilə üzləşdirilməsi;
- maliyyə öhdəliklərinin uçotda tam əks etdirilməsinin yoxlanılması.

Bu zaman müəssisənin əmlakı dedikdə, əsas vəsaitlər, qeyri-maddi aktivlər, maliyyə qoyuluşları, istehsalat ehtiyatları, hazır məhsullar, mallar, sair ehtiyatlar, pul vəsaitləri və onların ekvivalentləri, digər maliyyə aktivləri, maliyyə öhdəlikləri qismində kreditor borcları, bank kreditləri, borclar və ehtiyatlar başa düşülür. Bunlardan başqa, təşkilatın mühasibat uçotunda qeydə alınan, lakin ona mənsub olmayan əmlakın digər növləri (məsuliyyətli mühafizəyə qəbul edilən, icarəyə götürülən, emal üçün alınan), habelə hər hansı bir səbəbdən qeyd olunmayan əmlak da inventarlaşmaya məruz qalmalıdır *(S.M.Səbzəliyev. Bakı, 2003.)*.

Bütün hallarda illik hesabat tərtib ediləndən əvvəl inventarlaşma həyata keçirilir.

Təşkilatda inventarlaşmanı aparmaq üçün aşağıdakı tərkibdə komissiya yaradılır:

Komissiyanın sədri - təşkilatın rəhbəri, yaxud onun müavini; komissiyanın üzvləri - baş mühasib, struktur bölmələrinin rəisləri, ictimaiyyətin nümayəndəsi.

Bununla yanaşı, bilavasitə əmlakın inventarlaşmasını aparmaq üçün aşağıdakı tərkibdə işçi komissiyası yaradılır:

- komissiyanın sədri - inventarlaşmanı təyin edən təşkilatın rəhbərinin nümayəndəsi;
- komissiyanın üzvləri- mütəxəssislər (iqtisadçılar, mühasibat şöbəsinin işçiləri, menecerlər, əmtəəşünaslar və s.). İnventarlaşma komissiyanın tərkibinə təşkilatın daxili audit xidmətinin nümayəndəsini, habelə müstəqil auditor təşkilatının mütəxəssisini də daxil etmək olar *(Ə.A.Sadıqov, T.Ə.Sadıqov, Ş.Ə.Cəfərova.Bakı, 2005).*

Daimi fəaliyyətdə olan və işçi inventarlaşma komissiyasının fərdi tərkibi təşkilat rəhbərinin əmri, yaxud sərəncamı ilə təsdiq edilir. Daimi fəaliyyətdə olan inventarlaşma komissiyasının vəzifələrinə aiddir:

- işçi komissiyalarının təlimatlandırılması;
- nəzarət qaydasında yoxlamaların aparması;
- əksikgəlmələrə yol verən maddi-məsul şəxslərin izahatlarının araşdırılması.

İşçi komissiyalar mal-material ehtiyatlarının və pul vəsaitlərinin inventarlaşmasını bilavasitə yerlərdə aparmalıdır. Təşkilatda təftiş komissiyası olduqda və inventarlaşmanın həcmi böyük deyildirsə, onda bu işi həmin komissiyaya həvalə etmək olar. İnventarlaşma müddətində komissiyanın üzvlərindən biri iştirak etmədikdə, onun nəticələrini etibarsız hesab etməyə əsas verir.

Əmlakın faktiki mövcudluğunun yoxlanılması maddi-məsul şəxsin bilavasitə iştirakı ilə həyata keçirilməlidir.

### İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Xankişiyev, Ş.Əliyev, Büdcə təşkilatlarında uçot və hesabat. Dərslik, Bakı-2013
2. Ş.Abdulov, Y.Əhmədov, "Kənd təsərrüfatında mühasibat uçotu". Dərslik, Bakı-2009
3. S.M.Səbzəliyev. Mühasibat (maliyyə) hesabatı. Bakı, 2003.
4. Ə.A.Sadıqov, T.Ə.Sadıqov, Ş.Ə.Cəfərova. Mühasibat (idarəetmə) uçotu. Bakı, 2005

# AZƏRBAYCANDA İNSAN KAPİTALI VƏ İNVESTİSİYA QOYULUŞU

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Mehdiyev Kərəm Behbud oğlu, magistrant*
*Elmi rəhbər: dos.Ü.Y.Hüseynova*

***Xülasə***

İnsan kapitalına investisiya qoyuluşu - gələcəkdə işçilərin məhsuldarlığını artırmaq və gələcək gəlirlərin və bütövlükdə cəmiyyətin böyüməsinə töhfə verilməsi üçün çəkilən xərclərdir. İnsan kapitalına investisiya qoyuluşuna sağlamlığı qorumaq, ümumi və xüsusi təhsil almaq, iş axtarışı, iş yerində peşə hazırlığı, miqrasiya, doğuş və tərbiyə ilə bağlı qiymətlər və qazanclar haqqında iqtisadi əhəmiyyətli məlumatların axtarışı aiddir. İşçi üçün investisiyaların iqtisadi effekti gəlirlə ifadə olunur. Firma üçün isə iqtisadi effekt işçi heyətinin inkişafına sərmayə qoyaraq əmək məhsuldarlığının yüksəldilməsi ilə ifadə olunur. Məqalədə insan kapitalına investisiya qoyuluşlarının iqtisadi mahiyyəti araşdırılmış, ailə gəlirlərinə təsiri öyrənilmiş və ölkədə insan kapitalına investisiya qoyuluşunun əsas istiqamətləri müəyyən edilmişdir.

***Açar sözlər:*** *İnsan kapitalı, investisiya, iqtisadi artım, təhsil səviyyəsi.*

***Summary***

Investments in human capital are the costs incurred in the future in order to increase the labor productivity of workers and to promote the growth of future income both of a separate capital owners and society as a whole. Investments in human capital include the expenses of health maintenance, receiving the general and special education, the expenses connected with job hunting, training at a work place, migration, child-rearing, searching of economically significant information on the prices and earnings, etc. Economic benefit to the employee is his income. It is improving productivity for a firm that invests in staff development. In the article, the economic nature of investments in human capital was investigated, the effect on family income was studied, and the main directions of investment in human capital in the country were determined.

***Key words:*** *Human capital, investment, economic growht, education level.*

## Giriş

Əvvəlcə onu qeyd edək ki, kapitallar sistemində formalaşan və kapitallar kapitalı olan insan kapitalı - təhsilə və ixtisaslı hazırlığa qoyulmuş kapital sayəsində toplanılmış texniki bilik və bacarıqlar ehtiyatının rolu, əhəmiyyəti, reallaşdırılması istiqamətlərinin dərindən öyrənilməsi müasir dünyada və ölkəmizdə xüsusi aktuallıq və böyük sosial-iqtisadi əhəmiyyət kəsb edir. İnsan Kapitalı insanların ömrləri boyu topladığı biliklər, bacarıqlar və sağlamlıqdan ibarətdir və onların cəmiyyətin məhsuldar üzvləri kimi potensiallarının reallaşdırılmasını təmin edir. İnsanların qidalanması, tibbi yardımı, keyfiyyətli təhsili, iş yerləri və bacarıqlarına investisiyaların yatırılması insan kapitalını inkişaf etdirməyə yardım edir və bu, ifrat yoxsulluğun aradan qaldırılması və daha inkluziv cəmiyyətlərin yaradılması üçün vacibdir. İstehsal olunduğundan təbii və fiziki kapital ənənəvi olaraq sərvətlərin hesablanmasında daha çox ağırlıq təşkil etmişdir, Dünya Bankı tərəfindən aparılmış son təhlil – "Millətlərin Sərvətlərinin Dəyişməsi" – göstərir ki, insan kapitalı qlobal zənginliyin 64 faizi olmaqla, böyük hissəsini, yüksək gəlirli ölkələrin sərvətlərinin 70 faizə qədərini, aşağı gəlirli ölkələrin isə sərvətlərinin yalnız 41 faizini təşkil edir. Bu, insan kapitalının dayanıqlı iqtisadi artım və yoxsulluğun azaldılmasında stimul kimi vacibliyini bir daha vurğulayır, çünki bu, əvvəllər anlaşılandan da çox iqtisadi artım stimuludur.

İnsan kapitalının hesablanması zamanı konkret metodikalar da ölçmələrin hansı vahidlərlə aparıldığından asılı olaraq bir-birindən fərqlənir. Kapital bazar kateqoriyası olduğundan pul və dəyər qiymətləndirmələri təbii hesab olunur. İlkin olaraq insan kapitalının nəzəriyyəçiləri məhz buna üstünlük verirdilər. Lakin yalnız nəzəri yanaşmalar deyil, eyni zamanda konkret tədqiqat tapşırıqlarının müxtəlifliyi altında hazırlanan bu metodologiyalar insan kapitalının əvəzləyici (nümayəndəli) qiymətləndirilməsinə gətirib çıxarır. Hazırda proxies adlanan belə qiymətləndirmələr

çox geniş yayılıb və insan kapitalının natural indikatorlar vasitəsilə ölçülməsini nəzərdə tutur. Onlar bu fenomeni tam əhatə etməkdə iddialı deyillər, ancaq ölkələrarası məzmunlu müqayisələr aparmağa imkan verirlər. Xüsusən nümayəndəli qiymətləndirmələr endogen artım nəzəriyyəçiləri tərəfindən aktiv istifadə olunur.

Digərlərindən sonra qəbul edilmiş daha müasir yanaşma insan kapitalının indekslərlə ölçülməsidir. Bu müəyyən dərəcəyədək üstünlükləri cəmləməyə, natural və dəyər qiymətləndirmələrindəki məhdudiyyət və təhrifləri aradan qaldırmağa imkan verir. İndeks metodologiyası ölkələrarası və kategoriyalararası müqayisələr üçün daha uyğundur (məsələn, müxtəlif ərazilərin, ölkə və sosial qrupların insan kapitalı ehtiyatlarını sıralamaq üçün). Ən geniş yayılmış nümayəndəli qiymətləndirmələr kimi təhsil ilə bağlı xüsusiyyətlərdən, hər şeydən öncə əhali tərəfindən "yığılmış" orta təhsil illərindən istifadə edilir. Bu göstəricinin sadə görünməsinə baxmayaraq, mövcud statistik məlumatlar əsasında onun hesablanması çoxlu texniki çətinliklərlə müşahidə olunur və metodların seçilmiş kombinasiyasından asılı olaraq müxtəlif nəticələrə gətirib çıxarır. Təhsilin müddəti haqqında ilkin məlumatlar, sadəcə olaraq bəzi ölkələrdə əlçatandır. Həmin ölkələrdə belə məlumatlar hər on ildən bir əhalinin siyahıyaalınması zamanı ümumiləşdirilir. Bir çox ölkələr üçün isə (Azərbaycan daxil olmaqla) bu cür məlumatlar, ümumiyyətlə, mövcud deyil. Siyahıyaalma zamanı yalnız təhsil səviyyəsi (ilkin, natamam orta, tam orta və s.) haqqında sual verilir. Bu məlumatlara və hər mərhələ çərçivəsində təhsil müddətinə əsaslanaraq məcmu təhsil müddətini və müvafiq olaraq adambaşına düşən orta göstəricini hesablamaq olar. Bundan əlavə, hər sonrakı dövrdə təhsil illərinin sayı məlumatlar əsasında korrektə edilir: müxtəlif yaş koqorta nümayəndələrinin təhsil səviyyəsi, qovulanların, sinifdə qalanların payı, müxtəlif yaş qruplarındakı ölüm səviyyəsi və s. Bu proses olduqca əməktutumludur. Bununla yanaşı, tətbiq olunan metodologiyada məlumatların əlçatan olmaması ilə bağlı cüzi dəyişikliklər, adətən yekun qiymətləndirmələrdə əhəmiyyətli fərqlərin meydana çıxmasına səbəb olur. Buna baxmayaraq, ana xətt çərçivəsində yığılmış təhsil illərinin orta sayı insan kapitalının ən "qabaqcıl" nümayəndəli qiymətləndirilməsi hesab olunur və ölkələrarası reqressiya modellərinin qurulması zamanı geniş tətbiq olunur. Bunun vasitəsilə təhsil ilə iqtisadi artım arasındakı əlaqəni (bir qayda olaraq, çox da uğurlu olmayan) ölçməyə çalışırlar. Təhsil illərinin sayı indikatoru təkcə ən məşhur deyil, həm də ən fəal tənqid olunandır. Neoklassik ekonometrika üçün acı həqiqətə çevrilmiş fakt ondan ibarətdir ki, onun insan kapitalının nümayəndəli qiymətləndirilməsi kimi istifadəsi ölkələrarası reqressiya tənliklərinin artımını izahedici gücünü artıra bilməməsi, yalnız bu indikatorun hesablanması metodikasının çatışmazlıqları ilə bağlı deyil. Orta təhsil müddəti indikatoru xəstəxanadakı orta temperatur göstəricisindən yalnız bəzi hallarda daha yaxşıdır. Bir tərəfdən, bu, insan kapitalının məcmu ehtiyatlarının ölçülməsi üçün əsas kimi istifadə oluna bilməz. Ona görə ki, təhsil illərinin sayının birbaşa cəmlənməsi qaçılmaz olaraq milli insan kapitalı aqregirləşmiş ehtiyatının təhrif olunmuş xarakteristikasını verəcəkdir: hər biri cəmi altı il oxumuş iki işçinin ehtiyatı tam on iki il oxumuş işçinin ehtiyatına bərabər olacaq ki, bu da apriori səhvdir. Digər tərəfdən, o, əhali arasında insan kapitalının paylanması strukturunu nəzərə almır, onun müxtəlif cinsliyinə müvafiq olaraq düzəliş etmir, təhsilin keyfiyyəti problemlərini və onun iqtisadiyyatın tələblərinə uyğunluğuna məhəl qoymur. Hətta iqtisadi təhlil çərçivəsində bu indikatorun modelə daxil edilməsi reallıqla uzlaşmayan ən azı dörd şərtin qəbul edilməsini tələb edir: işçilərin bütün kateqoriyaları öz aralarında tam əvəzlənəndir (perfect substitutes); müxtəlif işçi qrupları arasında əvəzlənmənin elastikliyinin sübuta ehtiyacı yoxdur; bir illik tədris təhsil sahəsindən (ixtisasdan), onun keyfiyyətindən və texnoloji bazadan (infrastrukturdan) asılı olmayaraq bilik və bacarıqların eyni artımına gətirib çıxarır; işçinin məhsuldarlığı təhsil illərinin sayı ilə düz mütənasib asılılıqdadır. Təhsil səviyyəsinə görə əhalinin strukturunu xarakterizə edən göstəricilər (əmək qabiliyyətli əhali və bütövlükdə əhalinin tərkibində müxtəlif təhsil səviyyəli şəxslərin sayı və nisbəti) ekonometrik modellərin qurulması üçün münasib deyil, lakin təhsil və insan kapitalı yığımının əlaqəsini daha yaxşı əks etdirir. Ölkələrin reytinqi üçün tətbiq olunan toplanmış insan kapitalının əlavə, dolayı indikatoru kimi adətən əhalinin ümumi sayında tədqiqatçıların, elmi dərəcə sahiblərinin sayı və payı, qeyri-maddi investisiya kompleksində - ETTKİ-də və təhsildə çalışanların nisbətindən, həmçinin axın göstəricilərindən: müvafiq yaş koqortalarının müxtəlif təhsil səviyyəsi ilə əhatə

olunması, tələbə və doktorantların sayı, ÜDM-də təhsil və elm xərclərinin payı və s.-dən istifadə olunur. İnsan kapitalının dolayı qiymətləndirilməsinin təsvir olunmuş sisteminin mənfi cəhətlərinə keyfiyyət parametrlərini tutmaq və qiymətləndirməyi bacarmamağı aid etmək olar. Bu boşluğu doldurmaq üçün tədqiqatçılar iki yoldan istifadə edirlər: ya təhsilin keyfiyyətinin nümayəndəli qiymətləndirilməsi kimi resursların vahid xərcləri (bu barədə sonra), ya da insan kapitalına aid edilə bilən əhali parametrlərinin birbaşa qiymətləndirilməsinə istiqamətlənmiş digər qeyri-dəyər göstəriciləri cəlb edilir. Məsələn, belə yanaşma E.Hanuşek və D.Kimkonun əsərlərində tətbiq edilib. Onlar iqtisadi artım amillərini təsvir edən reqression tənlik parametrlərinin sırasına məktəblilərin beynəlxalq test nəticələrini daxil etmişdilər *(Hanushek , 2000: 1207).*

Bilavasitə əhalinin bacarıq və qabiliyyətlərini ölçən testlər əsasında əldə edilmiş insan kapitalının nümayəndəli qiymətləndirilməsindən istifadə müəyyən məhdudiyyətlərə malikdir. Birincisi, bu qiymətləndirmələr əmək və resurstutumlu prosedur olduğu üçün məhdud sayda ölkələr və müəyyən dövrlər üçün perspektivlidir. İkincisi, bir çox tədqiqatçıların fikrinə görə, bu qiymətləndirmələrin tez-tez bir-birinə və ehtiyatın ilkin natural göstəricilərinə (təhsilin yığılmış il sayı və bu və ya digər səviyyəli təhsili olan şəxslərin payı) zidd olması faktı ölçmələri asanlaşdırmaq əvəzinə, vəziyyəti daha da çətinləşdirir. Ona görə də bu gün natural ölçmələrlə yanaşı, toplanmış insan kapitalının pul qiymətləndirmələrinin əsasını təşkil edən təhsilin kəmiyyət qiymətləndirmələri üstünlük təşkil edir. Keçmişdə həyata keçirilmiş səylər əsasında insan kapitalının ölçülməsi insan kapitalı nəzəriyyəsinin ən məhsuldar investisiya aspekti ilə bağlıdır. Lakin bu metodu tətbiq etməmişdən əvvəl fərdi, firma və makro səviyyədə hansı məsrəflərin insan kapitalına investisiya kimi nəzərdən keçirildiyini müəyyən etmək lazımdır. Burada müxtəlif üsullarla birləşdirilmiş, sonsuz müxtəlif konkret üsullar verən iki ekstremal yanaşma mümkündür. Birinci yanaşmaya müvafiq insan kapitalının istehsal xərcləri insanın fiziki və sosial varlıq kimi təkrar istehsal dəyərinə bərabərləşdirilir. İkinci yanaşma bu xərclərin əksər hissəsini istehlaka daxil edir. İnsanların məhsuldar qabiliyyətlərini artıranları isə investisiya hesab edirlər. Birinci yanaşmanın tərəfdarları insan kapitalını ölkə əhalisinin ümumi dəyəri kimi nəzərdən keçirirlər. Ona görə də insanın həyat fəaliyyətini saxlamaq üçün nəzərdə tutulmuş bütün xərcləri (və ya onların böyük əksəriyyətini) insan kapitalına investisiyalar kimi qəbul edirlər. İlk dəfə bu yanaşma 1883-cü ildə E.Engel tərəfindən tətbiq edilmişdir. O, insan kapitalı ehtiyatını ailələrin uşaqların 25 yaşına çatana qədər tərbiyə və saxlanmasına çəkdikləri xərclərin məcmusu kimi hesablamışdır.

Təhsil keyfiyyətinin əhəmiyyətli indikatoru və eyni zamanda keçmişdəki səylərin qiymətləndirilməsi əsasında ölçülən insan kapitalı ehtiyatının vacib elementlərindən biri də maliyyə resursları xərcləridir. Əyani təhsil alan tələbələr arasında işləyərək oxumaq ənənəyə çevrilir. Araşdırmalar göstərir ki, ali məktəbi bitirənədək tələbələrin böyük əksəriyyəti müntəzəm olaraq işləməyə başlayır. Azərbaycanda mövcud olan bu hal bir çox inkişaf etmiş ölkələrin təcrübəsi ilə ziddiyyət təşkil edir. Belə ki, əksər inkişaf etmiş ölkələrdə bir tərəfdən, tələbələrin müntəzəm işlə təmin edilməsi ilə əlaqədar sərt məhdudiyyətlər mövcuddur, digər tərəfdən isə təhsil prosesinin intensivliyi tələbələrə əmək fəaliyyətinə vaxt ayırmağa sadəcə olaraq imkan vermir. Nəhayət, investisiyanın vacib elementi olan istehsalat təcrübəsinin toplanması. Bir sıra elmi araşdırmalarda sovet dövründə toplanan insan kapitalının əhəmiyyətli hissəsinin bir anda dəyərsizləşməsi tezisi əsaslandırılmağa çalışılır *(Нестерова, 1998: 65).*

İnsan kapitalına yatırılan investisiyaların iqtisadi gəlirləri erkən uşaqlıq illərində ən yüksəkdir. Tədqiqata görə erkən mühit daha sonrakı insan kapitalı inkişafının nəticələrini formalaşdırmaqda mühüm rol oynayır. Bilik və bacarıqların əldə olunması daha sonra inkişaf etmək üçün daha çox bilik və bacarıqların əldə olunmasına imkan verir. Uşaqların adekvat tibbi yardım və qida ilə təmin olunması optimal öyrənmə üçün ilkin şərt olan təfəkkürün inkişafına şərait yaradır. Uşaqlıqdan yetkinliyə qədər inkişaf edən və sağlam uşaq məktəbdə təlim və təhsil vasitəsilə bilikləri əldə edə bilər. Bu isə onun gələcəkdə əmək bazarında istifadə edə biləcəyi bacarıqlara çevrilir. Nəticə etibarilə, erkən üstün cəhətlər erkən zəif cəhətlər kimi eynilə, toplanır. Erkən çatışmazlıqların daha sonralar aradan qaldırılması onların vaxtında bərpa olunmasından daha çox məsrəflidir. Eyni zamanda, sosial müdafiə insan kapitalının formalaşmasında bərabərsizliklərin azaldılması ilə həssas insanların səhiyyə və təhsil xidmətlərinə əlçatanlığını təmin edir. Belə ki, yetkin işçinin

məhsuldarlıq tərkibi onun körpəliyində, uşaqlığında və yetkinlik illərində insan kapitalına yatırılan investisiyaların kəmiyyəti və keyfiyyətindən asılıdır. Həmçinin, yetkinlik illərində insan kapitalına davamlı investisiyaların yatırılması uzun müddətli dövrdə əvvəlki investisiyalardan əldə olunan gəlirləri dayanıqlı edir.

Azərbaycanda insan kapitalı ilə bağlı siyasət dialoqunun növbəti fazası bu strategiyanın praktikada tətbiqinə diqqətin ayrılması olmalıdır. Bu aşağıdakıları ehtiva edəcək:

Təklif olunan stimulverici müdaxilələr üzrə icra planının hazırlanması, hər bir müdaxilənin dəyərinin qiymətləndirilməsi ilə bağlı fəaliyyətin həyata keçirilməsi,strategiyanın və insan kapitalı nəticələri ilə bağlı növbəti dəyişikliklərin həyata keçirilməsi üzrə tərəqqinin monitorinqi ilə bağlı mexanizmlərin müəyyən olunması,zəif insan kapitalı nəticələri nümayiş edən sosial qruplar və ya rayonlara ünvanlı investisiyaların yatırılması üzrə meyar və mexanizmlərin müəyyən olunması və bu islahatların maliyyələşdirilməsi, o cümlədən vergi idarəçiliyinin təkmilləşdirilməsi, yeni vergilərin tətbiqi, dövlət büdcəsində insan kapitalı ilə bağlı xərcləmələrin yenidən prioritetləşdirilməsi və ayrı-ayrı sektorlar tərəfindən xərcləmələrin səmərəliliyinin artırılması üçün seçimlərin müəyyən olunması.

Neft və qaz Azərbaycanın gələcəyi üçün mühüm rol oynamağa davam etsə də, bu, təbii ki, risksiz ötüşmür. 2017-ci ilin dördüncü rübündən bareli 60 ABŞ dollar olan neft qiymətləri mart 2020-ci ildə bareli təxminən 32 ABŞ dollarına qədər kəskin şəkildə azalmışdır bu gün isə təxminən 90 ABŞ dollarıdır. Bununla yanaşı, Avropa və ABŞ-da pul siyasətinin tədricən normallaşmasının faiz dərəcələrini yüksəldəcəyi və kredit şərtlərini sərləşdirəcəyi gözlənilir.Proteksionizmin dünyada potensial yüksəlişi regionun iqtisadi artım perspektivlərini bilavasitə azalda və əmtəə qiymətləri ilə bağlı qeyri-müəyyənliyi artıra bilər. Bu potensial risklər göstərir ki, Azərbaycan yeni iqtisadi modelə və yeni iqtisadi artım mənbələrinin inkişafına mane olan struktur çağırışlarının aradan qaldırılmasına ehtiyac duyur. Mədən sənayesindən kənarda xidmətlər və kənd təsərrüfatı sektorlarında artım şaxələndirmə və ticarət nəticəsində canlanmış, lakin bu artım seyrək müşahidə olunmuşdur. Ticarətin inkişaf etmiş şərtləri xidmətlər sektorunda istehsalı canlandırmışdır. Günümüzdə kənd təsərrüfatında istehsal da Rusiya Federasiyasına ixracın artması ilə ildən ilə 6,5 faiz artmışdır.Buna baxmayaraq, ölkədə qeyri-neft sektorunun rəqabətədavamlılığına nail olmaq məqsədilə aktivlərin diversifikasiyası üçün bir sıra maneələr mövcuddur. İstehsal səviyyəsi, xüsusilə kənd təsərrüfatı sektoru kimi işçi qüvvəsinin iri hissələrini məşğulluqla təmin edən sektorlarda mühüm dərəcədə artmamışdır. Şirkətlərin aşağı məhsuldarlıqlıdan yüksək məhsuldarlığı olan sektorlara keçidi məhduddur, belə ki, həmçinin tələb olunan bacarıqlarla təklif olunan bacarıqlar arasında uyğunsuzluq və iqtisadiyyatda böyük həcmdə qeyri-formallıq mövcuddur. Heç bir şaxələndirmə strategiyası daha sağlam insan kapitalı bazası olmadan uğur qazana bilməz. İnsan kapitalının formalaşdırılması - eləcə də, innovasiyalar, məhsuldarlıq, rəqabətlilik və məşğulluq arasında əlaqə yaxşı təşkil olunmuşdur. Bu, bacarıqların çatışmazlığının özəl sektorun rəqabətədavamlığı üçün mühüm əngəl olduğu Azərbaycan üçün xüsusilə, aktualdır. Azərbaycanlıların əmək bazarında daha fəal və məhsuldar şəkildə iştirak etməsi üçün tələb olunan bacarıqlar bazasının formalaşdırılması orta təhsilin keyfiyyətinin yaxşılaşdırılmasını (Azərbaycan və digər yuxarı orta gəlirli ölkələrin şagird nəticələri arasında böyük fərq mövcuddur) və ali təhsilə əlçatanlıqda bərabərliyin artırılmasını tələb edəcək.

Sonda onu qeyd etmək olar ki, istənilən xalqın rifahı və dayanıqlı inkişafı insan kapitalından asılıdır. Ona görə də istər müəssisə, istərsə də bütövlükdə ölkə səviyyəsində insan resurslarının inkişafı və insan kapitalına balanslaşdırılmış investisiyalar sahəsində duşunülmüş və ardıcıl siyasətə ehtiyac vardır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Hanushek E.A., Kimko D. D. Schooling, Labour Force Quality, and the Growth of Nations // American Economic Review. 2000. Vol. 90, No 5. p. 1184-1208.
2. Нестерова Д., Сабирьянова К. Инвестиции в человеческий капитал в переходный период в России. Научный доклад N 99/04. M.: EERC, 1998.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2022). https://www.stat.gov.az/source/budget_households/?lang=en
4. Azərbaycan Respublikasının Hesablamalar Palatası (2022). http://sai.gov.az/upload/files/2022_REY

## SƏNAYE SFERASINDA İQTİSADİ ŞAXƏLƏNDİRMƏ MAHİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***Hüseynova Fatimə Şahin qızı***
***Elmi rəhbər:dos. R.N.Nurəliyeva***

***Xülasə***

Sənaye sferasında iqtisadi şaxələndirilmə qeyri-sabit mühitdə sabit və dayanıqlı iş şəraitini təmin etmək üçün ixtisaslaşdırılmış şirkətlərin yeni iqtisadi fəaliyyət sahələrinə və növlərinə məcburi şəkildə daxil olması prosesidir. Sənayenin şaxələndirilməsi istehsalın səmərəliliyini artırmaq, iqtisadi səmərə əldə etmək, iflasın qarşısını almaq məqsədilə müəssisənin, firmanın istehsal etdiyi məhsulların çeşidinin genişləndirilməsi, növünün dəyişdirilməsi, yeni istehsal növlərinin mənimsənilməsidir. İqtisadi şaxələndirmə faktiki olaraq bir sıra malların manipulyasiyasının və kapital axınının təkamülü kimi təqdim edilə bilər.
***Açar sözlər:*** *sənaye sferası, iqtisadi şaxələdirmə, strategiya, firma, tendensiya.*

***Summary***

Economic diversification in the industrial sphere is the process of forced entry of specialized companies into new areas and types of economic activity to ensure stable and sustainable business conditions in an unstable environment. Diversification of the industry is the expansion of the range of products produced by the enterprise, the firm, in order to increase the efficiency of production, to achieve economic efficiency, to prevent bankruptcy, to change the type, to adopt new types of production. Economic diversification can actually be represented as an evolution of the manipulation of a range of goods and capital flows.
***Keywords:*** *industrial sphere, economic diversification, strategy, firm, trend.*

Sənaye sferasında iqtisadi şaxələndirilmə bir tərəfdən istehsal vasitələrinin qeyri-mərkəzləşdirilməsini, digər tərəfdən isə əməyin ixtisaslaşması və kooperasiyası əsasında müxtəlif fəaliyyət növlərinin təmərküzləşməsini əks etdirir. İstehsalın ixtisaslaşmasında və təmərküzləşməsində kəmiyyət dəyişiklikləri yığılaraq keyfiyyət sıçrayışına səbəb olur ki, bu da sənayenin təşkilinin artıq yeni formasında - iqtisadi şaxələndirilmədə özünü göstərmiş olur *(Баумунг Э. В.2012.1, 40).*

Sənaye sferasında iqtisadi şaxələndirilmənin əsas funksiyası xarici mühitdəki dəyişikliklərə adekvat uyğunlaşmadır və o, bazarın bu və ya digər növ məhsula, işə və xidmətə olan tələbatı ilə müəyyən edilən struktur siyasətinin konkret məqsədlərinə çevrilir. İqtisadi şaxələndirilmə obyektiv bir hadisə kimi, təbii olaraq, müvafiq ilkin şərtlər mövcud olduqda, çoxalma prosesinin inkişafının müəyyən mərhələsində yaranır. Şaxələndirmə üçün ilkin şərtlər və firmaların fəaliyyət göstərməsi üçün yeni imkanlar məhsulun özündə və tək məhsullu fəaliyyət növündə cəmləşmişdir.

Sənaye sferasında iqtisadi şaxələndirilmə ilə bağlı məsələlər tədqiqatçıların xüsusi diqqətini bazar iqtisadiyyatı münasibətlərinə keçidi dövründə cəlb etməyə və öyrənilməyə başladı. Müxtəlif sənaye sahələrində fəaliyyət göstərən bir çox müəssisələr müxtəlif məqsədlər güdərək istehsalın şaxələndirilməsi strategiyasını seçməyə başlayırlar *(Баумунг Э. В.2012.6, s 54).*

Şaxələndirmə strategiyasının seçimi əsasən müəssisənin maliyyə vəziyyətindən asılıdır. Nə qədər ki, şirkət artıq qurulmuş sənayedə gəlir gətirir, iqtisadi şaxələndirilməyə ehtiyac yaranmır. Bununla belə, artım yavaşladıqca iqtisadi şaxələndirilmə firmanın perspektivlərini yaxşılaşdırmaq üçün cəlbedici vasitəyə çevrilir. İqtisadi şaxələndirilmə o zaman da mümkün ola bilər ki, müəssisənin texnoloji inkişafı, əsas səriştələri və ya digər sənayelərdə uğurlu rəqabət üçün resurs bazası olsun.

Sənaye sferasında iqtisadi şaxələndirilmənin 3 əsas məqsədi var:

- Əlverişli tendensiyalar şəraitində balansın tənzimlənməsinə töhfə verməli olan artım hədəfləri;

- Mənfi tendensiyalardan və gözlənilməz hadisələrdən qorunmaq üçün nəzərdə tutulmuş sabitləşdirmə məqsədləri;

- Gözlənilməz hadisələr zamanı şirkətin mövqeyini gücləndirmək üçün nəzərdə tutulan çeviklik məqsədləri *(Abbasov A.B Bakı 2005.2, s 147).*

Sənayenin iqtisadi şaxələndirməyə hazırlığını müəyyən etmək üçün heç bir formul yoxdur. Ümumiyyətlə, şaxələndirmənin yetişmiş olduğu hesab edilir, əgər:

1.Cari biznesin inkişafı imkanları daralırsa;

2.İqtisadi şaxələndirmə malların istehlak dəyərini artırmaq və ya rəqabət mövqeyini gücləndirmək üçün yeni imkanlar açırsa;

3.Mövcud səlahiyyətlər və imkanlar digər sənaye sahələrinə ötürülə bilərsə;

4.Əlaqəli sahələrə iqtisadi şaxələndirmə istehsal xərclərini azalda bilərsə;

5.Müəssisə iqtisadi şaxələndirmə üçün maliyyə və təşkilati resurslara malikdirsə;

6.Eyni sənayedəki şirkətlər müxtəlif bazarlara xidmət edir və hər birinin öz güclü və zəif tərəfləri var, ona görə də onlar bu prosesi müxtəlif vaxtlarda iqtisadi şaxələndirməyə əl atırlarsa *(Львов М. А. 2013. 3, s 33).*

İqtisadi şaxələndirmə o zaman əsaslandırılır ki, o, səhmdarların sərvətini artırır. "Müəssisə səhmlərinin qiymətini artırmaq üçün riskləri bir neçə sənaye sahəsi üzrə bölüşdürmək kifayət deyil. Səhmdarlar özləri müxtəlif sənayelər üzrə şirkətlərə və ya pay fondlarına investisiya qoymaqla risk dərəcəsini azalda bilərlər" *(Abbasov A.B.Bakı 2005.2, s 145).*

**Cədvəl 1.**

**Sənaye sferasında iqtisadi şaxələndirilmənin üstünlükləri.**




***Mənbə:https://studwood.net/1388609/ekonomika/teoreticheskie_osnovy_osobennosti_diversifikatsii_proizvodstva /İstinad tarixi: 03.10.2022.***

Burada iqtisadi şaxələndirmə strategiyasının həyata keçirildiyi beş əsas məqsəd qrupu verilmişdir:

1.Sənaye müəssisəsinin böyüməsi. Əsas məhsul bazarı doyma və yüksək rəqabət səbəbindən cəlbedici olmadıqda, şirkətin böyüməsi üçün başqa bir fəaliyyət sahəsinə daxil olmaq qərarı verilir *(Соломин, А.Н. 2009. 6, s 98);*

2.Riskin azaldılması. Şirkətin inkişafı ilə yanaşı, şaxələndirilmənin növbəti məqsədi riski mümkün qədər azaltmaqdır. İxtisaslaşmış bir şirkətin riski, əsas şirkətlə az əlaqəsi olan sahələrə şaxələndirilərsə, azaldıla bilər. Məsələn, əgər bir şirkətin əsas məhsulları yüksək mövsümi xarakter

daşıyırsa və ya bazarda enişlərə məruz qalırsa, yeni bazarlara daxil olmaq bu tənəzzülləri yumşaltmaq imkanı verir.

3.Rəqabət üstünlüklərinin yaradılması. İqtisadi şaxələndirmə strategiyası çərçivəsində müəssisələr müxtəlif texnologiyaları birləşdirərək öz rəqabət mövqelərini gücləndirə bilərlər.

4.Gəlirliliyin artırılması. Şaxələndirmə strategiyasının həyata keçirilməsi ilə müəssisə çox vaxt fəaliyyətin gəlirliliyini artırmaq kimi bir məqsədə nail olur. Mənfəətlilik əsasən şirkətin resurslarından nə dərəcədə səmərəli istifadə olunmasından asılıdır. İqtisadi şaxələndirmə nəticəsində qeyri-səmərəli investisiya edilmiş və ya izafi maddi və qeyri-maddi resurslardan daha səmərəli istifadə oluna bilər. İqtisadi şaxələndirmə həm də yüngül yüklənmiş istehsal güclərini yükləməyə və müvafiq olaraq bununla bağlı kapitalın rentabelliyini artırmağa imkan verir.

5.İqtisadi şaxələndirmənin sosial mühitə təsir göstərməsi. Sosial məqsədlər əsas istehsalın məhsullarına kifayət qədər tələbat olmadıqda iş yerlərinin saxlanmasına xidmət edir.

Yuxarıda müzakirə olunan məqsədlərin təhlili göstərir ki, iqtisadi şaxələndirmə müxtəlif əmək növlərinin kooperasiya prinsipləri əsasında inkişaf edir. Əmək bölgüsü və istehsalın ixtisaslaşması nə qədər çox inkişaf edərsə, sahibkarlığın müxtəlif növlərini və sahələrini birləşdirmək prosesində şirkətin imkanları bir o qədər çoxşaxəli olar. Hər bir konkret müəssisədə iqtisadi şaxələndirmə strategiyasının həyata keçirilməsi, ilk növbədə, müxtəlif fəaliyyət növləri arasında risklərin bölüşdürülməsi şəklində əsaslandırıla bilər.

"Nə vaxt sənaye sferasında iqtisadi şaxələndirmə lazımdır" sualının həlli, bir tərəfdən, müəssisənin bazardakı rəqabət mövqeyindən, digər tərəfdən isə onun əsas sənayesində qalan imkanlardan asılıdır. Vurğulamaq lazımdır ki, şirkətlərin şaxələndirilməli olduğu dəqiq müəyyən edilmiş məqam yoxdur. Həqiqətən, onlar rasional olaraq şaxələndirmə məsələsinə müxtəlif yanaşmalar seçə və onlardan müxtəlif vaxtlarda istifadə edə bilərlər *(Abbasov A.B.Bakı 2005.4, s 50).*

İqtisadi şaxələndirmənin həqiqətən yetişmiş və əsaslı olub olmadığını müəyyən etmək üçün firmanın müstəqil müəssisələr kimi bölmələrinin effektivliyini qiymətləndirmək lazımdır. Faktiki və təxmin edilən performansın müqayisəsi dəqiq nəticə vermir. İqtisadi şaxələndirmə qərarı gözləntilər və ya proqnozlar əsasında verilməyə məcburdur. Bununla belə, iqtisadi şaxələndirmənin səhmdarların mövqeyinə təsirini müəyyən etmək cəhdindən əl çəkməməliyik. Sənaye sferasında iqtisadi şaxələndirilmiş böyümə strategiyası hazırlayarkən üç meyardan istifadə etmək məqsədəuyğundur:

- Sənaye cəlbediciliyinin meyarı. Şaxələndirmə üçün seçilən sənaye kifayət qədər cəlbedici olmalıdır; qoyulmuş kapitalın məqbul gəlirini təmin etməlidir. Sənayenin cəlbediciliyi orada uzunmüddətli gəlirlilik üçün zəmin yaradan əlverişli rəqabət və bazar mühitinin olması ilə müəyyən edilir. Sənayenin cəlbediciliyi sürətli artım və ya yüksək tələbatlı məhsulların mövcudluğu kimi dəyişkən göstəricilərlə qiymətləndirilmir.

- Sənayeyə daxil olmaq üçün xərclərin meyarı. Yeni bir sənayeyə girməyin dəyəri orada işləməkdən əldə edilən potensial mənfəətdən çox olmamalıdır. Sənaye nə qədər cəlbedici olsa, giriş üçün maneələr bir o qədər yüksək olar. Yeni başlayan şirkətlər üçün giriş maneələri demək olar ki, həmişə yüksək olur, aşağı maneələr yeni şirkətlərin böyük axınını stimullaşdırır ki, bu da potensial gəlirliliyin azalmasına səbəb olur. Çox yüksək giriş xərcləri avtomatik olaraq gələcək mənfəəti və firmanın səhmlərinin nəzərdə tutulan qiymətini azaldır.

- Əlavə müavinətlərin meyarı. Yeni istiqamətlərə şaxələndirmə firmanın mövcud və yeni bölmələrinin səmərəliliyini artırmalıdır. Dəyər zəncirlərinin rəqabətli əhəmiyyətli üst-üstə düşdüyü sənayedə iqtisadi şaxələndirmə baş verərsə, nəticə əldə etmək ehtimalı artır, bu xərclərin azaldılmasına, texnologiya və təcrübənin paylaşılmasına, dəyərli səlahiyyətlərin və bacarıqların yaradılmasına və mövcud resurslardan səmərəli istifadəyə imkan verir. Əlavə üstünlüklər yoxdursa, iqtisadi şaxələndirmənin istənilən nəticəni verməsi ehtimalı azdır.

Hər üç meyar yerinə yetirildikdə optimal nəticə gözləmək olar. İki və ya bir meyar əsasında iqtisadi şaxələndirmə qərarı diqqətlə nəzərdən keçirilməlidir *(Соломин, А.Н. 2009. 6, s 105).*

Sənaye sferasında iqtisadi şaxələndirmənin olması bazar iqtisadiyyatının müasir əsas tələblərindən biri kimi göstərilə bilər. Beləki, bu həm ayrı-ayrı müəssisələrin durğunluq halından

çıxaraq, daimi inkişafını stimullaşdırır, həm də bazarın özünü uzun müddətli böhranlardan qorumuş olur.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Abbasov A.B "Biznesin əsasları" Bakı 2005., 644 səh.
2. Баумунг Э. В. Этапы развития диверсификации производства [Журнал] / Э.В. Баумунг // Молодой ученый. – 2012. – №3. – С. 144-150.
3. Карпенко, О.В. Диверсификация как способ сохранения экономической устойчивости компании // Научный вестник МГГУ. – 2010. – № 7. – С. 31-35.
4. Львов М. А. Методы и проблемы оценки эффективности управ- ления знаниями при реализации проекта / М. А. Львов // Экономика ре- гиона и управление. – 2013. – № 18. – С. 37-42.
5. Ляпина С. Управление знаниями в организации как основное направление повышения конкурентоспособности / С. Ляпина, Т. Григо- рьева // Вестник Национальной ассоциации участников фондового рынка. – 2013. – № 4. – С. 48-54.
6. Соломин, А.Н. Теоретические основы диверсификации производства в рыночной экономике: уч. / А.Н. Соломин - СПб.: Изд-во С.Петербургского ВУЗа, 2009. - 417 с.

# İNHİSARÇILIQ FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNİN DÜNYA TƏCRÜBƏSİ VƏ ONLARIN AZƏRBAYCANDA TƏTBİQİ İMKANLARI

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Hacıyev Qədir Akif oğlu*
*Elmi rəhbər: i.ü.f.d. A.R.Həsənli*

**Xülasə**

Məqalədə inhisarların fəaliyyətinin tənzimlənməsi üzrə xarici təcrübə nəzərdən keçirilir. Burada dörd əsas istiqamət təqdim olunur - təbii inhisarların tənzimlənməsi üzrə dövlət siyasəti: vahid beynəlxalq standartların tətbiqi və saxlanması, qiymət tənzimlənməsi; təbii inhisarçı sənaye sahələrində rəqabət mühitinin formalaşdırılması, saxlanması, inhisar rentasının götürülməsi və yenidən bölüşdürülməsi mexanizminin idarə edilməsi. Bundan əlavə, xarici ölkələrin iqtisadiyyatlarının təbii inhisar seqmentlərində islahatların üç əsas istiqaməti müəyyən edilmişdir. Məqalədə, həmçinin, ölkəmizdə həyata keçirilən antiinhisar tədbirləri və beynəlxalq təcrübənin ölkəmizdə tətbiqi imkanları barədə məlumat verilib.
***Açar sözlər**: inhisarçılıq, tənzimləmə üsulları, beynəlxalq keyfiyyət standartları, qiymət siyasəti, rəqabətli bazarlar*

**Summary**

The article reviews the foreign experience in regulating the activities of monopolies. Four main directions are presented here - state policy on the regulation of natural monopolies: application and maintenance of uniform international standards, price regulation; formation, maintenance of the competitive environment in natural monopolistic industries, management of the monopoly rent extraction and redistribution mechanism. In addition, three main directions of reforms in the natural monopoly segments of the economies of foreign countries have been determined. The article also provided information on the antimonopoly measures implemented in our country and the possibilities of applying international experience in our country.
***Key words:** monopoly, adjustment methods, international quality standards, pricing policy, competitive markets*

## Giriş

İnhisar dedikdə, müəyyən bir məhsulun, yaxud hər hansı bir xidmətin yalnız bir nəfərin və ya şirkətin əlində cəmləşməsi nəzərdə tutulur. Başqa sözlə desək, bazarda rəqabət şəraitinin mövcud olmaması, əvəzləyici məhsulların yoxluğu, bununla yanaşı, standart qiymətlərdən daha yüksək inhisar qiymətləri inhisarçılığın əsas xüsusiyyətləridir. Bu gün iqtisadi nəzəriyyədə təbii inhisarların tənzimlənməsinin üsulları və hədləri haqqında müxtəlif fikirlər mövcuddur. Əlbəttə ki, bu məsələ ilə bağlı müasir baxışlar mübahisəlidir. Bu isə istənilən tənzimləmə vasitələrinin təkcə təbii inhisara deyil, həm də bütövlükdə, cəmiyyətə zərər vura bilməsi ilə əlaqəlidir.

Milton Fridmanın fikrincə, texnoloji inhisar probleminin məqbul həlli yoxdur. Burada yalnız 3 seçim var: özəl tənzimlənməyən inhisar, dövlət tərəfindən tənzimlənən özəl inhisar və dövlətin birbaşa iqtisadi fəaliyyəti *(Гэлбрейт, 1979:35)* J.Galbreith isə dövlətlə qarşılıqlı əlaqədə olan korporasiyaları özündə birləşdirən "planlaşdırma sistemi" adlandırır. O əlavə edir ki, bazarın özü "planlaşdırma sistemini" idarə etmək və ya nəzarət etmək iqtidarında deyil, bu funksiyaları yalnız dövlət və bütövlükdə, cəmiyyət yerinə yetirə bilər. Müəlliflərin fikirləri ilə razılaşa bilərik. Belə ki, inhisar fəaliyyətinin tənzimlənməsinin mövcudluğuna dair bu və ya digər baxışlar sistemi aşağıdakılara əsaslanır:

- dövlət tərəfindən tənzimləyici təsirin olmaması və rəqabətin olması təsərrüfat subyektinə biznes fəaliyyəti çərçivəsində fəaliyyət azadlığı hüququ verir, habelə onun iqtisadi fəaliyyətinin səmərəliliyi (ən yüksək mənfəət əldə etmək) baxımından daha yaxşı fəaliyyət göstərir;
- dövlət təsirinin xeyrinə seçim dövlətin təsərrüfat subyektinin mənafeyinə zidd ola bilən ictimai maraqlardan çıxış etməsi ilə əsaslandırılır. Bu zaman dövlət təbii inhisar subyektinin hərəkətlərini məhdudlaşdırır və ya əksinə, subyektin maraqları ictimaiyyətlə üst-üstə düşdüyü halda onu dəstəkləyir;

- dövlətin müdaxiləsinin olması ictimai maraqlarla, eləcə də təsərrüfat subyektinin maraqları ilə yanaşı, iqtisadiyyatın dövlət sektorunun maraqlarının həyata keçirilməsi ilə diktə edilir.

Yuxarıda göstərilən müddəalar dövlətin daxili iqtisadiyyatda təbii inhisara təsir etməsi zərurətini əsaslandırarkən də nəzərə alınır.

**İnhisarçılıq fəaliyyətinin tənzimlənməsində dünya təcrübəsi:** Təbii inhisarın dövlət tənzimlənməsinə ehtiyac, İ.Nikuykonun fikrincə, üç əsas amilin təsiri ilə bağlıdır. Bu amillər bazarın "uğursuzluğu", tarazlığın qeyri-sabitliyi, makroiqtisadi sabitləşmə ehtiyacıdır. Ənənəvi olaraq, təbii inhisarların tənzimlənməsi üzrə dövlət siyasətinin əsas istiqamətlərinə qiymətlərin tənzimlənməsi, təbii inhisar sahələrində rəqabət mühitinin formalaşdırılması və saxlanması, inhisar rentasının yenidən bölüşdürülməsi mexanizminin idarə edilməsi daxildir *(Никуйко, 2001:17-20*).

Beynəlxalq keyfiyyət standartların tətbiqi və saxlanmasını da müasir iqtisadi dünyada mühüm rol oynayan bir komponent kimi bu siyasətə aid etmək olar. Beynəlxalq Keyfiyyət Standartları dünya üzrə müəssisələrin fəaliyyətinin yaxşılaşdırılması üçün 15 dekabr 2000-ci ildə Beynəlxalq Standartlaşdırma Təşkilatı (Beynəlxalq Təşkilatın ISO 9000:2000 seriyasının standartlaşdırma, İSO) keyfiyyət standartları olaraq qəbul edilmişdir ki, burada 200-dən çox şirkət tərəfindən qəbul edilmiş ən yaxşı dünya idarəetmə təcrübələrini ehtiva edir. ISO 9000:2000 sertifikatı təbii ehtiyatlara, kapital tutumlu infrastruktur aktivlərinə sahib olan və ictimai istehsal edən təbii inhisarlar üçün nəzərdə tutulub. Bu sistemin tətbiqinə dünyanın aparıcı neft-qaz şirkətlərinin texnoloji proseslərində, Avropa dəmir yolu şirkətlərinin daşımalarının təşkilində rast gəlmək olar. Bundan başqa, qeyd etmək lazımdır ki, təbii inhisar öz məhsulunun (xidmətinin) istehlakçılarına münasibətdə keyfiyyət sisteminə əməl etmədikdə, dövlət tərəfindən müxtəlif cərimələr və məhdudiyyətlər şəklində sanksiyalar tətbiq olunur.

Qiymət Siyasətinin Dövlət Tənzimlənməsi - qeyri-kamil rəqabət nəzəriyyəsində üç əsas vəzifə nəzərdən keçirilir. Bunlar təbii inhisarların dövlət tənzimlənməsidir, ikincisi, yalnız normal mənfəət norması təmin edilməlidir, üçüncüsü, onların istehsalı səmərəli olmalıdır. Bu vəzifələrə uyğun olaraq dövlət inhisar məhsullarının qiymətlərini elə səviyyədə saxlamalıdır ki, həmin qiymətlər eyni zamanda marjinal xərcə mümkün qədər yaxın olacaq, həmçinin, xərclərin ödənilməsi üçün kifayət qədər gəlir əldə etməyə imkan verəcək. Müasir tənzimləmə praktikasında bu iki üsulla həyata keçirilir: 1) inhisar sənayesinin xərclərini ödəmək və eyni zamanda, müxtəlif sahələrdə geniş istifadə olunan sosial cəhətdən məqbul tarifləri saxlamaq və 2) dünya ölkələri iki komponentli tariflər və çarpaz subsidiyalardır *(Сосна, 2002).*

İkikomponentli tarif, xidmətdə qeydiyyatdan keçmək hüququ üçün sabit rüsumdan və istehlak edilən hər bir xidmət vahidi üçün dəyişən ödənişdən ibarətdir. Bu metodun nümunəsini telekommunikasiyada görmək olar, burada hər cür abunə və xidmətlər üçün saatlıq ödəniş kombinasiyalarından istifadə olunur. Çarpaz subsidiyalaşdırma isə, bəzi istehlakçılar üçün nisbətən aşağı, digərləri üçün yüksək tariflərlə əvəzləndiyi halda, müəyyən istehlakçı qrupları üçün müxtəlif tariflərin müəyyən edilməsidir. Bu üsuldan bazar iqtisadiyyatı inkişaf etməmiş ölkələrdə geniş istifadə olunur. Bu üsul təkcə infrastruktur sahələrinin deyil, həm də iqtisadiyyatın bütün real sektorunun gələcək inkişafı üçün tormoz ola bilər, çünki sənaye istehlakçıları hesabına enerji və dəmir yolu nəqliyyatı problemlərini daim həll etmək mümkün deyil.

Bundan əlavə, təbii inhisarların məhsulları (xidmətləri) üçün çoxlu qiymət modelləri mövcuddur. ABŞ, Cənubi Amerika və Yaponiyada geniş tətbiq edilən qiymət modellərini şərti olaraq "inzibati tənzimləmə" adlandırmaq olar *(Samuelson, William, Marks, Stephen, 2003:92).* Bunlara qiymət və tariflərin indeksləşdirilməsi metodu və kapitalın gəlirlilik dərəcəsinin tənzimlənməsi daxildir.

Həvəsləndirici tənzimləmənin müxtəlif üsulları Qərbi Avropada məşhurdur və "motivasiya tənzimləməsi" adlanır. Bunlara diferensiallaşdırılmış miqyas, gəlir tavanının tənzimlənməsi və qiymət tavanı daxildir. Bu üsullar şirkətin tariflərini, xərclərini azaltmaq və ya ənənəvi gəlir tənzimləmə dərəcəsi ilə müqayisədə qeyri-qiymət göstəricilərini yaxşılaşdırmaq üçün maliyyə həvəsini artırır. Həvəsləndirici tənzimləmə tənzimləmə nəticəsində müəyyən edilmiş qiymətlə şirkətin xərcləri arasında əlaqəni zəiflədir.

Neoklassik nəzəriyyəyə görə, dövlət tənzimləməsi olmadıqda, təbii inhisar sabitlik nöqtəsindən daha aşağı məhsul təyin edəcəkdir. Nəticədə, potensial rəqiblər bu bazara girməyə şirnikləndirilə bilər ki, bu da "qiymət müharibələrinə", bütün bazar iştirakçılarının itkilərinə və ya mal vahidinə düşən xərclərin səviyyəsinin daha yüksək olacağı "bazar bölgüsünə" səbəb ola bilər *(Goodwin, Nelson, Ackerman, Weisskopf 2009:220).* Hər iki halda inhisar şəraitində cəmiyyətin itkiləri (sosial səmərəsizlik) dövlətin müdaxiləsi üçün kifayət qədər əsas hesab olunur. Digər hallarda olduğu kimi, səmərəlilik standartı mükəmməl rəqabət vəziyyətidir. Ancaq belə bir sənayedə vəziyyəti ideala yaxınlaşdırmağın açıq-aşkar praktiki qeyri-mümkünlüyünə görə dövlətin mükəmməl rəqabətin nəticəsini simulyasiya etməyə imkan verən müxtəlif üsulları var. Məsələn, Demsetz bazarında rəqabət təbii inhisar bazarında müəyyən müddət ərzində fəaliyyət göstərmək hüququ uğrunda rəqabətdir. Bu bazar mühitində xüsusi qaydada təşkil edilmiş tenderlər nəticəsində əldə edilən eksklüziv françayzinqin üstünlüyü ondan ibarətdir ki, müqavilənin uzadılmaması təhlükəsi təbii inhisarı müqaviləni yerinə yetirməyə stimullaşdırır. Lakin təbii inhisarların fəaliyyətinin tənzimlənməsinin digər üsulları kimi bu sxem də mükəmməl deyil.

**Azərbaycanda inhisarçılıq fəaliyyətinin tənzimlənməsi istiqamətləri:** Mübahisəli bazarlarda rəqabət giriş və çıxış üçün iqtisadi maneələrin olmadığı halda dominant firmalar və yeni gələn firmalar arasında inkişaf edən rəqabətdir. Potensial rəqabət təhlükəsi rəqabətli bazarlar nəzəriyyəsi tərəfindən qiyməti xərclər səviyyəsində saxlamağa imkan verən intizam mexanizmi kimi nəzərdən keçirilir.

İnhisar rentasının götürülməsi və yenidən bölüşdürülməsi mexanizminin idarə edilməsi - təbii inhisarın mənfəətinin bir hissəsi inhisar rentasından, yəni kvazi rentadan formalaşır. İnkişaf etmiş ölkələrdə icarə haqqının çıxarılmasının ən geniş yayılmış mexanizmi konsessiya müqavilələridir ki, bu da təkcə dövlət əmlakının deyil, həm də digər publik hüquqi şəxslərin mülkiyyətinin həyata keçirilməsi mexanizmi kimi qiymətləndirilə bilər. Sadələşdirilmiş şəkildə, konsessiya müqaviləsi fiziki şəxsə dövlət və ya bələdiyyə əmlakından müvəqqəti istifadə hüququnun verilməsi kimi müəyyən edilə bilər, bunun müqabilində belə şəxs mülkiyyətçiyə layiqli haqq ödəyir, bir qayda olaraq, əmlakın istismarı ilə bağlı bütün kommersiya risklərini öz üzərinə götürür və müəyyən edilmiş vergiləri ödəyir.

Müasir xarici konsessiyalarda konsessiya obyektləri ictimai mülkiyyətdir. Onun əsas xüsusiyyətləri ictimai xarakter daşıması və xüsusi mülkiyyətə çevrilməsinin qeyri-mümkün olmasıdır. Konsessiya müqavilələri təkcə təbii sərvətlərə deyil, həm də təbii inhisarların sahələrinə, sosial-iqtisadi infrastruktur və elmi-texniki təminat obyektlərinə, kommunal xidmətlərə və s. təsir göstərir. Müqavilənin predmeti əmlakın özü deyil, konsessionerin fəaliyyətidir. Konsessiya münasibətlərində bazar başlanğıcı investorların seçilməsi üçün inkişaf etmiş sistemlə təmin edilir. Bazarda açıq tender və hərraclar, qapalı çoxmərhələli rəqabətli tender, birbaşa danışıqlar və s. kimi mexanizmlər mövcuddur. Müqavilə tərəflərinin iqtisadi səmərə əldə etməsinin mahiyyəti "vergilər üstəgəl qonorar" düsturu ilə ifadə olunur. Beləliklə, konsessionerin müqavilə ilə ona verdiyi hüquqlar nəticəsində aldığı məhsullar onun mülkiyyətidir. Bunun üçün konsessor (ştat və ya rayon) yerin təkindən istifadə hüququna görə müəyyən edilmiş vergiləri və icarə haqqını (royalti) alır.

Beləliklə, dünyanın aparıcı ölkələrinin təbii inhisarların fəaliyyətinin tənzimlənməsi sahəsində mühüm təcrübəsindən iqtisadiyyatın bu seqmentlərində islahatların aparılmasında üç əsas tendensiyanı ayırd etmək olar:

1. Dövlət və biznes resurslarının birləşdirilməsi əsasında dövlət-özəl tərəfdaşlıq (konsessiyalar, idarəetmə funksiyalarının həvalə edilməsi, birgə müəssisələr və hökumət müqavilələri) vasitəsilə inhisar sahələrinin dövlət idarəçiliyinin sərtliyinin azaldılması;

2. İnhisarın əsas komponenti kimi faktiki inhisar "özəyi"nin struktur təcrid edilməsi və onun potensial rəqabətli həlqələrdən təşkilati cəhətdən ayrılması (inhisarın fəaliyyətlərin ayrıca uçotu ilə qondarma biznes bölmələrinə bölünməsi).

3. Qloballaşma proseslərinin təbii inhisarçı sənayelərdə rəqabətin ənənəvi məhdudlaşdırılmasına təsiri. İqtisadi məkanın və coğrafi əhatənin genişlənməsi ilə hətta təbii inhisar da yaranan rəqabətlə məhdudlaşır - istehlakçının təchizatçı seçmək imkanları daha çox olur *(Фишер, Дорнбуш, Шмалензи, 2002:357).*

**Nəticə**

Bu gün respublikamızda da antiinhisar tədbirləri və bu istiqamətdə beynəlxalq təcrübənin ölkəmizdə tətbiqi imkanları genişlənir. Belə ki, bazarın tənzimlənməsi nəticəsində istehsal səmərəliliyinin artırılması, iqtisadi proseslərin sürətləndirilməsi, iqtisadiyyatın inhisarsızlaşdırılması, eləcə də bazarda rəqabətin inkişaf etdirilməsi dövlətin antiinhisar siyasətinin əsas məqsədini təşkil edir. Dövlət həyata keçirdiyi islahatlar nəticəsində bir tərəfdən bazarda hökmran mövqedə duran təsərrüfat subyektlərinin üstünlük imkanlarından sui-istifadə edərək rəqabətin məhdudlaşdırılmasının qarşısını alır, digər tərəfdən isə rəqiblərin bazardan sıxışdırılıb çıxarılmasına və konsentrasiyaya hesablanmış anti-rəqabət sövdələşmələrinə yol vermir, eləcə də regional və beynəlxalq bazarlarda milli istehsalçıların rəqabətli məhsul istehsalı məqsədilə əlverişli şərait yaradır *(http://edf.az/uploads/documents/teqdimat_qalib-togrul_antiinhisar-siyaseti.pdf).*

Bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi də diqqətdə saxlanılan məsələlərdəndir. Belə ki, bununla bağlı olaraq, "Antidempinq, kompensasiya və mühafizə tədbirləri", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında"Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydaları" və "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nda, eləcə də "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti haqqında Əsasnamə" və digər qanunvericilik aktlarında mövcud prosesinin istiqamətləri və vəzifələri müəyyənləşdirilib.

Təsərrüfat subyektləri birliklərinin yaradılması, onların yenidən təşkil olunması və ya ləğv edilməsi zamanı, səhmlər (paylar) əldə edilərkən subyektlər arasında bağlanmış əqdlərin tələblərinin həyata keçirilməsində antiinhisar qanunvericiliyinə əməl olunmasına dövlət tərəfindən nəzarət olunması, inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və ya tamamilə aradan qaldırılması mühüm antiinhisar tənzimləmə vasitələridir.

Bu sahədə müəyyən çatışmazlıqlar olsa da, rəqabət məcəlləsinin qəbul edilməsi, antiinhisar siyasətinin həyata keçirilməsi üçün müstəqilyönümlü rəqabət qurumunun yaradılması və fəaliyyətinin təşkili, antiinhisar qanunvericiliyinin pozulması ilə bağlı konkret işlərə baxan komissiyanın fəaliyyət göstərməsinin təmin edilməsi, yeni yaradılan rəqabət qurumu ilə komissiya arasında vəzifə bölgüsünün aparılması, qəqabət mühitinin tənzimlənməsi məqsədilə müxtəlif dövlətlərlə ikitərəfli müqavilələrin imzalanması, həmçinin, rəqabət qurumunun fəaliyyətinin şəffaflıq və hesabatlılıq prinsipləri əsasında qurulması, milli qanunvericiliyə görə ictimai nəzarətin ən təkmil forması kimi qurumun yanında ictimai şuranın yaradılması dövlət tərəfindən həyata keçirilən antiinhisar siyasətinin səmərəliliyini artıracaq.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Гэлбрейт Дж.К. Экономические теории и цели общества / пер. с англ. М.: Прогресс, 1979. 362 с.
2. Никуйко И.Б. Классификация российских естественных монополий / / Вестник Министерства РФ по антимонопольной политике и поддержке предпринимательства. 2001. №1. С.17-20.
3. Фишер С., Дорнбуш Р., Шмалензи Р. Экономика / пер. с англ. М.: Дело, 2002. 829 с.
4. Сосна С.А. Концессионное соглашение: теория и практика. М.: Нестор Академик Паблишерз, 2002.
5. Goodwin, N; Nelson, J; Ackerman, F; Weisskopf, T (2009).Microeconomics in Context (2nd ed.). Sharpe. p. 315
6. Samuelson, William F.; Marks, Stephen G. (2003). Managerial Economics (4th ed.). Wiley. p. 104
7. http://edf.az/uploads/documents/teqdimat_qalib-togrul_antiinhisar-siyaseti.pdf

# MALİYYƏ DAYANIQLIĞININ MÜƏYYƏN EDİLMƏSİNİN GÖSTƏRİCİLƏR SİSTEMİNİN TƏHLİLİ

***Qərbi Kaspi Universiteti***
***Yusifli Zaur Bayram oğlu, magistrant***
***Qocayev Heydər Famil oğlu, magistrant***
***Elmi rəhbər: N.N.Xudiyev***

***Xülasə***

Maliyyə dayanıqlığının olmaması, sağlam fəaliyyət göstərməyən bir maliyyə sisteminin olmasına yol açır, bu da özlüyündə ümumi iqtisadiyyat üzərində zərərli təsirlərə səbəb olur. Empirik araşdırmalar maliyyə sisteminin xüsusilə ödənişlər və kredit sistemi baxımından iqtisadi böyümə üçün çox önəmli olduğunu göstərməkdədir. Dolayısı ilə, maliyyə dayanıqlığının olmaması ümumi iqtisadiyyat üzərində olan təsirlərinə görə, maliyyə bazarlarında müşahidə olunan qismən dalğalanmalardan fərqlidir. Maliyyə dayanıqlığının olmamasının təsirinin ən şiddətli halı maliyyə böhrandır. Bu yerdə, maliyyə sistemi üzərində meydana gələn stress baxımından maliyyə sisteminin böhranlara qarşı dayanıqlılığı da önəmli rol oynayır. Maliyyə dayanıqlığının olmamasının nəticələri baxımından, bu stressin dərəcəsi və ölçüsü önəmlidir. Makroiqtisadi dayanıqlığın olmadığı hallarda olduğu kimi, maliyyə dayanıqlığınının olmamasının nəticələri də mövcud işsizlik və istehsal həcminə biləvasitə təsir edir və gələcək uzunmüddətli iqtisadi artım üzərində mənfi təsirlərə yol açır.
***Açar sözlər****: maliyyə dayanıqlılığı, maliyyə, risk, maliyyə böhranı, dayanıqlılıq.*

***Summary***

Lack of financial stability leads to an unhealthy financial system, which in itself has detrimental effects on the overall economy. Empirical studies show that the financial system is crucial for economic growth, especially in terms of the payments and credit system. Therefore, financial instability is different from partial fluctuations in financial markets in terms of its effects on the general economy. The most severe case of financial instability is financial crisis. At this point, the stability of the financial system against crises plays an important role in terms of the stress on the financial system. The degree and magnitude of this stress are important for the consequences of financial instability. As with macroeconomic instability, the consequences of financial instability have a direct impact on current unemployment and output and lead to negative effects on future long-term economic growth.
***Keywords:*** *financial sustainability, finance, risk, financial crisis, sustainability.*

## Giriş

Maliyyə dayanıqlığı anlayışı son illərdə iqtisadi ədəbiyyatda çox mühüm yer tutur. İqtisadi əlaqələrin inkişafı ilə ölkələr üçün maliyyə dayanıqlığının əhəmiyyəti daha da artmışdır.

İnkişaf etmiş maliyyə sistemləri olan ölkələri qlobal rəqabətdə bir addım öndə olur. Maliyyə sistemlərinin ölkə iqtisadiyyatını yönləndirmək mövzusundakı gücü sayəsində bu gün maliyyə dayanıqlığını təmin etmək və saxlamaq mərkəzi bankların öhdəlikləri arasındadır. Maliyyə dayanıqlığının təmin edilməsi ilk növbədə maliyyə sabitliyinin monitorinqindən asılıdır. Maliyyə sabitliyinə nəzarət etmək üçün isə dayanıqlılıq və sabitlik ölçülə bilən olmalıdır.

**Maliyyə dayanıqlılığı və onun iqtisadiyyatdakı önəmi**

Maliyyə dayanıqlılığı, məhsul və ya xidmətin yalnız xərcləri əhatə etməyən, həm də gəlir gətirən qiymətə satılması deməkdir. Yəni Maliyyə dayanıqlığında siz məhsul və xidmətləri sadəcə xərclərinizi qarşılayan qiymətə satmayacaqsız həm də siz artıq Gəlirlərinizin artdığı və yaxud xərclərinizin azaldığı üçün mənfəət də əldə etməyə başlayacaqsınız. Böhran vəziyyətində bu o deməkdir ki, öz fəaliyyətinizi maliyyələşdirmək üçün daxildə maliyyə öhdəliyini yerinə yetirmək (özünü maliyyələşdirməyi bacarmaq) başqa alterativ imkanlara malik olmaq deməkdir.

2008-ci ildə baş verən maliyyə böhranından sonra baş verən proseslər maliyyə dayanıqlığı məsələsinin geniş əhəmiyyət kəsb etməsinə yol açmışdır. Maliyyə sabitliyini təmin etmək istəyən mərkəzi banklar və beynəlxalq təşkilatlar sabitliyi təmin etmək üçün öz siyasətlərini intensivləşdirmişlər.

Maliyyə sabitliyinin qorunması, sistemi çökməyə və dalğalanmalardan qorumağı özündə ifadə edir *(Delice, 2007: 85).* Ümumiyyətlə Maliyyə dayanıqlığı və maliyyə sabitliyi anlayışına ümumi tərif yoxdur . Sabitlik anlayışı, yəni qeyri-sabitliyin olmaması o deməkdir ki, maliyyə bazarları üçün problemlər yaratdığı mənasına gəlir. Yəni əgər maliyyə dayanıqlığı yoxdursa, maliyyə bazarlarnda dalğalanmalar var deməkdir və bu da maliyyə bazarları və ümumilikdə iqtisadiyyat üçün problemlərin olmasını ifadə edir.

Maliyyə sabitliyi anlayışının müəyyən edilməsinin çətinləşdirən səbəbləri 5 alt başlıq altında müzakirə edə bilərik.

1. Maliyyə sabitliyi ilə bağlı inkişafları vahid göstərici ilə izah etmək mümkün deyil.
2. Maliyyə dayanıqlığı ilə bağlı inkişafın proqnozlaşdırılmasında çətinliklərin olması.
3. Maliyyə sabitliyi məsələsi ilə bağlı inkişafların qismən nəzarət edilə bilinməsidir.
4. Maliyyə sabitliyi ilə bağlı siyasətin çevikliyi və effektivlik məsələlərində dilemmanı özündə ehtiva etməsidir.
5. Maliyyə dayanıqlığını təmin etmə yönümlü siyasətlərin vaxt baxımından bir-birinə zidd ola bilməsidir.

Bəzi elm adamlarına görə maliyyə qeyri-sabitliyi "üç əsas meyar" əsasında formalaşır. Bəzi mühüm maliyyə aktivlərinin qiymətlərində dəyişkənlik olması, bazarın fəaliyyəti və kredit mövcudluğu yerli və bəlkə də beynəlxalq dərəcədə əhəmiyyətli səviyyədə pisləşməsi və nəticədə ümumi xərclərin iqtisadiyyatın istehsal qabiliyyətindən yuxarı və ya aşağı doğru əhəmiyyətli dərəcədə yerdəyişməsidir *(What is Sustainable finance? | Credit Suisse (credit-suisse.com).*

Maliyyədə yaranan qeyri-sabitliyin, maliyyə sisteminin fəaliyyətinə təsir göstərməklə iqtisadiyyatın performansını zəiflədən və ya zəifləməsinə təsir göstərmə təhlükəsinin olduğu vəziyyətlərdir.

Maliyyə sabitliyini maliyyə sabitliyi yolu ilə izah edən bəzi təriflər aşağıdakı kimidir:

Padoa-Şioppaya görə (2002), maliyyə sabitliyi, maliyyə sisteminin iqtisadiyyatında investisiya imkanları və ödənişlərin həyata keçirilməsində mənfi təsir göstərən klimulativ proseslərin baş verməsi ilə nəticələnməyərək, dalğalanmalara tab gətirə biləcəyi vəziyyətdir.

Şchinasinin (2004) fikrincə, maliyyə dayanıqlığı maliyyə sisteminin əvvəlcədən proqnoz verilə bilinməyən olması və önəmli hadisələr nəticəsində və yaxud ölkələrin daxilində müəyyən səbəblər nəticəsində meydana gələn maliyyə problemləri zamanı həmin bu problemlərin aradan qaldırmaq və iqtisadiyyatın vəziyyətinin normallaşdırmaqda rol oynayan əsas amildir

Maliyyə sisteminin arxitekturasının dəyişməsi ilə maliyyə sabitliyi anlayışı daha çox əhəmiyyət kəsb etmiş, qlobal böhranların sonrasında maliyyə sistemində baş verə biləcək risklər xüsusilə real iqtisadiyyatda ciddi ölçüdə olması anlaşılandır.

Maliyyə sabitliyi konsepsiyasının əhəmiyyəti üç başlıq altında müzakirə oluna bilər:

1. Maliyyə sabitliyinin qlobal maliyyə bazarlarına töhfəsi: Bir ölkədə baş verən iqtisadi dalğalanmalar səbəbindən bəzi bazar iştirakçılarının itkisi, yayılma effekti və digər bazar iştirakçılarının itkisinə səbəb ola bilər. Böhran baş verməmişdən əvvəl sistemli maliyyə böhranının yarada biləcəyi xərc, böhran başlamamışdan öncə ilk növbədə stabilliyin qorunması üçün tələb olunan xərclərdən çox ola bilər.

2. Maliyyə Sabitliyi Ölkə İqtisadiyyata töhfəsi: Əmanətlərin və investorların öz fəaliyyətlərini səmərəli şəkildə həyata keçirmələri üçün zəruridir. Resurs transferinin sağlam şəkildə davam etdirilməsini təmin edən maliyyə sabitliyi risklərin balanslaşdırılmış idarə olunmasını təmin edir və iqtisadiyyatın kövrəkliyini azaldır.

3. Maliyyə Sabitliyi Tətbiq olunan Monetar Siyasətə töhfəsi: Maliyyə sabitliyi, mərkəzi bankların pul siyasəti strategiyalarında çeviklik təmin edir. pul siyasətinin effektivliyi üçün vacibdir.

Əgər bir ölkə iqtisadiyyatında maliyyə sabitliyi əldə oluna bilmirsə, pul siyasətin alətləri arzu olunduğu kimi istifadə olunmaya bilər və həyata keçirilən siyasətlərdən gözlənilən təsir təmin edilə bilməz.

**Maliyyə dayanıqlığının göstəriciləri**

Maliyyə dayanıqlığının izlənməsi və ölçülməsi də göstəricilərin müəyyən edilməsi qədər çətindir.

Maliyyə dayanıqlığının üzərində müəyyən edilmiş bir tərifini olmadığı kimi maliyyə dayanıqlığını yansıdan dəqiqliyi olan qlobal bir göstərici toplusu da yoxdur. Hər ölkənin iqtisadi prosesləri və iqtisadi vəziyyəti fərqli olduğuna görə qlobal olaraq bir göstəricilər paketinin olmaması da məntiqlidir.

Maliyyə dayanıqlığı maliyyə sisteminin bütün ünsürlərinə bağlı olduğu üçün maliyyə qurumların sağlamlığı, maliyyə bazarlarının vəziyyəti və maliyyənin infrastrukturunu əmələ gətirən hissələrin məhsuldarlığından təsirlənə bilir. Bu səbəblə də maliyyə dayanıqlığının ölçülməsi maliyyə sisteminin ünsürlərinə yəni maliyyə qurumlarına, maliyyə bazarlarına və infrastrukturuna görə fərqli göstəricilərə ehtiyac duyulur. Maliyyə bazarlarının dayanıqlığının göstəriciləri içərisində iqtisadi və maliyyə sistemində arzuolunmaz nəticələr yarada biləcək potensial sürətli qiymət dəyişikliklərinə və yaxud maliyyə bazarlarındakı likvidlik böhranına işarə edən göstəricilər də yer alır *(Göksel Tiryaki, Finansal istikrar ve bankacılık düzenlemeleri, 2012).*

Nəzəriyyədə yer alan çalışmalar ilə mərkəzi bankların maliyyə dayanıqlığının analizləri də maliyyə sağlamlığının göstəriciləri, maliyyənin inkişafının göstəricisiləri, maliyyə kövrəkliyinin göstəriciləri, qlobal iqtisadi vəziyyətin göstəriciləri və müxtəlif makro iqtisadi göstəricilərdən yararlanırlar.

Maliyyənin dayanıqlılığının analizi, bir yerə qədər, ənənəvi makroiqtisadi analiz ilə eynilik təşkil etməkdədir. Bu analiz, sektorların (ev təsərrüfatları və yaxud da müəssisələr olsun fərq etmir) maliyyə vəziyyətlərini göstərən, hesabat informasiyaları, xalis borclar və gəlirlər arasındakı əmsallar, qarşı tərəf riski(kredit marjaları kimi), likvidlik və aktivlərin keyfiyyəti göstəriciləri, açıq məzənnə vəziyyətləri və sektorlar üzrə risklərin baş vermə ehtimalı kimi standart göstəricilərə əsaslanan, foluslaşma faizlərinə xüsusi olaraq önəm verir. Bunlara makro iqtisadi səviyyədə yüksəldilmiş mikroiqtisadi göstəricilərdir *(https://ctb.ku.edu/en/table-of-contents/finances/grants-and-financial-resources/financial-sustainability/main).*

Maliyyə sisteminin dayanıqlığının dəyərləndirilməsi üçün, banklararası borclanma, repo, səhm, və s. Və digər Törəmə maliyyə alətləri bazarları da daxil olmaqla əhəmiyyətli bazarlardakı şərtlərin izlənilməsinə əsaslanan göstəricilərdən ibarət daha geniş bir data toplusuna ehtiyac var. Göstəricilər arasında bazar likvidliyi(alış-satış qiymətləri fərqləri kimi), bazarın qeyri-müəyyən olması və riski və aktivlərin qiymətinin davamlılığı ölçülərini misal göstərmək olar *(Göksel Tiryaki, Finansal istikrar ve bankacılık düzenlemeleri, 2012).*

İnkişaf etməkdə olan ölkələrin mərkəzi bankları maliyyə dayanıqlığı analizlərində əsasən. Beynəlxalq Valyuta Fondunun müəyyən etdiyi əsas göstəricilər paketi olan maliyyə sağlamlığını göstərən göstəricilərdən istifadə etməkdədirlər.

**Beynəlxalq Valyuta Fondunun Maliyyə Sağlamlığı göstəriciləri:**

| **Əsas göstəricilər toplusu** | |
|---|---|
| **Depozit toplayan maliyyə institutları** | |
| **Kapital adekvatlığı** | Nizamnamə kapitalı / riskli aktivlər<br>Nizamnamə kapitalı / riskli aktivlər<br>Xalis işləməyən kreditlər / Kapital |
| **Aktivlərin keyfiyyəti** | İzlənmədə olan problemli kreditlər / Məcmu kreditlər<br>Kreditlərin sektorlar üzrə paylanması/ Məcmu kreditlər |
| **Mənfəətlilik** | Xalis mənfəət / Məcmu aktivlər (aktivlərin rentabelliyi) xalis mənfəət / öz kapitalı (öz kapitalının rentabelliyi)<br>Faiz marjası / Məcmu gəlir<br>Qeyri-faiz xərcləri /Məcmu gəlir |
| **Likvidlik** | Likvid aktivlər / Məcmu aktivlər (likvid aktivlər əmsalı) |

| | |
|---|---|
| | Likvid aktivlər / Qısamüddətli öhdəliklər |
| **Bazar Riskinə Həssaslıq** | Xarici valyutada xalis açıq mövqe / Kapital |
| **Əlavə köməkçi göstəricilər toplusu** | |
| **Depozit qəbul edən maliyyə təşkilatları** | Kapital / Məcmu Aktivlər<br>Böyük həcmli Kreditlər / Kapital<br>Kreditlərinin coğrafi bölgüsü<br>Törəmə maliyyə alətlərində aktivlərin ümumi vəziyyəti / Kapital<br>Törəmə maliyyə alətlərində ümumi öhdəlik mövqeyi / Kapital<br>Kadr Xərcləri / Qeyri-Faiz Xərcləri Göstəricisi Kredit Faizləri və Depozit Faizləri Fərqi<br>Ən yüksək və ən aşağı Banklararası Faizli Müştəri Depozitləri / Ümumi Kreditlər (Banklar İstisna)<br>Xarici valyuta ilə olan kreditlər / Məcmu Kreditlər<br>Xarici Valyutada olan öhdəlikləri / Məcmu Passivlər<br>Kapital üzrə xalis açıq mövqe / Kapital |
| **Digər maliyyə institutları** | Aktivlər / Ümumi Maliyyə Sistemi Aktivləri<br>Aktivlər / ÜDM |
| **Qeyri-maliyyə sektoru** | Ümumi Öhdəliklər / Kapital Xalis Mənfəət / Kapital<br>Ümumi Gəlirlər / (Faiz + Əsas Ödənişlər)<br>Xalis Xarici Valyuta Mövqeyi / Kapital<br>Kreditorlardan müdafiə üçün müraciətlərin sayı |
| **Ev təsərrüfatları** | Ev Təsərrüfatlarının Borcu / ÜDM<br>Ev Təsərrüfatlarının Borc faizi və Əsas Ödənişlər / Məcmu gəlir |
| **Bazar likvidliyi** | Səhm bazarlarında ortalama alış – Satışın yayılması<br>Fond bazarlarında gündəlik orta dövriyyə surəti |
| **Daşınmaz əmlak bazarı** | Yaşayış Mənzil Qiymətləri ((İllik Qiymət Dəyişikliyi) Kommersiya Daşınmaz Əmlak Qiymətləri (İllik Qiymət Dəyişikliyi) Yaşayış Mənzil Kreditləri/Məcmu Krediler<br>Kommersiya Mənzil Kreditləri/ Ümumi Kreditlər |

**Mənbə: IMF, http://data.imf.org/regular.aspx?key=61404590.**

Beynəlxalq valyuta fondunun əsas göstəricilər paketi daxilində göstərdiyi maliyyə sağlamlığının göstəricilərindən kapital yetərliliyi göstəriciləri bank sektorunun iqtisadi şoklara, maliyyə böhranlarına tab gətirmək və ani zərərlərə qarşı gəlmə qabiliyyətini göstərir. Aktivin keyfiyyəti göstəriciləri bankların ödəmə qabiliyyətinə təsir edə biləcək zərərlərin aradan qaldırılması qabiliyyətinin ölçülməsini təmin edir. Likvidlik göstəricləri bankların nağd pul axınının dayanması zamanı yaranan böhrana qarşı elastikliyini ölçür. Bazar riskinə daha həssas aktiv və öhdəlik sahiblərinin dediyi tarixlərdən qaynaqlanan risk, aktivlərin qiymətindəki dəyişikliklərdən meydana gələn risk, faiz riski və məzənnə riskini özündə birləşdirir.

Gadanecz və Jayaram(2009) araşdırmalarında, nəzəriyyədə olan və maliyyə dayanıqlığı analizində tətbiq edilən göstəriciləri altı əsas sektora görə qruplaşdırıblar. Bu sektorlar və sektorların dayanıqlığını ifadə edən göstəricilər cədvəldə verildiyi kimidir *(Blaise Gadanecz and Kaushik Jayaram (2009). Measures of financial stability – a review. pg.367-369).*

| **Sektor** | **Göstərici** | **Nəyi ölçür?** | **Nədən xəbər verir?** |
|---|---|---|---|
| **Real iqtisadiyyat** | Artım (ÜDM artımı) | Bu, makroiqtisadiyyatın gücünü göstərir. Bu, ÜDM, | Mənfi və ya müsbət minimumlar resessiya haqqında siqnal verir, halbuki yüksək |

| | | | |
|---|---|---|---|
| | | kreditləşmənin artımı və büdcə kəsiri kimi göstəricilərlə birlikdə istifadə olunan əsas göstəricidir. | dəyərlər qeyri-sabit artım haqqında siqnal ver33ir. |
| | Hökumətin maliyyə vəziyyəti | Bu, hökumətin maliyyələşdirmə və maliyyə tapılmasa, dövlət borcunun yaratdığı maliyyə zəifliyini tapmaq qabiliyyətinə aiddir. | Yüksək büdcə kəsiri dövlət borclarının qeyri-sabit olduğunu və dövlət borclarının həssas olduğunu göstərir. |
| | İnflyasiya | Müxtəlif qiymət indekslərinin artım tempis. | Yüksək inflyasiya iqtisadiyyatın struktur zəifliyini göstərir və borclanmanı artırır, həmçinin sərt pul-kredit siyasətinin qəbul edilməsinə gətirib çıxara bilər. digər tərəfdən, aşağı inflyasiya maliyyə bazarlarında risk iştahını artıra bilər. |
| **Firmalar** | Ümumi borc/Kapital | Firmaların kredit çiyni əmsalları. | Həddindən artıq yüksək səviyyədə borc öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı çətinliklər haqqında bir siqnaldır. |
| | Gəlirlər / faiz və əsas xərclər | Firmaların borclarını daxili resurslar hesabına ödəmək qabiliyyəti | Son dərəcə aşağı likvidlik borc öhdəliklərinin yerinə yetirilməməsinin siqnalıdır. |
| | Xalis valyuta mövqeyi / kapital | Valyuta uyğunsuzluğu | Yüksək əmsal firmalar üçün valyuta məzənnələrinin bərpası nəticəsində yaranan çətinliklər barədə siqnaldır. |
| | Defolt firmalar | Firmaların borclarını ödəyə bilməməsi | Yüksək dəyərlər bank sektorunda gələcəkdə problemlərin yaranacağına dair siqnaldır. |
| **Ev təsərrüfatları** | Ev təsərrüfatlarının aktivləri (maliyyə aktivləri və Daşınmaz əmlak) | Aktivlər və öhdəliklər ev təsərrüfatlarının xalis aktivlərini hesablamaq üçün istifadə olunur. | Ev təsərrüfatlarının xalis aktivləri və sabit gəlirləri, ev təsərrüfatlarının gözlənilməz iqtisadi tənəzzülə qarşı çıxmaq üçün güc siqnalıdır. |
| | Ev təsərrüfatının borcu | | |
| | Ev təsərrüfatı gəlirləri (əmək haqqı və əmanət gəlirləri) | Gəlir, istehlak, borc xidməti və ödənişlər xalis ədalətli gəlir hesablamaq üçün istifadə olunur. | |
| | Ev təsərrüfatlarının istehlakı | | |
| | Ev təsərrüfatlarının borcu üzrə xidmət və ödənişlər | | |
| **Xarici Aləm** | Real valyuta məzənnəsi | Valyutanın az və yox çox dəyərlənməsi | Valyutanın yenidən qiymətləndirilməsi və ya qiymətləndirilməməsi böhranı təhrik edir. |
| | Valyuta rezervi | Ölkənin xarici sarsıntılara qarşı durmaq qabiliyyəti. | Bu, qısamüddətli borc və ya rüblük ixrac üçün rezervlərlə bağlı problemlərin siqnalıdır.. |
| | Cari əməliyyatlar / kapital hərəkəti | Ölkədə ticarət vəziyyəti. | Önemli derecedeki ticaret açıklarının finanse edilebilmesi için yüksek sermaye girişi gerekmektedir, bu oran da sermaye girişlerinin sürdürülebilirliğini yükseltmektedir. |

| | | | |
|---|---|---|---|
| | Ödəmə müddətlərinin / xarici valyutanın uyğunsuzluğu | Aktivlərin və öhdəliklərin xarici valyutada/ödəmə müddətlərinə uyğun gəlməməsi | Ödəmə müddətlərinin və xarici valyutanın uyğunsuzluğu iqtisadiyyatı şoka salır, nə vaxt ki, gözlənilməz valyuta tərəddüdləri və kapital axını baş verir. |
| **Maliyyə Sektoru** | Pul kütləsi | Əməliyyat, yığım və kredit | Həddindən artıq artım inflyasiya təzyiqinin siqnalıdır. |
| | Real faiz dərəcəsi | Kreditin maya dəyəri,Depozit cəlb etmə gücü , Borcların davamlılığı. | İqtisadi artım tempi kimi həddən yuxarı real faiz dərəcələri borc/ÜDM nisbətlərini təhlükəli edir, mənfi real faiz dərəcələri isə bankların əmanətləri cəlb etmək üçün mübarizə aparması deməkdir. |
| | Bank kreditlərində artım<br>Bank leverec əmsalı | Bank sektorunun riski. | Kreditlərin sürətlə artması kredit standartlarının azalması ilə müşahidə olunur. Həddən artıq kredit itkiləri, leverage nisbətləri və risk premiumu bank böhranının aparıcı göstəricisi ola bilər. Kredit itkiləri/ÜDM nisbəti bank böhranının iqtisadiyyata olan xərclərinin ölçüsü ola bilər. |
| | Vaxtı ötmüş kreditlər | | |
| | Risk Primi (CDS)<br>Kapital adekvatlığı | Bankların kapitalının azalması gözlənilən və gözlənilməz itkiləri nəzərdə tutur. | Bu məzənnənin həddindən artıq aşağı olması potensial defoltların və bank böhranlarının xəbərçisidir. |
| | Likvidlik Nisbəti | Bu,bankların qısamüddətli öhdəliklərinin yerinə yetirilməsi üçün qısa müddətli mövcud resurslarından istifadə olunmasıdır. | Bu sürətin həddindən artıq aşağı olması sistem böhranına gətirib çıxarır. |
| | Müstəqil bank kredit dərəcələri | Dövlətin və digər qurumların nüfuzundan başqa bankların fərdi gücü də nəzərə alınır. | Bunlar bankların gələcək maliyyələşdirmə xərclərinə təsir edəcək mümkün göstəricilərdir. |
| | Regional/sektoral konsentrasiya | Bankların kreditləşmə strategiyalarının konsentrasiyası və diversifikasiyası. | İqtisadiyyatda şokların yayılma sürətini göstərir . |
| **Maliyyə Bazarları** | Kapital indekslərində dəyişiklik | Firmaların gələcək nağd pul axınlarının indiki dəyəri. | Trenddən yuxarı indeksdə artım və ya çox yüksək bazar dəyəri/kitab dəyəri nisbəti fond bazarında qiymət küyünün olduğunun göstəricisidir. |
| | Borcların maliyyələşdirilməsi | Borcların riski və risksiz alətlər. | Yayılanların birdən-birə artması risklərin artması, risk iştahasızlığının dəyişməsi və bazarda informasiyanın qiymətlərdə əks olunması istiqamətində dəyişiklik olması deməkdir. |
| | Bazar likvidliyi | Likvid alətlərinin asan ticarəti üçün bazarında yaranan qiymətlər . | Bu premiumlarda qəfil artımlar bazar likvidliyinin pisləşməsini əks etdirir. |
| | Volatillik | Bazarda qiymət hərəkətlərinin intensivliyi və bazarda fəaliyyət asanlığı. | Aşağı volatillik durğun bazarların və qiymətlərin formalaşmasında problemlərin göstəricisi ola bilər. Yüksək volatillik bazar likvidliyinin pisləşməsini əks etdirir. |
| | Əmlak qiymətləri | | Əmlakın qiymət qabaritləri qiymətlərin aşağı düşməsi halında maliyyə sektorunda baş verəcək potensial itkilərin göstəricisidir. |

**Mənbə: Blaise Gadanecz and Kaushik Jayaram (2009). Measures of financial stability – a review. pg.367-369.**

## Maliyyə dayanıqlığının ölçülməsi və izlənməsi

Maliyyə sisteminin genişlənməsi və ölkələrin iqtisadiyyatlarında önəmli bir missiyasının olması səbəbi ilə sistemin maliyyə dayanıqlığını təmin etmək son illərdə mərkəzi bankların əsas məqsədi halına gəlmişdir. Maliyyə dayanıqlığını təmin edə bilmək üçün maliyyə dayanıqlığının ölçülə bilinməsi və bu ölçmələrin əsasında təxmin edilə bilməsi və bu təxminlər əsasında da maliyyə və yaxud pul siyasətlərinin həyata keçirilməsi gərəklidir. Maliyyə dayanıqlığının ölçülməsi də Mərkəzi banklarının və tədqiqatçıların fərqli göstəricilərdən istifadə etməkdədirlər, çünki ölkələrin maliyyə sisteminin ölçüsü və xüsusiyyətləri bir-birindən çox fərqli ola bilir və dayanıqlılıq da fərqli nəticələr göstərə bilər *(Werner Gleißner, Thomas Günther, Christian Walkshäusl - Financial sustainability: measurement and empirical evidence).*

Maliyyə dayanıqlığının ölçülməsi maliyyə sisteminin ünsürlərinin qarışıq şəkildə bir-birinə inteqrasiyası və qarşılıqlı bağlılğına görə olduqca çətindir. Maliyyə dayanıqlığının ölçülməsində istifadə edilən mikroiqtisadi göstəricilər yerini makroiqtisadi göstəricilərə vermişdir. Maliyyə dayanıqlığının dəyərləndirilməsində əsas fokuslanmalı olduğumuz məsələ bazarların, qurumların və infrastrukturun risklərinin dəyərləndirilməsidir.

Nəzəriyyədə və təcrübədə iqtisadi bir fenomen olan və ölçülməsi bir xeyli çətin olan maliyyə dayanıqlığının çox tərəfliliyini dəyərləndirmək üçün sintetik indekslər istifadə edilir. Sintetik indeks fərqli əsas göstəricilərin bir araya gətirilməsi ilə meydana çıxan göstəricilərin birləşdirilməsindən ibarətdir. Bu toplu halına gətirilmiş indeks, erkən xəbərdarlıq sistemləri və stress testində əlavə olaraq trend analizləri və onların müəyyən edilməsi, ölkələrin performanslarını müqayisə, nəticələri analiz etmə və bu nəticələri ictimaiət ilə paylaşmaq mövzusunda siyasət aləti olaraq istifadə edilir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Göksel Tiryaki, Finansal istikrar ve bankacılık düzenlemeleri (2012)
2. Werner Gleißner, Thomas Günther,Christian Walkshäusl-Financial sustainability: measurement and empirical evidence
3. http://data.imf.org/regular.aspx?key=61404590.
4. Blaise Gadanecz and Kaushik Jayaram (2009). Measures of financial stability – a review. pg.367-369.
5. https://www.worldbank.org/en/topic/financialsector/brief/sustainable-finance
6. https://ctb.ku.edu/en/table-of-contents/finances/grants-and-financial-resources/financial-sustainability/main
7. Overview of sustainable finance (europa.eu)
8. What is Sustainable finance? | Credit Suisse (credit-suisse.com)

# VERGI İSLAHATLARI VƏ ONUN KONSEPTUAL ƏSASLARI

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Hüseynov Soltan Namiq oğlu, magistrant***
***Elmi rəhbər: dos. N.Y.Mikayılova***

***Xülasə***

Məqalədə vergi islahatının nə olduğundan, onun problemlərindən, problemlərin həlli yollarından bəhs olunmuşdur. Əlavə olaraq Azərbaycan,Türkiyə,Avstraliya və Amerika Birləşmiş Ştatları kimi ölkələrin vergi sistemlərində yaranmış problemlərin həllindən və vergi islahatlarının bu problemlərin həllinə təsirindən bəhs olunmuşdur. Həmçinin vergi islahatlarının tətbiqi nəticəsində həll olunan problemlərin illər üzrə verginin toplanmasına təsirinin artım tempindən bəhs olunmuşdur.
***Açar sözlər:*** *vergi, vergi islahatı, vergi sistemi, vergi rəqabətliliyi, vergi dərəcələri.*

***Summary***

The article talks about what is the tax reform, its problems and ways to solve the problems. In addition, it was discussed about the solution of the problems that arose in the tax systems of countries such as Azerbaijan, Turkey, Australia and the United States of America and the impact of tax reforms on solving these problems. It was also discussed the growth rate of the impact of the problems solved as a result of tax reforms on tax collection over the years.
***Key words:*** *tax, tax reform, tax system, tax competitiveness, tax rates.*

## Giriş

Vergi islahatları vergilərin toplanması başqa sözlə idarəedici orqanlar və dövlət vasitəsilə idarə olunması üsulunun yenidən müəyyənləşdirilməsi yoludur və çox hallarda vergi inzibatçılığını inkişaf etdirmək ya da ki iqtisadi və sosial rifahının təmin etməyə görə yerinə yetirilir. Vergi islahatları dövlət orqanları vasitəsilə əhalinin vergitutma səviyyəsinin aşağı salınması, vergi sisteminin daha qabaqcıl və yaxud daha az qabaqcıl olmasını və ya vergi sistemini asanlaşdırmaq və vergi sisteminin çox anlaşıqlı və yaxud çox hesabatlı yaradılmasını nəzərdə tutur *("Rao, S. (2014). Tax reform: Topic guide. Birmingham, UK: GSDRC, University of the Birmingham").*

Beynəlxalq ölçüdə vergi sistemlərinin islahat olunmasına görə çox zaman gəlir vergisi və yaxud əlavə dəyər vergisini iqtisad yöndən daha liberal sayılan məhfuma döndərmək istəyi ilə çoxlu hökmət və ya qeyri-hökmət qurumları qurulmuşdur. Başqa islahatlar kənar təzyiqlərlə məşğuliyyətə yönələn vergi sistemlərini irəli sürür. Bu növ islahatların bəzi hallarda qazanc cəhətdən tərəfsiz olması irəli sürülür, nümunə olaraq, yəni onlar daha çox ya da ki daha az verginin toplanması ilə başa vurulmamalıdır. Torpaq vergisinin cürbəcür növləri həmin kənar təzyiqlərlə məşğul ola bilər, həm də gəlirliliyi çoxalda bilər *(Revenue Neutral Law and Legal Definition, definitions.uslegal.com).*

## Azərbaycanda vergi islahatları:
## İslahatların vergi proqnozların yerinə yetirilməsinə təsiri

1999-cu ilin son 6 ayından başlayaraq Azərbaycan respublikasında yerləşən vergi orqanlarında baş verən köklü islahatlar vergilərin yığılmasında baş verən axsamaların həll olunmasına imkan yaratmış,dövlətin büdcəsinə vergilərin daxilolmalarının yüksəlməsinə çox yaxşı təsir etmişdir.Məlumatlara görə, 1998-ci ildə vergilərin toplanmasına 71 faiz riayət edilmişdirsə, 1999-cu ildən aparılmış islahatlar nəticəsində çox yüksək artım əldə edilmişdir.

Bir şeyidə qeyd etmək yerinə düşər,yüksək nəticələr yalnızca illik proqnozlara aid deyil, həmçinin yarımillik və rüblük nəticələrə də təsir etmişdir. Buna görədə 1999-cu ilin son 6 ayında vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 1177,8 milyard manat vəsaitin köçürülməsi və ya vergiləşməyə 91.6 faiz əməl olunmuşdur ki, bu da ilin ilk 6 ayı ilə qarşılaşdırdıqda 417,1 milyard manat və ya 54,8 faiz daha üstündür. Yüksəlişin 67,8 faizi yaxud 134.2 milyard manatı dövlətin müəssisələrinə, həmçinin 25.1 faizi yaxud 104.6 milyard manatı yerli özəl müəssələrin və fiziki şəxslərin üzərinə düşür.Qeyri-neft sahəsi üçün 1999-cu ilin son 6 ayında daxilolmalar 675.2 milyard

manat olmuş, yəniki ilin ilk 6 ayı ilə qarşılaşdırdıqda 137.4 milyard manat və ya 25.5 faiz daha yüksəkdir.

Həm kəmiyyət, həm də keyfiyyətə meyarlarına görə 1999-cu ilin son 6 ayının göstəriciləri, 1998-ci ilin son 6 ayının göstəricilərini üstələmişdir. Müqayisə olunan bu dövrlərdəki daxilolmaların 298.9 milyard manat və yaxud 34 faiz yüksəlməsini və artımın 29.2 faizinin və ya 87.4 milyard manatının qeyri-dövlət qurumlarının, 70,8 faizinin və yaxud 211,5 milyard manatının isə dövlət qurumlarının vasitəsilə yığılmışdır. Yerli özəl müəssisələrdən və fiziki şəxslərdən daxilolmalar qeyri-neft sahəsində əsas yeri tutur. Məlumatlara görə 1999-cu ilin son 6 ayında qeyri-neft sahəsindən daxilolmalar 60,3 milyard manat həcmində artmışdır.

Buna görədə , 1999-cu il dövründə 2329 milyard manat ehtimal olunan daxilolmarın 1938,4 milyard manatı toplanmışdır,yəni illik proqnozun 83,2 faiz həcmi yerinə yetirilmişdir. Amma, 1999-cu ilin tapşırıqlarına 83,2 faiz riayət olunmasına baxmayaraq,1998-ci il ilə qarşılaşdırdıqda yüksəliş 13,9 faiz və ya 236.5 milyard manat olmuşdur.Bu yüksəlişin 54,2 faizi və ya 128,1 milyard manatı qeyri-neft sahələrinin üzərinə düşür. 1998-ci illə qarşılaşdırdıqda 1999-cu ildə həm yerli özəl müəssisələrdən həmdə fiziki şəxslərdən daxilolmalar 169 milyard manat yüksəlmişdir. 1998-ci illə qarşılaşdırdıqda 1999-cu ildə daxilolmalar 11 faiz və yaxud 120,4 milyard manat yüksəlmişdir, yəni daxilolmaların həcmi 62,6 faiz və ya 1213,5 milyard manat olmuşdur. 2000-ci ildə ölkəmizin vergi təşkilatları vasitəsilə daxilolmalar 2574,5 milyard manat təşkil etmişdir. 2000-ci il ərzində dövlət büdcəsindən vergi verənlərə 19,8 milyard manat, 2,7 milyard manat isə yerli idarəetmə təşkilatlarının yaradılmasına görə bələdiyyələrin öz büdcələrinə qaytarılmışdır, buna səbəb isə işlərin yerinə yetirilməsi, xidmətlərin verilməsi və əməliyyatların yerinə yetirilməsinə görə əlavə dəyər vergisinin sıfır dərəcə ilə əldə olunması idi. Geri qaytarmalar olsa belə il ərzində daxilolmalar 100 faiz yəni 2552,0 milyard manat olmuşdur. İlk 3 ay üçün daxilolmalar 22,5 faiz , 2-ci 3 ay üçün daxilolmalar 23,5 faiz, 3-cü 3 ay üçün daxilolmalar 26,7 faiz və 4-cü 3 ay üçün daxilolmalar 27,3 faiz təşkil etmişdir.buna görədə daxil olunmaların rüblər üzrə fasiləsiz həyata keçirilməsinə nail olunmuşdur. 2000-ci ildəki vergi daxilolma göstəriciləri 1999-cu ilə nisbətən 31,7 faiz və ya 613,6 milyard manat çoxalmışdır, bu yüksəlişin 34,6 faizi və ya 212,2 milyard manatı özəl sektorun, 65,4 faizi və yaxud 401,4 milyard manatı dövlət təşkilatlarının öhdəsinə düşür. 2000-ci il üzrə qeyri-neft sahəsi üzrə vergi toplanılması ümumi vergi toplanmasının 58,6 faizini yəni 1496,2 milyard manat, neft sahəsi üzrə isə vergi toplanılması ümumi vergi toplanılmasının 41,4 faizini, yəni 1055,8 milyard manat təşkil etmişdir. Qeyri-neft sahəsi üzrə ümumi daxilolmaların 39,8 faizi yəni 1016,5 milyard manatı qeyri-dövlət qurumlarının payına düşür. Xarici investisiyalı təşkilatlardan 2000-ci ildə dövlət büdcəsinə 555 milyad manatdan çox daxilolmalar olmuşdur.ki, bu da 1999-cu illə qarşılaşdırdıqda 2000-ci ildə daxilolmalar 21,3 faiz və yaxud 97,5 milyard manat çox olmuşdur.1995-ci ildə bu tip təşkilatlardan daxilolmalar 2,4 faiz olmağına baxmayaraq,2000-ci ildə bu göstərici 21,8 faizə qədər yüksəlmişdir *("Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr" A.F.Musayev, A.A.Huseynov, Y.A.Kəlbiyev, s.104).*

**Türkiyədə vergi islahatları:**

Dövləti güclü dövlət kimi formalaşdıran çox vacib ünsürlərdən birisi vergilərin formalaşdırılmasıdır. Bu hüquqdan məsuliyyətli, ədalətli və yararlı tərzdə faydalana bilməyən ölkələrin öz vətəndaşlarının güvənini əldə etməsi, dünya miqyasında ehtiram qazanması və onun iqtisadiyatını faydalı şəkildə idarəsi qeyri-mümkündür. Faktiki olaraq ölkələrin istər keçmişdə, istərsə də indiki dövrdə səmərəliliyini bəyan edən əhəmiyyətli ünsürlərdən biri də onların məsuliyyətli, düzgün və effektiv qazanc idarəçiliyinə sahib olmasıdır.

Türkiyədə formal olmayan iqtisadiyyatın normanı ötməsi vergi siyasətinin və təcrübəsinin təsirlilik qabiliyyətinə uzaq olduğunun əlamətidir. Vergilər həm makro, həm də mikro aspektdə milli gəlirdəki meyarları və böyük kütlələri həvəsləndirən ən vacib ünsürlərdir. Türkiyə üçün 60-70 milyard dollar qazancın yığılması öz-özlüyündə vacib meyardır. Mahiyyətindən ötrü vergilər iqtisadiyyat və sosial siyasətlə uyğunlaşmalı, beynəlxalq aləmdə yüksələn meyllərə və hər gün yüksələn vergi rəqabətini cavablamağa qadir olmalıdır,düzgün olmalıdır. Vergilər vergi verənlərə qulluq devizi ilə toplanmalı, dövlət xidmətinə yönələrkən məqsədli və faydalı istifadə olunmalı, vergi verənlərin narazılığı olmamalıdır. Amma indiki dövrdə Türkiyədə vergi sistemi beynəlxalq

meyllərdən və rəqabətədn kənar, sosial siyasətə cavabı olmayan iqtisadiyyatın önündə əngələ dönmüş, öz içində qarışıq və ardıcıl olmayan mahiyyət qazanmışdır.

Türkiyədə enerji və kommunikasiya tərzdə vacib daxilolmalara görə həddindən artıq vergi yükü bəzi sahələrdə rəqabət bacarığımızı əldən buraxmamıza gətirib çıxarır. Əlavə olaraq, vergilərin toplanmasının yükünün çalışanların, çox az şirkətlərin öhdəliyinə buraxılması həm vergi bərabərsizliyi, həm də ölkənin sosial siyasətini reallaşdırmağı bacarmamağı ilə yekunlaşır.Həm də, vergilərin çətinliyinə alışmağa cəhd göstərən vergi ödəyiciləri üçün çətin məsuliyyət formalaşdırır. İqtisadiyyatımızın daha zərif hissəsi olaraq bilinən ölkə borcunun verilməsinin və investisiyaların formalaşdırılmasının və maliyyəşdirilməsinin daha çevik və təsirli növü vergi sistemini görülməmiş sahələrə yüksəltməkdir. Yeni sahələrə yüksəlmədən vergi meyarlarını aşağı salmaq, investisiyaları və məşğulluğu inkişaf etdirmək mümkünsüzdür.

Yekun olaraq, Türkiyə vergi ödəyiciləri üçün cəhənnəmə, vergi ödəməyənlər üçün isə cənnətə dönüb. Bu düxgün olmayan rəqabət mühütü Türkiyədə sahibkarlığın, investisiyaların, məşğulluğun, rəqabət bacarığına əngəl törədir. Bunun üçün hökmət islahatların birinci gedişi vergi siyasətinin formalaşması mərhələsini və əldə olunan qazancların inzibatçılığının təkrarən yaradılmasıdır.

İndiki sistem ilə vergi inzibatçılığının idarəetmə metodu iqtisadi subyektlərlə əlaqələr və kənar beynəlxalq aləm ilə müqayisə yönündən bağlıdır. Bundan ötrü vergi islahatı, həm də Türkiyədə ən yüksək və mötəbər ünsür olaraq özünü ehtiva edən gəlirlər inzibatçılığın təkrarən yaradılmasını nəzərdə tutmalıdır.

Vergi qətnamələrinin qəbul etmə prosesinin və icrasının bölünməsini də bu restrukturizasiya əhatə etməlidir. Vergi siyasətinin formalaşdırılması prosesinə vergi ödəyicilərinin iştirakını daxil etmək üçün institusional mexanizmlərin qurulması, qərarlardan əvvəl və sonra iqtisadi modelləşdirmə ilə vergilərin təsirlərinin dəyərləndirilməsi və aydın,düzgün və hesabatlı qanunvericiliyə daxil edilməlidir.

Vergi administrasiyası isə əməliyyatların asanlaşdırılması yönündə addımlar atmalı, vergi ödəyicisi yönümlü xidmət anlayışını tətbiq etməli, seqmentlər əsasında ixtisaslaşmanı hədəfə qoymalı və kooperasiyanı inkişaf etdirməlidir. Vergi inzibatçılığının seqmentləşdirilməsində fəaliyyət qurumda davamlılığın təmin edilməsinə, mədəniyyətinin qurulmasına,davamlı institusional inkişafa imkan verməklə korporativ səlahiyyətlərin inkişafına diqqət cəlb edilməlidir.

Davamlı Milli İnformasiya İnfrastrukturuna malik olmaq bu məhfumu təmin etmək üçün ən mühüm vasitələrdən biridir. İnformasiyaların aktual şəkildə xarakterizə olması elektron hökumət yanaşmasının tətbiqinin ən mühüm problemlərindən biri idi. Nəzərə tutsaq ki, bütün kommersiya qurumları vergi idarəsi ilə ay ərzində bir neçə dəfə informasiya mübadiləsi aparır, informasiyanın aktuallığının təmin edilməsində gəlirlər administrasiyasının nə dərəcədə prioritet olduğu nəzərə çarpacaq.

İslahat mərhələsinin daha mürəkkəb yönlərindən biri yalnızca daxili yeniliklər olmayıb, həm də anlayış yeniliyi həyata keçirmək vacibliyi olmasıdır.Buna görədə, müasir qazanc inzibatçılığı formalaşdırılarkən onun mütəxəssisləri arasında başqa sahələrdə cürbəcür səlahiyyətlərə və sınaqlara sahiblik edən mütəxəssislərin işlə təmin olunmasına, təşkilatın işçilərinin intensiv təlim dərslərində iştiraka yönəltməlidirlər və kommunikasiya mərhələsinə maliyyə buraxılmalıdır.

Nəhayət, vergi islahatına açıqlıq, şəffaflıq, hesabatlılıq, iştirak və səmərəlilik prinsiplərini yönəldən məfhumla yaxınlaşmaq gərəkdir. Türkiyənin rifahını artırmağın daha faydalı növü bütün təşkilatlarda idarəediciliyin keyfiyyətinin artırılması və planlı idarəetmə prinsiplərinin reallaşdırılmasıdır *(dergipark.org.tr. "Türkiyede siyasal süreçte vergi reformuna genel bir bakış"), (tbmm.gov.tr "vergi reformu").*

**Amerika Birləşmiş Ştatlarında və Avstraliyada vergi islahatları:**

Avstraliyanın siyasi aspektində vergi islahatı daha mühüm problem idi. Dövlət və ərazi təşkilatlarının toplamda illik kəsirləri 2011-12-ci illər arasında ÜDM 1,9%-dən, 2049-50-ci illərdə 5,9%-nə qədər yüksələcək. 2000-ci ildə Mallar və Xidmətlər Vergisinin tətbiqindən sonra Avstraliyada çox vüsət halı almış topdansatış vergi islahatı olmamışdır. HTR sıradakı 10-20 il müddətində Avstraliyanın vergi sistemində köklü islahatların aparılmasına görə 138 sayda sahəni

müəyyən etmişdir (*Protecting Prosperity: Why we need to talk about tax. PricewaterhouseCoopers).*

2013-cü ilin iyul ayında PWC şirkəti Avstraliyada mədən bumunun ləngiməsi və əhalinin yaşlanması kontekstində faydalı vergi islahatlarıirəli sürdü (*Tax reform: Why you should care(youtube) PricewaterhouseCoopers*). PWC şirkəti vergitutma səviyyələrinin istehsala effektini, rəqabət qabiliyyətini və iqtisadi təhrifləri aşağı salmağa görə daha geniş əsaslı vergilərin vacibliyini analiz edərək Avstraliya vergi sisteminin səmərəliliyininin inkişaf etdirilməsini irəli sürdü. Misal üçün,Bir vergi 115-dən çox vergidən artıq qazanc gətirir: Bu vergi Mallar və Xidmətlər Vergisi adlandırılır. Avstraliya mətbuatında bu məlumatın geniş işıqlandırılmasına nail olunmuşdur *(Protecting prosperity; Why we need to talk about tax. PricewaterhouseCoopers).*

Vergilərin yığılması və idarə olunmasında islahatların həyata keçirilməsi üçün ABŞ-da bir çox layihələr olmuşdur. Amerikalı iqtisadçı Henri Corc 19-cu əsrin axırlarında vergi islahatları üçün beynəlxalq işləri həyata keçirməyə başladı. Torpaqın dəyərinə görə Vahid Vergidən savayı bütün vergi növlərinin ləğvi hərəkatın əsas məqsədi idi. Bu hərəkətin vergi siyasətinə effekti azlıq təşkil etsədə, Avstraliya, Yeni Zelandiya, Honq Konq, Tayvan və Sinqapur kimi ölkələrdə daxil olmaqla dünyanın bir çox ölkələrində bu hərəkat izlənilə bilər. Amerikanın Henri Corc Fondu təşkilatların himayəsi altında öz işlərini həyata keçirir *(Henry George Foundation found to offer the only true basis of Economic Freedom and Social Justice).*

Vergi İslahatı Aktında 1986-cı il dövründə mühüm vergi islahatı qəbul olundu. 1992-ci ildə Daxili Gəlirlər Xidmətinin hesabatı ilə 1990-cı illərdə korporativ gəlirlərin ikiqat vergiyə cəlb olunması ilə əlaqəli islahat təklifləri müzakirəyə verildi. Prezidentin Federal Vergi İslahatları üzrə Məsləhət Şurası Buş administrasiyası zamanında Alternativ Minimum Verginin ləğv olunmasını müzakirəyə verdi. ABŞ-da vergi islahatı sahəsində bir çox dövlət təşkilatı çalışır, bu təşkilatlardan biri Ədalətli Vergiləşdirmə, Vergi İslahatı, və Əmlak Vergisinin Sadələşdirilməsini dəstəkləyən ASSET təşkilatıda bu sahədə çalışır. Vergilərin asanlaşdırılması üçün ABŞ-da cürbəcür təkliflər müzakirəyə verilmişdir, həmçinin FairTax, ikitərəfli vergi islahatı təklifləri və cürbəcür vergi planları irəli sürülmüşdür (*Salvaging a Domestic Agenda: Towards Bipartisan Tax Reform).*

2010-cu ildə Fareed Zakaria vergi islahatı ilə "böyük sövdələşmə" kimi göstərdiyi bir islahatı iqtisadi rəqibləri Paul Krugman və Niall Ferguson qarşı irəli sürdü; sadə və dolayı Federal Satış Vergisinin qurulması ilə onların siyasi uçurumunu ləğv etməyə cəhd etdi. 1% maliyyə əməliyyatı vergisini tətbiq edən və federal gəlir vergisini aradan qaldıran Borc Azad Amerika Aktı adlı HR4646 qanun layihəsini Pensilvaniya nümayəndəsi Çaka Fəttah irəli sürdü. O, 2004-cü ildən bu yana bənzər vergi islahatına çağırış edən qanun layihələrini irəli sürüb, lakin onun qanun layihələrinə heç vaxt komitədə razılıq verilməyib.

Prezident Obamanın irəli sürülən vergi islahatı təklifləri Obamanın administrasiyasının 2013-cü il Amerika Birləşmiş Ştatları federal büdcə təklifində və administrasiya vasitəsilə irəli sürülən korporativ və beynəlxalq vergi islahatları miqyasında təqdim olunur. "Birləşmiş Ştatların maliyyə uçurumları" müqaviləsinə görə bu təkliflərin bir çoxu 2012-ci il təqvim ilinin sonunda lazımsız hala düşsə də, bu siyasətlər vergi islahatlarına sol mərkəzçi yanaşmanı bizə təqdim edir. Ümumi olaraq, bu təkliflər yüksək gəlir əldə edən fiziki şəxslər və korporasiyalar üçün vergi ayırmaları, boşluqlarını, kreditləri və ya digər vergi xərclərini ləğv etmək və ya məhdudlaşdırmaqla bəzi marjinal vergi dərəcəsinin yüksəldilməsini, bir çox marjinal vergi dərəcəsinin aşağı salınmasını və bazanın genişləndirilməsini özündə ehtiva edir.

Senat 2017-ci ilin Vergi İxtisası və İş yerləri Aktına 2017-ci ilin dekabr ayında razılığ verdi. Nümayəndələr Palatasının və Senatın razılığını alan vergi islahatı qanun layihəsi 22 dekabr 2017-ci ildə Prezident Donald Tramp tərəfindən imzalandı.

Daha geniş islahatlar tərkibində korporativ vergilərin aşağı salınmasını da əhatələyən qanun layihəsini dəstəkləmək üçün biznes ictimaiyyəti şücaətlə lobbiçilik edirdi. Əvvəllər pərakəndə satıcılar dərəcəsi ən yüksək olan korporativ vergilərdən birini ödəməyə məcbur idilər, buna görə də Milli Pərakəndə Federasiyası bu qanun layihəsində fəal iştirakçı rolunu aparırdı *(Morgan, David; Becker, Amanda. "Senate approves major tax cuts in victory for Trump" Reuters).*

Bərbad vergi sistemi Avstraliyanın inkişaf etməsinə böyük bir əngəldir. İqtisadi xərclərin Avstraliyanın vergi sistemində lazım olduğundan daha çox olmasına dair əsaslar və sübutlar mövcuddur. İqtisadiyyatın daha fərqli olduğu bir zamanda Avstraliyanın vergi sisteminin əsası qoyulmuşdur. O, internet, ticarət, investisiya və rəqəmsal iqtisadiyyat görə yüksələn beynəlxalq rəqabətlə məşğuliyyət üçün formalaşdırılmamışdır. Əhalinin yaşlanmasının pis nəticələri vergiyə yeni bir baxış istəyir.Avstraliyada vergi sisteminin ədalətliliyini yüksəltmək və daha anlaşıqlı hala gətirmək imkanları var. Avstraliyanın davamlı rifahına effekt göstərərək iş artımının məhdudlaşdırılmasının böyük səbəblərdən biri mövcud sistemin bəzi xüsusiyyətlərinin Avstraliyaya investisiya qoymağın daha az cəlbedici olmasıdır. Bəzi xüsusiyyətlər vardır ki, onlar insanlar üçün işləməyi daha az cəlbedici edir. Bəzi nüanslar gərəksiz tullantılar yaradılmasına kömək edir. Sistemdə mühüm dərəcədə bir anlaşılmazlıq vardır *(Urensa ,Dan. "In a smaller world, tax reform is overdue").*

Avstraliyanın tam iqtisadi potensialını göstərmək üçün vergi islahatı yaxşılaşdırılmış həyat standartlarını və daimi rifahı dəstəkləmək üçün böyük bir imkandırdir. 2015-ci ildəki bəzi hesabatlar Avstraliyanın qarşıdakı 40 il ərzində hansı minvalda inkişaf edəcəyini göstərir. Hesabatlar gəlir artımırnın yavaşlayacağını proqnozlaşdırsa da, həmçinin göstərir ki, Avstraliya inkişafı, iş yerlərini və imkanları təşviq etmək üçün vergi sistemində islahatlar da daxil olmaqla, vəziyyətimizdən və əldəki imkanlarımızdan daha effektiv şəkildə istifadə etməklə çiçəklənməni davam etdirə bilərik. Avstraliyalıların iş və oyun metodlarını texnologiya əsaslı şəkildə dəyişir. Qloballaşma və rəqəmsal iqtisadiyyatın inkişafı vergi sisteminin effektivliyi üçün mühüm çətinliklər formalaşdırır. Kapital daha çox mobildir və investisiyaların cəlbi üçün rəqabətədavamlı korporativ vergi rejiminin lazım olduğunu bildirir. Bəzi korporasiyalar daha çox yurisdiksiyalarda fəaliyyət göstərir və verginin ödənilməli olduğu yerini müəyyən etmək onlar üçün mürəkkəb ola bilər.

Beynəlxalq iqtisadiyatın inkişafı davam etdikcə vergi sistemimiz yeni çağırışlarla qarşılaşır. Bu çağırışlar bizim önümüzdə qərarlaşan imkanları daha effektiv reallaşdırmağa şərait yaradacaq vergi sistemi haqqında yaradıcı düşünməyə təşviq göstərir. İş yerlərinin çoxalmasına, əmək haqqlarının yüksəlməsinə və həyat səviyyəsinin daha da yaxşılaşmasına iqtisadiyyatımıza çoxlu investisiya qoyuluşları səbəb kimi göstərilir. Beynəlxalq miqyasda Avstraliya investisiya üçün mübarizə aparır Avstraliyanda vergi islahatı fürsətlərdən effektiv istifadə etmək üçün formalaşdırılmalıdır, çünkü Avstraliyanın vergi sistemi rəqiblərindən daha da geridədir.

Həyat səviyyəmizin arıtırılması investisiya cəlb etməkdən və rəqabət qabiliyyətimizi artırmaqdan asılıdır. Ən mükəmməl məhsulları Avstraliyada yerləşən bizneslər və onun işçi qüvvəsi istehsal edir, daha mükəmməl xidmətləri təqdim edir və dünyanın ən mükəmməl ideyalarını düşünə bilir. Bu gün avstraliyalılar öncəki dövrlərdən daha məhsuldar,faydalı və qazanclı çalışırlar. Avstraliyalılar daha anlaşıqlı, daha aşağı dərəcəli və ədalətli vergilərlə ən yaxşı vergi sisteminə layiqdirlər *(Glenday, James. " Is it time to reform our 'struggling' tax system" Australian Broadcasting Corporation).*

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1."Rao, S. (2014). Tax reform: Topic guide. Birmingham, UK: GSDRC, University of the Birmingham"
2. Revenue Neutral Law and Legal Definition, definitions.uslegal.com
3. "Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr" A.F.Musayev, A.A.Huseynov, Y.A.Kəlbiyev
4. dergipark.org.tr. "Türkiyede siyasal süreçte vergi reformuna genel bir bakış"
5. tbmm.gov.tr "vergi reformu"
6. Protecting Prosperity: Why we need to talk about tax. PricewaterhouseCoopers.
7. Tax reform: Why you should care(youtube) PricewaterhouseCoopers
8. Protecting prosperity; Why we need to talk about tax. PricewaterhouseCoopers
9. Henry George Foundation found to offer the only true basis of Economic Freedom and Social Justice.
10. Salvaging a Domestic Agenda: Towards Bipartisan Tax Reform.
11. Morgan, David; Becker, Amanda. "Senate approves major tax cuts in victory for Trump" Reuters.
12. Urensa ,Dan. "In a smaller world, tax reform is overdue"
13. Glenday, James. " Is it time to reform our 'struggling' tax system" Australian Broadcasting Corporation.

# TƏCHİZAT ZƏNCİRİNİN İDARƏEDİLMƏSİNDƏ İNSAN KAPİTALININ ROLU VƏ YENİ YARANAN TƏLƏBLƏR

***Dövlət Gömrük Komitəsinin Akademiyası***
***Abasov Cəlal Murad oğlu***
***Elmi rəhbər: i.ü.f.d. E.V.Əlirzayev***

***Xülasə***

Müasir və qloballaşan dünyamızda beynəlxalq ticarətin dövriyyə həcmi və ticarət əməliyyatları zaman keçdikcə artır və təkmilləşir. Beynəlxalq ticarətin bu dərəcədə tərəqqi etməsində texnoloji inkişafın və azad ticarətin əhəmiyyəti danılmazdır. Ticarətin həcminin genişlənməsi nəticəsində, artan bazar tələbinə uyğunlaşmağa çalışan Təchizat Zəncirində yer alan firmalar yeni strategiyalar müəyyənləşdirmiş və bu strategiyalar doğrultusunda qərarlar qəbul etmişdir. Təchizat zənciri; xammal, yan məhsul tədarükçüləri, istehsalçılar, paylama kanalları və alıcılar kimi tamamlayıcı komponentlərdən ibarət böyük bir sistemi ifadə edərkən, Təchizat Zəncirinin idarə edilməsi, rəqabət qabiliyyətli qiymətlərlə yüksək keyfiyyətli məhsul və xidmətlər ortaya qoyulması üçün müəssisələrin müştərilər və təchizatçılarla işləmək qabiliyyətin ifadə etməktədir. Qarşıya qoyulmuş hədəflərə çatılmasında əsas hərəkətverici qüvvə olan insan resursları qarşısında qoyulan tələblər, istənilən bilik və bacarıqlarda da dəyişiklilər olmuşdur.

Bu zaman ortaya məqalənin əsas araşdırma mövzusu olan belə bir sual çıxır. Təchizat zəncirinin idarəedilməsində insan kapitalının qarşısında hansı yeni tələblər qoyulub? XXI əsrin tələblərinə və yeniliklərinə uyğun olaraq bu sahədə çalşan mütəxəssislər hansı bacarıqlara sahib olmalıdır və hansı yeni bilikləri əldə etməlidir? Digər bir sual isə daha geniş cavab tələb edən sualdır. Niyə təchizat zəncirində yer alan işçilərin müasir dövrə və tələblərə uyğun bacarıqlara sahib olması bu qədər önəmlidir? Məqalədə əsas olaraq cavabı axtarılan suallar bunlardır. Təchizat zəncirində çalışan mütəxəssisin qarşısında qoyulan ilkin tələb çox sadə və anlaşılandır. Minimum xərclə maksimum kefiyyət və mənfəət əldə etmək. Bu zaman araşdırılması önəmli olan bir sıra nüanslar var. Məhz, məqalədə göstərilən statistikalar və dünya təcrübəsini nəzərdən keçirdikdən sonra nəticə olaraq əldə edə bilirik ki, hazırki bazar şəraitində firmaların işçilər qarşsında qoyduğu tələblər dəyişdiyi kimi insan resurslarının da iş seçimi zamanı üstünlük verdikləri prioritetlərdə dəyişikliklər baş vermişdir.

***Açar sözlər**: Təchizat Zənciri, insan kapitalı, qloballaşma, prespektivlər, tələblər, bilik, bacarıq*

***Summary***

In our modern and globalizing world, the volume of international trade and trade transactions is increasing and developing over time. The importance of technological development and free trade in the development of international trade is undeniable. Trying to adapt to the increasing market demand as a result of the expansion of the trade volume, the companies in the Supply Chain determined new strategies and took decisions in line with these strategies. Supply chain; Supply Chain management refers to a broad system of complementary components such as raw materials, by-product suppliers, manufacturers, distribution channels and buyers, while it refers to the ability of businesses to work with customers and suppliers to produce high-quality products and services. at competitive prices. The demands for human resources, which are the main driving force in achieving the determined targets, have also changed in all kinds of knowledge and skills.

At the moment, such a question arises, which is the main research topic of the article. What are the new requirements for human capital in supply chain management? What skills should professionals working in this field have and what new knowledge should they acquire in accordance with the requirements and innovations of the 21st century? Another question is one that requires a broader answer. Why is it so important to be up-to-date and up-to-date for supply chain workers? These are the main questions that need to be answered in the article. The first requirement for a supply chain specialist is very simple and straightforward. To achieve maximum quality and profit at minimum cost. At the moment, there are some nuances that need to be studied. That is, after examining the statistics presented in the article and the world experience, we can conclude that the expectations of the companies from the employees have changed in the current market conditions and also the priorities of the human resources in the job selection have changed.

***Key words**: Supply chain, human capital, globalization, prospects, demands, knowledge, skills*

## Yaranan qarşılıqlı tələblər

Gənclərin və yaşlı nəslin nümayəndələrinin bir araya gəldiyi zaman başlayan nəsillərarası debatlarda tez-tez gənclər tərəfindən bir arqumentin yaşlı nəsilə qarşı səsləndirildiyinə şahid olarıq: "İndiki dövrdə qoyulan tələblər və istənilən bacarıqlar daha da artıb və çətinləşib". Həqiqətən də, yüksək rəqabətin hakim olduğu və daim yeniliklərin öyrənildiyi, həmçinin, nəticədə xammaldan son məhsulun alınmasına qədər yolu əhatə edən bu zəncirdə bir sıra müəssisələrin (tədarükçü, istehsal müəssisəsi, dağıtım mərkəzi, pərakəndəçi və s.) qarşılıqlı material, xidmət və informasiya mübadiləsində olduğu bu sahədə insan resurslarının daşıdığı məsuliyyət dəfələrlə artmışdır.

İnsan kapitalının saxlanması və idarə edilməsi, xüsusən də yeni işçilərin işə qəbulu və təşkilatda işçilərin vəzifələrinin müəyyən edilməsi, inkişafı və saxlanması İnsan Resursları (HR) şöbəsi üçün çətin bir işə çevrilmişdir *(Matsuddi I)*.

Təşkilatların son zamanlardaki əsas narahatlığı da illərin təcrübəsinə sahib olan yaşlı nəslin təqaüdə çıxmasıyla yaranacaq boşluğu dolduracaq Təchizat Zənciri mütəxəssislərin mövculuğu problemidir. Təchizat zənciri sənayesində 50 ildən artıq təcrübəsi olan Böyük Britaniyanın aparıcı müəssisələrindən olan Blue Arrow, son illərdə təchizat zənciri sənayesində sektor üçün işə qəbul və HR-yə yanaşma tərzimizə əhəmiyyətli təsir göstərən üç əsas dəyişikliyi fərqləndirmişdir: 1) Müəssisələr üzərində yaranan təyziq; 2) İşsizlik problemi; 3) Yeni karyera imkanları *(Hobbs, 2012)*.

Bununla belə, HR menecerləri, məsələn, paylama mərkəzində iş prosesi ilə tanış olmaq və ya gündəlik iş prosesində iştirak etməklə SCM haqqında yeni praktik məlumatlar öyrənə bilərlər *(Rice and Cottril)*. 2015-ci ildə nüfuzlu APQC təşkilatı tərəfindən aparılan araşdırmada müəyyən nəticələr önəmli əldə olundu *(Partida)*. Ən mühüm nəticə ondan ibarətdir ki, təşkilatlar təşkilati uğuru və işçilərin rifahını təmin etmək üçün təchizat zəncirinə yüksək səviyyəli peşəkarları cəlb etmək istəyirlər.

Təchizat zəncirində yer alan təşkilatların işçi seçimində prioritetləri barəsində qısa məlumat verdikdən sonra, sıra bu zəncirdə yer alan peşəkar insan kapitalının prioritetləri haqqında araşdırmadadır. İşçilər əsas olaraq, bacarıqlarını genişləndirə biləcək təşkilat axarışındadırlar. Respondentlər beş ballıq şkala üzrə cavablandırdıqları suallardan müəyyən nəticələr çıxarmaq mümkündür ( Cədvəl 1). İnsan kapitalı isə təşkilati bacarıqları müxtəlif mənbələrdən əldə ediblər (Cədvəl 2) [1].




*Cədvəl 1*




*Cədvəl 2*

*(Mənbə: APQC)*

Cədvəl 1-də göstərildiyi kimi, rəqabətli layihələr üzərində işləmək bacarığı respondentlər arasında ən yüksək qiymətləndirilib və orta qiymət 4,4 olub. Bu göstəricini geniş spektrli layihələr üzərində işləmək bacarığı və təşkilat üçün fərqlilik yaratmaq bacarığı izləyir. Bu nəticələr onu göstərir ki, təchizat zənciri mütəxəssisləri müxtəlif vəzifələr və yeni problemlərin öhdəsindən gəlmək imkanı təklif edən vəzifələr axtarırlar.

Digər bir statistik göstərici olan Cədvəl 2-yə nəzər salsaq, sorğu respondentlərinin bilik və bacarıqları əldə etməyə üstünlük verdiyi üç əsas yol kimi bilikli həmkarlarından, internetdən və təhsil aldığı müvafiq sahə üzrə biliklər olduğunu görürük. Həmçinin, təchizat zənciri mütəxəssisləri

digər işçilərlə üz-üzə əlaqənin dəyərini anlayaraq daha təcrübəli mütəxəssislərlə işləyərək bilik və bacarıq əldə etməyi aydın şəkildə üstün tuturlar, lakin bu qarşılıqlı əlaqənin olması yeni bir vəzifəni qəbul etmək qərarına gəldikdə o qədər də vacib amil olmur.

**İnsan kapitalının təchizat zəncirində dəyişən rolu və yeni prespektivlər**

Bir təşkilatın bir zamanlar böyük bazar payına və istehlakçı tələbinə sahib olması bu vəziyyətin hər bir dövrdə bu cür qalacağı və dəyişməyəcəyi anlamına gəlmir. Bir zamanlar malların və xidmətlərin daşınmasında, paylanmasında və çatdırılmasında böyük bazar payına sahibi olan firmaların hazırda bazar payının ya ciddi şəkildə azaldığını ya da tamamilə bazardan çəkildiyini görmüş olarıq. Bəs, bu firmaların bu cür aqibəti yaşamalarında hansı faktorlar rol oynamışdır? Təbii ki, burada texnoloji yeniliklərə ayaq uydurmamaq, köhnəlmiş metod və üsullardan istifadə ilə yanaşı düzgün kadr siyasətinin aparlmaması və insan kapitalının dəyişən tələblərə uyğunlaşdırılmaması da əsas faktorlardan biri hesab olunur.

XXI əsrin əvvəlindən bəri, müəssisə rəhbərləri ehtiyac duyduqları insan kapitalı üçün "mübarizə" aparmağa başlayıblar, o cümlədən qloballaşma və texnologiyanın sürətli inkişafı da bu prosesi daha da labüd etdi. Pandemiya isə vəziyyətin daha da ciddiləşməsinə səbəb oldu. ABŞ Əmək Statistikası Bürosu logistika sahəsində iş artımını 2012-2022-ci illərdə 22%, ən yüksək artım tempi olan 30 peşənin orta tempindən iki dəfə çox olacağını proqnozlaşdırırmışdır *(Halcomb, Krul and Thomas)*. Digər bir statistikaya əsasən isə, təcrübəli təchizat zənciri mütəxəssislərinin sayı azalmaqda davam edir *(Halcomb, Krul and Thomas)*. Təcrübəli təchizat zənciri mütəxəssisinə olan bazar tələbi hazırda ən yüksək halındadır. Azərbaycan üçün isə qlobal ticarət yollarının üzərində yerləşməsi, Şərq-Qərb nəqliyyat dəhlizi və beynəlxalq əhəmiyyətli Zəngəzur dəhlizinin təqdim etdiyi yeni prepektivlər hesabına peşəkar logistika menecerinə olan tələb daha da artmışdır.
Yeni əsrin özü ilə birlikdə gətirdiyi reallıqlar səbəbilə logistika sahəsində insan kapitalı üçün əsas önəm kəsb edən bilik və bacarıqlar üzrə ciddi dəyişikliklər müşahidə olunmağa başladı. Deloitte Consulting *(Halcomb, Krul and Thomas)* tərəfindən hazırlanan (**Error! Reference source not found.**) statistikada bu fərqliliklər aydın şəkildə sezilir.




*Cədvəl 3*

*(Mənbə: Deloitte Consulting)*

Cədvəl 3-dən anlaşıldığı kimi risk menecmenti, tələbin praqnozlaşdırılması və biznes planlaması kimi bacarıqlar hazırda təchizat zəncirində çalışan işçilərdən gözlənilən və tələb olunan əsas bacarıqlardır. Cədvəldə, həmçinin, gələcəkdə hansı bacarıqların hansı dərəcədə istifadə olunacağı barədə pranozlar da əks olunub. Burada isə bizi, əsasən texnoloji inkişafla bağlı qarşıya çıxan yeni önəmi artan bacarıqlar qarşılayır. Bunlar əsasən, süni intellekt, analitika və viziualizasiya kimi bacarıqlardır. Gələcəkdə öz sahəsində uğur əldə etmək istəyən və bazar payını artırmaq istəyən firmalar bu bacarıqlara sahib işçi axtaracaqsa, vizyona sahib preşəkar işçi də bu bacarıqlara yiylənməyə çalışacaq.

**İnsan kapitalının idarəedilməsində SCM[9] yanaşması**

İqtisadçılar, biznes şəraitində qeyri-müəyyənliyin hakim olduğu dövrdə Təchizat Zənciri yanaşmasını qəbul etməklə firmaların lazımi insan kapitalı sayı və kefiyyətini necə müəyyən edilə biləcəyini araşdırırlar. Bundan əlavə olaraq, onlar müxtəlif vəzifələrə insan kapitalının alınması strategiyalarına və hər birinin işə götürülmə vaxtına diqqət yetirirlər. Təchizat Zənciri yanaşmasında

[9] SCM (Supply Chain Management) – Təchizat Zəncirinin İdarəedilməsi

əsas diqqət tələbin praqnozlaşdırılması zamanı yol verilən qaçınılmaz səhvlər nəticəsində yaranan xərclərin minimuma endirilməsinə yetirilir. Beləliklə, insan resusrlarının idarəedilməsi üçün təchizat zəncirinin əsas diqqəti insan kapitalının həddən artıq qəbulu ilə bağlı yaranan problemlər nəticəsində artan xərclərin minimuma endirilməsidir. Həmçinin, müxtəlif zamanlarda güvənilirlik və lazımi anda doğru cavabların əldə edilməsi üçün strategiyalar, inventar səviyyəsi və Just in Time (JIT) depolama funkisyaları kimi gözlənilməz vəziyyətlər üçün strategiyaların müyyənləşdirilməsi müzakirə edilir *(Sateesh, 2020).*
İşə qəbul və insan kapitalının idarəedilməsi prosesi bir sıra müasir idarəetməyə uyğunlaşmış firmalarda siqnal nəzəriyyəsi və strateji insan resurslarının idarə edilməsi konsepsiyası üzərində qurulmuşdur. Bir sıra nəzəriyyəçilər insan resurslarının firmada uzunmüddətli fəaliyyətini təmin etmək üçün işlə bağlılıq, həmyaşıdların cəlb edilməsi və təşkilati cəlbetmə kimi üsulları özündə birləşdirən "Engagement theory"-ni təklif edirlər *(Sateesh, 2020).* Digər bir təklif isə işçilərə motivasiya aşılanması baxımından faydalı nəticələrə gətirib çıxaran işəgötürən brendinq fəaliyyətləri və bu fəaliyyətlərdən biri olan təşkilat daxili mədəniyyət kimi amillərdən istifadə edərək brendinqin yaradılmasıdır. Güclü işə qəbul brendinin yaradılması çox şaxəli funksiya olduğundan, iqtisadçılar mürəkkəb problemlərin mövcudluğunu qeyd edir və bu problemlərin həlli üçün yeni yolları təqdim edirlər.

**Nəticə**

Məqalədə əsas fikir daim dəyişən, sürətlə inkişaf edən və rəqəmsallaşan Təchizat Zəncirində insan kapitalı qarşısında qoyulan yeni tələblər, istənilən bilik və bacarıqlarda baş verən dəyişimi və dövrün tələblərini vurğulamaq və yeni yolların axtarılması olmuşdur. Sözsüz ki, burada işçi-firma münasibətlərinə və istənilən bacarıqlara bir tərəfli prizmadan baxmaq natamamlığa səbəb olardı. Nəzərə almaq lazmdır ki, artıq təchizat zəncirində müəssisələrin yüksək peşəkarlıq səviyyəsinə sahib işçilərə bu qədər ehtiyac duyduğu bir zamanda (pandemiya sonrası artan tələb) artıq, mütəxəssislər də bazarda rəqabətə sahib firmada işləməklə yanaşı, həmin firmanın vacib fiqurlarından birinə çevrilməyi və geniş səlahiyyətlər almağı şərt kimi qarşıya qoyurlar.

Məqalənin əsas sualı və tədqiqat mövzusu olan suala bir daha qayıdaq. Niyə təchizat zəncirində rol alan işçilərin dövrün tələblərinə uyğunlaşması bu qədər önəmlidir? Əsas başlanğıc nöqtəsini bir sözlə ifadə edə bilərik- rəqabət. Məhz, rəqabətli bazarın yaratdığı şəraitə uyğunlaşmaq istəyən firma dövrün tələbləri ilə hesablaşır və müəssisənin əsas hərəkətverici qüvvəsi olan insan kapitalına qarşı bu qədər seçici davranır. Bu zaman kiçik müəssisələrin qarşılaşdığı peşəkar insan kapitalı problemi diqqətçəkən digər bir nüansdır. Tədqiqat metodu olan statistika və müqayisə metodu ilə müəyyən edildiyi kimi, peşəkar işçi daha geniş spektrlı layihələrdə, özünü inkişaf etdirə biləcək proyektlərdə yer almaq istəyir. Kiçik müəssisələrin bu cür şəraitə sahib olması isə o qədər də asan deyil. Düzgün HR siyasətinin önəminin hiss olunduğu digər bir nöqtə isə müəssisə daxili insan resurslarının idarəsidir. Əgər, müəssisə daxili əməkdaşlıq mühiti düzgün qurulmazsa, işçilər özünüinkişaf etdirib, motivasiya əldə edə bilməzlərsə, bu birbaşa müəssisənin effektivliyinə və səmərəliliyinə təsir göstərərk mənfəətin miqdarında əks olunacaq.

Beləliklə, araşdırma sahəsi Təchizat Zənciri və logistika menecmenti olsa da, insan kapitalından tələb olunan və əsas axtarılan bilik və bacarıqlar rəqəmsallaşma dövründə bir sıra istehsal və xidmət sahələri üçün eyni olaraq qalır. Artıq real olaraq ayırd ediləcək tələb, təhlükələr və risklərə qarşı tədbir alacaq insan kapitalı əvəzinə, gözlənilməz və əvvəlcədən müəyyən edilə bilməyən fürsət, imkan və təhlükələr qarşı tez bir zamanda tədbir görə biləcək, analitik düşüncəyə, viziualizasiyaya sahib peşəkar insan kapitalı firmaların əsas ehtiyac duyduğu mənfəət artırıcı faktordur. Son olaraq, inkişaf imkanları və xüsusi strategiyalar nə qədər önəmli olsa da, ictimai, sosial və mədəni xarakterik xüsusiyyətlər də yaddan çıxarılmamalıdır.

# İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Partida, B. Supply chain professionals want challenges and opportunities to learn. Vol. 20 Issue 4, p52-54. 3p.
   https://web.s.ebscohost.com/ehost/detail/detail?vid=6&sid=90149b20-41bd-4612-8dd7-42eb21c04667%40redis&bdata=JnNpdGU9ZWhvc3QtbGl2ZQ%3d%3d#db=buh&AN=116839440
2. Halcomb, M., Krul, A., Thomas, D., 2022. Supply Chain talent squeeze: how business & universities are collaborating to fill the gap. Vol. 19 Issue 4, p10-18. 8p.
   https://web.s.ebscohost.com/ehost/detail/detail?vid=9&sid=90149b20-41bd-4612-8dd7-42eb21c04667%40redis&bdata=JnNpdGU9ZWhvc3QtbGl2ZQ%3d%3d#AN=108406954&db=buh
3. Hobbs, D. 2012.Supply Chain: An HR prespective.Vol. 5 Issue 4, p33-34. 2p.
   https://www.bluearrow.co.uk/
4. Rice, J., Cottril, K. Bridging the Gap between HR and SCM Vol. 16 Issue 1, p10-11. 2p
   https://web.s.ebscohost.com/ehost/detail/detail?vid=18&sid=90149b20-41bd-4612-8dd7-42eb21c04667%40redis&bdata=JnNpdGU9ZWhvc3QtbGl2ZQ%3d%3d#AN=74733455&db=buh
5. Matsuddi, I. Supply Chain Management for Effective People Management: Issues and Challenges Vol. 11 Issue 4, p53-64. 12p. 3 Diagrams.
   https://web.s.ebscohost.com/ehost/detail/detail?vid=20&sid=90149b20-41bd-4612-8dd7-42eb21c04667%40redis&bdata=JnNpdGU9ZWhvc3QtbGl2ZQ%3d%3d#AN=83471664&db=buh
6. Sateesh, V. S., 2020. Strategic talent management – contemporary issues in international context 2020, VOL. 23, NO. 1, 98–102
   https://doi.org/10.1080/13678868.2019.1650324

# AZƏRBAYCAN RESPUBLİKASINDA MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ (2020-2021)

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Məmmədzadə Yusif İlham oğlu*
*Elmi rəhbər: Ü.Ş.Məmmədova*

**Xülasə**

Məqalə Azərbaycan Respublikasında 2020 və 2021-ci illərdəki Makroiqtisadi göstəricilərin vəziyyətini və təhlilini əks etdirir. Respublikada gedən sürətli inkişafın Makroiqtisadi göstəricilərə nə dərəcədə yansıdığından bəhs edir. Müasir şəraitdə makroiqtisadi göstəricilərin formalarını, iqtisadi və sosial göstəricilərinin tərkibini, vəziyyətini əks etdirir. Müasir dövrdə Azərbaycanda milli iqtisadiyyatın formalaşması digər məsələlərlə yanaşı, makroiqtisadi təhlil məsələlərindəki aktuallığını ifadə edir. Belə ki, mövcud şəraitdə dövlətin makroiqtisadi tarazlığının sabit inkişafında rolunun lazımi səviyyədə qiymətləndirilməsi də zəruri məsələlərdən hesab olunur.

***Açar sözlər:*** *ÜDM, Göstərici, İstehsal, İşsizlik, İnflyasiya, Yanvar-Sentyabr, Dövlət Büdcəsi.*

**Summary**

The article reflects the situation and analysis of macroeconomic indicators in the Republic of Azerbaijan in 2020 and 2021. It talks about the extent to which the rapid development in the republic is reflected in the Macroeconomic indicators. It reflects the forms of macroeconomic indicators, the composition and state of economic and social indicators in modern conditions. In the modern era, the formation of the national economy in Azerbaijan, among other issues, expresses its relevance in macroeconomic analysis. Thus, in the current conditions, the proper assessment of the role of the state in the stable development of the macroeconomic balance is considered one of the necessary issues.

***Key words:*** *GDP, Indicator, Manufacture, Unemployment, Inflation, January-September, State budget.*

Müasir statistika sistemində makroiqtisadi göstəricilər iki hissəyə: iqtisadi və sosial göstəricilərə bölünür.

İqtisadi göstəricilərə daxil olanlar:

- ümumi daxili məhsul (ÜDM);
- sənaye məhsulunun həcmi, o cümlədən istehlak malları;
- bütün maliyyə mənbələri hesabına kapital qoyuluşları;
- podrat işlərinin həcmi;
- pərakəndə əmtəə dövriyyəsi;
- pullu xidmətlərin həcmi;
- nəqliyyat müəssisələrinin yük;
- xarici ölkələrə əmtəələrin ixracı.

Sosial göstəricilərə daxil olanlar:

- sərəncamda olan real pul gəlirləri;
- bir işçinin orta aylıq nominal əmək haqqı;
- əmtəə və xidmətlərin istehlak qiymətləri indeksi;
- rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayına uyğun olaraq hesablanmış işsizlərin ümumi sayı;
- minimum yaşayış səviyyəsindən aşağı pul gəlirləri olan əhalinin sayı;
- yaşayış evlərinin istifadəyə verilməsi.

Ümumi daxili məhsul (ÜDM) iqtisadiyyatın ən mühüm göstəricilərindən biridir. İqtisadi subyektlərin (rezidentlərin) istehsal fəaliyyətinin son nəticəsini əks etdirir və həmin subyektlər tərəfindən son istehlak üçün istehsal olunmuş əmtəə və xidmətlərin dəyəri ilə ölçülür. ÜDM-in istifadə edilməsi (xərclər üsulu) əmtəə və xidmətlərin son istehlakını, əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) əldə edilməsini və əmtəə və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

Makroiqtisadi göstəricilər ölkə iqtisadiyyatını xarakterizə edən, təhlil edən, onun vəziyyətini müəyyən edən əsas göstəricilərdir. Makroiqtisadi göstəricilər müxtəlifdir. Bunlar içərisində üç Makroiqtisadi göstəricini xüsusi qeyd etmək lazımdır. Bunlar: İstehsal, İnflyasiya və İşsizlikdir.

İstehsal nədir? İstehsalat və ya istehsal hər hansı bir məhsulun və ya xidmətin yaradılması üçün hüquqi şəxsin və fiziki şəxsin təşkil etdiyi fəaliyyət prosesidir. Milli iqtisadiyyatın vəziyyətinin ölçülməsinin ən yaxşı üsulu müəyyən müddət ərzində istehsal olunan son əmtəə və xidmətlərin həcminin müəyyən edilməsidir. Bunu ifadə etmək üçün istifadə olunan əsas göstərici Ümumi Daxili Məhsuldur.

İşsizlik nədir? İşsizlik işçinin iş axtardığı dövrüdür. İqtisadiyyatda işsizliyin həcmi işçi qüvvəsindən çalışmayan hissəsinin faiz göstəricisini əks etdirən işsizlik dərəcəsi ilə ölçülür. İşsizlik dərəcəsinin hesablanması üçün ilk növbədə 4 kateqoriya müəyyən edilməlidir: Məşğullar, İşsizlər, İşçi qüvvəsi, İşçi qüvvəsinə daxil olmayanlar. İşsizliyin müxtəlif formaları vardır. Bunlar: Fruksional, Struktur, Dövrü (tsklik) işsizlikdir (https://marja.az/).

İnflyasiya nədir? Ölkə həyatının bütün sahələrilə sıx sürətdə bağlıdır. Siyasi proseslər, iqtisadi dəyişikliklər, beynəlxalq münasibətlərr və s. inflyasiya səviyyəsinə operativ formada təsir göstərmək qabiliyyətinə malikdir. Qiymətlərin artım sürətindən asılı olaraq inflyasiyanın üç növü var:

1. Mülayim (sürünən) 10%
2. Sürətli (dört nala çapan) 10-20%
3. İfrat (hiper) 100% *(https://www.investaz.az/)*

Makroiqtisadi göstəricilərin 2022-ci ilin yanvar sentyabr aylarında faktiki, 2021-ci ilin müvafiq dövrünə nisbətən faiz göstərici qeyd olunmuşdur.

Ümumi daxili məhsul, min manatla 2022-ci ilin yanvar-sentyabr aylarında faktiki 2 226949,1 2022-ci ilin müvafiq dövrünə nisbətən, faizlə 102,5%-dir. Hər nəfərə düşən ümumi daxili məhsul, manatla 2022-ci ilin yanvar sentyabr ayları faktiki 4800,5 , 2021-ci ilin müvafiq dövrünə nisbətən, faizlə 103,1%-dir. Sənayə məhsulu, min manatla 2022-ci ilin yanvar-sentyabr aylarında, faktiki 885 535,0 , 2021-ci ilin müvafiq dövrünə nisbətən, faizlə 102,4%-dir. Kənd təsərrüfatı məhsulu, min manatla 2022-ci ilin yanvar-sentyabr aylarında, faktiki 431 374,8 , 2021-ci ilin müvafiq dövrünə nisbətən, faizlə 103,7%-dir. Nəqliyyat sektorunda yük daşıması, min tonla 2022-ci ilin yanvar-sentyabr aylarında faktiki 12 576,7, 2021-ci ilin müvafiq dövrünə nisbətən, faizlə 101,8%-dir *(https://www.stat.gov.az/ ).*

2021-ci il ərzində əsas kapitala 16127.0 mln. manat həcmində investisiya qoyulub. Əsas kapital qoyuluşlarının 73.1%-i daxili investisiyalar, 26.9%-i isə xarici investisiyalar hesabına formalaşıb. İnvestisiyaların 35.8%-i neft, 64.2%-i isə qeyri-neft sektoruna yönəldilib. Ümumi sərmayənin 10536,7 milyon manatı və ya 65,3 faizi məhsul istehsalı sahələrinin, 4560,8 milyon manatı (28,3 faizi) xidmət sahələrinin, 1029,5 milyon manatı (6,4 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşüb (*https://economy.gov.az/).*

Pandemiya səbəbindən tətbiq olunan məhdudiyyətlər yük və sərnişin daşınmasına da təsir göstərib. Belə ki, 2021-ci ilin yanvar-dekabr ayları ərzində 193.9 mln. ton yük nəqliyyat sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən daşınıb və bu göstərici 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2.8% yuxarı olub. Eyni zamanda sərnişin daşınmasında 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çox və ya 1214,2 milyon sərnişinə xidmət göstərilmişdir.

Koronavirus məhdudiyyətləri bütün dünyada məhsul tədarük zəncirlərində fasilələrə səbəb olmasına baxmayaraq, ötən illər ərzində qurulan baza bu il belə yüksək artıma imkan verən şeydir. Bu yerdə daha bir ixrac rekordunu qeyd etmək yerinə düşər - Sumqayıt Kimya Sənaye Parkının rezidentləri 2021-ci ilin yanvar-noyabr aylarında 764 milyon ABŞ dolları dəyərində məhsul ixrac ediblər ki, bu da rezidentlərin son 10 il ərzində ixrac etdiyi məhsulun cəminə bərabərdir *(https://www.cbar.az/).* 2021-ci ilin yanvar-dekabr aylarında satılmış mallar və göstərilən xidmətlərdə 2020-ci ilin eyni dövrü ilə müqayisədə 3.7% artıma nail olunmuşdur.

Müstəqillik illərində Milli İqtisadiyyatımızın Mərhələləri Tənəzzül dövrü (1991-1994)-16, 5%, Dərin iqtisadi islahatlar, keçid və Bərpa dövrü (1995-2003)- 6,2%, İqtisadi inkişaf və tərəqqi dövrü (2004-2014)- 12%, Aşağı neft qiymətləri dövrü (2015-2016)- 1%, Bərpa dövrü (2017-2020)-

1,4%, Böhran dövrü (2020 mart- 2021 aprel)- 4,3%, Post Kovid və Post Konflikt quruculuq dövrü (2021 apreldən sonra)- 3,0%-dir.

2021-ci ilin yanvar-sentyabr aylarında Ümumi Daxili Məhsul İstehsal milyon manatla (2020-ci ilin eyni dövrü ilə müqayisədə) ÜDM istehsalı 2020-ci ildə 52 074, 2021-ci ildə 62 877,4 manatla yəni, 4,8% artım müşahidə olunmuşdur. Qeyri-neft qaz sektoru üzrə ÜDM həcmi 2020-ci ildə 36 319,6 , 2021-ci ildə 40 204,7 milyon manatdır. Bu sahədə də 0,2% artım müşahidə olunmuşdur. Sənayə məhsulu 2020-ci ildə 27 416,9 milyon manat, 2021-ci ildə isə 36 558,3 milyon olmuşdur. Bu sahədə də 4,5% artım müşahidə olunmuşdur. Qeyri-neft qaz sənayəsi üzrə 2020-ci ildə 8 819,6 milyon manat, 2021-ci ildə isə 10 804,5 milyon manat olmuşdur. Bu sahədə 2020-ci ilə nisbətən 19,6% artım müşahidə olunmuşdur *(https://www.stat.gov.az/).*

2021-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsi (2020-ci ilin eyni dövrü ilə müqayisədə) 2020-ci ildə 28 054,9 min AZN, 2021-ci ildə isə 30 350,1 min AZN-dir yəni, bu sahədə 2,8% artım müşahidə olunmuşdur. 2021-ci ilin yanvar-sentyabr aylarında əhaliyə göstərilən ödənişli xidmətlər (2020-ci ilin eyni dövrü ilə müqayisədə) 2020-ci ildə 4 937,0 min AZN, 2021-ci ildə 5 402,7 min AZN olmuşdur və 4,5 % artım müşahidə olunmuşdur. Sənayedə ÜDM-nin payı Azərbaycanda 41,4% , Dünyada 24,8% , Mərkəzi Avropa və Baltikada 27,2% , Avrozonada 21,5%, OECD ölkələrində 21,1 %-dir *(https://www.stat.gov.az/).* 2021-ci ilin yanvar-sentyabr aylarında Dövlət büdcəsinin göstəriciləri (mln manat). Dövlət büdcəsinin gəlirləri 17 871,6 mln manat, xərcləri isə 17 711,9 mln manatdır. Vergi daxilolmaları, milyon manat (2020-ci ilin eyni dövrü ilə müqayisədə) 2020-ci ildə 5 672,8 mln manat 2021-ci ildə isə 6 354,4 mln manatdır. 2020-ci ilə nisbətən 2021-ci ildə 12% artım müşahidə olunmuşdur. 2021-ci ilin yanvar sentyabr aylarında qeyri-neft ixracı (2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə) 2020-ci il 1283,8 mln ABŞ dolları, 2021-ci ildə isə 1809,1 mln ABŞ dollarıdır. Bu sektor üzrə də 40,9% artım görülmüşdür.

Ən nüfuzlu Hərbi hesabat hesab olunan "Qlobal Hərbi Gücü 2021" Hesabatına əsasən Azərbaycan 2021-ci ildə öz Hərbi qüdrətini qoruyub saxlamışdır. Azərbaycan öz hərbi gücünə görə qlobal miqyasda 63-cü mövqeydə qərarlaşmışdır.

**Nəticə**

Ölkənin makroiqtisadi stabilləşmə üzrə həyata keçirdiyi məqsədyönlü siyasət tədbirləri sırasında təsərrüfat həyatının müxtəlif sahələrinin tarazlığı problemlərinin həll olunması mühüm əhəmiyyət kəsb edir. Makroiqtisadi stabillik milli iqtisadiyyatın əsas göstəricisidir. Belə ki, hazırlanmış məhsul və xidmətlər tam reallaşdırılır, tələblər də ödənilir. İqtisadi sabitlik ideyası ölkənin məhsul axını ilə pul axını hərəkətinin qarşılıqlı surətdə birbirinə əlaqəsini əks etdirir. Azərbaycan Respublikasında 2020-ci ilə nisbətən 2021-ci ildə ÜDM, sənaye məhsulu, neft-qaz sənayesi, qeyri-neft qaz sənayesi, kənd təsərrüfatı, nəqliyyat sektorunda və s. sahələrdə yüksəliş mövcud olmuşdur. Bu da onu göstərirki, makroiqtisadi göstəricilər 2020-ci ilə nisbətən 2021-ci ildə, (yəni 1 il müddətində) artım surəti bu formada davam edərsə, Azərbaycan iqtisadi cəhətdən yetərincə inkişaf etmiş ölkələr sırasında olacaq.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. https://www.investaz.az/
2. https://www.stat.gov.az/
3. https://marja.az/
4. https://www.cbar.az/
5. https://economy.gov.az/
6. https://report.az/

# VERGİ NƏZARƏTİNİN ZƏRURİLİYİ VƏ DÖVLƏT İDARƏETMƏSİNDƏ ROLU

***Azərbaycan Universiteti***
***Musazadə Ramin Bəxtiyar oğlu, magistrant***
***Elmi rəhbər:i.e.d. S.A.Abbasov***

***Xülasə***

Məqalədə vergi nəzarətinə dövlətin idarəetməsinin ən vacib funksiyalarından biri kateqoriyası kimiizahı verilmiş, vergi nəzarət sisteminin meydana gəlməsi xüsusiyyətləri, həmçinin vergi və maliyyə nəzarətinin qarşılıqlı əlaqə sisteminin inkişafı kompleks şəkildə araşdırılmışdır.

Hal-hazırda ölkəmizdə stabil yüksəlişin ağırlıq mərkəzində qüvvələr nisbəti bilavasitə vergi nəzarətin öhdəsinə düşmüşdür . Respublikamızda davamlı inkişaf tempini saxlanılmasında vergi nəzarəti artıq mühüm təsir amili rolunda özün göstərir və bu sahələrə olan diqqət dövlət səviyyəsində son zamanlar artmaqdadır .
***Açar sözlər:*** *vergi sistemi , maliyyə- vergi nəzarəti, , maliyyə siyasəti , vergi uçotu.*

***Summary***

In the article, tax control is explained as one of the most important functions of state management, the features of the tax control system, as well as the development of the interaction system of tax and financial control are comprehensively investigated.

Currently, the balance of forces in the center of gravity of stable growth in our country is directly under the control of taxes. In our republic, tax control is already an important influencing factor in maintaining the pace of sustainable development, and attention to these areas has recently increased at the state level.
***Keywords:*** *tax system, financial-tax control, financial policy, tax accounting.*

Ölkəmizdə bazar iqtisadıyyatı münasibətlərinin bərqərar olması və dünya təsərrüfat sisteminə inteqrasiya prosesinin gücləndiyi,habelə maliyyə-vergi nəzarətinin möhkəmləndirilməsi aparıcı yer aldıgı dovlət siyasətində müasir mərhələdə idarəetmənin başlıca elementi hesab edilən bu nəzarət növünün rolu getdikcə önəmli yer tutur. Təsadüfi vəziyyət deyil ki, mövcud durumda maliyyə şəffaflığının təmini, mövcud olan nəzarət vasitələrinin təkmillinə və ümumi şəkildə maliyyə intızamının gücləndirilməsinə böyük töhvə verilir, sınaqdan ugurla çıxmış beynəlxalq praktikadan istofadə etməklə iqtısadi yüksəlişə maneə yaradan, qanunları pozan və nəticədə sosial ədalətsizlik yaradan korrupsiyaya əleyhinə mübarizə tədbirləri son dövrlərdə Ölkə Prezidentinin imzaladıgı sərəncamlarda da öz parlaq nümunəsini tapmış olur.

Milli iqtisadi strategiyanın mühüm istiqaməti sabitliyə və iqtisadi yüksəlişə yiyələnmək, sosial rifahın yüksəldilməsi, iqtisadi sahədə təhlükəsizliyə nail olmaqdır. Haqqında bəhs edilən aspektlərin həyata keçirilməsi özəl sahənin inkişafı, haqsız rəqabətin qarçısının alınması, azad sahibkarlığa hüquqi təminatın yaradılması, daxili bazarın yüksəlişinə çatmaqdan ötrü çevik infrastrukturun formalaşdırılması, özəlləşdirmə proqramının sürətləndirilməsi və dərinləşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, digər mühüm tənzimləyici tədbirlərin reallaşması ilə sıx tərzdə əlaqədardır.Şübhəsiz bu tədbirlər iqtisadiyyatın müxtəlif sferalarını özündə cəmləşdirir və bilavasitə iqtisadi siyasətin məqsədyönlü təşkilindən asılıdır *(Qəzənfər Abbasov, 2010.).*

Vergi nəzarəti - dövlət idarəetməsinin ən vacib funksiyalarından biri olub, dövlət mülkiyyətinin idarə edilməsinin qanuniliyi, məqsədəuyğunluğu və səmərəliliyi məsələlərində qəbul edilmiş standartlardan yayınma hallarının aşkar edilməsinə, bu cür meyllər yarandıqda isə uygun tədbirlərin vaxtında həyata keçirilməsinə yönəlmişdir (*Kəlbiyev Y.A. 2012, 488 s.*).

Ölkənin maliyyə siyasətini ugurla həyata keçirmək, maliyyə ehtiyatlarından effektif surətdə istifadəsinə nail olmaqda maliyyə nəzarətinin rolu olduqca vacibdir. Maliyyə mexaniznin idarəedilməsi sisteminin təzədən yaradılması maliyyə resurslarından istifadənin səmərəliliyinin artırılması, dövlət xərclərinin şəffaf tənzimlənməsi mexanizminin formalaşdırılması qarşıya qoyulan strateji vəzifələrdəndir.

Pandemiya ilə əlaqədar Dünya və Azərbaycan iqtisadiyyatının hazırkı qeyri-sabitliyi nəticəsində bir çox şirkətlər müflisləşərək ağır böhran durumuna düşmüşlər ki, bu durum

özlüyündə aktivlərin və kapitalın strukturunun optimallaşdırılmasını bilavasitə zəruriyyətə çevirmişdir. Təsərrüfat subyeklərində investisiyaların maliyyələşdirilməsinin təkmilləşdirilməsi, maliyyə bazarlarında əməliyyatların uğurla tamamlanması, iqtisadi resurslardan daha məqsədli yararlanma və rəqabətqabiliyyətinin yüksəldilməsi önəmli məsələyə gəlib yetişmişdir . İstənilən hər hansı ölkənin iqtisadiyyatının davamlı stabilliyi , iqtisadi inkişafın səmərəyönlü qurulması və iqtisadiyyatın idarəedilməsində səmərəli vergi sisteminin formalaşdırılmasını strateji məna səngiləyən məsələ şəklində zərurətə çevirir.

Vergi nəzarəti dövlətin səlahiyyət daşıyan orqanlarının tam və hədəfyönlü işini özündə ehtiva edən vergitutma sahəsində mövcud qanunvericiliyin tələblərinə söykənir və rezidentlərin vergi öhdəliklərinə dair tələblərin icrası ilə əlaqədar məlumatların yığılması və analizinə istiqamətlənib. Bu tip nəzarətin ali məqsədi vergi qanunvericiliyində yol verilmiş pozultuların çevik aşkarlanması , onların qarşısına qətiyyətlə cədd çəkilməsi və bunun yekununda bütöv biznes subyektlərindən ötrü bərabərliyi və ədaləti özündə təcəssüm edən münasib vergi mühitinin formalaşdırılmaqdır .

Belskinin düşüncə tərzinə görə, vergi sistemi vergitutma sahəsində müəyyən prinsiplərə, iş adamlarının vergiləri ödəmək imkanlarına, qanunvericiliklə nəzərdə tutulmuş vergi və ödənişlər sisteminə, tətbiq olunan vergi inzibatçılığına və vergitutma üsullarına əsaslanan bir-biri ilə əlaqəli elementlərin (hissələrin) məcmusudur *(Бельский К.С. 2006. - №9. С. 55.).*

M.V.Karaseva tədqiqatlarında isə digər fərqli yanaşma ilə vergi strukturuna dövlətin vergitutma sferasında iqtisadi, siyasi, təşkilati və konstitusiya xarakterli bütün cari ictimai əlaqələrin toplusu qaydasında aydınlıq gətilir. Dövlətin vergitutma sahəsində formalaşan və siyasi, iqtisadi, təşkilati və hüquqi xarakterli bütün mövcud sosial münasibətlərin məcmusudur *(М.В.Карасева. 2006. – с. 324.).*

D.Q.Çernik fikrincə vergi sistemi dövlət səmtdən tutulan vergilərin, onlara aydınlıq gətirilməsi, dəyişməsi və ləğvinin prinsipləri, forma və metodları, hesablanması və tutulması metodlarının, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətin toplusudur (*проф.Князева В.Г., проф. Д.Г.Черника - 1997.*).

Hesab edirik ki, Azərbaycanda həyata keçirilən vergi nəzarəti alətləri dövrün tələblərinə və yeni çağırışlara tələblər səviyyəsində cavab vermir. Mütərəqqi beynəlxalq təcrübədə isə, artır bir neçə ildir ki, Azərbaycanda hələ də tətbiq edilməyən yeni mexanizmlərdən istifadə olunur. Məsələn, dünya üçün yeni bir standarta çevrilən İrlandiyanın artıq neçə ildir tətbiq etdiyi elektron audit modelini buna misal göstərə bilərik. Klassik Nəzarət Kassa aparatları vasitəsilə isə vergidən yayınma hallarına qarşı effektiv mübarizə aparmaq mümkün deyil.

Gəldiyimiz nəticələrdən biri də, Azərbaycanda tətbiq olunan vergi dərəcələri, cərimə və sanksiyaların sabit dərəcə ilə tətbiqinin törətdiyi mənfi hallarla bağlıdır. Hesab edirik ki, vergi dərəcələrinin fəaliyyət növü, regional xüsusiyyətlər nəzərə alınmaqla differensiallaşdırılmaması iqtisadi fəaliyyətin diversifikasiyalaşması və regionların inkişafı istiqamətində mənfi nəticələr doğurur. Eyni zamanda elektron ticarətin ənənəvi ticarətlə eyni dərəcə ilə vergiyə cəlb olunması bu sahənin inkişafında ciddi maneəyə çevrilməkdədir;

Vergilər iqtisadiyyatda anti-tsikliyə səbəb olan mühüm alət və investisiyanın tənzimləyicisi olmalıdır. Vergi tənzimlənməsinin köməyilə dövlət elmi-texniki tərəqqi və innovativ inkişaf nöqteyi-nəzərindən perspektivdə kapitalqığımını sürətləndirmək üçün zəruri şərait yaradır. Vergilər ödəniş subyektləri və ödəniş obyektlərinə görə qruplaşdırıla bilər. Vergilərin təsnifləşdirilməsinin ənmühüm əlamətlərindən biri vergilərin ödəniş mənbələridir; əmək haqqı, gəlir, yaxud mənfəət, maya dəyəri. Vergilər və yığımlar sistemi şirkətin maliyyə fəaliyyətinə önəmli səviyyədə təsirin nümayiş etdirir . Real təcrübədə bu təsirin dərəcəsi vergi yükündə öz əksin tapır . Şirkətin vergi siyasətində aşağıdakı əsas istiqamətləri ayırmaq zərurudir:

- vergi uçotu sxeminin seçilməsi;
- vergitutmanın optimallaşdırılması üsullarının seçilməsi;
- vergi planlaşdırılması.

Bu təkcə büdcəyə mədaxil hesabına xəcrlərə mümkün qənaətlə deyil, xüsusilə də şirkətin ümum təhlükəsizliyi ilə əlaqədardır. Vergi planlaşdırılmasının zəruriliyi vergi ödəyicisinin statusundan, onun maliyyə-təsərrüfat fəaliyyətinin istiqamətləri və nəticələrindən, müəssisəsinin

yerləşdiyi yerdən və təşkilati strukturundan asılı olaraq müxtəli vergi rejimi nəzərdə tutan müasir vergi qanunvericiliklə müəyyən edilmişdir. Vergi planlaşdırılması şirkətin maliyyə-təsərrüfat işinin strateji planlaşdılrılması metodlarının tətbiqi nəticəsində vergi ayırmalarının azaldılmasının müxtəlif qanuni sxeminin işlənilməsi və tətbiqindən ibarətdir.

Bu gün maliyyə-vergi nəzarətinin səmərəliliyini artırmaqdan ötrü araşdırma apardıgımız sahədə təkcə müasir texniki avadanlıqlara yox , habelə bu sferada fəaliyyətin gerçəkləşdirən mütəxəssis kadrların xüsusi hazırlıq səviyyəsinə böyük lüzum hiss olunur . Bir məqamına vurdulamaga ehtiyac var ki, mövcud mülki qanunvericiliyi təkmilləşdirmədən strateji sahələr içərisində önəmli yerlərdə qərarlaşan maliyyə nəzarəti sisteminin inkişafına yiyələnmək real görünür.

Vergi orqanlarının əsas vəzifələrindən biri də vergi ödəyən hər bir hüquqi və fiziki şəxsin hüquq və qanuni mənafeyini gözləmək və müdafiə etmək, həmçinin vergi ödənişləri ilə əlaqədar olan sənədləşməni düzgün aparmaqdır. Qeyd edilən istiqamətdə atılan ən mühüm addımlardan biri Vergi Məcəlləsinə müvafiq dəyişiklik və əlavələrin edilməsi ilə bağlıdır. Belə ki, nağd pul hesablaşmaları üzrə aparılan qaydaları pozmağa görə cərimələrin maliyyə sanksiyaları ilə əvəzlənməsi sanksiyaları vaxtında dövlət büdcəsinə ödəməyən borclu vergi ödəyicisinin əmlakının siyahıya alınması və hərraca çıxarılmasına, bank hesabına sərəncam qoyulmasına, ölkədən çıxışına qadağa qoyulmasına hüquqi əsas yaradır.

Son olaraq hesab edirik ki, nümunəvi vergi ödəyicisi ilə bağlı meyarlar müəyyən edilməli, həmin vergi ödəyicilərilə portnyor münasibətləri qurulmalı, qarşılıqlı etimad mühiti formalaşdırılmalıdır. Nümunəvi vergi ödəyiciləri və vergi qanunvericiliyini mütəmadi olaraq pozan ödəyicilər haqda məlumatlar davamlı olaraq kütləvi informasiya vasitələrində işıqlandırılmalı, geniş ictimaiyyətə çatdırılmalı və nəticədə ictimai qınaq, ictimai nəzarət institutu formalaşdırılmalıdır.

## İstifadə olunmuş ədəbiyyat


1.Qəzənfər Abbasov.Maliyə nəzarəti növlərinin təsnifati və onun başlıca istiqamətləri malyyə və uçot.- 2010.

2.Kəlbiyev Y.A. Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri. Bakı, "İqtisadiyyat Universiteti" Nəşriyyatı. 2012, 488 s.

3. Бельский К.С. Налоговая система: генезис, основные элементы, принципы // Государство и право. – 2006. - №9. С. 55.

4.Финансовое право Российской Федерации: Учебник / отв. ред. М.В. Карасева. – М.: Юристь, 2006. – с. 324.

5. Налоговые системы зарубежных стран: Учебник для ВУЗов/ Под ред. проф. Князева В. Г., проф. Д.Г.Черника - М.: Закон и право, ЮНИТИ, 1997.

# AZƏRBAYCANIN DÜNYA BANKI İLƏ ƏMƏKDAŞLIĞI

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Məmmədova Fatimə Amil qızı*
*Elmi rəhbər: Ü.Ş.Məmmədova*

*Xülasə*

Son 30 il ərzində Dünya Bankı uzunmüddətli tənəzzüldən sonra iqtisadiyyatın sabitləşməsinə kömək edərək, kritik struktur islahatlarının həyata keçirilməsində Azərbaycanı dəstəkləyib.
Bankın siyasi məsləhətləri institusional islahatların təmin edilməsinə, dövlət investisiya proqramının hazırlanmasına, xarici neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə danışıqların aparılmasına və hazırda neft və qaz ixracından əldə olunan gəlirlərin bir hissəsini toplayan Neft Fondunun yaradılmasına kömək etdi. Dünya Bankının layihələndirməyə və həyata keçirməyə kömək etdiyi pensiya islahatları və ünvanlı sosial yardım proqramı Azərbaycanda yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılmasında mühüm rol oynamışdır.
***Açar sözlər:*** *Dünya Bankı, iqtisadiyyat, neft sektoru, islahat, yoxsulluq, sosial yardım, investisiya.*

***Summary***

Over the past 30 years, the World Bank has supported Azerbaijan in implementing critical structural reforms, helping to stabilize the economy after a long recession. The bank's policy advice helped secure institutional reforms, develop a public investment program, negotiate productionsharing agreements with foreign oil companies, and establish the Oil Fund, which now collects a portion of oil and gas export revenues. The pension reforms and targeted social assistance program that the World Bank helped design and implement have played an important role in significantly reducing poverty in Azerbaijan.
***Keywords****: World Bank, economy, oil sector, reform, poverty, social assistance, investment.*

## Azərbaycanın dünya bankı ilə müxtəlif sahələrdə əlaqələri

Hər bir dövlətin uzunmüddətli inkişafı onun sağlam və etibarlı əsasda qurulmasından asılıdır. Bu gün ölkəmizin regionun əsas iqtisadi güc mərkəzinə çevrilməsi müasir Azərbaycanın yaradıcısı, ümummilli lider Heydər Əliyevin fəaliyyəti, xüsusən də dövlət quruculuğu sahəsində atdığı strateji addımlar nəticəsində mümkün olmuşdur. və iqtisadi islahatlar. Azərbaycanda müstəqil dövlətçiliyin qorunması ənənəsinin yaradılması ulu öndərin adı ilə, dövlətimizin müasirləşməsi və daha da möhkəmlənməsi, milli iqtisadiyyatın dinamik inkişafı isə Prezident İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycan ilə əməkdaşlıq 2016 - 2021 illər üzrə Ölkə üzrə Strategiya sənədi əsasında həyata keçirilir. Qeyd edilən strategiya Dünya Bankının Direktorlar Şurası tərəfindən 21 iyun 2015-ci ildə təsdiq edilmişdir. Strategiya 2 əsas sektoru əhatə edir:

Dövlət sektorunun idarə edilməsi və xidmətlərin göstərilməsi;

İqtisadiyyatın rəqabət qabiliyyətliyinin artırılması.

Dünya Bankı tərəfindən Azərbaycanın müxtəlif sektorlarına 60 layihə üzrə 5 mlrd $ dövlət zəmanətli kredit ayrılmışdır.

Dünya Bankında donor qismində iştirak:

Beynəlxalq İnkişaf Assosiasiyasına 6 mln. $ məbləğində vəsait ayrılmışdır. Azərbaycan Dövlət Neft Fondu Beynəlxalq Maliyyə Korporasiyasının Aktivlərin İdarəedilməsi Şirkətinin idarə etdiyi 3 fonda (Qlobal İnfrastruktur Fondu, Katalist Fondu, Afrika, Latın Amerika və Karib hövzəsi Fondu) 361 milyon ABŞ dolları məbləğində vəsait ayırmışdır.

Bildiyimiz kimi Dünya Bankı ilk əvvəl Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı adı ilə yaranmışdır. Terminoloji mənada Dünya Bankı dedikdə "Beynəlxalq İnkişaf Assosiasiyası" və "Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı" nəzərdə tutulur..Ancaq Dünya Bankının fəaliyyət sahəsi geniş olduğundan adları çəkilən 2 qurum bankın fəaliyyətini tam həcmdə həyata keçirməyə bəs eləmir.Əlavə 3 qurum yəni: Beynəlxalq Maliyyə Korporasiyası, İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik, İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz yuxarıda qeyd olunan 2 qurumla birgə Dünya Bankı ailəsini yəni, Dünya Bankı Qrupunu əmələ gətirir.

Dünya Bankı Qrupu BMT-in ixtisaslaşmış qurumlarından biridir və onun 185 üzvü vardır.Təşkilatın baş qərargahı Vaşinqtonda yerləşir.Ənənəyə uyğun olaraq , Dünya Bankının

Prezidenti ən iri səhmdar ölkənin vətəndaşı olmalıdır.Prezident 5 illik müddətə seçilir və nəzarəti həyata keçirir.

Dünya Bankı ilə Azərbaycan Respublikası 1992-ci ildən əməkdaşlıq edir. Lakin bu münasibətlər 1995-ci ilin 14 sentyabrında qurumun vitse-prezidenti Vilfrid Talvitsin Bakıya səfərindən sonra daha da genişlənməyə başlayıb. Səfər zamanı Azərbaycan hökuməti ilə Ümumdünya Bankı arasında ikitərəfli münasibətlərə dair danışıqlar aparılıb və vacib sənədlər imzalanıb. Bakıda öz ofisini açan bankın nümayəndəliyi Azərbaycan hökuməti ilə birgə konkret kredit layihələrinin həyata keçirilməsinə başlayıb. Beləliklə, Azərbaycanda yeni iş qurmaq, sahibkarlıq fəaliyyətinə başlamaq istəyənlər heç bir maneəsiz qısa müddət ərzində bizneslərini qeydiyyatdan keçirə bilirlər. Azərbaycanın uzunmüddətli etibarlı tərəfdaşı kimi Dünya Bankı ölkəmizin təşkilata üzv olduğu 1992-ci ildən indiyədək 50-dən çox investisiya layihəsini maliyyələşdirib. Gələcəyə nəzər salsaq, gözlənilən layihələr iqtisadi artımın, ticarətin, kommunikasiyanın artırılması və ictimai xidmətlərin göstərilməsinin yaxşılaşdırılması üçün vacib olan bir çox sektorları əhatə edəcək. Bu istiqamətdə artıq görülən genişmiqyaslı işləri nəzərə alsaq, enerji sektoru da kənarda qalmayacaq. Hələ 2000-ci illərin əvvəllərində sözügedən beynəlxalq maliyyə strukturu ölkə üzrə elektrik enerjisinin ötürülməsinin keyfiyyətinin, etibarlılığının və səmərəliliyinin artırılmasına töhfə verən layihəni maliyyələşdirib. Bu yaxınlarda bank "Şahdəniz" yatağından hasil edilən qazın Türkiyə və Cənubi Avropa bazarlarına nəqli üçün nəzərdə tutulmuş Cənub Qaz Nəqliyyat Dəhlizinin bir hissəsi olan Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) maliyyələşdirilməsini təmin edib.

Bildirilir ki, bu layihələrin icrası artıq başa çatıb və hazırda Dünya Bankının portfelində aktiv enerji layihələri yoxdur ki, bu da əməkdaşlığın yeni konturlarını cızmağın vaxtıdır. Bütün bu illər ərzində DB qrupu və onun maliyyə təşkilatları hökumətimizin milli iqtisadiyyatın prioritet sahələrinin inkişafı ilə bağlı təşəbbüslərini, eləcə də maliyyə sektorunda həyata keçirilən layihələri hərtərəfli dəstəkləyir (Ağayeva.Z.T, 2019: 57).

Bundan əlavə, DB-nin strateji tövsiyələri institusional islahatların təmin edilməsinə, dövlət investisiya proqramının hazırlanmasına, xarici neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə danışıqların aparılmasına, neft və qaz ixracından əldə edilən gəlirlərin bir hissəsini toplayan Dövlət Neft Fondunun yaradılmasına kömək etmişdir. Ölkəmizdə yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılmasında Dünya Bankının işlənib hazırlanmasına və həyata keçirilməsinə köməklik göstərdiyi pensiya islahatları və ünvanlı sosial yardım proqramı mühüm rol oynamışdır. İnvestisiyalar su və kanalizasiya şəbəkələri, kənd yerlərində magistral və yollar, məktəblər və xəstəxanalar, suvarma və drenaj kanalları kimi həyati vacib infrastrukturun bərpası və inkişafı üçün istifadə edilmişdir. Və bu, təkcə maliyyə ilə bağlı deyildi. DB layihələri ən yaxşı beynəlxalq təcrübənin tətbiqinə və yerli müəssisələrin və insan kapitalının artımına nail olmağa kömək etmişdir. Uzun illərdir ki, Dünya Bankının Azərbaycandakı proqramı milli iqtisadiyyatın şaxələndirilməsi planlarını dəstəkləyib ki, bu da vətəndaşlarımızın maraqları naminə yüksək keyfiyyətli, sərfəli və səmərəli dövlət xidmətləri olmadan ümumiyyətlə təsəvvür etmək çətindir. Burada DB fond bazarı istisna olmaqla, maliyyə xidmətləri bazarları üçün normativ hüquqi bazanın beynəlxalq standartlara uyğunlaşdırılmasına kömək etmişdir. Söhbət ilk növbədə bank və sığorta sektorundan, ödəniş sistemləri bazarının tənzimlənməsindən, kredit bazarından, o cümlədən bank olmayan kredit təşkilatlarının fəaliyyətindən gedir" *(Ağayeva.Z.T, 2019: 59).*

"Milli iqtisadiyyatın yüksək texnologiyalı sahələrinə ölkəyə birbaşa xarici sərmayələrin cəlb edilməsi kontekstində beynəlxalq strukturlarla, xüsusən də Dünya Bankı ilə əməkdaşlıq çox vacibdir", - deyə iqtisadçılr hesab ki, bu əməkdaşlığı davam etdirmək lazımdır. Rəqabət qabiliyyətinin artırılmasının aktuallığı, ilk növbədə, iqtisadiyyatın yüksək texnologiyalı sektorları.

Bu baxımdan, beynəlxalq maliyyə institutları, o cümlədən Dünya Bankı ilə davamlı qarşılıqlı fəaliyyət son dərəcə vacibdir *(C.C. Naskeviç, P.V. Trunin, 2012:44-45*).

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli perspektivdə inkişaf istiqamətləri dəqiq müəyyən edilmədən, müxtəlif sektorlar üzrə fəaliyyət proqramları hazırlanmadan ölkənin sosialiqtisadi həyatında köklü dəyişikliklərə nail olmaq mümkün deyil. Ötən 15 ildə Prezident

İlham Əliyev ulu öndərin qoyduğu təməl üzərində bir dövlət kimi Azərbaycanın əsaslarını daha da möhkəmləndirib.

Konkret vəzifələrə yönəlmiş dövlət başçısının məqsədyönlü fəaliyyəti ölkənin siyasi və sosialiqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir. Ölkənin tranzit potensialından daha səmərəli istifadə etmək üçün dövlət səviyyəsində institusional islahatların aparılması zərurəti yaranıb. Bu siyasətin davamı olaraq Tranzit Yük Daşımaları üzrə Koordinasiya Şurası yaradılmışdır. Koordinasiya Şurasına ölkədən keçən nəqliyyat dəhlizlərinin stimullaşdırılması, özəl şirkətlərin dövlət qurumları ilə əlaqələndirilməsi, tariflərin optimallaşdırılması və tranzit prosedurlarının sadələşdirilməsi istiqamətində işlərin görülməsi həvalə edilib.

İnvestisiyalar su və kanalizasiya şəbəkələri, kənd yerlərində magistral və yollar, məktəblər və xəstəxanalar, suvarma və drenaj kanalları kimi həyati vacib infrastrukturun bərpası və inkişafı üçün istifadə edilmişdir. Və bu, təkcə maliyyə ilə bağlı deyildi. Dünya Bankının layihələri qabaqcıl beynəlxalq təcrübələrin tətbiqinə və yerli biznesin və insan kapitalının inkişafına kömək etmişdir. Bu gün Dünya Bankının Azərbaycandakı Proqramı ölkə iqtisadiyyatının şaxələndirilməsi, eləcə də bütün Azərbaycan vətəndaşlarının maraqları naminə keyfiyyətli, sərfəli və səmərəli dövlət xidmətlərinin göstərilməsi planlarını dəstəkləyir *(Savvina,2012:5).*

Yeni sazişin imzalanması Dünya Bankının Azərbaycandakı işini, o cümlədən onun Bakıdakı ofislərinin idarə edilməsini sadələşdirəcək, həmçinin "yaşıl" və dayanıqlı iqtisadiyyatın bərpasına nail olmaq üçün birgə səyləri dəstəkləyəcək. Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyrineft sektorunun və sahibkarlığın inkişafı, yoxsulluğun azaldılması, çoxlu sayda iş yerlərinin açılması ilə səciyyələnir. Eyni zamanda, regionlarımız inkişaf edir ki, bu da əyalətlərdə iqtisadi fəallığın artması ilə müşayiət olunur. Dövlət investisiyaları hesabına infrastruktur obyektlərimiz müasirləşdirilir. Qeyri-neft sektorunun potensial sektorları xidmət sektorunu, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm və emal sektorunu necə inkişaf etdirir. Kənd təsərrüfatına dövlət dəstəyi siyasəti davamlı xarakter daşıyır.

"Dünya Bankı ilə Azərbaycanın tərəfdaşlığı aşağı gəlirli ölkədən dünyanın ən yoxsul ölkələrinə yardım edən Dünya Bankı Qrupunun bir hissəsi olan Beynəlxalq İnkişaf Assosiasiyasının donoruna çevrilməsinin şahidi oluruq. Hesabatda qeyd olunur ki, Dünya Bankı Azərbaycanda insan kapitalının inkişafı, infrastruktura, ictimai xidmətlərə və iş yerlərinə çıxışın genişləndirilməsi, kənd təsərrüfatının rəqabət qabiliyyətinə və kənd yerlərinin inkişafına sərmayə qoyuluşu da daxil olmaqla bir çox milli inkişaf prioritetlərini əhatə edən ümumi dəyəri 4,4 milyard ABŞ dolları olan 50-dən çox layihəni maliyyələşdirib.

2003-2021-ci illərdə ümumi daxili məhsul (ÜDM) nominal ifadədə 9,8 dəfə, real ifadədə isə 3,2 dəfə artmışdır. Bu dövrdə ölkədə orta illik iqtisadi artım 9,4 faiz, o cümlədən qeyri-neft sektorunda 8,2 faiz təşkil edib. Sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlər iqtisadi artımın iqtisadi inkişaf amilinə çevrilməsinə yönəldilib.

**Nəticə**

Azərbaycanın bu beynəlxalq maliyyə təşkilatı ilə uzunmüddətli səmərəli əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə yüksəlir ki, bu da ölkəmiz üçün ciddi faydalar nəzərdə tutur. Dünya Bankı Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfə verib: "Azərbaycan Dünya Bankı ilə, o cümlədən ölkənin işğaldan azad edilmiş ərazilərinin infrastrukturunun bərpası, o cümlədən bərpa olunan enerji mənbələrinin yaradılması layihələri üzrə əməkdaşlıq edir. Azərbaycan həmçinin DB ilə enerji keçidi, ölkə iqtisadiyyatında islahatların aparılması və formatlaşdırılması məsələlərini müzakirə edir. Dünyada, xüsusən də Avropa bazarında baş verən son hadisələr fonunda bəzi layihələr bir qədər səngiyə bilər. "Lakin Azərbaycan mühüm regional neft və qaz istehsalçısı olmaqla, lazımi investisiyalara zəmanət verir və əsas diqqəti bərpa olunan enerji mənbələrinin potensialının yaradılmasına yönəldir.

Azərbaycanın kasıb ölkədən orta gəlirli dövlətə çevrildiyini, Dünya Bankının iqtisadiyyatının inkişafı ilə bağlı layihələrə dəstək verməklə bunda mühüm rol oynadığını dövlət proqramlarımız da təsdiq edir.

Sonda onu da qeyd edim ki, Qeyd edək ki, son 30 il ərzində Dünya Bankı öz resurslarını, biliyini və təcrübəsini milli məqsədlərə və Bankın yoxsulluğun aradan qaldırılması və ortaq rifahın təşviqi kimi qoşa məqsədlərinə nail olmaq yolunda Azərbaycanın irəliləyişlərini dəstəkləmək üçün təmin edib. Dünya Bankı Qrupu öz iqtisadiyyatını şaxələndirməyə və inkişaf etdirməyə və yüksək gəlirli ölkə kimi öz potensialına nail olmağa səy göstərərkən Azərbaycana kömək etmək öhdəliyinə sadiq qalır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Ağayeva.Z.T.Dünya Bankı və Azərbaycan, dissertasiya, Bakı, 2019, səh.55-63.
2. Əhmədova A. Dünya Bankı Qrupu Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatları, elmi mqəalə.Bakı, 2021. Səh.3-7.
3. O.V. Savvina (2012) "Maliyyə bazarlarının tənzimlənməsi", Moskva, 204 səhifə
4. V. Kotelkin (2015) “Beynəlxalq Maliyyə”, –M.: Magistr, -687
5. C.C. Naskeviç, P.V. Trunin (2012) “Ehtiyat valyutalar: amillər formalaşması və qlobal iqtisadiyyatda rolu”, Moskva.2019. səh.403.
7. European Bank for Reconstruction and Development, Transition Report 2001, London: EBRD 8. World Bank actvities in Azerbaijan, Washington,1998, Dünya Bankı nəşri, “Azərbaycan”, s.20. İnternet resursları:
8. www.facebook.com/IFCwbg
9. www.twitter.com/IFC_org

# DAXİLİ AUDİTİN MÜƏSSİSƏNİN İDARƏ EDİLMƏSİNDƏ ROLU

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Tağıyeva Rəna Qənbər qızı***
***Elmi rəhbər: i.ü.f.d.S.R.Quliyeva***

***Xülasə***

Məqalədə daxili audit müəssisədə idarəetmə nəzarətinin zəruri elementi kimi öyrənilmiş, yalnız iqtisadi risklər sahəsində deyil, eləcə də strateji vəzifələri həll etməyə köməklik göstərən bir mexanizm kimi əhəmiyyəti müəyyən edilmişdir. Daxili audut müəssisədə istehsalın keyfiyyətinin, məhsuldarlığın və rentabelliyin yüksəldilməsi, ehtiyatların səmərəli istifadəsinə diqqəti yönəltmək üçün idarəetmə qərarlarının qəbul edilməsində istifadə olunan nəzarət məlumatlarının təmin edilməsi sahəsində böyük əhəmiyyətə malikdir. Qeyd edilənlərlə yanaşı məqalədə daxili auditinin təşkilinin əsas problemləri müəyyən edilmiş və onların həlli istiqamətində təkliflər verilmişdir.
***Açar sözlər:*** *audit, büdcə, gəlir, xərc, nəzarət.*

***Summary***

In the article, internal audit is studied as a necessary element of management control in the enterprise, not only in the field of economic risks, but also as a mechanism that helps to solve strategic tasks. Internal audit is of great importance in the field of providing control information used in making management decisions in order to increase the quality of production, productivity and profitability in the enterprise, to focus on the efficient use of resources. In addition to the above, the article identifies the main problems of internal audit organization and offers suggestions for their solution.
***Keywords:*** *audit, budget, pofit, expenditure, control.*

## Giriş

Müxtəlif təsərrüfat formalarının yaradılması, ölkənin dünya birliyinə inteqrasiyası ilə müşahidə olunan bazar iqtisadiyyatının formalaşması idarəetmədə müəyyən dəyişiklikləri, nəzarətin təşkilat sisteminin fəaliyyət göstərməsinin yenidən qurulmasını tələb edir. Ölkədə aparılan iqtisadi islahatlar çərçivəsində maliyyə nəzarəti sisteminin beynəlxalq tələblərə uygunlaşdırılması sahəsində də mühüm addımlar atılmışdır. Maliyyə nəzarətinin növləri arasında audit xüsusi yer tutur. Çünki audit dövlətin maliyyə-iqtisadi siyasətinin uğurla həyata keçirilməsi və maliyyə sabitliyinin bərqərar edilməsi üçün zəmin yaratmaqla, qanunçuluğa riayət edilməsinin təmin olunmasına, mülkiyyətin qorunub saxlanılmasına, maliyyə vəsaitlərindən düzgün, səmərəli və qənaətlə istifadə olunmasına xidmət edir, büdcə və maliyyə intizamının müxtəlif pozuntularını aşkara çıxarmağa yardım göstərir, qanunsuz xərclənmiş vəsaitləri aşkar etməyə və onların bərpasına imkan yaradır.

Daxili auditin zəruriliyi nəzərə alınaraq, ölkəmizin müxtəlif fəaliyyət növlü müəssisə və təşkilatlarında daxili audit bölmələrinin yaradılmasına başlanmışdır. Lakin bu yeni, perspektivli işin qurulmasında bir sıra nöqsan və çatışmazlıqlara yol verilir, daxili auditorların lazımi biliklərə və peşə vərdişlərinə yiyələnməsinə, daxili auditin aparılmasına dair standartların və etik normaların işlənib hazırlanmasına yardım edən metodik normativ aktlar, tədris-praktik səciyyəli kitablar və metodik vəsaitlər çatışmır.

Azərbaycanda beynəlxalq tələblərə uyğun olaraq daxili audit sisteminin təşkili, perspektiv inkişaf istiqamətləri tədqiqatın əsas məqsədini təşkil edir.

### Daxili auditin təsərrüfat subyektinin idarəetmə sistemindəki rolu

Daxili audit idarəetmə nəzarəti sisteminin ayrılmaz və mühüm elementi olmaqla müstəqil, təminatverici və məşvərəətçi fəaliyyətidir. Daxili audit müəssisədə şəffaf informasiya mühiti yaratmaqla, onun fəaliyyətinin daha dərin və əsaslı təhilinə, daha səmərəli fəaliyyət sistemi yaratmağa şərait yaradır. Dünyanın bir sıra ölkələrində daxili audit ölkə iqtisaiyyatı üçün məcburi hesab olunaraq bütün tabeçiliyində müəssisə olan birliklərdə təşkil olunur *(Q.Rzayev, 2006:320).*

Daxili audit müəssisə və təşkilatın fəaliyyətinin inkişafına yönəldilmiş risklərin idarə edilməsi, nəzarət və idarəetmənin vəziyyətinin qiymətləndirilməsi ilə yanaşı həm də müəssisəyə onun daxildən özünün fəaliyyətini analiz edib müəyyən nəticələr əldə etməsidir.

Aktivlərin vəziyyətinə nəzarət və itkilərə yol verilməməsi, rəhbərliyin istifadə etdiyi informasiyanın dəqiqliyinin təsdiqi, sistemdaxili nəzarət prosedurlarının yerinə yetirilməsinin təsdiqi, daxili nəzarət və informasiyanın işlənməsinin səmərəliliyinin təhlili, daxili informasiya sisteminin verdiyi informasiyanın keyfiyyətinin qiymətləndirilməsini özündə əks etdirən daxili audit müəssisə aktivlərinin hərəkətinə, menecment siyasətinə və onun keyfiyyətinə nəzarət etməyə kömək edir.

Daxili audit təkcə pozuntuların qeydə alınması və onların aradan qaldırılmasına nəzarətin həyata keçirilməsi ilə məhdudlaşmır. O, hər şeydən əvvəl aşkara çıxarılmış kənarlaşmaların səbəb-nəticə əlaqələrini müəyyənləşdirməklə, yoxlanılan obyektdə işlərin yaxşılaşdırılmasına imkan verir.

Daxili audit xidmətinin təşkil edilmədiyi müəssisə və təşkilatlarda nəticə etibarilə büdcəyə vergi ödənişlərində səhvlərə gətirib çıxaran mühasibat və vergi qanunvericiliyinin pozulması riski artır. Daxili auditin məqsədi uçot siyasəti də daxil olmaqla, müəssisənin iqtisadi siyasətinə ekspert rəyinin verilməsindən və bütün struktur bölmələrinin həyata keçirdiyi müəsisədaxili nəzarətin səviyyəsinin qiymətləndirilməsindən ibarətdir.

Daxili audit müəsisə və təskilatların tərkibində müstəqil struktur bölməsi və ya ştat vahidi kimi fəaliyyət göstərir və daxili nəzarət orqanı olmaqla, yalnız müəssisənin rəhbərinə və ya direktorlar şurasına tabedir, onun tələb etdiyi məsələləri araşdıraraq nəticələri haqqında yalnız onlara hesabat verir *(A.Musayev 2012: 69).* Daxili audit müəssisədə şəffaf informasiya mühiti yaratmaqla, onun fəaliyyətinin daha dərin və əsaslı təhlilinə, daha səmərəli fəaliyyət sisteminin yaradılmasına şərait yaradır. Ümumiyyətlə daxili audit özlüyündə muhasibat və operativ uçot işinin təhlilini, müəssisənin maliyyə-təsərrüfat fəaliyyəti üzrə əməliyyatların tam və dəqiq əks olunması və bunun əsasında hesabat məlumatlarının etibarlılığının təmin edilməsi üçün təkliflərin hazırlanmasını, maliyyə və istehsalat məlumatlarının düzgünlüyünü və keyfiyyətini yoxlamağı və bu barədə müəsisənin rəhbərliyinə və ya direktorlar şurasına məlumat verilməsini, müəssisədə həyata keçirilən əməliyyatların və hazırlanan hesabatların əsasını təşkil edən qayda, plan, qanun və təlim aktlar sisteminin yaradılması və onlara riayət olunmasını yoxlamağı, mövcud olan ehtiyatların istifadə olunmasının səmərəliliyini qiymətləndirməyi, həyata keçirilən əməliyyat və proqramların nəticələrinin nəzərdə tutulmuş məqsəd və vəzifələrə uyğunluğunu yoxlamağı, keçmis hesabat dövründə müəssisədə aparılmıs kənar və daxili auditor yoxlamaları nəticəsində askar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması haqqında qəbul olunmuş qərarların yerinə yetirilməsinə nəzarət etməyi, müəssisədə aparılmıs kənar və daxili auditor yoxlamalarının materiallarını ümumiləşirməyi, sistemləşdirməyi, təhlil etməyi və onların nəticələri barədə müəsisə rəhbərliyinə müvafiq təkliflər hazırlamağı səciyyə edir.

Göstərilənlərlə yanaşı mühasibat uçotu və vergiqoyma və ödəmə sahəsində, həmçinin hüquq məsələlərində və audit üzrə başqa sahələrdə məsləhət xidmətləri ən çox rast gəlinən xidmət növlərindən hesab oluna bilər.

Daxili auditorların funksiyaları genişdir. Beynəlxalq təcrübələrə əsaslanaraq daxili auditorlar firmaların, şirkətlərin və sairə idarəetmə funksiyalarının, o cümlədən öz fəaliyyətlərinin müstəqil ekspert qiymətləndirilməsini həyata keçirirlər. Onlar idarəetməni həyata keçirən baş firmalara yoxlama apardıqları müəssisə barədə qiymətlərini, təhlilin nəticələrini çatdırır. Daxili auditorlar yuxarı rəhbərliyin qarsısında hesabat verir və adətən direktorların idarə heyyəti və basqa idarəetmə bölmələri ilə birbaşa əlaqədə olurlar.

Daxili auditin tələb olunan səviyyədə təskil olunması müəsisənin tərkibində fəaliyyət göstərən digər bölmə və şöbələri, maddi-məsul şəxslərin öz xidməti vəzifələrinin yerinə yetirilməsi məsuliyyətini artırmaqla, təsərrüfat əməliyyatlarının icrasında neqativ halların qarşısının alınmasında mühüm rol oynayır. Bunlardan başqa daxili audit kənar audit üçün bir sıra əsaslı məsələlərdə informasiya mənbəyi olmaqla, mövcud qanunçuluğun gözlənilməsində böyük əhəmiyyət kəsb edir.

**Daxili auditin müəssisənin idarəetmə sistemindəki əhəmiyyəti**

"Daxili auditin müəssisənin idarəedilməsində rolu" mövzusunun elmi tədqiqi və araşdırılması göstərir ki, müasir şəraitdə respublikamızda iqtisadiyyatın idarə olunmasının bazar iqtisadiyyatı tələbləri səviyyəsində qurulması, həyata keçirilən islahatlar, sahibkarlıq mühitinin formalaşması

sahəsində görülən işlərlə əlaqədar olaraq mühasibat (maliyyə) nəzarətinin və daxili auditin əhəmiyyəti daha da artır.

Bu baxımdan dövlət xərclərinin və iqtisadi subyektlərin idarə edilməsi sisteminin müasir tələblər səviyyəsində qurulması, mövcud olan maliyyə və təsərrüfat ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması, dövlət xərclərinin şəffaf mexanizminin formalaşması daxili auditin iqtisadiyyatın idarə olunmasında rolunu daha da artırır.

Müasir şəraitdə müəssisə və təşkilatlarda maliyyə-təsərrüfat fəaliyyəti üzərində mühasibat-maliyyə və daxili audit nəzarətinin və onların prinsiplərinin daha da təkmilləşdirilməsi çox vacibdir.

Şübhəsiz ki, müəssisə və şirkətlərdə maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar əməliyyatların icrası üzərində müntəzəm və ardıcıl mühasibat və təsərrüfatdaxili nəzarət olmadan həmin əməliyyatların idarə olunmasında ciddi çətinliklər yarana bilər. Təsadüfi deyildir ki, yüksək səviyyədə sərbəst bazar iqtisadiyyatı səraitində fəaliyyət göstərən qərb ölkə müəssisə və sirkətlərində əsas kapital qoyuluşu ilə nəzərdə tutulan bütün layihələrə sərf olunacaq vəsaitin 2 faizə qədəri iqtisadi nəzarət məsələlərinə xərclənir. Müstəqil Azərbaycanın demokratik inkişaf yoluna qədəm qoyması, ölkə iqtisadiyyatında bazar münasibətlərinin formalaşması, sahibkarlıq fəaliyyətinin məqsədyönlü şəkildə genişlənməsi və bununla bağlı bazar iqtisadiyyatına xas olan təsərrüfat subyektlərinin yaranması maliyyə nəzarəti sisteminin də yenidən və müasir tələblər əsasında qurulmasını zərurətə çevirmişdir. Dünya təcrübəsində maliyyə nəzarətinin ən geniş yayılmış mütərəqqi forması kimi audit çıxış edir. Azərbaycanda audit sisteminin təşkili və tənzimlənməsinin əsasları "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Azərbaycanda audit sisteminin formalaşması prosesi ölkənin maliyyə həyatına şəffaflıq gətirməklə, iqtisadi məcraya yönələn mütərəqqi nəzarət qurumuna xas olan keyfiyyətləri özündə əks etdirir.

**Nəticə**

Beləliklə, audit sisteminin bir qolu kimi, daxili audit müasir daxili nəzarət forması və müəssisənin daxili nəzarət sisteminin tərkib hissəsi olaraq aktivlərin və uçot məfhumlarının qorunmasını, əks etdirilmiş maliyyə-təsərrüfat əməliyyatlarının düzgünlüyünü, tamlığını və müvafiqliyini, həmçinin vaxtında düzgün maliyyə hesabatının hazırlanmasını təmin edir və məqsədi müəssisənin idarəetmə sisteminin səmərəliliyinin qiymətləndirilməsidir. Daxili auditorlar həm dövlət sektorunda, həm də özəl sektorda fəaliyyət göstərirlər. Təsərrüfat subyektində daxili auditin tətbiqi nəticəsində idarəetməyə böyük diqqət; riskin qiymətləndirilməsinin təkmilləşmiş metodları; qanun pozuntusu hallarının azalması; səmərəliyin artması; vəsaitlərə qənaət olunması; maliyyə hesabatlarının yüksək etibarlılığı və aktivlərin qorunması kimi nəticələr əldə edilir.

Bütün göstərilənlərlə əlaqədar olaraq mühasibat nəzarəti sisteminin daha da təkmilləşdirilməsi ilə beynəlxalq mühasibat uçotu standartlarına keçidlə və daxili auditin daha da genişlənməsi məqsədilə bir sıra islahat xarakterli tədbirlərin görülməsi aparılan işin daha faydalı olmasına kömək etmiş olardı.

Nəzərdə tutulan tədbirlər kompleksi asağıdakı kimi ümumiləşdirmək olar:

1. İlk növbədə mühasibat uçotu nəzarəti sistemi daha da genişləndirilməli, daxili auditin daha geniş səkildə istifadə olunmasına dair tədbirlər görülməlidir.

2. Müəssisələrdə təsərrüfat-maliyyə fəaliyyəti üzərində mühasibat uçotu və daxili audit nəzarəti sistemi geniş şəkildə təkmilləşdirilməlidir. Hazırda idarə və müəssisələrdə təsərrüfat-maliyyə fəaliyyəti üzərində təftiş-nəzarəti səviyyəsinin xeyli zəifləməsi müşahidə olunur ki, bu da iqtisadi subyektlərin təsərrüfat fəaliyyətində ciddi nöqsanlar və çatışmazlıqların yaranmasına səbəb olur. Hesab edirəm ki, təsərrüfatdaxili nəzarət sisteminə diqqət artırılmalı, təftiş-nəzarət və xüsusilə audit nəzarətinin hərtərəfli genişlənməsi və təkmilləşdirilməsi müasir dövrün vacib məsələsi kimi həll olunmalıdır.

3. Təsərrüfatdaxili nəzarət sisteminin əsaslı şəkildə genislənməsi məqsədilə mülkiyyət formasından asılı olmayaraq bütün iri və orta şirkətlərdə daxili auditin təskili nəzarət sistemində çox faydalı olardı.

4. Dövlət maliyyə nəzarəti orqanları dövlət orqanları ilə sıx əlaqədə fəaliyyət göstərməli və aparılan yoxlama nəticələri yüksək dövlət orqanlarında baxılmalı və konkret tədbirlər görülməlidir.

5. İqtisadi subyektlər arasında debitor borclarının kütləvi şəkildə böyük məbləğdə artması bu sahəyə cavabdeh olan dövlət orqanları tərəfindən araşdırılmalı, onların əmələgəlmə səbəbləri müəyyən olunmalı və müəssisələrin sağlamlaşdırılması üçün əsaslı tədbirlər görülməlidir.

Hesab edirik ki, ölkədə mövcud olan böyük imkanlar şəraitində müəssisənin idarə edilməsində daxili auditin təşkili və aparılması sahəsindəki mövcud çatışmazlıqların aradan qaldırılması müasir dövrün tələbidir və ölkə iqtisadiyyatında yaradılan əlavə dəyərin artırılmasında, eləcə də uçotu sahəsində şəffaflığın təmin edilməsində böyük əhəmiyyətə malikdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu. 2004 il.
2. “Audit xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. 1994 il.
3. Vahid Novruzov. İctimai həyatin əhəmiyyətli elementi. Daxili audit: reallıqlar və perspektivlər beynəlxalq konfransın materialları, Baki - 2012
4. Akif Musayev. Etibarın bərpa olunmasını təmin edən struktur – daxili audit. Daxili audit: reallıqlar və perspektivlər beynəlxalq konfransın materialları, Baki – 2012
5. Rzayev Q.R. – Mühasibat uçotu və audit. Dərs vəsaiti. 2006 il.
6. Səbzəliyev S.M., Hacıyev R.M. – Auditin əsasları. Dərslik. 2003 il.
7. Rzayev Q.R – Beynəlxalq mühasibat uçotu və audit. Dərs vəsaiti. 2002 il.

# TURİZM

## BƏLƏDİYYƏ TURİZMİNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Abdullayev Əlirza Aqil oğlu, magistrant*
*Elmi rəhbər: i.e.d., prof.V.İ.İsmayılov*

***Xülasə***

Tədqiqat işində bələdiyyə mülkiyyətinin idarə olunmasının özünəməxsus xüsusiyyətləri açıqlanır, yeni növ turizmin-bələdiyyə turizminin əsasını təşkil edən elementlər araşdırılır. Həmçinin, dünya ölkələrində bələdiyyələr tərəfindən regionlara turistlərin cəlb edilməsinin təşkilini əhatə edən tədbirlər sistemi haqqında geniş izahlandırma verilir. Bələdiyyə turizminin qurulması istiqamətində bələdiyyələrin ərazilərindəki müəyyənləşdirilmiş tarixi, mədəni, gəzməli, görməli və səfalı ərazilərinə turistlərin cəlb edilməsi istiqamətində bələdiyyə orqanlarının fəaliyyətləri müəyyənləşdirilmişdir.
***Açar sözlər:*** *turizm, bələdiyyə, iqtisadiyyat, prespektivlər, mövcu vəziyyət.*

***Summary***

The peculiar features of the management of municipal property are revealed in the research work, the elements that form the basis of a new type of tourism - municipal tourism are investigated. Also, a wide explanation is given about the system of events involving the organization of attracting tourists to regions by municipalities in countries around the world. In the direction of establishing municipal tourism, the activities of municipal authorities have been determined in order to attract tourists to the defined historical, cultural, must-visit, sightseeing and scenic areas in the territories of the municipalities.
***Keywords:*** *tourism, municipality, economy, prospects, current situation.*

### Giriş

Dünyanın ən böyük gölü olan Xəzərin sahilində zəngin mədəniyyətə və təbiətə malik olan ölkəmizin böyük turizm potensialı vardır. Ölkəmiz mədəni irsi, tarixi abidələri, gözəl təbiəti və dadlı mətbəxi ilə dünyada məşhurdur. Son dövrlər Azərbaycanın turizm infrastrukturu müasir tələblərə uyğun qaydada daha da inkişaf etdirilir. Turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində müəyyən olunmuş tədbirlər kənd turizminin inkişafına, kənd təsərrüfatı ilə məşğul olanların gəlirlərinin artmasına, kənd yerlərində yeni xidmət sahələrinin və iş yerlərinin açılamasına imkan verəcək. Diqqətə çadırmaq lazımdır ki, ölkəmizdə bələdiyyələrin daha çox rəhbərlik etdiyi ərzilər kəndlərdir, bu da həm ölkədə yeni bir sahənin bələdiyyə turizminin inkişafı və tərəqqisi deməkdir. Turizm məkanlarına yerli idarəetmə orqanının nəzarət etməsi, gələn turistlərin rahat şəkildə gəlməsi, qarşılanması, yerləşdirlməsi və keyfiyyətli xidmətlərin göstərilməsi onlarda buraya daha çox maraq yaradır ki, bu da gələcəkdə buraya gələn əlavə vəsait deməkdir ki, bələdiyyənin bücəsinə və özünü maliyyələşdirməsinə müsbət təsir göstərir *(Mehdi Abdullayev "Yerli Turizmin təşkilində Bələdiyyələrin rolu").*

Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Bu hüquqları qanunla müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar (bələdiyyələr) və ya vətəndaşların yığıncaqları həyata keçirirlər. Bələdiyyələr öz vəzifələrini yerinə yetirmək məqsədi ilə onların qarşısında məsuliyyət daşıyan, daimi fəaliyyət göstərən icra strukturları yarada bilərlər. ələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və o, Azərbaycan Respublikasının Konstitusiyası ilə və bu qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər *(Azərbaycan Respublikasının Konstitusiyası Bələdiyyələrin statusu haqqında qanun).*

Düzdür, hər bir ölkənin bələdiyyə mülkiyyətinin idarə olunmasının özünəməxsus xüsusiyyətləri vardır və tarixi təcrübəyə əsaslanaraq demək olar ki, cəmiyyətdə "inqilabların ixracı" mümkün olmadığı kimi, bələdiyyə mülkiyyətinin idarəolunma modellərinin bir ölkədən digərinə köçürülməsi və tətbiq etmək mümkün deyidirl. Lakin bütün bunlara baxmayaraq, qeyd etməliyik ki, beynəlxalq təcrübə hər zaman çox dəyərli örnəkdir və istifadə üçün faydalı mənbədir *(İqtisad elmləri doktoru, professor Ş.H.Hacıyev "Dövlət və bələdiyyə idarəetməsi" dərslik).* Bu gün dünyanın bir çox İnkişaf etmiş ölkələri (İEÖ) müxtəlif yerli özünü idarəetmə modellərini tədbiq edirlər. Məsələn, Amerika Birləşmiş Ştatlarında (ABŞ) Yerli özünüidarəetmənin növləri ştatdan ştata və hətta dövlət sərhədləri daxilində dəyişdiyi kimi, yerli səviyyədə idarəetmə formaları da kifayət qədər fərqlidir. Xüsusi rayonların idarəetmə strukturu əsasən qanunla müəyyən edildiyindən, xüsusi rayonların forması və ya funksiyası bizim diqqətimiz əsasən, qraflıqlar və bələdiyyələr xalq tərəfindən seçilən idarəetmə formalarınadır və bütün ölkədə bu idarəetmə formalarının dəyişdirilmiş versiyaları və müxtəlif adları mövcuddur.

Azərbaycan Respublikasında turizmin dayanıqlı inkişafını təmin etmək məqsədilə turizm sahəsində dövlət idarəetməsinin əsaslarını, turizm sənayesinin tənzimlənmə mexanizmlərini, turizm ehtiyatlarından səmərəli istifadə qaydalarını və turizm sahəsinin maliyyələşdirilmə mənbələrini müəyyən edir. Turizm – fiziki şəxslərin getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, mədəni, tarixi və təbii irslə tanışlıq, sağlamlıq, bərpa və digər məqsədlərlə daimi yaşadığı ölkənin (yerin) hüdudlarından kənara müvəqqəti səyahəti. (AR Konstitusiyası, 1999-cu il 4 iyun tarixli 674-IQ nömrəli Qanun ) Bu gün Turizm – xalq təsərrüfatı kompleksinin sferalarından biri olmaqla bərabər, dünyanın bir çox ölkələrində, kəskin surətlə inkişaf edən sahələrdən birinə çevrilmişdir. Hal-hazırda dünyada hər bir 16–cı iş yeri turizm biznesi ilə əlaqəlidir (Azərbaycan Respublikasının Konstitusiyası Turizm haqqında qanun).

Yerli özünü idarəetmə orqanlarının çəkdikləri maliyyə sıxıntılarının kökündə bələdiyyələrin davamlı maliyyəsinin və iqtisadi əsaslarının tam formalaşmadığı səbəbi durmaqdadır. Təəssüf ki, hələdə əksər bələdiyyələrin büdcə gəlirləri torpaq alqı-satqısı və vergilər əsasında formalaşır və yaxud bir çox bələdiyyə nümayəndələri tərəfindən bələdiyyə orqanlarının inkişafının yalnız torpaq alqı-satqısı əsasında mümkün olacağı düşünülür. Halbuki iri şəhərlərdən, qəsəbə və ucqar kəndlərə qədər ölkənin bütün ərazisini əhatə edən yerli özünü idarəetmə orqanı olan bələdiyyələr iqtisadi inkişaf proqramları və layihələrin həyata keçirilməsi kimi geniş resurs və imkanlara malikdirlər.

**Bələdiyyə turizmi və formalaşması xüsusiyyətləri**

Qeyd etmək lazımdır ki, bələdiyyələrin inkişafını təmin edə biləcək iqtisadi imkanlardan biridə milli iqtisadiyyatın əsas sektorlarından olan turizm sektorudur. Son illərin statistik göstəricilərinə görə turizm Azərbaycanda inkişaf edən sektorların ilk sıralarında yer alır. Bələdiyyələrin turizm sektoruna daxil olması turizm sahələrinin dahada inkişafına və rəqabətə davamlı turizm xidmətləri üzrə keyfiyyətin yüksəldilməsi ilə nəticələnə bilər. Bu turizm sahələrinin sırasına sağlamlıq turizmi, qış turizmi, yay turizmi, kənd turizmi, idman turizmi, ekoturizm, ov turizmi, dini turizm, işgüzar turizm, çimərlik turizmi, mədəni turizm və turizmin digər sahələri daxildir. Bələdiyyələrin turizm sektorunda iştirakı ilə mövcud turizm sektorına "bələdiyyə turizmi" adlı yeni bir turizm sahəsini əlavə etmək mümkündür.

Artıq dünyanın bir çox olkələrində həm özəl, həm də dövlət qurumlarının köməyi ilə yerli məşğulluğu yaratmaq və turizmin faydalarını əhalinin daha geniş təbəqəsinə yaymaq üçün əsas sosial-iqtisadi fəaliyyət kimi turizmi təşviq etmək və inkişaf etdirmək yolunda çox böyük işlər görülmüş və daha yaxşı nəticələr əldə edilmişdir. Bu yolda Yerli özünüidarəetmə orqanlarının məsul şəxsləri daha yaxından iştirak edərək, effektiv nəticələr əldə edə bilər ki, bu Yerli Turizmin inkişafının başlıca əsaslarındandır.

Turizm sektorunda bələdiyyələrin iştirakına nail ola bilsək ölkəmizdə turizmin inkişafına və bələdiyyələrin əlavə maddi qazanc əldə etməsinə böyük töhvələr verməklə yanaşı, dünyada ilk dəfə olaraq "Bələdiyyə Turizmi" hərakatını başladaraq yeni bir turizm sahəsinin əsasını qoya bilərik. Bələdiyyə turizmi dünyada analoqu olmayan yeni turizm növü olmaqla yanaşı termin olaraqda yeni ifadədir.

Ölkəmizdə şəhər bələdiyyələri ilə region bələdiyyələrinin fəaliyyəti müqayisə edildikdə şəhər bələdiyyələrinin daha çox inkişaf etdiyinin şahidi oluruq. Bu səbəbdən "Bələdiyyə turizminin" yaradılması bölgə bələdiyyələrimizin inkişafı və eyni zamanda bölgələrdə turizm infrastrukturunun inkişafı deməkdir.

İndi isə diqqət yetirək, Bələdiyyə turizmi nədir və bələdiyyə turizminin əsasını nələr təşkil etməlidir? Bələdiyyə turizminin əsaslarını yerli özünü idarəetmə orqanlarının turizm sektorunda özlərinə məxsus xüsusi tədbirlərin həyata keçirilməsi və bələdiyyələr tərəfindən regionlara turistlərin cəlb edilməsi təşkil edir. Bunun üçün ilk olaraq aşağıdakı tədbirlər həyata keçirilməlidir:

1. Hər bir bələdiyyə orqanı tərəfindən ərazisində turizm üçün yararlı resurs və imkanlar müəyyən edilərək siyahıya alınmalıdır. Buraya tarixi abidələr, mədəni irs, meşələr, göllər, çaylar, müalicəvi zonalar və turistlər üçün cəlb edici olan digər turizm obyektləri daxildir.

2. Bələdiyyələr arasında iki tərəfli və çox tərəfli əməkdaşlıqlar qurulmalı və əlaqələr güclənməlidir. Xüsusən bölgə bələdiyyələri ilə böyük şəhər bələdiyələri arasında əlaqələrin qurulması vacibdir.

3. Bələdiyyələr tərəfindən digər bələdiyyələrlə birgə və ya təklikdə turizim şirkətləri təsis edilməlidir. Bələdiyyələrin Statusu Haqqında Azərbaycan Respublikasının Qanuna əsasən bələdiyyələr təsərrüfat fəaliyyəti və qanunvericiliklə qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxslər, mmc-lər və digər müəssisələr təsis etməklə biznes sektoruna daxil ola bilərlər.

4. Bələdiyyələrin beynəlxalq əlaqələri gücləndirilməlidir. Bələdiyyələrin Statusu haqqında Azərbaycan Respublikasının qanuna əsasən bələdiyyələr və bələdiyyələrin assosiasiyaları müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla xarici dövlətlərin yerli özünüidarəetmə orqanları ilə əməkdaşlıq haqqında müqavilələr bağlaya və yerli özünüidarəetmə orqanlarının ixtisaslaşdırılmış təşkilatlarına üzv ola bilərlər.

Daha sonra bələdiyyə turizminin qurulması istiqamətində bələdiyyələrin ərazilərindəki müəyyənləşdirilmiş tarixi, mədəni, gəzməli, görməli və səfalı ərazilərinə turistlərin cəlb edilməsi istiqamətində bələdiyyə orqanları aşağıdakı fəaliyyətlərin həyata keçirilməsinə çalışılmalıdır:

1. Hər-hansı bir bələdiyyə tərəfindən digər bələdiyyələr ilə birlikdə və yaxud təklikdə öz ərazilərində yerləşən tarixi abidələrə, mədəni irs, meşələr, göllər, çaylar, müalicəvi zonalara ödənişli turlar və ekskursiyalar təşkil edilə bilər.

2. Bələdiyyələr xüsusən böyük şəhər bələdiyyələri tərəfindən digər bələdiyyələrin ərazilərində yerləşən tarixi abidələrə, mədəni irs, meşələr, göllər, çaylar, müalicəvi zonalara ödənişli turlar və ekskursiyalar təşkil edilə bilər.

3. Bölgələrdə bələdiyyələrin təşkilatçılığı ilə mütamadi olaraq festivallar, konfranslar, təqdimatlar, bayram tədbirləri və insanların diqqətini cəlb edəcək müxtəlif layihələr həyata keçirilməklə bölgələrimizə turistlərin marağının və axınının artmasına nail olmaq mümkündür.

4. Bələdiyyələrimiz xarici ölkə bələdiyyələri və bələdiyyələrin yaratdığqları beynələxalq təşkilatlarla əlaqələr qurmaqla həmən bələdiyyələrlə turizm sahəsində əməkdaşlıq edərək ölkəmizə xarici turistlər cəlb edilə bilər. Nümunə olaraq Azərbaycan bələdiyyələrinində üzvü olduğu iyirmi səkkiz dövlətin yerləşdiyi geniş coğrafiyanı, bu coğrafiyada yaşayan 100 milyonlarla insanların həyatı və fəaliyyəti ilə əlaqədar sahələri əhatə edən beynəlxalq təşkilat Türk Dünyası Bələdiyyələr Birliyini göstərmək olar.

5. Bələdiyyələrin mülkiyyətində olan turizm xarakterli təsisatlar qurulmalıdır. Buraya bələdiyyələrin daxili imkanları və yaxud kreditlər hesabına insanların istirahət edə biləcəkləri kiçik və yaxud böyük turizm təsisatları olan iaşə obyektlərinin (çayxanalar, kafelər, restoranlar, kiçik və yaud böyük otellər) qurulması daxildir.

6. Bələdiyyələr iş adamlarının marağını cəlb edəcək şərtlərlə onlarla birgə öz ərazilərində şərikli turizm təsisatlarının qurulmasına nail ola bilərlər. Məsələn bələdiyyələr öz torpaqlarını heç bir ödəniş olmadan iş adamlarına bu torpaqlarda yaradıla biləcək turizm təsisatlarının şəriki olmaq şərtiylə təqdim edə bilərlər.

7. Bələdiyyələrlə turizm şirkətləri arasında işgüzar əməkdaşlıqlar qurulmalıdır. Bölgələrə turlar təşkil edən turizim şirkətləri ilə müqavilə bağlamış bələdiyyələr qanunvericiliklə icazə

verilmiş qaydada, şirkət tərəfindən gətirilmiş turistlərə müəyyən ödənişlər əsasında öz ərazisində istirahət üçün şərait və nahar kimi xidmətlər göstərə bilərlər.

Bələdiyyə turizminin təşəkkülü təkcə bələdiyyələrin inkişafına müsbət təsir etməsiylə məhdudlaşmayacaq, bələdiyyə turizmi həmdə regionlarımızda yeni turizm mərkəzlərinin yaranmasına, yeni iş yerlərininin açılmasına və sakinlərin məşğulluq səviyyəsinin artmasına əhəmiyyətli təsir göstərəcəkdir. Eyni zamanda bələdiyyə turizmin inkişafı ölkəmizdə turizm strategiyasının uğur qazanmasına, respublikamız üzrə güclü infrastrukturun yaradılmasına, müxtəlif regionların və kəndlərin infrastrukturunun inkişafına səbəb olacaqdır *(Bələdiyyə.info "Bələdiyyə Turizminin əsası qoyulmalıdır").*

**Azərbaycanda bələdiyyə turizminin yaradılmasının ölkə iqtisadiyyatın verəcəyi töhfə**

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2021-ci ildə ölkəyə gələn xarici ölkə vətəndaşlarının sayı ümumilikdə 792 min nəfər təşkil etmişdir. 2021-ci ildə sərhəd keçid məntəqələrində pandemiya məhdudiyyətlərinin davam etməsi Azərbaycana gələn əcnəbi vətəndaşların sayına əhəmiyyətli dərəcədə təsir göstərməyə davam etmiş, bu isə öz növbəsində, qonşu ölkələrin gəlmə sayındakı payının artması ilə nəticələnmişdir. Cədvəl 1-də də göstərildiyi kimi, ən çox əcnəbinin gəldiyi ilk 15 ölkə arasında qonşu ölkələrin payı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycana gələn əcnəbi vətəndaşların sayına görə Rusiya ilk pillədə qərarlaşmışdır ki (258,3 min), onu müvafiq olaraq Türkiyə (197,9 min), İran (125,3 min) və Gürcüstan (62,6 min) izləmişdir.

2021-ci ildə ölkəyə gələn əcnəbi vətəndaşların 84%-i ümumilikdə ilk 5 ölkənin (Rusiya, Türkiyə, İran, Gürcüstan və Ukrayna) payına düşür ki, qeyd edilən ölkələr arasında 2020-ci illə müqayisədə Gürcüstan istisna olmaqla, demək olar ki, bütün ölkələrin gəlmə sayında artım müşahidə edilmişdir. 2020-ci ildə olduğu kimi, Rusiya gəlmə sayına görə liderliyini qorusa da, ikinci pillədə qərarlaşan Gürcüstan mövqeyini Türkiyə və İrana itirərək dördüncü pilləyə qədər geriləyib. Ölkələr üzrə ən yüksək artım tempinin qeydə alındığı İrandan gələnlərin sayı 2020-ci illə müqayisədə 72% artsa da, 2019-cu il üzrə göstəricilərdən 51% geridə qalmışdır. Anoloji olaraq, Rusiya, Türkiyə və Ukraynadan gələnlərin sayında 2020-ci illə müqayisədə müvafiq olaraq 15%, 23% və 3% artım, 2019-cu illə müqayisədə isə 72%, 38% və 71% azalma müşahidə edilmişdir.

2021-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrin sayında nəzərə çarpan artım müşahidə olunmayıb. Belə ki, ölkə üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin, otaqların və çarpayı yerlərinin sayı 2021-ci ildə cəmi 5% artmışdır. Cədvəl 2 ən çox mehmanxana və mehmanxana tipli müəssisə, otaq və çarpayı yerləri olan şəhərlərin siyahısını göstərir. 2021-ci ildə Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 2020-ci illə müqayisədə 5% artaraq 685 müəssisə təşkil etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə ölkədə yerləşən mehmanxana və mehmanxana tipli müəssisələrin 33%-i Bakıda yerləşir. 2020-ci illə müqayisədə Bakıdakı mehmanxana və mehmanxana tipli müəssisələrin sayında 7% artım qeydə alınıb. Regionlarda ən çox mehmanxana və mehmanxana tipli müəssisə Xaçmaz (56), Masallı (31), Quba (26) və Lənkəranda (25) yerləşir. Ölkədəki mehmanxana və mehmanxana tipli müəssisələrin sayı ilə yanaşı, otaq və yataq yerlərinin də sayının böyük hissəsi Bakıya məxsusdur. Qeyd edilən göstəricilər müvafiq olaraq 47% və 41% faiz təşkil edir. Qeyd edilməlidir ki, Gəncə, Lənkəran və İsmayıllı şəhərlərindən başqa digər şəhərlərdə mehmanxanaların, otaqların və çarpayı yerlərinin sayında 2020-ci il illə müqayisədə artım müşahidə edilməyib *(Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi).*

**Nəticə**

Bələdiyyələrin yerli iqtisadiyyatın inkişafındakı rolu danılmazdır. Dünya təcrübəsi də göstərir ki, bələdiyyələr yerli resursları ən səmərəli şəkildə istifadə edərək yerli inkişafı və nəticə etbarı ilə milli inkişafı təmin edən qurumlardır. Yerli səviyyədə iqtisadi problemlərin həlli, yoxsulluğun azaldılması, işsizliyin ləğvi, mədəni-sosial səviyyənin yüksəlməsi bilavasitə bələdiyyələrin iqtisadi fəaliyyəti ilə bağlıdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Mehdi Abdullayev “Yerli Turizmin təşkilində Bələdiyyələrin rolu”
2.Azərbaycan Respublikasının Konstitusiyası Bələdiyyələrin statusu haqqında qanun
3.İqtisad elmləri doktoru, professor Ş.H.Hacıyev “Dövlət və bələdiyyə idarəetməsi” dərslik
4.Azərbaycan Respublikasının Konstitusiyası Turizm haqqında qanun
5.Bələdiyyə.info “Bələdiyyə Turizminin əsası qoyulmalıdır”
6.Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
7.N.Y.Mikayılova ˝Bələdiyyə idarəçiliyi və maliyyəsi˝

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZM RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Kərimov Teymur Arif oğlu, magistrant*
*Elmi rəhbər: i.e.d., prof. V.İ.İsmayılov*

***Xülasə***

Ordumuzun 44 gün ərzində şanlı qələbəsi ilə bitən İkinci Qarabağ Müharibəsi işğal edilmiş ərazilərin azad edilməsi ilə nəticələnməklə yanaşı düşmənin həyata keçirdiyi dağıntıların tam olaraq üzə çıxmasına imkan yaratdı. Zəngin təbiəti ilə seçilən,özünəməxsus müalicəvi suları ilə məhşur olan guşələrimiz 30 il müddətində bütün turizm potensialını itirmişdir.Erməni vandalları işğal etdikləri Azərbaycan ərazilərində böyük dağıntılar həyata keçirmiş və mövcud olan infrastrukturu demək olar ki, tamamən məhv etmişdir.Buna ən bariz nümünə Ağdamı göstərmək olar. Müharibədən sonra Ağdama səfər edən xarici media nümayəndələri gördükləri mənzərədən dəhşətə gələrək bu ərazini Cənubi Qafqazın "Xirosiması" adlandırdılar.

Müharibədən dərhal sonra azad edilmiş ərazilərin bərpası tapşırığı verildi və "Böyük Qayıdış" proqramı əsasında bərpa prosesi başlandı.Hesab edirik ki, yaxın gələcəkdə yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yüksək texnologiyalar, əsaslı iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi, sahibkarlığın inkişafı üçün daha səmərəli fəaliyyət mexanizmlərinin işlənməsi təmin olunacaqdır. Bunlara kreativ və səmərəli xidmət müəssisələrinin fəaliyyətinin təşkilini,turizm sənayesinin maddi-texniki bazasının inkişafını aid etmək olar. Bütün bunlar işğaldan azad edilmiş yeni iqtisadi rayonlarda sosial-iqtisadi inkişafın daha dinamik və məhsuldar olacağından xəbər verir.

***Açar sözlər:*** *turizm resursları,turizm bazarı,səmərəli istifadə,turizm potensialı.*

***Summary***

The Second Karabakh War, which ended with the glorious victory of our army in 44 days, not only resulted in the liberation of the occupied territories, but also made it possible to fully reveal the destruction caused by the enemy. Our corners, distinguished by their rich nature and famous for their unique healing waters, have lost all their tourism potential for 30 years. Armenian vandals have caused great destruction in the Azerbaijani territories they occupied and almost completely destroyed the existing infrastructure. Aghdam is the most obvious example of this. Foreign media representatives who visited Agdam after the war were horrified by the sight they saw and called this area the "Chiroshima" of the South Caucasus. Immediately after the war, the task of restoring the liberated areas was given and the restoration process was started on the basis of the "Great Return" program.

We believe that in the near future, in the newly created Karabakh and East Zangezur economic regions, the development of high technologies, basic economic areas, and the development of more effective mechanisms for the development of entrepreneurship will be ensured. Creative and efficient organization of activities of service enterprises, development of the material and technical base of the tourism industry can be attributed to them. All this indicates that socio-economic development will be more dynamic and productive in the newly freed economic regions.

***Keywords:*** *tourism resources, tourism market, efficient use, tourism potential.*

## Giriş

İşğaldan azad edilmiş bölgələrdə turizmin müxtəlif növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Turizmin inkişafı dedikdə, ilk növbədə turizm sənayesinin inkişafı nəzərdə tutulur ki, buraya da müxtəlif növ nəqliyyat , mehmanxana təsərrüfatının, ictimai iaşə obyektlərinin, müəyyən gəzinti, əyləncə təyinatlı obyektlərin, idman komplekslərinin, ekskursiya xidmətləri göstərən təşkilatların və sairənin məcmusu aiddir. Turizm sənayesi turistləri zəruri olan hər şeylə (xidmət, məhsul və s.) təmin edən müəssisələrin və sahibkarların qarşılıqlı əlaqə sistemi kimi başa düşülür *(İsmayılov.V.İ.,(2019) "Turizmin iqtisadiyyatı").*

Yurxarıda sadalanan bütün zəruri və bir-birindən asılı olan komponentlərin formalaşdırılması böyük vəsait tələb edir. BMT-nin son hesablamalarına görə işğal nəticəsində Azərbaycana dəymiş

iqtisadi zərərin həcmi 53.5 milyard dollar həcmindədir.İşğal nəticəsində Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə ümumilikdə 265 milyard dollar ziyan dəyib *(aircenter.az).*

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm potensialının qiymətləndirilməsi**

Xatırladaq ki, dövlət büdcəsindən düşməndən təmizlənən torpaqlarımızdakı bərpa və quruculuq işləri üçün həm 2021, həm də 2022-ci ildə 2,2 milyard manat vəsait ayrılıb. Büdcəyə edilən dəyişiklikdən sonra bu vəsaitin həcmi daha 470 milyon manat artırılıb.Bütövlükdə bu iki il ərzində 4 milyard 870 milyon manat vəsaitin ayrılması göstərir ki yaxın gələcəkdə bu ərazilərdə yuksək tutumlu turizm müəssisələri fəaliyyətini bərpa edəcəkdir.

Dünyanın bir çox ölkələrində davamlı ekoturizm praqramları həyata keçirilir. Ekoturizm – yerli insanların həyat səviyyəsinin və ətraf mühitin yaxşılaşdırılmasına yönəlmiş turizmin bir növüdür.Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları həm mədəni,həm də, ekoturizm imkanları ilə zəngindir.

Sxem1.1

**Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonlarında ekoturizm mərkəzləri**




**Mənbə:** https://ereforms.gov.az/ sayıtının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qarabağ və Şərqi Zəngəzur iqtsadi rayonlarında aşağıdakı turizm növlərini inkişaf etdirmək olar:

✓ Elmi və ya Konqres turizm – yığıncaqlar, elmi və praktiki təlimlər, sərgilər keçirilməsi bu turizm növünə aiddir (Şuşa,Füzuli).

✓ Sağlamlıq turizmi-buraya müxtəlif sanatoriya, termal sular, kurortlar aiddir (Kəlbəcər,Zəngilan).

✓ Məcarə turizmi – fiziki cəhətdən ağır, hətta həyat üçün təhlükəli sayılan turizm növü sayılır. Kəlbəcər və Laçın rayonları bu tip turizm üçün əlverişlidir.

✓ Kənd turizmi – son zamanlar ən sürətlə inkişaf edən sosial və iqtisadi yönümlü turizmdir. Kənd turizminə aşağıda sadalanan amillər aiddir :

- şəhər əhalisinin kənd yerlərinə müvəqqəti səfəri;
- turistlərin kəndlərdə səfəri zamanı müxtəlif adətlərlə tanış olması;
- müddətin bir neçə gün olmaqla bütün mövsüm boyunca davam etməsi.

Qarabağ zonası milli mədəniyyət beşiyimiz sayılır.İşğala qədərki dövrlərdə saysız hesabsız turist axını olan bu bölgəmiz işğaldan sonra qısa zamanda əvvəlki qüdrətini bərpa edəcəyinə inanırıq.Əlverişli ekoturizm potensialı ola bu bölgələrə turist turlarının təşkili,ərazidə vacib həyati inforstrukturlarını özündə cəmləyən turizm destinasiyaları yaradılmalıdır.Son zamanlar Bakıdan Şuşaya avtobus turlarının təşkili bu sahədə ilk atılan addımlardan hesab oluna bilər.İlkin səyahət zamanı 400-ə yaxın insan bu turdan yararlanmışdır.

Son statistik məlumatlara nəzər salsaq turagent və turoperatorların Qarabağ iqtisadi rayonundan əldə etdiyi gəlirlər 2021-ci ildə 71,3 min manat,xərcləri isə 2,5 min manat olmuşdur.Son nəticələr gələcək üçün nikbin proqnozlar verməyə əsas verir.Qarabağ iqtisadi rayonunda mehmanxana(hotel) tipli obyektlərin sayı 2020-ci ildə 7 olduğu halda

2021-ci ildə 11-ə çatmışdır. Hesablamalara görə bu gün Qarabağ ərazisində 50-yə yaxın hotel var (Azərbaycanda turizm. Rəsmi nəşr. Bakı, -2022, -s.99). Onların bərpası və beynəlxalq standartlara uyğun 3,4,5 ulduzlu hotellər səviyyəsinə çatdırılması böyük səmərə verə bilər.Bununla da ölkəyə gələn xarici turistlərin sayını 4 milyon nəfərə,yerli turistlərin sayını isə 5 milyon nəfərə çatdırmaq olar.Turizmin ÜDM -də payını 4 milyard manata çatdırmaq əsas hədəfdir.Ümumilikdə işğaldan azad eilmiş ərazilərin turizm potensialı 10 milyon nəfərdir. 2025-ci ilə kimi ilkin mərhələdə yerli və xarici turistlərlə birgə 1 milyona yaxın insanın işğaldan azad edilmiş ərazilərə səyahəti planlaşdırılır.

**Nəticə**

Beləliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması regional səviyyədə Azərbaycanın strateji rolunu birə beş artırır. Yeni iqtisadi rayonların dirçəldilməsində strateji hədəflərin qarşıya qoyulması, Zəngəzur dəhlizi vasitəsilə türkdilli dövlətlərin qarşılıqlı mədəni,iqtisadi əlaqələrinin sürətləndirilməsi, Qərblə Şərq arasında tranzit mövqeyi,beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun inkişaf etdirilməsi sayəsində ölkəmizin rəqabət qabiliyyətinin, həm də siyasi və iqtisadi qüdrətinin dəfələrlə artmasına şərait yaradacaqdır.

Xarici investorların işğaldan azad edilmiş ərazilərə cəlb edilməsi,əhalinінin hissə-hissə öz doğma yurduna qayıtması bölgədə insan resurslarının formalaşmasına bu da öz növbəsində digər sahələr ilə birlikdə turizmin canlanmasına gətirib çıxaracaq.Füzuli və Zəngilan hava limanlarının istismara verilməsi və beynəlxalq status alması gələcəkdə beynəlxalaq turizmin inkişafında əsaslı rol oynayacaq.Xaricdə yaşayan ürəyi vətən həsrəti ilə döyünən soydaşlarımızın sərbəst rahat şəkildə işğaldan azad edilmiş bölgələrimizə səyahət etməyi mümkün olacaq.

Son nəticə olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensalının istifadəsi və səmərəli fəaliyyəti üçün ağıdakı amillərin inkişaf etdirilməsi məqsədəuyğun hesab etmək olar:

- ✓ Ekoturistlər üçün bələdçi kitabçalarının hazırlanması.
- ✓ Ekskursiyalar və biznes planın hazırlanması
- ✓ Yaz və payız fəsillərində "hərəyə bir ağac əkək " devizi altında xüsusi yerlərdə ağac tinglərinin əkilməsi.
- ✓ Xarici platformalarda turistik ərazilərimizin təbliğatı,marketiq tədbirlərinin həyata keçirilməsi
- ✓ Xarici investorlar üçün turizim bazarında real investisiya mühitinin yaradılması
- ✓ Bölgənin səyahətçilər və turistlər üçün təhlükəsiz olmasına zəmanət verilməsi
- ✓ Xarici ölkələrin bu sahə üzrə təcrübəsindən istifadə edilməsi ( Türkiyə təcrübəsi).
- ✓ Nəqliyyat komnikasiya texnologiyalarının inkişaf etdirilməsi
- ✓ Xarici kurslar,təlimlər vasitəsilə turagentlərin və turoperatorların mütəmadi mariflәndirilməsi.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1."Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr Sərəncamı.
2.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.Azərbaycanda turizm. Rəsmi nəşr. Bakı, -2022, -s.99
3. "Turizm haqqında Azərbaycan Respublikasının Qanunu". 4 iyun 1999-cu il. Bakı, -1999
4.İsmayılov.V.İ.,(2019) "Turizmin iqtisadiyyatı" Bakı, "İndigo",397 səh.
5. Əlirzayev.Ə.Q.,(2011)"Turizmin iqtisadiyyatı və idarə edilməsi" Bakı,səh. 122.
6. Washington, D.C. -UNWTO. (2006). Measuring the Economic Importance of the Meeting Industry: Developing a Tourism Satellite Account Extension. Mardid: United Nation World Tourism Organization.
7. Балабанов И.Т., Балабанов А.И. Экономика туризма, М. 2003. 176 стр.

**Elektron resurslar**

1. "Azərbaycanda turizm" - www.azerbaijan.travel
2. Azərbaycan Respublikasının Dövlət Statistik Komitəsi - www.stat.gov.az
3. https://ereforms.gov.az/az
4. https://aircenter.az/
5. https://xalqqazeti.com/mobile/az/news/105845

**AZƏRBAYCANIN DAĞLIQ ƏRAZİLƏRİNİN TORPAQ ÖRTÜYÜNÜN EKOLOJİ DİAQNOSTİK TƏHLİLİ**

***Azərbaycan Kooperasiya Universiteti***
***İsalı Rüqəyya Sabir qızı, magistrant***
***Elmi rəhbər: dos.C.İ.İsmayılov***

***Xülasə***

Azərbaycanın dağlıq ərazilərinin torpaq örtüyünün genetik xüsusiyyətlərinə uyğun olaraq ekologiya elmində istifadə edilən diaqnostik təhlillərinə üstünlük verilmişdir. İlkin olaraq dağlıq torpaqlarının mənimsənilməsi, mühafizəsi və bu kimi ekoloji problemləri öyrənilmişdir.

***Açar sözlər:*** *torpaq örtüyünün proqnozu, diqanostik yanaşma, hündürlük zonaları.*

***Summary***

According to the genetic characteristics of the soil cover of mountainous areas of Azerbaijan, priority was given to the diagnostic analyzes used in ecological science. At first, environmental problems such as appropriation and protection of mountainous lands were studied.

***Key words****: land cover prediction, diagnostic approach, height zones.*

Azərbaycanın dağlıq ərazilərinin torpaq örtüyünün ekoloji diaqnostikasının (müəyyən etmə, ekoloji məqsədlərə xidmət edən) elmi-metodiki əsasları XX əsrin 70-80-ci illərində istifadə edilmişdir. Elmi-metodiki mənbələrində torpaqların diaqnostikasının bir neçə aspekdə qəbul edilir. Bunlara torpaq örtüyünün proqnoz istiqamətlərinin və eləcə də münbitliyinin yaradılması, funksional zonalara bölünməsinin, torpaqdan istifadəsinin ərazi təşkili və s. aid edilir *(Quliyev İ.Ə., Dağlıq torpaqlarının ümumi ekologiyası. Bakı, 2014).*

Ekologiya elmi tədqiqatları üçün istifadə edilən diaqnostik təhlillərinin önəmə gətirilməsi həm dağlıq ərazilərinin torpaq örtüyünün proqnozlarının hazırlanması, həm də ətraf mühit komponentlərinin sistemli öyrənilməsində müəyyən dərəcədə praktiki nəticələrinə nail olmaq imkanını da yaradır *(Budaqov B., Dağlıq ərazilərində landşaft-torpaq keyfiyyətinin monitorinqi və ekoloji nəzarət. Bakı, 1999).*

Ümumi formada yanaşsaq ölkənin dağlıq arazələrində yerləşən torpaq örtüyü (ölkə üzrə, cəmə görə %-lə) hündürlük zonaları üzrə qeyri-bərabər yerləşmişdir: dağ-çəmən (559.3 min ha.-6.5%); qonur dağ meşə (416.5 min.ha. - 4.8%; qəhvəyi dağ-meşə (1212.0 min ha-14.0%; dağ qaratorpaq (76.2 min.0.9%; şabalıdı (2200.6 min.ha - 25.5%); sarı torpaq (157.1 min.ha. - 1.8) və s.

Eksperimental ekoloji araşdırmalarının ən mühüm problemlərinə daxil olan diaqnostik təhllilərinin nəticələri dağlıq torpaq örtüyünün neqativ hallarının qarşısının alınmasına aid edilir Bununla yanaşı, dağlıq torpaqlarının diaqnostik ekocoğrafi mühitinin müasir və gələcək imkanlarına metodiki cəhətdən yanaşılması üçün əsas göstəricilərinin sıralarına da daxil edilir.

Dağlıq torpaq örtüyünün ekologiyasının kompleks öyrənilməsində, təbii kompekslərinin özünü tənzimlənməsində metodiki əsas kimi qəbul edilir. Torpaq örtüyünün geofiziki xüsusiyyətlərini (radiasiya, torpaq istilik rejimi, rütubətliyi, bioloji müxtəlifliyi və s.) diaqnostik təhlillərini mümkün edir. Elmi əsaslarla izahının məqsədlərinin daxilində ekoloji diaqnostika torpaq örtüyünün potensialı diaqnostika probleminə dair və onun praktiki mənimsənilməsi vəziyyətini tədqiqat sahəsinə çevirir.

Müasir dağlıq ərazilərinin ekoloji diaqnostikası ilə konkret işlərinin aparılması davam edir. Problemin öyrənilməsi öz müasirliyi və metodiki baxımından aktuallığı ilə fərqlənir. Bu çoxsaylı və müxtəlif aspektli tədqiqatlar hesab olunur. Dağlıq ərazilərinin torpaq örtüyün ekoloji mühitinə faydalı qazıntı yataqlarının çıxarılması və emalının təsiri çox böyükdür. Dağ-mədən sənayesi: torpaq-ekoloji sistemin mürəkkəb iyerarxiya strukturuna (bütün təbii proseslərin qarşılıqlı surətdə bir-birindən asılı olması) malikdir.

Faydalı qazıntıların çıxarılması, ilkin emalı, təkrar xammallarından, tullantılarından kompleks istifadə edilməsi; texniki-iqtisadi cəhətdən ekoloji prosesində az tullantı verməklə ətraf mühiti

çirkləndirən mənbələri optimal səviyyədə azaldılması, dağ-mədən sənayesi elmi-texniki tərəqqi (ETT) ilə bilavasitə əlaqəlidir və bu istehsalın texnoloji inkişafına şərait yaradır *(İsmayılov C.İ., Azərbaycanın mineral-xammal yataqlarının sənaye henetik tipləri. İqtisadi və ekoloji qiymətləndirilməsi. Bakı, 2009).* Mineral xammalların tərkibindəki faydalı elementlərin çıxarılmasının optimal əmsalı, yüksək gəlirlə yanaşı dağlıq ərazilərinin torpaq örtüyünün ekoloji tarazlığın tənzimlənməsi dağ-mədən sənayesi ekologiyasının əsas vəzifələridir. Aparılan tədqiqatların nəticələrinə görə bu problemin həllinə iki aspektdə yanaşmaq məqsədəuyğun hesab edilir. Məqsədəuyğun olaraq dağlıq torpaqlarının istifadə şəraitində emalın komplekslik səviyyəsi aşağı olduğundan, faydalı elementlərin itirilməsi baş verir və nəticədə artıq maliyyə vəsaitinə ehtiyac olur. İstehsalın təşkilində ilkin, təkrar xammal materiallar ilə yanaşı iqtisadi qiymətləndirmədə onlara sərf edilən texniki, iqtisadi və ekoloji mühafizə maliyyə xərcləri nəzərə alınmır. Bu yanaşma vahid xammallardan alınan əmtəəlik və hazır məhsulların həcmini, iqtisadi effektivliyini müəyyən etməyə şərait yaradır.

Dağlıq ərazilərinin torpaq örtüyünün bazası əsasında təşkili və faydalı qazıntıların çıxarılması və emal olunmasına ekoloji cəhətdən də yanaşmaq tələb olunur *(İsmayılov C.İ., Azərbaycanın mineral-xammal yataqlarının sənaye henetik tipləri. İqtisadi və ekoloji qiymətləndirilməsi. Bakı, 2009).* Faydalı qazıntıların çıxarılması zamanı ətraf mühitin təbii landşaftı pozulur və tullantı məhsulların təsiri nəticəsində ekoloji gərginliklərin əmələ gəlməsinə səbəb olur. Məsələn, Naxçıvan MR-da yerləşən Parağaçay dağ-mədən müəssisəsində çıxarılan filizin tərkibində olan əlvan metalın 80-85%-dən istifadə edilir və qalan hissəsi isə tullantı xammal əhəmiyyətli olmasına baxmayaraq ətraf mühitə atılır. Tullantıların tərkibində xeyli miqdarda molibden və s. filizlərin toplanmasını nəzərə alaraq ondan kənd təsərrüfatında (mikrogübrə) və digər sahələrində istifadə etmək mümkündür. Təhlillər göstərir ki, dağ-mədən sənayesinin tullantılarından istifadə səviyyəsi (tullantılardan doğranan çınqılın) digər karxanalarda istehsal olunan tullantılarına nisbətən maya dəyəri 1,5-2,0 dəfə aşağıdır.

Dağlıq ərazilərinin torpaq örtüyünün çirklənməsində dağ-mədən sənayesinin (2) ətraf mühitlə zərərli təsirinin qarşısını almaq bir sıra istehsal-texnoloji və ekoloji tədbirlərin görülməsi iqtisadi cəhətdən faydalı olardı:

- Dağ-mədən areallarını, yer təkinin kosmosdan aparılan tədqiqatlara üstünlük verilməli;
- Faydalı qazıntıların istismarına yeni texnologiyaların tətbiqi;
- Dağ-mədən sənayesinin fəaliyyəti zamanı ətraf mühitin deqradasiyasına təsir edən texnogen proseslərin azaldılması;
- Dağ-mədən zonalarında torpaqların rekultivasiya olunması; *(İsmayılov C.İ., Azərbaycanın mineral-xammal yataqlarının sənaye henetik tipləri. İqtisadi və ekoloji qiymətləndirilməsi. Bakı, 2009)*

Dağ-mədən sənayesinin torpaq örtüyünün ekoloji sistemini nizamlamaq məqsədilə bir sıra problemlərin həyata keçirilməsini tələb edir. Bu ilk növbədə dağ-mədən sənayesində məhsulun maya dəyərinin azaldılması, təkrar xammal ehtiyatları və istehsal tullantılarının emalı, ekoloji avadanlıqlardan istifadə edilməsi, ətraf mühitin tarazlıq nisbətlərinin tənzimlənməsi və s. tədbirlərin kompleks həlli ilə əlaqəlidir.

Təhlillər göstərir ki, dağlıq ərazilərində kənd təsərrüfatına yararlı əkin sahələri düzənliyə nisbətən azlıq təşkil edir. Yüksək dağlıq rayonlarda 13,2%, orta dağlıqda – 20,6%, dağlıqda isə 24,7%-dir. Dövlət Statistika Komitəsinin məlumatında regionlar üzrə torpaqların kəndli ailələrinin paylanması prosesi tənzimlənmişdir. Dağ torpaqlarının ekoloji-diaqnostikasının öyrənilməsi və kompleks təhlillərinin aparılması məsələləri dövlətin apardığı siyasətinin tərkib hissəsidir *(Salayev M.E., Azərbaycan torpaqlarının diaqnostikası və təsnifatı. Bakı, 1991).*

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1.Budaqov B., Dağlıq ərazilərində landşaft-torpaq keyfiyyətinin monitorinqi və ekoloji nəzarət. Bakı, 1999

2.İsmayılov C.İ., Azərbaycanın mineral-xammal yataqlarının sənaye henetik tipləri. İqtisadi və ekoloji qiymətləndirilməsi. Bakı, 2009.

3.Salayev M.E., Azərbaycan torpaqlarının diaqnostikası və təsnifatı. Bakı, 1991.

4.Quliyev İ.Ə., Dağlıq torpaqlar

# AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI
# "ŞUŞA"

***Azərbaycan Universiteti***
***Tahirli Gülnar Musa qızı***
***Elmi rəhbər: A.H.Muradlı***

***Xülasə***

Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Şuşada musiqi və incəsənətin bir çox növləri ilə zəngin olması eyni zamanda istedadlı şəxslərin yaşamış olduğu şəhərlərimizdən biridir. Şuşa şəhəridə Azərbaycanın digər bölgələri kimi günü gündən inkişaf edir. Şuşa şəhərinin sahib olduğu gərəkli resurslar sayəsində o, ölkəmizin əsas aparıcı mərkəzlərindən biri olacaq, turizm və beynəlxalq tədbirlərin mərkəzinə çevriləcəkdir. Şuşa şəhəri hər gün keçdikcə daha da dəyişəcək və inkişaf edəcəkdir. Yenidən qurma işlərin nəticəsində turist axını və turizimdən gələn gəlir nəinki Şuşa şəhərinin istisadiyyatına eyni zamanda bütün ölkəmizə təsir edəcəkdir.
***Açar sözlər:*** *Qarabağ, Şuşa şəhəri, iqtisadi potensial, turizm, mədəniyyət mərkəzi.*

***Summary***

Shusha is the cultural capital of Azerbaijan. Being rich in many types of music and art in Shusha is also one of our cities where talented people have lived. Like other regions of Azerbaijan, the city of Shusha is developing day by day. Thanks to the necessary resources that the city of Shusha has, it will become one of the main leading centers of our country, it will become the center of tourism and international events. The city of Shusha will change and develop more and more every day. As a result of the reconstruction works, the flow of tourists and the income from tourism will affect not only the economy of Shusha, but also our entire country.
***Keywords:*** *Karabakh, Shusha city, economic potential, tourism, cultural center.*

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri Azərbaycanın əzəmətli, gözəl təbiəti olan Qarabağ ərazisində yerləşir. Şuşa şəhərinin özünə məxsus arxitekturası və ən əsası gözəl təbiəti, təmiz havası və yerləşmə yerinə görə çox məşhur və özünə daha çox turist cəlb edən şəhərlərdən biri kimi tanınır. Şuşa şəhərinin əsası XVIII əsrin ortalarında Pənahəli Xan tərəfindən qoyulmuşdur və ilk illərdə öz adı ilə bağlı olaraq Pənahabad adlandırmış, sonralar isə Şuşa adı ilə dəyişdirilmişdir. Şuşa şəhəri bu günə qədər öz əzəmətini, qədimliyini qoruyub saxlamışdır. Şəhərdə qədimliyin bariz nümunəsi olaraq qala divarlarının qalıqları hələdə qalır. Şuşa şəhəri 1822-ci illərə qədər Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa şəhərində turizm fəaliyyəti 1935-ci ildən başlamışdır və ilk dəfə şəhərə gələn turistlərə xidmət məqsədi ilə 1936-cı ildə ilk istirahət evi istifadəyə verilir *(https://azerbaijan.travel/susa).*

XIX əsrin ikinci yarısında Şuşa şəhərinin əhalisi 30 000 nəfərə çatmışdır. Əhalinin sayca çox olmasına baxmayaraq, Şuşa şəhərinin iqtisadiyyatında bir durğunluq vardı. Ancaq bu iqstisadi böhran nəinki Şuşada hətta bütün Qarabağda hiss edilirdi. Hökümət orqanları bu durğunluğu aradan qaldırmaq üçün Bakı - Tiflis dəmiryol xəttinin bir qolunu Şuşa şəhəri ilə birləşdirmək sahəsində qərara gəlsələr də 1914 - cü ildə müharibənin başlaması buna mane oldu ki, bu plan tamamilə dayandırıldı. Lakin, buna baxmayaraq Xankəndinə qədər dəmir yolu çəkilmiş və plan baş tutmasa belə durğunluğu aradan qaldırmaq üçün yarım da olsa həyata keçirmək baş tutmuşdur *(Qarabağlı, 2021).*

Şuşanın dağları və dağlarında bitən "Xarı bülbül" dillərə dastan olmuşdur. Xarı bülbül gülünü və Şuşanın dağlarını, şəhərin əzəmətini görmək üçün ta haralardan Şuşa şəhərinə gələnlər var. Şuşada musiqi mədəniyyətinin tarixi keçmişə dayanır. Bunun bariz nümunəsi olaraq Şuşada 1930-cu ildə ilk musiqi, mədəni maarif texnikumu açılmışdır. 1989-1991-ci illərdə Cıdır düzündə "Xarıbülbül" mahnı festivalının keçirilməsi bu ənənənin davamı olmuşdur *(Tahirov, 2021).*

1984-cü ildə Şuşa Səyahət və Ekskursiya Bürosu fəaliyyətə başlamışdı. 70-80-ci illərdə 100 yerlik 9 mərtəbəli "Qarabağ" mehmanxanası, 100 yerlik respublika meşə-sağlamlıq məktəbi inşa olunmuşdu. Şuşa şəhərinin Zamanpəyə kəndi yaxınlığında "Soyuqbulaq" turist bazası açılmışdır. Həmin turist bazasında 8-kotecdən ibarət 120 nəfərlik xidmət otaqları istifadəyə verilmişdir. Bundan başqa məktəblilər üçün istirahət düşərgələri də fəaliyyət göstərirdi bun düşərgələrdə 500 –

300 yerlik respublika səviyyəsində digər düşərgələr isə vilayət məktəblilərinə xidmət göstərirdi *(https://azerbaijan.travel/susa).*

1972 – ci ildə Şuşa "Şəfa" turist bazası fəaliyyətə başlamışdır. Şuranın rəsmi rəqəmlərinə görə, təkcə 1990-cı ildə Şuşa Turist Bazası 32.519,76 AZN Şuşa SEB 2933,81AZN, həcmində turizm-ekskursiya xidməti göstərib və göstərilən xidmətlərdən gələn gəlir yüksək səviyyədə idi. Şuşa şəhərinə gələn turistlər bura gəldikləri zaman heyran içində qaldıqlarını, şəhərin bu əsrarəngiz təbiəti və təmiz havasını görmək üçün təkrar - təkrar gəlmək bir təkrarçılıq deyil, sanki hər gələndə başqa bir şəhərə üz tutduqlarını deyirdilər *(https://525.az/news/165367-susa-kurort-ve-istirahet-merkezi-kimi-arasdirma).* Şuşa şəhərində 1964-cü ildə pansionat yaradılıb və 1970-ci ildə həmin pansionat sanatoriyaya çevrilmişdir. Sanatoriya mədə-bağırsaq xəstəliklərinin müalicəsi üçün ixtisaslaşıb. Bu sanatoriyaya yerli və xarici turistlər gəlirdi. Burada ən azı müalicə müddəti 1-aydan 1-ay yarıma qədər bəzən isə 2-aya qədər davam edirdi. Bura gələn qonaqlar müalicən tam məmnun qalırdı. Burda Azərbaycanın digər şəhər, kənd və qəsəbələrində olduğu kimi Şuşada da kənd evləri gələn turistlərə ev sahibliyi edib *(https://az.trend.az/azerbaijan/politics/3424425.html).* Şuşa və eləcədə Qarabağın digər şəhərlərində 17 pioner düşərgəsi və eyni zamanda 1 ədəd ixtisaslaşmış uşaq sanatoriyası yerləşirdi və hansı ki, ən böyük şəhərlərdə bu sayda düşərgə olmayıb. Bundan başqa burada Şahnəzər mağarası, müsəlman qəbirləri, Enolit dövrünə aid gil qablar, Mezolit dövrü mikrolit biçaqlar, Paleolit dövrünə aid kobud daş çapacaqlar tapılmışdır *(https://az.trend.az/azerbaijan/politics/3424425.html).*

İşğaldan sonra bütün torpağlarımızda olduğu kimi Şuşa şəhərində də ermənilər yaşamışdır, özlərinə məxsus erməni məktəbləri, musiqiçiləri və özlərinə məxsus obyektləri olmuşdur. Rusiyanın dəstəyi ilə Qarabağın zümrüd tacı olan Şuşa şəhərini erməni yurduna çevirməyə və erməmiləşdirməyə çalışmışlar. Şuşa təpədən dırnağa qədər müsəlman şəhəri olub. Rus-erməni hərbi birləşmələrinin işğalından sonra Şuşada olan Azərbaycan izlərini itirmək məqsədi ilə 25 orta məktəb, 31 kitabxana, 17 klub, 8 Mədəniyyət evi və istirahət parkı, sanatoriya mərkəzləri, hamam, turist bazası, 2 mehmanxana, 4 kollec, 2 inustut filialı, 4 kinoteatr, 5 Mədəniyyət parkı, Azərbaycan Xalçası Dövlət muzeyinin filialı, 7 uşaq baxçası, 40 tibb müəssisəsi, 2 sanatoriya, Uşaq sanatoriyası, 70 yerli turist bazası, Şuşa Dövlət Dram Teatrı, Şuşa televiziyası, Şərq musiqi alətləri fabrikası, Orta və orta ixtisas musiqi məktəbləri, Dövlət Rəsm qalereyası, Uşaq sağlamlıq məktəbi, məscidlər, iri ticarət obyektləri, idman zalları, musiqi məktəbləri, yaşayış binaları, İctimai iaşə obyektləri talan edilib, yandırılıb və dağıdılıb. Şuşa şəhərinin işğal altında olması Azərbaycanı sanki yaralı qoyurdu *(https://az.trend.az/azerbaijan/politics/3424425.html).*

XX əsrin birinci yarısında Şuşanın iqtisadiyatında canlanma hiss olunur. Əhalini sayı artaraq 42 409 – a çatır. Daşaltı və Xəlfəli çayından əhalinin həyat şəraitinin yüksəldilməsi məqsədilə yeni su kəməri çəkilir. Bunun nəticəsində şəhərdə hamam və yaşıllığın artmasına səbəb olur ki, buda öz növbəsində Şuşa şəhərinə ekoloji cəhətdən müsbət təsir göstərir *(Qarabağlı, 2021).* XX əsrin ortalarından Şuşa şəhərinin kurort şəhərinə keçməsi Azərbaycan rəhbərliyi tərəfindən dəfələrlə müzakirə mövzusu olmuşdu. Şuşa şəhərinin ərazisi çoxda böyük olmadığı üçün burada iri kurort mərkəzlərinin yaradılması məqsədə uyğun hesab edilmir. Ancaq buna baxmayaraq Şuşanın havasının tərkibi, təmizliyi və ən əsası müalicəvi əhəmiyyət baxımından əvəzolunmazdır. Yaxın keçmişdən insanlar sağalmaz xəstəliklərin çarəsi üçün Şuşa şəhərinə gəlirdilər. Həmin müalicələr üçün 1-2 ay müalicə olunmaq lazım gəlirdi. Şəhər müalicəvi əhəmiyyətli olması ilə yanaşı eyni zamanda səfalı yerləri, istirahət guşələri ilə məşhurdur *(https://azerbaijan.travel/susa).* Nəhayət ki işğal altından azad olan Şuşa 44 günlük müharibədən sonra 4 – 8 Noyabr 2020 ci ildə öz azaldığına qovuşdu. Hazırda inkişaf planı ilə bağlı olaraq Şuşada gedən inkişaf, infrastrukturun bərpası və Şəhərin daha əvvəlkilərdən yüksək səviyyədə inkişafı üçün işlər gedir. Dövlət başçımız Ali Baş Komandan Prezident İlham Əliyev çox sayda açılışlarda, yeni sosial və mədəniyyət obyektlərinin təməlqoyma mərasimlərində iştirak edib. Dahi Azərbaycan şairi Molla Pənah Vaqifin ev muzey-məqbərə, müğənni Bülbülün (Murtuza Məşədi Rza oğlu Məmmədov) ev muzeyinin bərpasından sonra açılışını etmişdir. Bundan başqa Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində "Qarabağ" hotelinin açılışında, Üzeyir Hacıbəylinin heykəlinin eyni zamanda "Otel və Konferans Mərkəzi" nin, şəhərdə yeni salınacaq yaşayış massivinin təməl qoyma tədbirində

iştirak ediblər. Qeyd etmək istərdik ki, 1980-ci ildə inşa edilən "Qarabağ" hotelinin binası 1992-ci ilin May ayında şəhərin işğalı nəticəsində fəaliyyətini tamamı ilə dayandırmış, baxımsızlıqdan tamamı ilə yararsız hala düşmüşdür. 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, hoteldə təmir bərpa yenidən qurma işləri başlamış və hotel əvvəlkindən də daha müasir səviyyəyə çatdırılmış və səfər edəcək qonaqların rahatlığı üçün müxtəlif kateqoriyalı otaqlar restoran və bar, konferans otağı, masaj və sauna həçinin digər xidmətləri ilə qonaqların ixtiyarına veriləcək *(https://525.az/news/165367-susa-kurort-ve-istirahet-merkezi-kimi-arasdirma).*

Şuşa şəhəri xanlıqlar dövründə Qarabağ xanlığının paytaxtı olmuşdur. Kiçin Qafqaz dağlarının ətəyində yerləşən bu şəhər gözəlliklər qoynunda yerləşir. Bu şəhər çoxlu şairlər , memarlar, rəssamlar, musiqiçilər yetişdirmiş və hər biri Şuşanı və Şuşa ilə yanaşı Azərbaycanı bütün dünyaya tanıtmaqda əməkləri dilə gətirilə bilməyəcək qədər çoxdur. Buna görə də Şuşa şəhərini Azərbaycanən Mədəniyyət paytaxtı adlandırmamaq haqsızlıq olardı *(https://azerbaijan.travel/susa).*

Bundan başqa Səkili bulağı, İsa bulağı, Şəmil oğlu, Əfsanəvi Cıdır düzü, Turşsu istirahət və müalicə zonası ilə məşhurdur. Şuşa şəhərinə ayaq basan bütün turistlər təbiətin Şuşaya bəxş etdiyi gözəlliklər qarşısında öz təcrübələrini gizlədə bilmirdilər *(https://azerbaijan.travel/susa).*

Şuşanın şəhərsalma tarixi üç dövrə bölünür: İlkin mərhələ şəhərin əsası qoyulduğu vaxtdan Pənah xanın hökmranlığının sonuna qədər. Bu zamanlar qala divarları, xana məxsus qəsr, saray, məscid, hamam və başqa inzibati, yaşayış binaları inşa olunaraq 9 məhəllə yerləşirdi. Həmin məhəllələrdəki tikililərlə Şahbulaq qalasının tikintisi arasında bir oxşarlıq vardı. Görünür hər iki qalada eyni ustalar və memarlar çalışıb *(Qarabağlı, 2021).*

İkinci mərhələ İbrahim xanın dövrlərini əhatə edir (1760-1806). Bu dövrdə şəhərin yuxarı hissəsində 8 məhəllə yerləşib. Eyni zamanda şəhərətrafı qala divarının bərpası, Xurşid Banu Natavan və Bikə ağanın binaları, Xəzinə dərəsindəki saray və başqa təyinatlı binalar, həmçinin, atası Pənah xanın vəsiyyəti ilə Qarqarçayın hər iki sahilində ucaldılmış Əsgəran qalası və başqa. ellik binalar əlbəttə ki, İbrahim xanın apardığı abadlıq və quruculuq işləridir.

Üçüncü mərhələ Qarabağ xanlığının rus işğalı dövrünü əhatə edir (1805). Bu zamanlar tikinti işləri şəhərin yuxarı-qərb tərəfində aparılırdı və bunun nəticəsində də 12 məhəllə formalaşmışdır. Şəhərdə kənd təsərrüfatı işləri ilə məşğulluq mümkün olmadığı üçün burada müxtəlif sənətkarlıq emalatxanaları çoxluq təşkil edirdi. Bu emalatxanalarda hazırlanmış müxtəlif malların çeşidliliyinin çox olması satış üçün bazarların yaranmasına səbəb oldu. Bazarının zənginliyi qısa bir müddətdə bütün Qafqazda eləcədə şərq və qərbdə məşhurlaşdı. Elə bu səbəbdən də uzaq ölkələrdən gəlmiş tacirlər məhz Şuşada ticarətlə məşğul olmağı üstün tutmuşlar.Beləliklə "Rasta bazarın" və bir neçə karvansaraların inşa olmasına zəmin yaranmışdır. Orta əsr şəhərlərinin inkişafında bazarlar və cümə məscidləri böyük rol oynayırdı. Belə dini və ticarət mərkəzləri şəhər meydanının formalaşmasında da həlledici mövqedə dururdu *(Qarabağlı, 2021).*

Şuşada ölkəmizin musiqi və incəsənətin bir çox növləri ilə zəngin olması ilə yanaşı istedadlı şəxslərin yaşamış olduğu şəhərlərimizdən biridir. Azərbaycanın rayonlarında çox burada xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa ən qədim zamanlardan musiqinin beşiyi sayılır və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycanın musiqi tarixini yaratdılar və eyni zamanda onu yalnız Azərbaycan deyil, bütün şərq ölkələrində təqdim etdilər və tanıtdırdılar.

Şuşa şəhərinin sahib olduğu gərəkli resurslar sayəsində o, ölkəmizin əsas aparıcı mərkəzlərindən biri olmaqla yanaşı, yuxarıda sadalanan əhəmiyyətli amillər onu turizm və beynəlxalq tədbirlərin mərkəzi edəcəkdir.

### İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov Şuşa Azərbaycanın mədəniyyət paytaxtı 2021- ci il
2. Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət insititunun aparıcı elmi işçisi, Memarlıq üzrə Fəlsəfə doktoru, dosent Rizvan Qarabağlı, Qarabağın Memarlıq irsi 2021-ci il
3. https://azerbaijan.travel/susa
4. https://az.trend.az/azerbaijan/politics/3424425.html
5. https://525.az/news/165367-susa-kurort-ve-istirahet-merkezi-kimi-arasdirma

# ŞUŞANIN SOSİAL-İQTİSADİ DİRÇƏLDİLMƏSİ -AZƏRBAYCANIN TƏRƏQQİSİNİN YENİ ZİRVƏSİDİR

***Sumqayıt Dövlət Universiteti***
***Məmmədov Hikmət Sadiq oğlu, magistrant***
***Elmi rəhbər: B.M.Cəlalzadə***

***Xülasə***

"Qarabağ Azərbaycandı" bu ifadə 30 ilə yaxın idi ki, insanların qəlbində və ağlında idi. Nəhayət 2020-ci il 27 sentyabrda "İkinci Qarabağ müharibəsi" başlayanda bu ifadə bir şüara çevrildi. Xüsusiylə bu şüar xalqımızda və ordumuzda ruh yüksəkliyi yaratdı və qələbə bizimlə oldu. 2020-ci il 10 noyabrda Azərbaycan və Ermənistan arasında atəşkəs bəyanatı imzalandı. Bununla da Azərbaycan öz haqq savaşında qalib gəldi.
***Açar sözlər:*** *Qarabağ, Şuşa, qələbə, bəyanat, yenidən bərpa etmək.*

***Summary***

This phrase "Karabakh was Azerbaijan" was in people's hearts and minds for almost 30 years. Finally, when the "Second Karabakh War" began on September 27, 2020, this phrase became a slogan. Especially this slogan created enthusiasm in our people and our army, and the victory was with us. On November 10, 2020, a ceasefire declaration was signed between Azerbaijan and Armenia. Thus, Azerbaijan won its war of rights.
***Key words:*** *Karabakh, Shusha, victory, statement, restore.*

İkinci Qarabağ müharibəsinin ən gözəl anlarından biri tarixi Şuşa şəhərinin 2020-ci il 8 noyabrda işğaldan azad edilməsi idi *(https://az.m.wikipedia.org/wiki/İkinci_Qarabağ_müharibəsi).* Bu xəbər ölkəmizdə böyük qürur hissi ilə qarşılandı. O qürurlu günlər üçün darıxıram və o günləri türkçülüyümün şanlı tarixi olaraq yadda saxlayacam.

Şuşa şəhəri işğaldan azad edildikdən sonra ona tarixi dəyəri Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev verdi. İlham Əliyev 2021-ci il may ayının 7-də "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Biz bu sərəncamı oxuduqca onu abzas-abzas incələdikcə anlıyırıq ki, tarixi Şuşa şəhərinə necə dəyər verilib. Məsələn bir abzasda qeyd olunur "Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır." *(Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.).* Biz bu abzasdan Şuşa şəhərinin keçmişinə necə dəyər verilərək, gələcək sosial-iqdisadi dirçəlişinin istiqamətlərini anlıyırıq və təsəvvür edirik. Növbəti bir abzasa diqqət yetirək "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram: 1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin. 2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin." *(Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.).* Bu abzasda öz növbəsində Şuşanın gələcək sosial-iqdisadi inkşafının prioritet istiqamətləri haqqında aydın fikirlər ifadə edir. Yəni biz Şuşa şəhərinin əvvəlki şöhrətini qaytarmaq istəyiriksə, onuda onun kecmişi haqqında məlumat toplamalı, bu məlumat üstündə düşünməli və Şuşanın gələcəyini formalaşdırmalıyıq.

Şuşa şəhərinin gələcəyni formalaşdırmaq üçün əvvəlcə onun kecmiş tarixi və gözəlliklərindən danışmalıyıq. Şuşa şəhərinin əsası XVIII əsrin 50-ci illərinin əvvəllərində görkəmli siyasi və dövlət xadimi Pənahəli xan Cavanşir tərəfindən qoyulmuşdur. İlk vaxtlarda Pənahəli xanın şərəfinə şəhər

“Pənahabad” adlandırırdılar. Bu şəhərdə 1751-ci ildə isə Şuşa qalası tikilmişdi. Bu qalanın əsasının qoyulması ilə bağlı tarixçi Mirzə Camal bəy Cavanşir belə yazırdı: “Yeni qala tikdirmək üçün Pənah xan məmurlarla, din xadimləri və Qarabağa yaxşı bələd olan dünya görmüş yerli sakinlərlə xeyli məsləhətləşdikdən sonra qərara gəldi ki , “Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala inşa edək ki , onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir "*(Qarabağnamələr. I kitab. Bakı, "Şərq-Qərb", 2006, 216 səh.).* Burdan da məlum olur ki, Pənahəli xan Şuşa qalasının tikintisnə necə diqqətlə yanaşıb. Şuşa qalası üç tərəfdən təbii istehkamla əhatə olunmuşdur. Bu barədə daha dəqiq məlumat Yunis Hüseynovun “Şuşa Salnaməsi” əsərində belə yazılıb: “Paytaxt üçün seçilmiş ərazi Şimal - şərq tərəfdən qayalı dağlarla, Cənub-Şərq tərəfdən ərazinin hər iki tərəfi hündürlüyü 250-300 sajendən (1 sajen 2 arşına, bir arşın isə Azərbaycanda tərqibən 75 santimetrə bərabər idi) və eni 100 sajendən artıq olan əzəmətli qayalı dərə ilə əhatəli idi. Ərazi cənub tərəfdən Kirs dağı ilə əhatələnirdi. Ərazidə 2-3 şor bulaq var idi. Bu isə yeni salınacaq paytaxt qalanın əhalisinin içməli suya olan tələbatını ödəyə bilməzdi. Xanın göstərişi ilə kənkanlar ərazinin bir çox yerində quyu qazdılar və bu quyulardan bol içməli su çıxdı. Insan yaşamadığı ərazi ağac və kol-kosdan təmizləndikdən sonra, 1750-ci ilin avqust ayında yeni paytaxt qalanın bünövrəsi qoyuldu” *(Yunis Hüseynov : - tarix elmləri üzrə fəlsəfə doktoru . H03 ( 016 ) Şuşa salnaməsi . Bakı - 2015 , “ Şuşa ” nəşriyyatı , 152 səh.).*

Bundan başqa qala tikildikdən sonra Pənahəli xanın əmri ilə gözəl binalar tikilmişdir. Bu barədə Mirzə Adıgözəl Bəy “QARABAĞNAMƏ” əsərində belə yazırdı: “Pənah xan öz ailəsi üçün uca imarətlər və geniş binalar saldırdı. Hünərli ustalar, sənət sahibi və iş bilən memarlar barı, hasar, bürc və divar çəkdilər” *(Qarabağnamələr. I kitab. Bakı, "Şərq-Qərb", 2006, 216 səh.).* 1753-cü ildən bəri Şuşa Qarabağın əsas şəhərinə çevrilmişdir. XlX əsrin ikinci yarısında isə Şuşa qalası zəngin mədəniyyət mərkəzi kimi, Cənubi Qafqazda Tiflis şəhərindən sonra 2-ci yeri tuturdu. Bir çox tarixi şəxsiyyətlər, mədəniyyət nümayəndələri bu şəhərin yetirmələridir. Məsələn: Qasım bəy Zakir , Xurşudbanu Natavan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Firidun bəy Köçərli, Əbdürrə him bay Haqverdiyev, Əhməd bəy Ağaoğlu, Yusif Vəzir Çə mənzəminli, Üzeyir Hacıbəyov, Niazi, Sadıqcan, Mehdi Məmmədov, Fikrət Əmirov, Süleyman Ələsgərov, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Əşrəf Abbasov, Məşədi Məhəmməd Fərzəliyev, Bülbül, Xan Şuşinski, Rəşid Behbudov, hərbiçilərdən Fərrux bay Azayev, Səməd bəy Mehmandarov və s.

Şuşa qalası 17 məhəllədən ibarət idi. Bu məhələlərin gözəlliyi barəsində Yunis Hüseynov “Şuşa Salnaməsi” əsərində belə yazırdı: “Məhəllə, küçələri, səkilər bütövlüklə parıltılı mərmər daşlarla döşənmişdi. Gecələr daşlar işıq verirdi. Şəhər təmizliyi, yaşıllığı ilə göz oxşayırdı. Küçələr ensiz, cazibədar və bir-birinə bənzəyirdi. Hər bir məhəllənin ərazisində meydan var idi. Meydanların böyüklüyü və kiçikliyi yaşayış binalarının və sakinlərin sayından asılı idi. Bayram şənlikləri və idman oyunları həmin meydanlarda keçirilərdi” *(Yunis Hüseynov : - tarix elmləri üzrə fəlsəfə doktoru . H03 ( 016 ) Şuşa salnaməsi . Bakı - 2015 , “ Şuşa ” nəşriyyatı , 152 səh .).* Bu sözlərdən aydın olur ki, Şuşa şəhəri neçə gözəliyə sahib idi. Bunlardan əlavə şəhərin müxtəlif sosial zümrəyə mənsub olan sakinlərinin tikdirdikləri mülklər də şəhərə xüsusi gözəllik qatırdı. Bunlara misal kimi Xan sarayı, İbrahim xanın oğlu Məhəmmədhəsən ağanın, Qara Böyük xanımın, Hacı Dadaşın, Hacı Qulunun, M.M.Nəvvabın, Nəcəfqulu ağanın, C.Qaryağdı oğlunun, Zöhrabbəyovların, Mehdiqulu xanın, Xurşudbanu Natəvanın mülklərini göstərmək olar.

Şuşanın 17 məhəlləsinin hər birində məscid və müqəddəs ocağ var idi. Məhəllə məscidlərindən əlavə 2 cümə məscidi də vardı. Ümumilikdə desək 19 məscid var idi. Yunis Hüseynov qeyd edir ki, “Məhəllə məscidlərin üzərində bir, cümə məscidlərinin üzərində isə iki minarə vardı” *(Yunis Hüseynov : - tarix elmləri üzrə fəlsəfə doktoru . H03 ( 016 ) Şuşa salnaməsi . Bakı - 2015 , “ Şuşa ” nəşriyyatı , 152 səh .).*

Şuşanın tarixi gözəlliyi barəsində ingilis səyyahları və alimləri də müəyyən fikirlər söyləyirdi. Məsələn R.Burter yazırdı: "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır” *(http://www.shusha-ih.gov.az/az/news/459.html).*

Şuşa şəhərinin görünüşü və iqtisadi inkşafı barəsində daha bir faktı Tiflis şəhərində 1903-cü ildə nəşr olunmuş “Vestnik Kavkaza” jurnalının 43 səhifəsində qeyd olunurdu. Qeyd: “Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar” (“Şuşa - tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhərdir.”). Bundan başqa qeyd edək Şuşa şəhərində “Pənahabadi” adlanan gümüş sikkə zərb edilirdi. Bu da önəmli bir məsələdi. Çünki pulun zərb edilməsi şəhərdə ticarətin , sosial-iqtisadi həyatın inkişaf etdiyni göstərir. Şuşada “Bazarbaşı” deyilən yerdən “Şeytanbazara” qədər uzanan üstüörtülü ticarət mərkəzi var idi. Şəhərin əsas küçəsi “Rastabazar” adlandırılırdı. Rastabazar küçəsi ibadətgah, ticarət məqsədi tikililər, birmərtəbəli dükanlar, ikimərtəbəli karvansaraylar və qoşa minarəli gözoxşayan Cümə məscidindən ibarət idi *(http://www.shusha-ih.gov.az/az/news/459.html).*

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik Şuşa şəhəri özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarlarına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. XVIII əsrin sonu XIX əsrin əvvəllərində isə Şuşa şəhərin iqtisadi cəhətdən yüksək səviyyədə inkişaf edirdi. Belə ki, Şuşada çoxlu sayda manufakturaların olduğu və bu manufakturalarda 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. Şuşada 1809-cu ilin məlumatına görə 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Buda onu deməyə əsas verir ki, 1500-ə yaxın işini bilən sənətkar burada fəaliyyət göstəmişdir. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı. Bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı. Şuşanın bu cür yüksək inkişafını sübut edən amillər də vardır. Bu amil 1873-cü ildə Vyana şəhərində açılmış beynəlxalq sərgidə Şuşanı təmsil edən nümayəndələr də iştirak etmişdi. Onların sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə maraq oyatmışdı *(“Şuşanın strateji əhəmiyyəti”).*

Bir məsələni də qeyd etməliyəm ki, 1920-ci il aprel ayının 28-də Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan, 1992-ci il mayın 8-i ermənilərin Şuşanın işğal etməsinə qədər vaxt aralığında erməni vandallar gələcəyə yönəlik planlar içində tarixi hadisələri özündə əks etdirən binaları, dini ocaqları darmadağın etmişdi. Məqsədləri bəlli idi tarixi sənədləri yox etmək və özlərinə uyğun tarix yazmaq. Lakin 1969-cu il iyul ayının 14-də Heydər Əliyev respublikamızda ali rəhbər vəzifəyə gəldikdən sonra bu vəziyyət dəyişdi. Belə ki, Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti " ŞUŞA şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etdi. Beləliklə Şuşadakı bu tarxi-memarlıq abidələri qorundu və Şuşanın sosial-iqtisadi həyatı inkişafa başladı. Bu inkişaf 1982-ci ilin dekabır ayına kimi davam etdi. 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin SSR Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin olundu. Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində Şuşa şəhərinin tarixi hissəsi xilas oldu.

Şuşanın təbiət gözəlliklərindən danışmağa gəldikdə isə biz ilk növbədə ”Xarı bülbül” gülündən danışmalıyıq. Bu gül dünyada yalnız Şuşa dağlarında bitir. İkinci Qarabağ müharibəsində bu gülün rəsmi Qarabağın simvoluna, insanlar üçün isə bir ümüdə çevrildi. Neçə illərdən sonra Şuşa sakinləri, Qarabağ sakinləri yenidən evlərinə qayıtmaq bu gülü yenidən dünya gözü ilə görmə sevinci içində idilər. Şuşa şəhəri dəniz səthindən 1403 metr hündürlükdə yerləşir. Bu da onun təbiətinə fərqlilik və gözəllik qatır. Məhz belə bir yerdə “Xarı bülbül” kimi nadir və fərqli bir gül bitir. Klimatologların fikrincə Şuşa müalicəvi əhəmiyyətli bir şəhərdir. 1854-cü ildə Şuşa şəhərinin cənubunda müalicəvi əhəmiyyəti olan “Turşsu” aşkar edilmişdi. Şuşada və bir çox yerlərdə Turşsu istirahət və müalicə zonası kimi tanınırdı. Şuşa yaşıllığı, havasının təmizliyi, saflığı etibarilə kurort şəhəri idi. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, əfsanəvi Cıdır düzü yerli camaatın və oraya təşrif buyuranların ən sevimli yeri idi. Bugünki gündə bu yerlərdə tarixi bərpa işləri aparılır və gələcəkdə Şuşanın bu istirahət yerləri bütün Azərbaycanda və onun hüdudlarından kənarda dünyada tanınacaq. Yenidən gözəl Şuşa insanlarım ən sevimli yerinə çevriləcək *(https://azerbaijan-news.az/az/posts/detail/susanin-gozelliyine-gozellik-getiren-flora-ve-faunasi-1647117853).*

Şuşa ərazisinin 20 faizə qədəri meşə zolaqları ilə əhatə olunmuşdur. Şuşanın flora və faunası olduqca zəngindir. Belə ki, bu meşələr dadlı meyvəsi olan alma, xüsusi qulluq tələb etməyən sulu və

çox şirin armud ağacları, bar gətirən əncir, zoğal, xoşagəlməz qoxusu olan yemişan, soyuğa davamlı qovaq, ardıc, qara rəngə çalan şam, küknar, süddən səkkiz dəfə qidalı, "gələcəyin çörəyi" adlandırılan qırmızımtıl fıstıq, gövdəsi düz və sarıya çalan çətirli bəzək ağacı göyrüş, palıd, vələs, çinar, qaraçöhrə, sərv, cökə, ağcaqayın, qarağat və digər ağaclarla zəngindir. Bunlardan əlavə bu ərazidə Azərbaycan təbabətində istifadə edilə biləcək vitaminlərlə zəngin göyəm, həmərsin, itburnu, qarağat, moruq və giləmeyvələr də geniş yayılıb. Bu ərazidə müxtəlif kol cinsləri, fındıq, alça, göyəm, əzgil, itburnu, ağcaqayın, eyni zamanda Şərq fıstığı, Qafqaz vələsi, İberiya palıdı kimi bitkilər var. Bunlardan əlavə şəkillərdə, videolarda Şuşanın dağlarının bitki ötüyünə diqqət yetirdikdə oranın möhtəşəm gözəllikdə bir yer olduğunu aydın şəkildə söyləmək olar. Bir məsələni də qeyd edək, landşaft müxtəlifliyi baxımından əlverişli olan bu ərazilərdə işğala qədər 2000-dən çox bitki növü mövcud olub ki, bu da Azərbaycan florasının 42 faizini təşkil edirdi. Bölgədəki 50-yə yaxın fauna, 70-dən çox flora növü dünyanın, eyni zamanda Azərbaycan Respublikasının Qırmızı kitablarına salınıb. Lakin Şuşa və başqa işğaldan azad edilmiş Qarabağ ərazisində Qırmızı kitaba düşən 120-dək flora və fauna növündən əsər qalmayıb. Çox güman ki, erməni vandalları təkcə cansız abidələri deyil canlı təbiəti də məhv edirmiş. Bu ərazilərin biomüxtəlifliyinə külli miqdarda zərər dəyib, qiymətli ağac və kol növləri ilə zəngin meşələrimiz qırılıb, məhv edilib. Meşə ilə örtülü sahələrin 25 faizi işğal altında olan ərazilərdə yerləşir və məlumata görə, qiymətli meşələrin əksəriyyəti erməni vandalları tərəfindən məhv edilib. Otuz ilə yaxın idi ki, biz bu gözəlliklərə həsrət qalmışdıq. Amma indi "Əziz Şuşa biz qayıtmışıq" *(https://azerbaijan-news.az/az/posts/detail/susanin-gozelliyine-gozellik-getiren-flora-ve-faunasi-1647117853).*

Bu gözəl mədəniyyət abidələrindən bu gözəl təbiətdən danışarkən insan kədərlənir. Çünki Şuşa şəhəri 30 ilə yaxın işğal altında qaldı və erməni vandalları bizim abidələrə zərər verdi, məhv etdi. Bunlara Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Bundan başqa 5 minə yaxın eksponatı olan Şuşa tarix muzeyi, Dövlət xalça muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, dünyada tanınan ilk insan məskənlərindən bir paleolit dövrünə aid Azıx mağarası, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər tarix muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları dağıdılıb və talan olunub. Müqəddəs məbəd və məscidlər təhqir edilib, kitabxanalar yandırılıb, misilsiz əlyazma nümunələri məhv edilib. Bu yerlərin belə faciəvi həqiqətlərini biz Şuşa azad edildikdən sonra öz gözlərimizlə, video kadrlarla, şəkillərlə müqayisə etdiymizdə aydın şəkildə gördük. Bunlara baxmayaraq Ali Baş Komandan İlham Əliyev dediyi kimi "Əziz Şuşa biz qayıtmışıq" "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" məhz bu belə də oldu. Bu gün o tarixi binalar, məscidlər, küçələr, məhəllələr bərpa edildi və edilir. Şuşa keçmişindən danışdığım əvvəlki gözəlliyinə, əzəmətinə, şöhrətinə geri qayıdır. Şuşa təkcə Azərbaycan üçün deyil dünya üçün bir mədəniyyət incisidir. Şuşa gələcəkdə təbiət gözəllikləri, memarlığı, qonaqpərvər insanları ilə turistləri özünə cəlb edəcək və ölkəyə sərmayə gətirəcəkdir.

Bu gün bərpa işləri, Şuşanı dirçəltmək işləri onu dünyada tanıtmaq öz keçmiş şöhrətini ona qaytarmaq işləri davam edir. 2020-ci il 1 dekabrda Azərbaycan Milli Kitabxanası "Qarabağın incisi Şuşa" *("Qarabağın incisi Şuşa" adlı Elektron məlumat bazası)* adlı Elektron məlumat bazasını virtual rejimdə istifadəçilərə təqdim etmişdir. Məhz bu məqaləni yazarkən bir qaynaq kimi mən də "Qarabağın incisi Şuşa" Elektron məlumat bazasından istifadə etdim. 2020-ci il Heydər Əliyev Fondunun dəstəyi ilə "Mənim ürəyim Şuşa" musiqi kompozisiyası təqdim edilmiş, Şuşa şəhərində ermənilərin törətdiyi vəhşiliklərdən bəhs edən "Şuşa həqiqətləri" adlı videoçarx hazırlanmışdır. Dövlət Rəsm Qalereyasında Şuşa qalasının 270 illiyinə həsr olunmuş rəssam Elturan Avalovun əsərlərindən ibarət virtual sərgi açılmışdır. Bu gözəl hadisələrdən mənim ən çox diqqətmi çəkən məsələ 2021-ci il 16 martda Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Üzeyir Hacıbəyli, Xan qızı Natəvan, Bülbülün güllələnmiş heykəllərinin Şuşaya gətirilməsi oldu. Bu xalqımız üçün qürurverici an idi. Çünki məhz bu an xalqımızın tarixi keçmişinə və mədəniyyətinə necə sahib çıxdığını göstərdi və məhz bu an bizim necə qeyri-etik davranışlı, psixoloji problemli bir xalqla mübarizə apardığımızı göstərdi *(E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.).*

Tarixi bərpa işləri sonrakı dövrdə işıq sürəti ilə davam edirdi. Buna misal olaraq 2021-ci ildə Şuşada "Xarıbülbül" oteli yenidən quruldu, yeni məscidin təməli qoyuldu,1 saylı ümumtəhsil məktəbinin təməli qoyuldu, "Xarıbülbül" musiqi festivalı keçirildi, Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli qoyuldu, Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyi bərpa edildi, Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri aparıldı, Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü qoyuldu, Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan "Qarabağ" hoteli açıldı, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən Şuşanın işğaldan azad olunması münasibətilə "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" adlı biblioqrafiyanı nəşr etdirilmişdir. Ən mühümü isə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi"nin imzalanması oldu. Bütün bunlar Şuşanın gələcəyi barəsində gözəl təssüratlar yaradır. Şuşa şəhəri həqiqətən Azərbaycanın mədəniyyət paytaxtı oldu. Gəlin bir daha söyləyək "Əziz Şuşa sən azadsan" "Əziz Şuşa, biz qayıtmışıq" "Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

Son olaraq bu qələbəni bizə bəxş edən, bu qürurverici hisləri bizə yaşadan həm Birinci Qarabağ, həm də İkinci Qarabağ müharibəsi şəhidlərimizə Allah rəhmət eləsin!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

### İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.
2. "Qarabağın incisi Şuşa" adlı Elektron məlumat bazası.
3. Yunis Hüseynov : - tarix elmləri üzrə fəlsəfə doktoru . H03 ( 016 ) Şuşa salnaməsi . Bakı - 2015 , " Şuşa " nəşriyyatı , 152 səh .
4. Qarabağnamələr. I kitab. Bakı, "Şərq-Qərb", 2006, 216 səh.
5. "Şuşanın strateji əhəmiyyəti" link:https://xezertv.info/gundem/sosial/8195-uann-strateji-hmiyyti.html
6. "Şuşanın gözəlliyinə gözəllik gətirən flora və faunası" link: https://azerbaijan-news.az/az/posts/detail/susanin-gozelliyine-gozellik-getiren-flora-ve-faunasi-1647117853
7. "İkinci Qarabağ müharibəsi" Vikipediya.
link:https://az.m.wikipedia.org/wiki/İkinci_Qarabağ_müharibəsi
8. "Şuşa - tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhərdir."
link: http://www.shusha-ih.gov.az/az/news/459.html

# SKANDİNAVİYA ÖLKƏLƏRİNDƏ EKOTURİZMİN MÜASİR VƏZİYYƏTİ

***Azərbaycan Dillər Universiteti***
***Kərimli Fərhad Kərim oğlu, magistrant***
***Elmi rəhbər: dos.G.R.Ağakişiyeva***

***Xülasə***

Məqalədə Skandinaviya ölkələrində ekoturizmin müasir vəziyyəti araşdırılmışdır. İsveçin, Norveçin, Finlandiyanın təbii şəraiti ekoturizmin inkişafı baxımından yüksək qiymətləndirilir. Ekoturizm inkişaf etdikcə ekoturistlərin fəaliyyət dairəsi də genişlənir. Ekoloji təhlükələr (Baltik dənizinə neft axıdılması və s.) ətraf mühitə mənfi təsir edərək ekoturizmin inkişafını ləngidir.
***Açar sözlər:*** *milli park, təbii şəraitin komponentləri, ekoturizm marşrutları, ətraf mühit, dərketmə ekoturizmi*

***Summary***

The article examines the current state of ecotourism in Scandinavian countries. The natural conditions of Sweden, Norway, and Finland are highly valued in terms of the development of ecotourism. As ecotourism develops, the range of activities of ecotourists also expands. Environmental hazards (oil spills in the Baltic Sea, etc.) have a negative impact on the environment and slow down the development of ecotourism.
***Keywords:*** *national park, components of natural conditions, ecotourism routes, environment, awareness ecotourism*

**Giriş**

Ekoturizm – səyahətin xüsusi forması olmaqla, istirahət ətraf mühitdə və təbii şəraitin əsas komponentlərinin dərk edilməsi ilə reallaşır. Ekoturizm ümumi turizm bazarının 12%-ni əhatə edir. Ekoturizmin bir neçə növü ayrılır ki, onlara da elmi ekoturizm, dərketmə ekoturizmi, rekreasiya ekoturizmi, aqroturizm aiddir *(Qluşko, Sazıkin, 2012: 71).*

Ekoturizmin ierarxik təsnifatı vardır ki, burada da tip, sinif, növ və formalar ayrılır. İerarxik səviyyədə tip üzrə ekoloji turizm təbiət yönümlü kateqoriyaya bölünür. İerarxik səviyyədə sinif üzrə ekoloji turizm 2 yerə ayrılır: 1. Vəhşi təbiətdə və ya mühafizə olunan ərazilər daxilində ekoloji turizm, 2. Mədəni landşaft məkanında və ya mühafizə olunan ərazilərdən kənarda ekoloji turizm. İerarxik səviyyədə növ üzrə ekoloji turizm 2 yerə bölünür: məqsəd və obyektə görə ekoloji turizm. İerarxik səviyyədə forma üzrə ekoloji turizm 3 yerə ayrılır: iştirakçıların yaşına (uşaqlar və böyüklər), sağlamlığına (məhdudiyyətlə və məhdudiyyətsiz) və qrupun sayına (kiçik və böyük) görə ekoloji turizm *(Aleksandrova, 2010: 528-529).*

Q.P.Doljenko müxtəlif turizm növlərini birlikdə verməklə, turizmin təsnifatında yeni istiqamətlər müəyyən etmişdir. O, turizmin növlərindən ibarət 3 bloku ayırmışdır: hadisə, ekoloji və işgüzar. Ekoloji turizm bloku təbiət turizmi üzrə istiqamətlənən turizm növlərini (piyada, su, velosiped, at belində, speleoturizm, kənd, dayvinq və s.) əhatə edir, lakin bu növlərin həyata keçirilməsi ekoloji turizm prinsiplərinə uyğun olmalıdır *(Doljenko, 2009: 34).*

Ekoloji tur və proqramların 5 əsas prinsipi vardır:

- Ekoloji turizm əsasən təbii ehtiyatların istifadəsinə əsaslanmalı;
- Ekoloji turizm ətraf mühitə ziyan vurmamalı və ya minimal zədə ilə nəticələnməli;
- Ekoloji turizm ekoloji təhsilə və təbiətdə bərabərhüquqlu əməkdaşlıq münasibətlərinin formalaşmasına istiqamətlənməli;
- Ekoloji turizm yerli sosial-mədəni mühitin mühafizəsinin qayğısına qalmalı;
- Ekoloji turizm iqtisadi effektiv olmaqla, reallaşdığı rayonların davamlı inkişafını təmin etməlidir *(Paşayev, Ağakişiyeva, 2015: 55).*

Şərqdə Baltik dənizi və Botnik körfəzi, cənub-qərbdə Katteqat və Skagerrak boğazları ilə əhatə olunan İsveçin, qərbdə Atlantik okeanına, şimalda Barents, cənubda Şimal dənizinə çıxışı olan Norveçin, sahillərini qərbdə Fin körfəzinin sularının yuduğu Finlandiyanın təbii şəraiti ekoturizmin inkişafı baxımından yüksək qiymətləndirilir.

Norveçin dəniz sahilinə yaxın ərazilərində çoxsaylı sahil adaları, sualtı qayalar və adsız kiçik adalar səthə çıxır. Ölkənin qərb sahilləri uzun və dərin fyordlarla parçalanmışdır. Finlandiyanı meşə, göl və bataqlıqlar ölkəsi adlandırırlar. Ərazinin təxmninən 70%-i meşə ilə örtülüdür. 60 mindən artıq olan göllər isə ölkə ərazisinin təxminən 1/10-ni əhatə edir. İsveçin cənub hissəsini çöl və çəmənlərin, enliyarpaqlı və iynəyarpaqlı meşələrin üstünlük təşkil etdiyi geniş məhsuldar vadilər tutur. Ərazisinin yarıdan çoxunu meşələr tutan ölkənin şimal-qərbində Skandinaviya dağları yerləşir *(Məmmədov, Soltanova, Rəhimov, 2002).*

Ekoturizmin təbii resurs bazası kimi milli parklar fərqlənir. Milli park ərazilərindən ekoturizmin inkişafı baxımından istifadə etmək xüsusi əhəmiyyət kəsb edir. Əsasən inkişaf etməkdə olan ölkələr təbii şəraitin bütün komponentlərindən ekoturizm fəaliyyətinin təşkilində istifadə edirlər. Bu ölkələr dövlət büdcəsinə daxilolmalarda böyük paya malik və təbiətə zərər vurmadan dərketmə istiqamətli ekoturizm marşrutları təşkil edirlər.

Avropa ərazisində ilk milli parklar olan Sarek və Stura-Şeffalet 1909-cu ildə İsveçdə yaradılmışdır. Finlandiyanın ən böyük milli parkı olan Lemmenyoki ölkədə sammilərin əsas məskunlaşdığı və Arktika ilə tanışlıq üçün ən xüsusi yerlərdəndir. Barents dənizində yerləşən Svalbard adalarında Norveçin 3 iri milli parkı yerləşmişdir. İslandiya ərazisinin 9%-də milli parklar təşkil olunmuşdur *(Əsgərov, Bilalov, Gülalıyev, 2011).*

Ekoturizm inkişaf etdikcə ekoturistlərin fəaliyyət dairəsi də genişlənir. Belə ki, ekoturistlər səyahət zamanı zövqdən asılı olaraq piyada gəzintilərə üstünlük verir, quşları izləyir, ekosafari, balıq ovu, alpinizm, dağadırmanma ilə məşğul olur, botaniki ekskursiyalarda iştirak edirlər.

Finlandiyaya yeni başlayan və yüksəkliyi sevməyən dağ-xizəkçiləri üz tuturlar. Burada Talma, Vixti və Messilya kimi kurortlar fərqlənir. Əsasən Avropalılar arasında məşhur olan İsveç kurortlarına Ore və Selen aiddir. Norveçin dağ-xizəkçilik kurortları ölkənin cənubunda yerləşməklə, Lillehammer, Heylo və Hemsedaldan ibarətdir *(Babkin, 2008).*

Ekoloji problemlər turizm təsərrüfatına müxtəlif istiqamətlərdə təsir edir. Hal-hazırda iqlim dəyişməsi dünyada əsas problemlərdən sayılır. Hərçənd iqlim dəyişməsinin ekoloji nəticələri tam məlum olmasa da, o turizmin rəqabət qabiliyyətinə təsir göstərir. Beləliklə, turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin inkişafında ekoloji problemləri geniş miqyasda nəzərə almaq lazımdır. Ekoloji cəhətdən təmiz təbii şərait Finlandiyada turizmin güclü tərəfləri kimi çıxış edir. Ekoloji təhlükələr (Baltik dənizinə neft axıdılması və s.) ətraf mühitə mənfi təsir edərək ekoturizmin inkişafını ləngidir. Gözəl peyzajı ilə seçilən Finlandiya rayonlarında isə ekoloji təhlükələr xüsusilə nəzərə alınmalıdır.

Norveçin turizm məhsulunda təbii şərait və onun əsas komponentləri vacib rol oynadığından, turizm tədbirləri təbiət, mədəniyyət və ətraf mühitə tədricən uyğunlaşdırılır. Lakin, bu fəaliyyətdə təbii şəraitin əsas komponentlərinin səmərəli istifadəsi uğurla həyata keçirilir. Norveçin ekoloji turist destinasiyalarının milli standartı dünyada məşhurdur. Belə ki, milli standartda təbiət, mədəniyyət, ətraf mühit və sosial dəyərlər üzrə 6 bölmə, 45 kriteriya və 108 göstərici vardır. Norveçdə turist destinasiyaları enerjinin qənaəti, yerli mədəniyyət və mətbəxin qorunması və inkişafı, piyada marşrutları üzrə yollar və infrastrukturun qurulmasına dair tədbirlər görməli, turizm mərkəzləri isə bu standartlara uyğun fəaliyyət göstərməlidirlər.

İslandiyaya güclü turist axını olduğundan, əsas təbiət abidələri təhlükə altında qalmışdır. Bəzi rayonlar isə sayı ildə milyondan artıq olan turistləri qəbul etməyə qadir deyildir. Problemi həll etmək üçün dövlət mövcud turist vergilərinin məbləğini artırmış, turizm şirkətləri üçün müəyyən təbiət abidələrinə səfərlərə lisenziyaların verilməsini reallaşdırmışdır. Beləliklə, İslandiyada təbii şəraitin müəyyən komponentlərini görmək üçün turistlər daha böyük məbləğdə vəsait xərcləməlidirlər. Yığılmış vəsait turizm infrastrukturu və obyektlərinin yaxşılaşdırılmasına yönəlir.

İsveçdə Regional inkişafın Milli proqramı ilk dəfə olaraq 1972-ci ildə qəbul olunmuş və sonradan hər 3-4 ildən bir reallaşmışdır. Regional siyasətə dair Qanun isə 1985-ci ildən qüvvədədir və bir neçə məqsədi əhatə edir. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün ölkədə regional siyasət tədbirləri hazırlanmış və regional inkişaf istiqamətləri müəyyən edilmişdir. İsveçdə regional inkişafın həyata keçiriləcəyi 3 zona ayrılmış, onlar vəsaitlə təmin edilmiş və həmin ərazilərdə təsərrüfatın digər sahələri kimi turizmin, xüsusilə ekoturizmin inkişafı göstərilmişdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Əsgərov Ə.T., Bilalov B.Ə., Gülalıyev Ç.G. Ekoloji turizm. Bakı: Adiloğlu, 2011, 276 s.
2. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı: Mütərcim, 2002, 512 s.
3. Paşayev N.Ə., Ağakişiyeva G.R. Turizm fəaliyyətinin ətraf mühitə təsiri problemləri / "Azərbaycan Hava Yolları" QSC Milli Aviasiya Akademiyasının "Elmi Məcmuələr" jurnalı, Cild 17 №2, Bakı, 2015, s. 51-57
4. Бабкин А.В. Специальные виды туризма. Ростов-на-Дону: Феникс, 2008, 252 с.
5. География туризма. Под редакцией А.Ю.Александровой. Москва: КНОРУС, 2010, 592 с.
6. Глушко А.А., Сазыкин А.М. География туризма. Владивосток: Издательство Дальневосточного университета, 2012, 270 с.
7. Долженко Г.П. Основы туризма. Москва-Ростов-на-Дону: МарТ, 2009, 319 с.

# QUALITY CONTROL AND METROLOGICAL SUPPORT

***Azerbaijan State Oil Industry University***
***Mammadova Narmin Vusal, master degree***

***Summary***

Certification is a condition by an independent body of written assurance that the product, service meets specific requirements. It is the formal confirmation of certain characteristics of an object, person or organization. This confirm is often, but not always, provide by some form of external review, education, assessment, or audit. Accreditation is a specific organization`s process of certification. According to the U.S. National Council on Measurement in Education, a certification test is a credentialing test used to determine whether individuals are knowledgeable enough at the given occupational area to be labeled competent to practice in that area. One of the most common types of certification in modern society is professional certification, where a person is certified as being able to competently a job or task, usually by the passing of an examination or the completion of a program of study. Some professional certifications also require that one obtain work experience in a related field before the certification can be awarded. Some professional certifications are valid for a lifetime upon completing all certification requirements.
***Key worlds:*** *quality, ISO, IEC, certificate, standard.*

***Xülasə***

Sertifikatlaşdırma, məhsulun, xidmətin xüsusi tələblərə cavab verdiyinə dair müstəqil orqan tərəfindən yazılı təminat şərtidir. Bir obyektin, şəxsin və ya təşkilatın müəyyən xüsusiyyətlərinin rəsmi təsdiqidir. Bu təsdiq tez-tez, lakin həmişə deyil, hansısa formada kənar baxış, təhsil, qiymətləndirmə və ya audit tərəfindən təmin edilir. Akkreditasiya xüsusi bir təşkilatın sertifikatlaşdırma prosesidir. ABŞ-ın Təhsildə Ölçmə üzrə Milli Şurasına görə, sertifikatlaşdırma testi fərdlərin həmin sahədə təcrübə keçmək üçün səlahiyyətli etiketlənmək üçün verilən peşə sahəsində kifayət qədər məlumatlı olub-olmadığını müəyyən etmək üçün istifadə edilən etimadnamə testidir. Müasir cəmiyyətdə ən geniş yayılmış sertifikatlaşdırma növlərindən biri peşəkar sertifikatlaşdırmadır ki, burada bir şəxs adətən imtahandan keçməklə və ya təhsil proqramını başa vurmaqla bir işi və ya tapşırığı səriştəli şəkildə yerinə yetirmək qabiliyyətinə malikdir. Bəzi peşəkar sertifikatlar həmçinin sertifikat verilməzdən əvvəl müvafiq sahədə iş təcrübəsi əldə etməyi tələb edir. Bəzi peşəkar sertifikatlar bütün sertifikatlaşdırma tələblərini yerinə yetirdikdən sonra ömür boyu etibarlıdır.
***Açar sözlər:*** *keyfiyyət,İSO, İEC, sertifikat, standard.*

## Introduction

Certificate is a unique, digital signed document which authoritatively identifies the identity of an individual or organization. Using public key cryptography, its authenticity can be verified to ensure that the software or website you are using is legitimate. On the Internet, a certificate is signed by a trusted certificate authority, and verified with the authority`s public key.

One of the most common types of certification in modern society is professional certification, where a person is certified as being able to competently complete a job or task, usually by the passing of an examination or the completion of a program of study.

Some professional certifications also require that one obtain work experience in a related field before the certification can be awarded.

Another common type of certification in modern society is product certification. This refers to processes intended to determine if a product meets minimum standards, similar to quality assurance.

Different certification systems exist in each country.

For example, in Russia it is the GOST R Rostest.

Also has certified laboratories and certification bodies. Certified laboratories was established in New York City by Dr. Charles Paley in 1926. It was known for its strong focus on dairy testing. Certified laboratories is a private, independent laboratory comprised of four nationally recognized laboratories located in New York, Illinois, Southern California and Northern California.

Each of these laboratories has developed its own area of expertise and is an acknowledged leader in the field of food analysis with a wide array of clients from mom and pop startups to national, well known food companies to the FDA.

Certification body is an independent third party that handless a certification process.

To get an ISO certification, you need to choose an ISO certification body. ISO does not certify or issue certificates to business. ISO only develops the standards. So, ISO certification bodies assure each business follows its ISO standards. This includes all the necessary conditions for each standard a company has.

The certification body provides:

- Assessments, which conclude with reports that provide details around the outcome of the assessment and where allocate, any gaps between the requirements of the standard and the way the organization is currently operating.
- Certification- subject to successful completion of the assessments.
- A logo or badge that certified organizations can used to show their certification status.

Conformity Assessment Hierarchy- refers to any activity that determines whether a product, system, service and sometimes people fulfil the requirements and characteristics described in a standard or specification. Such requirements can include performance, safety, efficiency, effectiveness, reliability, durability, or environmental impacts such s pollution or noise, for example. Verification is generally done through testing or inspection. This may or may not include on-going verification.

Conformity assessment is the activity verifying that a standard or technical specification was applied in the design, manufacturing, installation, maintenance or repair of a device or system. This activity must be carried out according a set of well-defined rules to ensure consistent and replicable results. In other words, conformity assessment itself needs to use a standardized approach.

The IEC and ISO have therefore developed and published a series of international standards specifying how conformity assessment should be carried out. The ISO/IEC 17000 standards series, as well as a number of ISO/IEC Guides, are contained in what is familiarly called CASCO Toolbox, which provides a full set of tools for anyone wishing to know how to carry out consistent and reliable conformity assessment.

Also one of the general standards in an independent standards.

Independent standard is a standard which established by company by itself, and that applies only for given company.

Accreditate laboratories

A World Health Organization accredited laboratory is a laboratory that conforms to international standards or codes of practice and can demonstrate to a competent third-party accreditation body that it meets these criteria. Laboratories may be accredited to test one or several categories of products. They must also be able to carry out one or more of the three types of product verification test:

- Type-examination: An inspection of a product sample. Required for items that are not programme-critical.
- Independent type-testing: An inspection of the manufacturing site and a rigorous test of a sample of the product. Required for products that are programme-critical.
- Full quality assurance: An inspection of the production site carried out against a pre-defined checklist. Used for complex programme -critical products involving site-specific design and on-site installation work.

All independent type-testing must be carried out by an accredited testing laboratory. In addition, accredited testing laboratories may sometimes be used to carry out type-examination or full quality assurance of a product.

Accredited laboratories are currently located across Europe, Asia, the Middle East and the United States.

Currently, only laboratories accredited by WHO can be selected for testing of immunization products for WHO prequalification. WHO is currently seeking new laboratories that meet WHO accreditation criteria.

Benefits of WHO laboratory audits and accreditation

WHO audit and accreditation procedures help to build the capacity and availability of product-testing laboratories that can verify products` full compliance with the relevant performance specifications and evaluation protocols, using stringet examination, testing and quality.

Difference between accreditation and certification

Certification refers to a written assurance by a third party on the conformity of a service, product or process, based on certain specified requirements provided by some form of education, audit, assessment or external review. On the other hand, accreditation refers formal recognition on the competency towards specified standards by an authoritative body.

While certification relates to all company activities in a given industry, accreditation is based on specific activities and is not based on all activities in an organization.

Certification involves the endorsement of a product, service or process by a third party. On the other hand, accreditation involves the endorsement of a product, service or process by an independent third party.

While certification and accreditation are two different terminologies, their importance cannot be ignored. While certifications help in gaining a competitive advantage on the conformity of a service, product or process as well as increase the earning potential, accreditation provides assurance on the compliance of organizations to the relevant regulatory bodies.

ISO 9001 is the only standard in the ISO 9000 series to which organizations can certify. Achieving ISO 9001:2015 certification means that an organization has demonstrated the following:

- Follows the guidelines of the ISO 9001 standard.
- Fulfills its own requirements
- Meets customer requirements and statutory and regulatory requiremenets
- Maintains documentation

Certification to the ISO 9001 standard can enhance an organization`s credibility by showing customers that its products and services meet expectations. In some instances or in some industries, certification is required or legally mandated. The certification process includes implementing the requirements of ISO 9001:2015 and then completing a succesful registrar`s audit confirming the organization meets those requirements.

Organizations should consider the following as thet begin preparing for an ISO 9001 quality management system certification:

- Registrar`s costs for ISO 9001 registration, surveillance , and recertification audits
- Current level of conformance with ISO 9001 requirements
- Amount of resources that the company wil dedicate to this project for development and implementation.
- Amount of support that will be required from a consultant and the associated costs

ISO 9001 is defined as the international standard that specifies requirements for a quality management system. Organizations use the standrd to demonstrate the ability to consistently provide products and services that meet customer and regulatory requirements. It is the most popular standard in the ISO 9000 series and the only standard in the series to which organizations can certify.

ISO 9001 was first published in 1987 by the International Organization for Standardization, an international agency composed of the national standards bodies of more than 160 countries. The current version of ISO 9001 ws relesed in 23th September 2015.

ISO 9001 helps organizations ensure their customers consistently receive high uqality products and services, which in turn brings many benefits, including satisfied customers, management, and employees.

Because ISO 9001 specifies the requirements for an effective quality management system, organization find that using the standard helps them:

- Organize a QMS
- Create satisfied customers, management, and employee
- Continually improve their processes

- Save costs

Quality Management System- is a collection of business processes focused on consistently meeting customer requirements and enchancing their satisfaction. It is aligned with and organization`s purpose and strategic direction. (Scheme 1.)




Scheme 1.- Quality Management System

The ISO 9001 standard requires your organization address seven key areas – also known as clauses – in order to achieve continual improvement within your Quality Management System:

Context of organization, leadership, planning, support, operation, performance evaluation and improvement.

**Conclusion**

In this article, I describe ISO 9001 standard, their benefits and requirements. Also I research that ISO 9001 is a standard for quality and quality management system. Quality is now in our time a very important factor in everything, both in production and in products. Our goal is to further improve the quality of new products.

## Literature

1. Carlos Pereira Da Cruz – Discover ISO 9001:2015 through practical examples
2. Milton P. Dentch – The ISO 9001:2015 Implementation handbook
3. Inaki Heras – Saizarbitoria- ISO 9001 and New Management System
4. https://www.qmsuk.com/iso-standards/iso-9001/iso-9001-requirements
5. https://asq.org/quality-resources/iso-9001
6. https://www.ukas.com/accreditation/about/accreditation-vs-certification/

# İSVEÇDƏ TURİZMİN İNKİŞAFINDA TARİXİ TURİZMİN ROLU

***Azərbaycan Dillər Universiteti***
***Şahhüseynov Amal Mahmud oğlu***
***Elmi rəhbər: dos.G.R.Ağakişiyeva***

***Xülasə***

Turizm dünya ölkələrinin müasir iqtisadiyyatın inkişafında əhəmiyyətli yer tutur. Əvvəllər bu sahənin inkişafına önəm verilməsədə, hazırda ən əlverişli və perspektivli gəlir sahəsi olaraq xüsusi diqqət ayrılır. Skandinaviya ölkəsi olan İsveçdə də turizm müxtəlif sahələri (ekoturizm, tarixi turizm, dağ-xizək turizmi, təhsil turizmi və s.) inkişafı etdirilmiş, hazırda da bu sahədə yeni infrastruktur layihələr həyata keçirilir. Turizmin inkişafına görə dünyü 91-ci, əldə olunan gəlir 1696 min USD dolları təşkil edir.
***Açar sözlər:*** *turizm, tarixi abidələr, turizm sənayesi, təbii şərait*

***Summary***

Tourism occupies an important place in the development of the modern economy of the countries of the world. Although previously no importance was given to the development of this field, now it is given special attention as the most favorable and promising income field. In Sweden, which is a Scandinavian country, various fields of tourism (ecotourism, historical tourism, mountain-ski tourism, educational tourism, etc.) have been developed, and new infrastructure projects are being implemented in this field. It ranks 91st in the world in terms of tourism development, and the income is 1696 thousand USD.
***Keywords:*** *tourism, historical monuments, tourism industry, natural conditions*

İsveç əlverişli təbiəti şəraitə malik olan Skandinaviya yarımadasının ən böyük ölkəsidir. Möhtəşəm qalalar, geniş çəmənlikləri, rəngarəng meşələri zəngin olan sehrli Laplandiya diyarı İsveç Baltik dənizindən Arktika Dairəsinə qədər uzanır. Ölkənin 16%-nin qütb dairəsindən şimalda yerləşməsi burada heç vaxt batmayan valehedici günəş parıltısını görməyə imkan verir. Ölkənin əksər hissəsi mülayim qurşaqda yerləşdiyindən onun cənub hissəsində hava daha isti olur, yağıntı isə nisbətən az olur. Bütün bunlar ən yaxşı görməli yerləri kəşf etmək üçün ideal şərait yaradır *(Məmmədov C.A., 2001, 163).*

İsveçdə Turizm Sənayesinin inkişafı 1991-ci ildən daha da irəliməyə başladı. Turistlərin 80 faizi Avropadan gələnlər təşkil edirdi. İsveçlilər özləri də Avropa ölkələrinə səyahət etməyə üstünlük verirdilər. Son beş ildə beynəlxalq ziyarətçilərin sayı iki dəfə artdı və İsveç turizm sənayesindən gəlir əldə etməyə başladı. 2009-cu ildə xarici turistlərin dörd faizi azalmışdır.

İsveçdə turizm ölkə iqtisadiyyatının nisbətən kiçik bir hissəsini təşkil edir (2011-ci ildə ölkənin ÜDM-nin 9,8%-i, 264 milyard SEK, bunun 98,8 milyardı İsveçdə xarici turist xərcləri olub). Orta İsveç ailəsinin gəlirinin 7,1%-i daxili turizmə sərf olunur. İsveç turizmdən 252 milyard SEK-dən çox gəlir əldə etdi. 2023-cü ildə turizm sənayesini inkişaf etdirmək üçün gözlənilən dövriyyənin 500 SEK milyard olacağı təxmin edilir. İsveç turizm sektorunda yaxşı potensial artıma malikdir, son vaxtlar turizm sektorlarında ÜDM-in cəmi üç faizini təşkil edir.

İsveçdə 1995-ci ildə turizmdən əldə olunan gəlirlər 4,39 milyard ABŞ dolları və ya ümumi milli məhsulun təxminən 1,6 faizini təşkil etmişdir. Bu o dövrdə təxminən 2,31 milyon turistə və adambaşına təxminən 1,900 ABŞ dollarına uyğun gəlirdi *(Tourism Sweden, 2016, 73).* 23 il ərzində ölkənin turizmdən asılılığı nəzərəçarpacaq dərəcədə artıb. Covid-19 pandemiyasının başlamasından əvvəl satışlar 14,93 milyard dollar təşkil edib ki, bu da ümumi milli məhsulun 2,7 faizini təşkil edir. Beləliklə, hər bir ziyarətçi İsveçdəki tətilinə orta hesabla 2006 dollar xərcləyib (Qrafik 1).




Qrafik 1. 1995-2020-ci illərdə İsveçdə turizm sektorunun inkişafı

Covid-19 pandemiyası dövründə İsveçdə turizmdən gələn gəlir bütün dünyada olduğu kimi burada da aşağı düşdü. Bütün dünyada milli və beynəlxalq səyahətlər məhdudlaşdırılması və bəzi ölkələr hətta xarici dünyadan tamamilə bağlanması bu sektorun iflasına gətirib çıxarmışdır. Bəzi ölkələrdə xeyli sayda azalmışdır ki, bu İsveçdə bundan kənarda qala bilməmişdir *(Qrafik 2)*.




Qrafik 2. İsveçin 1995-2018-ci illərdə turizm sektorunundan əldə olunan gəlirlər (ABŞ dolları ilə)

İsveçdə turizm oktyabrdan maya qədərdir. Qar yağışları burada xizək turizmin inkişafına şərait yaratmışdır və bu kurortlar populyarlığı ilə seçilir. 2009-10-cu illərdə dağ-xizək mövsümündə ölkə , rekorda imza atdı. Böyük xizək kurortlarına daha çox birbaşa uçuşlar və çarter reysləri açılmışdır ki, xarici turistlər birbaşa həmin əraziyə gəlib istirahət edə bilirlər.

İsveçə əsasən qonşu ölkələrdən - Danimarka, Norveç və Finlandiyadan turistlər gəlir, digər ölkələrdən isə Almaniya və Böyük Britaniya buraya çoxlu turist axını vardır. Alman turistlərinin ən çox diqqətini cəlb edən İsveçin cənubundan şimalına gedərkən tarixi, təbii və mədəni görməli yerləri gəzməkdir *(Стадник А.Г., 2006, 249)*.

İsveçin həm təbiəti, həm də tarixi abidələri turistlərin buraya gəlməsinə səbəb olmuşdur. Ölkədə tarixi abidələrinin çox olmasının əsas səbəbi qədim tarixə malik olmasıdır. Stokholm haqqında ilk qeydlər 1252-ci ilə təsadüf edir. 13-cü əsrdən etibarən şəhər İsveç krallarının daimi iqamətgahı olmuşdur. 1523-cü ildə Norveç, Danimarka, İsveç və Finlandiyanı birləşdirən Kalmar İttifaqının dağılmasından sonra Stokholm nəhayət İsveç dövlətinin paytaxtı oldu. Əvvəllər İsveçin dini və siyasi mərkəzi 1245-ci ildə yanmış Uppsala (Köhnə Uppsala) şəhəri idi. Stokholm Mälaren gölünün sahilində yerləşir. Onun əsas cazibəsi 1754-cü ildə tikilmiş və barokko dövrünün möhtəşəm əsəri olan kral sarayıdır. İsveçdə mövcud olan əsas tarixi abidələr aşağıdakılardır:

**Vadsten qalası -** 1545-ci ildə tikilməyə başlanılıb. Bütün turistlər bilmir ki, Vadsten qəsri əvvəlcə 4 dairəvi qüllə, daşdan tikilmiş 3 yaşayış binası və bir neçə köməkçi tikiliyə malik idi. Müəyyən bir məqamda istehkamlara ehtiyac aradan qalxdı, ona görə də onlar gizlədilib. Binanın

tarixi abidəyə çevrilməsi barədə qərar hələ 20-ci əsrdə verilib və bunun üçün genişmiqyaslı bərpa işləri aparılıb.

**Basa muzeyi -** İsveçin görməli yerləri müxtəlifliyi və unikallığı ilə təəccübləndirməyə bilməz. Bunun bariz sübutu 17-ci əsrdən günümüzə qədər gəlib çatmış gəmi formasındakı muzeydir. İndiyə qədər o, İsveç donanmasının fəxri sayılır. Ehtimal ki, o, kifayət qədər düzgün hesablamalar aparılmadığından, zinət əşyalarının və qızılın çox olmasından batdı. Gəmi 1628-ci ildə baş verən ilk səyahəti zamanı Stokholm limanının dibində dayandı.

**Qədim şəhər Gamla Stan -** 80-ci illərə qədər Körpülərarası şəhər adlanan bu qədim şəhər Stokholmun tarixi mərkəzində yerləşir. XIX əsrdə əsası qoyulmuş şəhəri orta əsr yollarından, daş döşənmiş küçələrindən, Şimali Alman Qotika üslubunda olan evlərindən təxmin etmək asandır. Tam mərkəzdə Stortorget kimi tanınan mənzərəli bir meydan var. İsveçdə daha çox görməli yerlər məhz Qamla Stanın Köhnə Şəhərində cəmlənmişdir.

**Gripsholm qalası -** Ölkənin mərkəzi hissəsinin cənubunda yerləşən məşhur Malaren gölünün sahilində yerləşir. Qala Bo Jonsson Grip tərəfindən tərtib edilmiş layihəyə əsasən inşa edilmişdir. İmarətlər müsadirə olunana qədər onun ailəsinə məxsus olub. Bu gün original tikilidən yalnız divarın fasadı qalıb. İçərisində rəsm muzeyi, maraqlı sənət əsərləri var. Görkəmli portretlər kolleksiyası buranı bütün dünyada məşhur edib.

**Uppsala Katedrali -** Skandinaviyadakı ən böyük qotik binalarla zəngin olan şəhəridir. Bu, yalnız müntəzəm olaraq keçirilən Lüteran xidmətləri ilə işləyən kilsə deyil, həm də orijinal bir muzeydir. Onun divarlarında kilsə geyimlərinin bütün kolleksiyaları, eləcə də yaradılması keçmiş əsrlərə aid olan daş heykəllər nümayiş etdirilir. Məbədin daxili hissəsi neo-qotik üslubda bəzədilib.

**Vic qalası -** Mälaren gölünün sahilində, eyniadlı qəsəbədə yerləşir. Baxanda insan özünü bir nağılda tapdığını hiss edir. Bu, damdakı qeyri-adi qüllələr, qüllələrin görünüşü ilə təmin edilir. 15-ci əsrdə tikilməsinə baxmayaraq, memarlığı daha çox 13-cü əsri xatırladır, belə binalar Normandiyada tapılıb. Qalanın orijinallığını su ilə əhatə edən xəndək sayəsində qorumaq mümkün olub. Diqqətlə baxsanız, divarlarda keçmişin izlərini görə bilərsiniz.

**Kalmar qalası -** Bu unikal memarlıq abidəsinin tarixi 1160-cı ilə dayanır. Onun tikintisi dairəvi gözətçi qülləsi ilə başlamış və zaman keçdikcə onun ətrafında qala yaranmışdır. Bir vaxtlar Kalmar Birliyi orada bağlandı. Bina vaxtilə mühüm istehkam rolunu oynayıb, çünki o, İsveç və Danimarka sərhədinə mümkün qədər yaxındır. Burada müxtəlif ölkələrin nümayəndələri arasında danışıqlar aparılıb.

**Stokholmdakı Kral Sarayı -** Şəhərin mərkəzi hissəsində yerləşir, 7 mərtəbəli binaya oxşayır, qapısının yanında həmişə fəxri qarovul dəstəsi var. Saray İsveç hökmdarlarının iqamətgahıdır. Memarların düşündüyü kimi, o, şəhərin planını tam olaraq təkrarlamalı idi və bu effekt əldə edildi. Binanın 4 fasadı var, hər birinin öz təyinatı var. Bir hissədə padşah, digərində kraliça və qış bağı, üçüncü hissədə hökumət üzvlərinin kabinetləri, dördüncü hissədə kilsə və taxt otağı gizlənir.

**Tanumda qaya relyefləri -** Bu maraqlı sahəni nəzərdən keçirərkən nəzərə alın ki, söhbət Tunc dövründə yaradılmış 3 mindən çox rəsmdən gedir. Onlar Tanum kəndi yaxınlığında tapılıb. Mübaliğəsiz deyə bilərik ki, bu, bədii qədim şedevrlərin heyrətamiz xəzinəsidir. 1972-ci ildə yerli qayaları yerlə-yeksan etmək istəyirdilər, lakin rəsmlər aşkar edildikdən sonra onları tərk etmək qərarına gəldilər. İndi, təəssüf ki, onlar tamamilə yox olmaq riski altındadırlar, bu da təsvirlərin oksidləşməsinə səbəb olan ətraf mühitin təsirləri ilə bağlıdır.

**Carl Linnaeus bağı -** Bu, dünyanın ən qədimlərindən biridir və buna görə də İsveçdə görə biləcəyiniz şeylərin seçiminə daxildir. Bağ 1655-ci ildə baş verən tibb professoru Olof Rudbeck tərəfindən planlaşdırılıb və yaradılıb. Təəssüf ki, onun ölümündən sonra varis idarəetməni itirdi və bağ bərbad vəziyyətə düşdü. Bitkilərin sayını qismən bərpa etmək mümkün olmuşdur, bu gün 1300-dən çox bitki növ vardır. Hamısı Carl Linnaeus tərəfindən icad edilən təsnifata görə böyüyür.

İsveçdə davamlı turizm gələcək nəslin zərurətinə xələl gətirmədən indiki şəraitdə ölkə üçün əsas dəyər və ya ehtiyaclardan biridir. Ölkədə turizmin inkişaf etdirilməsi üçün əlverişli nəqliyyat şəbəkəsi qurulmuşdur. Nəqliyyat turizmdə əsas amildir çünki, turist daha sürətli, daha keyfiyyətli və ucuz nəqliyyata üstünlük verir. İsveçdə yaxşı əlaqəli qatar və yollar sistemi var. Avropanın bir neçə hissəsinə qatarları birləşdirərək, onu asanlıqla əldə edə bilərsiniz.

İsveç 2020-ci ildə cəmi iki milyon turist qeydə alıb və mütləq göstəricilərə görə dünyada 67-ci yerdədir. Turistlərin sayını İsveçin əhalisinə nisbətdə qoysaq, nəticə daha müqayisəli mənzərədir: hər sakinə 0,19 turistlə İsveç dünyada 92-ci yerdədir. Şimali Avropada isə 8-ci yerdədir (Tourism Sweden? 2020).

İsveç təkcə turizm sektorunda təxminən 14,93 milyard ABŞ dolları qazanıb. Bu, onun ümumi daxili məhsulunun 2,4 faizinə və Şimali Avropada bütün beynəlxalq turizm daxilolmalarının təxminən 14 faizinə uyğundur.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Məmmədov C.A., Gərayzadə T.P. Qərbi Avropa Dövlətləri. Bakı. 2001
2. Стадник А.Г. Новый универсальный справочник стран и народов мира/сост. Ростов н/Д: Феликс, 2006. 380 с
3. Tourism in Sweden. Development and importance of tourism for Sweden (worlddata.info), 2020
4. Tourism in Sweden 2015. Swedish agency for economic and regional growth. Stockholm, 2016 Tourism in Sweden 2015 (tillvaxtverket.se)

# ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ КАК ОСНОВА УСТОЙЧИВОГО РАЗВИТИЯ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ТУРИСТИЧЕСКОЙ СФЕРЕ

***Азербайджанского Государственного Экономического Университета***
***Keберлинский Имран Самир оглы***

История формирования и развития человеческого общества показывает, что фактор человеческого капитала всегда был и остаётся весьма необходимым и важным атрибутом для успешного и прогрессивного развития общества. Устойчивое и перспективное развитие любой страны в социально-экономическом отношении во многом зависит от процессов формирования человеческого капитала, уровня его накопления и эффективного использования для реализации этого капитала в общественном производстве. Уровень развития страны и общества в современную эпоху определяется, прежде всего, развитием человеческого капитала. Факторами, характеризующими успешного развития страны, являются: эффективное использование природных и человеческих ресурсов, применение инновационных технологий, творческий и динамический подход к постоянно меняющимся внешнеполитическим и экономическим мировым условиям.

Под термином «человеческий капитал» понимается совокупность знаний, умений, навыков, используемых для удовлетворения потребностей человека и общества *(Балашов, 2017)*. Сам термин «человеческий капитал» впервые был введён только в 1979 году американским экономистом, лауреатом Нобелевской премии, Т.Шульцом. Теория же о человеческом капитале была разработана Т.Шульцом совместно с другим Нобелевским лауреатом Г. Беккером.

Человеческий капитал на сегодня для любой страны считается ведущим фактором стабильного социально-экономического развития. Взяв за основу данный тезис, Президент Азербайджана Ильхам Алиев, представил концепцию трансформации «черного золота» в «человеческий капитал», который открыл в нашей стране широкую дорогу к использованию результатов экономических достижений для развития образования, здравоохранения, спорта. Распоряжением Президента Ильхама Алиева формирование инклюзивного общества было объявлено приоритетом нашей страны до 2030 года.

Социально-экономическая политика Азербайджана, основанная на реализации национальных приоритетов, служит катализатором для динамического повышения качества человеческого капитала. Это качество, в свою очередь, во многом определяется управленческими государственными структурами и одновременно зависит от творческого использования человеческого капитала. С ростом же возможностей образовательных, интеллектуальных, информационных структур каждый человек, увеличивая активность и показатели роста экономики, несомненно, будет получать пользу. Человеческий капитал, представляя собой определённый запас знаний, навыков и способностей граждан страны в той или иной сфере общественного производства, в свою очередь, будет содействовать устойчивому росту производительности труда и эффективности производства.

Изучение отечественной литературы в данном направлении показывает, что фундаментальным трудом по исследованию фактора устойчивого развития в Азербайджане, основанного на человеческом капитале, является диссертационная работа Мехдиева У.Р., выполненная под научным руководством академика Алекперова У.К. На основании исследований автор работы приходит к выводу о том, что «в Азербайджанской Республике, благодаря эффективной государственной политике в области управления материальными и человеческими ресурсами … создаются благоприятные условия для развития человеческого капитала. Развитие человеческого капитала считается одним из ключей к развитию интеллектуального, творчески и духовно высокого индивидуального общества» *(Мехдиев, 2022: 28)*.

В процессе формирования человеческого капитала проявляется двусторонний эффект, который в будущем будет обеспечивать получение более высоких доходов. А эти доходы, в

свою очередь, заинтересовывая человека, будут стимулировать его делать вложения для увеличения и накопления новых запасов навыков, знаний и мотиваций с целью дальнейшего их эффективного применения. Мотивация данного процесса, являясь важным элементом человеческого капитала, будет содействовать воспроизводству человеческого капитала для дальнейшего формирования, накопления, использования, восполнения и его инвестирования, способствуя полному завершению цикла этого процесса. В данном процессе человеку следует учитывать фактор того, что не все его инвестиции могут носить характер вложений в человеческий капитал, а лишь только те, которые целесообразны обществу и экономически выгодны стране. При этом независимо от источников формирования человеческого капитала, которые могут быть государственными, семейными, частными и другими, процесс использования и получения прямых доходов контролирует сам человек.

Рост и развитие экономики высокого уровня в странах зависит от целого ряда взаимодействующих факторов. В современное время одним из важных факторов устойчивого и перспективного развития экономики страны является туризм. Основная суть туризма заключается в том, что люди из различных стран стремятся увидеть мир своими глазами и самим воочию постичь уникальность природы, особенности национальной культуры, традиций в других странах.

Природа щедро одарила Азербайджан уникальными географическими и климатическими условиями. Из известных 11 климатических зон в Азербайджане имеется 9 зон. Сказочная природа Азербайджана и богатейшая история азербайджанского народа с его уникальной культурой и традициями привлекают многочисленных туристов из многих стран мира. Важно отметить, что после приобретения независимости в Азербайджане произошли колоссальные положительные изменения, коснувшиеся без исключения всех сфер жизни, в том числе и сферы туризма. Президент нашей страны Ильхам Алиев поставил цель превратить Азербайджан в комфортный для отдыха туристов уголок Земного шара. Для претворения в жизнь этой цели в Азербайджане создаются благоприятные условия для дальнейшего развития и совершенствования данного направления.

В международной практике туризм существенно влияет на занятость, уровень доходов и производственный потенциал, а также на другие сектора экономки страны. Это одна из важнейших сфер деятельности современной экономики со значительной социальной направленностью, нацеленной на удовлетворение потребностей людей и повышение качества жизни населения. Важно отметить, что успех в туристском деле, как и в других сферах бизнеса, финансовая устойчивость и процветание зависят от профессионализма сотрудников и творческого подхода к работе. Кадры, подготовленные на высоком уровне знаний и представляющие человеческий капитал, будут достигать намеченной цели, решать поставленные задачи и преуспевать в бизнесе. В этом плане человеческий капитал и его рост можно рассматривать как результат серьезной, кропотливой и постоянной работы по организации коллектива, обладающего профессиональными знаниями и моральными качествами.

В условиях мировой экономической конкуренции туризм может и должен стать значимым фактором всего социально-экономического потенциала страны путем создания рабочих мест, прежде всего, для местного населения, обеспечения притока финансов, стимулирования производства товаров и продуктов, строительства качественной инфраструктуры и улучшения коммуникаций. При этом особое значение будет иметь первичная оценка и мониторинг качества человеческого капитала, а также эффективность инвестиций в такой капитал.

В области туризма в нашей стране за годы независимости сделано очень многое. Построены великолепные отели, в том числе и мировых брендов, улучшена дорожная инфраструктура до уровня мировых стандартов, значительно и качественно поднят уровень оказания услуг в сфере туризма. Город Баку стал узнаваемым не только как нефтяная столица, но и как центр проведения масштабных мировых форумов и мероприятий. Следует особо отметить, что в Азербайджане ведется активная работа по благоустройству буквально

всех регионов и уголков страны. В проведении этих преобразований участвуют граждане страны на основе использования человеческого капитала, внедряемого во многие области общественного производства и тем самым стимулируя дальнейшее устойчивое развитие экономики нашей страны.

Отмечая большой туристический потенциал Азербайджана, необходимо подчеркнуть, что действительно сделано многое, но и ещё больше предстоит сделать. Но надо отметить и то, что туристический потенциал страны используется не совсем в полной мере. Примером тому может служить следующий факт: согласно статистическим данным за 2021 год Государственного Агентства по Туризму Азербайджана, только 3 процента туристов предпочитали оставаться в отелях или гостевых домах (см.Рис.1).




Рис.1

Конечно, это было связано также и с пандемией коронавируса, охватившей практически все страны мира. С ослаблением пандемии поток туристов, посетивших Азербайджан за январь-август 2022 года, по сравнению с прошлым годом, увеличился в 2,3 раза, а доходы гостиниц увеличились в 1,7раза, что подтверждают данные Госкомстата.

С целью реализации высокого потенциала Азербайджана по туризму, надо искать и находить нестандартные подходы для привлечения большого количества туристов, которые с удовольствием будут выбирать нашу страну в качестве туристических поездок. Надо создавать для них соответствующие комфортные и гостеприимные условия для проживания, питания, путешествия по стране. В этой работе нужны творческие и изобретательные специалисты – носители идеи человеческого капитала и новых подходов и решений для разработки сугубо национальных азербайджанских брендов.

Здесь необходимо подчеркнуть, что непочатый край для такой деятельности будет создан на освобождённых землях от армянской оккупации в Карабахской зоне. После второй Карабахской войны важным шагом в восстановлении освобожденных территорий стал экономический и туристический потенциал. Сразу после освобождения территорий правительство Азербайджана приступило к работам по освоению, реконструкции и благоустройству районов в Карабахском регионе. Карабахский регион Азербайджана знаменит своей потрясающе красивой природой, древней историей и гостеприимством его жителей. Сейчас в регионе активно ведутся работы по благоустройству всех территорий и восстановлению разрушенных оккупантами памятников. По завершению этих работ туристы смогут приезжать в Карабах и знакомиться с объектами уникального исторического и культурного наследия Азербайджана и наверняка количество туристов значительно возрастёт.

Одним из приоритетных направлений туристической политики должен стать социальный туризм, который призван удовлетворять потребности в отдыхе наименее обеспеченной части населения, в частности пенсионеров, инвалидов, участников Карабахских войн. В качестве других вариантов можно также рассматривать агротуризм или агроэкотуризм, которые считаются туризмом с применением технологий, оказывающих минимальное воздействие на окружающую среду. «В то же время, туризм может носить деловой, этнический, транзитный, религиозный, оздоровительный, экологический, производственно-ознакомительный, спортивный, лингвистический, культурно-этнографический, шоппинговый, учебно-познавательный и прочий характер…Учитывая

отмеченное, как считает маркетинговая наука, развитие туризма также должно быть ориентировано на удовлетворение покупательского спроса и формирование, так называемого, клиентского капитала» *(Гурбанов, Гулиев, Хосровлу, 2020:146).*

В заключение следует отметить, что туристическую сферу деятельности в стране может сделать конкурентоспособной и успешной именно человеческий капитал. Его дальнейшее развитие должно рассматриваться важным критерием развития интеллектуального, творчески способного и духовно настроенного общества. Формирование и развитие человеческого капитала становится основным фактором для эффективного и устойчивого развития нашей страны в достижении стратегических задач.

## Список литературы

1. Распоряжение Президента Азербайджанской Республики об утверждении «Национальных приоритетов социально-экономического развития: Азербайджан 2030» от 02.02.2021 года № 2469
2. Балашов Ю. К. Человеческий капитал // Большая российская энциклопедия. Электронная версия (2017); https://bigenc.ru/economics/text/4681450 Дата обращения: 28.10.2022
3. Гурбанов Н.Г., Гулиев Э.Н., Хосровлу Ф.И. Некоторые маркетинговые стратегии развития сфер туризма, отдыха и развлечений в Азербайджане // Актуальные вопросы современной науки и практики – 2020- № 10. – С. 139-155
4. Мехдиев У.Р. Человеческий капитал как фактор устойчивого развития Азербайджанской республики – Автореферат диссертации доктора философии, Баку. – 2022. – 31 с.

# SOSİAL İŞ

## ABŞ-DƏ UŞAQLARIN SOSİAL MÜDAFİƏSİ TƏCRÜBƏSİ

***Azərbaycan Dillər Universiteti***
***Behbudova Həmidə Qabil qızı***
***Elmi rəhbər: S.Ə.Qurbanova***

***Xülasə***

ABŞ-də uşaqlı ailələrin və əsasən də uşaqların sosial müdafiəsinə böyük əhəmiyyət verilir. Amerikada çoxuşaqlı ailələr və valideyn himayəsindən məhrum olan uşaqlara dair əhəmiyyətli sosial yardım proqramları mövcuddur. Təqdim olunan bu məqalə ABŞ-nin sosial siyasətinin aktual məsələlərindən biri - uşaqların rifahına həsr olunur və uşaqlarla sosial işin təşkili geniş tədqiq olunur.
***Açar sözlər:*** *ABŞ, sosial müdafiə, uşaqlar, ailə, rifah.*

***Summary***

In the United States, great importance is attached to the social protection of families with children, and especially children. In America, there are significant social assistance programs for large families and children without parental care. This presented article is devoted to one of the urgent issues of the social policy of the United States - the welfare of children, and the organization of social work with children is widely studied.
***Key words:*** *USA, social protection, children, family, welfare.*

Amerika Birləşmiş Ştatlarının qanunlarında "uşaq" termini 18 yaşına çatmamış şəxs kimi müəyyən edilir. Uşaqlar ABŞ Konstitusiyasında, federal və ştat qanunlarında təsbit olunmuş ABŞ vətəndaşları kimi əsas hüquqa malikdirlər. Hər bir doğulan uşaq təhlükəsiz ətraf mühit, yaxşı qidalanma, sağlamlıq və təhsil hüququna malikdir. Valideynlər də övladlarının əsas ehtiyaclarını ödəməlidirlər.

ABŞ-də ailələrə yardım proqramları mövcuddur. Bu proqram üzrə yoxsul və uşaqlı ailələrə yaşayış yeri olmadıqda, bahalı tibbi yardım vacib olduqda və digər vəziyyətlər ilə əlaqəli xərclərin pul formasında ödənilməsi üçün yardım təklif olunur. Lakin bu yardım da demək olar ki, ildə 30 gün ilə məhdudlaşır. Bütün Amerika mütəxəssislərinin fikrincə, ölkədə göstərilən sosial dəstək ailəni ehtiyacdan daimi olaraq çıxarmağa kömək etmir *(İsmayılova, 2015:115).*

ABŞ-də Federal hökumət tərəfindən ümumi uşaqlara dair sosial siyasət təxminən iyirmi il əvvəl övladlığa qəbul yardımı və uşaq rifahına keçid 1980-ci il aktı ilə həyata keçirilməyə başladı. Birləşmiş Ştatlarda uşaq sosial xidməti sistemi, xidmət davamlılığından sui-istifadə adı altında olan, uşaqların mövcud baxımsızlıq və laqeydlik adı altında yaşamalarına bir növ kömək olmaq üçün yaradılmışdır. Buna görə də ABŞ-də bunun əsas məqsədi valideynləri və ya digər himayədarları tərəfindən pis rəftar edən uşaqları qorumaqdır. Sistem uşaqlar üçün daimiliyi təşviq etmək məqsədi daşıyır. Davamlılığa nail olmaq mümkün olmadıqda, Uşaq Rifah Sistemi uşaqları başqaları ilə yerləşdirməyi hədəfləyir, məsələn uzunmüddətli təhlükəsizliyi təmin edə bilən, daimi inkişafı və emosional ehtiyacları qarşılayan ailələrə üstünlük verilir *(International Journal of Social Welfare,1999: 299).*

ABŞ-da əhalinin sosial müdafiəsi qeyri-mərkəzləşdirilmişdir, yəni ölkədə müxtəlif səviyyələrdə müxtəlif sosial proqramlar mövcuddur: federal, yerli və s. Uşaqlarla sosial işin təşkilini daha ətraflı nəzərdən keçirsək görərik ki, ölkədə (aztəminatlı ailələr üçün ödənişsiz) uşaq rifahı müəssisələri mövcuddur: valideynlər üçün xüsusi peşə hazırlığı qruplarının təşkili, məşğulluğun təmin edilməsi, gündüz və axşam işləyən valideynlərin uşağa baxmasının təmin edilməsi, şəhər səhiyyə mərkəzlərində tənha analar üçün xidmətlərin yaradılması, zorakılığa məruz qalan uşaqların müdafiəsi üzrə xidmətlərin yaradılması və dəstəklənməsi, uşaq evlərinin yaradılması və yoxlanılması, himayədar ailələrlə iş, uşağın yeni ailəyə uyğunlaşmasına nəzarət, uşaqların təhsil almasına kömək etmək üçün sosial xidmətlərin inkişafı, ev təsərrüfatında valideynlərə köməklik etmək və s.

Sosial xidmət əqli qüsurlu uşaqlara qayğı göstərir, psixiatriya xəstəxanalarında və internet məktəblərində, ixtisaslaşdırılmış xəstəxanalarda və dispanserlərdə ambulator şəraitdə yardım göstərir.

ABŞ-də evsiz uşaqlar və evdən qaçan uşaqlar üçün sığınacaq və yataqxanalar var. Onlarla fərdi və qrup məsləhətləşmələri aparılır, ailəyə qayıtmağa cəhd edilir. Bununla yanaşı, yetkinlik yaşına çatmayan cinayətkarlar və risk altında olan yeniyetmələr üçün bir sıra sosial iş proqramları mövcuddur. Onlara bunları aid etmək olar:

1. Yetkinlik yaşına çatmayanları cəlb etmək üçün polis idman klublarının fəaliyyətini nəzərdə tutan əsas polis proqramları;

2. Yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmələrin əsasən reabilitasiyaya yönəldilmiş əsas proqramları;

3. İki qrupa bölünən məktəblərin əsas proqramları: normal məktəblər və çətin və məhkum olunmuş yeniyetmələrlə məşğul olan xüsusi məktəblər üçün proqramlar *(LawBooks.News).*

ABŞ-də islah müəssisələrinin iki növü var: qapalı həbs yerləri və qapalı təhsil müəssisələri (yeniyetmə şərti cəzaya məhkum edilsə də, ona mentor təyin edilirsə.) Azadlıqdan məhrumetmə yerlərində də ictimai iş aparılır.

1967-ci ildə gənclərə sosial xidmət büroları yaradılmışdır ki, onların əsas məqsədləri yetkinlik yaşına çatmayanların ehtiyaclarını ödəmək üçün xidmət təşkilatlarının işinə vasitəçilik etmək və nəzarət etməkdir. Ayrı-ayrı bürolar özləri belə xidmətləri təqdim edirlər (məsələn, Kaliforniyada).

Tək valideynli ailələrlə sosial iş aparmaq üçün "Tərəfdaşsız Valideynlər" təşkilatında birləşən özünə kömək qrupları, dəstək qrupları istifadə olunur. Təşkilat 210 mindən çox insanı birləşdirir, qadınların 65%-i boşanmış və cəmiyyətin orta təbəqəsinə aiddir *(LawBooks.News).*

ABŞ-da iki yaşlı uşaqların rəsmi uşaq baxımına getmə ehtimalı azdır. Bunu edərlərsə, valideynləri tam qiyməti - orta hesabla ayda 1100 dollar ödəyir və yer tapmaq üçün rəqabətə girirlər. Valideynləri evdə qalırlarsa və ya başqa bir tənzimləmə tapırlarsa, uşaq bağçasına qədər olduğu kimi, onlar da özləri tərəfindən maliyyələşdirilir *(nytimes.com, 2021).*

İnkişaf etmiş dünyada Birləşmiş Ştatlar kiçik uşaqlara qayğı göstərmək üçün aşağı səviyyədə maliyyə dəstəyi ilə fərqlənir - Demokratlar təhlükəsizlik şəbəkəsi xərcləri qanun layihəsi ilə dəyişməyə çalışırlar. ABŞ G.D.P-nin 0,2 faizini xərcləyir. 2 və daha aşağı uşaqlar üçün uşağa qulluq üzrə - bu, əksər ailələr üçün ildə təxminən 200 ABŞ dolları təşkil edir (qayğıya görə ödəniş edən valideynlər üçün ildə bir dəfə vergi krediti şəklində).

Minnesota Universitetində uşaq baxımı sahəsində təhsil alan iqtisadçı Elizabet Devis, "Biz bir cəmiyyət olaraq, dövlət maliyyəsi ilə, uşaqlara uşaq bağçasına çatandan daha az xərcləyirik" dedi. "Və hələ də uşaq inkişafı elmi ən gənc yaşlarda investisiyaların nə qədər vacib olduğunu göstərir və biz bu investisiyalardan ictimai fayda əldə edirik."*(nytimes.com, 2021).*

ABŞ Konqresi xərcləmə qanun layihəsinin təfərrüatlarını müzakirə edir və xərcləri azaltmaq üçün bir çox elementin kəsiləcəyi ehtimal olunur. Uşaq baxımı planının hazırkı layihəsi ən az qazanan ailələr üçün lisenziyalı uşaq baxım mərkəzlərində pulsuz iştirak edəcək və dövlətin orta gəlirini iki dəfə artıranlara ailə gəlirinin 7 faizindən çox olmayacaq. Bu, 3 və 4 yaşlı uşaqlar üçün universal dövlət məktəbəqədər təhsil müəssisəsini təmin edəcək. Və bu, uşaq baxıcılarının və məktəbəqədər təhsil müəssisələrinin müəllimlərinin maaşını ibtidai sinif müəllimlərinə bərabər tutulacaq. Hazırda 4 yaşlı məktəbəqədər müəllim üçün orta saatlıq əmək haqqı artırılacaq *(nytimes.com, 2021).*

Müasir dövrümüzdə ABŞ-də ailələrə sosial yardım göstərən bir çox müəssisələr və mərkəzlər mövcuddur. Ailələrə maliyyə yardımı göstərməklə yanaşı, ailələrə çətin şəraitdə mənəvi yardım, yenidən iş tapmaqda köməklik göstərilir. Ailələrə yardım etməklə, bir sıra uşaq problemləri də öz həllini tapır. Bunlarla yanaşı, ABŞ-də könüllülər ailələrə pulsuz xidmət və yardımda göstərirlər.

Beləliklə, ailə sağlam cəmiyyət və dövlətin inkişafı üçün vacib amildir. Bunun əsas götürərək, ABŞ-də uşaqlı ailələrin və əsasən də uşaqların sosial müdafiəsinə böyük əhəmiyyət verilir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. İsmayılova Sevinc. ABŞ-da ailələrə sosial iş. Beynəlxalq Münasibətlərin Aktual Problemləri Bakı, 2015, 113-120 səh
2. Child Welfare in the United States: policy, practice and innovations in the service delivery. Internatinal Journal of Social Welfare, 1999 // https://onlinelibrary.wiley.com/doi/pdf/10.1111/1468-2397.00096
3. How The Child Welfare System Works, 2020 // https://www.childwelfare.gov/pubs/factsheets/cpswork/#:~:text=Child%20welfare%20systems%20typically%20receive,at%20home%3B%20and%20arrange%20for
4. Miller Cain Claire. How Other Nations Pay for Child Care. The US Is an Outlier, october 6, 2021 // https://www.nytimes.com/2021/10/06/upshot/child-care-biden.html
5. Опыт Социальной Защиты Детей в США // https://lawbooks.news/pedagogika_920_922/opyit-sotsialnoy-zaschityi-detey-42048.html

# AİLƏLƏRLƏ SOSİAL İŞİN TƏŞKİLİ FORMALARI

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Mirişova Aytac Xeyrulla qızı***
***Elmi rəhbər: f.ü.f.d. M.S.Cəfərova***

***Xülasə***

Ailələrlə sosial iş ailələrin dəyişmə və ya müdaxilə üçün güclü tərəflərini müəyyənləşdirir və ailələrin səmərəli fəaliyyət göstərməsinə dəstək verir. Bundan əlavə, gündəlik həyatını təsirli və qənaətbəxş şəkildə davam etdirmək üçün ailə funksionallığında konkret mücərrəd dəyişikliklər edir. Sosial işin əsas hədəfi çox vaxt ailədir. Ailə, üzvlərinin bir-biri ilə qarşılıqlı əlaqədə olan müstəqil bir sistem olduğundan ailə üzvlərindən birinin dəyişməsi digər ailə üzvlərinə də təsir göstərir. Sosial işdə müdaxilə, ailə ilə sosial işdəki planlı dəyişiklik addımlarına əsasən müəyyənləşdirilir.
***Açar sözlər:*** *ailə, ailə günü, müasir ailə, mərhələ, iş prosesi.*

***Summary***

Social work with families identifies strengths of families for change or intervention and supports families to function effectively. In addition, it makes concrete abstract changes in family functionality to carry on daily life effectively and satisfactorily. The main target of social work is often the family. Since the family is an independent system whose members interact with each other, the change of one of the family members affects the other family members as well. Intervention in social work is determined based on planned change steps in family and social work.
***Keywords:*** *family, family day, modern family, stage, work process.*

## Giriş

Ailə ilə sosial iş çox aspektli xarekterə malikdir. Bu fəaliyyət ailənin və onun sosial mühitinin ehtiyaclarının ödənilməsinə yönəldilmişdir.

A.Q.Xarçevin verdiyi tərifə görə, ailə - cəmiyyətin ər-arvad birliyinə və qohumluq əlaqələrinə (ər, arvad, valideynlər, uşaqlar və digər qohumlar), ümumi təsərrüfatın birgə aparılmasına və qarşılıqlı əxlaqi məsuliyyətə əsaslanan kiçik sosial qrupdur. Ailə kiçik sosial qrup olaraq: öz üzvlərinin təbii (həyati) tələbatlarını təmin edir; bilavasitə əlaqələr üçün şərait yaradır; qarşılıqlı əlaqələrin şaquli xətt üzrə strukturlaşdırılmış sisteminə malik olmur; öz subyektlərini sosial təcrübədə toplanmış qohumluq, sevgi, bağlılıq və bir-biri üçün məsuliyyətlilik hisslərini sosiallaşdırır *(Həsənov R.M. "Sosial siyasət". Avropa nəşriyyatı. Bakı, 2016.).*

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü ildə hər il mayın 15-nin "Beynəlxalq Ailə Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Həmin tarixdən etibarən 15 may dünyada "Beynəlxalq Ailə Günü" kimi qeyd olunur. Ölkəmizdə də bu gün qeyd olunur. 1999-cu il dekabrın 28-də qəbul edilən Azərbaycan Respublikasının Ailə Məcəlləsi ailə münasibətlərinin tənzimlənməsini özündə əks etdirən əsas hüquqi sənəddir.

Ailə dəyişmələrə məruz qalır, nəinki sosial-siyasi şəraitin təsiri altında, həmçinin öz inkişafının daxili prosesləri hesabına dəyişir. Məhz buna görə də ailə sosial işin mühüm sahələrindən biridir və onun başlıca obyektlərindəndir. Müasir ailə inkişafın mürəkkəb-ənənəvi modeldən yeni modelə keçid mərhələsini yaşayır. Ailənin rolu köklü surətdə dəyişir: uşaqlı və ya uşaqsız ər-arvad cütlüyündən ibarət sadə ailələr 67% təşkil edir.

Ailələrlə sosial iş ailələrin dəyişmə və ya müdaxilə üçün güclü tərəflərini müəyyənləşdirir və ailələrin səmərəli fəaliyyət göstərməsinə dəstək verir. Bundan əlavə, gündəlik həyatını təsirli və qənaətbəxş şəkildə davam etdirmək üçün ailə funksionallığında konkret mücərrəd dəyişikliklər edir. Sosial işin əsas hədəfi çox vaxt ailədir. Ailə, üzvlərinin bir-biri ilə qarşılıqlı əlaqədə olan müstəqil bir sistem olduğundan ailə üzvlərindən birinin dəyişməsi digər ailə üzvlərinə də təsir göstərir. Sosial işdə müdaxilə, ailə ilə sosial işdəki planlı dəyişiklik addımlarına əsasən müəyyənləşdirilir *(Qəhrəmanov E.Ə., Əhmədov Y.O. "Sosial işin əsasları". Dərs vəsaiti. Bakı, 2004.).* Ailə ilə sosial işin prinsipləri bunlardır:

- uşaq haqqları və maraqlarının üstün tutulması, onun hərtərəfli inkişafı və insanın ləyaqətinə hörmət;

- o validenlərin hüquqlarına hörmət, sosial xidmətlər tərəfindən ailədəki vəziyyətin obyektiv və səriştəli qiymətləndirilməsi;
- o ailə ilə iş zamanı sosial işçilər tərəfindən uşaqlar üzərində zorakılıq riskinin olmadığı təqdirdə məxfiliyin gözlənilməsi;
- o hakimlik və nəzarətdən əsaslandırılmış şəkildə istifadə;
- o ailədə əlverişsiz amillərin nəzərə alınması, risk mövqeyindən və s. yanaşma.

Ailə və uşaqlar ilə işləyərkən sosial işçilər peşəkar sosial iş prosesindən istifadə edirlər. Sosial işçi ailə və ya uşaq ilə işləyərkən sayından asılı olmayaraq bütün sosial iş prosesindən keçir. Bu işin mərhələləri bunlardır:

1. Tanış olmaq və cəlb etmə.
2. Məlumatın toplanması və təhlili.
3. Planlaşdırma və müqavilənin bağlanması.
4. Müdaxilə və monitorinq.
5. Yekun qiymətləndirmə və işin bitməsi *(Əhmədov Y. "Sosial işin nəzəriyyəsi və təcrübəsi". Bakı, 2013, 281 səh.).*

Uşaq haqqında ətraflı məlumat toplamaq üçün sosial işçilər aşağıdakı sahələr haqqında məlumat toplamalıdırlar. Hətta ailədə yaşayan ailənin üzvü olmayanlar haqqında da ətraflı məlumat toplamaq çox əhəmiyyətlidir. Bu məlumatlar toplanmalıdır:

- o tam adı, əvvəlki adları da daxil olmaqla (məsələn, doğularkən verilən adı, ailə həyatı qurmamışdan öncəki adı\soyadı, ləqəbi);
- o doğulduğu yer və tarix;
- o ailə vəziyyəti;
- o ailədə olan insanlar: ata\ana, bacı\qardaş, nənə\baba, dostlar, qonaq və ya kirayə qalanlar;
- o ailənin bütün üzvləri ailədə daimi olaraq qalırlar yoxsa bəziləri qısa müddətli qalırlar?
- o ailənin yaşadığı evin tam ünvanı və mobil telefonları əgər varsa;
- o hal-hazırki ünvana köçməzdən əvvəl ailənin yaşadığı ünvan.

### İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Həsənov R.M. "Sosial siyasət". Avropa nəşriyyatı. Bakı, 2016.
2. Qəhrəmanov E.Ə., Əhmədov Y.O. "Sosial işin əsasları". Dərs vəsaiti. Bakı, 2004.
3. Əhmədov Y. "Sosial işin nəzəriyyəsi və təcrübəsi". Bakı, 2013, 281 səh.

## AHIL İNSANLARIN QARŞILAŞDIQLARI PROBLEMLƏR VƏ AHIL İNSANLARA GÖSTƏRİLƏN SOSİAL XİDMƏTLƏR

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Şabanova Aydan İzzət qızı***
***Elmi rəhbər: K.C.Abbasov***

***Xülasə***

Yaşlılıq fərddə baş verən dəyişiklikləri ifadə edir. İnsanın yaş dövrləri fərqlidir. İnsanlar yaş dövrlərinə görə, yaşlarına görə müxtəlif kateqoriyalara ayrılır. 65 yaş və 65 yaşdan yuxarı insanlar xronoloji olaraq yaşlı hesab olunur. 65-74 yaş cavan yaşlılıq, 75-84 yaş orta yaşlılıq, 85 və yuxarı yaşlar isə çox yaşlılıq adlanır. Yaşlandıqca bəzi problemlər ortaya çıxmağa başlayır. Bu problemlər qismində əsas diqqəti çəkən fiziki, sosial, psixoloji, iqtisadi problemlərdir. Pandemiya dövründə isə yaşlıların qarşılaşdıqları problemlər daha da artmışdır. Ailə üzvləri ilə qohumları ilə o qədər də görüşməyən yaşlı insanların ehtiyaclarını ödəmək üçün ictimai nəqliyyatdan istifadə, bazara, aptekə getmək kimi ən sadə gündəlik işlərin dəyişməli olduğu müşahidə olunmuşdur. Xüsusilə də tək başına yaşayan yaşlılar üçün pandemiya dövrü daha da problemli oldu. Yaşlıların problemlərinin həlli üçün göstərilən xidmətlər sosial xidmətlər adlanır. Sosial xidmət sahəsinin əsas redaktoru, aparıcısı sosial işçidir. Sosial işçilər sosial xidmət göstərərkən yaşlılarla daim ünsiyyətdə olurlar, onların problemlərinin həlli üçün üsullar axtarırlar.
***Açar sözlər:*** *Yaşlılar, sosial xidmət, sosial işçi, pandemiya dövrü, sosial xidmət müəssisələri.*

***Summary***

Aging refers to the changes that occur in an individual. Human ages are different. People are divided into different categories according to their age. People aged 65 and over are considered chronologically elderly. 65-74 years old is called young old age, 75-84 years old is called middle old age, and 85 and older is called very old age. As you get older, some problems start to appear. Among these problems, physical, social, psychological and economic problems are the main ones. During the pandemic, the problems faced by the elderly have increased even more. In order to meet the needs of elderly people who do not meet their family members and relatives as much, it was observed that the simplest daily activities such as using public transport, going to the market, pharmacy should change. Especially for the elderly who live alone, the pandemic period has become even more problematic. The services provided to solve the problems of the elderly are called social services. The main editor and presenter of the social service field is a social worker. When social workers provide social services, they constantly communicate with the elderly, looking for ways to solve their problems.
***Keywords:*** *Elderly, social service, social worker, pandemic period, social service institutions.*

### 1.Yaşlılıq

Həyatda itki və çöküş dövrü olan yaşlılıq fərddə baş verən dəyişiklikləri ifadə edir. Yaşlılıq dövründə anlama, yaradıcıllıq bacarıqları azalmağa başlayır. Yaşlılığın başlanğıcını fizioloji, psixoloji cəhətdən dəqiq müəyyən etmək çətindir. Yaşlanma prosesinə hər insan eyni reaksiya vermir. Bəzi yaşlı insanlar itkiləri qəbul etməkdə çətinlik çəkə bilərlər. Nəticə olaraq, yaşlılıq prosesində müxtəlif növ yaşlılar meydana çıxır. Bura xronoloji, bioloji, fizioloji, psixoloji, sosial-mədəni, iqtisadi və sosial növlər aiddir.

**Xronoloji yaşlanma :** Doğuşla başlayan və həyatın inkişafı ilə keçən zamana deyilir. 65 yaş və yuxarı olanlar xronoloji olaraq yaşlı hesab olunur. 65-74 yaş cavan yaşlılıq, 75-84 yaş orta yaşlılıq, 85 və yuxarı yaşlılıq isə çox yaşlılıq adlanır. Bu göstəricilər həyat səviyyəsindən də asılı olaraq dəyişir. Ona görə də bu təsnifat hər kəs üçün keçərli olmaya bilər.

**Bioloji yaşlanma:** İnkişaf prosesində orqanizmdə baş verən struktur və funksional dəyişikliklərdir.

**Fizioloji yaşlanma:** Ürək damar sistemində, böyrəklərdə, ciyərlərdə, beyində, sinirdə funksional çatışmazlıqların baş verməsidir.

**Psixoloji yaşlanma:** Fərdin inkişafı və təcrübəsinin artması nəticəsində davranış dəyişiklikləri, davranışa uyğunlaşma qabiliyyətində dəyişikliklər baş verir. Deməli, xatirələrlə yaşamaq, keçmişə həsrət qalmaq, keçmişdə ilişib qalmaq, keçmişdən qopa bilməmək də buna daxildir.

**Sosial-mədəni yaşlanma:** İnsanın sosial-rol statusunun və gözləntilərinin dəyişməsidir və cəmiyyətin yaşlılara baxışını ifadə edir.

**İqtisadi yaşlanma:** Pensiya dövrünün başlaması ilə gəlirlər azalır və adi sosial status tədricən yox olur.

**Sosial yaşlanma**:Doğum zamanı gözlənilən ömür uzunluğudur və əhalinin orta yaş ölçüsüdür *(Yerli 2017:11).*

**2.Yaşlıların Qarşılaşdıqları Problemlər**

Yaş dövrləri keçdikcə yaşlıların qarşılaşdıqları problemlər də meydana gəlir. . Bu problemlərə sosial, iqtisadi, psixoloji və fiziki problemlər aiddir.

**Sosial problemlər:** Ailə ilə bağlı oaln problemlər, qonşular ilə bağlı olan problemlər, digər yaxın ətrafı ilə bağlı problemlər və s

**Psixoloji problemlər:** Depressiya, darıxma, narahatlıq kimi özünü göstərən problemlər aiddir.

**İqtisadi problemlər:** İşləmə yaşında olmadığı ya da işləyə bilmədiyi üçün yaşanan pulsuzluq problemi, gəlirin olmaması, maddi gücə sahib ola bilməmək aiddir.

**Fiziki problemlər:** Yaş keçdikcə yaşlılarda fiziki problemlər də meydana çıxır. İnsanlar yaşlandıqca ən asan fərq oluna bilən dəyişiklik dəri üzərində baş verən dəyişikliklərdir. Yaş artdıqca dəridə qırışlar, sallanmalar əmələ gəlir. Dəridə qəhvəyi ləkələr və solğunluq müşahidə olunur. Yaşlanma ilə əzələlərdə azalma olur, fəqərələr arasındakı disklərdə incəlmə baş verir və oynaqlarda mayelər azalır. Buna görə də duruş və yerişdə dəyişikliklər meydana gəlir. Yaşlanma ilə birlikdə həzm sisteminin və metobolik fəaliyyətlərin yavaşlaması, diş sağlamlığının pisləşməsi, dişlərin itirilməsi baş verir. Yaşlanma ilə yaddaş zəifliyi yuxu tərzində dəyişiklik, yuxu görmənin azalması və oyanma müddətinin artması kimi dəyişikliklər müşahidə edilir. İmmun sisteminin qocalması yaşlılarda yoluxucu xəstəliklərin artmasına səbəb olur *(Zeren 1993:70).*

**3.COVİD-19 da Yaşlıların Problemləri**

Pandemiya dövründə də yaşlıların problemləri daha da artmışdır. Bu dövr ərzində yaşlı şəxslər qohumları ilə əvvəlki kimi tez-tez görüşə bilməmələri, üz-üzə ünsiyyət imkanlarının azalması və ya sosiallaşma yerlərindən məhdud istifadə və digər vəziyyətlər tənhalıq hissini ortaya çıxara və yaşadıqları narahatlıq səviyyəsini artıra bilər. Covid-19 prosesi qoruyucu, profilaktik zərurət olaraq sosial qarşılıqlı əlaqənin azaldılmasını tələb etdiyindən, xüsusilə tək yaşayan yaşlılar üçün əlavə problemlər yarada bilər. Bu prosesin ortaya qoyduğu yeni həyat tərzi xüsusilə bu yaş qrupundakı fərdlər üçün sahib olduqları xəstəliklər baxımından çətin ola bilər. Hər gün müəyyən sayda insanın ölməsi və bunlarında ən çox yaşlı fərdlər arasında olması yaşlı fərdlərdə özünü qoruma xaricində yaşamaq narahatlığını da özü ilə gətirdiyini söyləmək mümkündür. Covid-19 prosesində yaşlı fərdlərin problem və ehtiyaclarını anlamaq üçün fərdin bio-psixo-sosial rifahı, sosial-iqtisadi vəziyyəti, sosial dəstək sistemləri mövzusunda qiymətləndirmələr aparılır. Covid-19 prosesi zamanı fərdlərə təklif olunan xidmətlər qiymətləndirmə yolu ilə idarə olunmalıdır. Belə bir epidemiya prosesində, hər bir yaşlı fərdin, xüsusilə sağlamlıqla bağlı ümumi ehtiyacları var və fərdin bəzi ehtiyaclarını özünəməxsus şəraitdə qiymətləndirmək vacibdir *(Tekindal 2020:6).*

**4. Yaşlılara Sosial Xidmət**

Yaşlıların problemlərinin həllində göstərilən xidmətlər sosial xidmətlər adlanır. Sosial dedikdə, insanın fərd kimi yaşadığı mühitdir. Sosial xidmət sahəsinin işçisi sosial işçi adlanır. Sosial işçi sosial köməkçilərlə birlikdə sosial problemlərin əsas həlledicisidir. Sosial xidmətin məqsədi vətəndaşların həyat səviyyəsinin ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı oaln şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir. Yaşlılara sosial xidmət dedikdə, tənha, köməyə ehtiyacı olan yaşlılara göstərilən xidmətdir. Formaları isə evdə sosial xidmət, yarımstasionar sosial xidmət, stasionar sosial xidmət, sosial-məsləhət yardımı aiddir.

**Evdə sosial xidmət** əmək qabiliyyəti qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada göstərilir. Evdə sosial xidmətə dərman vəsaitlərini, zəruri ərzaq və əsas tələbat mallarını almağa köməklik göstərilməsi, tibbi və psixoloji

yardım almaqda köməklik göstərilməsi, hüquqi məsləhət alınmasında köməklik göstərilməsi, yaşayış şəraitinin sanitariya-gigiyena tələblərinə uyğunlaşdırılması aiddir.

**Yarımstasionar sosial xidmət:**Gündüz və gecə vaxtlarında sosial-məişət, tibbi, mədəni və başqa xidmətlər göstərilməsindən, asudə vaxtın səmərəli təşkil olunmasından, onların münasib əmək fəaliyyətinə cəlb olunmasından ibarətdir.

**Stasionar sosial xidmət:** Sosial xidmət göstərilən şəxslərin fiziki durumuna və səhhətinə uyğun həyat şəraitinin yaradılmasından, tibbi və sosial reabilitasiya tədbirlərinin həyata keçirilməsindən, qulluğun təşkilindən ibarətdir. Psixi pozuntusu olan şəxslər qanunla müəyyən edilmiş qaydada xüsusi stasionar müəssisələrdə yerləşdirilirlər.

**Sosial-məsləhət yardımı:** Cəmiyyətə inteqrasiyanı təmin etməkdən ibarətdir. Bura sosial xidmət üzrə məsləhətlərin verilməsi, problemlərin, qeyri- hökümət təşkilatlarının cəlb olunması məqsədilə zəruri tədbirlərin görülməsi, qohumlarından və ya qanuni nümayəndələrindən ayrı yaşayan və sosial – məsləhət yardımına ehtiyacı olan şəxslərin müəyyənləşdiriıməsi aiddir *(Rəhmətullayeva 2020:11).*

## 5. Yaşlılara Xidmət Müəssisələri

Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin ayr-ayrı formalarına, növlərinə uyğun sosial xidmətin göstərilməsi məqsədilə qanunla müəyyən edilmiş qaydada sosial xidmət müəssisələri yaradılır və fəaliyyət göstərir. Mülkiyyət növündən və təşkilati hüquqi formasından asılı olmayaraq əhaliyə sosial xidmət göstərilməsi sahəsində fəaliyyət həyata keçirən hüquqi şəxslərdir. Ahıl şəxslər üçün ixtisaslaşdırılmış sosial xidmət müəssisələri irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən asılı olmayaraq özünəqulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan pensiya yaşına çatmış şəxslərə sosial xidmətlərin göstərilməsi və onların sosial reabilitasiyasının həyata keçirilməsi üçün nəzərdə tutulmuş stasionar sosial xidmət müəssisəsidir. Qanunvericilikdə müəyyən olunmuş zəruri hallarda ahılın sosial xidmət müəssisəsinə yerləşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müraciəti ilə məhkəmənin qətnaməsi əsasında həyata keçirilir. Qanuni nümayəndələrinin həmin şəxslərə qulluq edə bilməyəcəkləri barədə yazılı ərizələri olan, həmçinin qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən zərurət olduqda sosial xidmət müəssisəsinə yerləşdirilə bilər. Müəssisəyə özünüqulluq qabiliyyətini tamamilə və ya qismən itirmiş, digər müəssisə sakinlərinin həyat və sağlamlığına təhlükə yarada biləcək psixi və əqli pozuntusu və ya yoluxucu xəstəliyi olmayan, həmçinin qulluq və kömək edə biləcək əmək qabiliyyətli yaxın qohumları və ya qanuni nümayəndələri olmayan pensiya yaşına çatmış şəxslər qəbul edilir *( Kərimova 2016:11).*

## Nəticə

Yaş dövrləri fərqlidir. 65 yaş və yuxarı yaşlar xronoloji olaraq yaşlı hesab olunur. Yaşlılıq dövrü həyat şəraitindən də asılıdır. Yaşlandıqca bəzi problemlər ortaya çıxmağa başlayır. Pandemiya dövründə də müəyyən problemlər meydana gəlmişdir. Xüsusilə də tənha ahıllarda daha çox çətinliklər yaratmışdır. Bu problemlərin həllində də sosial işçilər mühüm rol oynayır. Sosial xidmət sahələrinin yardımı ilə problemlər aradan qaldırılır. Problemlərin həll olunması üçün müəyyən üsullardan istifadə olunur. Bu üsullar da sosial xidmət sahəsində olan sosial işçilər tərəfindən müəyyən olunur.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Dr- Gülbaşak Diktaş Y (2017),Yaşlılık Dönemi Özellikleri ve Yaşlılara Yönelik Sosyal Hizmetler, Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt:10,Sayı: 52.
2. Dr- Oya Zeren A (1993), Toplum içinde yaşayan ve kurumlarda kalan yaşlıların psikososyal yönden karşılaştırılması, Uzanlık Tezi, Ankara.
3. M. Tekindal(2020), Sosyal Hizmet Bakış Açısıyla Covid-19 Sürecinde Yaşlı Bireyler: Sorunlar, İhtiyaçlar ve Öneriler, İzmir Katip Çelebi Üniversitesi Sağlık Bilimleri Fakültesi Dergisi. Cilt:5,Sayı:2
4. Prof. Dr İ Tomanbay (Augstos 2007), Yaşlılara Yönelik Sosyal Hizmetler (Ankara)
5. ‘’ Sosial xidmət haqqında ‘’ Azərbaycan Respublikasının Qanunu 30 dekabr 2011 ci il No 275-lVQ
6. R Kərimova(2016), Ahıllar günü, Ahıllara sosial xidmət haqqında Azərbaycan Respublikası Qanunu
7. R. Yağcıoğlu, Sağlıklı Yaşlanma ve Sosyal Hizmetler, İzmir, Cilt:3, Sayı:1.

# MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI YOLLARI

***Bakı Biznes Universiteti***
***Bünyatova Ləman Comərd qızı***
***Elmi rəhbər: f.ü.f.d. M.S.Cəfərova***

***Xülasə***

Məişət zorakılığı sosial medianın və mətbuatın yenə gündəmindədir. Son vaxtlar daha çox sosial şəbəkələrdə belə hallar barədə qurbanların, zorakılıq göstərən şəxslərin özlərinin və dostlarının yazdığı məlumatlar, video görüntülər və şəkillər diqqət çəkir. Əvvəl daha çox gizlənilməsinə cəhd edilən ailə üzvləri, qohumlar, tanışlar arasında müzakirə edilən ailədaxili zorakılıq faktları indi sosial şəbəkələrdə geniş müzakirə olunur və ictimailəşir, bir çox halda ümumilikdə ölkə gündəminin əsas müzakirə mövzularından birinə çevrilib.

Beləcə, bir partnyorun digəri üzərində nəzarətini həyata keçirmək üçün işlətdiyi davranışların daha çox kliniki tərəfləri öyrənməklə məişət zorakılığının yaranma səbəblərini başa düşmək mümkündür. Bəzən günahın qurbanda olduğunu, zorakı şəxsin əsəblərinə nəzarət edə bilmədiyini, onun işdə və ailədə yaranan streslər üzərindən baş verdiyini göstərməklə zorakılığa bəraət qazandırılır. Lakin bunların heç biri bir partnyorun digərinə qarşı zorakılıq törətməsinə haqq vermir.
***Açar sözlər:*** *məişət zorakılığı, ailədaxili zorakılıq, psixoloji səbəb, sosial səbəb, münaqişə, uşaq, qorxu.*

***Summary***

Domestic violence is again on the agenda of social media and the press. Recently information written bu victims,violent people and their friends, about such cases on social networks,video footage and pictures attract attention. The facts of domestic violence discussed between family members,relatives, acquaintances which were tried to be more hidden before are now widely discussed and publicized on social networks and in many cases have become on the main discussion topics of the agenda.

Thus it is possible to understand the causes of domestic violence bu studying the more clinical aspects of the behaviors used by the one partner to exercise control over the other. Sometime violence is justified by showing that fault lies with the victim that the bully cannot control his temper that it is and causes by stress at work in the family. But none of this gives the right for one partner to commit violence against the other.
***Keywords:*** *domestic violence, domestic violence, psychological cause, social cause, conflict, child, fear.*

## *Giriş*

Məişət zorakılığı nədir və bu zorakılığa kimlər məruz qalır?

"Məişət zorakılığı" dedikdə beynəlxalq termin kimi ailədaxili zorakılıq başa düşülür. Yəni, bir ailə üzvü digər ailə üzvünü öz nəzarəti altında saxlamaq istəyir, ancaq bu nəzarət həddini aşır və müxtəlif növdə zorakılığa çevrilir. Zorakılıq əsasən fiziki, psixoloji, iqtisadi, cinsi cəhətdən ola bilər.

*Fiziki zorakılıq* - söhbət döyülməkdən gedir.

*Psixoloji zorakılıq* - qadınları özünə qəsd həddinə qədər çatdırıla bilər.

*İqtisadi zorakılıq* - evi maliyyələşdirən bir nəfər hegemon qüvvəyə çevrilir. Həm fiziki həm də iqtisadi zorakılıq olduqda qadının işi daha da çətinləşir *(Allan Edvard Barski – "Sosial işdə etik prinsiplər və dəyərlər").*

Qadına qarşı zorakılıq dünyanın hər yerində, həm inkişaf etmiş, həm də inkişaf etmək də olan ölkələrdə insan haqlarının ən çox yayılmış pozuntularından biridir. Tədqiqatlar göstərir ki, bu zorakılıq qadınların cəmiyyətdəki mövqeyinin dəyərsizləşməsi və nəticədə onların ailə həyatında asılı vəziyyətə düşməsindən qaynaqlanaraq qadınlar və kişilər arasında resursların və səlahiyyətlərin qeyri-bərabər bölgüsü ilə birbaşa əlaqəli şəkildə qadınlara qeyri-mütənasib dərəcədə təsir göstərir. Qadınlara qarşı zorakılıq qadının həyatının istənilən mərhələsində baş verə bilər. Və bu zorakılığa uşaq yaşında baş verən erkən nikahdan tutmuş cinsi zorakılıq, məişət zorakılığı, hüquqi ayrı-seçkilik və istismara qədər bütün zorakılıq formaları daxil ola bilər *(Elmi əsərlər toplusu. Buraxılış №5 – "Müasir dövrün aktual problemləri" – Bakı Dövlət Universiteti, 2011).* Statistikaya görə dünyada hər 3 qadından biri nə vaxtsa zorakılığa məruz qalıb. Hər 3 dəqiqədən bir zorakılıqdan ən

azı bir qadın dünyasını dəyişir. Zorakılıq təkcə qadınların inkişafına mane olmur, o həm də qadınların həyatı və sağlamlığı üçün böyük təhlükə yaradır. Ümumdünya Səhiyyə Təşkilatının rəyinə görə qadınlara qarşı zorakılıq qadınlar arasında ölümün, əmək qabiliyyətinin itirilməsinin, xərçəng xəstəliyinin ciddi səbəblərindən biridir *(https://az.wikipedia.org/wiki/Cinsi_zorakılıq).* Mütəxəssislər hesablamışlar ki, qadınlara qarşı zorakılıq nəticəsində dəyən ziyanlar milyardlarla dollarla hesablanır. Məişət zorakılığını ciddi və təkrarolunan qanun pozuntusu hesab etmək olar. Onların ciddiliyi çox vaxt kifayət qədər qiymətləndirilmir və günahkarlar nadir hallarda məsuliyyətə cəlb edilirlər *(https://az.wikipedia.org/wiki/Ailə_daxili_şiddət).*

*Məişət zorakılığının səbəbləri*

Məişət zorakılığının səbəblərini bioloji, psixoloji, sosial baxımdan nəzərdən keçirmək olar.

*Bioloji səbəblər*

Kişi hormonlarının təsiri, bəzi psixi xəstəliklər, şəxsiyyət pozğunluğu kimi psixi pozğunluqlar bioloji səbəblərə daxildir. Qeyri-real şeyləri görmək, reallıqdan uzaqlaşmaq, qısqanclıqla zərər verməklə xarakterizə olunan şizofreniya da şiddətə səbəb ola bilər. Məsuliyyətsiz, düşüncəsiz, vicdansız, cinayətkar davranış, insanları incitməkdən həzz almaq, şəxsiyyət pozğunluğu da zorakılığın bioloji səbəblərindən biridir.

*Psixoloji səbəblər*

Ünsiyyət və dialoqun qeyri-kafi olduğu, insanların hörmət və inamının zədələndiyi yerlərdə zorakılıq məkrlidir. Kişilər qadınlara ağalıq etmək və onlara zülm etmək, öz çatışmazlıqlarını ört-basdır etmək və hakimiyyəti qəbul etmək üçün zorakılıqdan istifadə etməyə başlayırlar. Zorakılıq anı insanın ən zəif olduğu zamandır.

*Sosial səbəblər*

Zorakılıq öyrənilmiş bir davranışdır. Ən mühüm mənbəyi cinayətkarın ailəsidir. Uşaqlıq və yeniyetməlik dövründə məişət zorakılığı mühitində böyüyənlərin zorakılığa meyli olduğu müşahidə olunub. Cəmiyyətdə ünsiyyət bacarıqlarının olmaması, hiss və düşüncələri təxribatçı şəkildə ifadəetmə vərdişi, şüursuz ittihamlar, qüsurlu namus və əxlaq da zorakılığın sosial səbəbləri sırasında sayıla bilər *(https://az.wikipedia.org/wiki/Şiddət).*

*Zorakılığa məruz qalmış uşaqlar*

Zorakılıq həmişə bu prosesə məruz qalmış qadınların uşaqlarına da təsir edir. Bu cür ailələrdə uşaqlar zorakılıq mühitində yaşayırlar.

Zorakılığa məruz qalmış uşaqların xüsusiyyətləri:

- qorxu;
- qəzəb;
- depressiya;
- intiharla bağlı fikirlər;
- müxtəlif münasibətlərdə problemlər.

Zorakılığa məruz qalmış uşaqlarla söhbətin mərhələləri:

- etibarlı mühitin yaradılması;
- sərbəst danışıq (söhbət);
- sual vermə (açıq suallar məsələn "sonra nə oldu?"), uşağın dediyini təkrarlamaqla onu davam etməyə cəlb etmək.
- hər hansı bir səbəbə görə uşaqdan baş vermiş hadisə barədə ifadə almaq mümkün olmayan halda belə söhbəti pozitiv əhval ruhiyyədə bitirmək;
- uşağı səy göstərdiyinə görə təriflənmək;
- güvənli situasiya, etimad yaratmaq *(http://www.legalaid.ge/ka/p/660/aild-zoraklq-qurban-v-zorak-zoraklqdan-mdafinin-hq).*

Zorakılıq haqqında məlumat toplamaq üçün etimad vacibdir. Buna görə əlverişli şərait yaratmaq lazımdır:

- diqqətlə qulaq asmaq;
- nəzakətli olmaq;
- məlumatı anlayışla qarşılamaq;
- təhlükəsiz və rahat mühit yaratmaq;

▪ dürüst olmaq;
▪ uşaqları dediklərinə görə qınamamaq.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Allan Edvard Barski – “Sosial işdə etik prinsiplər və dəyərlər”
2. Elmi əsərlər toplusu. Buraxılış №5 – “Müasir dövrün aktual problemləri” – Bakı Dövlət Universiteti, 2011.
3. https://az.wikipedia.org/wiki/Cinsi_zorakılıq
4. https://az.wikipedia.org/wiki/Ailə_daxili_şiddət
5. https://az.wikipedia.org/wiki/Şiddət
6. http://www.legalaid.ge/ka/p/660/aild-zoraklq-qurban-v-zorak-zoraklqdan-mdafinin-hq

# DEVİANT DAVRANIŞLI YENİYETMƏLƏRDƏ "MƏN" KONSEPSİYASININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Musayeva Dinar Eldəniz qızı***
***Elmi rəhbər: G.Ş.Ağayeva***

***Xülasə***

Məqalədə sosial psixologiya nöqteyi-nəzərindən yeniyetmələrin deviant davranışının dominant amilləri struktur olaraq təsvir edilmişdir. Disfunksiyalı ailədə valideynlər və yeniyetmələr arasında dağıdıcı ünsiyyət modellərinin xarakterik xüsusiyyətləri verilmişdir: psixoloji təzyiq, zorakılıq, imperativ ünsiyyət tərzi, təhqirlər, fiziki cəzalar. Şəxsiyyətin mənlik konsepsiyasının formalaşması prosesində deviant davranışın sosial təyininin rolu, sosial aqressiya amilinin təsiri və cinayətkarların qeyri-rəsmi destruktiv qarşılıqlı əlaqəsi göstərilir.

***Açar sözlər:*** *deviant davranış, yeniyetməlik dövrü, "Mən" konsepsiyası, özünüqiymətləndirmə, özünüdərketmə.*

***Summary***

The article structurally describes the dominant factors of juvenile deviating behavior fromthe standpoint of social psychology. Characteristic of destructive models of communication ofparents with teenagers in a dysfunctional family is given: psychological pressure, violence, imperative style of communication, insults, physical punishment. The role of social determination of deviating behavior in the process of formation of identity, the influence ofthe factor of social aggression and informal destructive interaction of offenders is shown

***Key words:*** *deviant behavior, adolescence, self-conception, self-esteem, self-awareness.*

## Giriş

Yeniyetmənin deviant davranışı dedikdə, bir tərəfdən müəyyən sosial-tarixi səbəblərə görə yeniyetmənin müxtəlif ətraf mühit şəraiti ilə qarşılıqlı əlaqəyə impulsiv və ya qəsdən təkrarlanan reaksiyası, mədəni-ərazi inkişaf səviyyəsi, digər tərəfdən onun şəxsiyyətdaxili xüsusiyyətləri başa düşülür. Yeniyetməlik deviant davranışın inkişafı üçün risk faktorudur. Bu yaşda deviant davranış aşağıdakı fərdi psixoloji xüsusiyyətlərlə izah olunur: şəxsiyyətin formalaşması prosesinin natamamlığı, çətinlikləri aradan qaldırmaq üçün öz mexanizmlərinin olmaması, şüurlu və artan cinsi istəyin olmaması, impulsivlik, aşağı özünə nəzarət, zehni stressi aradan qaldıra bilməmək, təklif qabiliyyəti, barışmazlıq, həyat təcrübəsi və praktiki bacarıqların olmaması, sinir bozucu vəziyyətə reaksiyanın impulsiv xarakteri. Yeniyetmənin onda baş verən dəyişiklikləri dərk etməyə və onlara uyğunlaşmağa vaxtı yoxdur, nəticədə qeyri-müəyyənlik, insanlara inamsızlıq, konfliktlərin artması, depressiyaya meyl, təhrif olunmuş özünü imici, uğursuzluqlar, xarici dünyaya qarşı aqressiv davranış qəddarlıqla müşayiət olunur.Yeniyetməlik dövründə ehtiyaclardan məhrum olmaq açıq şəkildə ifadə edilir və yeniyetmənin psixi və sosial inkişafında sinxronluğun olmaması səbəbindən onu aradan qaldırmaq çox çətindir.

Şəxsiyyətin formalaşmasının ilkin mərhələlərində ayırd edilən əsas struktur elementlərindən biri "Mən"in formalaşması hesab olunur. Valideynlər erkən uşaqlıq dövründə ilk nüfuzlu şəxslər hesab edilirlər. Sonrakı dövrlərdə isə "Nüfuzlu şəxslər" qrupu genişlənərək təhsil sistemində müəllim və uşağın daxil olduğu həmyaşıdlar qrupunun nümayəndələri bu statusu əldə edirlər. "Nüfuzlu şəxslər"in dəstəklənməsi uşaqda "Mən"inpozitiv obrazının yaranmasına səbəb olduğu halda daim kəskin tənqid neqativ özünüqiymətləndirmə ilə nəticələnir. Istənilən halda "Mən" konsepsiyasının formalaşması üçün yaradılmış obraz psixoloji təcrübənin əsas mənbəyi kimi çıxış edir. *(Змановская, Девиантология ,2003:93)* B.Q.Ananyevin fikrincə, məhz bu mərhələdə şüur bir çox münasibətlərin obyekti kimi çıxış edərək ,şəxsiyyətin xarakterinin strukturunu, tamlığını təmin edərək özünüdərkin obyektinə çevrilir. Bu dövürdə insanlarda fəal olaraq özünüdərketmə, müstəqil özünüqiymətləndirmə sistemi formalaşır. Öz daxili dünyasına nüfuz etmə qabiliyyəti daha da inkişaf edir. Bu yaş dövründə yeniyetmə öz bənzərsizliyini və özünəməxsusluğunu dərketməyə başlayır, onun şüurunda xarici qiymətləndirmələrdən (əsasən valideynlər tərəfindən)daxilə oriyentasiya prosesi baş verir. Beləliklə, tədricən yeniyetmənin "Mən" konsepsiyası formalaşır və

bu da sonradan gənc insanın şüurlu və ya şüursuz olaraq qurulmuş davranışına təsir göstərir. “Mən” konsepsiyası dedikdə, insanın özü ilə bağlı ümumiləşmiş təsəvvürləri, öz şəxsiyyəti ilə bağlı yönəlişliklər sistemi nəzərdə tutulur. “Mən”- konsepsiya, həmçinin, fərdin özünə və öz davranışına, həyat tərzinə və s. tənqidi yanaşması nəticəsində özü haqqında əldə etdiyi təsəvvürlərin cəmi kimi də nəzərdən keçirilə bilər. “Mən” konsepsiyasının əsas tərkib hissəsi Mən - obrazıdır ki, bunu da insanın özü haqqında təsəvvürləri təşkil edir. Ailədə “Mən” konsepsiyasının formalaşmasında uşaq və valideyn arasında qarşılıqlı münasibətlərin tipi danılmaz dərəcədə mühüm bir amildir. Bu fikri bir neçə səbəblə izah etmək olar. İlkin olaraq “Mən” konsepsiyasının təməli “Nüfuzlu şəxslər”in böyük ehtimalla valideynlərin olduğu və onlarla ünsiyyət zamanı özü haqqında təsəvvürlərin yaranması və inkişafını təmin edən əks əlaqənin yaranması dövrü hesab edilən erkən uşaqlıq dövründə qoyulur. Əlavə olaraq, uşağın valideynindən fiziki, emosional və sosial asılılığının olması valideynə “Mən” konsepsiyasının formalaşdırılmasında aparıcı rollardan birini oynayır. Buradan belə bir nəticəyə gəlmək olar ki, uşağın özünüqiymətləndirməsinin formalaşmasında əsas həlledici amil qismində uşağın ailədəki qarşılıqlı münasibətlər sistemi çıxış edir. Özünü aşağı qiymətləndirmənin əsas səbəblərindən biri kimi valideynlərin uşaqda adaptativ davranış forması formalaşdırma cəhdləri çıxış edir. Buraya valideynlərin yeniyetmənin qarşısında qoyduğu itaətkarlıq, davranışında başqa insanların istəklərini nəzərə alma, gündəlik məsələlərdə böyüklərdən asılı olma, yaşıdları ilə konfliktdən qaçma kimi tələblər aid edilir. Deyilənlərdən çıxış edərək başqa insanların istəklərini nəzərə alaraq və onların istədiyi kimi davranma bacarığının yüksək inkişaf etməsi daxili amillərlə deyil, sadəcə tələb olaraq yerinə yetirilməsi aşağı özünüqiymətləndirmənin formalaşması ilə nəticələnir. Belə bir situasiyada yeniyetmədə ruh düşkünlüyü, ətraf mühitə etibarsızlıqla yanaşı, onda şəxsi gərəksizlik hissi yaranır *(Qədirov, 2002:56).* Yeniyetmənin özünü adekvat qiymətləndirməsin də valideynlərin dəstəkləyici mövqedən çıxış etməsi mühüm rol oynayır. Valideynlərin uşaq qarşısında qoyduğu tələblərin aşağı olması yeniyetmənin fərdiyyətinin formalaşmasına mühüm təsir edir və valideynlər onların davranışlarına qarşı təmkinlə reaksiya verməyə çalışırlar. Lakin eyni zamanda uşaqlarının müxtəlif istiqamətdə olan fəaliyyət növlərində müstəqillik nümayiş etdirməsi valideynlərdə yersiz narahatlıq hissi yaradır. Bu səbəbdən də bu qrupa daxil olan yeniyetmələr üçün ailədən kənarda sosial münasibətlər çərçivəsində müstəqil olaraq şəxsi təcrübənin qazanılması valideynlər tərəfindən məhdudlaşdırılır. Özünü yüksək qiymətləndirən yeniyetmələrlə müqayisədə bu qrupa aid olan yeniyetmələr üçün başqa insanların onlar haqqında fikirləri və münasibətləri daha çox mühümdür. Özünü yüksək qiymətləndirmənin formalaşmasına zəmin yaradan ailələrin başlıca xüsusiyyəti məsuliyyət nümayiş etdirmədən qərar qəbulunda səlahiyyətlərin öncədən verilməsi hesab olunur. Valideynlərdən biri əsas qərarların verilməsi məsələsini öz üzərinə götürür və bütün ailədə qeyr-şərtsiz onunla razılaşır. Lakin ikinci dərəcəli məişət problemlərinin həll olunması kollektiv şəkildə həyata keçirilir. Yalnız bu zaman ailənin bütün üzvləri problemin həllində iştirak etdiyini hiss edir. “Mən” konsepsiyasının hərtərəfli inkişafının təmin olunması üçün aşağıdakı məqamlar mühümdür:

1. Azadlıq və ya qadağanın qoyulması haqqında təsəvvürlər. Bəzi valideynlər uşağındavranışının ciddi nəzarət altında saxlanılması mövqeyini dəstəkləyirlər və həyata keçirirlər; digər qrup valideynlər demək olar ki, uşaqların davranışlarında tamamən azadlıq verirlər; üçüncü qrup valideynlər isə bu iki kəskin mövqelərin mükəmməl vəhdətindən istifadə etməkbacarığına malikdirlər.

2. Münasibətlərdə doğmalıq və yadlaşma. Baxmayaraq ki, bütün valideynlər övladlarını sevirlər, onlar arasında hisslərini özlərinə məxsus şəkildə tezlik və açıqlıqda ifadə etməməsələlərində əsaslı fərqlər mövcuddur. Bəzən valideynlər arasında uşağa qarşı səmimi vədoğma münasibətlərin sıxışdırılması hallarına da rast gəlinir.

3. Uşağın “Mən” konsepsiyasının formalaşmasında maraqlı olmaq və etinasızlıq. Bir çox valideynlər məhz bu cür maraqlı olmaq kimi davranış nümayiş etdirərək uşağın “Mən”konsepsiyasının formalaşmasına mənfi təsir göstərirlər. Digər qrup valideynlər isə uşağı davranışına görə danlayanda və cəzalandıranda ona qarşı tam etinasızlığa nisbətən daha az“Mən” konsepsiyasını zədələmiş olurlar.

4. Ailədə uşaqların yaşa görə sıralanması. İlk baxışdan bu amilin özünü qiymətləndirmə ilə əlaqəsini sübut edən nəzəri və praktik faktları göstərmək çətindir. Lakin uşağın cinsindən asılı olaraq valideynlərlə münasibətinin hal–hazırda araşdırdığımız mövcud problemlə bilavasitə əlaqədar olmasını sübuta yetirən aydın faktlar mövcuddur.

Yeniyetmənin özünüqiymətləndirməsi və iddia səviyyəsi hansı səviyyədə yüksəkdirsə, onun qrup daxilində müsbət sosiometrik statusu eyni dərəcədə aşağıdır və ya yeniyetmənin qrupa münasibətinin və davranışının xüsusiyyətlərindən asılı olaraq müsbət sosiometrik statusu yüksəkdir. Başqa sözlə desək, yeniyetmə rasional nonkorformizmə meyillidirsə“sayılmayanlar” qrupuna, nonkonformizmə meyillidirsə “təcrid olunanlar” qrupuna aid edilir. Belə bir asılılığın təzahür etməsini bəzi müəlliflər yeniyetmələrin özlərinə qarşı tənqidiliklərinin artması ilə əlaqələndirirlər. Bununla yanaşı, onlar qeyd edirlər ki, yeniyetmənin kollektivdə öz mövqeyini düzgün dərk etməməsi bir çox hallarda konflikt situasiyaların yaranmasında səbəb kimi çıxış edir. Yeniyetmənin kollektivdəki mövqeyini qeyri – adekvat qiymətləndirməsi xoşagəlməz tərzdə nəticələnə bilər. Buraya həm qeyri-adekvat yuxarı,həm də qeyri-adekvat aşağı qiymətləndirmə aid edilir. Yeniyetməlik dövrünü fərqləndirən mühüm cəhətlərindən biri onun özünüdərk sferasında şəxsiyyət kimi formalaşmasını və sonrakı inkişafını şərtləndirən əsaslı dəyişikliklərin baş verməsi hesab olunur. Məşhur sovet psixoloqu B.Q.Ananyevin apardığı tədqiqatlar nəticəsində qeyd olunur ki, bir çox obyektləri təhlil edən anlama prosesi bu dövrdə özünüdərkin obyektinə çevrilir və onun xarakterini tamamlayaraq şəxsiyyətin vahidliyini təmin edir. Yeniyetməlik dövründə şəxsiyyətin özünüdərk funksiyası aktiv şəkildə formalaşaraq özünəmünasibət və özünüqiymətləndirmənin müstəqil meyarlar sisteminin əmələ gəlməsini təmin edir. Bu dövrdə yeniyetmələr öz xüsusiyyətlərini və fərdiyyətini dərk etməyə başlayır. Yeniyetmənin şüurunda xarici qiymətləndirmə (xüsusilə, valideynlərin) tədricən daxili qiymətləndirmə ilə əvəz olunur *(Bayramov, Əlizadə, 2002:29).* Məlum olmuşdur ki, yeniyetmələr öz şəxsi keyfiyyətlərini qiymətləndirərkən özhəmyaşıdlarına məxsus keyfiyyətlərin təsvirindən çıxış etmirlər. Onlar daha çox özlərininyetkinlik səviyyəsindən çıxış edirlər. Göründüyü kimi, özünüdərketmənin təzahürü çox ziddiyyətli proses olmaqla həm də ikitərəfli xarakter daşıyır. Bu parodoksallıq bir tərəfdən “Mən”in dərk olunmasına təhrik, başqa bir tərəfdən isə bu dərk olunmaqdan qorxu, tənhalıq, yadlıq və s. kimi cəhətlərin meydana çıxması ilə səciyyəvidir. Nəzərə almaq lazımdır ki, özündərketmənin digər başqa psixi törəmə kimi şagirdlərdə təzahürü müxtəlif mərhələlərdən keçir ki, bu mərhələdə istər onun formaları, istərsə də təzahürü dəyişir, təkmilləşir və müstəqil məzmun kəsb etməyə başlayır. Belə təkmilləşmə yeniyetmə üçün mövcud situasiya, başqalarının və onun fonunda özündərketməyə imkan yaradır *(Фоминой, 2003:63).* Erikson hesab edir ki, bu dövrdə ətraf mühit ilə bağlı parametrləri “Mən”identifikasiyasının müsbət qütbü ilə rolların səhv salınmasının mənfi qütbü arasında tərəddüdlüyü müəyyənləşdirilir *( Erikson,1984:42).* Başqa sözlə desək, yeniyetməlik dövründə ümumiləşdirmə qabiliyyətini mənimsəmiş insan olaraq yeniyetmənin qarşısında özü haqqında bir məktəbli oğul, idmançı, dost və s. kimi əldə etdiyi təsəvvürlərin ümumiləşdirilməsi məsələsi dayanır. Yeniyetmə bütün bu sosial rolları bir araya gətirərək mənalandırmalı, keçmiş təcrübəsi ilə əlaqələndirərək gələcəyi təsvir etməlidir. Əgər yeniyetmə psixososial identifikasiya adlandırılan problemin öhdəsindən müvəffəqiyyətlə gələ bilirsə, onda şəxsiyyətinin hal–hazırkı inkişaf səviyyəsi və sosial sferada durduğu mövqeyi haqqında fikirlər əmələ gəlir *(İsmayılov, 2004: 31).* Yaş mərhələlərinin bundan əvvəlki dövrlərində valideynlər bu və ya digər şəkildə uşağın böhran vəziyyətinə təsir edə bilirdisə bu mərhələdə təsir daha çox dolayı şəkil alır. Əgər bundan əvvəlki mərhələdə valideynlərin səyi nəticəsində yeniyetmədə müstəqillik, etibar vətənpərvərlik kimi keyfiyyətlər formalaşıbsa, onun nisbətən identifikasiya prosesini öz fərdiyyətini dərk etmə mərhələsini rahatlıqla keçmə ehtimalı yüksəkdir.

**Nəticə**

Nəticə olaraq, yeniyetmələrin deviant davranışının qarşısının alınması məsləhət və müzakirəyə yönəldilməlidir. Valideyn, psixoloq və ya əhəmiyyətli bir yetkin şəxs prefrontal korteksin funksiyasını öz üzərinə götürür və heç vaxt təzyiqə yol vermədən doğru ilə yanlışı ayırmağa kömək edir. Yeniyetmələrin deviant davranışlarının diaqnostikası zamanı delikvant, aqressiv, intihara meylli və asılı davranışların təzahürləri nəzərə alınmalıdır. Deviant davranışın

korreksiyası həm fərdin daxili vəziyyətini uyğunlaşdırmaq üçün psixoterapiya prosesinə, həm də mənbə psixopatologiyalara söykənirsə, dərman qəbul etməyə yönəldilə bilər. Bir insanın həyatındakı problemlərin əksəriyyəti ya tez həll olunur, ya da əhəmiyyətli dərəcədə sadələşdirilə bilər və ya həyat keyfiyyətinin yaxşılaşdırılması üçün mütəxəssislərin nəzarətini tələb edir. Əsas odur ki, kömək istəməkdən qorxmayın, çünki deviant davranış təkcə yaxınlarınızla münasibətlərin çətinləşməsinə deyil, həm də fərdin məhvinə səbəb ola bilər.Beləliklə, yeniyetmələrin fərdi psixoloji xüsusiyyətləri deviant davranışın inkişafı üçün katalizator ola bilər, lakin onlar ölümcül deyil. Xarici və yerli tədqiqatçılar razılaşırlar ki, yeniyetmələrin deviant davranışının genezisi əxlaqsız hərəkətlərin törədilməsini şərtləndirən sabit psixoloji xassələrin formalaşmasına səbəb olan obyektiv və subyektiv amillərin inteqrasiyasıdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-çap, 2002.
2. İsmayılov N. Psixiatriya. Bakı: "Qapp-poliqraf" korporasiyası, 2004.
3. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002.
4. Ранняя профилактика девиантного поведения детей и подростков / Под ред. А.Б.Фоминой. М., 2003.
5. Змановская Е.В. Девиантология, М., 2003.
6. Erikson E.H.,İnsanın sekkiz çağı (Çevirenler:T.B.Üstün ve V.Şar) Birey ve Toplum Yayınları, Ankara 1984

# ANLAQSIZLIQ CİNAYƏT-HÜQUQİ KATEQORİYA KİMİ

***Bakı Dövlət Universiteti***
***Səlimov Natiq Malik oğlu***
***Elmi rəhbər: dos.M.Bayramova***

***Xülasə***

Məqalədə cinayət-hüquqi kateqoriya kimi anlaqsızlığın anlayışı, əsas əlamətləri, onun tibbi və hüquqi meyarları, bunlarla bağlı cinayət-hüquqi və psixoloji ədəbiyyatda, habelə məhkəmə-istintaq təcrübəsində mövcud olan diskussiyalı məsələlər araşdırılmışdır.

Eyni zamanda anlaqsızlıqla anlaqlılığı istisna etməyən psixi pozuntunun oxşar və fərqli cəhətləri, sərxoşluq, onların cinayət məsuliyyətinə təsiri məsələləri işıqlandırılmışdər.

***Açar sözlər:*** *anlaqsızlıq, anlaqlılığı istisna etməyən psixi pozuntu, tibbi meyar, hüquqi meyar, sərxoşluq vəziyyəti.*

***Summary***

The article examines the concept, main features, medical and legal criteria of insanity as a legal category, debatable issues that exist in the criminal law, psychological literature, as well asjudicial and investigative practice.

At the same time, issues related to the differentiation of sanity and mental disorders that do not exclude sanity, states of intoxication and their impact on criminal liability are highlighted.

***Key words****: insanity, medical criteria, legal criteria, state of drunkenness.*

**Giriş**

Müasir dövrdə anlaqsızlıq, anlaqlılıq və anlaqlılığı istisna etməyən psixi pozuntu hallarında şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və cəzadan azad edilməsi ilə bağlı problemlərin həlli üçün onun cinayət hüquqi, sosial-psixoloji, məhkəmə-psixiatrik və sair aspektlərinin öyrənilməsi vacib məsələlərdən biridir.

Cinayət hüquq nəzəriyyəsində, tibbi və psixoloji ədəbiyyatda "anlaqsızlıq", "anlaqlılıq" və "məhdud anlaqlılıq" anlayışlarının fərqləndirilməsi, onların cinayət məsuliyyətinə təsiri ilə bağlı məsələlərin tam həll edilməməsi məhkəmə-istintaq təcrübəsində bir sıra ciddi problemlər yaradır.

Bu problemlərin həllinə nail olmaq üçün aşağıdakı məsələlərin aydınlaşdırılmasını məqsədəuyğun hesab edirik:

-anlaqsızlığın anlayışı, mahiyyəti, onun tibbi və hüquqi meyarları;

-anlaqsızlığın digər vəziyyətlərdən, o cümlədən sərxoşluqdan fərqli cəhətləri;

-şəxsin anlaqsız hesab edilməsinin hüquqi nəticələri;

Qeyd olunan məsələlərin həllinin hüquqi mexanizmləri Azərbaycan Respublikasının Konstitusiyası, Cinayət, Cinayət-Prosessual, İnzibati hüquqpozmalar haqqında Məcəllələri, "Məhkəmə-tibbi ekspertizası haqqında", "Psixoloji yardım haqqında" AR Qanunları, Nazirlər Kabineti, Səhiyyə Nazirliyi və digər orqanların qanunvericilik aktları, habelə Azərbaycan Respublikasının Konstitusiya və Ali Məhkəməsi Plenumlarının qərarlarında öz əksini tapmışdır.

**Anlaqsızlığın tibbi meyarı**

Azərbaycan Respublikası CM-nin 21.1-ci maddəsinə əsasən, ictimai təhlükəli əməli törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllılıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

Maddənin məzmunundan göründüyü kimi, qeyd olunan psixi xəstəlik vəziyyətləri anlaqsızlığın tibbi meyarını, həmin xəstəliklərlə əlaqədar şəxsin öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməməsi və ya onu idarə edə bilməməsi isə hüquqi meyarını təşkil edir. Məhz bu meyarların vəhdət şəklində mövcud olması anlaqsızlıq vəziyyəti yaradır və belə şəxs CM-

nın 93.2-ci maddəsinə əsasən, cinayət məsuliyyətindən azad edilərək barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilir.

Əməl törədilən zaman anlaqsızlıq vəziyyətində olan şəxsdə ağılsız ideyalar və halyusinasiyalar yaranması ilə əlaqədar o, öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmir, instinktlər nəzarətdən çıxmağa başlayır, şizofreniyaya xas olan emosional kütlük yaranır, cinayətkar əməl şəxsiyyətə və ictimai qaydalara yönəlir, şəxsiyyətə qarşı yönəlmiş bu ictimai təhlükəli əməllər motivsiz olaraq impulsiv şəkildə təzahür edir *(Комментарий к УК РФ (под ред. А.В. Наумова), М.2017, 247 с.).*

Cinayət hüquq nəzəriyyəsinin və məhkəmə-istintaq təcrübəsinin öyrənilməsi və təhlili göstərir ki, anlaqsız vəziyyətdə olan şəxslər əksər hallarda zorakılıqla müşaiyət olunan cinayətlər törədirlər.

S.V.Borodinin fikrincə, "psixi anomaliyalar cinayətkar davranışın səbəbəi deyildir" *(Бородин С.В.Преступное поведение и психические аномалии. М.2017, 155 с.)*, Şostakoviş və Parfontyeva isə belə hesab edirlər ki, "kriminal əməlin xarakteri və şəxsiyyətin psixi xüsusiyyətlərinin bir-biri ilə birbaşa asılılığı yoxdur" *(Шостакович Б.В., Парфонтьева О.В. Общественно опасные действия при психопатиях и некоторых психопатоподобных состояниях.М. 2017, 253 с.).*

Nəzərə almaq lazımdır ki, "anlaqsızlıq anlaqlılığın əks tərəfi olmaqla cinayət hüquq normalarının şərh edilməsi yolu ilə müəyyən olunur, "anlaqlılıq" anlayışı isə "anlaqsızlıq" anlayışından doğur" *(Павлов В.Г. Субъект преступления- СПб.:Юрид. центр Пресс.2017, 105 с.).*

Göstərilənlər onu deməyə əsas verir ki, anlaqsızlıq psixi pozuntu olmaqla ictimai təhlükəli əməlin törədilməsi zamanı cinayət qanunu ilə qorunan ictimai münasibətlərə zərər vursa da, bu hallarda şəxs öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmədiyi və onu idarə edə bilmədiyi və beləliklə də, təqsiri olmadığı üçün cinayətin subyekti olmur.

Deməli, anlaqsızlıq cinayət-hüquqi kateqoriya olmaqla, psixi pozuntunun bir növü kimi təzahür edir, şəxsin öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək imkanını aradan qaldırır və buna görə də qanun onu cinayət məsuliyyətini istisna edən hal kimi nəzərdə tutur.

Cinayət-Prosessual qanunvericiliyi də məhz bunu cinayət təqibini istisna edən hal kimi müəyyən edir. CPM-nin 39.1.10-cu maddəsinə əsasən şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli anlaqsız vəziyyətdə törətdikdə (bu şəxslərə qarşı tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi halları istisna olunmaqla) onun barəsində cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir (o cümlədən cinayət işi başlana bilməz, başlanmış cinayəi işi üzrə icraata isə xitam verilməlidir).

Hüquq ədəbiyyatında qeyd olunur ki,"öz hərəkətlərinə (hərəkətsizliyinə) hesabat vermək" ifadəsi qüvvədə olan cinayət qanunvericiliyi üçün xarakterik deyildir. Məhz bunu əsas görürərək CM-nin 21.1-ci maddəsində "öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs" ifadəsi göstərilmişdir ki, bu da fikrimizcə, daha düzgün hesab olunmalıdır.

Beləliklə, "anlaqsızlıq" anlayışı aşağıdakı əlamətləri özündə ehtiva edir:

- qanunvericilikdə anlaqsız şəxslərə münasibətdə "cinayət" anlayışından deyil, "cinayət qanununda nəzərdə tutulmuş ictimai təhlükəli əməl" anlayışından istifadə olunur;
- şəxs ekspertiza rəyi əsasında istintaq və məhkəmə orqanlarının qərarları ilə anlaqsız hesab edilir.
- cinayət qanuna əsasən, anlaqsızlıq konkret hüquqi nəticələrə səbəb olmaqla, əməlin cinayət olmasını aradan qaldırır, şəxsin cinayət məsuliyyətindən və ya cəzadan azad olunmasına əsas verir.
- bu CPM-nin 39.1.10-cu maddəsinə əsasən, cinayət təqibini istisna edən hal kimi qiymətləndirilir və cinayət işinin icraatına xitam verilir;
- qanunda nəzərdə tutulan əsaslar mövcud olduqda şəxsə tibbi xarakterli məcburi tədbirlər tətbiq olunur;
- cəzanın icrası prosesində şəxsdə anlaqsızlıq vəziyyətinin yaranması onun cəzadan azad edilməsi üçün əsas verir və s .

Bu hallarda CPM-nin 468-487-ci maddələrinə əsasən, şəxsə tətbiq olunan tibbi xarakterli məcburi tədbirlər cəza sayılmır və məhkumluq yaratmır.

Hüquq ədəbiyyatında və məhkəmə-istintaq təcrübəsində bəzən "anlaqsızlıq" və "fəaliyyət qabiliyyətsizliyi" anlayışları qarışdırılır. Lakin bu anlayışlar müəyyən əlamətlərinə görə oxşar olsalar da, hər biri müxtəlif elm sahələrinə aiddir.

Cinayət və inzibati hüquqda "anlaqsızlıq"dan fərqli olaraq mülki hüquqda "fəaliyyət qabiliyyətsizliyi" anlayışı başqa məzmuna malikdir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 28-ci maddəsinə əsasən, fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətidir.

Ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən şəxslər məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayıla bilər.

Fikrimizcə, məhkəmə tərəfindən şəxsin fəaliyyəti olmayan hesab edilməsi hec də həmişə xəstəlik vəziyyəti ilə bağli olmaya bilər. AR MM-nin 33.1-ci maddəsinə əsasən, spirtli içki, narkotik vasitə və ya psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan fiziki şəxsin fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırıla və onun üzərində himayəçilik təyin edilə bilər. Göründüyü kimi, burada şəxsin fəaliyyət qabiliyyətsiz hesab edilməsi xəstəlik vəziyyəti ilə deyil, başqa əsaslarla bağlıdır.

Beləliklə, anlaqsızlığın tibbi meyarına xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllılıq və sair psixi xəstəlikləri daxil olur ki, bu da insanın şüuruna və iradəsinə güclü təsir göstərməklə onun psixoloji vəziyyətində muhum dəyişikliklər yaradır.

Anlaqsızlığın hüquqi meyarı onun psixi meyarına əsaslansa da, şəxsin psixi xəstəliyə tutulması hələ onun anlaqsız hesab olunması üçün əsas vermir. Psixi xəstə vəziyyətində olan şəxs o zaman anlaqsız hesab edilə bilər ki, belə şəxs törətdiyi əməlin kriminal xarakterini dərk etmir, yaxud da öz hərəkətlərini idarə etmək qabiliyyətində olmur *(Səməndərov F.Y. Cinayət hüququ. (Ümumi hissə). Bakı, 2007, 697 s.).*

**Anlaqsızlığın hüquqi meyarı**

Azərbaycan Respublikası CM-nin 21-ci maddəsinin məzmununun təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, hüquqi meyar cinayət törədən və psixi cəhətdən xəstə olan şəxsin törətdiyi əməlin kriminal xarakterini dərk etməməsi, yaxud öz hərəkətlərini idarə etmək iqtidarinda olmamasıdır ki, bu iki halın mövcudluğu məhz şəxsin psixi xəstəliyə tutulması ilə bağlıdır.

Hər bir şəxsin əqli, iradi və emosional xüsusiyyətləri bir-biri ilə qarşılıqlı sıx əlaqədə olduğundan, psixi xəstəlik nəticəsində intellektual sahə pozulursa, yəni şəxs öz hərəkətlərini dərk etmək qabiliyyətini itirirsə, o, öz hərəkətlərinə rəhbərlik etmək qabiliyyətini də itirmiş olur.

Anlaqsızlığın müəyyən edilməsi zamani tibbi meyar ekspert tərəfindən, hüquqi meyar isə məhkəmə tərəfindən qiymətləndirilir və bu zaman tibbi və hüquqi meyarlar bir-birinə uyğun olmalı və biri digərini tamamlamalıdır.

Anlaqsızlığın əsas elementlərindən biri olan affekt vəziyyəti qısa müddətli güclü ruhi həyəcan və psixi reaksiya olmaqla, şəxsin dərketmə və özünə nəzarət imkanlarının zəifləməsi ilə müşaiyət olunur.

Affekt şəxsin emosional vəziyyəti, ətraf mühitin təsiri və başqa hallardan asılı olaraq patoloji və ya fizioloji ola bilər.

Patoloji affekt vəziyyətində şəxsin psixikasına kənar təsirlər nəticəsində törətdiyi əməlin faktiki xarakterini və ictimai təhlükəliliyini ümumiyyətlə, dərk etmir və öz hərəkətlərini idarə etmək qabiliyyətini tamamilə itirir.

Fizioloji affekt vəziyyətində isə şəxs bu halları tam dərk etmədiyindən, yaranan güclü ruhi həyəcan vəziyyətinin ani olaraq, qəflətən baş verməsi qismən amneziya və adekvatlılığın aşağı düşməsinə səbəb olur ki, bu da anlaqlılığı istisna etmir və cinayət məsuliyyətini aradan qaldırmır.

CM-nin 95-ci maddəsinə əsasən, psixi pozuntusu olan və bu vəziyyətdə cinayət törədən şəxslərə aşağıdakı tibbi xarakterli məcburi tədbirlər təyin eilir:

- məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi;
- ümumi psixiatriya stasionlarında məcburi müalicə;
- ixtisaslaşdırılmış psixiatriya stasionarlarında müşahidə altında məcburi müalicə;

- ixtisaslaşdırılmış psixiatriya stasionarlarında intensiv müşahidə altında məcburi müalicə.

Anlaqsızlığı digər vəziyyətlərdən fərqləndirərkən ona yaxın olan sərxoşluq halına da diqqət yetirilməlidir. Azərbaycan Respublikasının cinayət qanunu alkoqoldan və ya narkotikdən sərxoş halda cinayət etmiş şəxsi cinayət məsuliyyətindən azad etmir (mad.23).

Hüquq ədəbiyyatında və psixoloji ədəbiyyatda fizioloji və patoloji olmaqla sərxoşluğun yüngül, orta və ağır dərəcələri fərqləndirilir.

Cinayət hüquq elmi və psixologiya onu əsas tutur ki, cinayət sərxoş vəziyyətdə törədilən zaman tibbi (bioloji) meyar olmadığı üçün fiziki sərxoşluq şəxsi anlaqsız etmir.

Anlaqsızlıqdan fərqli olaraq sərxoşluqda şəxs şüurlu surətdə, bilərəkdən özünü bu vəziyyətə gətiririr və bu zaman eşitmə, görmə və digər orqanların funksiyalarında mühüm pozuntu baş vermir.

Digər tərəfdən, anlaqsızlıq zamanı şəxsdə qavrayışın əsasında qarabasma, sərsəmlik və s. psixi pozğunluqla bağlı reallıqda olmayan əşyaların, hadisələrin yalançı qavrama obrazının yaranması durursa, sərxoş vəziyyətdə olan şəxsin qavrayışının əsasında əhatənin reallığı durur.

Bir qrup psixiatr və hüquqşünas alimlərin fikrincə, patoloji (tam) sərxoşluq zamanı təqsirkar elə vəziyyətə düşə bilər ki, etdiyi hərəkətin əhəmiyyətini dərk etmək, yaxud da öz hərəkətlərinə rəhbərlik etmək qabiliyyətini tamamilə itirə bilər (21.93). Başqa qrup alimlər isə fizioloji sərxoşluğun ən yüksək mərhələsində belə anlaqsızlığın tibbi, habelə hüquqi meyarının mövcudluğunu inkar edir, şəxsi həmişə anlaqlı hesab edirlər.

Beləliklə, ağır sərxoş vəziyyətində cinayət törədən şəxsləri məhkəmə təcrübəsi anlaqlı hesab edir və cinayət məsuliyyətindən azad etmirdüzgün hesab olunmalıdır.

**Nəticə**

Qeyd olunanlar aşagıdakı nəticələrə gəlməyə imkan verir.

Cinayət Məcəlləsinin 21.1-ci maddəsində ğöstərilən psixi xəstəlik vəziyyətləri anlaqsızlığın tibbi meyarını, həmin xəstəliklərlə əlaqədar şəxsin öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməməsi və ya onu idarə edə bilməməsi isə hüquqi meyarını təşkil etməklə onların vəhdət şəklində mövcud olması anlaqsızlıq vəziyyəti yaradır və belə şəxslər CM-nın 93.2-ci maddəsinə əsasən, cinayət məsuliyyətindən azad edilərək barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilir.

Cinayət hüquq nəzəriyyəsinin və məhkəmə-istintaq təcrübəsinin öyrənilməsi və təhlili göstərir ki, anlaqsız vəziyyətdə olan şəxslər əksər hallarda zorakılıqla müşaiyət olunan cinayətlər törədirlər.

Anlaqsızlıq psixi pozuntu olmaqla ictimai təhlükəli əməlin törədilməsi zamanı cinayət qanunu ilə qorunan ictimai münasibətlərə zərər vursa da, bu hallarda şəxs öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmədiyi və onu idarə edə bilmədiyi və beləliklə də, təqsiri olmadığı ücün cinayətin subyekti olmur. Ona görə də qanun bu xüsusatları cinayət məsuliyyətini istisna edən hal kimi nəzərdə tutur və həmin şəxslərə cəza deyil, məqsədi şəxsin müalicə olunması, onun psixi vəziyyətinin yaxşılaşdırılması, habelə həmin şəxs tərəfindən yeni cinayət törədilməsinin qarşısının alınmasından ibarət olan, cəza sayılmayan və məhkumluq yaratmayan tibbi xarakterli məcburi tədbirlərin tətbiqini nəzərdə tutur.

Hüquq ədəbiyyatında və məhkəmə-istintaq təcrübəsində bəzən "anlaqsızlıq" və "fəaliyyət qabiliyyətsizliyi" anlayışları müəyyən əlamətlərinə görə oxşar olsalar da, onların hər biri müxtəlif elm sahələrinə aid olmaqla fərqli məzmuna malikdir.

Cinayət və inzibati hüquqda anlaqsızlıq psixi xəstəliklə baglı oldugu halda, mülki hüquqda məhkəmə tərəfindən şəxsin fəaliyyəti olmayan hesab edilməsi hec də həmişə xəstəlik vəziyyəti ilə bağli olmaya bilər. AR MM-nin 33.1-ci maddəsinə əsasən, spirtli içki, narkotik vasitə və ya psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan fiziki şəxsin fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırıla və onun üzərində himayəçilik təyin edilə bilər.

Göründüyü kimi, burada şəxsin fəaliyyət qabiliyyətsiz hesab edilməsi xəstəlik vəziyyəti ilə deyil, başqa əsaslarla bağlıdır.

Patoloji affekt vəziyyətində şəxs onun psixikasına kənar təsirlər nəticəsində törətdiyi əməlin faktiki xarakterini və ictimai təhlükəliliyini ümumiyyətlə, dərk etmədiyi və öz hərəkətlərini idarə etmək qabiliyyətini tamamilə itirdiyi üçün anlaqsız hesab olunur və cinayət məsuliyyətinə cəlb

olunmur. Fizioloji affekt vəziyyətində isə bu halları tam dərk etmədiyindən, yaranan güclü ruhi həyəcan vəziyyətinin ani olaraq, qəflətən baş verməsi qismən amneziya və adekvatlılığın aşağı düşməsinə səbəb olur ki, bu da anlaqlılığı istisna etmir və cinayət məsuliyyətini aradan qaldırmır.

Bir qrup psixiatr və hüquqşünas alimlərin fikrincə, patoloji (tam) sərxoşluq zamanı təqsirkar elə vəziyyətə düşə bilər ki, etdiyi hərəkətin əhəmiyyətini dərk etmək, yaxud da öz hərəkətlərinə rəhbərlik etmək qabiliyyətini tamamilə itirə bilər (21.93) . Başqa qrup alimlər isə fizioloji sərxoşluğun ən yüksək mərhələsində belə anlaqsızlığın tibbi, habelə hüquqi meyarının mövcudluğunu inkar edir, şəxsi həmişə anlaqlı hesab edirlər. Lakin ağır sərxoş vəziyyətində cinayət törədən şəxsləri məhkəmə təcrübəsi anlaqlı hesab edir və cinayət məsuliyyətindən azad etmir ki, bunu da düzgün hesab edirik.

### İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı, 2022.
2. Azərbaycan Respublikası Konsitutsiya Məhkəməsi Plenumunun “Psixatriya yardımı haqqında” Azərbaycan Respublikasının Qanunun 28.2, 28.3, 29.3-cü maddələrinin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 98.1, 99-cu maddələrinin şərh edilməsinə dair” 15 aprel 2011-ci il tarixli Qərarı.
3. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Məhkəmələr tərəfindən tibbi xarakterli məcburi tədbirlərin tətbiqi təcrübəsi haqqında“ 8 noyabr 2012-ci il tarixli, 8 nömrəli Qərarı.Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarlar Məcmuəsi.Bakı, 2015,127s.
4. “Psixatriya yardımı haqqında” 12 iyun 2001-ci il tarixli AR Qanunu.
5. Səməndərov F.Y. Cinayət hüququ. (Ümumi hissə). Bakı, 2007, 697 s .
6. Бейсенов Б.С. Алкоголизм: уголовно-правовые и криминологические проблемы. М., 2019, 94 s.
7. Бородин С.В.Преступное поведение и психические аномалии. М.2017, 155 с.
8. Комментарий к УК РФ (под ред. А.В. Наумова), М.2017, 247 с.
9. Павлов В.Г. Субьект преступления- СПб.:Юрид. центр Пресс.2017, 105 с.
10. Шостакович Б.В., Парфонтьева О.В. Общественно опасные действия при психопатиях и некоторых психопатоподобных состояниях.М. 2017, 253 с.
11. Шишков С. Понятия «вменяемость» и «невмеяемость» в следственной, судебной и експертной практике/ Законность, 2017, № 2, 57 с.

# İNSAN KAPİTALI VƏ TARİX

***Sumqayıt Dövlət Universiteti***
***Quluzadə Tamara Elman qızı, magistrant***
***Elmi Rəhbər: Ə.İ.İsayev***

***Xülasə***

Fiziki kapital fabriklərin, avadanlıqların, maşınların və alətlərin ehtiyatı olduğu kimi insan kapitalı işçi qüvvəsinin məhsuldar bacarıqlarının, istedadlarının, sağlamlığının və təcrübəsinin məcmusudur. Hər bir kapital növünün daxilində performans, köhnəlmə və səmərəlilik dəyişə bilər. İnsan və fiziki kapital ehtiyatları sərmayənin birbaşa məsrəflər baxımından baha başa gəldiyi və insan kapitalına investisiyanın insan vaxtının imkan dəyəri baxımından baha başa gəldiyi bir sıra sərmayə qərarları vasitəsilə istehsal olunur. Bu məqalə insan kapitalının necə artırıldığını və insan kapitalına investisiya qərarlarının verilməsində tez-tez istifadə olunan qaydaları müzakirə edir. Burada insan kapitalının üç əsas növü nəzərdən keçirilir - təhsil-təlim və səhiyyə. Hər ikisi məktəblərdə, ailələrdə, firmalarda və müxtəlif digər obyektlərdə istehsal olunur. Hər iki investisiya növü etibarlı məlumat tələb edir. Xəstəliyin səbəblərini bilmək insan kapitalının sağlamlığına, xüsusən də suyun təmizlənməsi kimi hökumətlər tərəfindən müəyyən edilən bahalı investisiyalar üçün vacib olmuşdur. Təhsilin effektivliyi haqqında məlumat məktəblərə dövlət investisiyası üçün vacibdir. Mən vurğuladım ki, insan kapitalı mövzusu mahiyyət etibarilə tarixidir. Təhsil və səhiyyə arasında əlaqə nədir? İndi daha çox savadlı insanlar daha sağlamdır. Bəs həmişə belə olubmu? Bütün dünyada, xüsusən də Avropa və Şimali Amerikadan kənarda təhsilin tarixi hələ də başlanğıc mərhələsindədir.

***Açar sözlər:*** *kapital, işçi qüvvəsi, tarix, qalıq, iqtisadi artım, təhsil, səhiyyə, bilik, innovasiya, investisiya.*

***Summary***

Human capital is the stock of productive skills, talents, health, and expertise of the labor force, just as physical capital is the stock of plant, equipment, machines, and tools. Within each type of capital, the performance, vintage, and efficiency can vary. The stocks of human and physical capital are produced through a set of investment decisions, where the investment is costly in terms of direct costs and, for human capital investment, in terms of the opportunity cost of the individual’s time. This essay has discussed how human capital is augmented and the rules that are often employed in making human capital investment decisions. Two main types of human capital have been considered here – education and training and health. Both are produced in schools, families, firms, and a variety of other facilities. Both types of investments require good information. Knowledge regarding the cause of disease was important in making investments in health human capital, particularly expensive ones determined by governments, such as water purification. Information regarding the effectiveness of education is required for public investments in schools. I have stressed that the subject of human capital is inherently historical. There is much that remains to be explored historically. What is the interaction between education and health? Currently, more educated people are healthier. But has that always been the case? The history of schooling across the globe, particularly outside Europe and North America, is still in its infancy.

***Keywords:****capital, workforce, history, residue, economic growth, education, healthcare, innovation, investment.*

## Giriş

İnsan kapitalı içşi qüvvəsinin malik olduğu bacarıqlar fondudur. Bu bacarıqlanın axınında sərmayənin geri dönüşü dəyəri birbaşa və ya dolayı üstələdikdə öngörüləndir.Bu bacarıqlara qayıdış bi anlamda özəldir : fərdin istehsal qabiliyyəti onlarla daha çox artar.Ancaq çox vaxt insan kapitalı artırılanda başqalarının istehsal qabiliyyətini artıran xarici təsirlər olur.Bu məqalə bu anlayışları tarixi mövzüdə müzakirə edir və insan kapitalının üç əsas kompenentinə fokuslanır: təlim,təhsil və səhiyyə. İnsan kapitalı sərmayəsini təşviq edən qurumlar və bəşəri sərmayənin iqtisadi böyümədəki rolu müzakirə olunmaqdadır.İnsan kapitalı anlayışı mahiyyətcə tarixi olduğu vurğulanır və üzərində durulur.

## İnsan kapitalı və Tarix

Tarixi qeydlərə əsasən gəlirlər və yaşayış səviyyəsi aşağı idi həmçinin iqtisadi inkişaf çox az və ya heç yox idi.Hal-hazırda bizim sağlam,uzun ömürlü,zəngin və xoşbəxt yaşam tərzimiz var.

Həmin rejim dəyişikliyi bilik və onun yayılmasını, yüksək səviyyəli təlim və təhsili, inkişaf etmiş tibb,daha çox miqrasıyanı, üretkənliyin dəyişimini və nüfusu artırdı.Qısacası, bu proses insan kapitalında irəliləyişləri əhatə edirdi.

**Niyə insan kapitalının mahiyyəti tarixidir?**

Solow 1909-cu ildən 1949-cu ilə qədər olan məlumatlarla işləyərək göstərdi ki, qalıq adambaşına düşən ümumi artımın 87,5 faizini təşkil edir. Qalıq iqtisadi artımın həmin hissəsidir ki, tədqiqadçı onu kapital fondu, işçilərin sayı, onların iş saatları və həftələri kimi məhsuldar fiziki amillərin artması ilə izah edə bilmir.XX əsrin böyük bir hissəsində qalıqların adambaşına və ya işçiyə görə iqtisadi artıma nisbətdə qalığın ölçüsü göstərdi ki, fiziki kapital yığımının inkişafı açıqlaya bilmədiyini və başqa bir şeyin açıqladığını göstərdi. Başqa bir şey isə, biliyin yaradılışı, təhsil və təlim vasitəsilə əmək sərvətinin artırılmasıdır. Başqa bir deyimlə, qalığın çox hissəsi insan kapitalının artması hesabına olub.Bəzi tədqiqatçılar Solow modelinə insan kapitalının artımını əlavə edərək “qalıq” boşluğunu aradan qaldırmaq üçün yöntəmlər hazırlamışlar *(Mankiw, Romer & Weil,1992).* Digərləri, biliyin və digər “rəqib olmayan” malların böyüməyinin, Solow modelinin bəzi nəticələrinin pozulduğu mənasına gəlir *( Jones & Romer, 2010).* Uzunmüddətli dövr ərzində iqtisadi böyümə ilə əlaqəli ən vacib tapıntılar və insan kapitalının tədqiqi ilə ən uyğun olanı, qalıqların zamanla böyük ölçüdə artmasıdır. Keçmişdə fiziki kapitalın yığılması və torpaqların təmizlənməsi iqtisadi artımının əhəmiyyətli bir hissəsini izah edir. Ancaq daha müasir dövrdə daha zəif işləyir.ABŞ tarixində adambaşına düşən gəlir artımının bir hissəsi olaraq qalıq 1840-1900-cü illər üçün təxminən 57 faizdən 1900-1980-ci illər üçün təxminən 85 faizə yüksəlmişdir. İndi 1900-1980-ci illər üçün təcəssüm olunan insan kapitalının artımı nəzərə alınmaqla, təxminən 20 faiz azaldıla bilər. Lakin insan kapitalının artımı əvvəlki dövrün qalıqlarını zəiflətməyə kömək etmir. Əsasən insan kapitalındakı irəliləyişlər XX əsrdə iqtisadi artım XIX əsrə nisbətən daha çox təşkil edirdi, çünki təhsildə irəliləyişlər daha yavaş idi. Yəni əvvəlki dövrdə insan kapitalının formalaşması çox deyildi. On doqquzuncu əsrin sonlarında məktəb təhsil səviyyəsinin niyə yaxşılaşdığı aşağıdakı təhsil bölməsində müzakirə olunur. Lakin başqa bir səbəb odur ki, ali təhsil səviyyəsindən məhsuldarlıq qazanma ehtimalı azdır.İnsan kapitalın artım uçotununa daxil edilməsi təhsildə artımı fərdlərin məhsuldarlığının artırılması kimi qəbul edir. Differensial məhsuldarlıq müxtəlif təhsil səviyyəli işçilər üçün qazanc dərəcələrinin qədərliyi (məsələn, kollec/ orta məktəb məzunları) sabit saxlanılır və müxtəlif təhsil səviyyələrinə malik işçilərin nisbətinin bir ildən digərinə dəyişməsinə icazə verilir. Bu nisbi “qiymətlər” əmtəələrin zəncirvari çəkili qiymətlərində dəyişən qiymətlərlə eyni şəkildə yenilənə bilər. İnsan kapitalının yığılmasının özəl olmayan aspektləri daxil edilsəydi, təhsilin təsiri xeyli böyük, qalıq isə daha kiçik olardı. İnsan kapitalının bu qeyri-şəxsi aspektlərinə artan bilik, cəmiyyətdə daha az cinayət fəaliyyəti və daha çox innovasiya nəticəsində firmalar arasında yayılma daxildir, çünki daha ağıllı və məlumatlı insanlar var. İnsan kapitalının öyrənilməsinin mahiyyətcə tarixi olduğu başqa bir üsul “bilik iqtisadiyyatının” mənşəyinə aiddir (Mokyr, 2004). Bilik tarixən təbiət hadisəsi - elementar kəşflər və ya biliyin "nə"si haqqında müşahidələrdən başlayaraq inkişaf etmişdir. Bunlara aşağıdakılar daxildir: "söyüd ağacının qabığını çeynədikdə baş ağrısı keçir.Bilik daha sonra "bu nədir?" cavabında “bu necə işləyir? Bu kimi bilik ümumiləşdirmələrini və elmi tapıntıları ehtiva edirdi. Söyüd ağacının tərkibində iltihab əleyhinə və laxtalanma əleyhinə dərman olan (asetil) salisilik turşu var. Aspirin bu maddədən 1900-cü illərin əvvəllərində hazırlanmışdır. Bilik daha sonra "necə" haqqında daha dərin bir anlayışa doğru irəlilədi və yalnız 1971-ci ildə tədqiqatçılar antiinflamatuar reaksiyanın prostaglandinlərin basdırılması səbəbindən baş verdiyini anladılar. Biliyin yaradılmasının mühüm hissəsi ilkin “nə”nin yayılmasıdır. Müasir dövrdən əvvəlki dövrlərdə çoxlu sayda insanların yaxınlıqda yaşaması biliyin qorunması üçün mühüm əhəmiyyət kəsb edirdi. Geniş səpələnmiş yaşayış məntəqələri isə təsadüfi kəşflərin yayılma və onların üzərində qurulma ehtimalının daha az olacağı anlamına gəlirdi. Çap maşını, kitablar, elmi cəmiyyətlər və rəsmi məktəblər kimi sonrakı irəliləyişlər biliyin qorunmasına və kəşflərin yayılmasına kömək etdi. Daha sıx əhalinin biliklərin yayılmasını və innovasiyanı gücləndirməsi anlayışı insanların Maltus tələsindən necə qurtulduğunu və insan kapitalına investisiyaların nə üçün dəyərli olduğunu başa düşmək üçün vacibdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Solow, Robert (1957) "Technical Change and the Aggregate Production Function," Review of Economics and Statistics 39: 312-20
2. Claudia Goldin, Human Capital 2/23/2014
3. Mankiw, Romer & Weil,1992
4. Jones & Romer, 2010
5. Mokyr, 2004

# ИЗУЧЕНИЕ ФОРМИРОВАНИЯ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА

***Азербайджанский Государственный Педагогический Университет***
***Гулиева Нармин Байлар гызы***
***Научный руководитель: Доц. Рахима Мамедова***

***Резюме***

Мы живём в эпоху информации и технологии, что позволяет нам иметь доступ к огромному количеству ресурсов. Получать знания, совершенствовать свои навыки и делиться информацией стало на много проще. Быстрое развитие, появление новшеств создало нехватку в знающих людях, которые владеют нужными навыками и которые способны использовать свои знания, как источник дохода. Появилась потребность в профессионалах, потребность в человеческом капитале.
***Ключевые слова:*** *человеческий капитал, современное образование, таксономия Блума.*

***Summary***

We live in the era of information and technology, which allows us to have access to a huge amount of resources. It has become much easier to gain knowledge, improve your skills and share information. Rapid development, the emergence of innovations has created a shortage of knowledgeable people who possess the necessary skills and who are able to use their knowledge as a source of income. There was a need for professionals, a need for human capital.
***Keywords:*** *human capital, modern education, Bloom's taxonomy.*

## Введение

Человеческий капитал – это знания, навыки и здоровье, в которые люди вкладывают средства и которые они аккумулируют в течение своей жизни, что позволяет им реализовывать свой потенциал в качестве полезных членов общества. Причем формирование человеческого капитала начинается, по сути, с момента рождения человека.

Существуют многочисленные свидетельства того, что без развития человеческого капитала страны не смогут ни добиться устойчивого экономического роста в интересах всех слоев населения, ни подготовить контингент работников, которые будут готовы занять требующие повышенной квалификации рабочие места будущего, ни эффективно конкурировать в сфере мировой экономики.

Еще в 1934 году лауреат Нобелевской премии по экономике Саймон Кузнец писал, что “для научно-технического рывка в стране должен быть создан (накоплен) необходимый стартовый человеческий капитал”. Поэтому каждое государство старается по мере возможности инвестировать в сферу образования и здравоохранения, ведь чем больше в стране человеческий капитал, тем это лучше влияет на общую экономику в стране. Азербайджан в свою очередь тоже делает большие вклады в развитие страны, в частности в сферу науки и образования.

В конституции Азербайджанской республики есть различные статьи о науке и образовании. К ним относятся законы о инвестировании научной деятельности, снабжения образовательных учреждений всеми нужными ресурсами, также определённое количество студентов получают образование, финансируемое государством, а для мотивации и стимуляции студентов в их образовательной деятельности им предоставляют стипендию *(Закон об образовании, 01.07.2011).* На сегодняшний день количество студентов, получающих образование за счёт государства составляет 48%. Это достаточно внушительный показатель того, как наше государство заинтересовано в полноценном обучении новых кадров, которых в дальнейшем можно будет считать человеческим капиталом. Также есть ряд различных образовательных программ, которые направленны на получение всестороннего образования школьников и студентов. Потому что в эпоху информационных и современных технологий все науки преподносятся обучающимся в совокупности, что позволяет им расширять их кругозор. Одним из таких проектов является STEAM.

Основной целью проекта STEAM *(Science, Technology, Engineering, Art and Mathematics)*, реализуемого Министерством науки и образования с 2019 года, является развитие у учащихся критического, творческого мышления, сотрудничества и т.д., также формирование навыков 21 века, создание возможности для обучения через творческий процесс, не преподавание предметов по отдельности, а объединение их в единую модель обучения на основе реальных приложений, улучшение умения использовать современное ИКТ-оборудование за счет применения различных языков программирования . В настоящее время проект STEAM охватывает в общей сложности около 135 000 учащихся 6, 7, 8 и 9 классов из 18 центров STEAM и 320 общеобразовательных школ по всей стране.

Все эти вложения оказывают положительное влияние на развитие обучающихся. Но для полного понимания того, как должен происходить образовательный процесс, из каких этапов он состоит и что нужно для получения прогресса в этой сфере, следует ознакомиться со следующей информацией.

В 50-е годы прошлого столетия психолог из Чикагского университета Бенджамин Блум, считал, что если бы не было специальных методов и приёмов обучения и воспитания, то навряд ли люди могли бы достичь тех высот, покорив которые, они стали знаменитыми. Исследования Бенджамина Блума привели его к созданию модели образовательных и воспитательных приёмов, благодаря которым были развиты таланты у людей, ставших впоследствии выдающимися.

Таксономия Блума представляет классификацию задач и соответствующих целей обучения, которые ставит учитель перед учениками. Все они разделены на три области: когнитивную, аффективную (эмоциональную) и психомоторную (иначе: «знаю – чувствую – творю»). Внутри каждой сферы переход на более высокий уровень невозможен без постижения опыта в предыдущих. Каждый её уровень предполагает формирование определённых навыков мышления (от простого к сложному). Б. Блум выделяет 6 основных уровней: знание, понимание, применение, анализ, синтез и оценка.

В данный в виду различных факторов развитие некоторых студентов к сожалению пока что приостановилось на уровне знания и понимания. Потому что стандартные методы образования нацелены на то, чтобы обучающийся получал и запоминал как можно больше информации. Но все эти знания ни к чему если благодаря им невозможно прийти к конечному результату. Эту проблему нужно решать, и разработать различные методики и технологии преподавание, чтобы студенты помимо получения знаний умел их применять, анализировать, синтезировать а также оценивать. Ведь только пройдя через эти взаимосвязанные между собой этапы, студент сможет прийти к самому главному – к созданию необходимого продукта. И только после обретения этих навыков, такого студента можно назвать настоящим человеческим капиталом.

При разработке методики и технологии преподавания следует учитывать и современные тенденции. С развитием технологий появляется потребность и в улучшение методики преподавание предметов. Высокие темпы развития в нашей стране, международная интеграция в различных областях, современные научно-технические условия, обеспечивающие всестороннее развитие человека и т.д., сегодня предъявляют высокие требования к сфере образования. При этом эти требования определены на основе действующего закона об образовании, а также на основе Международных стандартов образования, разработанных ЮНЕСКО. На основе последних достижений в информации и науки в сфере образования и наиболее эффективной передачи, честности, прозрачности и т.д., применение ИКТ рассматривается как подходящий метод удовлетворения этих потребностей. Развитие мышления учеников или студентов, превращение из человека, пассивно получающего информацию в исследователя, широкие возможности представления ряда знаний (особенно информации, относящейся к естественным наукам, в том числе и химическим наукам) на основе наглядных материалов на уровне, который будет легче понять, и т. д., применение ИКТ в образовательном процессе является очень важным и

актуальным вопросом. Поэтому Президента Азербайджанской Республики Ильхам Алиев 2 февраля 2021 года подписал указ № 2469 об утверждении «Стратегии социально-экономического развития Азербайджанской Республики на 2022-2026 годы» *(Указы президента Азербайджанской республики, 22.07.2022).*

В этом указе в пункте 3.3 Стратегическая основа конкурентоспособного человеческого капитала и современного инновационного пространства, сказано о введение новшества в сферу образования. Например, образование будет доступно для всех детей, в не зависимости от дохода в их семье, будут расширены исследования в различных областях науки. Для непрерывного образования населения будет создан механизм «обучения на протяжении всей жизни», а также будет привита цифровая грамотность для всех учащихся. Качество и доступность образования в области инновационных и цифровых навыков также будут легкодоступными. Все эти улучшения положительно повлияют на качество обучения в нашей стране, а также позволят обучающимся продвигаться на более высокие уровни развития.

На ряду с инновативными потребностями, не стоит забывать и о таком важнейшем факторе, как "человеческий потенциал". По мнению учёных, человеческий капитал «складывается из природных способностей отдельного человека и может быть увеличен в процессе образования, профессиональной подготовки, приобретения опыта работы». Представляется, что здесь речь идет о формировании человеческого потенциала, поскольку человеческий капитал -это вложения в развитие человека.

Между человеческим потенциалом и человеческим капиталом существует определенная взаимосвязь. Так, от рождения человек обладает определенным человеческим потенциалом. Однако на современном этапе развития науки само понятие «человеческий потенциал» достаточно размыто. До сих пор не изучены состав и структура входящих в него элементов, их взаимосвязь. При этом не вызывает сомнения, что в процессе развития человек увеличивает свой потенциал за счет капитала.

Поэтому если направить "человеческий потенциал" в правильное русло, обеспечить его всеми нужными знаниями и навыками, то произойдёт самый важный и решающий процесс для современного общества – образование человеческого капитала. Каждый из нас появился на свет с определённым потенциалом, и долг каждого из нас, это усовершенствовать этот потенциал, укрепить его знаниями, навыками.

**Заключение**

Учитывая все приведённые выше примеры, можно сделать некоторые выводы. Современный мир развивается невероятным темпами, и чтобы быть и оставаться востребованным профессионалом в своём деле, нужно постоянно совершенствоваться, следить за тенденциями, а так же никогда не бояться сделать шаг вперёд. Совам Пророка Мухаммада: «Приобретайте знания от колыбели до могилы», должны стать девизом для каждого, кто хочет стать востребованным специалистом, а самое главное человеческим капиталом.

## Литература


1. Azerbacan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası.
2. Azerbaycan Respublikasının "Təhsil haqqında" qanunu.
3. Azerbaycan Respublikasının Təhsil Nazirliyi Tədris resurslarının idarə olunmasının məlumat sistemi.
4. Р.С.Мамедова. Современных технологий обучения (по химическим наукам)". Издательство АГПУ, Баку, 2021, 127 с.
5. Р.С.Мамедова, А.З.Залов. Практикум по курсу Современных технологий обучения (по химическим наукам, Издательство АГПУ, Баку, 2021, 64 с.
6. Р.С.Мамедова, В.С. Гасанов Р.К.Мамедова Об обязательных задачах, которые должны учитываться в процессе изучения химической науки, «Инновация, качества и развитие» Материалы III Международной научной конференции, Баку, 2014, 11-13 Июнь, с.151
7. https://gtmarket.ru/library/articles/3264
8. https://www.vsemirnyjbank.org/ru/publication/human-capital/brief/the-human-capital-project-frequently-asked-questions

# REGİONŞÜNASLIQ

## İNSAN KAPİTALI: PROBLEMLƏR, SƏMƏRƏLİ İSTİFADƏ VƏ PERSPEKTİVLƏR, İNSAN KAPİTALI İNKİŞAFININ MŞA ÖLKƏLƏRİNƏ TƏSİRİ

***Azərbaycan Dillər Universiteti***
***Mirbabalı Şəhla Miretimad qızı, magistrant***
***Elmi rəhbər: fəl.ü.f.d.,dos. N.Ə.Hüseynova***

***Xülasə***

Məqalə "İnsan kapitalı: problemlər, səmərəli istifadə və perspektivlər və İnsan kapitalı inkişafının MŞA ölkələrinə təsiri" mövzusuna həsr olunub.Mərkəzi və Şərqi Avropa ölkələrində insan kapitalının əhəmiyyət kəsb edir. Mərkəzi və Şərqi Avropa ölkələrində insan kapitalı və onun inkişafı üçün bir çox araşdırma, təhsil imkanları var. Bu imkanlar nəinki yerli əhali üçün hətta xarici ölkə vətəndaşları üçün də yaradılıb. Bu ölkələrin hər biri güclü iqtisadiyyata sahib olmaq üçün insan kapitalını inkişaf etdirməlidir.
***Açar sözlər:*** *İnsan kapitalı, onun inkişafı, insan kapitalının təşkilatlarda rolu, MŞA ölkələrində insan kapitalının əhəmiyyəti, rəqəmsal texnologiya, onun insan kapitalının inkişafında əhəmiyyəti.*

***Summary***

The article is related to the topic "Human capital: problems, effective use and prospects, opportunities and the impact of human capital development on the countries of the Central and Eastern European countries". These opportunities are created not only for the local population but also for the citizens of foreign countries. Each of these countries must develop human capital to have a strong economy.
***Key words:*** *Human capital, its development, the role of human capital in organizations, the importance of human capital in central and eastern europe countries, digital technology, its importance in the development of human capital.*

İnsan kapitalı əhali daxilində fərdlərin və ya qrupların malik olduğu maddi və qeyri-maddi resurslar başa düşülür. Maddi resurs dedikdə, daşınan, daşınmaz əmlakları misal göstərə bilərik. Qeyri-maddi resurs dedikdə isə hər hansı fərd və yaxud qrup təşkilatın bilik,bacarıq, qabiliyyəti anlaşılır. İnsan kapitalı konsepsiyası dedikdə təkmilləşdirilmiş məhsuldarlıq arasında oxşarlığı vurğulayan insan resursları kapitalizminin iqtisadi modelindən qaynaqlanır.

Ümumilikdə bu məsələni diqqətlə nəzərdən keçirsək görərik ki, insan resurslarının inkişafı üçün davamlı və uzun müddətli investisiyalara ehtiyyac var. İnsan kapitalına qoyulan sərmayələr milli və qlobal iqtisadi göstəricilərə belə təsir göstərir. İnsan kapitalizmi modeli iddia edir ki, iqtisadiyyatda istehsal qabiliyyətinin əsas mənbəyi insanların imkanlarına əsaslanır. Bu səbəblə də insan kapitalının potensialının gələcəkdə daha da inkişaf edib böyüməsi üçün öyrənmə sistemlərini inkişaf etmək gərəklidir.

Milli iqtisadiyyat üçün bu, yüksək iqtisadi məhsuldarlıq və milli həyat keyfiyyətinin saxlanması və ya yaxşılaşdırılması üçün sənayenin ehtiyyaclarına cavab verən keyfiyyətli işçi qüvvəsinin təmin edilməsini təmin etmək üçün təhsil müəssisələrinin islahatlarını tələb edə bilər. Təşkilat üçün bu model təklif edir ki, yüksək məhsuldarlıq və performans təşkilatın öz insan resurslarına sadiqliyini əks etdirən öyrənmə sistemlərinin inkişaf etdirilməsindən asılıdır. Nəticə etibarı ilə təlim və bacarıqların inkişafı işin zənginləşdirilməsinə davamlı investisiyalar üzvlər arasında təşkilati məqsəd və vəzifələrə qarşı qarşılıqlı öhdəlik yaradır *(European Commission. A Digital Agenda for Europe, COM (2010)245 Final. 2010).*

Müasir dövrümüzdə insan kapitalının idarə edilməsi bütün təşkilatlarda ənənəvi şəkildə yayılmışdır. Təşkilat və onun işçiləri arasında münasibətlərin naturasına təsir edən bütün idarəetmə qərarları və hərəkətləri önəmli hesab olunur. Nəticədə, bütün idarəetmə tədbirləri təşkilatın fəaliyyətinə təsir göstərmək üçün insan kapitalının potensialına müsbət və ya mənfi təsir göstərə bilər. Bu baxımdan, təşkilat insan kapitalının inkişafına töhfə verə bilsə də, onun mülkiyyət öhdəliyi hər bir şəxsin üzərinə düşür.

Kollektiv olaraq, təşkilat daxilində və istənilən vaxt mövcud olan bütün bilik və bacarıqlar insan kapitalı anlayışını təşkil edir. Müsbət performansa nail olmaq üçün bu istedadın mövcud olmasına baxmayaraq, idarəetmə təcrübələrinin məcmusunun arzu olunan təşkilati məqsədlərə doğru fərdi və qrup münasibətlərinə və davranışlarına təsir göstərəcək şəkildə bu insan kapitalı fondundan ardıcıl şəkildə istifadə edilməsi lazımdır.Təşkilatda qarşılıqlı öhdəlik müəyyən idarəetmə təcrübələri ilə performans arasında əlaqənin mövcud olduğunu göstərir.

İnsan kapitalının ümumi sayının kritik bir kütlədə cəmləşdiyi bir məqamda yüksək təşkilati performans mümkün görünür. Burada tam inkişaf etdirilmiş və lazımi şəkildə istifadə edilmiş insan kapitalı təşkilat səviyyəsində nəticələrə təsir göstərə bilər. Özəl sektorda empirik tədqiqatlar, bazar payı və gəlirlilik kimi firma səviyyəsində nəticələrə nail olmaqda başqalarından universal olaraq üstün olan xüsusi idarəetmə təcrübələrini müəyyən edir. Bu universal perspektiv müəyyən təcrübələrin yüksək performansa töhfə vermək üçün "ən yaxşı" kimi adlandırılmasına səbəb olmuşdur. Dövlət sektorunda belə bir əlaqə quran empirik tədqiqatlar çox azdır. Bu, hökumət səviyyəsində nəticələrin ölçülməsində və bu əlaqəni aydın şəkildə qurmaqda çətinliklərin nəticəsi ola bilər, çünki nəticələrə çox vaxt dövlət idarəçiliyinin nəzarətindən kənar çoxsaylı dəyişənlər təsir edir. Bununla belə, özəl sahibkarlıqda insan kapitalına müsbət təsir göstərdiyi düşünülən eyni yüksək idarəetmə təcrübələri dövlət idarəçiliyi islahatlarında tez-tez qəbul edilir.Özəl müəssisədə yüksək keyfiyyətli, sadiq və çevik işçi qüvvəsi ilə nəticələndiyi düşünülən təcrübələr də dövlət sektorunda məhsuldarlığa və performansa mühüm töhfələr kimi qəbul edilir *(Grossman, G.M.; Helpman, E. Quality ladders in the theory of growth. Rev. Econ. Stud. 1991,43-45).*

Təlim və inkişafda yüksək səviyyəli xərclər, işçilərin qeyri-mərkəzləşdirilmiş qərar qəbul etmə səlahiyyəti ilə gücləndirilməsi və iştirakın təşviq edilməsi, performansa görə ödəniş, özünü idarə olunan işçi qruplarından istifadə və çevik iş dizaynları, adətən, işdə təkmilləşdirilmiş performansla dövlət qurumları ilə əlaqələndirilir. Motivasiya nəzəriyyələri elə idarəetmə təcrübələrini dəstəkləyir ki, burada birinci prioritet işçilərin bacarıq və bacarıqlara malik olmasını təmin etmək və ikinci prioritet onlara problem həll etmə bacarıqlarını sınamaq imkanı verməkdir *(Hamilton C., Winters A., (1992), 'Trade with Eastern Europe', Economic Policy, 100-102).*

İnanc budur ki, işçilərin bacarıq və bacarıqlarının təkmilləşdirilməsinə böyük sərmayə qoymaq daha keyfiyyətli işçi qüvvəsinə gətirib çıxarır. Bu, dəyərli mükafatlar və problemin həllində rolla birlikdə daha çevik və yenilikçi olan işçi qüvvəsində daha çox səy, öhdəlik və motivasiya ilə nəticələnə bilər. Bu birləşmənin daha yüksək təşkilat performansı ilə nəticələndiyi düşünülür.

Rəqəmsallaşma təkcə iqtisadiyyatda deyil, həm də digər əhəmiyyətli sahələridə də böyük dəyişikliklərin səbəbidir,bütövlükdə cəmiyyətin transformasiya kursunun daha yaxşı başa düşülməsi ehtiyacını müəyyən edir. Rəqəmsal iqtisadiyyatın hamı tərəfindən qəbul edilmiş tərifi ola bilməz, bu anlayış bir çox vəsaitdə fərqli yöndə yanaşılıb. 2 formada yanaşma mövcuddur, ilkini nəzərə alsaq dar məna hesab edilir və anlayışı məhdudlaşdırmışdır və nformasiya və telekommunikasiya texnologiyaları, e-ticarət, rəqəmsal sahələrə dair məsələləri aid etmək olar. İkinci yanaşma, geniş mənada rəqəmsal iqtisadiyyatı süni intellekt, internet, virtual reallıq, blokçeyn, robototexnika anlayışlarını missal göstərmək olar *(Hanushek, E.A.; Woessmann, L. The Role of Cognitive Skills in Economic Development. J. Econ. Lit. 2008,658-660).*

21-ci əsrin rəqabət yönümlü qlobal iqtisadiyyatı innovasiyaların, texnologiyaların, istedad, bacarıq, məhsuldarlıq və məmnunluq kimi xüsusiyyətlərin axtarışındadır. Bu çərçivə daxilində hərəkət edən bütün təşkilatlar bütün bu xüsusiyyətlərlə fərqlənməyi bacaran, müəyyən istedada və bacarığa malik olan insanları intensiv şəkildə axtarırlar. İnsan kapitalı illər keçdikcə texnologiyanın inkişafı sayəsində müəyyən rəqəmsallaşma məsələsinə çevrilib. Bu gün rəqəmsal texnologiyalar insanların həyatında və onların həyatında daimi bir komponentdir buna misal kimi qlobal informasiya şəbəkələri bütün cəmiyyətin əhəmiyyətli dərəcədə var olmasını müəyyən edir *(European Commission. A Digital Agenda for Europe, COM (2010)245 Final. 2010).*

Qloballaşmanın və rəqəmsal texnologiyaların vacib olduğu 21-ci əsr iqtisadi artıma nail olan amillərdən başlayaraq qlobal miqyasda böyük dəyişikliklər yaradır və yeni iş yerlərinin yaradılması, məlumat və xidmətlərin sürətli şəkildə yayılması faktiki olaraq öz töhfəsini verir. Bu həm əhalinin rifahına müsbət təsir göstərir, həm də rəqəmsal cəmiyyətin inkişafına şərait yaradır (World

Economic Forum—WEF Digital Transformation of Industries Demystifying Digital and Securing $100 Trillion for Society and Industry by 2025, Industry Agenda).

Bu şərtlərlə rəqəmsal texnologiyalar, rabitə şəbəkələri, informasiya texnologiyaları bir çox problemlərin həlli üçün şərait yarada bilər. İnformasiya və Kommunikasiya Texnologiyaları rəqəmsal iqtisadiyyatda həm onun daxilindəki sektor kimi, həm də qabaqcıl istehsal alətləri kimi və əsas rol oynayır.

İnsan kapitalının inkişafı "təhsil sistemlərinin yaradılması" kimi də müəyyən edilir, insanlara öz bacarıqlarını, səriştələrini, biliklərini və bacarıqlarını inkişaf etdirmək üçün imkanlar və stimullar təmin edir. Mərkəzi və Şərqi Avropa ölkələrində insan resursları sosial-iqtisadi inkişafın ən mühüm hərəkətverici qüvvəsidir. Ən yaxşı şəkildə istifadə etmək buna görə də insan kapitalı davamlı və inklüziv inkişaf üçün vacibdir *(Grossman, G.M.; Helpman, E. Quality ladders in the theory of growth. Rev. Econ. Stud. 1991, 47-53).*

Ölkələrin hər birində vəziyyət fərqli olsa da, onların hələ də bir çox problemləri var və ümumi inkişafları nəzərə çarpacaq dərəcədə irəlidədir. Buna görə də hesabat regional həmyaşıdların öyrənilməsi üçün istinad təmin edə bilər. Hal-hazırda insan kapitalı tutumlu sənayelər İnformasiya Texnologiyaları ilə genişlənib. Zəngin, lakin kifayət qədər istifadə olunmayan insan kapitalı və dünyanın ən böyük alim və mühəndis aləminə görə, MŞA İT və bilik sahələrində müvafiq potensiala malikdir. Və bu bütün dünyada diqqəti cəlb edir. MŞA ölkələrinin insan resurs ehtiyacı olan sektoru lazımi qaydada dəstəklənərsə, bütün iqtisadiyyatın dirçəlməsinə və onun dünya bazarına inteqrasiyasına təkan verə bilər.

İnsan kapitalının iqtisadi inkişafın əsas determinantı olduğuna dair ümumi konsensus mövcuddur. Bununla yanaşı, dünyamızda mövcud insan kapitalı dəyişənlərinin diapazonu həm texniki, həm də nəzəri mənada çox genişdir, ona görə də müxtəlif insan kapitalı ölçüləri bəzən yalnız zəif korrelyasiya olunur. Bu, qismən ona görədir ki, onlar insan kapitalının yaradılmasına ayrılan resurslardan əməyin bazar dəyərinə əsaslanan pul dəyərinə qədər insan kapitalının müxtəlif aspektlərini əhatə edir. Beləliklə, müxtəlif tədbirlər çox fərqli nəticələrə səbəb ola bilər. Bu fərq xüsusilə XX əsrdə formal təhsilin kütləvi şəkildə genişlənməsini yaşayan və bazarın tələbi və ya institutların səmərəliliyi ilə həmişə uyğun gəlməyən Şərqi Avropada üstünlük təşkil edir. Nəticə etibarilə, yalnız nailiyyət rəqəmlərinə nəzər salsaq, görərik ki, 1990-cı illərdə Şərqi Avropa ABŞ-ın adambaşına düşən insan kapitalının təxminən 70-80%-nə malik idi. Lakin insan kapitalının bazar dəyərini ölçən metodlardan istifadə təxmini 10-20%-ə qədər azalmışdır *(Walwei, U. Digitalization and Structural Labour Market Problems: The Case of Germany; ILO Research Paper 2016, No. 17; International Labour Organization: Geneva, Switzerland, 2016,28-30).*

İnsan kapitalının rəqəmsallaşma yolu ilə də inkişaf etdiyi ölkələrə Mərkəzi və Şərqi Avropa ölkələrini də nümunə göstərə bilərik. İqtisadiyyatın rəqəmsallaşması sayəsində insan kapitalının inkişafı , həmçinin də əhalinin rifahını yaxşılaşması mühüm göstəricilərdən biridir.

İqtisadi ədəbiyyatda belə bir fərziyyə irəli sürülür ki, müvafiq insan kapitalı ehtiyatı iqtisadiyyatın rəqabətqabiliyyətli strukturunu təkmilləşdirir, onun yüksək texnologiya sektorunu stimullaşdırır və iqtisadi artıma təkan verir. Bununla belə, hələ də davamlı iqtisadi inkişaf baxımından geridə qalan bir çox keçid ölkələrinin təcrübəsi bu günə qədər olan sübutları dəstəkləmir.

Mərkəzi və Şərqi Avropa ölkələrində insan kapitalının əhəmiyyət kəsb edib, inkişaf etdiyi ölkələri- Estoniya, Macarıstan, Rusiya, Çexiya və Sloveniyadır. Bu ölkələr Mərkəzi və Şərqi Avropa regionunun "Avropa keçid iqtisadiyyat məkanı" adlanır.Rusiya Federasiyası digər adı çəkilən ölkələrə nisbətən informasiya texnologiyaları sektorunda ikiqat üstünlüklərə malikdir. Birincisi, Rusiya Sovet İttifaqından miras qalmış nəhəng texnoloji tədqiqat infrastrukturuna malikdir. İkincisi, İT innovasiyalarını təşviq etmək üçün yüksək təhsilli işçi qüvvəsi var. Belə əhəmiyyətli təcrübə bazası ilə Rusiya Hindistana bənzər kompüter proqram təminatının inkişafı üçün əsas mərkəzə çevrilə bilər. Rusiyanın hələ də geridə qalmasının səbəbini Reddinq modelinin genişləndirilmiş variantı ilə izah etmək olar, ona görə iqtisadi artım elmi-tədqiqat və təhsilə əlavə investisiyalar hesabına formalaşır. Keçid dövründə elmi-tədqiqat və təkmilləşdirmə və təhsil xərcləri azaldığından, aydındır ki, Rusiyanın adambaşına düşən ÜDM-i onun insan kapitalına xas

olan potensiala uyğun gəlmir. Həqiqətən də, insan kapitalının keyfiyyətinin pisləşməsinin uzunmüddətli perspektivdə mənfi təsirləri ola bilər. Bu problemi aradan qaldırmağın yeganə yolu insan kapitalı tələb edən sektoru inkişaf etdirəcək siyasət tədbirlərinin qəbul edilməsi, eyni zamanda qanunun aliliyinin və bazar stimullarının gücləndirilməsidir *(The Moscow Times, www.themoscowtimes.com).*

İnsan kapitalının inkişafı hər bir ölkə üçün milli prioritetdir. Şərqi Avropa regionunun keçid ölkələri yüksək təhsil səviyyəsi ilə gücləndirilmiş əhəmiyyətli insan kapitalına sahibdirlər. Həmçinin ölkə ərazisində yaşayan vətəndaşların da özlərinə zehni sərmayə qoyması da əsas məsələlərdəndir. Mərkəzi və Şərqi Avropa ölkələrində inkişafına görə öz yerini tutan ölkələrdən biri olan Rusiyada insan kapitalı bazası yetərincə möhkəmdir. Əhəmiyyətli dərəcədə insan kapitalı ehtiyyatı var. Bu ölkələrin hər birinin insan kapitalını inkişaf etdirməsi təqdirəlayiqdir *(Schultz, T. W. (1961), 'Investment in Human Capital', The American Economic Review, 15-17).*

Mərkəzi və Şərqi Avropa ölkələrində insan kapitalı və onun inkişafı üçün bir çox araşdırma, təhsil imkanları var. Bu imkanlar nəinki yerli əhali üçün hətta xarici ölkə vətəndaşları üçün də yaradılıb. Bu ölkələrin hər biri güclü iqtisadiyyata sahib olmaq üçün insan kapitalını inkişaf etdirməlidir. Bu inkişaf digər sahələrə- təhsil, səhiyyə, xidmət sahələrinə də təsir göstərir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. European Commission. A Digital Agenda for Europe, COM (2010)245 Final. 2010. Available online: https://eurlex.europa.eu/LexUriServ/LexUrierv.do?uri=COM:2010:0245:FIN:EN:PDF (accessed on 14 October 2020).
2. Grossman, G.M.; Helpman, E. Quality ladders in the theory of growth. Rev. Econ. Stud. 1991, 58, 43–61.
3. Hamilton C., Winters A., (1992), 'Trade with Eastern Europe', Economic Policy, 14, 77-116.
4. Hanushek, E.A.; Woessmann, L. The Role of Cognitive Skills in Economic Development. J. Econ. Lit. 2008, 46, 607–668.
5. Jandri´c, M.; Randelovic, S. Adaptability of the workforce in Europe—Changing skills in digital era. ZbornikRadovaEkonomskogFakultet u Rijeci 2018, 36, 757–776.
6. Schultz, T. W. (1961), 'Investment in Human Capital', The American Economic Review, 51, 1-17.
7. The Moscow Times, www.themoscowtimes.com
8. Walwei, U. Digitalization and Structural Labour Market Problems: The Case of Germany; ILO Research Paper 2016, No. 17; International Labour Organization: Geneva, Switzerland, 2016; pp. 1–38.
9. World Economic Forum—WEF Digital Transformation of Industries Demystifying Digital and Securing $100 Trillion for Society and Industry by 2025, Industry Agenda. Available online: https://reports.weforum.org/digital-transformation/wp-content/ blogs.dir/94/mp/files/pages/files/wef1601-digitaltransformation-1401.pdf (accessed on 20 October 2020).

# ŞUŞA ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ

*Sumqayıt Dövlət Universiteti*
*İbrahimov Təbriz Vaqif oğlu*
*Elmi rəhbər: B.M.Cəlalzadə*

***Xülasə***

Şuşa Azərbaycanın mədəniyyətini simvolizə edən gözəl şəhərlərdən biridir. Şuşa şəhərində təşkil olunan festivallar Azərbaycan mədəniyyətini dünya ölkələrinə tanıdılmasında misilsiz rol oynayır. Təəssüf ki, bu şəhər 30 ilə yaxın faşist, vandal ermənilərin nəzarətin olub. Ermənilər işğal etdikləri Şuşa şəhərində ciddi dağıntılar törətmişdilər. Bu dağıntılar sırasına Molla Pənah Vaqifin məqbərəsi, Aşağı Gövhər ağa məscidi, Yuxarı Gövhər ağa məscidi, Pənahəli xan sarayı, Xurşidbanu Natəvanın evini və b. daxildir. Azərbaycanın tarixinə aid mədəniyyət nümunələrini dağıtmaqda, məhv etməkdə məqsədləri vardır. Məqsədləri Şuşa şəhərində Azərbaycan tarixinə aid izləri silib, tarixi saxtalaşdırmaq, Şuşa şəhərini erməni şəhərinə çevirib dünyaya tanıtmaq idi. Şükürlər olsun onların bu istəkləri bir arzu olaraq ürəklərində qaldı.
***Açar sözlər:*** *Şuşa, Sərəncam, inkişaf, infrastruktur, mədəniyyət.*

***Summary***

Shusha is one of the beautiful cities symbolizing the culture of Azerbaijan. The festivals organized in the city of Shusha play an unparalleled role in introducing the culture of Azerbaijan to the countries of the world. Unfortunately, this city was under the control of fascist, vandal Armenians for almost 30 years. The Armenians had caused serious destruction in the city of Shusha they occupied. These ruins include the mausoleum of Molla Panah Vagif, the Lower Govhar Agha Mosque, the Upper Govhar Agha Mosque, the Panahali Khan Palace, the house of Khurshidbanu Nateva, etc. includes. They have the goals of destroying cultural examples related to the history of Azerbaijan. Their goals were to erase traces of Azerbaijani history in the city of Shusha, falsify history, turn Shusha into an Armenian city and introduce it to the world. Thankfully, these wishes remained in their hearts as a wish.
***Keywords:*** *Shusha, Order, development, infrastructure, culture.*

Şuşa şəhərindən danışıldığı zaman onun tarixinə nəzər salmaq, bilmək və insanları maarifləndirmək lazımdır. Şuşa şəhərini əhatə edən Şuşa qalasının əsasını 1752-ci ildə Qarabağ xanlığının əsasını qoyan Pənahəli xan (1748-1763) tərəfindən qoyulub. Şuşa şəhəri həmin vaxtdan etibarən Qarabağ xanlığının paytaxtı funksiyasını daşımağa başladı. Şuşa şəhərinin yerləşdiyi coğrafi mövqe əlverişlidir. Sıldırımlı qayalar Şuşa şəhərinə düşmən qüvvələrin hücumlarını dəf etmək imkan yaradırdı. Qarabağ xanlığı 1757-ci ildə Məhəmmədhəsən xan Qacarın, 1759-cu ildə Urmiya xanı Fətəli xan Əfşarın, 1780-1781-ci illərdə Quba xanı Fətəli xanın, 1795-ci ildə isə Ağa Məhəmməd xan Qacarın yürüşünə məruz qalmışdır. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşa şəhərini mühasirəyə aldı. 33 günlük mühasirədən sonra Şuşa şəhərinin ağsaqqalları müəyyən şərtlərlə şəhəri Qacara təslim edirlər. Şuşa şəhərinə daxil olan Ağa Məhəmməd şah Qacarın ömrü uzun olmur və sui-qəsd nəticəsində öldürülür. XIX əsrin əvvəllərində Qarabağ xanlığı coğrafi mövqeyi, təbii şəraiti kənar qüvvələrin diqqətini özünə cəlb edirdi. I Qacar- Rus müharibəsi gedişində 1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xan Qafqazdakı rus ordusunun komandanı Pavel Sisianovla Kürəkçay müqaviləsini imzalayır. Kürəkçay müqaviləsində ermənilərlə bağlı bir maddə yoxdu. Bu, ermənilərin "Şuşa şəhəri tarixi erməni ərazisi olub" iddialarının gerçək olmadığını sübut edən faktlardan biridir. 1822-ci ildə Qarabağ xanlığında xan idarəçiliyi ləğv olundu və Qarabağ əyaləti adı altında Çar Rusiyasının tərkibinə daxil olundu. 1828-ci ildə Qacarlarla bağlanan Türkmənçay müqaviləsinin XV maddəsinə görə, 1829-cu ildə Osmanlılarla bağlanan Ədirnə müqaviləsinə görə ermənilər Azərbaycanın qərb ərazilərinə - İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə və Qarabağ xanlığının ərazilərinə kütləvi surətdə köçürülmüşdü. Bu, həmin ərazilərdəki demoqrafik göstəricilərə böyük təsir göstərmişdi. Həmin ərazilərdə ermənilərin sayı azərbaycanlıların sayına nisbətdə çoxluq təşkil etdi. Bu sonralar ermənilərin azərbaycanlılara qarşı ərazi iddialarının yaranmasına gətirib çıxardı.

Xan qızı. Azərbaycanın gözəl şairəsi. Xeyriyyəçi Xurşidbanu Natəvan. Xurşidbanu Natəvan Şuşa şəhərində "Məclis-i üns" ədəbi məclisini himayə etmişdir. 1873-cü ildə Şuşa şəhərinə su kəməri çəkdirmişdir. İndi bu su kəməri " Xan qızı bulağı" adı ilə məşhurdur.

Şuşa şəhərində muğam sənəti inkişaf etmişdir. Şuşa şəhərində XIX əsrdən musiqi məktəbləri fəaliyyət göstərmişdir. Bunlardan biridə Kor Xəlifənin məktəbidir. Kor Xəlifənin məktəbi 1883-cü ildən 1893-cü ilə kimi fəaliyyət göstərmiş dini xarakterli musiqi məktəbi idi. Məktəb şəhərdə xəlifə vəzifəsində çalışan və dini işlərə nəzarət edən "Kor Xəlifə" ləqəbli Molla Əli Qarabaği tərəfindən açılmışdır. Burada dini elmlər geniş tədris olunsa da, Şərq şairlərinin və mütəfəkkirlərinin əsərləri, klassik muğamlar, onları oxumaq qaydaları, xanəndəlik sənətinin incəlikləri, musiqi nəzəriyyəsi və praktikası, muğam oxumaq, tar, kamança və digər musiqi alətlərində çalmaq da öyrədilir, klassik musiqi əhali arasında geniş tətbiq olunur, şagirdlər kamil musiqişünas, ədəbiyyatçı kimi yetişirdilər. Məktəbdə tez-tez poeziya və muğam müsabiqələri də təşkil edilir, daha çox istedadı olan gənclər üzə çıxardılır, onları həvəsləndirmək üçün mükafat verilirdi. Onillik fəaliyyəti dövründə Kor Xəlifənin məktəbi nəinki Qarabağda, həmçinin qonşu vilayətlərdə və İranda da tanınmışdı.

1969-1982-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik edən Heydər Əliyevin fəaliyyəti dövründə Şuşa şəhərinin mədəniyyətinimizin simvollarından birinə çevrilmişdir. 1982-ci ildə Şuşa şəhərində Molla Pənah Vaqifin məqbərəsinin açılışı oldu.

1989-cu ildən 1991-ci ilə kimi Şuşa şəhərinin Cıdır düzündə "Xarı bülbül" festivalı keçirilmişdir. 1992-ci il mayın 8-də Şuşa şəhəri erməni silahlı qüvvələri tərəfindən işğal olunduğu üçün bu festivalı keçirmək mümkün olmadı.

2020-ci il sentyabrın 27-də erməni silahlı qüvvələrinin cəbhə xəttində törətdiyi təxribata cavab olaraq Azərbaycanın silahlı qüvvələri əks hücum əməliyyatına başladı. 44 günlük Vətən Müharibəsində rəşadətli ordumuz 8 noyabrda Şuşa şəhərini düşməndən xilas etdi. 8 noyabrda prezident İlham Əliyevin çıxışında qeyd etmişdir : Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq! Biz səni dirçəldəcəyik!
Müharibədən sonra Şuşanın dirçəldilməsi, inkişaf etdirilməsi məsələsi gündəmdədir:

1. Ərazi minalardan təmizlənərək şəhərin təhlükəsizliyi təmin edilməlidir. Bununlada, Şuşa şəhərində quruculuq işləri sürətlənər.
2. Şuşa şəhərində quruculuq işlərinin sürətlənməsi nəticəsində şəhərdə yaşayış məntəqələri (kənd, qəsəbə, məhəllə), tarixi memarlıq abidələri, turizm üçün şərait yenidən təşkil olunacaq.
3. Şuşa şəhərinin əhalisini öz doğma torpaqlarında yerləşdirmək və onların sosial rifahının yüksəldilməsi
4. Şuşa şəhərində turizmi canlandırmaq və bununlada milli gəlirlərin artırılması
5. Şuşa şəhərinin iqtisadiyyatının canlandırılması üçün tədbirlər görmək və bu, Azərbaycanın iqtisadiyyatını gücləndirəcək
6. Şuşa şəhərindəki təbii resurslardan səmərəli istifadə etmək, xarici bazara çıxartmaq.
7. Şuşa şəhərində yeni iş yerlərinə Azərbaycan vətəndaşlarını cəlb edib Azərbaycandakı işsizliyin faiz göstəricisini aşağı salmaq. Bu, Azərbaycanın sosial rifahının yüksəldilməsi sahəsində böyük addımlardan biridir.
8. Şuşa şəhərində Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan tarixi memarlıq abidələrini bərpa etmək və Azərbaycanın milli tarixi dəyərlərinə sahib çıxmaq.
9. Şuşa şəhərinin yol infrastrukturunun təşkil edilməsi.

Turizm Şuşanın iqtisadiyyatında xüsusi yer tutur. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü turizm baxımından xüsusi üstünlüyə malikdir. 1992-ci ilədək Turşsu istirahət və müalicə zonası fəaliyyət göstərirdi. Bu zona Laçın yolunun üstündə və Daşaltı çayının yaxınlığında yerləşir. Turşsu müalicəvi vannaları ilə də məşhur idi.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Azərbaycan üçün strateji əhəmiyyət daşımaqla yanaşı, iqtisadi baxımdan da vacibdir. Bu yol Azərbaycanın digər ərazilərinin Şuşa şəhəri ilə birləşməsinə imkan verəcək. Xüsusən də Qarabağın dağlıq əraziləri ilə nəqliyyat əlaqəsinin formalaşmasına zəmin yaradacaq.

Ötən əsrin əvəllərində Şuşada 1700-ə yaxın ticarət obyekti qeydə alınıb və bu da şəhərin hələ bir əsr öncə də xüsusi iqtisadi potensiala malik olduğunu göstərir. 20.9 min hektar yararlı torpağı olan Şuşada kənd təsərrüfatında heyvandarlıq daha çox inkişaf edib.

2021-ci ilin yanvarında Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın mədəniyyət naziri Anar Kərimovla görüşdə Şuşada Xarıbülbül festivalının dirçəldilməsinin zəruriliyini xatırlatmış və bu folklor festivalının ənənəsinin yaxın vaxtlarda yenidən yaradılmasının zəruriliyini qeyd etmişdir *("Şuşanın strateji əhəmiyyəti" link: https://xezertv.info/gundem/sosial/8195-uann-strateji-hmiyyti.html).*

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu sərəncamla Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olunmuşdur. 2021-ci il mayın 12-i və 13-də Heydər Əliyev fondunun təşkilatçılığı ilə festival baş tutmuşdur. Festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxışı, xalq və klassik musiqidən ibarət proqram təqdim edilmişdir.

Tədbirə dəvətlilər arasında bir sıra ictimaiyyət və mədəniyyət xadimləri, Qarabağdan, o cümlədən Şuşadan olan tanınmış şəxslər olmuşdur.

Prezident İlham Əliyevin müvafiq sərəncam və göstərişləri ilə artıq işğaldan azad edilmiş ərazilərdə ilk zəruri bərpa işlərinə başlanıb. Prezident Şuşaya səfəri zamanı yolüstü Füzuli beynəlxalq aeroportunun təməlqoyma mərasimində təntənəli surətdə bəyan etdi: "Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə, müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi" ("Şuşa - tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhərdir." *(http://www.shusha-ih.gov.az/az/news/459.html)*

Şuşa şəhərində binalar müasir memarlıq üslubunda tikilməli, turizmin inkişaf imkanları nəzərə alınmalı, şəhərin quru təmiz havası və müalicə-sağlamlıq mərkəzi kimi funksiyası qorunub saxlanmalıdır. Şəhərdə insanlara bütün xidmət növlərinin yüksək səviyyədə nümunəvi təşkili təmin olunmalıdır. Şuşa şəhərində ölkəmizin incəsənət nümayəndələrinin, şairlərimizin ev muzeylərini, məscidlərimizi viran qoyublar. Amma Azərbaycan Qarabağı işğaldan azad etdikdən sonra orada sürətli quruculuq işləri aparmağa başladı. Xüsusilə Şuşa şəhərində ermənilərin dağıtdığı abidələr, ev muzeyləri, məscidlər sürətli şəkildə bərpa olunur. Sürətli yenidənqurma onun göstəricisidir ki, evin, torpağın sahibləri geri dönüb. Prezident İlham Əliyev azad olunan ərazilərdə həyata keçirdiyi quruculuq işləri ilə dünyaya mesaj verir ki, Qarabağ Azərbaycan torpağıdır və biz oranı cənnətə çevirəcəyik. İndi dünya görür ki, torpağın həqiqi sahibi kimlərdir".

2022-ci ilin iyun ayının 15-də iki qardaş ölkə - Azərbaycan və Türkiyə arasında imzalanan müttəfiqlik sənədi - Şuşa bəyannaməsi həm də bu doğma, müqəddəs şəhərə verilən böyük dəyər mənasında simvolik məna kəsb edirdi *("Qarabağın incisi Şuşa" adlı Elektron məlumat bazası).*

Bəyannamədə Zəngəzur dəhlizinə yer ayrılması hər iki ölkə üçün əhəmiyyətlidir: "Təkcə bu il ixrac həcmini 15-20 faiz artırmağı planlaşdıran Türkiyə ticarət dövriyyəsi 6 milyard dollara çatan Mərkəzi Asiya və 21 milyard dollar olan Çinlə iqtisadi əlaqələrdə Zəngəzur dəhlizindən istifadə edəcək. Hətta Zəngəzur dəhlizi Türkiyə-Rusiya iqtisadi əlaqlərinin də güclənməsinə imkanlar aça bilər. İxracyönümlü Türkiyə iqtisadiyyatı üçün Zəngəzur dəhlizi ixrac marşrutlarının şaxələndirilməsi deməkdir".

Yuxarıda qeyd olunduğu kimi tarixi abidələrimiz işğal zamanı ermənilər tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmışdı. Şuşanın işğalı dövründə dağıntıya məruz qalan tarixi abidələrdən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. Şuşa şəhərinin tarixi mərkəzində yerləşmiş bu saray həm də Pənahəli xanın iqamətgahı olmuşdur.

Erməni vandalizminin ağır nəticələrini özündə əks etdirən tarixi abidələrdən biri də Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksidir. Hazırda Şuşanın bu tarixi tikilisində də əsaslı bərpa işlərinə başlanılıb.

Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır. Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib. Tikili indi tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcək.

Şuşa şəhərinin genişmiqyaslı bərpa planına uyğun olaraq "Qarabağ" mehmanxanasında əsaslı təmir-bərpa işləri aparılacaq. "Qarabağ" mehmanxanası ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Lakin bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Hazırda Şuşada bərpa edilən mədəni mərkəzlərdən biri də Şuşa Xalça Muzeyidir. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb.

Tezliklə dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək Şuşa həm də xarici turistlərin diqqətini cəlb edəcək. Bu baxımdan şəhərdə "beş", "dörd" və "üç" ulduzlu otellərin tikilməsi zəruridir. Hazırda Şuşada yenidən qurulan Park oteldə işlər başa çatdıqdan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.

Beləliklə, yaxın gələcəkdə Şuşa özündə tarixiliklə müasirliyi əks etdirən, möhtəşəm tarixi zəfərimizin əsas rəmzi kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. "Qarabağın incisi Şuşa" adlı Elektron məlumat bazası.
2. http://www.shusha-ih.gov.az/az/news/459.html
3. https://xezertv.info/gundem/sosial/8195-uann-strateji-hmiyyti.html

# XXI ƏSRDƏ AZƏRBAYCAN-ABŞ ƏLAQƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Azərbaycan Dillər Universiteti***
***Ağazadə Samir Əflatun oğlu***
***Elmi rəhbər: dos.S.F.Əliyeva***

***Xülasə***

Təqdim olunan məqalə XXI əsrdə Azərbaycanın ABŞ ilə münasibətlərinə həsr olunub. Bu gün Azərbaycan ABŞ ilə siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq edir və bu, iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalədə Azərbaycanın ABŞ ilə iqtisadi əməkdaşlığı, parlamentlərarası əlaqələr və digər sahələrdə əlaqələr geniş şəkildə işıqlandırılır.
***Açar sözlər:*** *Azərbaycan, əlaqələr, ABŞ, siyasi, XXI əsr*

***Summary***

The presented article is devoted to the relations of Azerbaijan with the USA in the XXI century. Today, Azerbaijan is cooperating with the United States in political, economic, cultural, and other fields, and this important for strengthening relations between the two countries. The article widely covers Azerbaijan's economic cooperation with the United States, inter-parliamentary relations and relations in other areas.
***Key Words:*** *Azerbaijan, relations, USA, political, XXI century*

## Giriş

Azərbaycan - ABŞ əlaqələri hələ 1992-ci il 28 fevral tarixində qurulmuşdur. Ulu Öndər Heydər Əliyevin zamanında daha da inkişaf etdirilən əlaqələr XXI əsrdə daha da müstəsnə hal aldı. Dövlər rəsmiləri arasında32 dəfəişgüzar və rəsmi görüşlər keçirilmişdir. Bu öz növbəsində güclü qarşılıqlı əməkdaşlığın nümunəsidir. Bu günə qədər iki ölkə arasında 75 müqavilə imzalanmışdır.

Ümumən nəzər saldıqda isə soyuq müharibə bitdikdən sonra Amerika Birləşmiş Ştatları dünya liderliyi yarışında ilk pilləyə qalxdı. Məhz ABŞ kimi ölkə ilə hərtərəfli münasibətlərin qurulması olduqca mühüm əhəmiyyət daşıyır. İstər mədəni, istər iqtisadi, istərsə də digər sahələrdə qurulan əməkdaşlıqlar sözsüz ki, münasibətlərin möhkəmləndirilməsində mühüm əhəmiyyət daşıyır. Hazırda Azərbaycan və ABŞ ərazisində qarşılıqlı olaraq səfirliklər fəaliyyət göstərir.

Klinton administrasiyası dövründə ABŞ ilə Azərbaycan arasında münasibətlər xeyli yaxşılaşmışdı. Münasibətlər xüsusilə iqtisadi sahədə formalaşmışdı. Maraq sahələrinin aydın şəkildə müəyyən edilməsinə baxmayaraq, ABŞ-Azərbaycan münasibətləri bir sıra müsbət nəticələr vermişdi *(İbrahimov, 2014:1).*

1994-cü ildə imzalanan "Əsrin Müqaviləsi"-də ABŞ şirkətləri də yer almış və bununla da ABŞ şirkətlərinin Azərbaycandakı fəaliyyətində ilk addım atılmışdır. Daha sonra müxtəlif sahələrdə də bəzi ABŞ şirkətləri Azərbaycan bazarına daxil oldu. Lakin gəlirlilik səviyyəsinə görə "Əsrin Müqaviləsi" olduqca mühüm əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, bu əməkdaşlığın uzadılması barəsində2017-ci il 14 sentyabr tarixində Azərbaycan və onun beynəlxalq enerji tərəfdaşları arasında Azəri, Çıraq və Günəşli yatağının dərinsulu hissəsinin birgə işlənməsinin 2050-ci ilədək uzadılmasına dair yenilənmiş Hasilatın Pay Bölgüsü (HPB) sazişində də ABŞ-nin"Şevron" və "Ekson" şirkətləri yer almışdır. Bu iki ölkə arasındakı əməkdaşlığın bundan sonra da davam edəcəyinin nümunəsidir. Buna misal olaraq ABŞ, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini, xüsusilə Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsini dəstəkləyir. Bu xüsusda ABŞ-nin keçmiş prezidenti Donald Trump bir neçə dəfə bildirmişdir ki, "ABŞ Cənub Qaz Dəhlizinə qətiyyətlə sadiqdir və layihənin tamamlanması üçün Azərbaycan və onun beynəlxalq tərəfdaşlarının səylərini dəstəkləyir" Çıxışı zamanı keçmiş prezident D.Trump "Mən Azərbaycanın Xəzər dənizindən enerji resurslarının inkişafı və ixracı da daxil olmaqla qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsində rolunu yüksək qiymətləndirirəm" fikirlərini də bildirmişdir (Vikipediya).

2001-ci il ABŞ-də baş vermiş terror hadisəsindən sonra Buşun prezidentliyi dövründə iki ölkə strateji əlaqələrin yeni səviyyəsinə keçdi. ABŞ-nin Azərbaycanın dəstəyinə ehtiyacı olduğu üçün onun regiondakı prioritetləri dəyişdi. Azərbaycan ABŞ-a etibarlı və sabit tərəfdaş olduğunu açıq

şəkildə bildirdi. Azərbaycan həmçinin ABŞ-a "İraqın Azadlığı" əməliyyatında dəstək verib, ABŞ-a öz hava bazalarından istifadə etməyə və İraq müharibəsində iştirak etmiş sülhməramlı qüvvələrini yerləşdirməyə icazə verib *(İbrahimov, 2014:1).*

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və ABŞ-ın Xəzər Siyasi Mərkəzinin (Caspian Policy Center-CPC) birgə təşkilatçılığı ilə "Azərbaycan-ABŞ münasibətləri: Seçkilər və II Qarabağ müharibəsindən sonrakı proseslər" adlı beynəlxalq vebinar keçirilib.

CPC-nin Təhlükəsizlik və Siyasi Proqramlar üzrə rəhbəri Riçard Hoqlandın moderatorluq etdiyi tədbirdə təşkilatın icraçı direktoru Əfqan Nifti açılış nitqi zamanı bildirib ki, vebinar həm ABŞ, həm də Azərbaycan üçün çox əlamətdar bir vaxta təsadüf edir. Onun sözlərinə görə, təmsil etdiyi təşkilat ABŞ-Azərbaycan münasibətlərinin tədqiqinə, o cümlədən regionda, Xəzər hövzəsində baş verən hadisələrə böyük əhəmiyyət verir. Bu baxımdan ABŞ administrasiyasında dəyişiklik və Qarabağda silahlı münaqişə fonunda ABŞ-Azərbaycan münasibətlərinin müzakirəsinə ehtiyac var. Həmçinin görüş zamanı onlar Qarabağ məsələsinə də toxunub və müxtəlif həll yolları irəli sürüblər *(Aircenter.az, 2020).*

Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Bu işçi qrupu 1997-ci ilin 7 martında tarixində yaradılmış və ilk rəhbəri cənab İlham Əliyev olmuşdur. 2016-cı il 4 mart tarixindən isə Səməd Seyidov işçi qrupunun rəhbəridir. İşçi qrupana Milli Məclisin 10 üzvü daxildir. ABŞ Konqresində isə "Azərbaycan üzrə İşçi Qrupu" (24 mart 2004-cü ildən) fəaliyyət göstərir *(Vikipediya).*

Stiv Şabot və Stiv Koen Konqresdə Azərbaycan üzrə işçi qrupunun həmsədrləridir. İşçi qrupuna ABŞ Konqresinin 49 üzvü daxildir.Azərbaycanın Milli Məclisi və ABŞ Konqresi arasındamütəmadi olaraq qarşılıqlı səfərlər və görüşlər həyata keçirilir. Son dövrlərdə, xüsusilə də 2018 və 2019-cu illərdə Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin sədri, millət vəkili Səməd Seyidov, millət vəkilləri Sahibə Qafarova və Asim Mollazadədən ibarət nümayəndə heyəti paytaxt Vaşinqton şəhərində işgüzar səfərlərdə olmuşdur. Görüş zamanı müəyyən məsələlər müzakirə olunmuş və həll yolları irəli sürülmüşdür. Həmçinin 2018-ci ildə ABŞ Konqresinin Nümayəndələr Palatasının Hüquq Komitəsinin sədri Konqres üzvü Robert Qudlatın rəhbərlik etdiyi nümayəndə heyəti regiona səfər çərçivəsində Azərbaycanda da səfərdə olmuşdur. Nümayəndə heyətinə, həmçinin Konqres üzvləri Mayk Bişop, Kenni Merçant, Con Körtis, Kris Stüart, Henri Kuellar daxil olmuşdur. Nümayəndə heyətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Xarici İşlər naziri Elmar Məmmədyarov və Vergilər nazirləri ilə görüşləri keçirilmişdir. Bu səfərlə yanaşı, 2018-ci ildə Nümayəndələr Palatasının Kəşfiyyat üzrə Daimi Xüsusi Komitənin sədri Devin Nunes və Komitənin üzvü Erik Alan Krouford Azərbaycanda səfərdə olmuşdur *(Redaktor.az, 2019).*

ABŞ azərbaycanlıları və ya Amerika azərbaycanlılarıvə Cənubi Azərbaycandan gəlmiş etnik azərbaycanlıların təşkil etdiyi diaspora fəaliyyət göstərməkdədir. Əsasən ABŞ-nin Nyu-York, Vermont, Arizona, Florida, Ohayo, Konnektikut, Nevada, Texas, İllinoys kimi ştatlarında yaşayan bu nümayəndələr sosial, mədəni, siyasi və s. kimi məsələlərdə Azərbaycan Respublikasının dövlətçiliyinə və maraqlarına xidmət edən fəaliyyət göstərirlər. ABŞ-də azərbaycanlıların 30-a yaxın ictimai birliyi, bir jurnalı və bir televiziya kanalı fəaliyyət göstərir. ABŞ dövlət departamentinin verdiyi məlumata görə, Azərbaycan müstəqillik əldə etdikdən sonra 10,000 azərbaycanlı ABŞ vətəndaşlığına keçmişdir.Bunlardan 8,000-dən çoxu isə XXI əsrin payına düşür. Son illər ərzində ABŞ-nin həyata keçirdiyi "Green Card" proqramı çərçivəsində hər il 100-ə yaxın azərbaycanlı ABŞ da yaşamaq/çalışmaq şansı əldə edir *(Vikipediya).*

2022-ci il 19 aprel tarixində ABŞ səfirliyində"Azərbaycan-ABŞ diplomatik əlaqələrinin 30 illiyi" tədbiri təşkil edildi. Tədbir zamanı dəvət edilən qonaqlar ABŞ ordu qüvvələrinin müəyyən şəxsləri ilə görüşmə imkanı əldə etdilər. Görüş zamanı iki ölkə arasındakı əlaqələrin tarixi, mahiyyəti, gələcək perspektivlər və s. kimi məsələlər barəsindəqonaqlara məlumatlar verildi.

ABŞ-ın Azərbaycandakı səfiri Lee Litzerberger isə öz çıxışında qeyd etmişdir ki, "Azərbaycanın dostu kimi Birləşmiş Ştatlar sülhün tapılmasına və bütün regionun çiçəklənməsinə kömək etmək üçün iqtisadi, nəqliyyat və insanlar arasında əlaqələrin qurulmasına kömək etməyə

hazırdır" *(ABŞ-nin Azərbaycankı Səfirliyi, 2022).* Görünən odur ki, G-7 ölkələrindən olan ABŞ ilə hər sferada əməkdaşlığın dərinləşdirilməsi xarici siyasətdə əsas prioritet məsələlərdən hesab edilməlidir.

Qısa xülasə verməli olsaq, Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən etibarən dünyanın aparıcı ölkələri ilə sıx əməkdaşlıq yaratmışdır. Bunlardan ən önəmlisi də ABŞ dövlətidir. XXI əsrdə daha da inkişaf edən bu əməkdaşlıq prezident cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində çoxşaxəli hal almış və daha da genişlənmişdir. Son 15 ildə əldə olunan nəticələr bunu deməyimizə əsas verir. Düşünürəm ki, bu əlaqələrin gələcəkdə daha da dərinləşdirilməsi əsas prioritet məsələ olacaqdır.

### İstifadə edilmiş ədəbiyyat siyahısı


1. ABŞ-Azərbaycan münasibətləri // https://az.m.wikipedia.org/wiki/ABŞ–Azərbaycan_münasibətləri
2. ABŞ-nin Azərbaycandakı Səfirliyi. Diplomatik Münasibətlərin 30-cu İldönümü, 1 iyun 2022 // https://az.usembassy.gov/az/diplomatik-munasibətlərin-30-cu-ildonumu/
3. ABŞ-Azərbaycan münasibətləri və II Qarabağ münaqişəsinə dair beynəlxalq vebinar keçirilib, 18.12.2020 // https://aircenter.az/az/post/abs-azerbaycan-munasibetleri-ve-ii-qarabag-munaqisesine-dair-beynelxalq-vebinar-kecirilib-552
4. Milli Məclisdə ABŞ Konqresinin əməkdaşları ilə görüş keçirilib, 30.05.2019 // https://redaktor.az/news/country/61808-milli-meclisde-abs-konqresinin-emekdaslari-ile-gorus-kecirilib
5. Qrin Kard // https://az.m.wikipedia.org/wiki/Qrin_kard
6. Embassy of the Republic of Azerbaijan to the United States of America. Political Relations // https://washington.mfa.gov.az/en/content/72/political-relations
7. Ibrahimov Rovshen. US-Azerbaijan Relations: a view from Baku. Rethink Institute Washington DC, Rethink Paper17, October 2014

# FRANSADA DİN VƏ TƏHSİL

***Azərbaycan Dillər Universiteti***
***Uzunalova Lamiyə Elşən qızı***
***Elmi rəhbər: Ş.R.Əbdürrəhimova***

***Xülasə***

1905-ci il qərarına görə Fransada din dövlətdən ayrılmışdır. 1958-ci il qanunu ilə Fransa dünyəvi respublika adlandırılıb. Hal-hazırda Fransada dini təhsil almaq mümkündür. Amma dini təhsil yalnız özəl məktəblərdə keçirilir. Dini mənsubiyyət daşıyan əşyalarla məktəbə gəlməyə qadağa qoyulur. Nəticədə özəl məktəblər açılır. Fransada dini təhsil mərkəzləşdirilməmiş və mürəkkəbdir. Dini təhsilin çatışmayan cəhətləridə vardır. Buda uşaqların müvafiq bilikləri məktəbdən kənarda ala biləcəklərinin düşünülməsilə əlaqəlidir.
***Açar sözlər:*** *Fransa, kilsə, dini təhsil, özəl məktəblər, müsəlmanlar.*

***Summary***

According to the 1905 decree, religion is separated from the state in France. By the law of 1958, France was called a secular republic. Currently, it is possible to study religion in France. But religious education takes place only in private schools. It is forbidden to go to school with religious items. As a result, private schools are opened. Religious education in France is decentralized and complex. Religious education has its shortcomings. This is related to the assumption that children can acquire relevant knowledge outside of school.
***Keywords*****:** *France, church, religious education, private schools, Muslims.*

## Giriş

1905-ci il 9 dekabr tarixli "Kilsə və dövlətin ayrılması" haqqında qanunun dərcindən bəri Fransa dünyəvi dövlətdir. Vicdan azadlığı prinsipi inqilabla meydana çıxdı və 1905-ci ildə qəbul edilmiş qanun ilə tanındı. Beləliklə də, 1958-ci il konstitusiyasının 1-ci maddəsinə əsasən "Fransa dünyəvi Respublikadır". Məqalədə Fransanın özəl təhsil sistemində dini təhsilin müxtəlif təsvir və təzahürlərinin müqayisəli təhlilindən bəhs olunur.

Din dövlətdən ayrılsa da, hal-hazırda Fransada özəl məktəblərdə dini təhsil almaq mümkündür. Bunlardan biri də Böyük Paris Məscidinin nəzdində fəaliyyət göstərən və iki fakültəsi olan İslam İnstitutudur. Burada tələbələr ilahiyyat elmlərini və ərəb dilini öyrənirlər. Məscidin əsas vəzifəsi Fransadakı müsəlmanların şərəf və ləyaqətini qorumaq, onların hüquqlarını müdafiə etməkdir. Bu gün müsəlman təşkilatları çox geniş sosial istiqamətlər üzrə fəaliyyət göstərirlər: məscidlər, islam mərkəzləri, milli və dini təşkilatlar, təhsil müəssisələri, peşəkar və ictimai təşkilatlar, tələbə ittifaqları, gənclər və qadın hərəkatları və s. 1882-ci ildən etibarən dövlət dünyəvi məktəblərində dini təhsil ləğv edilib. Lakin həftənin bir günü (adətən çərşənbə günü) şagirdlərin məktəbdən kənarda dini təhsil alması üçün şərait yaradılırdı *(Allahyarova, 2015:32).* Hazırda Fransada müsəlmanların sayı çoxluq təşkil edir. Müsəlman ailələrindən olan uşaqlar adi dövlət dünyəvi məktəblərinə gedirlər və burada öz dini ayinlərinə hörmət və diqqət tələb edirlər. Xüsusilə kəskin formada bu problem müsəlman qızların məktəblərdə hicab taxmaq hüququnun olub-olmaması ilə bağlı mübahisədə formalaşdırılıb *(Сергей Соловьёв).* Beş milyona yaxın müsəlmanın yaşadığı Fransada 2004-cü ildə dövlət məktəblərində dini simvolların (məsələn; islamda hicab) qadağan edilməsindən sonra müsəlmanlar bu sahədəki boşluğu doldurmaq üçün öz özəl məktəblərini açmağa başlayıblar. Fransadakı özəl məktəblər dini təhsil proqramlarını və müəllimləri seçməkdə tamamilə sərbəstdirlər. Fransada özəl məktəblərdə açılan hər yeni sinfin dövlət tərəfindən tanınması üçün 5 il lazımdır. Özəl məktəblərin 8.500-ü katolik məktəbidir, 86-ya yaxın müsəlmanlara aid özəl məktəblər var *(Allahyarova, 2015:32).*

Fransanın dünyəvi siyasi mədəniyyəti, katolik irsi və islamla təlatümlü münasibətləri 21-ci əsrdə fransız cəmiyyətində dini təhsilin şərhlərinə, qavrayışlarına və siyasiləşdirilməsinə əhəmiyyətli təsir göstərmişdir. Dini təhsil Fransanın özəl məktəb sisteminə aid edildiyi üçün o, mərkəzləşdirilməmiş və mürəkkəbdir – xüsusən də Fransanın hipermərkəzləşdirilmiş ictimai təhsili ilə müqayisədə dini təhsilin plüralizmi və qeyri-mərkəzləşməsi müsəlman və müstəqil

təhsilin son dövrlərdə genişlənməsi ilə daha da dərinləşmişdir. 2012-ci ildən 2020-ci ilə qədər Fransanın on beşdən çox özəl müsəlman, katolik və dünyəvi məktəblərində fasilələrlə həyata keçirilən geniş etnoqrafik sahə işinə əsaslanaraq, katolik məktəbi nümayəndələrinin və xristian mədəniyyətini aşılayan guya "dünyəvi" məktəb nümayəndələrinin necə işləyə biləcəyini təsvir etmək olar. Müsəlman məktəblərində azadlıq sistemi üzrə dini təhsilə yanaşmalarda əhəmiyyətli fərqlərə baxmayaraq, müsəlman məktəblərində dini təhsil digər məktəb icmaları ilə tamamilə paraleldir. Buna baxmayaraq, müsəlman məktəb nümayəndələri ədalətli rəftar üçün qeyri-mütənasib maneələrlə üzləşirlər. Bu ayrı-seçkiliyin mürəkkəbliyi və qeyri-müəyyənliyi ilə asanlaşdırılır və fransız məktəblərində gənclərə müsəlman mədəniyyətinin ötürülməsini məhdudlaşdırmaq səylərini təmsil edir. Fransada baş verən son terror hücumlarından sonra (2018-ci il) prezident Emmanuel Makron məktəblərdən başlayaraq "islam separatizmi" kimi gördüyü şeylərlə mübarizə planlarını irəli sürmək niyyətində olduğunu sərgiləyir. Noyabrın 18-də elan edilən yeni qanun layihəsi sağlamlıqla bağlı çox məhdud hallar istisna olmaqla, 3 yaş və yuxarı uşaqların evdə təhsil imkanlarını ləğv ediləcək. O, həmçinin müstəqil məktəblərə nəzarəti artıraraq davamiyyəti izləməyi asanlaşdırmaq üçün məktəb yaşlı uşaqlara milli identifikasiya nömrələri təyin edəcək *(Carol Ferrara, 2022).* Qanun layihəsi Fransanın dünyəvi "respublika prinsiplərini" gücləndirmək ətrafında qurulsa da, bir çoxları tərəfindən, Daxili İşlər Naziri Jerald Darmaninin sözləri ilə desək, Fransa uşaqlarını "xilası" üçün gəncləri erkən dövlət məktəblərinə sövq etmək yolu kimi qiymətləndirilir. Məktəblərə bu şəkildə diqqət yetirilməsi yenilik deyil. 2018-ci ildə Fransa hökuməti məcburi təhsil yaşını 6 ildən 3 ilə dəyişdirən və müstəqil özəl məktəbin açılmasını və fəaliyyətini xeyli çətinləşdirən "Qatel qanunu"nu təqdim etdi. Qanun layihəsi həmçinin məktəb direktorlarının, o cümlədən orta və lisey müəllimlərinin Fransa vətəndaşı olmasını tələb edirdi – bəzilərinin fikrincə, bu bənd müsəlman məktəblərinə qeyri-mütənasib şəkildə təsir edir. İslahatlar Fransanın yüksək dərəcədə mərkəzləşdirilmiş dövlət məktəb sisteminin bütün fransız gəncləri üçün düzgün seçim olduğunu və alternativ təhsil seçimlərinin, xüsusən də müsəlman məktəblərinin məhdudlaşdırılmasının radikallaşmadan, separatizmdən və dünyəvi fransızlara zidd olan təlimlərdən qorunacağını güman edir *(Mireille Estivalèzes, 2003).*

Fransız təhsilinin digər müasir problemi dünyəvi məktəbin mövcud olduğu illərdə dini mədəniyyətin hətta dünyəvi ruhda tədrisinə çox az diqqət yetirilməsi ilə bağlıdır. Uşaqların müvafiq bilikləri məktəbdən kənarda da ala biləcəyinə inam vardı: ailədə, kilsədə və s. Ancaq sonda məlum oldu ki, bir çox fransız indi həqiqətən Pasxa bayramının nə olduğunu və xristianların bu günü niyə qeyd etdiyini izah edə bilmir. Aydındır ki, dünyəvi məktəb xristianlıq və onun tarixi haqqında biliklərin ötürülməsi funksiyasını öz üzərinə götürməzsə, bu, milli mədəniyyətin yoxsullaşmasına səbəb ola bilər. Bəs dünyəvi məktəbdə dini ənənələri necə öyrənmək olar? Əgər bu, dünyəviliyin tələblərinə tam uyğunlaşdırılarsa, onda yalnız dinin tarixindən danışmaq lazımdır *(Сергей Соловьёв).*

Digər tərəfdən, iyerarxlar başa düşürlər ki, dövlət məktəblərində müvafiq mövzular tədris edilməsə, katolikliyin təsiri daha da sürətlə azalacaq. Məsələ getdikcə daha da kəskinləşir, çünki məktəbdə təkcə xristianlıq deyil, islam, yəhudilik də öyrənilməlidir, belə ki, tələbələr arasında müxtəlif dinin nümayəndələri - katoliklər, protestantlar, yəhudilər, müsəlmanlar, o cümlədən ateistlər var. Yeganə çıxış yolu tədrisin neytrallığıdır ki, bunu da ancaq dünyəvi məktəb təmin edə bilər *(Сергей Соловьёв ).*

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Allahyarova T., Novruzova L. Qərbi Avropada Müsəlman İcmaları: Fransa Və Almaniya Nümunəsində. 2015
   Carol Ferrara. Religious education in French private schools: Categories, conflations, and inequities: 2022.
2. Mireille Estivalèzes. Teaching about religion in the French education system. 2003.
3. Сергей Соловьёв. Во Франции введение религиозных дисциплин привело бы к гражданской войне. URL://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://scepsis.net/library/id_9.html&ved=2ahUKEwjH5fG1o_76AhX6X_EDHYDZDz0QFnoECB4QAQ&usg=AOvVaw2p4JDZ88f-CR8kDQ-rvRmQ
4. Преподавание религиозных фактов во Франции.

# FRANSADA GENDER SİYASƏTİNİN TARİXİ VƏ HÜQUQİ TƏNZİMLƏNMƏSİ

***Azərbaycan Dillər Universiteti***
***Nəbiyeva Fidan Rüstəm qızı***
***Elmi rəhbər: Ş.R.Əbdürrəhimova***

***Xülasə***

Gender bərabərliyi əsas insan hüququdur və məlum olduğu kimi bütün dünyada əsas prioritetdir, həmçinin kişi və qadınları fərqləndirən bioloji və fizioloji xüsusiyyətləri istinad edir. Bir çox ölkələr kimi Fransa da kişilər və qadınlar arasındakı bərabərliyi tənzimləməyə çalışır.

Təqdim olunan məqalədə Fransanın gender tarixindən, ən fəal feminist hərəkatlarından bəhs olunur. Bundan əlavə o dövrdə qadınların öz hüquqları naminə apardıqları mübarizə, gender siyasətinin hüquqi tənzimləmələri və qüvvəyə minən bir sıra bəyannamələrin tərtibi qeyd olunmuşdur.
***Açar sözlər :*** *Fransa, feminizm, gender tarixi, tənzimlənmə, bərabərlik, bəyannamə.*

***Summary***

Gender equality is a basic human right and, as is well known, a top priority around the world, it also refers to the biological and physiological characteristics that distinguish men and women. Like many countries, France is trying to regulate equality between men and women.

The presented article also discusses the history of gender in France and the most active feminist movements. In addition, the struggle of women for their rights, the legal regulations of gender policy and the compilation of a number of declarations that came into force are mentioned.
***Keywords:*** *France, feminism, gender history, adjustment, equality, declaration.*

Siyasət konkret bir problemi həll etmək üçün hazırlanan və icra edilən hədəfli fəaliyyət istiqamətidir və bir çox sahələri əhatə edir. Bunlardan biri də gender siyasətidir. Gender siyasəti rejimləri, ictimai hərəkatları, bir sözlə, gender statusunu qiymətləndirməyi hədəfləyən bir sahədir. Ümumiyyətlə, gender bərabərliyi bütün dünyada əsas prioritetdir və insan hüquqlarının əsas xüsusiyyəti hesab olunur. Gender əsaslı tarixi təhlilə nəzər salsaq, qeyd edə bilərik ki, bütün ölkələr, xüsusilə Fransa qadınların tarixə zəif inteqrasiyasından şikayətlənir. Fransa tarixçilərinin cins məsələsinə olan münasibətlərini mühakimə etsək, Fransada bu haqda düşüncə tərzinin olduqca spesifik olduğunu görərik. Gəlin kifayət qədər mübahisə doğuran bir vəziyyətə bir qədər aydınlıq gətirməyə çalışaq.

Fransada gender bərabərliyi prinsipi 1789-cu il İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinə istinad edən 1946-cı il konstitusiyasının preambulasında təqdim edilmişdir. 4 oktyabr 1958-ci il konstitusiyasının 3-cü maddəsində isə deyilir: "Qanun qadınların və kişilərin seçki mandatlarına və seçki funksiyalarına bərabər çıxışını təmin edir." Hələ 1848-ci ildə Fransada keçirilən ümumi doktrinada qeyd olunurdu ki, "bütün cəmiyyətlərdə ictimai həyat kişilərə məxsusdur və qadınların varlığı mahiyyətcə məişət xarakterlidir" *(Auguste Compte, 1848).* Əks cins nümayəndələrinin dünyasının bu utopik qavrayışı və bütün bu baş verənlər nəticədə feminizm dalğasının başlanğıcına səbəb oldu. Fransız feminizmi ilk dəfə 1789-cu il inqilabi hərəkatında qadınların inqilab prinsiplərindən kənarda qalmasına etiraz olaraq ortaya çıxdı. İnqilabın mühüm mərhələsi 1789-cu il İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin qəbulu ilə başladı. Belə ki, bu sənəddə elan edilən hüquqlar yalnız yaşı 25-dən yuxarı olan və müəyyən məbləğ ödəyən fransız kişilərinə aid edilirdi. Olimpia de Quj bu bəyannaməyə cavab olaraq 1791-ci ildə Qadınların və Qadın Vətəndaşların Hüquqları Bəyannaməsini hazırladı *(Krall Kyra, 2020 ).* Lakin o zamankı hakimiyyət və cəmiyyət bunu dərk edə biləcək qədər inkişaf etməmişdi, ona görə də, Olimpia öz təşəbbüsünün qurbanı oldu və edam edildi.

1960-cı illərdən başlayaraq bir sıra ölkələrdə feminizmin ikinci dalğasının güclənmişdi. Fransada isə feminist hərəkatı 1968-ci ilin mayında vətəndaş iğtişaşları dövründən sonra öz zirvəsinə çatdı. 1965-ci ildə evli qadınlara həyat yoldaşlarının icazəsi olmadan işləməyə icazə verildi və 1967-ci ildə doğuma nəzarət qanuniləşdirildi. 1970-ci ildə kişilərin ailələri üzərində səlahiyyəti ləğv edildi, yəni uşaqlarla bağlı qanuni qərarlar artıq yalnız ata tərəfindən verilmirdi.

Həmin dövrdə baş verən digər diqqətəlayiq hadisə isə, Jizel Halimi və Simon de Bovuar tərəfindən birgə yazılan və 1971-ci ildə nəşr olunan, abort etdirdiklərini iddia etməyə cəsarət göstərmiş 343 qadının Manifestidir. Nəticədə, 1975-ci ildə kontrasepsiya hüququ qanuniləşdirildi *( Chaperon Sylvie, 1971).*

Yalnız İkinci Dünya Müharibəsi dövründə faşizm üzərində qələbədən sonra fransız qadınları feministlərin uzun müddət uğrunda mübarizə apardıqları bərabər hüquqlara sahib oldular. Yeni Respublika elan etdi: "Qanun qadına hər sahədə kişi hüquqları ilə bərabər hüquqlara təminat verir". Qadınların bərabər hüquqlar uğrunda uzun sürən mübarizəsi nəhayət qələbə ilə nəticələndi *(Françoise Picq, 2002).*

Əvvəlki hadisələr nəzəri feminizmin yüksəlişinə ilham verdikdən sonra, qadınlar əmək haqqı bərabərliyi, boşanma, təhsil hüququ və b sahələrdə olan bərabərsizliyi aradan qaldırmaq üçün müxtəlif mövzularda həmkarlar ittifaqları, komitələr və s. qurdular. Qadınlar və kişilər arasında peşəkar bərabərliyin beynəlxalq səviyyədə nəzərə alınmasını təmin edən iki əsas qurum kimi Birləşmiş Millətlər Təşkilatı və Beynəlxalq Əmək Təşkilatını qeyd edə bilərik. Bundan əlavə, Mnemosyne Beynəlxalq Qadın Tarixi Araşdırmaları Mərkəzi, Qadın Tarixinin və Genderinin İnkişafı Assosiasiyası, "Genre en action" ("Fəaliyyətdə olan cins") Frankofoniya şəbəkəsi, Qadınların Azadlıq Hərəkatı (Mouvement de libération des femmes - MLF) və saysız hesabsız qurumlar mövcuddur ki, cəmiyyətdə qadınlar və kişilər arasıdakı gender balansının saxlanılması, bərabər hüquq və imkanların təmin edilməsi üçün fəaliyyət göstərirlər.

Fransada bu istiqamətdə bir sıra yeni qanunlar da qəbul olunmuşdur. Məsələn; 13 iyul 1983-cü il tarixli qanun (Roudi Qanunu) məşğulluq, peşə təhsili ilə bağlı kişilər və qadınlar arasında bərabər rəftar prinsipinin həyata keçirilməsi ilə əlaqəlidir. Qadınlar və kişilər arasında bərabər əmək haqqı haqqında 23 mart 2006-cı il tarixli qanun da mövcuddur ki, 31 dekabr 2010-cu il tarixinədək əmək haqqı boşluqlarının aradan qaldırılması, peşə bərabərliyi ilə bağlı danışıqların aparılması öhdəliyi daşıyır *(Les services de l'État dans le Rhône, 2015).* Həmçinin burada Gender Bərabərliyi İndeksi işə salınmış, iş yerlərində gender yönümlü digər bərabərsizliklər də aradan qaldırılmışdır.

Fransa gender bərabərliyi ilə bağlı qanunvericiliyə malik olsa da, milli siyasət sənədlərində gender əsaslandırmasına ilk açıq istinadlar yalnız 2000-ci ildə ortaya çıxdı. Bununla belə, gender əsaslandırması 1990-cı illərin sonu və 2000-ci illərin əvvəlindən cəmiyyətdə və dövlət siyasətində gender bərabərliyini təşviq etmək üçün bir yol kimi inkişaf etdi *(European İnstitute for Gender Equality).* 2001-ci ildən etibarən gender bərabərliyi siyasətlərinin xülasəsi 2010-cu ildə Gender Bərabərliyi üzrə hərtərəfli Transversal Siyasət Sənədinə çevrilən Maliyyə Qanununun Orientasiya Aktına (Loi d'orientation de la loi de finance, LOLF) daxil edilmişdir. 2012-ci ildən bəri gender bərabərliyi siyasəti 4 avqust 2014-cü il tarixli qanuna əsasən, gender bərabərliyi siyasətində əsas rol oynayan hökumət, yerli və regional hakimiyyət orqanları tərəfindən fəal şəkildə həyata keçirilir.

Qadın Hüquqları və Gender Bərabərliyi Xidməti gender əsaslandırma ölçüsü ilə fəaliyyət planlarının həyata keçirilməsinə cavabdehdir. Hazırda gender bərabərliyi üzrə iki əsas Milli Fəaliyyət Planı mövcuddur ki, onlar gender əsaslandırma yanaşmasına əsaslanır. 2016-2020-ci illər üçün iş yerində gender bərabərliyi üzrə ilk Nazirliklərarası Plan (Plan interministériel en faveur de l'égalité professionnelle entre les femmes et les hommes, PIEP) məşğulluqda qadınlar və kişilər arasında struktur bərabərsizliyi ilə mübarizə aparmaq məqsədi daşıyır *(European İnstitute for Gender Equality).*

Qanunvericilikdəki son dəyişikliklərə nəzər salsaq, Fransada 2012-ci ildə rəsmi anket sənədlərindən "Mademoiselle" müraciət formasının çıxarılmasını görə bilərik. Qadının evli olub-olmamasını bilməyin heç bir açıqlaması yoxdur, necə ki, kişi üçün yoxdur, qadın üçün də bu, keçərli olmalıdır. Bundan əlavə, Fransa 2013-2017-ci illər üçün "gender və inkişaf" strategiyasını həyata keçirdi. Qadın hüquqlarının müdafiəsi, gender bərabərliyinin təşviqi və gender əsaslı zorakılığa qarşı mübarizə Fransanın insan hüquqlarının təşviqi və müdafiəsi baxımından xarici fəaliyyətinin əsas prioritetlərindən birini təşkil edir. Fransız qadınlarının son illərdə siyasi arenaya girməsi ilə azadlıq, bərabərlik və qardaşlığın universal şəkildə tətbiq edilməsi məqsədi Fransada gender siyasətinin diqqət mərkəzinə çevrilmişdir. Fransanın hazırkı prezidenti Emmanuel Makron

2017-ci ildə “Demokratiyanın ikinci cinsi ” (“Le deuxième sexe de la démocratie”) Qadın və Kişi Bərabərliyi Katibliyini yaratmışdır *(Spiegel Taru , 2019).*

Nəticədə, cəmiyyətin bir-birindən fərqli iki cinsdən ibarət olması, cinslərin qeyri-bərabərliyi cəmiyyətdə özünü müxtəlif cür göstərir. Amma unutmamalıyıq ki, əsl gender mahiyyət etibarilə ancaq qadının kişi hakimiyyətindən azad olmasına yönəlmiş konsepsiyalar olmayıb, daha çox bəşər cəmiyyətinin, xüsusilə də bütün cinslərdən olan insanların bərabər hüquqlara, vəzifələrə və imkanlara malik olmasıdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Auguste COMTE. Discours sur l’ensemble du positivisme, ou exposition sommaire de la doctrine philosophique et sociale propre à la grande république occidentale. Paris, juillet 1848.
   URL:https://www.cairn.info/revue-d-histoire-moderne-et-contemporaine-2000-4-page-805.htm
2. Kyra Krall. A Brief History of French Feminism. 2020
   URL:https://www.feministsinthecity.com/blog/a-brief-history-of-french-feminism
3. Sylvie Chaperon- Manifeste de 343, 5 avril 1971.
   URL: https://www.france-memoire.fr/dossiers/manifeste-des-343/
4. The History of Feminist Movements in France 28 avril 2002 de Françoise Picq
   URL: http://francoisepicq.fr/the-history-of-feminist-movements-in-france/
5. Les fondements juridiques de l'égalité professionnelle 01.10.2015.
   URL :https://www.rhone.gouv.fr/Politiques-publiques/Droit-des-femmes-et-egalite/Egalite-professionnelle/Fondements-juridiques
6. European İnstitute for Gender Equality.
   URL: https://eige.europa.eu/gender-mainstreaming/countries/france
7. Feminism and “Égalité”: France Makes Gender Equality a Global Cause
   July 14, 2019 by Taru Spiegel.

# FRANSADA DİNİ MÜXTƏLİFLİK, DİNLƏRARASI VƏ MƏZHƏBLƏRARASI MÜNASİBƏTLƏR

***Azərbaycan Dillər Universiteti***
***Hacızadə Sevinc Tofiq qızı***
***Elmi rəhbər: Ş.R.Əbdürrəhimova***

***Xülasə***

Fransa dünyəvi bir dövlətdir. 1905-ci ildən kilsə və dövlət rəsmi olaraq ayrılmışdır. Burada müxtəlif dinə mənsub insanlar daim yaşamışlar. Fransada min illər boyu məzhəblərarası mübarizələrin baş verdiyi ölkə olmuşdur.Tarix boyu müxtəlif dinə, məzhəbə sahib olan insanlar arasında mübahisələr baş vermişdi. Bu məqalədə müəllif Fransada islama nifrət, islamafobiya haqqında məlumat verir. Məqalədə islamofobiyanın necə yarandığı, hansı təhlükələr törədə biləcəyi haqqında geniş məlumat verilir.

Həmçinin müəllif oxuyucuların diqqətini anti-semitizimə də çəkir. Müasir dövrdə də yəhudilərə qarşı törədilmiş cinayətlərdən söhbət açır. Sonda müəllif bütün bu baş vermiş problemlərin aradan qaldırılması yolunu araşdıraraq təqdim edir.
***Açar sözlər:****islamofobiya,anti-semitizm , din tarixi, Fransa,dini müxtəliflik.*

***Summary***

France is a world country. In 1905, the state was officially separated. People of different religions have always lived here. France has been a country of sectarian struggles for thousands of years. Throughout history, there have been disputes between people of different religions and sects. In this article, the author reports on Islamophobia and Islamophobia in France. The article provides extensive information about the causes of lamophobia and its dangers. The author draws readers' attention to anti-Semitism. Crimes committed against Jews in modern times are discussed here. In the end, the author suggests to explore the way to overcome all these problems.
***Keywords:*** *Islamophobia, anti-Semitism, history of religion, France, religious difference.*

## Giriş

Fransa dünyəvi bir dövlətdir, 1905-ci ildən kilsə və dövlət rəsmi olaraq ayrılıb. Beləliklə, 1958-ci il konstitusiyanın 1-ci maddəsinə görə Fransa dünyəvi Respublikadır *(Publique, 2021).*

Fransada müxtəlif dinlər-xristianlıq, islam, rotestantizm, iudaizm, buddizm, hinduizm, rus pravoslavlığı, sıxizm və s. mövcuddur ki, bu da onu çoxkonfessiyalı ölkə edir. 2019-cu ilin statistik göstəricilərinə görə Fransa əhalisinin 41%-i katoliklərdən ibarətdir. Burada həmçinin 5% müsəlman, 1% buddist və 1% iudaizm yaşayır. İslam Fransada katoliklikdən sonra ikinci ən böyük din hesab olunur. Müsəlmanların ən çoxu Fransaya 1950-1960-cı illərdə müstəmləkəsizləşdirmə dövründə köçmüşdür. Bu miqrantların çoxu Məğribdən (Afrikanın şimal-qərbi) - Əlcəzair, Mərakeş və Tunisdən gəlib. Bu gün Fransa Avropa İttifaqında ən çox müsəlman əhalisinə sahib olan ölkədir *(Cultural Atlas Scroope, 2017).*

Fransa müsəlman immiqrantlara ölkəyə daxil olmaq hüququ versə də, onlar üçün cəmiyyətlə tamamilə qaynayıb-qarışmaq imkanı yaratmamışdır. Fransanın timsalında multikulturalizmin böhranının səbəbi müsəlman icmaları ilə bağlı deyil, əksinə, islamofobiya ilə əlaqədardır. İslamofobiya –"islam qorxusu" mənasını verən termindir və bir məfhum kimi ədəbiyyata ötən əsrin 70-ci illərində daxil olmuşdur. İslamofobiya dedikdə islamdan və müsəlmanlardan qorxma başa düşülür. İslamofobiya, əsasən Qərb ölkələrində, o cümlədən Fransada geniş yayılmış bir ideologiyadır.

Tarixən Fransadakı müsəlmanlar din və müxtəlifliyə mühafizəkar baxışları ilə seçilən fransızların ksenofobiya və nifrət nümayişlərinə məruz qalıblar.

Fransa müsəlman icması irqi xurafat və dini ayrı-seçkiliklə üz-üzədir. Burada müsəlmanların bu cür damğalanması ölkədə illərcə baş verən müxtəlif terror hadisələrindən qaynaqlanır. Radikal islamçıların bir neçə nəfərin ölümünə səbəb olan bu terror aktları hələ də fransızların beynində lövbər salıb və bütün müsəlmanların mümkün terrorçu olmasının "ümumiləşdirilməsinə" səbəb olub, bu da bəzi praktika və simvollara zidd olan qanunların həyata keçirilməsinə səbəb olur *(İmpakter, 2022).* Müasir dövrdə isə 11 sentyabr 2001-ci ildə Nyu-York şəhərində baş verən terror

hadisəsi bu nifrət hissini daha da alovlandırmışdır. Lakin islamofobiya anlayışı əvvəllər də mövcud olmuşdur.Orta əsrlər dövründə müşahidə olunan səlib yürüşlərini islamofobiyanın ilkin təzahür formaları hesab etmək olar. İslamofobiyanın davam etməsinin bir digər səbəbi isə Qərb ölkələrinin başçılarının baş verənlər qarşısında susqunluqlarını davam etdirmələri və ya müəyyən vaxtlarda bu kimi şeylərə dəstək göstərmələridir.

Fransada prezident seçkiləri zamanı siyasətçilər ictimai dəstək qazanmaq üçün islamofobiyadan və "ekstremizmə qarşı mübarizə"dən istifadə edirlər. Bu vəziyyət Fransada mövcud olan irrasional islamofobiyanı ən yüksək səviyyədə nümayiş etdirir və yeganə məqsəd Fransa cəmiyyətində müsəlmanları marginallaşdırmaqdır *(Human Rights pulse Tayara, 2012).* Əlbəttə, bu cür yanaşma bütün fransız xalqını təmsil etmir. Fransızların heç də hamısı islamofob deyil. Əlbəttə, yox. Bununla belə, islamofobiya köklü bir reallıq olaraq qalır. İslamın sosial bəla olduğuna inanan kifayət qədər insan var ki, siyasətçilərə dini, o cümlədən onun ardıcıllarını təhqir etmək, kənarlaşdırmaq və sıxışdırmağa cəhd etmək üçün geniş platforma təmin edir. Fransızların 60%-dən çoxunun özlərini artıq öz evlərindəki kimi hiss etmədiklərini, ölkələrinin tənəzzülə uğradığını düşünürlər. Əslində islamiyyətə qarşı olan bu nifrətin səbəbi İspaniyada Əndəlusun müsəlmanlar tərəfindən fəth edilməsi ilə əlaqədardır. Tanınmış televiziya aparıcılarının islam və terrorizmi eyniləşdirməyə dair ifadələri "qanadlı deyimlərə" çevrilir və stereotipləri formalaşdırır. Məsələn; xatırladaq ki, amerikalı aparıcı Brayan Kilmid öz verilişində: "Bütün müsəlmanlar terrorist deyil. Amma bütün terroristlər müsəlmandır", - demiş və bu ifadə demək olar ki, "aforizmə" çevrilmişdir. Halbuki, aparılan xüsusi sosioloji tədqiqatlar bunun tamamilə əksini sübut etmişdir.

Müəyyən edilmişdir ki, "dünyada baş vermiş terrorizm hallarının cəmi 2%-i islamla əlaqəlidir.

2010-cu il oktyabrın 11-də Fransada ictimai məkanda üzün gizlədilməsini qadağan edən qanun qəbul olundu. Sentyabrın 14-ü axşam keçirilən səsvermədə qanunun lehinə 246, əleyhinə 1 deputat səs verdi. Konstitusiya Şurası 2010-cu il 7 oktyabr tarixli qərarında qeyd edib ki, vicdan azadlığına hədsiz zərbə vurmamaq üçün qadağalar açıq olan ibadət yerlərində tətbiq edilə bilməz. Hökumət bu qanunun islamı hədəfə almadığını qeyd edir. Qanun müsəlman qadınların daha sərbəst şəkildə hüquqlarından faydalanması üçün irəli sürülmüşdür. Qanunun mətnində həqiqətən də islamın adı çəkilmir, hətta niqab və burqadan da söz açılmır. Sadəcə qadının üzünü tam örtən geyimlərin ictimai yerlərdə qadağan edilməsindən danışılır. İslami geyimlərdən isə burqa və niqab qadının üzünü tam örtür. Maraqlıdır ki, papaqlar və başlıqlar bədənin eyni sahələrini örtməsinə baxmayaraq, eyni "təhlükəli" təsirə malik deyil. Hicab taxmaq bir çox müsəlman qadının dini ifadə forması kimi qəbul etdiyi seçimdir. Onlar hesab etmirlər ki, bu, onların ləyaqətinə və azadlıqlarına xələl gətirir. Fransanın hicab problemi əsas etibarilə ictimai sferada islamın təzahürünün sosial və siyasi köklü rədd edilməsidir. Üzün maska ilə örtülməsi sağlamlıq üçün təhlükədən qorunma üçün bir yoldur. Ancaq dini ifadə forması olaraq üzün örtülməsi təhlükənin özü kimi qəbul edilir. İslama gəlincə, Fransa hökumətinin dünyəviliyinin tətbiqi din və dövlətin ayrılması deyil. Bu, dinin və onun ardıcıllarının ictimai sahədən kənarda tamamilə ilhaq edilməsidir *(Human Rights pulse Tayara, 2012).*

Vaxtilə Fransada baş vermiş məzhəblərarası münasibətlərdən danışanda Varfolomey gecəsi haqqında da məlumat verə bilərik. 23 avqust 1572-ci ildə baş vermiş bu hadisədə dini seçimlərinə görə minlərlə insan qətlə yetirilmişdir. Bu qətliam 2 həftə davam etmişdir. Həmin gün yalnız protestantlar deyil, digər dinin nümayəndələri də qətlə yetirilmişdir.

Fransa Avropada ən böyük yəhudi icmasına malik ölkə hesab olunur (təxminən 550.000 nəfər), bu da Fransa əhalisinin 1%-dən azına bərabərdir. Fransada katolik, müsəlman və protestantlardan sonra dördüncü ən böyük dini icmadır. Yəhudilərin tarixi 1-ci əsrə gedib çıxır. Roma tərəfindən fəth edildikdən qısa müddət sonra Qalaya gələn yəhudilər orada Merovinqlərin hakimiyyəti altında qaldılar və Karolinqlər dövründə bir çiçəklənmə dövrü yaşadılar. Xüsusən də orta əsrlərdə onlar dini etiqadlarına görə xristian təqiblərinə məruz qalmışdırlar. İkinci dünya müharibəsi hadisələri Fransadakı yəhudi icmasına əhəmiyyətli dərəcədə təsir etdi. Fransada dünyəvilik çərçivəsində "franko-yəhudiliyə" cavab verən "fransız tipli anti-semitizm" xüsusilə Dreyfs işi zamanı və Vişi rejimi dövründə daha da şiddətlənir. Anti-semitizm millətçilik, irqçilik ideologiyasının bir növüdür;

onun digər millətçilik formalarından fərqi yalnız bir xalqa-yəhudi millətinə və ya mədəniyyətinə, iudaizm dininə qarşı nifrət bəsləməsi və onları təqib etməsidir. Əhalinin qalan hissəsindən qəddar-casına təcrid olunmuş və Milis və Yəhudi İşləri üzrə Polis (PQJ) tərəfindən xüsusi canfəşanlıqla tə-qib edilən işğal zamanı 75.000 yəhudi, əsasən Şərqi Avropadan və ya Almaniyadan olan qaçqınlar, eyni zamanda 24.000 fransız yəhudisi həlak olmuşdur.

Son illərdə, xüsusən 2006-cı ildə İlan Haliminin, 2011-ci ildə Tuluzadakı Ozar hatorah məktəbinin uşaqlarının qətli, həmçinin 2015-ci ildə Porte de Vinsendəki Hiper Kaşerə hücumla bu hiss yenidən canlandı *( La-croix,2012 ).* Müasir Fransada yəhudi icması öz ailələri daxilində adət-ənənələri və rituallarını nəsildən-nəslə ötürməklə öz mənəvi və dini irsinə hörmət etməyə davam edir.

Yuxarıda qeyd olunanlardan aydın olur ki, Fransada etnik-mədəni və dini müxtəlifliyin tənzimlənməsi üçün müxtəlif mədəniyyətli millətlərin bir-birinə hörmətlə yanaşmasına ehtiyac vardır.

### İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Allahyarova T., Novruzova L. Qərbi Avropada Müsəlman İcmaları:Fransa və Almaniya nümunəsində (2015)
2. Islamophobia in France: How Right-Wing Politicians Promote Opposition Against Muslim Communities İmpakter, 2022 URL:https://impakter.com/islamophobia-in-france-how-right-wing-politicians-promote-opposition-against-muslim-communities/
3. Qui sont les Juifs de France?2012 URL: https://www.la-croix.com/amp/1200826677
4. L'essentiel de la loi du 9 décembre 1905 de séparation des Églises et de l'État 2021 URL:https://www.vie-publique.fr/fiches/271400-la-loi-du-9-decembre-1905-de-separation-des-eglises-et-de-letat
5. Multikulturalizmə giriş redaktor Mehdiyev R. 2019
6. Scroope C.French Culture Religion Primary Author 2017 URL:https://culturalatlas.sbs.com.au/french-culture/french-culture-religion
7. Tayara S. « La France N'est Plus La France » : L'obsession Française De L'oppression 2012 URL:https://www.humanrightspulse.com/mastercontentblog/-la-france-nest-plus-la-france-lobsession-franaise-de-loppression?format=amp

# ÇİN VƏ ABŞ ARASINDA İQTİSADİ-SİYASİ RƏQABƏTİN XÜSUSİYYƏTLƏRİ

***Azərbaycan Dillər Universiteti***
***Mirzəzadə Kamran Namiq oğlu, magistrant***
***Elmi rəhbər: dos.G.R.Ağakişiyeva***

***Xülasə***

Məqalədə Çin və ABŞ arasında iqtisadi-siyasi rəqabətin xüsusiyyətləri araşdırılmış, hər 2 ölkənin iqtisadi potensialı təhlil edilmişdir. Çin və ABŞ-ın iqtisadi-siyasi rəqabəti problemi ilə bağlı yanaşmalar öyrənilmiş, ABŞ-ın Çinə qarşı siyasətinin istiqamətləri araşdırılmışdır. Həmçinin ABŞ ilə Çin əməkdaşlığının perspektivləri geosiyasi qarşıdurma müstəvisində göstərilmişdir.
***Açar sözlər:*** *iqtisadi-siyasi rəqabət, hərbi potensial, ölkənin strategiyası, ticarət rərəfdaşı, iqtisadi artım.*

***Summary***

In this article, economic and political rivalry between China and USA were researched, both countries' economic potential was analyzed. Approach to economic and political rivalry of China and USA's issue, and directions of the policy of USA against China were studied. Furthermore, perspectives of cooperation between USA and China were shown as geopolitical confrontation.
***Key words:*** *economic and political rivalry, military potential, strategy of country, trade partner, economic growth.*

## Giriş

Dünya iqtisadiyyatı qeyri-müəyyənlik və potensial çətinliklər dövrünə qədəm qoymuşdur. Maliyyə çətinlikləri qlobal iqtisadi artımı dayandırmağı hədəfləyir. Kredit bazarları ciddi problemlər yaşayaraq, bütün dünyanı əhatə edir. ABŞ-da iqtisadi artım zəifləyir, Çinin isə dünya iqtisadiyyatına təsiri durmadan artır.

Bəzi tədqiqatçılar XX əsrin sonu – XXI əsrin əvvəllərində dünya siyasətinin tendensiyalarını müəyyən edərək, beynəlxalq münasibətlərdə ABŞ və Çin kimi aparıcı subyektlərin yeni rollarını göstərirlər. Çinin sosial-iqtisadi inkişafının qanunauyğunluqları dünyanın əsas güc mərkəzlərindən biri olan bu dövlətin 2017-2018-ci illərdə siyasi sisteminin transformasiyasını, daxili və xarici siyasətini, ticarət tərəfdaşları ilə münasibətlərinin xarakterini müəyyən edir. Burada ilk növbədə ABŞ-Çin əməkdaşlığının dinamikasından danışılır ki, bu münasibətlər də son illərdə əsaslı şəkildə dəyişikliyə uğramışdır. Belə ki, ABŞ ilə Çin əməkdaşlığı hər iki ölkənin daxili siyasi qərarları ilə əlaqədar olaraq ciddi dəyişikliyə uğramış və gələcəkdə də aparılacaq islahatlardan asılı olacaqdır *(Bayçorov, 2017).*

Tədqiqatlarda mərkəzdə dayanan məsələlərdən biri də beynəlxalq münasibətlərin dinamik inkişaf edən regional sistemi olan Çin ilə ABŞ əlaqələridir. Qloballaşma şəraitində Çinin xarici siyasi strategiyasının formalaşmasına təsir edən ölkənin daxili siyasi strukturu Çin ilə ABŞ münasibətlərinin əsasını təşkil edir *(Maleviç, 2016).*

Çin və ABŞ-ın iqtisadi potensialını geosiyasi qarşıdurma müstəvisində müqayisəli təhlil etsək, hər 2 ölkənin dünyanın əsas təsərrüfat mərkəzi olduqlarını görmək olar.

Çin dünyanın 10 nəhəng təsərrüfat mərkəzləri arasında əsas yeri tutur. Sənaye məhsulunun ümumi həcminə görə Çin ABŞ-dan sonra 2-ci yerdə durur. Çin sənaye üzrə kömür, dəmir filizi, çuqun, polad, volfram, sink, qalay, mineral gübrə, sement, televizor, paltaryuyan maşın, velosiped, ayaqqabı, kənd təsərrüfatı üzrə dənli bitkilər, kartof, meyvə, tərəvəz, yağ, ət, yumurta, balıq və dəniz məhsulları, pambıq istehsalına görə dünyada 1-ci, molibden, elektrik enerjisi, soyuducu, kimyəvi lif, qarğıdalı, çay istehsalına görə isə 2-ci yeri tutur *(Maksakovskiy, 2005: 192-193).*

Ümumdünya Bankının məlumatlarına görə Çin dünyada hasil edilən qurğuşunun 16%-ni verməklə, hasilata görə Avstraliyadan sonra 2-ci yeri tutur. Çin molibden hasilatına görə (ildə 18 min ton) Çili ilə birlikdə 2-3-cü yerləri bölüşdürür (59 min tonla ABŞ 1-ci yerdədir). Dünyanın volfram ehtiyatının 1/2 hissəsi Çində cəmlənmişdir. Çin qalay hasilatına görə (ildə 61 min ton) dünyada 1-ci yeri tutur. Kimya və tikinti materialları sənayesinin xammal bazası olan sürmə ehtiyatına görə (6 mln ton) Çin dünyada 1-ci yerdədir. Belə ki, dünyanın sürmə ehtiyatının 52%-i Çində cəmlənib. Çin dünyada hasil edilən xörək duzunun 14%-ni verməklə, hasilata görə 2-ci yeri

tutur. Tibet yaylasının şimalında 420-dən çox, Tsaydam çökəkliyində (ümumi sahəsi 8,5 min $km^2$ və ümumi ehtiyatı 100 mlrd ton) isə 100-ə qədər duzlu göl vardır. Dəniz suyundan xörək duzu alınmasına görə Çin dünyada 1-ci yerdədir. Çin qızıl hasilatına görə dünyada 3-cü yeri tutur. Nadir metalların ölkə ərazisində 8 növü mövcuddur ki, onlar da əsasən Bayan-Obo hövzəsində (Daxili Monqolustan) cəmlənib. Qeyri-metal ehtiyatların ölkə ərazisində 73 növü mövcuddur ki, bunlardan da ən əhəmiyyətliləri fosforit, kükürd, asbest, qrafit, gips və kaolin, qiymətli daşlardır.

ABŞ-ın iqtisadiyyatı dünyanın ən nəhəng iqtisadiyyatı olmaqla, ÜDM-nın həcmi II Dünya müharibəsinin sonlarından başlayaraq ümumi dünya üzrə ən azı 1/4 hissə təşkil edir. Son 100 ildə dünya iqtisadiyyatında liderliyini qoruyan ABŞ iqtisadiyyatının dünya iqtisadiyyatına təsiri 2000-ci ildən başlayaraq qloballaşmanın güclənməsi və inkişaf etməkdə olan ölkələrin tərəqqisi ilə əlaqədar azalmaqdadır. ABŞ-da ÜDM-nın həcmi 18,5 trln ABŞ dolları, ÜDM-nın adambaşına həcmi isə 57,3 min ABŞ dolları təşkil edir (2016-cı il). ABŞ-ın dünya ÜDM-da payı 1800-cü ildə 2% olsa da, bu göstərici 1900-cü ildə 10% olmuşdur. II Dünya müharibəsinin sonlarında dünya ÜDM-nın 50%-i və dünya qızıl ehtiyatının 2/3 hissəsi ABŞ-ın payına düşürdü ki, bu da Qərbi Avropada böyük ölçülü dağıntılarla bağlı idi. Lakin, XX əsrin 60-70-ci illərindən başlayaraq ABŞ-ın dünya ÜDM-da payı 26,7%-ə qədər azalmış və müasir dövrə qədər bu göstərici demək olar ki, stabil qalaraq dəyişməmişdir. Maksimum göstəricilər 1985-ci ildə 32,74% və 2001-ci ildə 32,24% təşkil etmişdir. ABŞ-ın inkişaf etmiş ölkələr arasında sənayenin inkişafına görə rəqibi yoxdur. Belə ki, ABŞ-da sənaye istehsalının həcmi 3,23 trln ABŞ dolları (dünyada 1-ci), Çində 2,75 trln ABŞ dolları (dünyada 2-ci), Yaponiyada isə 1,35 trln ABŞ dolları (dünyada 3-cü) təşkil edir (2010-cu il) *(Ağakişiyeva, 2019: 53-55).*

Şərqi Asiya və ümumilikdə Asiya-Sakit okean sahili regionun ABŞ üçün strateji əhəmiyyəti hərbi-siyasi və ticarət-iqtisadi amillərlə müəyyən olunur. Bu, ən sıx məskunlaşan və dinamik inkişaf edən region olmaqla, yaxın perspektivdə əsas iqtisadi güc mərkəzi olmağa iddialıdır. Hal-hazırda bu regiona ABŞ-ın xarici ticarətinin böyük bir hissəsi düşməklə, əsas ticarət tərəfdaşları kimi Yaponiya və Çin fərqlənir. Region hərbi-strateji baxımdan qeyri-stabil olmaqla, burada bir neçə iri regional güclərin rəqabəti müşahidə edilsə də, kollektiv təhlükəsizlik struktutu yoxdur. Belə şəraitdə regionda ABŞ-ın strategiyası Böyük Britaniyanın XVIII-XIX əsrlərdə Avropaya münasibətdə ənənəvi kursunu xatırladır.

Regionda ABŞ üçün əsas problem Çinin yüksəlməsidir ki, perspektivdə Çin ilk olaraq regional hegemona, sonra isə ABŞ-ın qlobal rəqibinə çevriləcəkdir. ABŞ-ın əsas vəzifəsi Çin hökumətinin niyyət və motivlərinə təsir etmək və hərbi potensialını məhdudlaşdırmaq yolu ilə Çinin hərbi-texnoloji sıçrayışına mane olmaqdır.

Son illərdə ABŞ-da Çin və ABŞ-ın iqtisadi və siyasi rəqabəti probleminin ətrafında güclü diskussiyalar aparılmaqla, 2 yanaşma ayrılır:

1. Çinin siyasi rejiminin tədricən liberallaşdırılmasına istiqamətlənən ölkənin Qərb birliyinə cəlb edilməsi;

2. Geosiyası tarazlıqların qurulması yolu ilə Çinin dayandırılması, ona siyasi və hərbi təzyiqlərin göstərilməsi, Tayvanın dəstəklənməsinin aktivləşdirilməsi *(Torkunov, 2004: 404).*

ABŞ siyasətində hər 2 yanaşmanın elementləri görülsə də, Demokratlar 1-ci yanaşmaya, Respublikaçılar isə 2-ci yanaşmaya üstünlük verirlər.

Prezident Corc Buş-kiçiyin administrasiyası siyasi fəaliyyətini başlayanda Çinin ünvanına yüksək tonla danışaraq, onu "ABŞ-ın strateji rəqibi" adlandırırdı. Amerikan kəşfiyyat təyyarəsinin ələ keçirilməsi ətrafında ilk mini böhrandan və 11 sentyabr 2001-ci il hadisəsindən sonra Ağ ev Çinə qarşı daha balanslaşdırılmış siyasətə keçdi. Belə ki, Pekinlə yüksək səviyyədə əlaqə quruldu, beynəlxalq terrorizmlə mübarizədə əməkdaşlığa başlanıldı və yeni hava hücumundan müdafiə sistemlərinin Tayvana göndərilməsindən imtina edildi.

1979-ci ildə ABŞ Konqresi Tayvanla ABŞ münasibətlərinə dair qanun qəbul etmişdir ki, bu sənədə görə də fövqəladə vəziyyətdə Çinlə təmas zonasında qeyri-rəsmi amerikan zəmanət hüququ Tayvana məxsusdur.

2016-cı il ABŞ-da prezident seçkilərində Donald Trampın qələbə qazanmasına həlledici təsir edən "çirkli ştatlar" – Pensilvaniya, Ohayo, İndiana, Miçiqan və Viskonsin olmuşdur. Bu ştatlar

qeyri-rəsmi olaraq bu adı polad istehsalı və digər ağır sənaye müəssisələrinin əksəriyyətinin bağlanılmasına görə almışlar. Həmçinin bu müəssisələr 1980-1990-cı illərdə Çin istehsalçıları ilə rəqabətdə uduzmuşlar. Donald Tramp Çindən gələn məhsullara rüsumlar tətbiq etməsini 2018-ci ilin yazında reallaşdırdı ki, bu addım da ştatların əhalisinə geniş dəstəyi təmin etməyi planlaşdırırdı. Nəticədə də ABŞ-ın ağır sənayesi idxal məhsullara rüsumların tətbiq edilməsi ilə bərpa olunacaqdır.

Müasir dünya siyasəti və iqtisadiyyatında təcrid olunma yanaşmasını reallaşdırmaq heç bir dövlət və hətta güc sahibinin qadir olmadığı prosesdir. Prezident Donald Trampın özünün seçkiqabağı vədini reallaşdırmaq və ucuz Çin məhsulları üçün amerikan bazarını rüsumların artırılması yolu ilə bağlamaq cəhdi Çin tərəfdən cavab tədbirlərinin həyata keçirilməsi ilə nəticələndi. Çin tərəfdən cavab sanksiyalarının siyahısı amerikan istehsalçılarının müqayisə edilə bilən maliyyə ziyanının həcmini müəyyən etdi *(Frolçov, 2018: 25).*

ABŞ Çinə qarşı onu əməkdaş və ya rəqib görmək seçiminə təsir etmək siyasəti həyata keçirir. Çinin bu seçimi perspektivdə ABŞ və Çin arasında münasibətlərin istiqamətlərini müəyyən edəcəkdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


3. Ağakişiyeva G.R. Amerika Birləşmiş Ştatlarının coğrafiyası. Bakı: “Avropa” nəşriyyatı, 2019, 312 s.
4. Байчоров А.М. Мировая политика. Минск: БГУ, 2017, 223 с.
5. Максаковский В.П. Географическая картина мира. Книга II, Региональная характеристика мира. Москва: Дрофа, 2005, 480 с.
6. Малевич Ю.И. Инновационные стратегии глобализации. Минск: РИВШ, 2016, 408 с.
7. Современные международные отношения и мировая политика / Отв. ред. А.В.Торкунов. Москва: Просвещение: МГИМО, 2004, 667 с.
8. Фрольцов В.В. Политические теории мирового развития. Минск: БГУ, 2018, 200 с.
9. Доклад о мировом развитии – 2016. Цифровые дивиденды. Всемирный банк. https://openknowledge.worldbank.org/

# KASIB ÖLKƏLƏRDƏ İNSAN KAPİTALININ FORMALAŞMASINDAKI ÇƏTİNLİKLƏR

***Sumqayıt Dövlət Universiteti***
***Cahangirli Aydan Şükrət qızı, magistrant***
***Elmi rəhbər: dos. Z.H.Abdullayeva***

***Xülasə***

Ölkənin inkişafının təminatçısı onun yüksək elmi biliklərə malik gəncləridir. Labüddür ki, iqtisadi cəhətdən zəif inkişafa malik ölkələrdə elmin yüksək inkişafından söz gedə bilməz. Aşağı təhsil səviyyəsi isə inkişafdan qalmış cəmiyyət deməkdir. Bu vəziyyətdə ölkənin çıxış yolu təhsilə ayrılan dövlət büdcəsinin həcminin artırılması, təhsilin inkişafına qayğının artırılması, bu istiqamətdəki çətinliklərin və çatışmazlıqların aradan qaldırılması ilə başlayır.
***Açar sözlər:*** *insan kapitalı, inkişaf etməkdə olan ölkələr, təhsil sistemi, təhsil sahəsində qlobal problemlər, münaqişə zonaları.*

***Summary***

The guarantor of the country's development is its young people with high scientific knowledge. Of course, there is no talk of high development of science in economically underdeveloped countries. A low level of education means an underdeveloped society. In this situation, the country's way out begins with increasing the amount of the state budget allocated to education, increasing care for the development of education, and eliminating difficulties and deficiencies in this direction.
***Key words:*** *human capital, developing countries, education system, global problems in education, conflict zones.*

Ölkənin inkişafını şərtləndirən amillərdən biri yüksək elmi bilik və bacarıqlara yiyələnmiş, tənqidi, analitik düşünmə qabiliyyətinə malik olan insan kapitalının yetişdirilməsidir. Ölkənin inkişafı onun əhalisinin təhsil səviyyəsi ilə düz mütənasib asılıdır. Təhsilli xalq – güclü dövlət deməkdir. Araşdırmalar göstərir ki, inkişaf etmiş və güclü iqtisadiyyata malik ölkələrdə təhsil səviyyəsi, eyni zamanda təhsilə cəlbolunma inkişaf etməkdə olan ölkələrlə müqayisədə qat-qat yüksəkdir. Bu baxımdan deyə bilərik ki, təhsilin inkişafı ölkənin maddi gücündən asılıdır.

İnkişaf etməkdə olan ölkələrdə təhsil səviyyəsinin aşağı olması bir sıra səbəblərlə bağlıdır. Bunlardan ən mühümləri iqtisadi amillər, dövlət büdcəsinin təhsilə lazımi qədər vəsait ayırmağa imkan verməməsi, əhalinin kök salmış milli dəyərləri və adət-ənənələri, müharibələr, yoluxucu xəstəliklər və bəzən də dini məsələlər ola bilər.

Qeyd olunan amillərin hamısı məktəb yaşlı uşaqların təhsildən uzaqlaşdırılması ilə nəticələnir. Xüsusilə İslam aləmində erkən yaşlarında qız uşaqlarının təhsil hüququ əlindən alınaraq ailə qurmağa məcbur edilir. UNICEF-in verdiyi məlumata görə erkən nikah halları Ərəb dünyasında ən yüksək göstəriciyə malikdir. Təkcə Səudiyyə Ərəbistanında minimum nikah yaşı 16 yaş olmasına baxmayaraq, 16 yaşına çatmamış beş minə qədər qız 30 yaşdan yuxarı kişilərə ərə verilir. Bu nisbət ölkədən-ölkəyə dəyişir və ən yüksək göstərici 66% ilə Yəmənə məxsusdur. Nikah yaşına çatmadan evliliyə cəlbolunma göstəricisi Sudanda 52%, Hindistanda 47%, Mavritaniyada 35%, Fələstində 21%, Misirdə 17%, Livanda 6%, Tunis və Əlcəzairdə isə 2% təşkil edir *(New Methodology Shows that 258 Million Children, Adolescents and Youth Are Out of School).*

Müharibə şəraiti də uşaqların təhsilalma imkanlarını əlindən alır. Belə ki, müharibə olan dövlətdə uşaqların təhlükəsiz şəkildə təhsil alma ehtiyacları ödənmir, həmçinin belə şəraitində həm təhsilalanın, həm də təhsilverənin tədrisə cəlb olunma səviyyəsi aşağı olur. Müharibələrin təhsil sisteminə vurduğu zərəri Yəmən dövlətinin timsalında əyani olaraq görə bilərik. UNICEF müharibənin Yəməndə təhsilə böyük zərbə yetirdiyini qeyd edir. UNICEF-in sözçüsü Kristofer Bulirak 2018-ci ildə müharibə nəticəsində təxminən 2 milyon uşağın məktəbə gedə bilmədiyini bildirib. Onun qeyd etdiyinə görə, müəllim çatışmazlığı səbəbindən məktəb yaşına çatmış 4 milyona qədər uşağın təhsil almaq imkanı olmayacaq *(https://www.amerikaninsesi.org/a/unicef-.html).*

Təhsil üzrə Qlobal Tərəfdaşlıq (TQT – Global Partnership in Education) məlumat verir ki, qeyd edilən amillər də nəzərə alınaraq dünya 2030-cu ilə qədər təhsildə keyfiyyətə nail olmaq

üçün düzəlişlər edilməli olan 10 məqam aşağıdakılardan ibarətdir *(https://www.globalcitizen.org/en/content/10-barriers-to-education-around-the-world-2/).*

1. Təhsil üçün maliyyə çatışmazlığı.

İnkişaf etməkdə olan ölkələr təhsil üçün maliyyə vəsaitini öz hesabına ödəyə bilmədikləri üçün xarici yardımlara ehtiyac duyurlar. TQT tərəfinfən təhsilə ayrılan yardımının 20%-ə qədəri aşağı gəlirli ölkələrə sərf olunur. Belə ki, inkişaf etməkdə olan ölkələrdə hər bir təhsilalana 13 illik təhsil vermək üçün gündə orta hesabla 1,25 dollar vəsait ayrılmalıdır. Əgər hər bir uşaq üçün inkişaf etməkdə olan ölkələrin hər biri 15 sent əlavə vəsait ayırsa, bu belə böyük bir fərq yarada bilər. Hazırda 39 milyard dollarlıq vəsait tələb olunur ki, 2030-cu ilə qədər uşaqlara keyfiyyətli təhsil vermək imkanı yaransın. TQT bu ölkələrin büdcələrinin 20%-nin təhsilə, bunun da 45%-nin ibtidai təhsilə ayrılmasını bildirir.

2. Müəllimin olmaması və ya təhsilsiz olması

Müəllimin peşəkarlığı təhsilalanın öyrənmə səviyyəsində vacib göstəricidir. Kasıb ölkələrdə kifayət qədər ibtidai və ya ümumi orta təhsil verən müəllim yoxdur, işləyən müəllimlərin isə çoxu tam təhsilli deyil ki, buna görə də şagirdlər lazımi biliklərə yiyələnə bilmirlər. Məktəblərdə oxuma, yazma, sadə riyazi bacarıqları bilməyən milyonlarla şagird var. Hazırda TQT qlobal müəllim çatışmazlığı böhranı ilə mübarizə aparır. BMT-nin qlobal miqyasda apardığı hesablamalara görə, 2030-cu ilə qədər müəllimlik sahəsində kadr çatışmazlığını aradan qaldırmaq üçün 69 milyon yeni müəllim tələb olunur.

3. Sinif otağının olmaması

Tədris prosesinin vacib ünsürlərindən biri təlim vasitələri ilə təchiz olunmuş sinif otaqlarıdır. Afrikanın Böyük Səhra bölgəsindəki bir çox ölkələrdə şagirdlər ya izdihamlı sinif otaqlarında, ya da çöldə təhsil alırlar. Sinif otaqları ilə yanaşı, həmçinin maddi-texniki və tədris bazası ilə təminatda da problemlər var. Məsələn, Malavidə bir sinifdə orta hesabla 130 uşaq təhsil alır. Buradakı məktəblərdə problem təkcə sinif otaqlarının olmaması deyil, eyni zamanda məktəb binasının su və kanalizasiya sistemindəki çatışmazlıqlardır. Çadda hər 7 məktəbin yalnız 1-də içməli su, hər 4 məktəbin isə yalnız 1-də ayaqyolu var, üstəlik ayaqyoluların yalnız 1/3-i qızlar üçündür. Bununla da qızların təhlükəsizliyi tam təmin olunmur, hətta məktəblərdə hücum və təcavüzlərə məruz qala bilirlər.

4. Tədris materiallarının çatışmazlığı

İstifadə olunan dərsliklər köhnəlmiş və sıradan çıxmış dərsliklər olub, bu belə bütün şagirdlərə çatmır. Məsələn, Tanzaniyada 6-cı sinif şagirdlərinin yalnız 35%-i oxu dərslikləri ilə təmin olunur. Kamerunda isə ibtidai siniflərdə oxu dərslikləri hər 11 şagirdin birinə, ikinci siniflərdə riyaziyyat dərslikləri isə hər 13 şagirdin birinə düşür.

5. Fiziki məhdudiyyərli şagirdlərin dərsdən kənar qalması

Bütün dünyada təhsilin insan hüququ olmasına baxmayaraq, dünyada 93-150 milyona qədər uşaq var ki, fiziki məhdudiyyətlərindən dolayı məktəbə buraxılmırlar. Dünyanın bəzi kasıb ölkələrində fiziki məhdudiyyətli uşaqların 95%-ə qədəri məktəbə getmirlər. Təlimdə bu kimi ayrı-seçkiliklərin mövcudluğu, müəllimlərin təlimi inklüziv tədris metodlarla aparması imkanlarının olmaması və fiziki məhdudiyyətli şagirdlər üçün xüsusi məktəblərin olmaması əhalinin bu qisminin tədrisdən kənar qalması ilə nəticələnir.

6. “Yanlış” cinsə aid olmaq

Sadə dildə desək, gender məsələsi şagirdlərin təhsil hüququndan məhrum edilməsində ən böyük səbəblərdən biridir. Son illərdə qız uşaqlarının təhsil sahəsindəki nailiyyətlərinə baxmayaraq, dünyada hələ də 130 milyondan çox qız məktəbə gedə bilmir. Xüsusilə də inkişaf etməkdə olan kasıb ölkələrdə 18 yaşına çatmamış hər 3 qızdan biri ailə qurur *(New Methodology Shows that 258 Million Children, Adolescents and Youth Are Out of School).* Qızların məktəbə göndərilməməsi adətən ailələrin seçimi olur. Belə cəmiyyətlərdə qıza təhsil vermək oğlana təhsil verməkdən az dəyərli hesab olunur. Ailələr qızlarını məktəbə göndərməkdənsə, ev işləri ilə məşğul olmağa, özlərindən balaca bacı-qardaşlarını saxlamağa cəlb edirlər.

7. Konflikt zonalarında yaşamaq

Müharibə zonasında yaşayan ölkələrdə ailələr uşaqlarını məktəbə göndərməkdən yayınırlar. Hazırda dünyada 250 milyona yaxın uşaq münaqişə zonalarında yaşayır. Münaqişə zonalarının olduğu 35 ölkədə 3-18 yaş arası 75 milyondan çox uşaq və gəncin təhsil almaq üçün dəstəyə ehtiyacı var. BMT-nin Qaçqınlar Agentliyinin məlumatına görə,dünyadakı qaçqın uşaqlarının yarısından da az hissəsinin məktəblərə qeydiyyatı var. BMT tərəfindən göstərilən humanıtar yardımlar arasında təhsil sahəsi çox aşağı dərəcədə əhəmiyyətli olmaqla, 2016-cı ildə edilən yardımın 3%-ni əhatə etmişdir.

8. Evdən məktəbə qədər olan məsafə

Dünyanın bir çox hissəsində məktəbə getmək üçün yola 3 saatdan artıq vaxt sərf edən uşaqlar var. Bu isə fiziki məhdudiyyəti olan, müəyyən xəstəliklərdən və ya qida çatışmazlığından əziyyət çəkən, eyni zamanda ailəsi tərəfindən ev işlərinə cəlb olunan uşaqlar üçün olduqca əlverişsizdir. Uşaqların bir çoxu, xüsusilə də qız uşaqları arasında məktəbə gediş gəliş zamanı zorakılıqlara məruz qalma halları qeydə alınır.

9. Aclıq və ya zəif qidalanma səviyyəsi

Aclığın təhsilə təsiri tam açıqlanmasa da, beyinin düzgün inkişafına təsir edəcək qədər pis qidalanmanın dörd illik təhsili itirməyə bərabər olduğu bilinir. Zəif qidalanma 5 yaşından kiçik 155 milyon uşağın böyümə geriliyinə səbəb ola bilir. Əksinə, yaxşı qidalanma yaxşı öyrənmə üçün zəmin yaradır

10.Təhsil xərcləri

Ümumdünya İnsan Hüquqları Bəyannaməsimə görə hər bir uşağın pulsuz orta təhsil almaq hüququ var. bununla belə, inkişaf etməkdə olan bir sıra ölkələrdə məktəblərin ödənişli olması ilə maddi vəziyyəti aşağı səviyyədə olan ailələrin uşaqlarının təhsil amlaq hüquqları əllərindən alınır. Son bir neçə onilliklərdə bu ölkələrin bəzilərində dövlət təhsil ödənişlərini azaltmış, nəticədə məktəbə gələn uşaqların sayında artım müşahidə edilmişdir. Bunun la belə ən yoxsul ailələr üçün təhsil hələ də bahadır. Afrikanın bəzi ölkələrində məktəblər nəzəri olaraq pulsuz olsa da, kitab, qələm, dərs vəsaitləri, məktəb geyimləri, imtahan ödənişləri kimi xərclər bəzi ailələr üçün böyük xərcdir. Digər tərəfdən dövlət məktəblərinin olmaması da uşaqların məktəblərə cəlb olunmasına problem yaradır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Consept of Early Marriages in Light of Islamıc Teaching
2. New Methodology Shows that 258 Million Children, Adolescents and Youth Are Out of School
3. https://www.amerikaninsesi.org/a/unicef-y%C9%99m%C9%99nd%C9%99-m%C3%BCharib%C9%99d%C9%99-%C9%99sas-z%C9%99rb%C9%99-t%C9%99hsil%C9%99-d%C9%99yib/4573731.html
4. https://www.globalcitizen.org/en/content/10-barriers-to-education-around-the-world-2/

# 2001-Cİ İL TERROR HADİSƏSİNDƏN SONRA ABŞ-DƏ MÜSƏLMANLARA MÜNASİBƏT

***Azərbaycan Dillər Universiteti***
***Məmmədova Rahilə Habil qızı***
***Elmi rəhbər: S.Ə.Qurbanova***

***Xülasə***

Heç bir rəsmi dini olmayan Amerika Birləşmiş Ştatları bu gün dini mənzərəsinə görə digər ölkələrdən fərqlənir. İslam dini bu ölkədə yayılan üçüncü böyük dindir. İslam dininin ABŞ-də yayılması və müsəlmanların cəmiyyətə inteqrasiya kifayət qədər mürəkkəb idi. 2001-ci il ABŞ-də baş vermiş terror hadisəsi müsəlmanlara münasibətdə cəmiyyəti iki hissəyə ayırmışdı. Təqdim olunan məqalədə 2001-ci il terror hadisəsindən sonra Amerika cəmiyyətində müsəlmanlara münasibət geniş təhlil olunur.

***Açar sözlər:*** *11 sentyabr, ABŞ, terror, müsəlman, münasibət.*

***Summary***

With no official religion, the United States today differs from other countries in its religious landscape. Islam is the third major religion spread in this country. The spread of Islam in the United States and the integration of Muslims into society was quite complicated. The 2001 terrorist incident in the United States divided society into two parts in relation to Muslims. The presented article extensively analyzes the attitude towards Muslims in the American society after the terrorist incident of 2001.

***Key words:*** *September 11, USA, terrorism, muslim, attitude.*

Amerika Birləşmiş Ştatlarında dini müxtəliflik dünyanın heç bir ölkəsində qeydə alınmayıb. Onun dini mənzərəsi ABŞ Konstitusiyası tərəfindən müəyyən olunmuş dini azadlıq hüququ və immiqrasiya nəticəsində formalaşmışdır. Bugün Amerikada yayılan dinlərdən biri də İslam dinidir. O, hətta ABŞ-də xristianlıq və iudaizmdən sonra üçüncü ən böyük din hesab olunur.

Bir qədər tarixə nəzər salsaq, müstəmləkə dövründə Afrikadan Amerikaya gətirilən qulların təxminən 10-20 faizi müsəlman olaraq gəlsə də, onlar dinlərini saxlaya bilməmişdi. 19-cu əsrin sonlarına qədər Şimali Amerikada müsəlmanların böyük əksəriyyəti tacir, səyyah və dənizçi idi *(Harvard Divinity School, 2022).*

1880-ci illərdən 1914-cü ilə qədər Osmanlı İmperiyasının keçmiş ərazilərindən və Hindistandan bir neçə min müsəlman ABŞ-ə köçmüşdür. ABŞ-nin müsəlman əhalisi 20-ci əsrin ikinci yarısında əvvəlki immiqrasiya kvotalarını ləğv edən 1965-ci il İmmiqrasiya və Vətəndaşlıq Aktının qəbulu ilə əlaqədar kəskin şəkildə artdı. Amerika müsəlmanlarının təxminən 72%-i immiqrant və ya "ikinci nəsil" dir *(A Diouf Sylviane, 2021).*

Dini statistika sahəsində amerikalı mütəxəssis Devid Barretin göstəricilərinə əsasən 1970-ci ildə 800 min (onlardan 200 mini afroamerikan), 2000-ci ildə 4,1 milyon (1,7 milyon afroamerikan) müsəlman olmuşdur. Ən geniş əhatəli sorğu – dini identifikasiya üzrə milli sorğu (113min iştirakçı) 1990-cı ildə Nyu York Universitetinin mütəxəssisləri tərəfindən aparılmışdır. Sorğu nəticəsində məlum olmuşdur ki, ABŞ əhalisinin tərkibində müsəlmanların payı 0,3% təşkil etmişdir. Amerikadakı mövcud məscidlərin 30 faizinin tikintisi 90-cı illərdə başlamışdır. 1994-cü ildə ABŞ-da 962 məscid fəaliyyət göstərirdisə, 2000-ci ildə bu göstərici 25 faiz artmışdır. Onu da qeyd etmək lazımdır ki, 1994-cü ildə ibadət üçün məscidlərə gələn müsəlmanların sayı 500 min idisə, 2000-ci ildə bu rəqəm iki milyon olmuşdu. Bu rəqəmin əhəmiyyətli bir qismini sonradan islamı qəbul edənlər təşkil edir *(Vikipediya).*

2001-ci il 11 sentyabr hadisəsi ABŞ-də yaşayan müsəlmanlara da təsirsiz qalmamışdır. Bu hücum ABŞ-nin ərazisində gerçəkləşdirilmiş, müasir dövrdə ilk genişmiqyaslı terror aktıdır. ABŞ əhalisi bu hücumlar nəticəsində gərginlik və psixoloji travma yaşamışdır. Pörl Harbor hadisələrindən etibarən bu günə qədər heç bir düşmən amerikalıları öz ərazilərində, amerika torpaqlarında bu qədər böyük miqdarda, şiddətli və sarsıdıcı şəkildə öldürməmişdi *(Yusifli, 2018;25).*

11 sentyabr 2001-ci ildə çərşənbə axşamı iki "American Airlines", digər ikisi də "United Airlines"a aid 4 sərnişin təyyarəsi Amerika aviasiya mərkəzlərində təhsil alan Əl-Qaidə üzvü 19 hava pilotu tərəfindən qaçırılmışdı. Amerika Hava Yollarına aid 11 saylı Boing 767 təyyarəsi Los-Ancelesə getmək üçün Boston Loqan hava limanından uçuş etmişdir. Uçuşa başladıqdan qısa müddət sonra Muhammed Atta tərəfindən ələ keçirilən təyyarə saat 08.46-da Dünya Ticarət Mərkəzinin Şimal Qülləsinə çarpılmışdır. İki saatdan daha az bir müddət sonra Şimal Qülləsi çökmüşdür. Boston Loqan hava limanından Los-Ancelesə getmək üçün qalxan "United Airlines"a aid 175 səfər saylı Boeing 767 tipli başqa bir sərnişin təyyarəsi də saat 09.05-də Dünya Ticarət Mərkəzinin Cənub Qülləsinə çarpılmışdır. Bu çarpma digərindən fərqli olaraq kameraların qüllələrə doğru istiqamətləndiyi bir vaxtda gerçəkləşmiş və bütün dünya bu çarpışma anını canlı yayımla izləmişdir *(Yusifli, 2018;26).*

Amerika Hava Yollarına aid 77 saylı Boeing 757 tipli sərnişin təyyarəsi isə Vaşinqton K.D. doğru yönəlmiş və ABŞ Müdafiə Nazirliyi binası olan Pentaqonun cənub qərbinə çarpmışdır. Təyyarənin 20 mindən çox işçisi olan Pentaqon tamamilə boşaldılmış və təmirdə olan hissəsinə çarpılması nəticəsində 1235 nəfər işçi öz həyatını itirmişdir *(Yusifli, 2018;27).*

Amerika cəmiyyətində müsəlmanlara münasibət birmənalı olmasa da, siyasi proseslərdə bu münasibəti dəqiqləşdirmək və aydınlaşdırmaq lazım idi. Bu səbəbdən 11 sentyabrdan 6 gün sonra ABŞ prezidenti Corc Buş Vaşinqtonda yerləşən məscidə getmiş və Amerikada yaşayan müsəlmanlara zorakı münasibətə qarşı çıxdığını qeyd etmişdi *(İsmayılova, 2017:44).*

2001-ci ildə Prezident C.Buş müsəlmanları Ramazan bayramında iftar yeməyinə dəvət etmişdi. Müsəlmanların müqəddəs ayını, eləcə də qarşıdan gələn xristian və yəhudi bayramlarını "müxtəlif dinlərə mənsub insanların bir-birləri haqqında daha çox öyrənmək üçün yaxşı vaxt" adlandıraraq, Buş ABŞ-nin terrorizmə qarşı apardığı kampaniyaya dəstəyə görə qonaqlarına təşəkkür etmişdi. O, xüsusilə vurğulamışdı ki: "Terrorçuların heç bir inancda evi yoxdur"... "Şərin müqəddəs günləri yoxdur." *(Bush at Ramadan dinner, 2001).*

Bununla belə, müsəlmanların stereotip imici ilə müşayiət olunan davamlı İslam qorxusu Amerikanın geniş ictimai, siyasi və akademik dairələrində islamafobiyaya səbəb olub. Dini və sosial-mədəni münasibətlər arasındakı uyğunsuzluq amerikan-müsəlman kimliyinin formalaşması yolunda yeni maneələr yaradıb *(Harvard University press, 2020).*

Bu gün bir çox amerikalı müsəlman İslamofobiyanın, müsəlmanların qorxusunun qurbanı olmaqda davam edir. Ölkənin hər yerindəki məscidlər və müsəlman icma mərkəzləri səsli və hüquqi müxalifətlə üzləşib və üzləşməkdə davam edir. Son illərdə bunlara Aşağı Manhettendə (mətbuatda "Ground Zero Məscidi" olaraq adlandırılır) və Tennessi ştatının Mörfrisboro şəhərində planlaşdırılan müsəlman icma mərkəzi və məscid kompleksi daxildir *(Harvard University press, 2020).*

11 sentyabrdan sonra bir çox müsəlman ictimai maraq qrupları yaradıldı. Amerika müsəlmanlarının üzləşdiyi daha geniş problemlərin bir çoxunu həll etməyə çalışan bir çox müsəlman təşkilatlarından Şimali Amerika İslam Cəmiyyəti (İSNA) Amerikada İslam dinininformalaşmasında fəal və mühüm rolunu qoruyub saxlamışdır. Amerika-İslam Münasibətləri Şurası (CAIR) həm də siyasi fəallığa, xüsusən lobbiçilik vasitəsilə İslama qarşı qərəzlərə qarşı yönəlmişdir. Məsələn, CAIR bir neçə ştatda şəriət əleyhinə qanunvericiliyin qəbulunu dayandırmağa çalışıb. ISNA və CAIR kimi təşkilatlar, bütün Amerika müsəlmanları tərəfindən dəstəklənməsə də, sentyabrın 11-dən sonra Amerikada İslamı əhatə edən ictimai vəziyyətin formalaşmasında önəmli rol oynayır *(Yusifli, 2018; 34).*

11 Sentyabr hadisələri minlərlə günahsız insanın ölümü ilə nəticələnmiş və Azərbaycan ictimaiyyəti də bunu kəskin şəkildə pisləmişdi. Bu hadisədən sonra ABŞ-də yaşayan müsəlmanların bir müddət psixoloji diskomfort yaşadığını deməyə lüzum yoxdur. Bəs qeyri-müsəlmanların müsəlmanlara münasibəti hansı istiqamətdə dəyişdi? "11 Sentyabr hadisələrindən sonra televiziyalar islam və Şərq haqda verilişlər hazırlamağa başladılar. Yaxın Şərq üzrə mütəxəssislər tez-tez televiziya kanallarına dəvət aldı və televiziya ulduzuna çevrildilər. Küçədə rastlaşanda adamlar onları barmaqla göstərirdilər". Nəticədə, terrorun ideoloji təməlini arayan adamlar maraqlı bir mənzərə ilə qarşılaşdılar. Statistika bu vaxtdan etibarən ABŞ əhalisi arasında islama üz

tutanların artdığını xəbər verir.Xüsusən 11 Sentyabrdan sonra baş verənləri bir daha dəqiqləşdirmək üçün Texas Qadınlar İdarəsinin təmsilçisi Asma Dadabhoy-Xananın fikirlərini dinləmək gərəklidir. “Məlum hadisələrdən sonra bir çox insanmənə yaxınlaşıb məlumat almaq istəyirdi. Onlarislamın mahiyyəti haqqında daha çox bilgiyə sahib olmaq istəyirdilər. Mən onları maraqlandıran sualları cavablandırırdım. Qısa müddətdə nə qədər insana dini kitablar, Quran bağışladım. Orucluq ayı gələndə artıq müsəlmanlarla yanaşı, qeyri-müsəlmanlardan bəziləri də bizə qoşulub oruc tuturdu”. Nəhayət, onu da əlavə edək ki, 11 Sentyabr hadisələrindən sonra təkcə islama yox, ümumiyyətlə, dinə rəğbət göstərənlərin sayı artıb *(Sadiqli, 2011).*

2001-ci ildən sonra Amerikada yaşayan müsəlmanların da fəaliyyətində aktivlik müşahidə olunurdu. Bu hadisədən 5 il sonra 2006-cı ildə ABŞ Konqresinin Nümayəndələr Palatasına ilk müsəlman - Kit Ellison seçilir. (İsmayılova, 2017:44) 2018-ci ildə isə Konqresə ilk iki müsəlman qadın seçilmişdi. Pew Araşdırma Mərkəzinin məlumatına görə, ABŞ-da müsəlman əhalisi artmaqda davam edir. 2000-ci ildə ABŞ-də 1209 məscid olduğu halda, 2020-ci ildə onların sayı 2769-a qədər artmışdı *(Alfonseca, 2021).*

Amerikada İslam dininə və müsəlmanlara olan münasibət bir sıra Avropa ölkələrindən xeyli fərqlənir. Bu ölkədə heç bir din dövlət himayəsinə alınmayıb. ABŞ vətəndaşlarının qürur mənbələrindən biri də dinindən asılı olmayaraq bütün insanların bu ölkədə rahatlıq və arxayınlıq içində yaşamasıdır. Bu ölkədə azad, məğrur, ayıq və özünü ölkənin ağası hesab edən bir xalq var və onun fikri ilə hesablaşmamaq olmaz.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. ABŞ-da İslam. https://az.wikipedia.org/wiki/ABŞ-da_islam
2. Bayramova Bircə. Beynəlxalq terrorizmə qarşı mübarizə, Bakı,2021
3. İsmayılova Sevinc. ABŞ-də islam dini və ona münasibət. Beynəlxalq Münasibətlərin Aktual Problemləri. Cild 2, №1, Bakı, 2017, səh. 42-46
4. Sadiqli Vasif. Amerikada İslam. 2011 // http://reldem.net/abshaz.html
5. Yusifli Gülay. “Terrorizmin müasir dünya düzəninə təsiri” mövzusunda magistr dissertasiyası, Bakı, 2018 // https://unec.edu.az/application/uploads/2018/11/G-lay-Yusifli-q-z-Yusifli.pdf
6. Alfonseca Kiara. 20 years after 9/11, Islamophobia continues to haunt Muslims. September 11, 2021 // https://abcnews.go.com/US/20-years-911-islamophobia-continues-haunt-muslims/story?id=79732049
7. A Diouf Sylviane. Muslims in America: A Forgotten History. February 10, 2021 // https://www.aljazeera.com/features/2021/2/10/muslims-in-america-always-there
8. Bush at Ramadan dinner, november 19, 2001, //https://edition.cnn.com/ 2001/US//11/19/rec.bush.ramadan/
9. George Washington University Law School. A Report on the Civil Rights Division’s Post-9/11 Civil Rights Summit, October 19, 2011. Confronting Discrimination in the Post-9/11 Era: Challenges and Opportunities Ten Years Later // https://www.justice.gov/sites/default/files/crt/legacy/2012/04/16/post911summit_report_2012-04.pdf
10. Harvard University Press, The Pluralism Project. İslam in America Post 9/11, 2020 // https://pluralism.org/islam-in-america-post-911
11. Harvard Divinity School. Religion and public life, 2022 // https://rpl.hds.harvard.edu/religion-context/case-studies/minority/-america/african-american-muslims
12. Pew Research Center.Post September 11 Attitudes. December 6, 2001 // https://www.pewresearch.org/politics/2001/12/06/post-september-11-attitudes/

# KİMYA VƏ BİOLOGİYA MÜƏLLİMLƏRİNİN İNSAN KAPİTALI KİMİ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***İsrafilli Lamiyə Qafil qızı***
***Elmi rəhbər: dos.R.S.Məmmədova***

***Xülasə***

İnformasiya cəmiyyətinin yarandığı müasir dövrdə ixtisasların elmtu-tumluluq göstəricilərinin yüksəlməsi ilə insan kapitalının formalaşmasının aktuallığı artmaqdadır. məqalədə kimya – biologiya müəllimliyi ixtisası sahəsində tələbələrin kapital kimi formalaşmasına təsir edən amillər təhlil edilmişdir.
**Açar sözlər.** *insan kapitalı, kimya-biologiya müəllimliyi, Müasir Təlim Texnologiyaları, yüksək ixtisaslı kadr.*

***Summary***

In the modern age of the information society, the relevance of human capital formation is increasing with the increase in the scientific and comprehensive indicators of specialties. In the article, the factors affecting the formation of capital of students in the field of chemistry-biology teaching specialty were analyzed.
***Key words:*** *human capital, chemistry and biology teaching, modern training technologies, highly qualified staff.*

İnformasiya cəmiyyətinin yarandığı müasir dövrdə ixtisasların elmtutumluluq göstəricilərinin yüksəlməsi ilə insan kapitalının formalaşmasının aktuallığı artmaqdadır. Məsələnin mahiyyətini təhlil etmək üçün əvvəlcə insan kapitalı anlayışını araşdıraq. İnsan kapitalı işçi qüvvəsinin malik olduğu bacarıqlar fondudur *(Goldin, Claudia. 2016. "Human Capital." In Handbook of Cliometrics, ed. Claude Diebolt and Michael Haupert, 55-86. Heidelberg, Germany: Springer Verlag: abstract.).* Yəni, insanın biliyinin, bacarıqlarının, potensialının cəmidir. İnsan bundan öz varlığını cəmiyyətdə qorumaq və möhkəmləndirmək üçün istifadə edir.

Kimya və biologiya müəllimliyi ixtisası üzrə tələbələrin insan kapitalı kimi formalaşmasına təsir edən amilləri təhlil etmək üçün bu sahəni təsvir edək:

Kimya və biologiya müəllimi şagird, abituriyent, daha üst pillədə bakalavr və magistr tələbələrinə öz elmi pillələrinə uyğun olaraq kimya və biologiya elmi haqqında biliklərin aşılanmasında iştirak edən öyrədəndir. İstər kimya – biologiya müəllimliyi, istərsə də digər sahələrdə fəaliyyət göstərməindən asılı olmayaraq insan kapitalının formalaşması mürəkkəb prosesdir. Bu mürəkkəb proses ictimai yüksəlişin təməli hesab edilir. İctimai yüksəliş də özlüyündə 3 əsas məqsədə çatmaqla baş verən prosesdir: uzun və sağlam ömür sürmək, biliklər əldə edib onları yeniləşdirmək və genişləndirmək, həmçinin yüksək həyat səviyyəsini təmin edən maddi nemətlər əldə etmək *(Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu "İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası" 2017:5).* Bu 3 məqsədə çatmaq istəyən insanı insan kapitalına çevirə biləcək bəzi aparıcı bilik və şəxsi keyfiyyətlərə sahib olmalıdır. Bunlara kommunikasiya, hesablama bacarıqları, şəxsiyyətdaxili vərdişlər (motivlər / inad və.s), "öyrənmənin öyrədilməsi" və şəxsi intizam, etik dəyərlərin və həyatın məqsədlərinin müvafiq toplumu əsasında nəticə çıxarmaq qabiliyyəti, şəxsiyyətlərarası vərdişlər, digər (informasiya və kompüter texnologiyalarının tətbiq edilməsinə qabiliyyətvə.s) vərdişlər və xüsusiyyətlər daxildir *(Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu " İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası" 2017:11).*

Yuxarıda sadalanan keyfiyyətləri içərisində 2 xüsusi keyfiyyət vardır ki, onlar kimya və biologiya müəlliminin insan kapitalı kimi formlaşmasında rol oynayan daha güclü faktorlardır. Bunlardan ilki " öyrənmənin öyrədirlməsi və şəxsi nizam" keyfiyyətidir. Məlum olduğu kimi

dövrümüzdə təhsil sahəsində müasir təlim texnologiyalarının rolu olduqca artmış, mövqeyi isə güclənmişdir. Müasir təlim texnologiyaları (MTT) təhsil prosesində yeni interaktiv tərəf kimi çıxış edir. Müəllimin öyrənənin biliyinin qiymətləndirilməsindəki rolu müəyyən nisbətdə MTT-nın üzərinə köçürülür *(Dr. R.S.Məmmədova, Dr.V.S.Həsənov, Dr.A.A.Mahmudova, Dr.A.M.Sərdarlı "Hacettepe Üniversitesi, Azerbaycan Devlet Pedagoji Üniversitesi ,Uluslararası Öğretmen Yetiştirme Politikaları ve Sorunları Sempozyumu II – Bildiriler kitab" 2010:140).* Həçinin müəllim artıq təhsil prosesindəki yegnə öyrəndən də deyildir. Beləcə, MTT ilə işləməyi bacaran müəllim öz təcrübəsinə əsasən öyrənənlərə məhz MTT-nin istifadəsi ilə müstəqil öyrənmə bacarıqlarını aşılamalıdır. Öyrənənlər kimya və biologiya daxil olmaqla elmin istənilən sahəsində baş verən müxtəlif yenilikləri, dünya təcrübəsini dərsdənkənar formada, sərbəst şəkildə izləməyi bacarmalı, yüksək araşdırma qabiliyyətinə malik olmalıdırlar.

İkincisi isə "informasiya və kompüter texnologiyalarının tətbiq edilməsinə qabiliyyət" keyfiyyətidir. Qeyd edilən iki keyfiyyət bir- biri ilə sıx əlaqədədir. Belə ki, ikinci keyfiyyətə sahib olmayan ilk keyfiyyətə yiyələnə bilməz. Bu səbəbdən də kimya və biologiya müəllimlərinin özlərini insan kapitalı kimi yetişdirmələrində başlıca vəzifə müasir dövrün tələblərinə uyğun təlim texnologiyalarını yaxından mənimsəmək və tətbiq etməkdir.

Azərbaycan Respublikasında Təhsil Sisteminin Müasir İnformsiya (təlim) Texnologiyaları ilə təminatına dövlət nəzarət edir. Buna görə də ölkəmizdə fəaliyyət göstərən müəllimlər MTT vasitəsilə öyrənənlərə əyaniləşdirmə vasitəsi ilə biliklərin dəqiq və sürətli çatdırılma yollarını araşdırmalı və düzgün tətbiq etməyi öyrənməlidirlər.

Kimya və biologiya müəllimlərinin təlim proseslərində MTT- nin tətbiqi ilə reallaşdıra biləcəkləri əyaniləşdirmələrə nəzər salaq. Müəllimlər tədris prosesində öyrənənlərə laboratoriya avadanlıqları, atomun planetar modelinin görüntüsü, elektron konfiqurasiya, maddələrin fəza quruluşu, aparılması təhlükəli ola biləcək reaksiyalar, ayrı – ayrı orqanların 3D modelləri, təkamülə əsasən mövcudluğu ehtimal olunan flora və fauna, mikroorqanizmlər, onların qidalanması, tənəffüzü, canlılarda embrional inkişaf və.s. kimi məlumatları MTT vasitəsi ilə aşılaya bilərlər. Nəzəri biliklərin vizual yaddaşda olacaq bu biliklərlə birləşməsi məlumatların daimi yaddaşda qalma ehtimalını artırır.

Təbii ki, kimya və biologiya müəllimi kimi fəaliyyət göstərəcək fərdlər insan kapitalı olmaq üçün müvafiq olaraq fənnin bütün sahələri üzrə yeniliklərdən xəbərdar olmalı, daima araşdırmağa meyilli olmalıdır. Fənn bilikləri ilə yanaşı, həmçinin psixologiya ilə də dərindən maraqlnmalıdır. Çünki bu fərdlər həm özləri psixoloji cəhətdən dayanıqlı olmalı, həm də öyrənənlərə individual yanaşmağı bacarmalıdırlar. Pedoqoji biliklərin psixoloji biliklərlə birgə vəhdəti müəllimin insan kapitalı olması yolunda əldə edəcəyi mühüm silahlardandır.

Yaş dövrü psixologiyasını mənimsəmiş insan kapitalının təqdim edəcəyi təhsil adi müəllimin təqdim edəcəyindən bir çox üstünlükləri ilə fərqlənir. Təməl biliklərin əsasının məktəbəqədər dövrdə formalaşır. Bu dövrdə öz psixooji və pedoqoji biliklərini silaha çevirə bilən müəllim psixoloji cəhətdən sağlam kapitallar formalaşdırır. Qeyd etmək lazımdır ki, dövlət də məktəbəqədər təhsilin inkişafına xüsusi diqqət yetirməkdədir.

Bütün bunlardan yola çıxaraq "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına diqqət yönəldək. Sərəncamda qeyd edildiyi kimi, keçdiyimiz onillikdə təhsil prosesinin yaxşılaşdırılması diqqət mərkəzində olmuş, müəllimlərin maaşları 2,4 dəfə artırılmış, motivasiya məqsədli müsabiqələr keçirilmişdir. Bütün bunlar həm müəllimlərin insan kapitalı kimi formalaşma yolunda addımlarına təkan vermiş, həm də gələcək kapitalları formalaşdıracaq təhsilin keyfiyyətinə müsbət təsir göstərmişdir. Sənəddə 2022 – 2026 illəri üçün planlaşdırılmış hədəflər içərisində "Elmi tədqiqat, texniki konstruktor işlərinin (ETTKİ) kommersiyalaşdırılmasına dəstək veriləcəkdir.", "Təhsilin bütün səviyyələrində təhsilalanlara rəqəmsal biliklər aşılanacaqdır.", "Əhalinin davamlı savadlanması üçün "ömürboyu öyrənmək" mexanizmi yaradılacaqdır.", "Elmin müxtəlif sahələri üzrə tədqiqatlar genişləndiriləcəkdir.", "Gəlirindən asılı olmayaraq bütün ailələrin övladları üçün ali təhsilə əlçatanlıq təmin olunacaqdır." kimi hədəflərin yer alması insan kimi formalaşmış müəllimin gələcək kapitallar yetişdirməsinə olduqca böyük dəstəkdir. Bütün bunlar

kimya və biologiya müəllimlərinə, eləcə də bu ixtisaslarda təhsil alan gənc kapital namizədlərinə də inkişaf yollarında onlara işıq tutacaq yüksək motivasiyadır.

Ölkəmizdə baş verən bu prosesləri təqdim edərkən həmçinin dünya təcrübəsinə də diqqət yönəltmək lazımdır. Dünya təcrübəsinə nəzər salsaq, kimya və biologiya ixtisaslarıda təhsil alan tələbələr insan kapitalı kimi formalaşmaq üçün mühüm inkişaf yollarından keçirlər. Belə ki, kimya ixtisasını tədris edəcək insanların ixtisaslı kimya müəllimi kimi fəaliyyət göstərə biləcəkləri sənədi əldə etmələrini təmin edən xüsusi proqramlar tətbiq edilməkdədir. Məsələn, müxtəlif ölkələrdə elmi tədqiqat təcrübəsi ilə yanaşı riyaziyyat, kimya və biologiya da daxil olmaqla təbiət elmləri üzrə müəllim hazırlığı proqramı hazırlanıb. Yüksək səviyyəli insan kapitalı yetiştirmək üçün tətbiq edilən bu proqram 2 il müddətində davam edir və 6 kursdan ibarətdir: (I) elm təhsilinə giriş; (II) öyrənmə mühiti; (III) qiymətləndirmə; (IV) təhsil psixologiyası; (V) elm tarixi və fəlsəfəsi (VI) idrak *("Professional Development of Chemistry Teachers: Theory and Practice" Rachel Mamlok-Naaman, Ingo Eilks, George Bodner, Avi Hofstein: 6).* Bu proqramı tamamlamış fərdlər artıq insan kapitalı kimi formalaşma yolunda mühüm keyfiyyətləri qazanmış olurlar. Proqramda tətbiq edilən 6 kursdan əldə edilən biliklər təcrübə ilə inkişaf etdirildikdə yüksək nəticələr verə bilər.

Dünyada olduğu kimi, hazırda ölkəmizdə öz peşəsini layiqincə yerinə yetirən, insan kapitalı olma yolunda əvəzsiz inkişaf yolu keçmiş peşəkar müəllimlər fəaliyyət göstərir. Azərbaycan Dövlət Pedoqoji Universitetinin 2022 – 2023 tədris ilində öz planını 97,6 % doldurması gələcəyə işıq salacaq insan kapitallarının mühüm hissəsinin müəllimlərdən təşkil olacağına dair ümidləri xeyli artırır. Ümummilli lider Heydər Əliyevin də qeyd etdiyi kimi, " bizim elmi dərəcəmizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq". Unutmayaq ki, insan kapitalı olaraq formalaşmağı bacaran müəllim, gələcək insan kapitallarının memarıdır.

**Nəticə**

Araşdırmalardan məlum olur ki, kimya və biologiya müəllimlərinin insan kapitalı kimi formalaşmasına çoxsaylı amillər təsir edir. Bu amillərdən ən əsası müəllimlərin fənn biliklərinin daima yenilənməsi, elmi yeniliklərin fasiləsiz izlənməsi, dərs prosesində MTT-dan istifadə,müəllimin pedoqoji, psixoloji bacarıqlarının formalaşdırılmasıdır. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edildiyi kimi, hazırda ölkəmizdə insan kapitalının formalaşmasına xüsusi diqqət yetirilir, cəmiyyətin fərdlərinin özlərini insan kapitalı kimi yetişdirmələrinə yaxından dəstək göstərilir. Bu diqqət və dəstəklər eyni zamanda kimya və biologiya təhsil alan mütəxəssislərin yüksək ixtisaslı fərd – insan kapitalı kimi formallaşdırması üçün stimullaşdırıcı amildir. Tələblərin insan kapitalı kimi formalaşması üçün müvafiq potensiallı gənclərin elmi yenilikləri özündə saxlayan tədris metodik materiallarla təmin edilməsi vacibdir. Bununla yanaşı, tədris prosesinin müasir standartlar səviyyəsində təşkil edilməsi, tədris mühitinin, auditoriyaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi, tədris prosesində innovativ təlim texnologiyalarından istifadə və digər məsələlər təsiredici amillər kimi dəyərləndirilir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Goldin, Claudia. 2016. "Human Capital." In Handbook of Cliometrics, ed. Claude Diebolt and Michael Haupert, 55-86. Heidelberg, Germany: Springer Verlag
2. Rachel Mamlok-Naaman, Ingo Eilks, George Bodner, Avi Hofstein "Professional Development of Chemistry Teachers: Theory and Practice"
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmİ Tədqiqat İnstitutu " İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası" 2017
4. Dr.R.S.Məmmədova, Dr.V.S.Həsənov, Dr.A.A.Mahmudova, Dr.A.M.Sərdarlı. "Hacettepe Üniversitesi, Azerbaycan Devlet Pedagoji Üniversitesi ‚Uluslararası Öğretmen Yetiştirme Politikaları ve Sorunları Sempozyumu II – Bildiriler kitab" 2010
5. R.S.Məmmədova. Müasir təlim texnologiyaları (kimya elmləri üzrə) .dərs vəsaiti. Bakı, 124 s.
6. Rəhimə S. Məmmədova. Müasir təlim texnologiyarı (kimya elmləri üzrə) fənninin tədrisinin forma və məzmunca təkmilləşdirilməsi istiqamətində araşdırmalar. 3rd International November 24 Head Teacher Education and Innovative Sciences Symposium. May 24-25, 2021, p.297-302 Proceedings Book Volume II, Iksad Publications - 2021© ISBN – 978-605-70611-0-2

# İNGİLİS DİLİ MÜƏLLİMLİYİ İXTİSASINDA HAZIRLAŞAN TƏLƏBƏLƏRDƏ ƏMƏK BAZARININ TƏLƏBİNƏ UYĞUN PEŞƏ SƏRİŞTƏLİYİNİN FORMALAŞMASI

***Bakı Slavyan Universiteti***
***Bayramova Cananə İsmayıl qızı***
***Elmi rəhbər: prof. P.B.Əliyev***

***Xülasə***

Məqalənin girişində müəllim haqqında qısa məlumat verilmişdir. Mövzu ingilis dili müəllimliyi haqqındadırsa, ümumi olaraq müəllimlik peşəsini vurğulamaq tam yerinə düşərdi. Məqalənin davamında M.Mərdanovun fikirləri, eyni zamanda xarici dil müəllimlərinin vəzifələri qeyd olunmuşdur.

Məqaləmizdə ingilis dili fənninin tədrisi üçün yaradılmış şərait və bu fənnin müasir formada necə tədris olunması barədə də şəxsi mülahizələrimiz qeyd olunmuşdur. Məqalənin sonlarına doğru Almaniya, Yaponiya, İsveç kimi ölkələrdə ingilis dili fənninin tədris metodikası müzakirə olunmuş və ölkəmizdə istifadə olunan metodlarla müqayisə olunmuşdur. Həmçinin, məqalədə ingilis dilinin tədrisi üçün istifadə olunan müəyyən metodlara münasibət bildirilmiş və yeni fikirlər irəli sürülmüşdür.
***Açar sözlər**: Müəllim, tədris, əmək bazarı, tədris metodikası, fasilitator.*

***Summary***

Brief information about the teacher is given in the introduction of the article. If the topic is about English language teaching, it would be appropriate to highlight the teaching profession in general. In the continuation of the article, the opinions of Misir Mardanov and the duties of foreign language teachers are mentioned.

In our article, our personal opinions about the conditions created for the teaching of the English language subject and how to teach this subject in a modern form have been mentioned. At the end of the articles, the methodology of teaching English in countries such as Germany, Japan and Sweden was discussed and compared with the methods used in our country. The article also comments on certain methods used for teaching English and puts forward new ideas.
***Key words:** Teacher, teaching, labor market, teaching methods, fasilitator.*

İnsan şəxsiyyətinin formalaşmasında, onun inkişafında müəllimin rolu danılmazdır. Müəllimlər yeniləndikcə, dəyişdikcə cəmiyyət də dəyişir. Ona görə də gələcək üçün ilk növbədə gələcəyimizi quranların inkişafı, dünyagörüşü önəmlidir. Ümumiyyətlə müəllimlik peşəsi çətin, bir o qədər də şərəfli peşədir. Bu peşə ilə bağlı müxtəlif dövr mütəfəkirlərinin deyimləri kifayət qədərdir. Müəllimlik peşəsi haqqında fikirlər söyləyən müdriklərin deyimləri göstərir ki, dövründən aslı olmayaraq həmişə əsl müəllim sərvət kimi qəbul edilmişdir.

Həyat daima inkişaf edir və gələcəkdə nə kimi yeniliklərin necə dəyərlərin olacağından hər birimiz xəbərsizik. Amma müəllim və şagird isə hər zaman olub və qətiyytlə söyləmək olar ki zamandan asılı olmayaraq olacaq. Çünki, insan bilik və təcrübələrinin yeni nəsillərə ötürülməsi ilə sivilizasiyanın yüksək zirvəsinə çata bilər. Həmin təcrübəni nəsillərə ötürmək işi isə müəllimin üzərinə düşür, müəllim gələcəyə yol açır. Müəllim peşəsini digərlərindən fərqləndirən daha bir cəhət isə ondan ibarətdir ki, bütün insanlar müəllimdən öyrənir. Elə bir insan yoxdur ki onun müəllimi olmasın. Dünyanı dəyişən, idarə edən, tarix yazan dahi şəxsiyyətləri də müəllim yetişdirib.

M.Mərdənovun dediyinə görə "müəllim unutmamalıdır ki onun qarşısında ətrafındakı hadisələri öyrənməyə çalışan və bütün bunları öz prizmasından keçirib dərk etmək istəyən, geniş açılmış, alışıb yanan gözlərini müəllimə dikən balaca bir varlıq dayanmışdır. Onun gələcək həyatı, fəaliyyəti, inkişafı, bir şəxsiyyət kimi formalaşması müəllimdən asılıdır." (*Cəmiyyətdə müəllimin rolu və mövqeyi[ Mətn]: S. Qarayeva.- Bakı, 2012).*

Biz özümüzü həyatı dərk etmədiyimiz yaşlarımızdan müəllimlərə həvalə edirik. Bunun üçün də bizi gələcəyə düzgün yönləndirəcək müəllimlərə ehtiyacımız olur.

Bəs düzgün müəllim necə olmalıdır?

Pedaqogika elmidə müasir müəllimə belə bir tərif verilir: Müasir müəllim hazır bilikləri vermir, o biliklərin əldə edilməsi yolunda "bələdçi" (fasilitator) rolunu oynayır və biliyin təfəkkür vasitəsi dərk edilərək əldə olunması üçün istiqamət verir, akademik mənbələr müəyyənləşdirir.

Amma bu fikir sadəcə müasir müəllimə deyil, əsl müəllimə xas xüsusiyyət olmalıdır. Əsl müəllim sadəcə öz bildiklərini hazır məlumat olaraq şagirdlərə verməməlidir, bununla kifayətlənməməlidir. O eyni zamanda şagirdlərin başqa bilikləri araşdırıb mənimsəməsi üçün onları yönləndirməli, istiqamət göstərməlidir. Əsl müəllim öz fənninə məxsus bilikləri dərindən bilib, o məlumatları da şagirdlərə doğru şəkildə çatırmağı, zəruri məlumatları onların səviyyəsinə uyğunlaşdırmağı bacarmalıdır. Bunu üçün də bu fəaliyyət müəllimlərdən natiqlik qabiliyyəti tələb edir. Çünki əgər bu qabiliyyət müəllimlərdə olarsa həm bilikləri aydın və düzgün çatdırmaqda çətinlik çəkməz, həm də səlis aydın nitqi ilə auditoriyanın diqqətini cəmləşdirə bilər.

Bu məqalədə isə biz özəlliklə xarici dil müəllimləri haqqında fikir bildirmək istəyirik. Müəllimlərin fənnini düzgün şəkildə tədris etməsi üçün onun şəxsiyyət kimi formalaşması, psixi inkişafıyla yanaşı, elmi biliklərə , özəlliklə də fənninə dair biliklərə dərindən yiyələnməsi əsasdır. Bu gün ölkəmizdə minlərlə tələbə bu ixtisas üzrə təhsil alır.

Ümumiyyətlə xarici dil müəllimlərinin xüsusi olaraq hazırlanması vacibdir. Xarici dil müəllimləri dil bilikləri olmayan böyüklərə və uşaqlara ingilis dilini öyrədən profesional tərbiyəçidirlər.

Bəs xarici dil müəllimlərinin hansı bacarıqları olmalıdır?

- Müxtəlif siniflərə və müəyyən yaş qruparına uyğun olaraq dili öyrədə bilmək bacarığı,
- Tədris etdiyi dilin sözlərini düzgün, anlaşıqlı şəkildə tələffüz etməyi bacarmaq,
- Şagirdlərin dinləmək, oxumaq, yazmaq və danışmaq bacarıqlarını inkişaf etdirmək,
- Şagirdlərin cümlə qurmaq, söz bilmək bacarıqlarından istifadə edərək onları öyrəndikləri dildə danışmağa sövq etmək,
- Onları dil biliklərini daha da inkişaf etdirmək üçün müəyyən vasitələrdən, kitablardan istifadəyə yönləndirmək *(https://m.kariyer.net/pozisyonlar/ingilizce+ogretmeni/nedi).*

Xarici dil müəllimi öyrətdiyi dili fonetika, lügət və qrammatika sahələrində dil bilikləri və eləcə də bu ölkənin ədəbiyyatını tələbələrə öyrədən şəxsdir. Universitetdə bu ixtisas üzrə təhsil alarkən tələbələr tədris prosesində metodoloji prosesləri izləyir, dilin tədrisi metodları ilə yaxından tanış olur. Həmçinin, proqramda nəzərdə tutulmuş fənləri oxuyur, dilin tədrisi metodlarını yaxından öyrənir. Sonda isə bu sahə üzrə biliklərini tətbiq etmək üçün tələbələr praktikaya cəlb olunurlar. Şübhəsiz olaraq söyləmək olar ki, bu peşə xarici dil və ədəbiyyatına maraq göstərənlər üçün uyğundur.

Tədris araşdırmaçıların və pedaqoqların daim üzərində çalışdıqları ən vacib məsələlərdən biri olmuşdur. Çünki təhsil millətin inkişafına səbəb ola bilən yeganə yoldur. Daha ixtisaslaşmış, sistemli yetişmiş müəllimlər yetişdirilsə dünyada güclü və görkəmli dövlətlərdən birinə çevrilmə ehtimalı daha yüksək olur. Dövlətin inkişafı, parlaq gələcəyi üçün də onun inkişaf etmiş, dünya görmüş şəxsiyyətlərinin biliyinə özəlliklə də dil biliyinə ehtiyac duyulur. Məhz millətin müəyyən dil biliyi vasitəsilə dövlətin inkişafını dünya dövlətləri sırasına daxil etmək mümkün olur.

Tədqiqatçılar sübut etmişlər ki, müəllimlər xarici dil öyrənmə prosesində mühüm rol oynayırlar. Bu prosesdə isə şagirdlərin ,tələbələrin, valideyinlərin müəllimdən gözləntiləri böyük olur. Bu zaman müəllimin üzərinə böyük məsuliyyət düşür. Müəllim öyrətdiyi dili şagirdlərə elə sevdirə bilər ki, onlarda başqa xarici dil öyrənmə həvəsi də yaransın və yaxud da əksinə ola bilər. Məhz buna görə də hər fənn müəllimindən olduğu kimi xarici dil müəllimlərindən də pedaqoji fəaliyyəti zamanı vacib olan pedaoji qabiliyyətlər tələb olunur.

Bütün ölkələrdə əcnəbi dillərin öyrənilməsinə böyük ehtiyac, istək olduğu üçün dilin qüsursuz tədrisi təhsil sahəsində aktual problemə çevrilmişdir. Xarici dillərin öyrənilməsində dil müəllimlərinin tələbələrin üzərində çox böyük rolu var və onların uğurlu nəticəsi müəllimlərin bilik və bacarıqlarından asılıdır.

Bəs ölkəmizdə xarici dil müəllimləri dili tam şəkildə şagirdlərə mənimsətmək üçün mükəmməl dərəcədə yetişdirilirlərmi?

Bildiyimiz kimi pedaqoji fəaliyyətin mərkəzində dayanan müəllim bir subyektdir. Onun obyekti isə şagirdlər hesab olunur. Amma biz öyrənənlər də eyni zamanda subyekt rolunu icra edirik. Çünki bizim də müəllimləri, tərbiyəçiləri müşahidə etmək, qiymətləndirmək bacarığımız var.

Ölkəmizdə on bir il məcburi təhsil müddətində şagirdlərə xarici dil kimi ingilis dili tədris olunur və on bir illik müşahidədən sonra belə bir nəticəyə gəlirik ki, orta məktəblərdə hələ də ingilis dilinin effektiv şəkildə keçilməsi üçün yetərli şərait yaradılmayıb. Bu zaman belə bir sual ortaya çıxır ki, ingilis dili fənni düzgün şəkildə tədris olunmursa ölkəmizin ingilis dili müəllimləri bəs necə? O dili öyrədəcək dərəcədə dil biliklərinə malikdirlərmi? Nəyə görə belə bir sual yaranır çünki əgər hər birimiz Azərbaycanda təhsil almışıqsa eyni təhsil sistemində təhsil almış, eyni vasitələrlə də dil öyrənmişik. Biz dili öyrənmək üçün ali və orta məktəblərdə şəraitin olmamasından şikayətləniriksə, onda ingilis dili müəllimlərimizin də tam şəkildə tədris etdikləri dili bilmələri şübhəli hala çevrilir.

Bəs biz nəyə görə imtahanlardan uğurla nəticə əldə etmək üçün özəl kurslara üz tuturuq?

Biz bu dildən dövlət imtahanı verərkən bizdən dinləmə bacarığı tələb olunur. Amma qətiyyətlə bildirmək lazımdır ki, məktəblərdə bizdən tələb olunan bu bacarıq üçün şərait yaradılmayıb.

Biz hazırda ingilis dili müəllimliyi ixtisasında təhsil alanlar olaraq söyləyə bilərik ki, gələcəkdə bizim ingilis dili müəllimi kimi fəaliyyət göstərməyimizdə orta məktəbdə yiyələndiyimiz ingilis dili bilikləri də rol oynayacaq. Çünki bilirik ki, ingilis dili bizə sadəcə ali məktəbdə tədris olunmur, biz ingilis dili ilə bağlı müəyyən biliklərə orta məktəbdən yiyələnməyə başlamışıq və normal bir tələbə olaraq, yəni heç bir kursa üz tutmayaraq, orta və ali məktəbdə ingilis dilini öyrənməyimiz üçün yaradılan şəraitlə kifayətlənsək, gələcəkdə kurikulum sistəmi ilə təhsil alan bir müəllim olaraq, ingilis dilini kurikulum sistemi ilə yetərli dərəcədə şagirdlərə tədris etmək mümkün olarmı?

Düşünürük ki, hazırki şəraitə nəzər yetirsək, yalnız məktəblərdə tədris olunan ingilis dili ilə kifayətlənmək doğru olmaz.

Almaniyada ingilis dilinin tədrisinə baxsaq, tədrisin əsas xüsusiyyəti müəllimin izahatlarının minimumu və müstəqil işin maksimim saatlarının sayıdır. Prioritet qrup tapşırıqları, səhnələrin və dialoqların oynanılması, filmlərin və kitabların müzakirəsi, gündəlik səhnələrin səhnələşdirilməsi ilə ingilis dili öyrədilir. Finlandiya, İspaniya, İsveç kimi ölkələrdə ingilis dilinin öyrənilməsində özəlliklə praktikaya üstünlük verilir.

Yaponlar isə ingilis dilini məktəblərdə altı il öyrənirlər, buna baxmayaraq yenə də zəif bilirlər. Tədris

sistemi aşağı səmərəliliyi ilə xarakterizə olunur, nəzəri saatların çoxluğu, praktikanın az olması dili rahat qavramaqda çətinlik törədir.

Bizdə isə ingilis dili 11 il tədris olunur. Bəs bizdə şagirdlər 11 illik ingilis dili fənninin tədrisindən sonra bu dili tam şəkildə bilirlərmi? Yaponlarla bizdə ingilis dili fənninin tədrisi metodikası eynidir. Sadəcə bir fərq var ki bizdə bu fənn daha çox tədris olunur. Amma nəticə yenə eyni olaraq qalır.

Heç düşünmüsünüzmü, həqiqətən də məktəbdən sonra ingilis dilində səlis danışa biləcəksinizmi? Sizcə ingilis dili müəllimlərinizin tətbiq etdiyi metodlar doğrudurmu? İngilis dilli mühitə düşsəniz bu dildə danışa bilərsinizmi? Bəzən heç belə düşünürsünüzmü bu dili real şəkildə bilmək üçün dərslər metodlar dərqli olmalıdır?

Məktəblərdə çox az müəllimlər nadir hallarda əyləncəli şəkildə ingilis dili öyrənmə metodokasından istifadə edirlər. Hansı ki bütün dərs müddətində qrammatika əzbərləməkdən də dialoqlar qurmaq, səhnələr canlandırmaq hətta şagirdlərin ən çox sevdiyi filmi belə ingilis dilində oynamaq onlarda ingilis dilinin inkişafına müsbət təsir göstərə bilər.

İngilis dilini öyrənmək üçün ən ideal yaş 6-8 yaş aralıqları hesab olunur. Bu aralıqda da şagirdlərə ancaq ingilis dilinin qrammatikası öyrədilsə və bu dilin sözləri sadəcə olaraq əzbərlənsə nəticə heç də ürək açan olmaz. Bu yaş uşaqları əyləncə, oyun istəyir. Ona görə də bu dil onlara oyunlarla öyrədilə bilər.

Almaniyada belə bir təcrübə keçirilir. Müəyyən yaş qruplarında olan almanlar ingilis dilinin öyrənilməsi üçün ingilis dilli ölkələrə gedirlər. Sonra belə bir nəticə ortaya çıxır ki 20-29 yaşlı almanların 3,1 faizi ingilis dilini bilmir, halbuki 70 yaşdan yuxarı olanların isə 56,9 faizi ingils dili bilməyənləri təşkil edir.

Bu gün bir çox tələbələr ingilis dilini təkmilləşdirməyə ehtiyac duyurlar, çünki bu, əmək bazarında çox qiymətli bir bacarıqdır.

Bəs bu gün ingilis dili müəllimliyi ixtisasında təhsil almış məzunlar əmək bazarında özlərinə yer tapa bilirlərmi?

Bu gün yüzlərlə ingilis dili müəllimi MİQ imtahanları verir və onların yalnız çox az hissəsi imtahandan keçməyi bacarır. 2021-2022- ci tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsində ingilis dili fənni üzrə ən yüksək balı – 53 yalnız bir müəllim, Vahidə Hasılova toplayıb. *(5.Azedu.az https://azedu.az › news › 46095-mu...Müəllimlərin işə qəbulu müsabiqəsində ingilis dili fənni üzrə namizədlər).* Əslində bu kimi yüksək nəticələri artırmaq mümkündür əgər tələb olunan bacarıqlar üçün müəssisələrdə şərait yaradılsa. Çünki bu şərait mümkün olsa bu ixtisas üzrə təhsil alan tələbələr əlavə kurslara üz tutmağa məcbur olmazlar.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Cəmiyyətdə müəllimin rolu və mövqeyi [Mətn]: S.Qarayeva.-Bakı,2012.
2. https://m.kariyer.net/pozisyonlar/ingilizce+ogretmeni/nedir
3. How should English be taught in the future?[Blog]: Carmen&Laura.-English,2017
4. How English is taught around the world?[Blog]:-English,2020
5. Azedu.az https://azedu.az › news › 46095-mu...Müəllimlərin işə qəbulu müsabiqəsində ingilis dili fənni üzrə namizədlər ...

# TƏHSİL PROSESİNDƏ İNSAN KAPİTALININ İNKİŞAFINA AİD ARAŞDIRMALAR

***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Hüseynova Rəqsanə Rasim qızı***
***Elmi Rəhbər: dos. R.S.Məmmədova***

***Summary***

The formation of human capital is an actual matter nowadays. Among the factors influencing the formation of human capital, education is of crucial importance. From this point of view, in the modern era where knowledge is increasing, providing sensitive factors for the formation of learners as human capital, applying the obtained effective results in the educational process is suitable for the purpose. In the article, the factors affecting the formation of human capital, statistical indicators obtained in education, the role of education in human capital were analyzed.
***Açar sözlər:*** *insan kapitalı, təhsil, təhsilsistemi, inkişaf, modernləşmə.*

***Xülasə***

Müasir dövrdə insan kapitalının formalaşması aktual məsələdir. İnsan kapitalının formalaşmasına təsir edən amillər sırasında təhsil həlledici əhəmiyyət kəsb edir. Bu baxımdan biliklərin artdığı müasir dövrdə öyrənənlərin insan kapitalı kimi formalaşması üçün  təsir edici amillərin həssaslıqla təmin edilməsi, əldə edilmiş səmərəli nəticələrin tədris prosesinde tətbiqi məqsədə uygundur. Məqalədə insan kapitalı onun formalaşmasına təsir edən amillər, təhsildə əldə olunan statistik göstəricilər, təhsilin insan kapitalında rolu təhlil edilmişdir.
***Keywords:*** *human capital, education, educational system, development, modernization.*

İnsan kapitalı — insanın cəmiyyətdə özünü tam realizə etmək və cəmiyyətin imkanlarından tam istifadə etmək üçün insanın biliyinin, bacarığının, əlaqələrinin, peşəkarlığının cəmi insan kapitalıdır. Bu intelekt, sağlamlıq, bilik, keyfiyyətli əmək və keyfiyyətli həyat şəraitidir. İlk dəfə termin Teodor Şuls tərəfindən işlədilib, sonradan davamçısı Heri Bekker tərəfindən inkişaf etdirilib. İsbat edilib ki, insan fəaliyyətinə effektli iqtisadi baxış çox vacibdir *(Wikipedia).* Dünya Bankı tərəfindən hazırlanmış Millətlərin sərvətlərinin dəyişməsi adlı hesabatdan məlum olur ki, insan kapitalı qlobal sərvətlərin 64, yüksək gəlirli ölkələrin sərvətlərinin 70, aşağı gəlirli ölkələrin sərvətlərinin isə 41 faizini təşkil etdiyi halda, Azərbaycanda sərvətlərin formalaşmasında insan kapitalının payı cəmi 14 faizə bərabərdir, yəni, aşağı gəlirli ölkələrin göstəricisindən belə təxminən üç dəfə aşağı. Azərbaycanda sərvətlərin formalaşmasında insan kapitalının payının az olmasının səbəblərinin müəyyənləşdirilməsi və insan kapitalının formalaşmasına təsir edən sahələrdəki mövcud vəziyyətin dəyərləndirilməsi ölkədə dayanıqlı iqtisadi inkişafa mane olan problemlərin müəyyən edilməsi baxımından vacib amildir. İnsan Kapitalı insanların ömürləri boyu topladığı biliklər, bacarıqlar və sağlamlıqdan ibarətdir və onların cəmiyyətin məhsuldar üzvləri kimi potensiallarının reallaşdırılmasını təmin edir. İnsanların qidalanması, tibbi yardımı, keyfiyyətli təhsili, iş yerləri və bacarıqlarına investisiyaların yatırılması insan kapitalını inkişaf etdirməyə yardım edir və bu, daha inklüziv cəmiyyətlərin yaradılması üçün vacibdir. Bu baxımdan, araşdırmada ölkədə insan kapitalının vəziyyəti və hökumətin insan kapitalının inkişaf etdirilməsi ilə bağlı fəaliyyəti üç istiqamət üzrə qiymətləndirilir: təhsil, səhiyyə və sosial müdafiə, əmək. Bu qiymətləndirmə insan kapitalının formalaşdırılmasını təmin edən və ona mane olan faktorları müəyyən edir. Araşdırmada təhsillə bağlı diqqət çəkən məqam Azərbaycanda təhsilin keyfiyyətinin və aktuallığının gözləniləndən aşağı olmasının qeyd edilməsi ilə yanaşı, bu sahədə müşahidə olunan qeyri-bərabərliklərin xüsusi vurğulanmasıdır. Belə ki, 2016-cı ildə keçirilmiş PIRLS tədqiqatının nəticələrinə görə, Azərbaycan Avropa və Mərkəzi Asiya (AMA) ölkələri arasında yüksək və aşağı nəticələr göstərmiş şagirdlər arasında ən çox fərq olan ölkədir. Tədqiqatın nəticələrinə əsasən zəngin ailələrdən olan şagirdlər yoxsul ailələrdən olanlarla müqayisədə 700 ballıq sistemdə 96 bal daha yüksək nəticə göstəriblər (Bu fərq üç tədris ilinə bərabər qiymətləndirilir.). Şəhərlərdə təhsil alan şagirdlərin nəticələri isə kənd ərazilərində təhsil alanlara nəzərən 48 bal daha çox olub *(Baku Research Institute).* Azərbaycanda təhsil sahəsində işləyənlərin statistik göstəricilərinə gəldikdə isə 2014-2015-ci illərdə dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində professor-müəllim heyətinin

sayı 15023 nəfər olmuşdur. Onlardan 1166 nəfər elmlər doktoru, 5828 nəfər isə fəlsəfə doktorudur. 2015-2016-cı illərdə isə professor-müəllim heyətinin sayı 14550, elmlər doktorlarının - 1229, fəlsəfə doktorlarının sayı isə 5957 nəfər olmuşdur. Professor – müəllim heyətinin ümumi sayında azalma müşahidə olunsa da, elmi dərəcəsi olanların sayı keçən tədris ilinə nisbətən növbəti ildə 192 nəfər, yəni 2,7 % artmışdır *(Azərbaycanın statistik göstəriciləri-2016).* Bu o deməkdir ki, Azərbaycan xalqının elmi potensialı həmişə olub və inkişaf etməkdədir, yəni elmə olan maraq artmaqdadır. Bu da elm sahəsinə yönələn diqqət və qayğıdan irəli gəlir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Fərmanı ilə qəbul edilmiş “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin başlıca istiqamətləri”ndə insan kapitalının inkişafına dair bölmənin əks olunması buna bariz nümunədir (www.president.az). Ölkə əhalisinin təhsil səviyyəsi haqqında məlumat 1-ci cədvəldə verilmişdir. 2016-cı ildə əhalinin hər 1000 nəfərinə düşən ali və orta təhsili olanların sayı 2006-cı illə müqayisədə təxminən 3% artmışdır *(Azərbaycanın statistik göstəriciləri-2016).*

**Cədvəl 1**

15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərinə düşən təhsili olanlar haqqında məlumat (ilin əvvəlinə)

| **Təhsil səviyyəsi** | **2006** | **2011** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|---|
| Ali və orta təhsili olan 15 və yuxarı yaşlı bütün əhali | 946 | 968 | 969 | 971 | 971 | 972 |
| ali | 118 | 124 | 125 | 126 | 126 | 127 |
| orta ixtisas | 93 | 85 | 85 | 85 | 85 | 85 |
| tam orta | 601 | 628 | 629 | 630 | 630 | 630 |
| ümumi orta | 134 | 131 | 130 | 130 | 130 | 130 |

Azərbaycanda ali təhsil sistemi iki pilləlidir: bakalavriat və magistratura. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün xüsusi diqqət, fikrimizcə, magistratura pilləsinə verilməlidir. Belə ki, son dövrlərdə magistr dərəcəsini almaq istəyənlərin sayı artmaqdadır. Eyni zamanda hesab edirik ki, magistr proqramlarının inkişafına da önəm verilməlidir. Doktoranturanın inkişafı isə sözsüz olaraq, ali təhsil müəssisələrinin elmi potensialının təmin edilməsi ilə əlaqədardır. Lakin son zamanlar doktorantların bəziləri işlərini başa çatdırmırlar, digərləri isə bu sahədən uzaqlaşırlar. Buna baxmayaraq, fəlsəfə və elmlər doktoru proqramı üzrə təhsil alanların sayında kəskin azalma müşahidə olunmamışdır. Bu meyil aşağıdakı şəkildə öz əksini tapmışdır (Şəkil 1).[10]




Şəkil 1. 2005-2015-ci illərdə fəlsəfə və elmlər doktoru proqramlarının göstəriciləri

Göründüyü kimi, qəbul olan doktorantların sayı 2014-cü illə müqayisədə 2015-ci ildə fəlsəfə doktoru proqramı üzrə 71 nəfər, elmlər doktoru proqramı üzrə 35 nəfər azalmışdır (Azərbaycanın statistik göstəriciləri-2016.) Bu azalma daha səmərəli, adekvat, elmi potensialı yüksək olanların

[10] Mənbə-www.stat.gov.az saytının məlumatlarından istifadə edilərək tərtib edilmişdir.

dünya səviyyəsində qəbul edilmiş qaydalara uyğun olaraq seçilməsi ilə bağlıdır. Elmin sahələri üzrə fəlsəfə doktoru proqramı üzrə buraxılışın quruluşunda uzun illərdir ki, ən yüksək xüsusi çəkiyə malik olan iqtisadiyyat, filologiya, hüquq və s. sahələrdir. 2015-ci ildə dissertasiya müdafiə etməklə fəlsəfə doktoru proqramı üzrə buraxılışın quruluşu elmin sahələrinə görə aşağıdakı dairəvi diaqramda verilmişdir (Şəkil 2)[11].




Şəkil 2. 2015-ci ildə elmin sahələri üzrə dissertasiya müdafiə etməklə fəlsəfə doktoru proqramı üzrə buraxılışın quruluşu

İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, insan kapitalının inkişafı iqtisadiyyatın yaxın və uzaq gələcəkdə dinamik və keyfiyyətli inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. İnsan kapitalının yüksək səviyyəsi və keyfiyyətinin olması nəticəsində inkişaf etməkdə olan ölkələr hər nəfərə düşən ÜDM-in sabit artımını, əhalinin yüksək və keyfiyyətli həyat səviyyəsini təmin etmiş olur. Beləliklə, biliyə əsaslanan iqtisadiyyata keçid sivilizasiyanın təkamülündə yeni mərhələ olub maddi istehsalın inkişaf keyfiyyətini müəyyən edir *(Малыгин.В.А/2007)*. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin təabirincə desək: "İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onlarda uğurun əsas səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir. Bizdə isə həm bu olmalıdır, həm də təbii ehtiyatlar da var. Bu amillərin sintezi Azərbaycanı çox qabaqcıl, müasir ölkəyə çevirəcəkdir". Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət bütün sferalarda köklü dəyişikliklər əldə olunmasına imkan vermişdir. O post-neft dövründə qeyri-neft sənayesinin inkişafını prioritet məsələlərdən biri kimi qarşıya qoymuşdur. Bu baxımdan neft kapitalını insan kapitalına çevirmək siyasəti aparılan elmi tədqiqatlarda da özünü göstərməkdədir. Dünya təcrübəsi göstərir ki, insan kapitalının inkişafı ölkənin, əhalinin gəlirlərinin artımına gətirib çıxarır. Müasir tələblər baxımından insan kapitalının formalaşmasının, iqtisadi səmərəliliyinin ölçülməsi və ondan istifadənin yaxşılaşdırılması problemi aktual əhəmiyyət kəsb edir. Azərbaycanda dövlət siyasətinin mərkəzində vətəndaş amili**,** əhalinin yüksək rifahı və layiqli həyat səviyyə**si** dayanır. Yeni dövrdə isə dövlət müasir əmək bazarının tələblərinə uyğun bilik və bacarıqların inkişaf etdirilməsi, rəqabətli insan kapitalının formalaşması, cəmiyyətin yüksək rəqəmsal mədəniyyətə və bacarıqlara sahib olması və innovativ texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması yolu ilə sosial rifahı yüksəltməyi hədəfləyir. Azərbaycan dünyada artan rəqabətə uyğun insan kapitalı formalaşdırmaqla rifaha nail olmağı prioritet kimi müəyyən edib. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafi üçün əlverişli infrastrukturun formalaşdırılması istiqamətində fəal iş aparılır. Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Azərbaycanda Dünya İqtisadi Forumunun

[11] Mənbə-www.stat.gov.az saytının məlumatlarından istifadə edilərək tərtib edilmişdir.

Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Mərkəzinin yaradılması da ölkəmizi yeni texnoloji rəqabət mühitində önə çıxarmaq məqsədindən irəli gəlir. Bununla yanaşı, idarəetmə sahəsində daim təkmilləşmə və effektivlilik əsas götürülərək insan kapitalının, kadr potensialının formalaşması, bacarıqlı kadrların önə çıxarılması məqsədilə də yeni layihələr həyata keçirməkdədir. Məsələn, "Yüksəliş" müsabiqəsi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri, yeni dövrə uyğun bilik və vərdişləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr bankının yaradılmasını təmin etmək məqsədilə atılmış mühüm addımdır. Bununla yanaşı, İqtisadiyyat Nazirliyində yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialdan səmərəli istifadə, peşəkarlıq səviyyəsinin artırılması, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsində "Uğur yolu" karyera inkişaf proqramının həyata keçirilməsi xüsusi önəm kəsb edir. İnsan kapitalının həlledici rolunu nəzərə alaraq, innovasiyaların davamlı inkişafı fonunda bu sahəyə diqqət getdikcə artacaq. Bu məqsədlə şərait və mühit daha da əlverişli hala gətiriləcək. Təhsilin keyfiyyətinin yüksəldilməsi, innovasiyaları təşviq edən münbit şəraitin yaradılması, ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistemin qurulması, dövlətin vahid rəqəmsal platformasının yaradılması kimi tədbirlər də buna xidmət edəcək.(economy.gov.az/az/page/insan-kapitali) Təhsildə yeni uğurlara imza atmaqda biz müəllimlərin öhdəsinə düşür. Üzvi kimyanı yüksək səviyyədə mənimsəyə bilməyən yeni üzvi sintezlər edə bilməz. Deməli təhsil yüksək səviyyədə olmalıdır.

**Nəticə**

İnsan kapitalının formalaşması keyfiyyətli təhsil, təhsildə isə innovasiyalar olmadan mümkün deyildir. Deməli, təhsil müəssisələrində təhsil prosesinə innovasiyaların maksimal dərəcədə tətbiq edilmə mexanizmi təşkil edilməlidir. Hesab edirik ki, Azərbaycanda olan bilik potensialı yaxın gələcəkdə özünü büruzə verəcək və dünyəvi reytinq qiymətləndirmə meyarlarına görə ölkəmiz xüsusi yer alacaq. Bunun üçün cəmiyyətin, dövlətin və ali məktəblərin əlaqəsini genişləndirməsi lazımdır. Beləliklə, milli təhsil sisteminin dünya səviyyəsində mövcud olan təhsil məkanına inteqrasiyasının əsas şərti ali məktəblərin göstəricilərinin beynəlxalq tələblərə uyğun olmasıdır. Azərbaycanda insan kapitalının inkişafında bəzi çatışmazlıqlara baxmayaraq, onun iqtisadi artıma və cəmiyyətin sosial-iqtisadi tərəqqisinə töhfəsi kifayət qədər yüksəkdir. Hazırda əsas diqqəti təhsil sisteminin modernləşməsi və insan kapitalının səmərəli istifadəsinə yönəltmək zəruridir. Azərbaycan Respublikasının 2022-2026 ci illərdə sosial iqtisadi inkişafının strategiyasının insan kapitalının inkişaf etməsinə önəmi böyük olmuşdur.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycanın statistik göstəriciləri-2016. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2016.
2. Ahmadov, F (2007), Team/Group Basic Assesment of Performance, Mateirals of the conference of Management and Organisation, 16-18 May, Istanbul Culture University, Turkey, Antalya.
3. Ahmadov, F (2009), "Application of the Balanced Scorecard in the management of human resources, I. Materials of the international social sciences" conference in Balkans, 10–16 May, Prishtina University, Kosova, Prishtina, 2009.
4. Малыгин В.А., «Человеческий капал как определяющий фактор развития инновационной экономики», «Вестник экономки, права и социологии» №1, 2007.
5. https://economy.gov.az/az/page/insan-kapitali
6. https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan-2/
7. https://az.m.wikipedia.org/wiki/%C4%B0nsan_kapital%C4%B1
8. www.stat.gov.az
9. www.president.az

# TƏHSİLİN “İNSAN KAPİTALI”NIN FORMALAŞMASINA TƏSİRİ

***Bakı Slavyan Universiteti***
***İsmayılova Aygün Akif qızı***
***Elmi rəhbər: S.S. Məmmədova***

***Xülasə***

Bu gün dünyada ictimai inkişafın bütün səviyyələrində, cəmiyyət həyatında təhsil birbaşa rol oynayan faktordur. Təhsilin inkişafı cəmiyyətin, cəmiyyətin inkişafı isə bütöv bir dövlətin inkişafı deməkdir. İnsan kapitalının formalaşmasında başlıca rol oynayan faktorlardan biri məhz təhsildir. Araşdırmalar göstərir ki, iqtisadi kapital inkişafının artırılması birbaşa təhsildən keçir, çünki təhsilli nəsil işin öhdəsindən daha yaxşı gəlir və həmin işi keyfiyyətli şəkildə icra edir. Qari Bekker və Teodor Şults insan kapitalı nəzəriyyəsinin inkişafına görə ilk növbədə məsuliyyət daşıyanlar arasında idilər. İnsan kapitalı peşəkarlıq fəaliyyəti zamanı iş fəaliyyətinə yardım edən peşə vərdişlərinin, texnika ilə davranmaq bacarıqlarının və müvafiq ixtisas üzrə biliklərin toplusudur. Məhz buna görə də bir şəxs bu kapitala sərmayə yatırmaq üçün öncə gələcək peşə sahəsini seçməlidir, çünki konkret bir məqsəd müəyyən edildikdən sonra hər bir hədəfə nail olmaq olar.
***Açar sözlər:*** *Təhsil, innovasiya, neoklassik iqtisadi nəzəriyyə, insan kapitalı, təhsil sistemi.*

***Summary***

Today, education is a factor that plays a direct role in the life of society at all levels of social development in the world. The development of education means the development of society, and the development of society means the development of an entire state. One of the factors that play a major role in the formation of human capital is education. Research shows that increasing economic capital development goes directly through education, because an educated generation is better able to take on work and perform that work well. Gary Becker and Theodore Schultz were among those primarily responsible for the development of human capital theory. Human capital is a set of professional habits, technical skills and knowledge in a relevant specialty that help work during professional activity. That's why a person should first choose his future profession to invest in this capital, because every goal can be achieved once a concrete goal is defined.
***Key words:*** *Education, innovation, neoclassical economic theory, human capital, education system.*

Bu gün dünyada ictimai inkişafın bütün səviyyələrində, cəmiyyət həyatında təhsil birbaşa rol oynayan faktordur. Təhsilin inkişafı cəmiyyətin, cəmiyyətin inkişafı isə bütöv bir dövlətin inkişafı deməkdir. Məhz insanın inkişaf etməsinə təsir edən üç əsas amilin - bacarıq, bilik və nailiyyətin başında təhsil gəlir. Təhsil özlüyündə insan kapitalını qurur, yaşam keyfiyyətlərinin yaxşılaşmasına və iqtisadi artım mənbələrinə müsbət təsir göstərir. Əslində diqqət etsək görərik ki, hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır və bu nöqteyi-nəzərdən yanaşarıqsa, hər bir ölkənin inkişafını onun təbii sərvətlətindən çox, elm və təhsilin inkişaf səviyyəsi müəyyən etdiyinin şahidi olarıq. *Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanların biliyidir, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik”(Mələk Zamanova. Təhsildə keyfiyyətin sistemli idarəedilməsi. Bakı-2017, 53).*

İnsan kapitalının tərifini insanın istedadından, bilik, bacarıq və təcrübəsindən qaynaqlanan qeyri-maddi sərvəti kimi izah etmək olar. İnsanların ömür boyu topladığı bilik, bacarıq, sağlamlıq onların cəmiyyətin məhsuldar üzvləri kimi potensiallarının reallaşdırılmasını təmin edir. İnsan kapitalının formalaşması əsasən formal və qeyri-formal təhsil prosesi ilə bağlıdır. İnsan kapitalı indeksinin istifadəsi isə zəruridir, bu indeksin əsas məqsədi bu gün dünyaya gələn bir uşağın 18 yaşına çatanda toplaya biləcəyi insan kapitalının miqdarının ölçülməsidir. Nəzərdən keçirsək şahidi oluruq ki, hazırda bu indeks üç komponentdən: sağ qalma, gözlənilən təhsil müddəti və sağlamlıq vəziyyətindən ibarətdir.

İqtisadiyyatın inkişaf etdirilməsi və şaxələndirilməsi üçün aktual olan tədqiqatın gücləndirilməsi məqsədilə ali təhsil nisbətən daha çox rəqabətli maliyyələşdirmənin əlçatanlığını

tələb edir. Buna görə də, ali təhsil sistemində innovasiyaların dəstəklənməsi məqsədilə istifadə olunan mühüm mexanizimlərdən biri innovasiyalar fondudur. Hər bir kəsə məlumdur ki, innovasiya- yeniliyin məzmunu və onun reallaşmasıdır. Bu fondların rəqabətli aspekti ali təhsilə dövlət maliyyəsinin ayrılması üçün büdcə planlaşdırılmasını, ali təhsilin keyfiyyətinin artırılması və aktuallığının yüksəldilməsi, çevikliyinə görə dəyişən siyasət prioritetlərinə tez bir zamanda cavab verəbilmə kimi faydaları özündə birləşdirir. Bu gün billiklərə əsaslanan bir iqtisadiyyatın qurulması mərhələsində təhsilin əsas məqsədlərindən biri kreativ düşüncəli, yaradıcı, tənqidi təfəkkürə malik gənc nəsil formalaşdırmaqdır. Hazırda təhsil sistemində innovasiyaların tətbiqi dedikdə, nüxtəlif yeniliklərin təlim-tərbiyənin məqsəd, məzmun, metod və formaların tətbiqi, təhsilin iqtisadiyyatı, təşkili və idarə edilməsində pedaqoq və təhsilalanın müştərək fəaliyyətlərinin yeni biliklər əsasında təşkili kimi məsələlər nəzərdə tutulur. Araşdırmalar göstərir ki, iqtisadi kapital inkişafının artırılması birbaşa təhsildən keçir, çünki təhsilli nəsil işin öhdəsindən daha yaxşı gəlir və həmin işi keyfiyyətli şəkildə icra edir. Təhsil qeydləri, maliyyə göstəriciləri, fiziki göstəricilər və savad göstəriciləri təhsilin səviyyəsini müəyyən edən əsas meyarlardan sayılır. Təhsil qeydləri əhalinin ibtidai, orta və ali təhsil kimi səviyyələrə ayrılmasıdır. Azərbaycan təhsil sistemində il ərzində inkişaf tendensiyası özünü göstərir, belə ki, 2014-2015-ci illərdə dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı 15023 nəfər olmuş, onlardan 1166 nəfər elmlər doktoru, 5828 nəfər isə fəlsəfə doktorudur. 2015-2016-cı illərdə isə professor-müəllim heyətinin sayı 14550, elmlər doktorlarının - 1229, fəlsəfə doktorlarının sayı isə 5957 nəfər olmuşdur. Professor – müəllim heyətinin ümumi sayında azalma müşahidə olunmasına baxmayaraq, elmi dərəcəsi olanların sayı keçən tədris ilinə nisbətən növbəti ildə 192 nəfər, yəni 2,7 % artım göstərmişdir.

Aparılan tədqiqatlar müəyyən etmişdir ki, ölkə əhalisinin təhsil səviyyəsi 2016-cı ildə əhalinin hər 1000 nəfərinə düşən ali və orta təhsili olanların sayı 2006-cı illə müqayisədə təxminən 3% artmışdır *(Azərbaycan Respublikasının göstəriciləri-2016, Azərbaycan Respublikası Dövlət statistika komitəsinin nəşri. Bakı, 2016).*

***15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərinə düşən təhsili olanlar haqqında məlumat***

***Cədvəl 1***

| Təhsil səviyyəsi | 2006 | 2011 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| Ali və orta təhsili olan 15 və yuxarı yaşlı bütün əhali | 946 | 968 | 969 | 971 | 971 | 971 |
| Ali | 118 | 124 | 125 | 126 | 126 | 127 |
| Orta ixtisas | 93 | 85 | 85 | 85 | 85 | 85 |
| Tam orta | 601 | 628 | 629 | 630 | 630 | 630 |
| Ümumi orta | 134 | 131 | 130 | 130 | 130 | 130 |

İnsan kapitalının formalaşmasında təhsilin rolundan danışırıqsa, burada 2 əsas istiqamətə diqqət yetirməliyik.

1. İnsan potensialını artırılmasına təhsilin başlıca təsiri
2. İnsan kapitalının yaradılması üçün təhsilin oynadığı rol

İnsan kapitalı nəzəriyyəsinə diqqət etsək görərik ki, təhsilə olan yatırımların əsas məqsədi əmək məhsuldarlığını artırmaqdır. Bu nəzəriyyə insanın inkişaf sisteminin nəzəri əsaslarından biri olub, öncə əməyin məhsuldarlığının yüksəldilməsi ilə mal və xidmətlərin istehsalının artması, sonra isə işçilərin öz gəlirlərinin artması qayəsini özündə cəmləşdirən bir investisiya obyektidir. Ekonomik artım insan potensialının inkişafına əsasən ölkə əhalisinin təhsil səviyyəsinin sürətlə yüksəlməsinə təminat verir, məhz buna görə də iqtisadi artımın və milli sərvətlərin formalaşdırılmasına vacib təsir edən əsas amilin təhsil olduğun görürük.

*Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin təbirincə desək: "İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onlarda uğurun əsas səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir (Mələk Zamanova. Təhsildə keyfiyyətin sistemli idarəedilməsi."Elm və təhsil". Bakı-2017).*

1950-1960-cı illərin əvvəllərində Nobel mükafatı laureatları və Çikaqo Universitetinin iqtisadçıları Qari Bekker və Teodor Şults insan kapitalı nəzəriyyəsinin inkişafına görə ilk növbədə məsuliyyət daşıyanlar arasında idilər. *Q. Bekker qeyd edir ki, işçilərə qoyulan sərmayə*

*kapital avadanlıqlarına sərmayə qoymaqdan heç nə ilə fərqlənmir (Becker G.S. (1964), Human capital: A theoretical and empirical analysis, with special reference to education. – National Bureau of Economic Research, 1964).*

Bekker umumi və spesifik insan kapitalını fərqləndirmişdir:

**Konkret insan kapitalı**: yalnız bir şirkətə fayda verən təlim və ya təhsil

**Ümumi insan kapitalı**: hər hansı bir şirkətdə fərdin xeyrinə olan təlim və ya keyfiyyətlər

Beker aşkar etmişdir ki, şirkətlər konkret insan kapitalını daha çox ödəyir, ayrı-ayrı şəxslər isə ümumi insan kapitalı investisiyalarını ödəyirlər.

Neokassik iqtisadi nəzəriyyədə fiziki kapitalın yığılması işçi qüvvəsinin artmasının, həmçinin əməyin məhsuldarlığını artıran texnoloji inkişafın nəticəsi qeyd olunmuş və bu zaman texnoloji inkişafın səbəblərinə əsasən ekzogen amil kimi göstərilirdi. İstehsal prosesində səmərəliliyi artıran amilin təhsil və təhsilli insanlar olduğu vacib sayılsa da, bu o demək deyildir ki, təhsilli kadr olması iqtisadi artımı bir anda yüksək tempə qaldıracaq. Nəzərə alsaq ki, eyni regionda yerləşən ölkələrin iqtisadi göstəriciləri, əhalisinin təhsil səviyyəsi ondan aşağı olan ölkənin iqtisadi artım göstəricisi yuxarı, lakin təhsil səviyyəsi yuxarı olan ölkələrin isə zəif iqtisadi tərəqqisi ola bilər.

Bunun səbəbini aşağıdakı faktlarla aydınlaşdırmaq mümkündür:

- Ölkədə yer alan insan kapitalından effektiv şəkildə istifadə edilməməsi
- Təhsil sahəsinə və insan kapitalı üzərinə qoyulmuş olan investisiyaların qeyri-rasional formada keçirilməsi
- Orta və ali təhsil müəssələrində əldə olunan təhsilin keyfiyyətinin aşağı olması
- Ölkənin inkişafı üçün doğru planın tərtib olunmaması və səhv idarəetmə sisteminin müəyyənləşdirilməsi

İnsan kapitalının inkişafının fiziki kapitalın yaradılmasına zəmanət verməməsinin səbəbi onun bilik iqtisadiyyatının təşkilinə yönəlməsidir. Əvvəllər bilik iqtisadiyyatında və iqtisadi fəaliyyətlər bilik amilinə əsaslanırdısa, hazırda iqtisadiyyatda fundamental dəyişikliklər yaranmışdır.\

*Şults insan kapitalına qoyuluşların təsnifatı haqqında etdiyi araşdırmada təhsilə böyük əhəmiyyət verdiyini qeyd etmişdir. O, ilk orta və ali təhsilə formal yanaşmış və buna insan kapitalı üzərinə qoyulan vacib bir investisiya kimi baxır (Schultz T.W. (1961), Investment in human capital. The American economic review, 1961, T51. №1).*

Hər birimizin bildiyi kimi bilik və bacarığın qazanılması, öyrənilməsi anadan olandan ölənədək davam edir, məhz bu səbəbdən də insan kapitalı aşağıda qeyd olunan şəkildə inkişaf göstərir:

- Kiçik yaş, erkən uşaqlıq dövründə ailə daxilində öyrətmə
- Erkən uşaqlıq dövrü daxil olmaqla formal, məcburi, ali təhsil və s.
- İş yerlərində yüksək səviyyədə hazırlanma, innovasiya, tədqiqat vasitəsi ilə təhsilin artırılması
- Gündəlik həyat, mülki fəaliyyət və iş yerlərində qeyri-formal olaraq bacarıqların təkmilləşdirilməsi

İnsan kapitalına daxil olan bilik və şəxsi keyfiyyətləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. Kommunikasiya:
   - Söhbətin başa düşülməsi
   - Danışmaq bacarığı
   - Mütaliə
   - Məktub
2. Hesablama:
3. Şəxsiyyət daxili vərdişlər:
   - motivlər / inad
   - “öyrənmənin öyrədilməsi” və şəxsi intizam (öyrədilmənin özü-özünü tənzimləyən strategiyasını daxil etməklə)
   - etik dəyərlərin və həyatın məqsədlərinin müvafiq toplumu əsasında nəticə çıxarmaq qabiliyyəti.

4. Şəxsiyyətlərarası vərdişlər:
- komandada iş
- liderlik
5. Digər vərdişlər və xüsusiyyətlər
- informasiya və kompüter texnologiyalarının tətbiq edilməsində qabiliyyətin rolu
- gizli bilik
- problemi həll etmək bacarığı
- fiziki keyfiyyət və bacarıq

*(Azərbaycan respublikası iqtisadiyyat nazirliyi iqtisadi islahatlar elmi tədqiqat institutu, İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası, bakı-2017. 9-10).*

İnsan kapitalı necə qazanılır sualını cavablamış olsaq deyərik ki, insan kapitalı peşəkarlıq fəaliyyəti zamanı iş fəaliyyətinə yardım edən peşə vərdişlərinin, texnika ilə davranmaq bacarıqlarının və müvafiq ixtisas üzrə biliklərin toplusudur. Məhz buna görə də bir şəxs bu kapitala sərmayə yatırmaq üçün ilk öncə, gələcək peşə sahəsini seçməlidir, çünki konkret bir məqsəd müəyyən edildikdən sonra hər bir hədəfə nail olmaq olar. İnsan kapitalı həm də hər bir insanın öz ətrafında olan müxtəlif resusrslardan səmərəli istifadə edə bilməsidir. Gənclərin elm, təhsil, mədəniyyət və digər sosial sahələrdə fəailliyyət göstərə bilmələri üçün Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılmışdır. İctimai sferada fəaliyyət göstərən hər bir gənc isə müəyyən edilmiş tələbatlara cavab verən layihəsini həyata keçirmək üçün bu fonda müraciət edə bilər. İctimai sferada insan kapitalına sərmayənin qoyulması da onun inkişaf etdirən amil hesab olunur. Lakin bir amilə diqqət etmək lazımdır. Bəzən ictimai sferada göstərilən fəaliyyət hobbi anlayışı ilə qarışdırılır. Bir mənalı olaraq anlaşılmalıdır ki, hobbi insanın asudə vaxtlarda əyləncəli vaxt keçirmək üçün edilən işlərdir.

Prezident İlham Əliyevin Sərəncamına əsasən 26 iyul 2019-cu ildə "Yüksəliş" müsabiqəsi təsis edilməyə başladı, bu müsabiqənin təsis edilməsində əsas məqsəd, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir. Bu müsabiqənin tətbiq edilməsi Azərbaycanın böyük gələcəyinə töhfə verəcək insanların yetişməsinə səbəb olacaq. Nəzərə alsaq ki, insan kapitalı peşəkarlıq fəaliyyəti zamanı iş fəaliyyətinə yardım edən peşə vərdişlərinin, texnika ilə davranmaq bacarıqlarının və müvafiq ixtisas üzrə biliklərin toplusudur, o zaman bu müsabiqə insan kapitalının inkişaf tendensiyasına müsbət mənada təsir göstərəcək.

Hazırda Azərbaycan dövləti elm və təhsilə daha çox investisiya qoymaqla məşğul olub dayanıqlı inkişaf mühiti yaradır. Ölkəmizin beynəlxalq formada rəqabətliliyi üçün möhkəm təməllər formalaşdırılır. Məhz bu səbəbdən də təkcə dövlətin deyil, həm də cəmiyyətin hər bir fərdini özünü ölkənin ən böyük kapitalı kimi dəyərləndirməyə, öz poetinsalını ona qoyulan investisiyalarla daim artıraraq tam gücü ilə istifadə etməyə ruhlandırır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının göstəriciləri-2016, Azərbaycan Respublikası Dövlət statistika komitəsinin nəşri. Bakı, 2016
2. Azərbaycan respublikası iqtisadiyyat nazirliyi iqtisadi islahatlar elmi tədqiqat institutu, İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası, bakı-2017
3. Andreas Savvides and Thansis stengos. Human capital and economic growth. California. 2009
4. Becker G.S. (1964), Human capital: A theoretical and empirical analysis, with special reference to education. – National Bureau of Economic Research, 1964
5. F. P. Rəhmanov. Sosial sfera keçid iqtisadiyyatı şəraitində. Bakı-Gənclik-2002
6. "Geostrategiya" jurnalı №01(49) yanvar-fevral 2019
7. Mələk Zamanova. Təhsildə keyfiyyətin sistemli idarəedilməsi . "Elm və təhsil". Bakı-2017
8. Sağ qal, öyrən, inkişaf et. Azərbaycanın inkişafının sürətləndirilməsi məqsədilə insan kapitalına strateji investisiyaların yatırılması, 2020. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı/ Dünya Bankı
9. Schultz T.W. (1961), Investment in human capital. The American economic review, 1961, T51. №1

**İnternet səhifəsi:**

1. https://yukselish.az/competition

# PANDEMİYA ŞƏRAİTİNDƏ TƏHSİLİN TƏŞKİLİ

***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Məhərrəmova Aidə Xəqani qızı***
***Elmi rəhbər: N.N.Niftəliyeva***

***Xülasə***

Məqalədə pandemiya şəraitində tətbiq olunan distant təhsilin əhəmiyyəti elmi-nəzəri, həmçinin praktik aspektdən təhlil olunur. Burada bu problemlə bağlılığı olan məsələlər və onun aktuallığı izah edilir. Məqalədə, həmçinin dövlət səviyyəsində bu istiqamətdə gördüyü tədbirlər və onun nəticələrindən də bəhs olunur.

***Açar sözlər:*** *təhsil,virtual məktəb, pandemiya, distant təhsil, Covid-19* virusu.

***Summary***

The article analyzes the importance of distance education applied in pandemic conditions from a scientific-theoretical as well as a practical aspect. Here the issues related to this problem and its relevance are explained. The article also mentions measures taken in this direction at the state level and its results.

***Keywords:*** *education, virtual school, pandemic, distance education, Covid-19 virus.*

Təhsil dedikdə gənc nəslin biliklər sistemi və bununla əlaqədar olan bacarıqlara, vərdişlərə yiyələnməsi başa düşülür. Azərbaycanlı pedaqoqlardan professor, pedaqoji elmlər doktoru Ə.Paşayev və F.Rüstəmova görə isə təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək, onu həyata hazırlamaq məqsədi ilə müasir standartlara uyğun olaraq müəyyənləşdirilmiş məzmunun tədris müəssisələrində və özünətəhsil yolu ilə mənimsənilmə səviyyəsinin qəbul olunmuş meyarlarla yoxlanılan, qiymətləndirilən və hüquqi sənədlərdə təsbit olunmuş nəticəsidir *(Ə. Paşayev, F. Rüstəmov, 2012: 13.)* Təhsil insanlara öz əcdadlarının əsrlər boyu əldə etdiyi təcrübə və biliklərə bir neçə il ərzində yiyələnmək imkanı verir. Təhsil prosesində insan mədəni dəyərləri mənimsəyir. Azərbaycan Respublikasında təhsilin əsas məqsədi öz məsuliyyətini dərk edən, xalqın milli ənənələri və demokratiya prinsiplərinə hörmət edən, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirməkdir. Göründüyü kimi təhsil prosesi olduqca zəruri bir əhəmiyyət daşıyır. Cənubi Afrika Respublikasının 8-ci prezidenti Nelson Mandela bu barədə belə qeyd edirdi: "Dünyanı dəyişdirmək üçün istifadə edə biləcəyimiz ən güclü silah Təhsildir" (https://engozelsozler.blogspot.com/2020/11/Tehsil-haqqinda-tehsile-aid-aforizmler.html)

Bütün bunlar bizə bir daha inkişaf etmək və hədəflərimizə çatmaq üçün öz üzərimizdə daima işləməyimizin və təhsildən uzaqlaşmamağın əhəmiyyətini qabardır. Lakin bəzən baş verən gözlənilməz, xoşagəlməz hadisələr təhsil prosesinin daimi və ya müvəqqəti dayanmasına səbəb olur.

İlk dəfə Covid-19 virusu 2019-cu ilin dekabrın ortalarında *(https://its.gov.az/page/olkede-umumi-veziyyet)* Çində aşkarlandı və digər ölkələrə də yayıldı. Azərbaycanda isə Covid-19 virusunun yayılması 2020-ci ilin fevralın 28-dən *(https://its.gov.az/page/olkede-umumi-veziyyet)* başladı. Pandemiya dünyada təhsil sistemlərinə də təsir ötüşməmişdir. Təhsil hansı formada olursa-olsun, bütün uşaqlar təhsil almalıdır. Əlbəttə ki, belə bir şəraitdə şagirdlərin təhsildən kənarda qalmaması üçün yeganə çıxış yolu distant təhsilin təşkili oldu. Bütün dünyada olduğu kimi,ölkəmizdə də gözlənilmədən tam formada distant təhsilə keçid bir sıra çatışmazlıqların meydana çıxmasını qaçılmaz etdi. Çünki hər kəsin distant təhsilə qoşulmaq imkanı yox idi. Digər tərəfdən "müəllim və şagirdlər arasında canlı ünsiyyətin olmaması,o cümlədən müəllimlərin şagirdlərin dərs zamanı davranışına birbaşa nəzarət etmək imkanının olmaması" tədrisin keyfiyyətinə mənfi təsirsiz ötüşmür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə atılan addımlar respublikamıza bu ümumibəşəri bəladan ən az zərərlə ötüşməyə imkan verdi, koronavirusun ölkəmizdə yayıldığı ilk gündən təhsilin təşkili,təhsildə fasiləsizliyin və davamlılığın təmin olunması əsas məsələ kimi diqqət mərkəzində saxlanıldı.

Pandemiya şəraitində Azərbaycanda təhsilin fasiləsizliyinin təmin edilməsi üçün bir sıra addımlar atılmışdır. Belə ki, ilk mərhələdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 yanvar

2020-ci il tarixli 35 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında yeni korona-virus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı”nın icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən “Tədbirlər Planı”ı *(https://engozelsozler.blogspot.com/2020/11/Tehsil-haqqinda-tehsile-aid-aforizmler.html)* hazırlayıb həyata keçirilməsinə başlanıldı. 2020-ci ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiqlənən “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün “Fəaliyyət Planı”na əsasən,fövqəladə hallarda, pandemiya vəziyyətində uşaqların təhsilə, sosial bərabətliyin təmin edilməsi istiqamətində mexanizmlərin müəyyən olunması, inkluziv təhsilə dair mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması nəzərdə tutulur.

Ölkədə Covid-19 virusuna ilk yoluxma faktı qeydə alındıqdan sonra 2020-cı il martın 3-dən - təhsil müəssisələrində təlim-tədris prosesi *(https://muallim.edu.az/news.php?id=11580)* dayandırılıb. Bundan 7 gün sonra martın 11-dən isə Təhsil Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə teledərslərin keçirilməsinə başlanıb. Pandemiya şəraitində təhsil sahəsində innovasiyaların tətbiqinə zərurət yarandı. 2020-ci il oktyabrın 19-dan tətil, sonra isə distant təhsilə keçid elan olundu. Distant təhsil tədris prosesinin elekron, proqram-texniki vasitələr əsasında təşkil olunmasıdır. Distant təhsilə artıq xüsusi təhsil müəssisələri də qoşuldu. Xüsusi təhsil müəssisələrinin həm rəhbərliyi, həm də pedaqoji heyəti artıq onlayn tədrisə hazır idilər. Distant təhsilin normal keçirilə bilməsi üçün birinci növbədə sürətli internet təminatının olması vacib idi. Bu, birbaşa müvafiq dövlət qurumlarının üzərinə düşən vəzifə idi. Dərslərin nümayişi üçün televiziyanın seçilməsi təsadüfi deyildi. Belə ki, ölkənin bütün regionlarında, xüsusilə də ucqar kəndlərdə şagirdlərin fasiləsiz və sürətli internet bağlantısı ilə təmin edilməsi sahəsində çətinliklər olduğu üçün onların müəyyən hissəsinin dərslərdən yararlana bilməməsi ehtimalı var idi. Bütün bunlar nəzərə alınaraq, dərslərin iki televiziya kanalında yayımlanması barədə qərar qəbul edildi. Bu kanallar “Mədəniyyət” və “ARB Günəş” kanalları idi *(https://muallim.edu.az/news.php?id=11580).*

Teledərslərin təşkili ilə təhsilin əhatəliliyi və əlçatanlığı təmin olundu, 1.6 milyon şagird tədrisə cəlb olundu. Növbəti addım olaraq “Virtual məktəb” *(https://virtual.edu.az/)* lahiyəsi reallaşdı. Lahiyənin məqsədi teledərslərin interaktivliyini təmin etmək və ümumillikdə məsafədən tədris imkanlarını genişləndirmək idi. Uşaqlara mövzulara dair nəzəri məlumatlar verilməklə yanaşı, onların inkişafı üçün praktik məşğələlər də təqdim olunurdu. “Virtual məktəb” platformasının istifadəyə verilməsi nəticəsində 1 milyondan çox müəllim və şagird onun imkanlarından istifadə edə bildi. Aprelin 15-dən başlayaraq, hər həftə ərzində keçirilən “Virtual əlaçı” bilik yarışması portalın ən müsbət tərəflərindən biri hesab edilə bilər. Həmin platforma üzərindən hər həftə şagirdlər arasında “Virtual əlaçı” müsabiqəsinin yüz minlərlə iştirakçısı, 149 qalibi olub *(Sevinc Qarayeva, 2020: 13).*

Ali təhsil proqramlarının mənimsənilməsinin təmin edilməsi məqsədilə Təhsil Nazirliyinin tövsiyələrinə uyğun olaraq, ali və orta ixtisas təhsili müəssisələrində müxtəlif onlayn platformalar üzərindən dərslərin təşkilinə başlanmışdır. Həmin dərslərə 100 mindən artıq tələbə və professor-müəllim heyəti qoşulmuşdur. Ali təhsil müəssisələrinə Təhsil Nazirliyinin təqdim etdiyi "MS Teams” *(Aybəniz Hüseynova, 2021:98)* platformasından ödənişsiz istifadə imkanı yaradılmışdır.

Distant təhsilin texnologiyalarından istifadə, tədrisin açıqlığı, iqtisadi səmərə, məsafə, zaman məhdudiyyətinin olmaması, təhsilin kütləviliyi, əhatəliliyi, elastiklik, keyfiyyətli təhsilə əlyetənlik, əlillərin və xüsusi qayğıya ehtiyacı olan insanların təhsilalma imkanı və s. kimi üstünlükləri vardır. İstədiyi yerdə, özü seçdiyi vaxtda təhsil almaq təhsilalanlara vərdiş etdikləri şəraitdə qalmağa, fərdi tədris qrafikini hazırlamağa imkan verdi. Pandemiyanın əsas dərslərindən biri də ondan ibarət oldu ki, həm təhsilverənlər, həm də təhsilalanlar mükəmməl rəqəmsal bacarıqlara malik olmalıdırlar.

Ümumillikdə bu pandemiya bir sınaq idi. Biz bu sınaqdan üzü ağ çıxmağı bacardıq. Dünyamıza və ölkəmizə pandemiyasız, sevincli, firavan günlər arzulayıram.

**Məqalənin aktuallığı:** Fəsadları hələ də bitməyən və bütün sahələrdə öz təsirini göstərən koronavirus pandemiyası zamanı təhsil sistemi ilə bağlı olan elmi-nəzəri və praktik məsələlər dövrün aktual pedaqoji problemlərindən biridir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə pandemiya şəraitində görülən tədbirlərin statistik olaraq təhsil sisteminə müsbət təsir göstərməsindən bəhs edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** Məqalə Covid 19 pandemiyası və buna bənzər digər xoşagəlməz, gözlənilməz hallar zamanı təhsil sisteminin düzgün təşkili və uğurlu idarə olunması baxımından faydalı olacaqdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. AYBƏNİZ HÜSEYNOVA. AZƏRBAYCANDA DİSTANT TƏHSİL: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR. Azərbaycan məktəbi jurnalı | Azerbaijan Journal of Educational Studies| 2021. №4
2. F. İbrahimov, R. Hüseynzadə. Pedaqogika. I cild. Bakı: 2012
3. Ə. Paşayev, F. Rüstəmov. Pedaqogika. Bakı: Elm və təhsil. 2012
4. Sevinc QARAYEVA. “Virtual məktəb”: təhsil üçün yeni perspektivlər açan layihə. 525-ci qəzet.- 2020.- 17 iyul.
5. https://engozelsozler.blogspot.com/2020/11/Tehsil-haqqinda-tehsile-aid-aforizmler.html
6. https://its.gov.az/page/olkede-umumi-veziyyet
7. https://muallim.edu.az/news.php?id=11580
8. https://virtual.edu.az/
9. xalqqazeti. com
10. trend.az
11. worldvision.ge

# İNSAN KAPİTALI – PARLAQ GƏLƏCƏYİN TƏMİNATIDIR

***Sumqayıt Dövlət Universiteti***
***Osmanova Nübar İlqar qızı***
***Elmi rəhbər: A.V.Əsədova***

***Xülasə***

Bu gün istehsal, xidmət, elm, təhsil və səhiyyə sahələrində dominant rolu insan kapitalı oynayır. İnsan kapitalından istifadənin aktuallığı istehsal üsulunda, toplanmış biliklərin ötürülməsində və insanın intellektual potensialındadır. Amma təbii ki, maddi nemətlərin istehsalı öz əhəmiyyətini saxlayır, lakin onun iqtisadi səmərəliliyi bilavasitə istifadə olunan yüksək ixtisaslı kadrların kəmiyyət və keyfiyyəti, yeni biliklərin formalaşdırılması və yeni texnologiyaların yaradılması və müvafiq olaraq idarəetmə üsulları ilə müəyyənləşdirilir. Nəticə etibarilə, insan kapitalının aktuallığı onunla izah olunur ki, istehsal və xidmət sektorunun səmərəliliyi və rəqabət qabiliyyəti yüksək təhsilli və yüksək ixtisaslı işçilər olmadan təmin edilə bilməz. Çünki bütövlükdə bütün milli iqtisadiyyat miqyasında yeni texnologiyaların yaranması və inkişafını məhz onlar təmin edirlər. Və bu tədqiqatda insan kapitalının həyatımızda olan vacib rolu, həmçinin əhəmiyyəti haqqında bəhs olunmuşdur.
***Açar sözlər:*** *insan kapitalı, gənc istedadlar, sərmayə, texnologiya, qara qızıl, innovasiya.*

***Summary***

Today, human capital plays a dominant role in production, service, science, education and healthcare. The relevance of the use of human capital lies in the production method, the transfer of accumulated knowledge and the intellectual potential of a person. But, of course, the production of material goods retains its importance, but its economic efficiency is directly determined by the quantity and quality of highly qualified personnel, the formation of new knowledge and the creation of new technologies and, accordingly, management methods. Consequently, the relevance of human capital is explained by the fact that the efficiency and competitiveness of the production and service sector cannot be ensured without highly educated and highly qualified workers. Because they ensure the creation and development of new technologies on the scale of the national economy as a whole. And in this study, the important role and importance of human capital in our life was discussed.
***Keywords:*** *human capital, young talents, investment, technology, black gold, innovation.*

Çoxillik təcrübə göstərir ki, hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni tərəqqisində elm və təhsil mühüm rol oynayır. Qloballaşan dünyada biliyin davamlı və sistemli inkişafı təhsil prosesinə də müsbət təsir göstərir. Təhsilə sərmayə qoymaq əslində insanlara sərmayə qoymaq deməkdir. Təhsilli insanlar ən qiymətli sərvətdir. Bu səbəbdən təşkilatlar təhsilə getdikcə daha çox yer ayırırlar.

İnsan kapitalı fərdlərin qabiliyyətlərini, məktəb təhsilini, iş hazırlığını və sağlamlığını təmsil edən bir anlayışdır. İnsan kapitalı zamanla yığılan kapital növüdür. Fərdlər xarici mühitdən əldə etdikləri bilik, bacarıq və davranış xüsusiyyətlərini fitri xüsusiyyətlərinə əlavə etdikdə kapitallarını artıra bilirlər.

İnsan kapitalı konsepsiyası təhsil, elm, texnologiya, səhiyyə sisteminin gələcək inkişafı, əmək resurslarının bölüşdürülməsi proqramlarının işlənib hazırlanması üçün möhkəm əsasa çevrilir. Hazırda insan kapitalı cəmiyyətin, iqtisadiyyatın və bütövlükdə dövlətin inkişafının əsas amilə çevrilir ki, onun öyrənilməsində təkcə "insan kapitalı" anlayışının mənşəyini və formalaşmasını bilmək vacib deyil, həm də bu qiymətli sərvətdən düzgün istifadə lazımdır ki, milli iqtisadiyyata fayda gətirsin *(Bağırlı L. İnsan kapitalı sosial-iqtisadi inkişaf amili kimi. "Geostrategiya" jurnalı, səh.21).* Gələcək inkişaf fəaliyyət istiqamətlərinin düzgün seçilməsi, belə iqtisadi inkişaf strategiyasının formalaşmasına səbəb olan insan kapitalının ən prioritet sahələrinin müəyyən edilməsi dövlət səviyyəsində vacib istiqamətdir.

Bildiyimiz kimi, hazırda ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin qarşısında duran əsas vəzifələrdən biri də əldə olunan iqtisadi inkişafın nəticələrinin cəmiyyətin inkişafına yönəldilməsidir. Çünki iqtisadi siyasət nəticəsində əldə edilmiş makroiqtisadi sabitlik və iqtisadiyyatın real sektorunun davamlı inkişafı cəmiyyətin keçid dövründə yaranmış sosial

problemlərin həllinə obyektiv zəmin yaratmışdır. Əslində inkişafın əsas məqsədi xalqın əsl sərvəti olan insanların maddi və mənəvi tələbatlarının ödənilməsinə yönəlmişdir.

Mayın 26-29-da Bakıda keçirilən və Azərbaycan-Türkiyə əməkdaşlığının daha bir nümunəsi kimi tarixə düşən "Texnofest-Azərbaycan" Aerokosmik Mühəndislik və Texnologiyalar festivalı bütün digər aspektlərlə yanaşı, eyni zamanda insan kapitalının, elmə, texnologiyalara qoyulan sərmayələrin gücünün nümayişi idi. Bu cür tədbirlər müasir dünyamızın çağırışlarına cavab verən fərdlər, cəmiyyətlər, dövlətlər və bütövlükdə bəşəriyyət üçün bilik və bacarıqların nə qədər vacib olduğunu göstərir. Bu, gənc nəslin texnologiyaya marağını artırır, onlara öz yaradıcı ideyalarını həyata keçirmək üçün böyük imkanlar yaradır.

Azərbaycanın təhsil sistemində həyata keçirilən dövlət siyasətinin və həyata keçirilən bütün islahatların son məqsədi çoxşaxəlilik, hərtərəflilik, savadlılıq, istedadlılıq, öz sahəsində peşəkarlıq, mədəniyyət, öz keçmişi və əcdadları ilə bağlılıq, milli-mənəvi dəyərlər və buna sədaqətdir. Bu, müstəqillik və demokratik ənənələri inkişaf etdirərək dünyaya sürətlə inteqrasiya edə bilən, vətənini, xalqını sevən, vətəndaşların hüquqlarına hörmət edən, vətəni Azərbaycanı dünyanın inkişaf etməkdə olan ölkələri sırasına daxil etmək əzmində olan bir insan yetişdirməkdir. Başqa sözlə, Azərbaycanın müstəqilliyini əbədiləşdirəcək və ona sahib çıxacaq gənclərin yetişdirilməsi təhsil sisteminin ən böyük məqsədidir.

Azərbaycanda müasir dünyanın çağırışlarına cavab verən universitetlər yaradılır. Azərbaycanda Fransa, İtaliya, Rusiya kimi böyük elm və təhsil ənənələrinə malik ölkələrlə birgə universitetlərin yaradılması, müxtəlif universitetlərdə tanınmış universitetlərlə birgə təhsil proqramlarının həyata keçirilməsi xoş ənənəyə çevrilib. Eyni zamanda, ölkəmizdə mövcud olan ali məktəblərin rəqabət qabiliyyəti artır. Dünya reytinqlərində öz yerlərini tutmağa başlayırlar. Bütün bunlar insan kapitalının formalaşması üçün son dərəcə vacibdir. Çünki insan kapitalının formalaşmasında, intellektual investisiya mühitinin yaradılmasında ali təhsil müəssisələrinin rolu çox mühümdür.

İnsan kapitalı dedikdə ilk ağıla gələn amillərdən biri də təbii ki, innovasiyadır. İnnovasiyalar hər bir ölkənin iqtisadi inkişafının hərəkətverici qüvvəsidir *(Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili. Səh.61)*. Bu, tarix boyu belə olub. Azərbaycan Prezidentinin 26 iyul 2019-cu il tarixli sərəncamı ilə təsis edilmiş və yüksək intellektual səviyyəyə və idarəçilik keyfiyyətlərinə malik olan liderlərin müəyyən edilməsi və dəstəklənməsi məqsədilə keçirilən "Yüksəliş" müsabiqəsinin əsas məqsədi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Statistika Komitəsinin kadr ehtiyatı bankının formalaşdırılmasıdır. Ölkəmiz insan kapitalını formalaşdırır və inkişaf etdirir, cəmiyyətdə insanı inkişaf etdirir, gənc istedadları dəstəkləyir, onun kapitalının aparıcı qüvvəsi kimi çıxış edir.

Elm insan kapitalının inkişafında əsas rol oynayır. Buna görə də fundamental və tətbiqi elmlərin inkişafına xüsusi diqqət yetirilir. Müstəqil Azərbaycan dövlətinin inkişafının böyük ölçüdə elmin, elmi-texniki tərəqqinin və təhsilin səviyyəsindən asılı olduğunu hər zaman qeyd edən Prezident İlham Əliyev bütün bunların yüksək ixtisaslı kadrlar, yeni elmi yanaşmalar və çevik innovasiyalar tələb etdiyini vurğulamışdır. Azərbaycan isə müasir dünyanın reallıqlarını elm qarşısında tamamilə yeni vəzifələr qarşısında qoyur.




***Mənbə:** ARDSK məlumatları əsasında tərtib edilmişdir.*

Şəkil 1. Azərbaycanda təhsil növləri üzrə təhsil alanların bölgüsü, nəfərlə.

Müasir dünyada təhsil çox vaxt təkcə insan üçün deyil, bütün ölkə üçün uğurun açarıdır və nəticədə onun iqtisadi yüksəlişinə, elmi-texniki potensialının artmasına töhfə verir. Həqiqətən savadlı insanlar dövlətin iqtisadi, siyasi və mənəvi inkişafının açarıdır. Təhsil zaman və əmək sərfinə və insan müdrikliyinin toplanmasına cavab verən əldə edilmiş kapitaldır *(İmanov K. Əqli mülkiyyət və insan kapitalı. Səh.11).*

Müasir dünyada yaxşı mütəxəssisə təkcə nəzəri bilik lazım deyil. Əmək bazarında rəqabət qabiliyyəti insanın fəallığından, təfəkkürünün çevikliyindən, bilik və təcrübəsini təkmilləşdirmək bacarığından asılıdır.

Fərdlərin motivasiyası, bacarıqları, qabiliyyətləri cəmiyyətin və onun üzvlərinin ixtiyarında olan ən mühüm resursa çevrilən insan kapitalının mühüm komponentləridir. Təbii sərvətlərdən və ya maddi sərvətlərin yığılmasından daha qiymətlidir. Təhsil müasir dünyada insan kapitalının əsaslarından biridir. Odur ki, ölkədə təhsilin əsas göstəricilərinin təhlili böyük maraq doğurur.

Şəkil 1-dən göründüyü kimi Azərbaycanda tədqiq olunan dövrlər ərzində ümumi, orta və ali təhsil müəssisələr üzrə təhsil alanların sayı artmış, peşə təhsil müəssisələr üzrə isə təhsil alanların sayı isə azalmışdır. Məsələn, 2020-2021-ci tədris ilində 2019-2020-ci tədris ilinə nisbətən təhsil alanların ümumi təhsil müəssisələrində sayı 2,5%, orta ixtisas müəssisələrində 7,1%, ali təhsil müəssisələrində və doktoranturada 5,8% artdığı halda, peşə təhsili müəssisələrində isə 7,5% azalıb.

2020-2021-ci ildə ayrı-ayrı kateqoriyalar üzrə təhsil alanların ümumi təhsil alanlarda xüsusi çəkisinin təhlili də böyük maraq doğurur.




*Şəkil 2. 2020-2021-ci tədris ilində təhsil alanların strukturu*

***Mənbə:** ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.*

Ali və orta ixtisas təhsil müəssisələrində təhsil alanların sayının artması ölkəmizdə əhalinin təhsil səviyyəsinə müsbət təsir göstərmişdir.

Bu gün ali təhsil fərdin maraqları ilə cəmiyyətin maraqları arasında qarşılıqlı əlaqənin xüsusi sahəsi kimi çıxış edir. Müasir təhsil sisteminin vəziyyəti son nəticədə dövlətin yaxın illərdəki inkişafını müəyyənləşdirir. Müasir cəmiyyətdə insanın yeni biliklərə ehtiyacı var. Əslində bilik cəmiyyətin yaşadığı və inkişaf etdiyi mühitə çevrilir. Bu gün həm dövlət, həm də özəl universitetlər ödənişli əsaslarla təhsil almaq imkanı verir, insan öz təhsil kapitalının formalaşmasında və inkişafında fəal iştirak edə bilər ki, bu da təlimi başa vurduqdan sonra tələbələrin həyat səviyyəsini və keyfiyyətini dəyişəcək. Ali təhsil insanın mədəni səviyyəsinə, onun iqtisadi və sosial səmərəliliyinin artırılmasına birbaşa təsir göstərir. İnsanın təhsil səviyyəsinin yüksəldilməsi ona iş şəraitinin yaxşılaşdırılması, asudə vaxtının keçirilməsi və istehlakçı seçimi və özünü həyata keçirməkdən məmnunluq əldə etmək imkanı şəklində mühüm üstünlüklər verir *(Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Səh.167).*

Azərbaycan dövləti elmə, təhsilə daha çox sərmayə qoymaqla davamlı inkişaf mühiti yaradır. Ölkəmizin beynəlxalq rəqabət qabiliyyəti üçün möhkəm əsaslar formalaşır. Ona görə də bu, təkcə dövləti deyil, həm də cəmiyyətdəki hər bir insanı ölkənin ən böyük kapitalı kimi dəyərləndirməyə, potensialını maksimum dərəcədə artırmağa, ona yatırılan investisiyaları daim artırmağa ruhlandırır.

Ölkəmizin son illər bu istiqamətdə əldə etdiyi nailiyyətlər, ölkəmizin əsas təbii sərvətlərindən olan “qara qızılı”, yəni nefti insan kapitalına çevirmək əzmi beynəlxalq hesabatlarda da yüksək qiymətləndirilir. Davosda keçirilən Dünya İqtisadi Forumunun hesabatında Azərbaycanın bir çox göstəricilərə görə dünyada birinci yerdə olması buna misal ola bilər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Bağırlı L. İnsan kapitalı sosial-iqtisadi inkişaf amili kimi. "Geostrategiya" jurnalı, mart-aprel 2018, № 02 (44)
2. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı, Elm və təhsil, 2013, 385 s.
3. İmanov K. Əqli mülkiyyət və insan kapitalı. Bakı: Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi, 2016, 24 s.
4. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 656 s.

# HEYDƏR ƏLİYEVİN DÖVRÜNDƏ TƏHSİL SİSTEMİ

***Sumqayıt Dövlət Universiteti***
***Babazadə Jalə Rasim qızı***
***Elmi rəhbər: D.Q.Süleymanlı***

***Xülasə***

Heydər Əliyev prezident seçildikdən sonra Azərbaycanda təhsilə diqqət və böyük həssaslıqla yanaşmışdır Azərbaycan gənclərinin sadəcə Azərbaycan da deyil xaricə də təhsil üçün yönləndirmişdir SSRİ dövründə nə qədər çətin olmasına baxmayaraq Azərbaycan gənclərinin hərbi təhsil üçün Moskvanın ən nüfuzlu təhsil məktəblərinde təhsil almasını təmin etmişdir. Dərs vəsaitləri çap edilərək müəllimlərin maaşları artırılmışdır, bir çox məktəblər tikilərək istifadəyə verilmiş tələbələri daha da həvəsləndirmək üçün isə təqaüdlər verilmişdi. Və qəbul edilən bütün qərarlar ümumilli lider Heydər Əliyevin təhsilə nə qədər önəmin verdiyinin isbatıdır.

***Açar sözlər:*** *Heydər Əliyev, Təhsil sistemi, məktəb, universitet, qanun*

***Summary***

After being elected president, Heydar Aliyev paid attention and great sensitivity to education in Azerbaijan, directed the youth of Azerbaijan to study not only in Azerbaijan but also abroad, despite how difficult it was during the USSR period, he ensured that the youth of Azerbaijan studied in the most prestigious educational schools of Moscow for military education. Teaching materials were printed and teachers' salaries were increased, and many schools were built and put into use, and scholarships were given to further motivate the students. And all the decisions taken are a proof of how much importance the national leader Heydar Aliyev attaches to education.

***Keywords:*** *Heydar Aliyev, Education system, school, university, law*

## Giriş

Heydər Əliyevin prezident seçildikdən sonra Azərbaycanın təhsil sisteminə diqqət və böyük həssaslıqla yanaşmışdır. Azərbaycan gənclərinin yaxşı şəkildə təhsil alması üçün əlindən gələni etmiş eyni zamanda sadəcə Azərbaycan da deyil keçmiş SSRİ-nin müxtəlif şəhərlərində də təhsillərini davam etdirmələri üçün bir çox işlər həyata keçirmişdir. SSRİ dövründə Azərbaycan gəncləri ittifaqın ən nüfuzlu ali təhsil müəssisələrini bitirdikdən sonra Azərbaycana qayıdaraq burada öz millətinə xidmət etməsi də məhz Heydər Əliyevin daima diqqət mərkəzində olmuşdur.

Lakin əlbəttə ki , təhsil sahəsində də bir çox problemlərlə qarşılaşılmışdı 1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev mövcud rejimin sərt qanunlarına baxmayaraq Azərbaycanın tərəqqisi, elm, təhsil və mədəniyyətinin yüksəlməsi üçün əlindən gələni etmiş strategiya və taktika seçməyə nail olmuşdu.

Bu illər ərzində Azərbaycanda təhsilin inkişafı geniş vüsət almış. Məktəbəqədər tərbiyə müəssisələrindən ali məktəblərə qədər bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə daha çox yeni inkişaf pilləsinə çıxaraq, Azərbaycan əhalisinin təhsil, ümum mədəni və intellektual səviyyəsinin yüksəldilməsində böyük rol oynadı.

1988-ci ildən etibarən isə Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsildə də mənfi dağıdıcı tendensiyalar özünü bürüzə verdi. Ən başlıcası isə təhsilə qayğı unuduldu, onun cəmiyyətdə aparıcı rolu lazımınca qiymətləndirilmədi. O dövürdə Erməni təcavüzünün də olması 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 11 peşə məktəbi, 4 orta ixtisas məktəbi, 1 ali məktəb filialı dağıdılması ilə nəticələnmişdi. Lakin ümumilli lider Heydər Əliyevin ən öndə gedən planlarından olan təhsil sisteminə olan böyük qayğısı bu problemləri aradan qaldırılmasına şərait yaratdı.

Ümummilli lider hər zaman Azərbaycan gənclərinin hərbi təhsilə cəlb etmək üçün daima mübarizə aparmışdır. Əlbəttə ki, SSRİ nin dövründə heçdə bu asan deyildi. Bunun üçün Moskvanın razılığı olmali idi, lakin buna baxmayaraq Heydər Əliyev buna nail olmuş və minlərlə gənci hərbi təhsil almasi üçün belə Moskvanın ən nüfuzlu hərbi məktəblərinə göndərmişdir ki , buda

gələcəkdə Azərbaycanin hərbi sahəsindəki ixtisaslı peşəkarlara olan tələbatını ödəməsinə imkan yaradırdı.

Ümumilli liderin hakimiyyətə qayıtması ilə müstəqil Azərbaycan təhsilinin əsası qoyuldu və daha da inkişaf etməyə başladı.

1993 - cü ildən "Təhsil millətin gələcəyidir" deyən Heydər Əliyevin göstərişi ilə təhsilə, təhsil işçilərinə qayğı artırıldı. Ilk olaraq 1-4-cü siniflərin, daha sonra isə yuxarı siniflər üçün dərs vəsaitləri dövlət hesabına çap olundu və daha sonra isə müəllimlərin maaşları mütəmadi şəkildə artırılmağa başladı.

Prezident təhsil sahəsindəki problemleri aradan qaldırılması üçün ilk dəfə olaraq təhsil sahəsində islahat aparmaq üçün göstəriş verdi. Beləliklə 1998-ci il martın 30 - da prezidentin sərəncamı ilə Təhsil Sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradıldı və eyni ildə müəllimlərin birinci qurultayı keçirildi. Qurultayda təhsil tariximizdə ilk dəfə Respublika Təhsil şurası yaradıldı. Ulu öndər 1999 - cu il 15 iyun Milli qurtuluş günündə Təhsil sahəsində islahat proqramının xüsusi sərəncam ilə təsdiq etmişdi və islahatın əsas məqsədi müəyyən edildi:

"Təhsil sisteminin islahatlarının əsas məqsədi ondan irəli gəlir ki, Azərbaycan təhsil sistemi dünyanın təhsil standartlarına uyğunlaşdırılsın" (*Həmidov, 2010:134).*

Heydər Əliyevin Təhsil islahatı proqramının əsas müddəaları Dünya Bankının maliyyə yardımı ilə həyata keçirilməyə başlanıldı. Eybi zamanda xüsusi istedadı və bacarığı olan şagird və gənclərə diqqət daha da artırıldı belə uşaqlar seçilərək adları "Qızıl kitab " a salındı.

Azərbaycan təhsilinə hər zaman diqqət yetirmiş olan Ulu öndər Heydər Əliyev "Azərbaycan Respublikasının məktəblərində Maddi – texniki bazasını daha da möhkəmləndirmək haqqında" 4 oktyabr 2002-ci il sərəncamı və eyni sərəncam ilə hazırlanmış xüsusi proqram sahəsində Azərbaycanda dünya standartlarına uyğun şəkildə müasir məktəblərin inşasına başlanıldı.

Təhsil xalqımızın millətimizin bu günü və gələcəyi üçün ən önəmli keyfiyyətlərdən biridir. Məhz Heydər Əliyev də Azərbaycan təhsilinin davamli inkişafı üçün bir sıra sənədlər imzaladı *(Генкин, 2019:103).*

"Azərbaycan Respublikasinin Təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 İyun 2000-ci ildə, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 İyun 2001 - ci ildə, "Azərbaycan əlifbası və Azərbaycan dili günü (1 Avqustda) təsis edilməsi haqqında" 9 Avqust 2001- ci ildə, "Azərbaycan Respublikasının dövlət dili haqqında qanun tətbiq edilməsi barədə" 2 avqust 2003 - cü il tarixlərində qəbul edilən qanun və sərəncamlar Azərbaycan dövlətinin təhsil sisteminin daha da inkişafına müsbət təsir göstərdi, eyni zamanda Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının öyrənilməsinə onların dərsliklər hazırlanması, xüsusi dövlət dilinin hazırlanmasına diqqət edilmişdir.

Prezidentin dövründə Respublikanın müxtəlif yerlərində 800 ə yaxın məktəblər tikilərək istifadəyə verilmiş, fəaliyyət göstərən ali məktəblərin sayı 12-dən 17-ə, təhsil alan tələbələr isə 70 mindən 100 minə qədər artmışdı *(Adıgözəlov, Mustafayev, 2003:89).* Eynilə Heydər Əliyev hər il böyük qruplarla keçmiş SSRİ – nin 170 qabaqcıl ali təhsil ocaqlarına 15 minə yaxın Azərbaycanlı göndərmiş, bununla da hər il 800 Azərbaycanlı xaricə təhsil üçün göndərilirdi. Həmçinin Heydər Əliyev istedadlı gənclərin təhsilə olan marağını daha da artırmaq üçün ali təhsil müəssisələrinə qəbul zamanı yüksək bal toplayan tələbələrlə şəxsən görüşərək onlara stimul olur. Eyni zamanda qəbul zamanı yüksək bal toplamış tələbələrə "prezident təqaüdü" verilməsi Ulu öndərin təhsilə nə qədər diqqətlə yanaşdığını bariz nümunəsidir.

Prezidentin dövründə yeni istiqamətə uyğun şəkildə bir çox ali təhsil müəssisələrinin adları dəyişdirilmiş, 5 yeni Ali təhsil müəssisəsi açılmış və 1999 – cu il sentyabr ayında AMEA ictimai Elmlər Bölməsi nəzdində insan Hüquqları üzrə Elmi tədqiqatlar Institutu yaradılmışdı.

Heydər Əliyev məktəbləri də diqqət mərkəzində saxlayaraq islahatlar həyat keçirmişdir.

1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmişdir *(Muradov ,2004:256).* Və o qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişlənməsi ilə nəticələndi ki, buda ucqar kəndlərdə yaşayan yüzlərcə minlərcə uşaqların təhsilə cəlb olunması demək idi.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1.Abbas Həmidov; Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xərclərinə qayğısı; Gəncə - 2010; səh.498.
2.Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 656 s.
3.Zaur Adıgözəlov, Mübariz Mustafayev; Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi; Bakı, Qapp Poliqraf, 2003; səh.367.
4. Генкин Б. М. Экономика труда : учебник. – М. : Норма : НИЦ Инфра-М, 2019.

# İNFORMATİKA

## İDARƏETMƏDƏ, TEXNOLOGİYA VƏ ELEKTRON XİDMƏTLƏRİN ROLU

***Bakı Dövlət Universiteti***
***Cəfərova Rəhimə Fikrət qızı, magistrant***
***Elmi rəhbər:dos.L.Q.Xasiyeva***

***Xülasə***

Texnologiyanın dövlət və özəl idarəetmə sisteminə tətbiq edilməsi, idarəetmənin bütün mərhələlərinə öz müsbət təsirini göstərir. Bu prosesdən ən çox məşğulluq qabiliyyətli əhali faydalana bilir. İnsanların aktiv istifadə etdikləri internet və digər texnoloji vasitələr bütövlükdə onların həyatlarının formalaşmasına təsir göstərir. Məqalədə texnologiyadan istifadə, faydaları və elektron xidmətlərdən bəhs olunur. Həmçinin, qısa formada texnologiyanın idarəetməyə tətbiqinin nəticələri də qeyd olunmuşdur.
***Açar sözlər:*** *texnologiya, iqtisadi, e-hökümət, e-biznes, e-kommersiya.*

***Summary***

Applying technology to the public and private management system has a positive effect on all stages of management. The most employable population can benefit from this process. the Internet and other technological tools that people actively use affect the formation of their lives as a whole. The article discusses the use, benefits and electronic services of technology. Also, the results of the application of technology to management were mentioned in a short form.
***Key words:*** *technology, economic, e-government, e-business, e-commerce.*

Elmi-texnoloji fəaliyyətin iqtisadiyyata təsirinin böyük olduğu inkar edilməzdir. Bu təsir dünyada baş verən iqtisadi-siyasi, iqtisadi-maliyyə sistemlərində dəyişikliklər yaradır. Baş verən infilyasiya, defilyasiya, qlobal maliyyə böhranları, kiber faktlar, hüquqpozmalar və başqa hadisələr ölkələrin iqtisadi təhlükəsizliyini təhlükəyə atır. Bu problemlərin həllində texnologiyanın istifadə edilməsi, informasiya və biliklərə əsaslanaraq addımların atılması vacibdir. Texniki vasitələrin istifadə edilməsi son illərdə Azərbaycanda da onlayn xidmət və elektron formada olan axtarış sistemlərinin sayının artmasına səbəb olmuşdur. Bu sahədə mühüm addımlar atılmış şirkətlərə və hətta dövlətə xas olan bir çox veb səyfə cəmiyyətin istifadəsinə verilmişdir *(https://bakuforum.az/az/dunyani-deyisdiren-muasir-texnologiyalar/* :4). Bu fəaliyyətin ən üstün cəhəti vaxt itkisi və artıq xərc olmadan, işlərin uzaq məsafədən həyata keçirilməsidir.

Özəl və dövlət idarəetməsində istifadə edilən elmi-texnoloji yeniliklər elektron xidmətlərin artmasına səbəb oldu ki, buda e-hökumet, e-biznes, e-kommersiya kimi bir çox saytların yaranması ilə nəticələndi. Elektron saytlar, həm dövlət, həm də özəl sektorda müsbət addım kimi qiymətləndirilir. Zaman və məkan insanların daima üzləşdiyi problemlərdən biri idi. Texnoloji vasitələrin istifadəsi bu problemi böyük həcmdə həll etməklə yanaşı, proseslərin həyata keçirilməsini də sürətləndirdi. Bu gün insanlar zaman və məkan problemi yaşamadan bir çox xidmətlərdən yararlana bilir. Elektron xidmətlərdən istifadə ölkədəki korrupsiya hallarının da ciddi dərəcədə azalmasına səbəb olur. Təbii ki, korrupsiya hallarının azalması iqtisadi və hüquqi məsələlərin həllinə də öz müsbət təsirini göstərir.

Son illər inkişaf etmiş ölkələrdə demokratiyanı daha da inkişaf etdirən amillərdən biri "Elektron hökumət" in (ingilis dilində e-Government) formalaşdırılması hesab edilir. "Elektron hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradır. Yaradılan imkanların əsas məqsədi sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır *(https://mincom.gov.az/az/view/pages/57/* :1) Dövlət orqanları tərəfindən e-xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir.

Elektron kommersiyası (ingiliis dilində tərcümədə e-commerce deməkdir) - kompyüter şəbəkələrinin köməyi ilə həyata keçirilən bütün maliyyə və ticarət tranzaksiyalarından və bu cür tranzaksiyaların keçirilməsi ilə əlaqədar biznes-proseslərdən ibarət olan iqtisadi sahədir. Elektron kommersiyasına bunları aid edirlər: informasiya ilə elektron mübadiləsi (Electronis Data Interchange, EDI), kapitalın elektron dövrüyyəsi (Electronic Funds Transfer, EFS), elektron ticarət (e-trade), elektron pullar (e-cash), elektron marketinq (e-marketing), elektron bankinq (e-banking), elektron sığorta xidmətləri (e-insurance). Elektron kommersiyanın meydana çıxması onlayn ticarət zamanı alıcı və satıcı arasında müəyyən informasiya mənbəyi rolunu oynadı *( Əkbərov, 2011:3).* İstehsalçı və istehlakçı arasında əlaqənin olması və müxtəlif məlumatların ötürülməsi, satılan məhsul haqqında ilkin (ölçü, keyfiyyət, kəmiyyət, rəng) məlumatın istehlakçı tərəfindən əldə edilməsini asanlaşdırdı, eyni zamanda istehsalçıların da bazardakı istehlakçı tələblərini öyməsinə də imkan yaratdı.

Elektron biznes və ya e-biznes (en. Electronic business, ru. е-бизнес) elektron ticarətlə müqayisədə daha geniş anlayış olub, internetdə öz veb-saytına, virtual mağazaya, təşkilatın idarəetmə sisteminə, elektron reklamdan istifadəyə, marketinqə, "biznes-biznes" (B2B) və "biznes-istehlakçı" (B2C) modellərinə malikdir. Elektron-biznes mal və xidmətlərin elektron ticarətini özündə birləşdirir. Elektron biznes mal və xidmətlərin reklamını və hərəkətini, məhsulun bazardakı rəqabətədavamlılığının öyrənilməsini, sifarişin qəbulunu, malın daşınması və çatdırılmasını, istehsalçı və istehlakçı arasında hesablaşmaların həyata keçirilməsini yerləşmə məkanından asılı olmayaraq internet şəbəkəsi vasitəsilə həyata keçirir *( Musayev, Əlizadə, Mahmudov, 2016:5).*

Nəticədə, qeyd etmək lazımdır ki, ölkənin ən ucqar nöqtəsi də daxil olmaqla, bütün regionlarda yaşayan vətəndaşların ölkə idarəetməsində iştirakına və idarəetmənin şəffaflığına şərait yaradan elektron dövlətin yaradılması, vətəndaşların heç bir maneə ilə üzləşmədən dövlətlə birbaşa qarşılıqlı əlaqəyə girməsini asanlaşdırdı. Elektron dövlətin yaradılmasındakı məqsəd, yeni idarəetmə sisteminin yumşaq xarakterli olmasına, eyni zamanda xidmət və ticarət sektorlarında inkişafın əldə olunmasına yönəldilmişdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Atakişiyev M., Süleymanov Q. "İnnovasiya menecmenti" Bakı 2004
2. https://bakuforum.az/az/dunyani-deyisdiren-muasir-texnologiyalar/
3. https://mincom.gov.az/az/view/pages/57/
4. Məhərrəm Əkbərov "Elektron kommersiya" Bakı 2011.
5. Musayev İ.K., Əlizadə M.N və Mahmudov A.B "Elektron biznes" Bakı 2016.
6. https://unec.edu.az/application/uploads/2015

# AXTARIŞ MOTORU OPTİMİZASİYASI - SEO

*Azərbaycan Universiteti*
*Tahirli Tural İlqar oğlu*
*Elmi rəhbər: dos. E.M.Yusifov*

### *Xülasə*

Texnologiyanın inkişafı ilə birlikdə dünyadakı müəssisə və təşkilatların bir çoxu məhsul və xidmətlərini həm tanıtmaq, həm də sata bilmək üçün internetə daşımağa başladılar. Bu mənada xüsusilə də sənaye sektoru hər keçən gün daha da rəqəmsallaşmaqdadır. Burada önəmli olan nüans isə rəqəmsallaşmağa doğru gedən şirkətlər axtarış motorlarında önə çıxmaq üçün daha çox güc sərf edirlər. Təbii ki, bu da əbəs deyil. Bugün dünyada müxtəlif sektorlara görə fərqli olan açar sözlər sayəsində istənilən məhsul və ya xidməti potensial müştəriyə çatdırmaq mümkündür. Bunun sayəsində də, məhsul və ya xidmət həm daha çox tanıdılmış olur, həm də həmin məhsulla maraqlanan müştəri onu almış olur. Bu məqalədə rəqəmsal marketinq mühim hissəsi olan SEO barədə məlumat verilmiş, SEO-nun daxili və xarici strukturu araşdırılmış və nəticə bölməsində isə SEO-nun hazırkı və gələcəkdəki əhəmiyyəti dəyərləndirilmişdir.
***Açar sözlər:*** *rəqəmsal marketinq, SEO, axtarış motoru optimizasiyası, Google, texnologiya, internet*

### *Summary*

Along with the development of technology, many businesses and organizations around the world have started to move their products and services to the Internet in order to promote and sell them. In this sense, especially the industrial sector is becoming more digital every day. The important point here is that companies moving towards digitalization spend more effort to stand out in search engines. Of course, this is not in vain. Today, it is possible to deliver any product or service to a potential customer thanks to keywords that are different for different sectors. Thanks to this, the product or service becomes more popular, and the customer who is interested in that product buys it. This article provides information about SEO, which is an important part of digital marketing, examines the internal and external structure of SEO, and evaluates the current and future importance of SEO in the conclusion section.
***Keywords:*** *digital marketing, SEO, search engine optimization, Google, technology, internet*

## Giriş

İnternet dünyadakı bütün insanlar üçün ilk növbədə axtarılan məlumatın daha rahat və sürətli şəkildə tapılması vasitəsidir. Ənənəvi satış kanallarının vasitəsilə çata bilməyəcəyimiz bir kütləyə, internet vasitəsilə rahatlıqla çata bilərik. Bu səbəblə internet müasir dünyadakı təşkilat və müəssisəslər üçün yeni əlaqə vasitəsinə çevrilib. İnternetlə başlayan dəyişikliklər sənayedə yeni sektorların ortaya çıxmasına və onların da sayəsində şirkətlərin internetə əsaslanan marketinq fəaliyyətlərinin yaranmasına səbəb oldu. Rəqəmsal aləmdəki rəqabətin artması və inkişaf edən texnologiyanın insanlara kontent yarada biləcəkləri yeni platformalar (sosial şəbəkələr, bloqlar, forumlar) təqdim etməsi istifadəçilərin axtardıqlarını tapmaq üçün çox böyük bir "məlumat hovuzu"nu ortaya çıxarmışdır. Bununla birlikdə zamanla şirkətlərin bir çoxunun özlərinə aid veb saytlarının qurulması zəruri hal almışdır. Əlavə olaraq insanların axtarış motorlarında hər hansı bir məhsul və ya xidmət axtarışı etdikləri zaman ilk önlərinə çıxan saytlara daxil olmasına gətirib çıxarmışdır. Bu da özlüyündə şirkətlərin axtarış motorlarında daha ön sıralarda görünmək istəmələrinə səbəb olmuşdur.

Axtarış motorlarında üst sıralarda çıxmaq üçün istifadə olunan texniki hərəkətlərin hamısı axtarış motoru optimizasiyası (SEO) olaraq adlandırılmaqdadır. SEO sözü ingiliscədən dünya dillərinə keçib və "Search engine optimization" sözlərinin baş hərflərindən götürülmüşdür.

## AXTARIŞ MOTORLARI

İnternetin insanların həyatına girməsi ilə birlikdə həyatın müəyyən dövrlərində işlərin daha da asanlaşdığını desək, yanılmarıq. Belə ki, insanlar hər hansı bir məhsul və ya xidmətlə bağlı istənilən bir məlumatı axtardıqları zaman ilkin olaraq təbii ki, internetdən istifadə edirlər. Burada önəmli nüans isə insanların axtarmaq istədiklərini məhz axtarış motorlarında axtarışa vermələridir. Artıq axtarış motorları o dərəcədə inkişaf edib ki, ağla gələn istənilən bir şeylə bağlı məlumatın tapılması

mümkündür. Burada elmi ədəbiyyatdan elektronikaya, idmandan maşınlara, muhasibatlıqdan evlərin tikintisinə, uşaq oyuncaqlarından siyasi xəbərlərə və s. qədər istənilən sektorla bağlı məlumat, video, şəkil tapmaq olar.

Axtarış motorları yayınlanmış veb saytlar və istifadəçilər arasında demək olar ki, körpü vəzifəsini yerinə yetirirlər. Axtarış motoru internet istifadəçilərinin ehtiyac duyduğu hər hansı bir məlumatı özündə əks etdirən ən yaxşı veb saytları istifadəçilər üçün siyahı şəklində sıralayan, istifadəçinin axtardığı məlumatı ən qısa zaman kəsimində çatmasına kömək edən bir sistemdir.

Dünya üzərində hazırda ən çox tanınan və bilinən axtarış motoru təbii ki, Google.com saytıdır. Google ilə yanaşı dünyada ən az 20 axtarış motoru daha var. Lakin bu axtarış motorları Google qədər geniş məlumat bazasına malik deyillər. Dünya sıralaması üzrə isə Google axtarış motorundan sonra Yahoo, Yandex, Bing, Baidu kimi saytlar gəlir.

Ən çox istifadə olunan axtarış motoru olan Google dünyanın ən böyük dijital markalarından biridir. 1998-ci ildən bu yana fəaliyyət göstərən sayt ən çox trafiki Amerika Birləşmiş Ştatları, Hindistan və Braziliyadan almaqdadır.

**RƏQƏMSAL MARKETİNQ STRATEGİYASI OLARAQ SEO**

SEO bağlantılar yaradaraq, tam və dəqiq kontent yazaraq yaxud axtarış saytlarına göndərərək bir sayta daxil olma səviyyəsini orqanik olaraq artırmaq üçün atılacaq addımları tanıdan axtarış motoru marketinqinin (SEM) bir hissəsini təşkil edir *(Potts, 2007).*

Axtarış motoru optimizasiyası bir veb saytın vəziyyətinin yaxşılaşdırma müddətidir. Bunun sayəsində veb sayt, axtarış motorlarının axtarış nəticələrində daha üst sıralarda yerini alacaqdır *(Curran, 2004: 202-205).*

SEO, bir veb saytın və ya bir veb sayt səhifəsinin trafik və ya görülmə sayını bir axtarış motorunun "təbii" yolla axtarış nəticələrində təsiretmə müddətidir *(Gupta və digərləri, 2013: 65-74).*

Axtarış motoru optimizasiyası, bir veb saytın və ya bir veb sayt səhifəsinin orqanik axtarış motoru nəticələrində görülmə sayısını və trafikini artdırmağı həfələyən tətbiqlərlə əlaqəlidir *(Ledford, 2009).*

SEO-nun tətbiq edilməsi 4 mərhələyə bölünə bilər: açar söz analizi, indeksləşdirmə, səhifə içi optimizasiya və səhifə xarici optimizasiya *(Malaga, 2008: 147-150)*.

Düzgün açar sözlər təyin olunmadan əvvəl açılan səhifələr axtarış motorları tərəfindən biznesin strategiyası xaricində indeklənə bilər. Eyni vəziyyət sayt daxili optimizasiya tətbiq olunmadığı bir səhifə üçün də keçərlidir. Axtarış motorları sayt daxili optimizasiyası edilməmiş bir səhifəni aşağı səviyyəli bir səhifə olaraq dəyərləndirəcəkdir. Bu mərhələlər hamısı sırası ilə bir bir tətbiq edildiyi zaman SEO-da arzu olunan nəticəyə nail olmaq mümkündür.

Rəqəmsal marketinq strategiyasına keçməzdən əvvəl təbii ki, bu strategiyanı tətbiq edəcəyimiz hədəf kütləmizi təyin etməliyik. Bunun üçün əvvəlcə hədəf kütləmizə kimlərin aid olacağını analiz etməliyik. Bunun üçün isə ilkin olaraq nəsillər arası olan fərqlilikləri araşdırmalıyıq. 1925-1945-ci illər aralığında dünyaya gələn nəsil "səssiz nəsil" olaraq adlandırılır. Bu nəsil hər şeyə ayaq uydurmağa çalışan, qənaətkar və rəhbərliyə hörmət edən nəsil olaraq bilinir. 1946-1964-ci illər arasında doğulan nəsil "körpə partlaması" olaraq adlandırılır. Bu nəsildən olan insanlar qayda-qanunçu, çalışqan və uğura fokuslanmış olaraq tanıdıla bilər. 1965-1979-cu illərdə dünyaya göz açmış nəsil "X nəsli" olaraq bilinir və bu nəsildən olanlar hər şeydən şübhə edən, rəqabətcil, rəhbərliyə qismən hörmət edən kimi xarakterizə olunurlar. 1980-1995 tarixlərində dünyaya qədəm qoymuş insanlar "Y nəsli" olaraq adlandırılır, bu nəsil insanlar hər şeyi sorğu-sual edən, heç bir şeydən doymayan, investor ruhlu insanlardır. 1996-2020-ci illərdə dünyaya gələnlər "Z nəsli" olaraq adlanır və bu nəsil yaradıcı, bitirici və ənənəviçilikdən uzaq olanlar olaraq qruplaşdırıla bilər. Bunlarla yanaşı həm də artıq yeni nəsil "Alfa nəsli" də 2020-ci ildən sonra doğulan insanlar üçün qoyulmuş addır.

2015-ci ildə olan statistikaya əsasən dünya üzərində işləyən insanların 35%-ini "Y nəsli", 31%-ini "X nəsli" və "Körpə Partlaması" nəsli təşkil edirdi. Təxmini hesablamalara görə isə 2025-də ildə işləyən insanların 35%-ini "Z nəsli"ndən olan insanlar təşkil edəcək. Burada önəmli nüans bu nəsillər arasında texnologiyaya olan marağın fərqlənməsidir. Belə ki, X nəsli texnologiyaya

sonradan adaptasiya olmağa çalışan, Y nəsli texnologiya və intenetin inkişafına şahid olaraq böyüyən, Z nəsli isə texnologiya və internetin içində doğulan bir nəsildir. Bu demoqrafik seqmentlərin xarakteristik fərqliliklərinin hər biri marketinq strategiyası və əlaqəsində göz önündə tutulması bizə faydalı olacaqdır *(Şengül, 2017: 148).*

2017-ci ildən etibarən demək olar ki, dünyada insanların böyük hissəsi interneti çox rahatlıqla istifadə etməkdədirlər. Burada xüsusilə insanların interneti müxtəlif məqsədlər üçün istifadə etməsi diqqətçəkən məqamlardandır. İlk başda təbii axtarış məqsədilə istifadə olunan Google, ikinci sırada isə yenə eyni məqsədlə istifadə olunan Youtube gəlməkdədir. Youtube.com saytının video platforması olmasına baxmayaraq insanlar onu da axtarış sistemi istifadə etməkdədirlər. Facebook və İnstagram isə insanlar arasında dostları ilə danışmaq, yeni insanlar tanımaq üçün ən çox istifadə edilən sosial şəbəkələrdir. Bunlarla yanaşı iş insanlarını bir araya gətirmək üçün Linkedin platforması da mövcuddur. Ölkəmizdə xüsusilə son 2 ildə Linkedin istifadəsi qeydə dəyər dərəcədə artdığını qeyd edə bilərik. İllərdən bəri istifadə olunan SMS-in yerini isə son illərdə artıq Whatsapp tutmaqdadır.

Diqqət yetirsək görərik ki, 10 il əvvələ qədər bəlkə də dünyadakı bir çox insan bəşəriyyətin internet kimi yeni asılılığının olacağına bəlkə də inanmazdı. Məhz bu səbəbdəndir ki, artıq biznes sahibləri də məcburi olaraq öz bizneslərində marketinq strategiyaları qurulduğu zaman yeni "texnoloji" nəsillərin xarakteristiklarını nəzərə alsınlar.

Bu zaman ilkin olaraq qarşıya qoyulmuş olan məqsədə çatmaq üçün hədəflənən kütləyə əsasən tam və dəqiq bir strategiya yəni təşkilati və idarəetmə tədbirləri planı işlənib hazırlanır. Bu halda əsas diqqət firmanın qarşıya qoyulan məqsədə hansı yollarla nail olunmasına yönəldilir. Təbii ki, strategiyanın seçilməsi bir sıra amillərdən asılıdır:

a) ictimai amillər - buraya qanunvericilik, ictimai fikir, etika və vətəndaş borcu haqqında hamı tərəfindən qəbul edilmiş təsəvvürlər və s. aiddir;

b) sahənin cəlbediciliyi və həmin anda (məqamda) rəqabət şəraiti;

c) şirkət üçün konkret imkanlar və təhlükələr, daxili üstünlüklər və çatışmazlıqlar (SWOT - analizin aparılması prosesində aşkara çıxarılır);

ç) menecerlərin fərdi keyfiyyətləri və qiymətlilik sistemi *(Məmmədli və digərləri, 2016: 157).*

**MARKETİNQ PERFORMANSININ İZLƏNİLMƏSİ**

Marketinq strategiyası bir dəfə tətbiq olunmağa başladıqdan sonra investor tətbiqetmədə işlərin yaxşı getdiyindən əmin olmaq istəyər. Yatırımın geri dönüşümü performansın izlənilməsində əhəmiyyətlidir və ideal olaraq heç bir marketinq fəaliyyəti, izlənilmə və dəyərləndirilmə sistemi olmadan həyata keçirilməməlidir. Performans analizi üçün iki əsas qrupdan bəhs edilə bilər. İlkin olaraq, satış analizləri firma fəaliyyətləri nəticəsində yaradılan gəlirə, ikinci isə, marketinq maliyyə analizi gəliri yaradan maliyyələrə baxar *(Çetinel, 2005: 148).*

Bu səbəbdən son illərdə investorların bir çoxu ənənəvi marketinqlə yanaşı, həm də rəqəmsal marketinqə də yatırım etməyə başlayıblar. Bunun da təbii ki, əsaslı səbəbləri var. İnsanların hər keçən il daha da rəqəmsal aləmə yaxınlaşması və rəqəmsal marketinqin insanların həyat tərzlərinə inanılmaz dərəcədə təsir etmə gücünə sahib olması bu səbəblərdən sadəcə ikisidir. Bütün bunların fonunda insanların xüsusilə axtarış zamanı birbaşa axtarış motorların daxil olması və həmin saytlardan istədiklərini axtarması investorların bir çoxunun diqqətini cəlb edə bilmişdir.

**Nəticə**

Rəqəmsal marketinqin bütün biznes sahələrində uğurlu olması bir çox hallarda rast gəlinən haldır. Bununla yanaşı düzgün edilməmiş bazar araşdırması, səhv aparılmış analizlər hər biri ayrı-ayrılıqda SEO-nun nəticələrinə yetəri qədər təsir edə bilər. Bunun üçün rəqəmsal sahədə SEO işlərinə başlamadan öncə müəssisənin olduğu bazar tam və dəqiq araşdırılmalıdır.

Hər keçən gün SEO-nun dəyəri gedərək yüksəlməkdədir. Müəyyən dərəcədə ənənəvi marketinqin bəzi növlərindən daha yaxşı nəticə verməsi isə təbii ki, biznes sahibləri üçün cəlbediciliyini daha da artırır. Ölkəmizdə son illərdə SEO sahəsinin tətbiq edilməsi daha da artmaqdadır. Və təxmin olunan odur ki, önümüzdəki bir neçə il ərzində rəqəmsal marketinqlə işləyən bizneslər daha da inkişaf edərək, qlobal biznes mühitinə daha rahatlıqla çıxacaqdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Curran K., "Tipsforachievinghighpositioning in theresultspages of themajorsearchengines", Inform. Technology. Journal, Volume 3, Issue 2, 202–205, 2004
2. Gupta, S., Miglani, S., &Sundriyal, V., "Search Engine OptimizationTechniques.", International Journal of EngineeringResearch&Technology (IJERT), Vol. 2 Issue 9, 65-74, 2013
3. Ledford, L. J., "Search Engine Optimization Bible", Wiley, Indianapolis, 2009
4. Malaga, R., "Worstpractices in search engine optimization." Communications of the ACM, Volume 51 Issue 12, 147-150, 2008
5. Olgu Şengül "2 Saatte A'dan Z'ye Dijital Pazarlama", 148, İstanbul, 2017
6. Məmmədli O., Xurşudov Ş., İsmayılov F., İbrahimova R., Turabova G., "Marketinq", 157, Bakı, 2016
7. Potts, K., "Web Design and Marketing Solutions for Business Websites", Apress, New York, 2007
8. Sedef Çetinel "Pazarlama Planı El Kitabı", 148, Ankara, 2005

# КР1533ИД14 MİKROSXEMİNİN ГАЛСЕН STENDİNDƏ VƏ PROTEUS PROQRAMI VASİTƏSİLƏ VİRTUAL TƏDQİQİ

***Sumqayıt Dövlət Universiteti***
***Mirzəyeva Ayşən Vahid qızı***
***Elmi rəhbər: F.Ş.Ağayeva***

***Xülasə***

Tezisdə КР1533ИД14 mikrosxeminin işləmə prinsipinin öyrənilməsi və sınaqdan keçirilməsi üçün ***ГалСен® ОЦТ1-Н-Р*** laboratoriya avadanlıqları dəstindən və miniblоklarından istifadə etməklə qurulan stendin təhlili aparılır. Deşifratorun iş prinsipi həm nəzəri, həm də praktiki olaraq ***ГалСен® ОЦТ1-Н-Р*** stendində analiz edilir. Eləcə də PROTEUS proqramı vasitəsilə virtual olaraq КР1533ИД14 mikrosxeminin iş prinsipi tədqiq edilir. Cədvəldə verilmiş nəticələrin düzgünlüyü yoxlanılır.
***Açar sözlər:*** *deşifrator,ikilik kod, işıq diodu, ön panel, vəziyyət cədvəli.*

***Summary***

In the thesis, for studying and testing the principle of operation of the KR1533ID14 microcircuit, an analysis of the stand built using the HalSen® ОЦТ1-Н-Р laboratory equipment set and miniblocks is carried out. The working principle of the decoder is analyzed both theoretically and practically on the HalSen® ОЦТ1-Н-Р stand. Also, the working principle of the KR1533ИД14 microcircuit is studied virtually through the PROTEUS program. The accuracy of the results given in the table is checked.
***Keywords:*** *decoder, binary code, LED, front panel, state table.*

## Giriş

***ГалСен® ОЦТ1-Н-Р*** laboratoriya avadanlıqları dəsti sadə dörddərəcəli rəqəm- analoq (RAÇ) və analoq- rəqəm çeviriciləri (ARÇ) sınaqdan keçirməyə, eləcə də təkvibratorların, multivibratların işini toplamağa və sınaqdan keçirməyə, standart TTL elementlərindən yığılmış ardıcıl və kombinasiyalı məntiqi sxemləri yığmağa və sınaqdan keçirməyə, ayrı-ayrı yarımkeçirici qurğular (rezistorlar, kondansatorlar, indikatorlar, diodlar, tranzistorlar və s.) və mikrosxemlərdən istifadə etməklə sınaqlar aparmağa və s. imkan verir *(Hüseynova A.S., Ağayeva F.Ş., Məmmədova R.C., Nağıyeva S.F., Rəsulov R.Z.* ***ГалСен ОЦТ-Н-Р*** *laboratoriya avadanlıqlarının tətbiqi ilə laboratoriya işləri.Metodik vəsait. Nprint studiya MMC, Bakı ş. 2020, 140 səh.).*

Sxem texnikası qurğularının modelləşdirilməsi və simulyasiyası üzrə müxtəlif tətbiqi proqramlar yaradılmışdır. Elektron qurğularının avtomatlaşdırılmış layihələndirməsi məqsədi ilə istifadə olunan belə proqramların bəziləri elektron qurğusunu struktur sxemi səviyyəsində, bəziləri isə prinsipial elektrik sxemi səviyyəsində sintez etmək üçündür. Belə proqramlardan biri *PROTEUS VSM* Labcenter Electronics firması tərəfindən *Berkeley* universitetində *SPICE3F5* bazası əsasında yaradılmışdır. *PROTEUS VSM* proqram paketinə həm sadə analoq qurğuları, həm də müasir mikrokontrollerlər əsasında yaradılmış mürəkkəb sistemlər daxildir. *PROTEUS VSM* proqramı iki sərbəst proqramdan ibarətdir: *ISIS və ARES. ISIS* əsas proqramdır və *ARES-lə* sıx əlaqələndirilmişdir. Proqramın *ISIS* hissəsində elektrik dövrələri yığılır, yoxlandıqdan sonra simulyasiya olunur *[Ağayeva F.Ş., Rəsulov R.Z. Rəqəmsal sistemlər fənnindən laboratoriya praktikumu. Metodik vəsait.- Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018.-107 s.].*

Bütün bunları nəzərə alaraq ***ГалСен® ОЦТ1-Н-Р*** laboratoriya avadanlıqları dəstindən istifadə etməklə və eləcə də ***PROTEUS VSM*** tətbiqi proqramı vasitəsilə **deşifratorun** işləmə prinsipini nəzərdən keçirək.

***Deşifrator*** - n-dərəcəli ikilik kodu idarəedici siqnalların kombinasiyasına çevirən qurğudur. Əgər deşifrasiya olunan ikilik kodun dərəcələrinin sayını n ilə işarə etsək, onda deşifratorun çıxışlarının sayı $2^n$ olar. Ona göə də n-dərəcəli ikilik kodun köməyi ilə $2^n$sayda kod kombinasiyası təsvir etmək mümkündür.

Deməli, ***Deşifrator*** – ikilik kodu mövqeli koda çevirən çeviricidir və girişdəki hər ikilik koda cihazın yalnız bir çıxışındakı çıxış siqnalı uyğundur;

Deşifratorun şərti işarəsi şəkil 1-də təsvir edilmişdir:




**Şəkil 1. Deşifratorun şərti işarəsi**

Deşifratorun aktiv çıxışlarının sayı A0 , A1 girişlərindəki ikilik ədədlə təyin edilir. E icazə girişində 0 siqnalı ilə seçilmiş çıxış, 0 vəziyyətinə keçir (məntiqi siqnalın aşağı səviyyəsi). Bütün digər çıxışlarda 1 (məntiqi siqnalın yüksək səviyyəsi) qeyd olunur. E icazə girişinin 1 halında deşifrator bloklanır: A0, A1 girişlərindəki siqnaldan asılı olmayaraq bütün çıxışlar 1 vəziyyətində qalır. Deşifrator kimi 1533ИД14 (74ALS139) mikrosxemindən istifadə edilir *(Основы цифровой техники: Руководство по выполнению базовых экспериментов – ОЦТ.001 РБЭ (920) / И.Л. Красногорцев; под ред. П.Н. Сенигова. – Челябинск: ООО «ИПЦ «Учебная техника», 2006-2018. – 97 с.).*

**ГалСен** laboratoriya avadanlıqlarından КР1533ИД14 deşifrator mikrosxemi və КР1533ЛА9 markalı məntiqi səviyyəni göstərən işıq diodlu indikatordan istifadə etməklə tədqiqat aparılır. Seçilmiş mikrosxemləri sınaqlar aparılan blokun ön panelində müvafiq yuvalara yerləşdirməklə sxem şəkil 2-dəki kimi yığılır və eyni zamanda **PROTEUS** proqramı vasitəsilə virtual tədqiq edilır (şəkil 3) *(Ağayeva F.Ş., Rəsulov R.Z. Rəqəmsal sistemlər fənnindən laboratoriya praktikumu. Metodik vəsait.- Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018.-107 s.).*

Həm **ГалСен** stendində, həm də **PROTEUS** proqramı vasitəsilə virtual tədqiqatın nəticələri deşifratorun vəziyyət cədvəli 1-də qeyd edilir *(4.5).*

**Cədvəl 1.**

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Giriş** | A0 | 0 | 1 | 0 | 1 | 0 | 1 | 0 | 1 |
| | A1 | 0 | 0 | 1 | 1 | 0 | 0 | 1 | 1 |
| | E | 0 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 1 |
| **Çıxışlar** | 0 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| | 1 | 1 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| | 2 | 1 | 1 | 0 | 1 | 1 | 1 | 1 | 1 |
| | 3 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 1 | 1 |




**Şəkil 2. Deşifratorun sınaqlar aparılan sahədə yğılmış xemı**





**Şəkil 3. PROTEUS proqramı vasitəsilə virtual tədqiqat sxemi**

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Ağayeva F.Ş., Rəsulov R.Z. Rəqəmsal sistemlər fənnindən laboratoriya praktikumu. Metodik vəsait.- Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018.-107 s.
2. Hüseynova A.S., Ağayeva F.Ş., Məmmədova R.C., Nağıyeva S.F., Rəsulov R.Z. ***ГалСен ОЦТ-Н-Р*** laboratoriya avadanlıqlarının tətbiqi ilə laboratoriya işləri.Metodik vəsait. Nprint studiya MMC, Bakı ş. 2020, 140 səh.
3. Основы цифровой техники: Руководство по выполнению базовых экспериментов – ОЦТ.001 РБЭ (920) / И.Л. Красногорцев; под ред. П.Н. Сенигова. – Челябинск: ООО «ИПЦ «Учебная техника», 2006-2018. – 97 с.
4. http://avr.ru/tools/proteus/guide/interface ( 30.09.2022 )
5. http://hamlab.net/mcu/training/proteus.html (30.09.2022)